Yadigarov Təbriz Abdulla oğlu



01iyun 1965- ci ildə Gürcüstan Respublikası, Qaraçöp mahalının Ləmbəli kəndində anadan olmuşdur. 1982-ci ildə Ləmbəli kənd orta məktəbini qızıl medalla, 1989-cu ildə isə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya Institutunun mühəndis-iqtisadiyyat fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1989-2013-cü illərdə SOCAR-ın struktur idarələrində və digər müəssisələrdə iqtisadiyyat və maliyyə sahələri üzrə müxtəlif vəzifələrdə, 2013-2016-cı illərdə isə Azərbaycan Dövlət Dəniz Akademiyasında müəllim işləmişdir. 2016-cı ildən AMEA İqtisadiyyat Institutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin böyük elmi işçisidir. ARDGKA-da "Gömrük statistikası və informasiya texnologiyaları" və "Ekonometrika" fənlərini tədris edir.

O, 16 mart 2018-ci ildə AMEA İqtisadiyyat İnstitutunun nəzdindəki Dissertasiya Şurasında "Sahə iqtisadiyyatı" və "Dünya iqtisadiyyatı" ixtisasları üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində dəniz nəqliyyatının səmərəliliyinin yüksəldilməsi" mövzusunda dissertasiya müdafiə etmişdir. İqtisad elmləri üzrə fəlsəfə doktorudur. Onun 2013-cü ildən 4-dərs vəsaiti, 3-monoqrafiyası və 59 elmi-metodiki işləri çap edilmişdir. Onlardan 16-ı xarici dövlətlərin elmi jurnallarında dərc olunmuşdur.

Ailəlidir. İki övladı var.

"Avropa"

TƏBRİZ YADİGAROV

GÖMRÜK STATİSTİKASI VƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARI

AMEA
İQTİSADİYYAT İNSTITUTU

TƏBRİZ YADİGAROV

GÖMRÜK STATİSTİKASI VƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARI



YADİGAROV TƏBRİZ ABDULLA OĞLU

GÖMRÜK STATİSTİKASI VƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARI

MONOQRAFİYA

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi Şurasının 30 yanvar 2020-ci il tarixli (01 saylı protokol) qərarı ilə çapa tövsiyyə olunmuşdur.

BAKI – 2020

UOT 339.543
KBT 65.051.542.8
Y-16

Elmi redaktorlar: **Akif Fərhad oğlu Musayev**
AMEA-nın müxbir üzvü, AMEA İqtisadiyyat İnstitutunun "İqtisadi tədqiqatların riyazi təminatı" şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor
Cəmilə Bayraməli qızı Namazovova
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının elmi işlər üzrə rəis muavini, iqtisad elmləri doktoru, professor

Rəyçilər: **Sakit Məmədi oğlu Yaqubov**
Azərbaycan Dövlət İqtisad Universitetinin Elm və innovasiyalar üzrə prorektoru,"Ekonometrika və statistika" kafedrasının profess, iqtisad elmləri doktoru
Arif Şəkərəli oğlu Şəkərəliyev
Azərbaycan Dövlət İqtisad Universitetinin "Ticarət və gömrük işinin təşkili"kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor
Kamran Nurəddin oğlu Abdullayev
AMEA İqtisadiyyat İnstitutunun"Xidmət sahələrinin inkişafı problemləri" şöbəsinin aparıcı elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru, dosent

T.A.YADİGAROV. "Gömrük statistikası və müasir informasiya texnologiyaları" (Monoqrafiya). Bakı, «Avropa» nəşriyyatı, 2020,-520 səh.

Kitabda gömrük statistikası və müasir informasiya texnologiyalarının cəmiyyətdə rolu, xarici ticarətin gömrük statistikasında məlumatların emalı üsulları, indekslər və onların növləri, dinamik sıralar, gömrük statistikasında ticarət sistemləri və təsnifat bazası, güzgülü statistika, xarici ticarətdə entropiya, informasiyanın miqdarı və faydalılığına əsasən Azərbaycan Respublikasının dünya ölkələri ilə assosiativ fəaliyyəti, göstəricilər arasındakı əlaqə sıxlığının proqram paketlərində qiymətləndirilməsi, gömrük işində müasir informasiya texnologiyaları, EViews proqram paketində gömrük üzrə daxilolmaların dövlət büdcəsinə təsirinin qiymətləndirilməsinə aid məsələlər şərh edilmişdir. Monoqrafiyada idxal-ixrac əməliyyatlarında vergilərin tətbiqi təhlil olunmaqla, onların təkmilləşdirilməsi isqamətləri izah edilmiş, xidmətlərin idxal və ixrac xüsusiyyətləri nəzərə alınmaqla onların rəsmiləşdirilməsi zaman yaranan problemlər aydınlaşdırılmış, gəlirlərin və ya mənfəətin repatriasiyası baxımından Azərbaycanın vergi sisteminin əlverişli investisiya mühitini yaratmasına xidmət etməsi göstərilmişdir. Həmçinin beynəlxalq ticarətdə və gömrük işində blokçeyn texnologiyasının tətbiqi və istifadəsinin perspektiv inkişaf istiqamətləri müəyyən edilmişdir.

Kitabın materiallarından ali məktəblərdə "Gömrük statistikası və informasiya texnologiyaları","Gömrük vergi və rüsumlarının beynəlxalq təcrübəsi "Gömrük işinin təhlili", "Ekonometrika" fənlərinin tədrisində, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyində,"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində", gömrük işi ilə bağlı elmi araşdırmaların aparılmasında, həmçinin tədqiqatçılar və geniş oxucu kütləsi istifadə edə bilər.

Y 4702060104-20 / 8032-2020

© T.A.Yadigarov, 2020

MÜNDƏRİCAT

ÖN SÖZ 11

I FƏSİL. GÖMRÜK STATİSTİKASININ CƏMİYYƏTDƏ ROLU VƏ YERİ 18
1.1. Ölkənin xarici iqtisadi əlaqələrinin idarə olunmasında gömrük statistikasının yeri və rolu 18
1. 2. İdxal və ixracın gömrük rəsmiləşdirilmə vaxtının fərqli olması 21
1.3. Gömrük statistikasının predmeti, obyekti, məqsədi və əsas məsələsi 24
1.4. Gömrük statistikasında ilkin məlumatın emalı üsulları 35
1.4.1 Statistik cəmləmə və qruplaşdırma üsulu 35
1.4.2. Gömrük statistikasında ilkin məlumatların qrafik üsulla emalı 37
1.5. Gömrük statistikasında balans üsulu 42

II FƏSİL. XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA İNDEKS METODU 45
2.1.Xarici ticarətin gömrük statistikasında indekslərin növləri 45
2.1.1.Fərdi indekslər 44
2.1.2. Ümumi indekslər 47
2.1.3. Əsas (bazis) və sislsiləvi (zəncirvari) indekslər.....49
2.1.4. Ticarətin şərtləri indeksi 51
2.1.5.Xarici ticarətin gömrük statistikasında ixrac və idxalın struktur indeksi 58
2.1.6. Kordinasiya indeksi 59
2.2.Xarici ticarətin gömrük statistikasında İntensivlik əmsalı. 60

III FƏSİL. XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA STATİSTİK KƏMİYYƏTLƏR VƏ ONLARIN XARAKTERİSTİKALARI 61
3.1. Xarici ticarətin gömrük statistikasında statistik kəmiyyətlər.....64
3.1.1. Mütləq kəmiyyətlər 64
3.1.2. Nisbi kəmiyyətlər. 65

3.1.3. Hesabi orta kəmiyyətlər 68
3.1.4. Çəkili hesabi orta kəmiyyətlər..... 69
3.2. Statistikada orta kvadratik kəmiyyətlərin xassələri 70
3.3. Statistikada həndəsi orta kəmiyyətlər..... 72
3.4. Statistikada harmonik orta kəmiyyətlər 73
3.5. Statistikada moda və median 75
3.5.1.Gömrük nəzarətinin təşkili və səmərəliliyi göstəricilərinin statistik uçotunun təhlilinin əsas istiqmətləri 77

IV FƏSİL. XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA AMİL ÜSULU VƏ AMİLLƏR ÜZRƏ STATİSTİK TƏHLİL.....79
4.1. Xarici ticarətin gömrük statistikasında amil üsulu 79
4.2. Xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili..... 80

V FƏSİL. GÖMRÜK STATİSTİKASINDA DİNAMİKA SIRALARI VƏ ONLARIN NÖVLƏRİ 88
5.1. Dinamika sıralaraı və onların növləri 88
5.1.1. Moment və fasilə sıraları 88
5.2. Dinamika sıralarının qurulması prinsipləri və təhlili göstəriciləri..... 89
5.2.1.Sıranın səviyəsi 91
5.3. Orta artım surəti. 91
5.4. Dinamika sıralarının analitik üsulla işlənməsi 93

VI FƏSİL. GÖMRÜK STATİSTİKASINDA GÖSTƏRİCİLƏR ARASINDAKI ƏLAQƏNIN QİYMƏTLƏNDİRİLMƏSİ. 96
6.1. Gömrük statistikasında göstəricilər arasındakı əlaqənin qiymətləndirilməsi metodları..... 96
6.1.1. Paralel sıralara gətirilmə metodu 99
6.1.2. Göstəricilər arasındakı əlaqələrin öyrənilməsinin balans metodu..... 99
6.1.3. Qarşılıqlı əlaqələrin tədqiqində analitik qruplaşdırma metodu. 101

6.1.5. Qarşılıqlı əlaqələrin tədqiqində çoxölçülü qruplaşdırma metodunun tətbiqi 102
6.1.6. Qarşılıqlı əlaqələrin təhlilində qrafik metodu 103
6.1.7. Empirik korrelyasiya nisbəti 104
6.1.8. İqtisadi göstəricilər arasındakı qarşılıqlı əlaqələrin reqressiya-korrelyasiya metodu ilə təhlili. 105
6.1.9. Göstəricilər arasındakı reqressiya tənliyinin (əlaqə modelinin) qurulması. 106
6.1.10. Elastiklik əmsalı 107
6.1.11. Fexner əmsalı. 107
6.1.12. Ranqların korrelyasiya əmsalı. 108
6.1.13. Konkordasiya əmsalı. 108
6.1.14. Assosiasiya və kontingensiya əmsalları 109
6.1.15. K.Pirsonun və A.A.Çuprovun qarşılıqlı qovuşma əmsalları 109
6.2. Nominal şkala.....111
6.2.1.Nominal şkalda verilmiş keyfiyyət əlamətlərinin qarşılıqlı əlaqəsinin tədqiqi.....111
6.3. Gömrük statistikasında əlaqə sıxlığının parametrik və qeyri-parametrik göstəricilərlə qiymətləndirilməsi 113

VII FƏSİL. GÖMRÜK STATİSTİKASINDA STATİSTİK MƏLUMATLARIN İŞLƏNMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ 117
7.1. Statistik məlumatların işlənməsində riyazi statistikanın baza konsepsiyaları.....117
7.2. Seçmə xarakteristikaların hesablanması.....119
7.2.1. Gömrük statistikasında seçməı xarakteristikaların hesablanmasına aid praktiki məsələlərin həlli 123

VIII FƏSİL. GÖMRÜK STATİSTİKASINDA GÖSTƏRİCİLƏR ARASINDAKI ƏLAQƏ SIXLIĞININ EKONOMETRIK QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI. 126
8.1. İqtisadi göstəricilər arasındakı əlaqənin MS Excel proqram paketinin tətbiqi ilə qiymətləndirilməsi 126

8.2. İqtisadi göstəricilər arasındakı əlaqə tənliyinin MS Exceldə qurulması və təhlili qaydası. 132
8.3. Xətti və qeyri-xətti çoxkorrelyasiyalı modellərin MS Exceldə qurulması və təhlili 138
8.4. Gömrük statistikasına əsasən Azərbaycanda idxala tələbə təsir edən amillərin xətti çoxkorrelyasiyalı modelinin MS Exceldə qurulması və təhlili. 140
8.5. EViews proqram paketinin tətbiqi ilə gömrük dxilolmalarının ekonometrik qiymətləndirilməsi 152
8.6. İlkin verilənlərin EViews proqram paketinə daxil edilməsi və onlrın təhlili .metodikası. 153
9. EViews ekonometrik proqram paketinin tətbiqi ilə reqressiya modelinin əmsallarının bərabərliyi hipotezininin yoxlanılması texnologiyası. 157
9.1.EViews ekonometrik proqram paketinin tətbiqi ilə heteroksedastikliliyin olmaması hipotezininin yoxlanılması texnologiyası 164
9.2. EViews ekonometrik proqram paketinin tətbiqi ilə gömrük üzrə ümumi büdcə daxilolmalarına təsir edən amillərin qiymətlən–dirilməsi 166
9.3. EViews proqram paketinin tətbiqi ilə gömrük daxilolmlarının büdcə gəlirlərinə təsirinin qiymətləndirilməsi 174
9.3.1. Gömrük üzrə ƏDV daxilolmalarının büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi 184
9.4. Gömrük rüsumlarının büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi 187
9.5. Xarici ticarət əməliyyatları üzrə büdcə daxilolmalarının makroiqtisadi göstəricilərə təsiri 195

IX FƏSİL. GÖMRÜK STATİSTİKASINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÜNYA ÖLKƏLƏRİ İLƏ ASSOSİATİV FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ 205
9.1. Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun

faydalılığının müəyyən edilməsi. 206
9.2. Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığının müəyyən edilməsi 210

X FƏSİL. GÖMRÜK STATİSTİKASINDA MÜŞAHİDƏ OBYEKTLƏRİNİN ƏHATƏ EDİLMƏSİNİN BEYNƏLXALQ ƏSASLARI 214
10.1. Malların beynəlxalq ticarət statistikasının əsas prinsipləri 214
10.2. Beynəlxalq ticarətin ətraflı statistikasına bəzi malların daxil edilməməsi.....221
10.3. Gömrük statistikasında ayrıca uçotun aparılması təklif olunan mallar..... 224

XI FƏSİL. GÖMRÜK STATİSTİKASINDA TİCARƏT SİSTEMLƏRİ. 225
10.1. Ticarət sistemində məlumatların yığılma metodikası və malların axın istiqamətləri 225
10.2. Ümumi ticarət sistemi.....226
10.3. Xüsusi ticarət sistemi.....227
10.3.1 Xüsusi ticarət sisteminin məhdudiyyətləri, problemləri və onların həlli yolları 228
11. Azərbaycan Respublikasının gömrük statistiksında ticarət sistemi 231
11.1. Azərbaycan Respublikasının ticarət sistemi. 231
11.2. Xarici ticarətin gömrük statistikasının əsas məsələləri və onun uçot meyarları. 240
11.3. Azərbaycan Respublikası xarici ticarətinin uçot sistemi. 241

11.4. Xarici ticarətin gömrük statistikasında nəzərə alınmayan mallar 242
11.5. Gömrük statistikasında xüsusi uçota alınan əməliyyatlar. 245
11.6. İdxal və ixrac olunan malların uçotunun miqdar və dəyərlə ifadə formasının aparılması qaydası 246
11.6.1. İdxal əməliyyatları üzrə malın statistik dəyəri 248
11.6.2. İxrac əməliyyatları üzrə malın statistik dəyəri..... 249

XII FƏSİL. GÖMRÜK STATİSTİKASININ TƏSNİFAT BAZASI 254
12.1. Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası 254
12.2. Gömrük statistikasında bəyanetmə zamanı istifadə olunan təsnifatlar 259
12.3. Malların təsnifolma prossesində istifadə olunan qaydalar..... 263

XIII FƏSİL. GÖMRÜK STATİSTİKASINDA MALLARIN STATİSTİK DƏYƏRİ BEYNƏLXALQ ƏSASLARI 305
13.1 İdxal və ixrac üzrə malların statistik dəyərinin hesablan–masının beynəlxalq əsasları 305

XIV FƏSİL. XARİCİ TİCARƏT ƏMƏLİYYATLARININ UÇOTUNDA "GÜZGÜLÜ STATİSTİKA"NIN ƏSAS MƏQSƏDİ 310
14.1. Güzgülü statistikanın əsas məqsədi 310
14.2. Güzgülü statistika problemlərinin araşdırılmasında müqavilə-ticarət şərtlərinin bazis-ticarət şərtlərinə uyğunluğunun təsiri. 311
14.3. Təyinat ölkəsində statistik dəyərin hesablanması qaydası..... 312
14.3. Göndərən ölkədə statistik dəyərin hesablanması qaydaları ... 312
14.4. Dövlətlərarası xarici iqtisadi əlaqələrin göstəriciləri arasında yaranan fərqə təsir edən amillər 315

XV FƏSİL. XARİCİ TİCARƏT ƏMƏLİYYATLARINDA MÜHASİBAT UÇOTU 317
15.1.Gömrük statistikasında idxal əməliyyatlarının uçota alınması 317
15.2.Gömrük əməliyyatalarında vergilərin tətbiqinin təhlili və onların təkmilləşdirilməsi istiqamətləri..... 318

15.3. Müxtəlif sahibkarlıq subyektlərinə idxal olunmuş malların mühasibat uçotunda əməliyyatlar üzrə müxabirləşməsi 337

XVI FƏSİL. GÖMRÜK STATİSTİKASINDA İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU 342
16.1. Azərbaycan Respublikasının gömrük işində informasiya sistemləri və texnologiyaları 342
16.2. Gömrük təşkilatlarında informasiya sisteminin inkişafının gömrük xidmətlərinin təkmilləşdirilməsində rolu 351
16.3. İnformasiya, informasiya texnologiyaları və informasiya sisteminin mahiyyəti 352
16.4. İnformsiya məhsulları və xidmətləri, onların təsnifatı və qiymətləndirilməsi qaydaları 361
16.5. İnformsiya texnologiyalar və onların gömrük statistikasında tətbiqi 375
16.6. Verilənlər sistemləri və onların iqtisadi məsələlərin həllində tətbiqi 389
16.7. Verilənlər bazsında idarəetmə sistemləri (VBİS) 397
16.7.1. Azərbaycanın ğömrük təşkilatlarında VAİS-in tətbiqi 408
16.8. İqtisadi informasiyanın işlənməsinin avtomatlaşdırılması texnologiyası 412
16.8.1. Avtomatlaşdırılmış iş yerləri (AİY).....412
16.9. Elektron hakimiyyət və idarəemə, onların keyfiyyət meyarları. Elektron dövlət və elektron hökumət 420
16.10. Elektron hakimiyyətin beynəlxalq təcrübəsi. Elektron hökumətin elektron xidmətlər göstərməsinin beynəlxlq standartları 434
16.11. Elektron hakimiyyət və elektron idarəetmənin təşkilinin qayda və prinsipləri 445
16.12. Azərbycanda elektron hakimiyyət və elektron idarəetmənin mövcud vəziyyəti və perspektivləri 450

XVII FƏSİL. BLOKÇEYN TEXNOLOGİYASI VƏ ONUN TƏTBİQ İSTİQAMƏTLƏRİ 457
17.1.Blokçeyn texnologiyasının mahiyyəti və tətbiq sahələri . 457
17.2. Elektron ticarətdə vergi daxilolmalarının tənzimlənməsi 465
17.3. Azərbaycan Respublikasının beynəlxalq maliyyə institutları və təşkilatlarla əməkdaşlığında gömrük-vergi siyasətinin prioritet istiqamətləri..... 468

Tdqiqat işində əldə edilmiş nəticə və təkliflər 483

Əlavələr 491

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI..... 513

Gömrük xidməti hər
bir dövlətin müstəqilliyinin
əsas atributlarından biridir.
H.Ə.Əliyev

Ön söz

Statistika qloballaşan dünya təsərrüfatı üzrə sosial-iqtisadi proseslərin idarə olunmasında, informasiyanın qəbulu, emalı və ötürülməsinin formalaşdırılmasında, dünya ölkələrinin inkişaf səviyyəsinin qiymətləndirilməsində mühüm rol oynayır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, ölkənin ictimai-iqtisadi həyatının bütün sahələrində baş vermiş əsaslı dəyişikliklər statistika sahəsində də ciddi islahatların aparılması zərurətini yaratmışdır. Yeni iqtisadi şəraitdə statistikanın rolunun dərk edilməsi, onun gələcək inkişafının ümumi məqsədləri, vəzifələri və istiqamətlərinin müəyyənləşdirilməsi aktual məsələlərdən birinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, statistika məlumatlarının beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün milli statistika sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və dünya statistika sisteminə inteqrasiyası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə başlanmış və sonrakı illərdə də ölkəmizdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına geniş şərait yaradaraq normativ-hüquqi bazasını möhkəmləndirmış, bu sahədə ardıcıl olaraq icra edilmiş dövlət proqramları hesabına milli statistik təsnifatların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin (MHS) qurulması, gömrük statistikası və yeni statistika sahələrinin müasir metodologiyalarının yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara tələbatının ödənilməsi, statistikanın bütün sahələrində, o cümlədən gömrük statistikasında informasiya texnologiyalarının tətbiqi, sahibkarların hesabat yükünün azaldılması və rəsmi statistik məlu-

matların qəbulu, emalı, təhlili və istifadəçiyə ötürülməsi prossesinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş müvafiq tədbirlər görülmüşdür. Bütün bu tədbirlərin hesabına Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (DSK) "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür [69].

Dünyada baş verən qlobal proseslərə uyğun olaraq ölkədə çevik qərarların qəbul edilməsi məqsədi ilə informasiya təminatının optimal təşkilinin zəruriliyi statistika sisteminin qarşısında daha mürəkkəb vəzifələr qoyur. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ndə qarşıya qoyulmuş məqsəd və hədəflərə çatma vəziyyətinin monitorinqi, müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə tələbat rəsmi statistikanın təkmilləşdirilməsini şərtləndirir. Təsadüfi deyildir ki, BMT-nin Dayanıqlı İnkişaf Sammitində üzv dövlətlər statistika potensialının gücləndirilməsini öhdəlik kimi qəbul etmişlər və milli statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbir Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır [82].

Qeyd etmək lazımdır ki, milli statistika sisteminin müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsini, ölkənin dayanıqlı inkişafı ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsini və bu məqsədlərə çatmaq üçün statistikanın bütün sahələrinin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsini təmin etmək məqsədi ilə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proq-

ramı" hazırlanmışdır [82].

Bu proqram çərçivəsində qarşıya qoyulan vəzifələrdən biri də daxili bazarda idxal mallarının yerli istehsal malları ilə əvəzlənməsi istiqamətində iqtisadi təhlillər aparılması üçün statistik məlumatların hazırlanmasıdır. Bu məlumatların hazırlanması müxtəlif sahibkarlıq subyektləri üzrə idxal və ixrac əməliyyatlarının aparılması zamanı gömrük təşkilatlarında xarici ticarət əməliyyatlarının gömrük statistikası və xüsusi gömrük statistikasının köməkliyi ilə həyata keçirilir.

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və dünya iqtisadi əlaqələri, dünya mühitinin yaxınlaşmasını stimullaşdırmaqla, iqtisadi əlaqələrin müxtəlif ölkələr arasında genişlənməsinə şərait yaradır. Beynəlxalq əlaqələrin 80%-ni beynəlxalq ticarət təşkil edir [27]. Beynəlxalq iqtisadi münasibətlərin sürətlə inkişaf etməsi ölkə sərhəddini keçən mal axınlarının təsvir edilməsinin tam dəqiqliyini tələb edir. Dünya ölkələrinin iqtisadi inteqrasiyasına baxmayaraq, dünya təcrübəsi göstərir ki, inkişaf edən və keçid iqtisadiyyatlı ölkələrin xarici iqtisadi əlaqələrində dövlət gömrük tənzimlənməsi prosesi əsas yer tutur.

Xarici ticarətin əsas göstəricisi olan malların idxal və ixracından ibarət olan mal axınlarına müxtəlif amillər təsir edir. Bu amillər arasındakı asılılıqların aşkar və təhlil edilməsi xarici ticarətin gömrük statistikasının əsas məqsədlərindən biridir. Adətən hadisə və proseslər çox sayda sabit və təsadüfi amillərin bir-biri ilə bağlılığı və qeyri-müəyyən gələcək inkişafı ilə seçilir. İdxal və ya ixrac olunan malların hər biri müxtəlif xüsusiyyətlərlə təsvir oluna bilər. Malların statistik məcmuya daxil edilməsi onların xarici ticarətdə iştirakına əsas verməklə bərabər, statistik məcmuya daxil olan müxtəlif obyektlər bir-birindən fərqlənir. Bu məqsədlə statistik məcmuda olan meyillərin aşkar edilməsi və müxtəlif vahidlərin ümumi statistik məcmuya təsirinin təhlili və qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir. Malın mənşə ölkəsindən, ticarət (göndəriş) şərtlərindən, malın daşınma marşrutundan, riskli hadisələrdən, göndərən və təyinat ölkələrinin tarif siyasətindən, təyinat ölkəsində

mövcud olan rəqabətdən, rəsmiləşdirmə qaydalarından və başqa amillərdən asılı olaraq idxal mallarının qiyməti əsas statistik məcmuya təsiri, həmin amillər arasındakı qarşılıqlı əlaqənin təhlili və qiymətləndirilməsi məhz gömrük statistikası və informasiya texnologiyalarının əsas məqsədlərindən biridir. Buna görə də xarici ticarət əməliyyatlarının statistik uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, xarici ticarət statistikasında gömrük əməliyyatlarının səmərəliliyinin artırılması istiqamətində mövcud problemlərin aşkar edilməsi və onların aradan qaldırılmasında gömrük statistikasının və informasiya texnologiyalarının nəzəri və praktiki əsaslarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Geniş tarixi inkişaf dövrlərini keçən "Gömrük statistikası və informasiya texnologiyaları" elmi müasir dövrdə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Gömrük statistikası və informasiya texnologiyaları inkişaf etmiş ölkələrin universitetlərində geniş tədris edilir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin dövlət idarəetmə orqanlarında gömrük statistikasının təşkili və gömrük təşkilatlarının idarəedilməsində gömrük əməliyyatlarının səmərəliliyinin yüksəldilməsində informasiya texnologiyalarının, xüsusən də blokçeyn texnologiyalarının imkanlarından geniş istifadə edilir.

Hal-hazırda gömrük statistikası üzrə müvafiq ədəbiyyatların olmasına baxmayaraq, gömrük statistikası və informasiya texnologiyalarına aid azərbaycan dilində elmi ədəbiyyartlar demək olar ki, yoxdur. Gömrük statistikası üzrə xarici ticarətin gömrük statistikasına aid ədəbiyyatlarda gömrük statistikasının predmeti, uçot sitemləri və hüquqi əsasları, xarici ticarət üzrə əsas göstəricilər, gömrük statistikasına aid normativ sənədlər, malların təsnifatı ilə bağlı qaydalar, statistik yoxlama üsulları, xarici iqtisadi əlaqələrin təhlili və güzgülü statistikanın metodologiyası verilsə də, gömrük statistikasında ticarət şərtləri indeksləri, xarici ticarətin gömrük statistikasında ixrac və idxalın struktur indeksi, statistik kəmiyyətlər və onların xarakteristikaları, ixrac və idxalın struktur indeksi, xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili, gömrük statistikasında dinamika sıra-

ları, gömrük statistikasında göstəricilər arasındakı əlaqə sıxlığının tətbiqi proqram paketlərində qiymətləndirilməsi metodları, Azərbaycan Respublikasının idxal və ixracında əsas tərəfdaşlarının xüsusi çəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığının müəyyən edilməsi, müxtəlif sahibkarlıq subyektinə idxal olunmuş malın mühasibat uçotunda əməliyyatlar üzrə müxabirləşməsinin statistik uçotu, gömrük statistikasında informasiya sistemləri və texnologiyaları, beynəlxalq ticarətdə və gömrük işində blokçeyn texnologiyasının rolu üzrə nəzəri və praktiki məsələlər öz əksini tapmamışdir. Ona görə də, bu kitab müasir dövrün tələbindən irəli gələrək aktual əhəmiyyət kəsb etməklə, xarici ticarətin gömrük statistikası və informasiya texnologiyasının nəzəri və praktiki əsaslarının öyrənilməsində və iqtisadi tədqiqatların aparılmasında tələbələrə, müəllimlərə və tədqiqatçılara yardımçı olacaqdır.

17 fəsildən ibarət olan bu monoqrafiyanın məqsədi, gömrük statistikası və informasiya texnologiyalarının ümumi nəzəriyyəsinin metod və üsullarına əsasən xarici ticarətin gömrük statistikası və xüsusi gömrük statistikasına dair mühüm normativ-hüquqi sənədlər, istifadə olunan təsnifatlar, malların təsnifi ilə bağlı qaydalar, optimal statistik təhlil üsulları və informasiya texnologiyasının rolu haqqında nəzəri biliklər əldə etməklə bərabər praktiki məsələlərin həllində tədqiqatçılara yardımçı olmasıdır.

Monoqrafiyada gömrük statistikası və informasiya texnologiyalarının predmeti, obyekti, məqsədi, cəmiyyətdə rolu və yeri, xarici ticarətin gömrük statistikasında ilkin məlumatların emalı üsulları, statistik cəmləmə və qruplaşdırma, xarici ticarətin gömrük statistikasında indeks metodu, struktur indeksi, xarici ticarətin gömrük statistikasında amil üsulu və statistik kəmiyyətlər, dinamika sıraları və onların növləri, gömrük statistikasında ticarət sistemləri və təsnifat bazası, Azərbaycan Respublikasında xarici ticarətin gömrük statistikası metodologiyasının tətbiqi ilə statistik dəyərin hesablanması, güzgülü statistikanın əsas məqsədi, müqavilə-ticarət şərtləri ilə bazis ticarət şərtlərinin eyniliyi və fərqliliyi, gömrük statistikasında entropiya, informasiyanın miqdarı və faydalılığı, gömrük statis-

tikasında göstəricilər arasındakı əlaqə sıxlığının qiymətləndirilməsi metodları, MS Excel və EViews proqram paketlrinin tətbiqi ilə gömrük statistikasında xarici ticarət əməliyyatlarının təhlili, informasiya və avtomatlaşdırılmış informasiya sistemləri, onların sinifləri və elektron sənəd dövriyyəsi zamanı informasiya texnologiyalarının iş prinsipi, çoxfunksional hesablama kompleksləri və hesablama kompüter şəbəkələri, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin avtomatlaşdırılmış informasiya sistemi, gömrük statistikasında informasiya texnologiyalarının, o cümlədən blokçeyn texnologiyasının tətbiqinin üstün və çatışmayan cəhətləri və EViews proqram paketində gömrük üzrə daxilolmaların dövlət büdcəsinə təsirinin statistik təhlili və qiymətləndirilməsinə aid məsələlərin nəzəri və praktiki əsasları şərh edilmişdir.

Monoqrafiyada Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatlarında vergilərin tətbiqinin təhlil olunması nəticəsində onların təkmilləşdirilməsi isqamətlərinin şərh edilməsində, əsasən ixrac- idxal əməliyyatlarında vergitutma obyektinin, daha doğrusu gömrük dəyərinin müəyyən olunması ilə vergilərin hesablanması və ödənilməsi əsas istiqamət kimi müəyyən edilmişdir. Bununla yanaşı xidmətlərin idxal və ixrac xüsusiyyətləri nəzərə alınaraq onların rəsmiləşdirilməsi yollarının tədqiq olunması zamanı meydana çıxa bilən bir sıra məqamlar geniş şəkildə aydınlaşdırılmışdır. Xarici ticarət əməliyyatları üzrə statistik məlumatların təhlili üzrə aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, gəlirlərin və ya mənfəətin repatriasiyası baxımından Azərbaycan Respublikasının vergi sistemi əlverişli investisiya mühitini yaratmasına xidmət edəcəkdir.

Kitab azərbaycan və xarici ölkə alimlərinin elmi əsərlərinə, geniş fundamental mənbələrə və müxtəlif dillərdə nəşr edilmiş ədəbiyyatlara əsaslanaraq işlənilmişdir. Tədiqat işində nəzəri məsələlərlə bərabər gömrük statistikasında mövcud problemlər fərqləndirilmiş və onun həll yollarını götərmişdir. Bu nöqteyi-nəzərdən kitab tədqiqatçılar, ali məktəb müəllimləri, tələbələri, Azərbaycan Res-

publikası Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün nəzəri və praktiki əhəmiyyət daşıyır.

Monoqrafiyanın materiallarından ali məktəblərdə "Gömrük statistikası və informasiya texnologiyaları", "Gömrük vergi və rüsumlarının beynəlxalq təcrübəsi", "İqtisadi təhlil və audit", "Gömrük işinin təşkili", "Ekonometrika" fənlərinin tədrisində, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyində, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində", respublikada hazırlanan məqsədli proqramlarda, gömrük əməliyyatlarının səmərəliliyi ilə bağlı elmi araşdırmaların aparılmasında, həmçinin tədqiqatçılar və geniş oxucu kütləsi istifadə edə bilər. Kitaba müəllifin xarici jurnallarda dərc olunmuş bəzi məqalələri üzrə məlumatlar da daxil edilmişdir.

Oxucular öz təklif və iradlarını ceyranchol@rambler.ru ünvana göndərə bilərlər.

Müəlliflə əlaqə nömrələri: (+99) 450 411 11 51,
(+99) 450 241 04 65

I FƏSİL

GÖMRÜK STATİSTİKASININ CƏMİYYƏTDƏ ROLU VƏ YERİ

1.1. Ölkənin xarici iqtisadi əlaqələrinin idarə olunmasında gömrük statistikasının rolu

Statistika təkmilləşdirilmiş bir elmn sahəsidir. Dünyada heç bir dövlət və təsərrüfat işini statistikasız təsəvvür etmək olmaz.

”Statistika“ termini ilk dəfə elmə 1746-cı ildə alman alimi Qotfrid Axenval tərəfindən gətirilmişdir. ”Statistika “ latınca status sözündən götürülüb, hadisənin vəziyyəti deməkdir [22]. Statistika dedikdə, hər şeydən əvvəl, ictimai həyatın müxtəlif tərəflərini-istehsalı, bölgünü, məhsul tədavülünü, əhalinun maddi və mənəvi səviyyəsini və s. kəmiyyətcə xarakterizə edən göstəriciləri başa düşülür. Digər bir tərəfdən müvafiq məluatların toplanması vəsistemləşdirilməsi üzrəgörülən işlər dəstatistikata aiddir. Bu elm kütləvi ictimai hadisələrin kəmiyyət tərəfini keyfiyyət tərəfindən ayırmadan öyrənən bir elmdir. Statistika müstəqil ictimai bir elmdir, çünki onun tədqiqat obyekti ictimai həyatda baş verən hadisə və prosesslərdən ibarətdir. Bu elm ictimai hadisələrin kəmiyyət tərəflərini konkret məkan və zaman daxilində öyrənir.İctimai hadisələr, məsələn, ölkə üzrə idxal və ixrac məhsulları, nəqliyyat məhsulu, milli gəlir, investisiya, əsas fondlar və bir çoxictimai hadisələr konkret məkan və zaman daxilində müəyyən həcmə, səviyyəyə, miqdar nisbətlərinə, inkiişaf surətlərinə malikdir.

Statistika adətən kütləvi içtimai hadisələri öyrənir. Bu kütləvi hadisələr, bir qayda olaraq ayrı-ayrı elementlərdən, ayrı-ayrı vahidlərdən ibarətdir.Bu ayrı-ayrı vahidlərin hamısına birlikdə statistika məcmuyu deyilir. Statistika iqtisadiyyatın bütün sahələri üzrə (mikroiqtisadiyyat, mezoiqtisadiyyat, makroiqtisadiyyat, meqoiqtisadiyyat) bütün göstəricilər üzrə məlumat toplayır. Həmin hadisələrin ayrı-ayrı vahidləri deyil, onları cəmi, yəni statistika məcmuyu

statistikanın predmetini təşkil edir.

Məlumdur ki, ictimai hadisələrin kəmiyyət və keyfiyyət tərəfləri bir-biri ilə sıx surətdə əlaqədardır. İctimai hadisələrin kəmiyyət tərəfini öyrənməklə, biz onların keyfiyyət tərəfini də dərk etməli oluruq. Bütütn bunlar müəyyən qanunauyğunluqlarla baş verir. İctimai hadisələrə xas olan və onların haqqında mövcüd məlumat əsasında aşkar edilən qanunauyğunluqlar statistika qanunauyöunluqları adlanır. Statistika qanunauyğunluqlarına misal olaraq əmək məhsuldarlığının daim artma meylinin əhalinin real gəlirlərinin durmadan artma meylini, ölkənin ixrac məhsullarının artım tempinin idxal məhsullarının artım tempini üstələməsi hesabına müsbət ticarət saldosunun artma meylini və s. göstərmək olar.Bu, qanunauyğunluqlar ayrı-ayrı məlumatları deyil, kütləvi məlimatları ümumiləşdirməklə müəyyən edilir.

Statistika ictimai hadisələrin kəmiyyət və keyfiyyət tərəflərini konkret məkan və zaman daxilində göstəricilər vasitəsi ilə əks etdirir. İctimai hadisə əlamətlərinin həcmini və miqdar nisbətlərini əks etdirən kateqoriyaya statistika göstəriciləri deyilir. Bu göstəricilərə misal olaraq, ümumidaxili məhsulu, milli gəliri, yük dövrüyyəsini, idxal və ixracın həcmini, investisiyaları, əsas fondları və s. göstərmək olar. Statistika göstəriciləri ilə proqnoz (plan) göstəriciləri arasında uyğunluq vardır. Proqnoz (plan) göstəriciləri gələcək üçün tapşırıqları, statistika göstəriciləri isə mövcud həqiqi vəziyyəti xarakterizə edir və bu göstəricilər proqnoz göstəriciləri ilə müqayisədə daha genişdir.Ona görə də statistika proqnoz (plan) göstəricilərinin yerinə yetirilməsi vəziyyətini göstərməklə bərabər, ictimai həyatda baş verən bir çox məsələləri də əhatə etməli və öyrənməlidir.

İctimai hadisələrin kəmiyyət tərəfini öyrənmək mürəkkəb prosses olub, aşağıdakı ardıcıl tədqiqat mərhəllələrindən ibarətdir:

-statistik müşahidə;

-statistik məlumatların yekunlaşdırılması və qruplaşdırılması;

- statistik məlumatların təhlili.

Statistika tədqiqatının mərhəllələri ayrılmaz surətdə bağlı olub bir-birilərini tamamlayırlar. İnformasiya texnologilaları statistik mə-

lumatlarının işlənməsini sürətləndirir, keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir və müvafiq təşkilatları vaxtlı vaxtında lazımi məlumatlarla təmin etməyə imkan verir.

Statistikanın inkişafı prossesində onun tərkib hissələrini təşkil edən bir neçə bölmələri yaranmış və inkişaf etmişdir. Həmin bölmələrə aşagıdakılardır:

-statistikanın ümumi nəzəriyyəsi;

-iqtisadi statistika və sahələr statistikası.

Statistikanın ümumi nəzəriyyəsi və iqtisadi statistikanın işləyib hazırladığı kateqoriyalar, elmi metodlar, hmçinin göstəricilər sistemi sahələr statistikası üçün elmi əsas təşkil edir. Sahələr statistikası bu qayda və prinsiplərə əsaslanaraq, ayrı-ayrı sahələrin spesifik xüsusiyyətlərinə uyğun olan göstəricilərin mahiyyətini aydınlaşdırır və bu göstəricilərin hesablama metodlarını işləyib hazırlayır. Sahələr statistikasında statistikasının ən mühüm bölmələrindən biri də öz spesifik xüsusiyyətləri ilə fərqlənən xarici iqtisadi əlaqələrin statistikasıdır.

Cəmiyyətin sosial-iqtisadi səviyyəsini əks etdirən statistika "iqtisadi statistika" adlanaraq statistika elminin prinsiplərinə və üsullarına əsaslanır. İqtisadi statistikada iqtisadiyyatın vəziyyətini və inkişafını təsvir edən iqtisadi göstəricilər sistemi tərtib edilir, onların qeydiyyatı və ya hesablanması qaydaları müəyyənləşdirlir və müvafiq qaydada müşahidə metodikası yaradılır.

İqtisadi statistika iqtisadiyyatın aşağa göstərilmiş bir sıra sahələrindən ibarətdir:

- demoqrafiya statistikası;
- əmək statistikası;
- innovasiya və investisiya statistikası;
- aqrosənaye kompleksinin statistikası;
- iş fəaliyyətinin, sahibkarlığın və istehsalın statistikası;
- mal dövriyyəsinin statistikası;
-əhalinin sosial vəziyyəti, istehlak və gəlirlərin statistikası;
- qiymətlərin statistikası;
- kredit, pul dövriyyəsi və maliyyə statistikası;

- xarici ticarətin statistikası.

Qeyd etmək lazımdır ki, xarici ticarətin statistikası, statistika sisteminin tərkib hissəsi olaraq iqtisadiyyatın bəzi sahələri üçün informasiya mənbəyi kimi çixiş edir. Gömrük statistikasının ümumiləşdirilmiş göstəricilərindən respublikanın, əsasən tədiyə balansının və milli hesablar sisteminin tərtibi zamanı geniş istifadə olunur. Gömrük statistikası xarici ticarət sahəsində idarəetmə qərarlarının qəbul edilməsində ən mühüm informasiya mənbəyidir.

Gömrük statistikasından istifadə etməklə aşağıdakı imkanlara nail olmaq olar:

1. Ölkənin idxal tələbatının və ixrac imkanının inkişaf müddəti üçün kifayət qədər etibarlı qiymətləndirmənin aparılmasına;
2. İxrac və idxal əməliyyatları üzrə xarici iqtisadi əlaqələrdə iştirak edənlər üçün bazarların mövcud rəqabət qabiliyyətindən istifadə dərəcəsinin müəyyən edilməsinə;
3. Respublikada "antidempinq siyasəti"ni həyata keçirmək məqsədilə ixrac və idxal malları üzrə beynəlxalq qiymətlərin məlumat bazalarının yaradılmasına;
4. Ölkənin ixrac potensialının güclənməsinə və idxal mallarını əvəz edən istehsalın yaradılmasına yönəldilmiş idarəetmə qərarlarının informasiya təminatına
5. İxracda və idxalda valyuta nəzarətinin informasiya təminatının təşkilinə;
6. Nəhayət, respublikanın icra orqanları tərəfindən ''Xarici ticarətin gömrük statistikası" bülletenindən müxtəlif sahələr üçün geniş istifadə olunur

1. 2. İdxal və ixracın gömrük rəsmiləşdirilmə vaxtının fərqli olması

Ölkələrarası xarici ticarət əlaqələrinin iqtisadi göstəriciləri müqayisəsi zamanı müəyyən kənarlaşmalar yaranır. Bu kənarlaşmalara səbəb olan bir çox amilləri nəzərə almaq lazımdır: Qeyd et-

mək lazımdır ki, bu məsələ üzrə geniş elmi-tədqiqat işləri aparılsa da, vahid beynəlxalq tövsiyələr bu vaxta qədər hazırlanmadığında, beynəlxalq praktikada xarici ticarət əlaqələrinin iqtisadi göstəricilərinin müqayisəsi zamanı müəyyən kənarlaşmalar hələik aktual bir problem kimi qalır. Burada malın mənşə ölkəsi, malın təyinat ölkəsi mühüm əhəmiyyəti kısb edir. Xarici ticarət statistikasının metodologiyasına uyğun olaraq idxal-malın mənşə ölkəsi üzrə, ixrac isə malın təyinat ölkəsi üzrə hesablanır. Xarici ticarət əlaqələrinin müqayisəli təhlili göstərir ki, dünyanın əksər ölkələrində belə fərqlər mövcuddur. BMT-nin İqtisadi və Sosial şurasının sənədlərinə əsasən MDB ölkələrinin əksəriyyəti ilə xarici ölkələrlə xarici ticarət statistikasının göstəriciləri arasında fərqlər 40 %-dən yüksəkdir. Xarici icarət əlaqələrində Almaniya ilə 1,5-3 milyard ABŞ dolları, Polşa ilə 2-3 milyard ABŞ dolları, Niderlandla 0,5 -3 milyard ABŞ dolları, İtaliya ilə 0,3 -2 milyard ABŞ dolları fərq yaranmışdır. ABŞ və Çin dövlətləri arasında mallar üzrə ticarət əlaqələri, ikitərəfli ticarət statistikasına əsasən yaranmış fərqlərlə bağlı hesabata əsasən, 2000-ci ildə Çinin ixracı ilə ABŞ-ın idxalı arasında 48 milyard ABŞ dolları, 2004-cü ildə 72 milyard ABŞ dolları, 2006-cı ildə 84 milyard ABŞ dolları məbləğində fərq yaranmışdır [80]. BMT-nin rəsmi internet saytındakı məlumatların müqayisəsi göstərir ki, bu fərqlər üzrə artım tendensiyası davam edərək, 2013-cü ildə həmin fərq 91 milyard AŞBŞ dolarına çatmıdır [80]. Həmin məlumatına görə 2013-cü ildə Rusiya Niderlandla 76 milyard ABŞ dollar mbləğndədə mal ixrac etdiyi halda Niderlanda Rusiyadan idxal olunan malların həcminin dəyəri 26 milyard ABŞ dollar təşkil etmişdir ki, bu da Rusyanın Niderlandla ixracının 2,9 dəfə və yaxud 50 milyard ABŞ dolları məbləğində az olması deməkdir. Dünyada baş verən sürətli qloballaşma və Avropa ölkələri arasında gömrük sərhədlərinin olmaması "Rotterdam effekti"ni yəni, bir ölkənin ixrac etdiyi malların digər ölkənin ixracına aid edilməsini kəskin şəkildə artırmışdır. Yuxarıda qeyd olunanlara baxmayaraq Dövlət Gömrük Komitəsi bir ölkənin ixracı və idxalı onunla xarici iqtisadi əlaqələrdə olan başqa bir ölkənin idxal və ixracına bərabər olmadığı halda, onun nəticələ-

rini hər ilin sonunda dəqiqləşdirərək müəyyən edir və müvafiq ölkələr ilə birlikdə fərqlərin yaranma səbəblərini birlikdə işçi qrupu səviyyəsində müzakirə edir və araşdırır.

Qeyd etmək lazımdır ki, Azərbaycan xarici ticarətinin gömrük statistikası BMT və Avropa İttifaqının Statistika Xidmətinin metodoloji göstərişləri əsasında beynəlxalq standartlara uyğun olaraq aparılır. Dövlətlərarası xarici-iqtisadi əlaqələrin göstəricilərinin fərqi əsasən aşağıda qeyd olunan amillərdən asılıdır:

1. Tərəfdaş ölkənin təyin olunması prinsipləri. Xarici ticarətin gömrük statistikasında idxal-malın mənşə ölkəsi, ixrac- təyinat ölkəsi üzrə aparılır.

2. Statistik dəyərin təyin edilməsi. Məlumdur ki, alqı-satqı müqavilələrində alıcı və satıcının öz üzərilərinə götürdükləri öhdəliklərdən asılı olaraq malın bir ölkədən digərinə göndərilməsi üzrə xarici ticarət müqaviləsi 11 göndərmə kommersiya şərti əsasında bağlanır. Xarici ticarətin gömrük statistikasında idxal olunan malın statistik dəyəri CİF (malın dəyəri, sığorta və daşınma xərcləri) , ixrac olunan malın statistik dəyəri FOB (bortdan azad) ticarət şərtləri əsasında müəyyən edilir.

3. Məxfi daşınan malların statistikasının aparılmasının müxtəlifliyi. Təhlillər göstərir ki, hərbi və digər konfidensial təyinatlı malların idxalı və ixracına dair məlumatların statistikası spesifik xarakterlidir.

4. Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların ölkəyə idxalı zamanı yaranan fərqlər. Bəzi ölkələrdə kommersiya məqsədləri üçün nəzədə tutulmayan malların fiziki şəxslər tərəfindən ixracı statistikaya daxil edilir və bu da xarici ticarət statistikasında fərqlərin yaranmasına səbəb olur.

5. İdxal və ixracın gömrük rəsmiləşdirilmə vaxtının fərqli olması. Mal bir ölkədən digər ölkəyə göndərildikdə göndərən ölkədə ixracın rəsmiləşdirmə tarixi qəbul edən ölkədə idxalın rəsmiləşdirmə tarixindən fərqli olur. Göndərən ölkədə ilin sonunda rəsmiləşən yüklər təyinat ölkəsində gələn ilin əvvəlində rəsmiləşir.

6. Tərəfdaş ölkələrlə aparılan idxal-ixrac əməliyyatları zamanı malların gömrük dəyərinin hesablanmasında bir-birindən fərqlənən üsulların və müxtəlif metodologiyaların tətbiqi. Məlumdur ki, iki dövlətdə müxtəlif gömrük statistikasının metodologiyası və ya gömrük dəyərinin hesablanma üsulları istifadə edildiyindən bir ölkənin ixracı başqa ölkənin idxalına bərabər olmur. Məsələn, bəzi malların ölkəyə idxalı zamanı malın invoys dəyərinin bazar qiymətlərindən kəskin fərqlənməsi (invoys qiymətinin yanlış göstərilməsi) iki ölkə arasında statistik fərqlərin yaranmasına səbəb olur.

7. Malın statistik dəyərlərinin müxtəlif valyuta məzənnələri ilə hesablanması. Malın statistik dəyərlərinin müxtəlif valyuta məzənnələri ilə hesablanması. Malların idxalı və ixracı zamanı göndərən və təyinat ölkələrində valyuta məzənnəsi eyni olmadığından iki ölkənin statistik göstəriciləri arasında fərqlər yaranır. Beleliklə, mal göndərən ölkədə malın statistik dəyəri bir məzənnə əsasında hesablandığı halda, təyinat ölkəsində başqa məzənnə əsasında hesablanır.

8. Malların gömrük rejimlərinin fərqli göstərilməsi. Müvəqqəti idxal rejimində rəsmiləşdirilmiş mallar Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikasına daxil edilmir.

1.3. Gömrük statistikasının predmeti, obyekti, məqsədi və əsas məsələsi

Gömrük statistikası-xarici iqtisadi əlaqələr statistikasının əsas tərkib hissəsi olub, xarici ticarətdə, həmçinin xüsusi sahələrdə gömrük təşkilatlarının fəaliyyətinin təhlilini nəzərə alaraq baş verən hadisə və prosseslərin yaranmasının keyfiyyət və kəmiyyət tərəfini öyrənir.

Gömrük statistikası tətbiqi elm sahəsi olmaqla, statistikanın ümumi nəzəriyyəsinin metod və üsullarından istifadə etməklə, gömrük təşkilatlarının fəaliyyətinin xüsusiyyətlərini ifadə edir.

Gömrük statistikasının obyektinin öyrənilməsi əsasən iki hissə-

dən iibarətdir:

- 1-ci hissə. Azərbaycan Respublikasının xarici ticarəti;
- 2-ci hissə. Xüsusi gömrük statistikasına aid edilən Azərbaycan Respublikasının gömrük təşkilatlarının fəaliyyəti.

Gömrük statistikası əsasən xarici ticarətin gömrük statistikası və xüsusi gömrük statistikasını özündə birləşdirir. Xarici ticarətin gömrük statistikası aşağıdakı ementlərdən ibarətdir:

1. statistik kəmiyyət və onların müşahidəsi.
2. Göstəricilər və əlamətlər sistemi.
3. Bölgü sıraları.
4. Sıraların dinamikası.
5. Göstəricilərin qarşılıqlı əlaqəsi.
6. İndeks metodu.
7. Əmtəələrin dəyər uçotunun xüsusiyyətləri.

Xüsusi gömrük statistikasınının əsas elementləri aşağdakıardan ibarətdir:

1. Bəyannamələrin statistikası.
2. Gömrük ödənişlərinin statistikası.
3. Valtuta nəzarəti statistikası.
4. Gömrük qanunvericiliyinin pozulması statistikası.
5. Fiziki şəxsərin və nəqliyyat vasitəərinin dəyişməsi statistikası.
6. Xüsusi gömrük statistikasının digər növləri.

Gömrük statistikasının elmi istiqaməti onun predmeti, obyekti, məqsədi, tədqiqatın məsələsi və metodları ilə xarakterizə edilir.

Gömrük statistikasının predmeti iqtisadiyyatın ayrı-ayrı sahələrinin iqtisadi göstəricilərinin statistik məcmuyudur.

Gömrük statistikasının obyektiinin öyrənilməsi Azərbaycan Respublikasının xarici ticarəti və gömrük təşkilatlarının fəaliyyətidir.

Gömrük statistikasının məqsədi- ARDGK-nin rəhbərliyini, qanunverici və icraedici dövlət hakimiyyətini AR-nın xarici ticarətinin vəziyyəti və inkişafı ilə tanış etməkdir.

Gömrük statistikas xarici əlaqələr statistikasının əsasını təşkil etdiyindən gömrük statistikasının xarici ticarətdə əsas məsələsi

mühüm əhəmiyyət kəsb edir. Gömrük statistikasının xarici ticarətdə əsas məsələləri aşağıdakılardan ibarətdir:

-xarici iqtisadi fəaliyyətin inkişafının təmin edilməsi, xarici ticarət əlaqələrini genişləndirilməsi, AR-nın xarici ticarət siyasətininin işlənib hazırlanması;

- xarici ticarətin ölçüsü, dinamikası, meyilləri və strukturu;
- AR-nın idxalvə ixrac əməliyyatlarının uçotunun tam və dəqiq aparılmasının təmin edilməsi;
- AR-nın xarici ticarətinin və gömrük siyasətinin normal tənzimlənməsi məqsədi ilə gömrük statistikası məlumatları ilə AR-nın müvafiq qrumlarını məlumatlandırmasını təmin etmək;
- AR qanun vericiliyinə və beynəlxalq müqavilələrə uyğun olaraq xarici ticarətin gömrük statistikası haqqında məlumatların beynəlxalq təşkilatlara təqdim edilməsi;
- AR-nın dövlət büdcəsinə gömrük ödənişlərinin daxilolmalarına nəzarət, valyuta nəzarəti, tədiyyə balansının işlənib hazırlanması məqsədi ilə xarici ticarət üzrə gömrük statistikasının təqdim edilməsi;
- Müxtəlif təyinatlı indeks göstəricilərinin hesablanması (məsələn, qiymət indeksi və xarici ticarətin fiziki həcmi və s.);
- AR-nın tədiyyə balansı və milli hesablar sistemi çərçivəsində makroiqtisadi göstəricilərin proqnozlaşdırılması məqsədi ilə ilkin verilənlərin hazırlanması;
- AR-nın gömrük siyasətində nəzərdə tutulan digər tədbirlər.

Xarici ticarətdə gömrük statistikası (XTGS) rəsmi statistikanın tərkib hissəsidir. XTGS mallar üçün gömrük bəyannamələrində və gömrük orqanına təqdim edilən digər sənədlərdə olan məlumatlar əsasında formalaşdırılır. XTGS-də malların idxal və ixracının qeydiyyatı onlar üçün tərtib edilmiş gömrük bəyannamələrində əks olunan malların buraxılma tarixinə əsasən aparılır. XTGS-yə idxalı respublikanın maddi ehtiyatlarını artıran və ixracı maddi ehtiyatlarını azaldan bütün mallara dair məlumatlar daxil edilir.

Hüquqi statusu aşağıdakı gömrük rejimi ilə müəyyən edilən

mal kateqoriyalarının ümumi sistemdə qeydə alınması zamanı xarici ticarətin gömrük statistikasında aşağıdakılar nəzərə alınmır:

1) ölkə ərazisindən başqa yerə tranzit yolla keşən mallar;
2) bir ildən az müddətə müvəqqəti gətirilən (göndərilən) mallar;
3) dövlətin gömrük ərazisindən kənara göndərilmək məqsədi ilə gömrük ambarlarında, товары, azad ambarlarda, azad zonalarda yerləşdirilmiş mallar;
4) dövlətin ərazisindən çıxarılan xarici mallar;
5) dövlətin xeyrinə olaraq şəxsin imtina etdiyi göndərilən mallar;
6) dəyişdirilmiş sursatlar;
7) xarici ölkə səfirliklərinin, konsulluğunun, beynəlxalq təşkilatların və digər xarici dövlət nümayəndəliklərinin fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulmuş mallarının dövlətin gömrük ərazisindən çıxarılması;
8) gömrük ərazisində və bu ərazidən kənarda dislokasiya olunmuş dövlətin hərbi hissələri arasında gömrük sərhəddində yerləşən mallar;
9) MDB-yə üzv dövlətlərdə, fəaliyyətləri bu dövlətlərin ərazisində müalicə, idman-sağlamlıq və sosial sahələrin digər təşkilatlarının fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutlan malların göndərilməsi, həmin ölkənin və yaxud dövlətin subyektində yerləşən əmlaklar, həmçinin sahibkarlıq fəaliyyətinə əsaslanmayan, dövlətin mənafeyinə uyğun olaraq həmin dövlətlərin ərazisində keçirilən elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üzrə mallar;
10) xarici ölkənin ərazisindən keçən gömrük təşkilatları arasında yerləşən qədim mallar .

Xarici ticarətin gömrük statistikasının formalaşmasında ilkin məlumatlar, malların 28 bəyannaməsində (YGB yük bəyannaməsi) və gömrük orqanlarına verilmiş digər sənədlərdə olan məlumatlara əsasən aparılır.

Avrasiya İqtisadi Birliyinə üzv dövlətlərin səlahiyyətli orqanları xarici ticarətin gömrük statistikalarını tərtib etmək üçün digər məlumat mənbələrindən də istifadə edə bilərlər. Mallaraın bəyannaməsini (YGB) doldurarkən, məlumatların toplanmasını avtomatlaşdır-

maq üçün rəqəmli təsnifat kodlarından istifadə olunur. Belə ki, məhsul kodu "Avrasiya İqtisadi İttifaqının xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturası" təsnifatına uyğun olaraq təsvir və kodlaşdırma üçün uyğunlaşdırılmış sistemin milli versiyası ilə müəyyən edilir.

Xarici ticarətdə gömrük statistikasının məqsədləri aşağıdakılarla müyyən edir:

-XTGS malların idxalı və ixracı haqqında məlumatları tam və dəqiq əks etdirilməsi;

-XTGS Azərbaycan Respublikasının digər ölkələrlə ticarət-iqtisadi münasibətlərinin vəziyyətini və dinamikasını xarakterizə edilməsi;

-xarici ticarət axınını üzrə əsas meyillərin, strukturu və dinamikasının təhlili;

-xarici iqtisadi fəaliyyətin tənzimlənməsində tarif və qeyri-tarif amillərinin tətbiq edilməsinin nəticələrinin təhlili;

- xarici ticarət siyasəti və xarici ticarətin dövlət tənzimləməsi sahəsində qərarların qəbul olunması üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin XTGS ilə təmin edilməsi;

-gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsi;

- makroiqtisadi göstəricilərin proqnozlaşdırılması;

- fiziki həcm, dəyər və orta qiymət indekslərinin hesablanması;

-xarici iqtisadi fəaliyyətin inkişafına və xarici ticarət əlaqələrinin genişləndirilməsinə yardım edilməsi;

-dövlətin həyata keçirdiyi xarici iqtisadi siyasət tədbirlərindən

irəli gələn digər məsələlərin həll edilməsi.

Gömrük statistikasının predmeti ilə bağlı iqtisadi ədəbiyyatlarda verilən şərhlər müxtəlif formalarda öz əksini tapmışdır. Ümumiyyətlə, iqtisadi statistikanın əsas məsələsi iqtisadiyyatın müxtəlif sahələrində baş verən hadisələrin və proseslərin kəmiyyət və keyfiyyətinin qiymətləndirilməsindən ibarətdir [24]. Bu hadisələrin kəmiyyət tərəflərinin öyrənilməsi mürəkkəb bir prosses olmaqla, bir neçə ardıcıl mərhələni özündə birləşdirir. Bu mərhəllələr əsasən statistik müşahidələr, statistik məlumatların yekunlaşdırılması və qruplaşdırılması və yekun mərhəllə kimi statistik məlumatların təhlilindən ibarətdir.

İqtisadi statistikanın tərkibinə daxil olan gömrük statistikası xarici ticarətdə, o cümlədən onun spesifik sahələrində gedən hadisələrin və proseslərin kəmiyyət qiymətləndirilməsini öyrənir. Xarici ticarətin gömrük statistikasının müşahidə və tədqiqatlarının predmeti ölkənin xarici ticarət dövriyyəsidir, yəni malların idxal və ixracının miqdar və dəyərlə ifadələridir [25]. Xarici ticarətin gömrük statistikasının müşahidə və öyrənmə predmeti ölkənin xarici ticarət dövriyyəsi, yəni malların miqdar və dəyərlə ifadə olunmaqla ixrac və idxalı, həmçinin bu dövriyyənin coğrafi istiqamətləridir ("əmtəə-ölkə", "ölkə-əmtəə")" [21]. Statistikanın predmeti kütləvi hadisə və proseslərdir, onlar ayrı-ayrı amil kimi mövcuddur və statistik uçot vasitəsi ilə qeydə alınır. [25]

Beləliklə, gömrük statistikası predmetinin şərhini determinist və ehtimallı olmaqla, iki qrupda birləşdirmək olar. Lakin bütün bunlar bütövlükdə gömrük statistikası fənninin predmetinin eyniliyini ifadə edir. Beləliklə, gömrük statistikası fənninin predmeti mal dövriyyəsi, yəni malın ixracı və idxalından ibarətdir. Yalnız fərq ondadır ki, bəzi müəlliflər haqlı olaraq mal dövriyyəsinin ehtimal xarakterli olmasını qeyd edirlər. Həqiqətən, gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinin miqdar və dəyərləri konkret məkan və zaman dairəsində təyinat ölkəsindən (alıcıdan) asılı olmadan müxtəlif cür təsadüfi amillərin təsiri altında dəyişə bilir. Alıcıdan asılı olmayan təsadüfi amillərə aşağıdakıları aid etmək olar:

- malın mənşəyinin təsadüfi vaxtda, yəni əvvəlcədən məlum olmayan vaxtda dəyişməsi;
- mal partiyalarının bir-birindən fərqli daşınma marşrutları;
- göndəriş ticarət şərtlərinin və müqavilə şərtlərinin dəyişməsi;
-daşınma prossesində risklərin mövcudluğu;
- göndərən ölkədə ixrac edilən malm bazar qiymətinin dəyişməsi;
- göndərən və təyinat ölkələrdə tarif siyasətinin dəyişməsi və s.


Göstərilən amillərin təsadüfi zamanda dəyişməsinin təsiri altında müəyyən olunmuş müddət ərzində mal və nəqliyyat vasitələrinin idxalında miqdar və dəyərin qanunauyğunsuzluqları müşahidə olunur. Həmin amillərin təsiri nəticəsində mal və nəqliyyat vasitələrinin ixracının miqdarı və dəyəri də dəyişə bilər.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, gömrük sərhədini təsadüfi dəyişən vəziyyətdə keçən mal axınına gömrük statistikasının predmeti deyilir. Qeyd etmək lazımdır ki, gömrük xidmətərində gedən müxtəlif proseslərin uçotunun yaradılması və aparılması da gömrük statistikasının vəzifələrinə aiddir.

Beləliklə, mal axınları təsadüfi amillərin təsiri hesabına müəyyən kəmiyyətlə formalaşır və onların arasında nisbətlər mövcuddur. Qeyd etmək lazımdır ki, alıcıdan asılı olmayan dəyişən amillərdən başqa, sabit amillər də mövcuddur. Alıcıdan asılı olmayan sabit amillərin təsirinin mal axınının kəmiyyətinə tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir.

Sərhədi keçən mal axını malların idxal və ixracından ibarət olaraq xarici ticarətin əsas göstəricisi olmaqla, xarici ticarəti tam dəqiqliklə təsvir edir. Xarici ticarətin əsas göstəricisi olan malların idxal və ixracı müxtəlif amillərdən asılıdır. Gömrük statistikasının əsas məqsədi də məhz bu asılılığın müəyyən edilməsi və təhlillərin aparılmasıdır. Adətən, qeyd olunmuş hadisələr və proseslər çox sayda sabit və təsadüfi amillərin bir-biri ilə bağlılığı və qeyri-müəyyən gələcək inkişafı ilə seçilir. Bu proses və hadisələr bütün sahələrdə, iqtisadiyyatda, sənayedə, tibbdə və s. mövcuddur. Göstərilən sahələrin araşdırılması statistik metodologiyanın formalaşdırılmasmı

və təkmilləşdirilməsini təmin edir. Ümumiyyətlə, statistik proseslərin gedişi çoxlu sabit və təsadüfi amillərin təsiri altında keçir, yəni tədqiq olunan proseslər kütləvi təsadüfi proseslərdir. Kütləvi təsadüfi proseslər, adətən, bir çox amillərdən (obyektlərdən) ibarət olaraq, müəyyən zaman və məkan çərçivəsində əsas statistik məcmunu təşkil edir. Belə ki, xarici ticarət müəyyən müddətdə gömrük sərhədini keçən mal axını ilə təsvir olunur. İdxal və ya ixrac olunan malların məcmusunun hər bir vahidi müxtəlif xüsusiyyətlərlə təsvir oluna bilər. Məsələn, sərhədi keçən mallard malların adları, miqdarı, qiyməti, mənşə ölkəsi və s. göstəricilərlə təsvir olunur. Malların statistik məcmuya daxil edilməsi onların xarici ticarətdə iştirakına əsas verir. Statistik məcmuya daxil olan müxtəlif obyektlər eyni zamanda bir-birindən fərqlənir. Statistika elminin əsas məqsədi statistik məcmuda olan meyillərin aşkar edilməsi və müxtəlif vahidlərin ümumi statistik məcmuya təsirinin təhlili və qiymətləndirilməsidir. Malın mənşə ölkəsindən, ticarət (göndəriş) şərtlərindən, malın daşınma marşrutundan, riskli hadisələrdən, göndərən və təyinat ölkələrinin tarif siyasətindən, təyinat ölkəsində mövcud olan rəqabətdən, rəsmiləşdirmə qaydalarından və başqa amillərdən asılı olaraq idxal mallarının qiyməti əsas statistik məcmuya təsir edir. Həmin amillər arasındakı qarşılıqlı əlaqəni aşağıdakı şəkildən daha aydın görmək olar:



Şəkil 1.3.1. Amillər arasındakı qarşılıqlı əlaqə

Statistika elminin əsas məqsədlərindən biri də statistik məcmunun təhlili və qiymətləndirilməsidir. Burada xarici ticarətin dinamikası və inkişaf göstəricilərinə əsasən proqnozların tərtib edilməsi xarici ticarət statistikasında demək olar ki. əsas məsələlərdən biri kimi diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, təsadüfi amillərin aparılmış təhlillərə mənfi təsiri əsasən əlavə nəzəri problemlərin yaranmasına səbəb olur.

Kütləvi təsadüfi proseslər əsasən müəyyən qanunauyğunluq əsasında yaranır. Burada kütləvi təsadüfi proseslərin müəyyən qanunauyğunluğunun təyin olunması mühüm əhəmiyyət kəsb edir. Ümumi metodologiyaya əsaslanaraq, birinci mərhələdə statistik məcmuya daxil olan hər bir vahid üzrə müxtəlif ehtimal göstəriciləri hesablanaraq, statistik qiymətləndirmə əsasında optimal ehtimal modellər seçilir. Nəticədə, ikinci mərhələdə hər bir vahid üzrə səbəb və nəticə amilləri arasındakı əlaqə müəyyən edilir. Məcmuya daxil edilən müxtəlif obyektlərin riyazi modellərinin çıxış göstəricisinə təsiri ehtimal modellərdən və ya qeyri-riyazi modellərdən istifadə etməklə təhlil edilir. Üçüncü mərhələdə ayrı-ayrı çıxış göstəricilərindən məcmunun əsas göstəricisinə keçidi təmin olunur və müvafiq təhlillər aparılır. Qoyulmuş məqsəddən asılı olaraq yuxarıda qeyd olunmuş bütün mərhələlər tam həcmdə həyata keçirilmir və bu prossesə məntiqi təhlil kifayət edir.

Məlumdur ki, məntiqi təhlil, statistik təhlil və riyazi modellər xarici ticarətin əsas təhlil alətləridir. Burada statistik məcmuların təhlilində tələb olunan informasiya mənbələri mühüm əhəmiyyət kəsb edir. İnformasiya mənbəyi kimi müxtəlif statistik mareriallar, bülletenlər və normativ-hüquqi sənədlərdən istifadə olunmalıdır. Lakin, bu ilkin məlumatlar əvvəlcədən statistik (zaman) sıra şəklində hazırlanmalıdır. Gömrük statistikası üçün əsas informasiya mənbələrinə yük gömrük bəyannamələri (YGB), mal-nəqliyyat qaimələri, malı müşayiət edən sənədlər, gömrük-mədaxil orderləri (GMO), gömrük-məxaric orderləri (GMıxO), müqavilələr və s. daxildir. Hər bir amillər üzrə məlumatın hazırlanması statistik müşahidələrə əsasən hazırlanmaqla statistik müşahidə sırası adlanır. Statistik müşa-

hidə sıraları əsasən fəza sırası və dinamik (zaman) müşahidə sırası kimi iki növə bölünür[32]:

1. Fəza sırası: müxtəlif amillərdən asılı olan məcmunun əsas göstəricisinin seçilmiş müşahidə zamanı üçün təsviri. Məsələn: ixracın həcmi əsas baxılan göstərici olduqda ölkənin ixracı seçilmiş müşahidə zamanı üçün daxili amillərin təsiri altında dəyişir. Qeyd etmək lazımdır ki, fəza sıraları statistik məcmunun bu və ya digər qanunauyğunluğunu müəyyən edir. Fəza sıraları konkret müddətə şamil olunur və gələcək dəyişməni əks etdirmir;

2. Dinamik (zaman) müşahidə sırası: bir əsas (çıxış) göstəricinin bir amil üzrə ardıcıl vaxtları əhatə edən məcmusudur. Dinamik müşahidə sıraları inkişaf qanunauyğunluqlarını müəyyən etməyə imkan yaradır. Əsas (çıxış) göstəriciləri və onlara təsir edən amilləri təsvir edən fəza və dinamik sıralar statistikanın məlumat bazasını təşkil edir.

Məlumat bazası yuxarıda göstərilən üsullarla təhlil olunur və statistik məcmuların müxtəlif qanunauyğunluqları müəyyənləşdirilir.

Statistik müşahidə əsasında müəyyən edilmiş kəmiyyətlə öyrənilən hadisənin həqiqi kəmiyyəti arasında əmələ gələn fərqə müşahidə xətası deyilir. Statistika müşahidəsinin xətası adətən iki qrup xətaya-qeyd xətasına vəreprezentativ xətaya bölünür. Bu xətaların hər biri isə təsadüfü və müntəzəm xətaya ayrılır.

Qeyd etmək lazımdır ki, statistik müşahidə üsullarının tətbiqinin əsas məqsədi statistik məcmuların strukturlaşması, əsas (çıxış) göstəricilərin və amillərin müəyyən edilməsi, hər amil üzrə ehtimal hesablamaların aparılması, müvafiq riyazi modelin seçilməsi və məlumat bazası üzrə təhlilin aparılmasıdır.

1.4. Gömrük statistikasında ilkin məlumatın emalı üsulları

Hal-hazırda gömrük statistikasında ümumi prosedurlar kompüter texnologiyası vasitəsi ilə həyata keçirilir.

Statistika məlumatlarının ikinci ümumi proseduru əsasən məlumatların müəyyən edilmiş əsaslarla qruplaşdırılmasıdır. Xarici ticarət statistikasında atribut xüsusiyyətlər üzrə aşağıdakı qruplaşmalar tez-tez istifadə olunur:

1. Ölkələr və qitələr üzrə, ölkələrin iqtisadi qruplaşmaları, mal və məhsul qrupları üzrə;
2. Malların emalı dərəcəsinə görə (xammal, yarımfabrikatlar, hazır məhsullar);
3. İxrac məqsədilə (istehsal, şəxsi istehlak, emal);
4. İxrac (öz xarici mallar)
5. Nəqliyyat vasitəsinin növü ilə.

Statistik tədqiqatın məqsədlərinə əsasən, qruplaşmalar aşağıdakı kimi müəyyən edilir:

1. Tipoloji;
2. Struktur. Hər hansı bir əlamət üzrə məcmu strukturu xarakterizə edən struktur.
3. Analitik (iki və ya daha çox əlamət arasındakı əlaqəni xarakterizə edən amillər: səbə və nəticə). Xarici ticarətin indeks analizində geniş istifadə olunur.

Qruplaşdırma xüsusiyyətlərinin sayından və onların arasındakı əlaqələrdən asılı olaraq qruplar aşağıdakı kimi təsnifləşdirilir:

1) sadə qruplar (bir işarə);
2) çoxölçülü (bir neçə müstəqil xüsusiyyət);
3) Kombinasiya (bir neçə kombinə).
4) İerarxik (başqalarından fərqli olaraq, qruplara bölünmə dəqiq açıq şəkildə müəyyən edilmiş və tədqiq edilmiş verilənlərə əsasən məntiq ilə müəyyən edilmişdir)

İlkin məlumatların emalı gömrük statistikasında informasiya mənbələrindən daxil olan məlumatlara əsasən statistik cəmləmə və qruplaşdırma, qrafik, balans, indeks və amil üsulları vasitəsi ilə aparılır:

1.4.1 Statistik cəmləmə və qruplaşdırma üsulu

Gömrük statistikası üzrə məlumatlar sərhəd gömrük postlarından və gömrük idarələrindən daxil olur. Dövlət Gömrük Komitəsində vahid məlumat bazasında cəmləmə üsulundan istifadə etməklə müxtəlif mallar üzrə ümumiləşdirilmiş məlumat alınır. Statistikada ictimai hadisələrin tipik xüsusiyyətlərini və qanunauyğunluqlarını aşkar etmək üçün ilk statistika materiallarının sistemləşdirilməsi və işlənməsi statistik materialların yekunlaşdırılması adlanır. Yekunlaşdırmanın tərkib elementləri statistika materiallarının müvafiq əlamətlər üzrə qruplara ayrılmasından, statistik məcmuyun bütövlükdə və onun ayrı-ayrı qruplarını xarakterizə edən göstəricilər sisteminin işlənməsindən, qrup və ümumi yekunun hesablanmasından, yekunklaşdırmanın nəticəsinin statistika sıralarından, statistika cədvəllərindən və qrafiklərdə təsvirindən ibarətdir. Bütün bunlar gömrük statistikası yekunlaşdırmasının mahiyyətini təşkil edirlər. Statistik materialların yekunaşması ilə kifayətlənmək olmaz. Öyrənilən məlumatı dərk ediləcək vəziyyətə salmaq üçün onu keyfiyyətcə yekcins qruplara ayırmaq lazımdır. İctimai hadisə vahidlərinin mühüm əlamətlər üzrə yekcins qruplara ayrılmasına statistikada qruplaşma deyilir. Statistik qruplaşma vasitəsi ilə bir sıra vəzifələr yerinə yetirilir ki, bunlara da a) ictimai-iqtisadi tiplərin ayrılmasını, b) hadisənin qruluşunu və qruluş dəyişikliyinin aşkar edilməsini və c) ictimai hadisələrin əlamətlər arasındakı qarşılıqlı əlaqələrinin müəyyən edilməsini göstərmək olar.Qruplaşdırma üsulundan "Xarici ticarətin gömrük statistikası" bülleteninin tərtibi zamanı və müxtəlif sorğuların icrasında istifadə olunur.

Qruplaşdırma nəzəriyyəsinin mühüm məsələlərindən biri qruplaşdırma əlamətinin seçilməsidir. Qruplaşdırma əlaməti dedikdə müxtəlif tiplərin, qrup və yarımqrupların həmin əlamət üzrə ayrılması başa düşülür.

Keyfiyyət əlamətlərinə görə bölündükdə, qrupların sayı əlamətlərin qradisiyalaının sayılarına (ixrac ve idxal) bərabərdir. Bəzi əlamətlərin xarakterik qiymətləri nisbətən az olduqda, onlar "digər"

qruplarda birləşdirilə bilər (məsələn, "digər ölkələr"). Kəmiyyət əlamətlərinə görə bölünmədə, aşağıdakıların nəzərə alınması məqsədə uyğundur:

1) Kiçik məcmulər onların kifayət qədər doldurulması üçün böyük olmayan qruplara bölünür.

2) Qruplaşdırma xüsusiyyətinin normal paylanması ilə xarakterizə edilən çox sayda ədəd (50 və ya daha çox) üçün, onlar bərabər intervallara bölünür. Bərabər intervalların sayını Stredjess düsturu aşağıdakı kimi müəyyən edilir:

$$n = 1 + 3{,}322 \lg N \qquad (1.4.1.1)$$

burada, n- qrupun sayı və ya fasiləsidir;

N -məcmu həcmdir.

Əgər əlamətin variantı miqdarla ufadə olunarsa bu əlamətə kəmiyyət əlaməti deyilir. Kəmiyyət əlaməti əsasən diskret və fasiləsiz əlamətlərə bölünür.

Kəmiyyət üzrə qruplaşdırmanın mühüm məsələlərindən biri fasilənin həcminin, yəni hər bir qrup üçün əlamətin minimum və maksimum qiymətlərinin müəyyən edilməsidir.

Statistika məcmuyunda vahidlərin bölüşdürülməsi xarakterindən asılı olaraq fasilə bərabər və qeyri-bərabər şəkildə müəyyən edilə bilər.

Bərabər fasiləli qrupları təşkil edərkən fasilənin kəmiyyəti aşağıdakı düsturla hesablanır [25].

$$I_K = \frac{X_{mak} - X_{min}}{n} \qquad (1.4.1.2)$$

burada, I_K –fasilənin kəmiyyəti,

X_{mak}-əlamətin ən yüksək qiyməti,

X_{min}- əlamətin ən kiçik qiyməti,

n-qəbul olunmuş qrupların sayı.

Fasilənin kəmiyyətinin təyin edilməsi ilə bağlı aşağıdakı məsələyə baxaq.

Fərz edək ki, 10.02.2019-cu il tarixində avtobil nəqliyyatı ilə ölkəyə 5 mal qrupu üzrə şərti olaraq 20 ton, 180 ton, 50 ton, 70 ton,105 ton, 90 ton, 16 ton, 11 ton, 28 ton, 50 ton, 190 ton mal ixal olunmuşdur. Bu şərtlər daxilində fasilənin kəmiyyətini hesablamaq tələb olunur.

Həlli: İdxal olunan mallar 5 qrupa bölündüyündən (1.4.1.2) düsturuna əsasən bərabər fasilənin ölçüsü aşağıdakı kimi olacaqdır.

$$I_K = \frac{X_{mak} - X_{min}}{n} = \frac{190 - 11}{5} = 35{,}8 \cong 36$$

1.4.2. Gömrük statistikasında ilkin məlumatların qrafik üsulla emalı

Bu üsulun tətbiqinin əsas məqsədi öyrənilən hadisənin və prosesin qavranılmasmm asanlaşdırılmasıdır. Qrafik üsulla təhlil olunan göstəricinin miqdarı və onların dinamikası, struktur dəyişiklikləri, müqayisə edilən göstəricilər və başqa göstəricilər üzrə hesablamalar və təhlillər aparılır. Bu zaman ən çox xətti qrafik və müxtəlif növ diaqramlardan istifadə edilir. Məlimdur ki, qrafiklər Microsoft Office Excel proqram paketindən istifadə edərək qurulur. Qrafiklər qrulma qaydalarına görə diaqramlara, kartoqrammalara və kartdiaqrammalara bölünür ki, bunlardan da gömrük statistikasında geniş istifadə edilir.

Gömrük statistikasında cədvəl və qrafik metodlar. Bir qayda olaraq, statistik xülasənin nəticələri statistik sıralar və statistik cədvəllərr şəklində ifadə edilir. Cədvəllər statistik müşahidənin nəticələrinin təqdimatının əsas formasıdır. Onlardan istifadə etməklə rəqəmsal məlumatların istifadəsini və onların müqayisəsinin mümkünlüyü təmin edilir. Struktur statistik cədvəl şaquli qrafiklər (sütunlar) və üfüqi sətirlər olan bir sistemdir. Əsasən statistik cədvəllər sadə və mürəkkəb olmaqla iki yerə bölünür. Mürəkkəb cədvəllərdə əsasən cədvəl məlumatlarının sonunda müqayisələndirmə

aparılır. Aşağıda sadə və mürəkkəb cədvəl qruplarına aid göstəricilər verilmişdir. Gömrük statistikasında sadə və mürəkkəb cədvəl qruparına aid olan göstəricilər aşağıdakı cədvələrdədə əks edilmişdir.

Cədvəl 1.4.2.1

Nəqliyyatın bütün növləri üzrə idxal-ixrac əməliyyatlarında daşınan yüklərin miqdarı və dəyəri

İllər	Ticarət dövrüyyəsi		İxrac		İdxal	
	Ümumi ticarət dövriyyəsi, (mln. ABŞ dolları ilə	Nəqliyyat vasitələri ilə daşınan yüklərin miqdarı, (minton)	İxracın ümumi həcmi, (mln. ABŞ dolları ilə)	Nəqliyyat vasitələri ilə ixrac olunan yüklərin miqdarı, (min ton)	İdxalın ümumi həcmi, (mln. ABŞ dolları ilə)	Nəqliyyat vasitələri ilə idxal olunan yüklərin miqdarı, (min ton)
2012	33560,84	39905,29	23907,97	30322 ,7	9652,87	9582,59
2013	34687,92	40137,1	23975,42	30610, 8	10712,5	9526,30
2014	31016,3	37360,9	21828,6	28938,11	9187,7	8422,79
2015	20645,88	34596,22	11424,48	27081,0	9221,4	7515,22
2016	17675,73	36925,8	9143,28	29273,9	8532,45	7651,9
2017	22593, 6	43972,4	13811,7	36656,4	7316, 0	8782, 0
2018	30923,6	48158,5	19458,6	39228,5	11465	8930
2019	33302,8	54443,3	19635,5	44465	13667,3	9978,3

Mənbə: ARDGK-nin məlumatlarına əsasən tərtib edilmişdir

Cədvəl 1.4.2.2.

2017-ci ildə Azərbaycan Respublikası üzrə ixrac və idxalda keçirilən yüklərin daşınma vasitələri üzrə miqdarı (netto çəki ilə) və dəyəri

N/v kodu	Daşınma vasitələri	İxrac		İdxal		Cəmi	
		Netto çəki (min ton)	Statistik dəyər (mln. ABŞ dolları)	Netto çəki (min ton)	Statistik dəyər (mln ABŞ dolları)	Netto çəki (min ton)	Statistik dəyər (mln. ABŞ dolları)
1	1	2	3	4	5	6=2+4	7=3+5
10	Dəniz nəqliyyatı vasitələri	336,2	155,5	1210,5	792,7	1546,7	948,2


20	Dəmiryolu nəqliyyatı vasitələri	2317,2	709,8	5246,6	2487	7563,6	3196,8
30	Avtoyol nəqliyyatı vasitələri	1381,4	1208,1	2401,1	6406,6	3782,5	7614,7
40	Hava nəqliy-yatı vasitələri	68,83	281,13	14,32	3313,88	83,15	3595,01
50	Poçt	0,00012	0,017	0,00287	1,093	0,00299	1,1109
70	Stasionar nəqletmə vasitələri	40361,2	17280,3	1030,5	231,42	41391,8	17511,72
90	Özü hərəkət edən vasitələr	0,0082	0,778	75,46	434,44	75,54	435,22
	Yekun	44465	19635,6	9978,3	13667,2	54443,3	33302,8

Mənbə: ARDGK-nin məlumatlarına əsasən tərtib edilmişdir

Xarici ticarətin gömrük statistikasında statistik məlumatların qrafik metoduna aid nümunələr Azərbaycan Respublikası Dövlət gömrük komitəsinin statistik məlumatlarına əsasən aşağıdakı qrafiklərdə göstərilmişdir.


Qrafik 1.4.2.1

2019-cu il üzrə Azərbaycan Respubliasının əsas tərəfdaş ölkələrlə ticarət dövriyyəsi.




Mənbə: ARDGK-nin məlumatlarına əsasən tərtib edilmişdir


Aşağıdakı qrafikdə 2018-ci il üzrə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin balansı verilmişdir.




Qrafik 1.4.2.2. 2018-ci ildə Azərbaycan Respublikasının xarici ticarət göstəriciləri (milyon ABŞ dolları)
Mənbə: (69) və (81) materiallarına əsasən tərtib edilmişdir.



Qrafik 1.4.2.3. 2010-2018-ci illər üzrə Azərbaycan Respublikasının xarici ticarət göstəriciləri (milyon ABŞ dolları)
Mənbə: (69) materiallarına əsasən tərtib edilmişdir.





Qrafik 1.4.2.4. 2017-ci ildə ixrac və idxal üzrə yüklərin dəyərinin daşınma vasitələri üzrə payı

Mənbə:ARDGK-nin materiallarına əsasən tərtib edilmişdir.

Qeyd etmək lazımdır ki, gömrük statistikasında idxal və ixracın ölkələr, ölkələr qrupu, mal növləri, gömrük ödənişləri və daşınma növləri üzrə qruplaşdırma və balans üsulu geniş tətbiq edilir.

1.5. Gömrük statistikasında balans üsulu

Bu üsul xarici ticarət dövriyyəsi və gömrük ödənişləri barədə məlumatlar üçün böyük əhəmiyyət kəsb edir. Əgər saldo müsbətdirsə, xarici ticarətin balansı da aktivdir. Əgər saldo mənfidirsə, ticarət balansı passiv hesab olunur, idxalla ixracın bərabərliyinə isə nettobalans deyilir. Aşağıdakı cədvəl məlumatlarında Azərbaycan Respublikasının 2001-2019-cu illər üzrə ixrac, idxal, xarici ticarət dövriyyəsi və saldosu haqqında məlumatlar verilmişdir.

Cədvəl 1.5.1.

Azərbaycan Respublikasının 2001-2019-cu illər üzrə ixrac, idxal, xarici ticarət dövriyyəsi və saldosu, mln. ABŞ Dolları ilə

İllər	İxrac	İdxal	Xarici ticarət dövriyyəsi	Xarici ticarət saldosu
1	2	3	4=2+3	5=2-3
2001	2314,2	1431,1	3745,3	883,1
2002	2167,4	1665,5	3832,9	501,9
2003	2590,4	2626,2	5216,6	-35,8
2004	3615,5	3515,9	7131,4	99,6
2005	4347,2	4211,2	8558,4	136
2006	6372,2	5266,7	11638,9	1105,5
2007	6058,2	5713,5	11771,7	344,7
2008	47756	7170	54926	40586
2009	14701,4	6123,1	20824,5	8578,3
2010	21360,2	6600,6	27960,8	14759,6
2011	26570,9	9756	36326,9	16814,9
2012	23908	9653	33561	14255
2013	16592,3	9216,7	25809	7375,6
2014	32841,6	10712,5	43554,1	22129,1
2015	30219,8	9187,7	39407,5	21032,1
2016	8532,4	13118,4	21650,8	-4586
2017	5300,8	9720,4	15021,2	-4419,6
2018	19458,6	11465	30923,6	7993,6
2019	19635,6	13667,2	33302,8	5968,4

Mənbə: ARDGK-nin materiallarına əsasən tərtib edilmişdir.

Cədvəl məlumatlarından göründyü kimi Azərbaycan respublikasının xarici ticarət dövriyyəsi 2008-ci ilədək yüksək artım tempi nümayiş etdirmiş və 2003-cü il istisna olmaqla xarici ticarət saldosu həmin dövrədək müsbət olmuş. Yəni, 2003-cü il istina olmaqla xarici ticarət balansı aktiv olmuşdur. Mənfi ticarət saldosu 2016-2017-ci illərdə də baş vermişdir. Belə ki, 2016-cı ildə idaxl ixracı 4586 mln. ABŞ dolları məbləğində, 2017-ci ildə isə 4419,6 ABŞ dolları məbləğində üstələmişdir. Bu isə həmin dövrlərdə, yəni 2016 və 2017-ci illərdə xarici ticarət balansının passiv olması deməkdir. Sonrakı dövrlərdə isə xarici ticarət balansı aktiv olmuşdur. Belə ki, 2018-ci ildə ixrac əməliyyatlarının həcmi idxalı üstələyərək 7993,6 mln.ABŞ dolları məbləğində, 2019-cu ildə isə 5968,4 mln.ABŞ dolları məbləğində müsbət xarici ticarət saldosu yaranmışdır.

Qeyd etmək lazımdır ki, 2016-2017-cı illərin statistik məlumatlarına əsasən ticarət dövriyyəsində saldonun aşağı düşərək mənfi olması, neft qiymətlərinin dünya bazarında kəskin aşağı düşməsi ilə əlaqədar olaraq milli valyutanın məzənnəsinin ABŞ dolları ilə müqayisədə xeyli azlması hesabına baş vermişdir.

II FƏSİL

XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA İNDEKS METODU

2.1. Xarici ticarətin gömrük statistikasında indekslərin növləri

Statistikada bilavasitə cəmlənə bilməyən elementlərdən ibarət olan mürəkkəb ictimai-iqtisadi hadisələrin dəyişməsini ifadə edən nisbi göstəricilərə indeks deyilir.

İctimai-iqtisadi hadisələrin dəyişməsini ifadə etmələrinə görə indekslər 3 yerə bölünürlər

-fərdi indekslər
-ümumi indekslər
-qrup indekslər

Mürəkkəb ictimai-iqtisadi hadisələrin yekcins dəyişməsini ifadə edən nisbi göstəricilərə indeks deyilir.

Ümumi indekslər mürəkkəb elementlərin birlikdə dəyişməsini xarakterizə edir. Bu indekslərə misal olaraq əmək məhsuldarlığı indeksi, yük dövriyyəsi indeksi, maya dəyəri indeksini və s. göstərmək olar.

Mürəkkəb ictimai-iqtisadi hadisələrin ayrı-ayrı qruplarının dəyişməsini ifadə edən nisbi göstəricilərə qrup indeksləri deyilir. Bu indekslər həm də ümumi indekslərdir.

İndekslərdə iki dövrün məlumatları müqayisə edilir. Səviyyəsi müqayisə edilən dövr hesabat və ya cari dövr, səviyyəsi ilə müqayisə edilən dövr isə əsas dövr adlanır. Tədqiqat obyüktini təşkil edən dövr hesabat dövrü adlanır.

2.1.1.Fərdi indekslər

Fərdi indeks - göstəricilərin müəyyən vaxt ərzində dəyişməsini göstərən nisbi qiymət olub aşağıdakı düsturla hesablanır:

$$\text{İ} = \frac{q_1}{q_0} \qquad \textbf{(2.1.1.1)}$$

burada: q_1 - cari dövrdə (hesabat dövründə) gömrük statistikasının göstəricisi;

q_0 - bazis dövrdə (əsas dövrdə) gömrük statistikasının göstəricisi.

Fərdi indekslər əmsal, yaxud faizlə ifadə oluna bilər. Fərdi indeks vahiddən (100%) böyükdürsə ($İ > 1$), bu göstəricilərin cari dövrdə bazis dövrünə nisbətən artdığını, vahiddən kiçikdirsə ($İ < 1$),, azaldığını göstərir. Bəzi hallarda fərdi indeks 1 -ə bərabərdir($İ = 1$). İ=1 olması odeməkdir ki, göstəricinin miqdarı bazis dövrünə nisbətən sabit qalmışdır.

İxrac (idxal) üzrə fiziki həcm indeksi aşağıdakı kimi hesablanacaqdır.

$$İ_q = \frac{q_1}{q_0} \quad \textbf{(2.1.1.2)}$$

Məsələn, Rusiyadan Azərbaycana 27-ci mal qrupuna aid olan gətirilmiş daş kömürdən hazırlanmış yanacağın 2018-ci ildə (briketlər) (malın kodu-270120000) netto çəkisi 20,5 min ton, 2017-cı ildə isə 20 min ton olmuşdur. Bu halda,

$İ_q = \frac{q_1}{q_0} = \frac{20,5}{20} = 1,025 = 102,5\%$ olacaqdır. Yəni, 2017-cı illə müqayisədə 2018-ci ildə idxal olunmuş malın həcmi 2,5% artmışdır

İxrac (idxal) üzrə dəyər (pq) indeksi aşağıdakı kimi hesablanacaqdır.

$$İ_{pq} = \frac{p_1 q_1}{p_0 q_0} \quad \textbf{(2.1.1.3)}$$

Məsələn, Rusiyadan Azərbaycana 27-ci mal qrupuna aid olan gətirilmiş daş kömürdən hazırlanmış yanacağın 2018-ci ildə (briketlər) (malın kodu-270120000) statistik dəyəri 50,5 min ABŞ Dolları, 2017-cı ildə isə 49,8 min ABŞ Dolları olmuşdur. Bu halda,

$İ_{pq} = \frac{p_1 q_1}{p_0 q_0} = \frac{50,5}{49,8} = 1,014 = 101,4\%$ olacaqdır. Yəni, 2017-cı illə müqayisədə 2018-ci ildə idxal olunmuş malın statistik dəyəri 1,4% artmışdır.

İxrac(idxal) üzrə qiymətr(p) indeksi aşağıdakı kimi hesablanacaqdır.

$$İ_p = \frac{p_1}{p_0} = \frac{İ_{pq}}{İ_q} \quad \textbf{(2.1.1.4)}$$

Məsələn, Rusiyadan Azərbaycana 27-ci mal qrupuna aid olan gətirilmiş daş kömürdən hazırlanmış yanacağın qiymət indeksi $İ_p = \frac{p_1}{p_0} = \frac{2463,41}{2490} = 0,98 = 98,0\%$ olacaqdır. Yəni, 2017-cı illə müqayisədə 2018-ci ildə idxal olunmuş malın statistik dəyəri 2,0% azalmışdır.

2.1.2. Ümumi indekslər

Statistikada əsasən çox sayda amillərin nisbətini hesablamaq üçün ümumi indekslərdən istifadə olunur. Bu halda ümumi fiziki həcm, ümumi qiymət və ümumi dəyər indeksi hesablanmalıdır. Əgər q əmtəə vahidinin qiyməti, p isə malın miqdarı olarsa, bu halda ixrac (idxal) edilən malların ümumi dəyəri aşağıdakı kimi hesablanacaqdır:

$$İ_{pq} = q_i \times p_1 \quad \textbf{(i= 1, 2,3,…,n)} \quad \textbf{(2.1.2.1)}$$

Burada, n - ixrac edilən mal növlərinin sayıdır.

Mal dövriyyəsinin idxal və ixrac həcminin dəyişməsi fiziki həcmin indeksinin hesablanmasına əsasən aşağıdakı kimi müəyyən edilir.

$$İ = \frac{\sum p_1 q_0}{\sum p_0 q_0} \quad \textbf{(2.1.2.2)}$$

burada: İ - fiziki həcm indeksi;
p_1- cari dövrdə malların miqdarı;
p_0 - bazis dövründə malların miqdarı;
q_0 - bazis dövründə malların qiyməti.

Bazis dövründə fiziki həcm indeksinin hesablanması zamanı mal vahidinin qiyməti əsas götürülür, indeksləşdirilən isə malın miqdarı olur. Bazis dövründə və hesabat dövründə qiymət dəyişikliyinin indeksə təsirini aradan qaldırmaq məqsədilə ixrac eyni qiymətlə hesablanır ki, bu da ixracın miqdar dəyişikliyini aşkar etməyə imkan verir.

Xarici ticarətdə qiymət dəyişməsi malların qiymət indeksinin hesablanmasına əsasən müəyyən edilir. Xarici ticarətin ümumi qiymət indeksi aşağıdakı düstura görə müəyyən edilir [24].

$$İ_q = \frac{\sum q_1 p_1}{\sum q_0 p_1} \qquad \textbf{(2.1.2.3)}$$

burada: $İ_q$ - ümumi qiymət indeksi;
q_1- cari dövrdə malların qiymətləri;
q_0 - bazis dövründə malların qiymətləri;
p_1 - cari dövründə malların miqdarı.

Qiymət indeksinin hesablanması zamanı malların miqdarı dəyişmir, lakin qiyməti isə indeksləşdirilir. Fiziki həcm və qiymət indekslərinə birgə baxılması xarici ticarət dövriyyəsinin hansı amillərin təsiri altında dəyişməsinin səbəblərini müəyyən edə bilər. Qeyd etmək lazımdır ki, xarici ticarətin təhlili dəyər indeksi əsasında da aparılır. Xarici ticarətin dəyər indeksi aşağıdakı düstura əsasən müəyyən edili:

$$İ_D = \frac{\sum q_1 p_1}{\sum q_0 p_0} \quad \textbf{(2.1.2.4)}$$

burada: $İ_D$ - dəyər indeksi

Ümumi indekslərin əsas forması aqreqat indeksləridir.İndeksləşdirilən kəmiyyətlər və onların çəkiləri haqqındakı məlumat əsasında hesablanan ümumi indeksə qreqat indeksi deyilir.

Əgər fərdi qiymət indeksində ($İ_p = \frac{p_1}{p_0}$) p_1-in qiymətini tapıb ($P_1 = İ_p \times p_0$) onu ümumi qiymət indeksinin aqreqat indeksi düsturunda yerinə qoysaq, bu halda aşağıdakı düsturla təyin eilən orta qiymət indeksini alarıq.

$$İ = \frac{\sum İ_p p_0 q_0}{\sum q_0 p_1} \qquad \textbf{(2.1.2.5)}$$

İndi isə fərdi qiymət indeksindən ($İ_p = \frac{p_1}{p_0}$) p_0-in qiymətini tapıb ($P_0 = \frac{p_1}{İ_p}$) onu ümumi qiymət indeksinin aqreqat indeksi düsturunda yerinə yazsaq, bu halda aşağıdakı düsturla təyin eilən orta harmonik qiymət indeksi düsturunu alarıq.

$$İ_q = \frac{\sum q_1 p_1}{\sum \frac{1}{i_p} \times q_1 p_1} \quad \textbf{(2.1.2.6)}$$

Hesabi orta həcm indeksi və harmonik orta həcm indeksləri uyğun olaraq yuxarıda göstərilmiş **(2.1.2.5)** və **(2.1.2.6)** düsturlarına görə hesablanır.

2.1.3. Əsas (bazis) və sislsiləvi (zəncirvari) indekslər

Indekslər əsas və silsiləvi (zəncirvari) qaydada hesablana bilər. Hər bir sonrakı dövrün məlumatlarını əsas götürülmüş bir dövrün məlumatı ilə müqayisə etdikdə alınan göstəricilərə əsas (bazis) indekslər deyilir. Sonrakı dövrün məlumatlarını özündən əvvəlki dövrün məlumatı ilə müqayisə etdikdə alınan göstəricilərə isə silsiləvi (zəncirvari) indekslər deyilir. Yəni, dəyişən baza müqayisəsəi (zənzirvari göstəricilər) dinamika üzrə sonrakı göstəricinin özündən əvvəlkinə nisbəti ilə, sabit baza müqayisəsi isə sonrakı göstəricinin əsas (baza) göstəricisinə nisbəti ilə müəyyən edilir.

Gömrük statistikasında göstəricilərin həcminin dəyişmə nisbətinin hər hansı bir dövr üzrə tədqiq edilməsindən asılı olaraq indeksin hesablanmasının da iki üsulu - bazis və zəncirvari üsulları vardır:

$$\frac{2010\ 2011\ 2012\ \ 2013\ 2014\ 2015\ 2016\ 2017\ 2018}{=\ 100\ \ 2010\ 2010\ 2010\ \ 2010\ 2010\ 2010\ 2010\ 2010}$$

Bazis indeksi

$$\frac{\textbf{2010}\quad \textbf{2011 2012 2013 2014 2015 2016 2017 2018}}{\uparrow\ \textbf{2010 2011 2012 2013 2014 2015 2016 2017}}$$

Zəncirvari indekslər

Dəyişən baza müqayisəsəi (zənzirvari göstəricilər) dinamika üzrə sonrakı göstəricinin özündən əvvəlkinə nisbəti ilə, sabit baza

müqayisəsi isə sonrakı göstəricinin ilkin(baza) göstəricisinə nisbəti ilə müəyyən edilir. Əsas və silsiləvi zənzirvari) indeksləri Azərbaycan Respublikasının 2017-ci ilin yanvar-aprel ayları üzrə xarici ticarət dövriyyəsini əks etdirən aşağıdakı cədvəl məlumatlarına əsasən izah edək.

Cədvəl 2.1.3.1

Azərbaycan Respublikasının 2017-ci ilin yanvar-aprel ayları üzrə xarici ticarət dövriyyəsi, mln. ABŞ dolları ilə

Aylar	Yanvar	Fevral	Mart	Aprel
Xarici ticarət dövriyyəsi	1108,8	1284,0	1170,6	1211,5

1. Dəyişən baza müqayisəsi (zənzirvari göstəricilər):

1) $\frac{1284,0}{1108,8}$ = 1,158 ;

2) $\frac{1170,6}{1284,0}$ = 0,912 ;

3) $\frac{1211,5}{1170,6}$ = 1,035 .

Baza indeksinə uyğun olaraq dəyişən baza müqayisəsinin (zəncirvari göstəriciləri) nəticələrinə əsasən Azərbaycan respublikasının 2017-ci ilin fevral ayı üzrə xarici ticarət dövriyyəsi yanvar ayı ilə müqayisədə 15,8%, artmış, mart ayında isə əksinə 9,8% azalmışdır. Həmin dövrün aprel ayında xarici ticarət dövriyyəsi mart ayı ilə müqayisədə 11,5% artmışdır.

2. Sabit baza müqayisəsi (zənzirvari göstəricilər):

1) $\frac{1284,0}{1108,8}$ = 1,158 ;

2) $\frac{1170,6}{1108,8}$ =1,056 ;

3) $\frac{1211,5}{1108,8}$ = 1,093 .

1,118 · 1,056 · 1,093 =1,2904 və yaxud 129,0%

Sabit baza indeksinə uyğun olaraq sabit baza müqayisəsinin (zəncirvari göstəriciləri) nəticələrinə əsasən Azərbaycan respublikasının 2017-ci ilin fevral ayı üzrə xarici ticarət dövriyyəsi bazis dövrü (yanvar ayı) ilə müqayisədə 15,8%, mart ayında 5,6%, aprel ayında isə 9,3% artmışdır. Ümumilikdə Azərbaycan Respublikasının 2017-ci ilin yanvar-aprel ayları üzrə xarici ticarət dövriyyəsi

yanvar ayı ilə müqayisədə 29% və yaxud 102,7 mln. ABŞ dolları məbləğində artmışdır.

Əgər fərdi silsiləvi (zəncirvari indekslərə nəzər salsaq görərik ki, tədqiq olunan dövr üzrə onların hasili əsas (bazis) indeksini verəcəkdir. Bunu müəyyən etmək üçün Azərbaycan Respublikasının 2017-ci ilin yanvar-aprel ayları üzrə xarici ticarət dövriyyəsini əks etdirən cədvəl 2.1.3.1 məlumatlarına əsasən hesablanmış əsas (bazis) və silsiləvi (zəncirvari) indekslərə əsasən fərdi sisiləvi (zəncirvari) indeksləri bir-birinə vuraq.

1,158×0,912=1,0561

Alımış 1,0561 indeksi sabit baza müqayisəsi (zənzirvari göstəricilər) üzrə əsas (bazis) indeksinə uyğundur.

Fərdi sisiləvi (zəncirvari) indekslərin hasili əsas(bazis) indekslərinin alınmasına imkan verir və aşağıdakı kimi hesablanır.

$$\text{İ}_{1/0} \times \text{İ}_{2/1} = \text{İ}_{2/0}, \quad \textbf{(2.1.2.7)}$$

$$\frac{q_1}{q_0} \times \frac{q_2}{q_1} = \frac{q_2}{q_0} \quad \textbf{(2.1.2.8)}$$

2.1.4. Ticarətin şərtləri indeksi

İndeks metodu xarici ticarətin digər istiqamətlərindəki dəyişiklikləri xarakterizə etmək üçün də istifadə olunur. Yəni, indeks üsulundan təkcə xarici ticarətin dinamikasının təhlili məqsədilə deyil, həmçinin xarici ticarətin nəticələrinin təhlili üçün də istifadə olunur. Bu zaman "ticarətin şərtləri" indeksi (şərti ticarət indeksi) hesablanır. Şərti ticarət indeksi aşağıdakı düstura əsasən təyin edilir.

$$\text{İ}_{TŞ} = \frac{\bar{\text{İ}}_{ixrac}}{\bar{\text{İ}}_{idxal}} \quad \textbf{(2.1.4.1)}$$

Burada, $\text{İ}_{TŞ}$-ticarət şərti indeksi

$\bar{\text{İ}}_{ixrac}$-ixracın hesabi orta qiymətdir;

$\bar{\text{İ}}_{idxal}$ - idxalın hesabi orta qiymətdir.

Ticarət şərti dedikdə bütünlükdə ölkə üzrə müəyyən əmtəənin idxal və ixrac qiymətlərinin müqayisəsi başa düşülür. Ticarət şərti hər bir ölkənin qarşılıqlı tələb və qarşılıqlı təklifini ifadə edir. Ticarət şərti idxal və ixrac indekslərinin hər bir ölkə müqayisəsinə əsasən hesablanır və hər bir ölkənin xarici iqtisadi siyasətinin ümumilikdə xarici ticarətinin əsas istiqamətini müəyyən edir. Ticarət şərti indeksi aşağıdakı düsturla hesablanır:

$$\text{İ}_{\boldsymbol{TŞ}} = \text{İ}_{\text{i}\boldsymbol{xQ}} \times \frac{\mathbf{100}}{\text{İ}_{\text{i}\boldsymbol{dQ}}} \qquad \textbf{(2.1.4.2)}$$

Burada, $\text{İ}_{\text{i}XQ}$-ixrac qiyməti indeksi,
$\text{İ}_{\text{i}DQ}$ –idxal qiyməti indeksi,
$\text{İ}_{TŞ}$ - ticarət şərti indeksidir.

Ticarət şərti indeksinin dəyişməsinə aid aşağıdakı məsələyə baxaq baxaq.

Məsələ 1. Əgər ölkə üsrə ixrac qiyməti indeksi 5% həddində aşağı düşərsə, idxal qiyməti indeksi isə 7% həddində artarsa bu halda verilən şərtlər daxilində ticarət şərti indeksi necə dəyişəcəkdir?

Həlli:

Əgər ixrac qiyməti indeksi 5% həddində aşağı düşərsə, bu halda

$$\text{İ}_{\text{i}DQ} = 1 - 0{,}05 = 0{,}95$$

Əgər idxal qiyməti indeksi 7% həddində artarsa, bu halda

$$\text{İ}_{\text{i}XQ} = 1 + 0{,}07 = 1{,}07$$

Verilən şərtlər daxilində ticarət şərti indeksi aşağıdakı kimi olacaqdır.

$$\text{İ}_{TŞ} = 0{,}95 \times \frac{100}{1{,}07} = 88{,}8\%$$

Əgər ticarət şərti indeksi ($\text{İ}_{TŞ}$) 100% olarsa, bu halda idxalın həcmi ixraca bərabər olacaqdır.

Məsələ 2. Azərbaycan Respublikasında 2017-ci ilin yekununa əsasən ixracın həcmi 5300,8 mln. ABŞ dolları, idxalın həcmi isə 9720,4 mln. ABŞ dolları olmuşdur. Şərti olaraq hesab edək ki, 2020-

ci ildə proqnoz üzrə idxal ixraca bərabərdir. Hər iki hal üçün verilən şərtlər daxilində ticarət şərti indeksi necə dəyişəcəkdir?

Həlli:

1-ci halda,

$$İ_{TŞ} = \frac{\bar{İ}_{ixrac}}{\bar{İ}_{idxal}} = \frac{5300,8}{9720,4} = 0,545$$

2-ci halda isə $\bar{İ}_{ixrac} = \bar{İ}_{idxal}$ (ixrac idxala bərabər olduğundan) $İ_{TŞ} = 1$ olacaqdır.

Ticarət şərti indeksinin artması ($İ_{TŞ} > 1$) göstərir ki, ölkənin ixrac qiymətlərinin cəminin hər bir ixrac məhsuluna görə idxalın ümumi qiyməti ilə müqayisədə daha çox idxal məhsullarının əldə olunmasına imkan yaranır. Bu isə ölkənin həyat səviyyəsinin yaxşılaşdırılmasının artımı ilə nəticələnir.

Ticarət şərti indeksinin azalması ($İ_{TŞ} < 1$) göstərir ki, ölkənin ixrac qiymətlərinin cəminin hər bir ixrac məhsuluna görə idxalın ümumi qiyməti ilə müqayisədə daha az idxal məhsullarının əldə olunmasına imkan yaranır. Bu isə ölkənin həyat səviyyəsinin yaxşılaşdırılmasının azalması ilə nəticələnir.

Məsələ. Aşağıdakı cədvəldə şərti məlumatlar əsasında qiymətlər və ixracın dəyəri haqqında fərqli ölkələrə iki növ malın ixracı göstərilmişdir. Həmin məlumatlar əsasında xarici ticarətin gömrük statistikasında istifadə olunan göstəriciləri müəyyən etmək lazımdır.

Cədvəl 2.1.3.1

A və B mallarının müxtəlif ölkələrə ixracının qiymətləri və dəyəri haqqında məlumatlar

Ölkələr		Bazis dövrü		Hesabat dövrü	
		Miqdarı, tonla q_0	**Dəyəri , min Dollar** q_0p_0	**Miqdarı, tonla** q_1	**Dəyəri , min Dollar** q_1p_1
A Məhsulu	Ölkə №1	1697	2530	2290	3160
	Ölkə №2	2681	3570	3860	4880
	Ölkə №3	6649	9883	10601	13675
	Ölkə №4	-	-	812	1172
	Ölkə №5	953	1450	-	-
	Ölkə №6	4982	6730	9515	12697
Б Məhsulu	Ölkə №1	198	129	989	584
	Ölkə №2	11409	5135	-	-
	Ölkə №3	-	-	2256	1398

Mənbə.müəllif tərəfindən tərtib edilmişdir.

Həlli: İndeksləri hesablamaq üçün (**2.1.3.**2) cədvəlini qurmaq məqsədi ilə aşağıdakı hesablama aparırıq:

- zəruri nəticələr (ümumilikdə A və B malları üçün, müqayisə olunan ölkələr üçün cəmi);

- bazis və hesabat dövrlərində hər bir ölkə üçün malların 1 tona düşən qiyməti;

- Müqayisə olunan ölkələr tərəfindən hər bir məhsulun fərdi qiymət indeksləri (A məhsulu üçün, müqayisə olunan ölkələr № 1, 2, 3 və 6 ölkələrdir B məhsulu üçün yalnız 1 nömrəli ölkə).

Cədvəl 2.1.3.2

Indekslərin hesablanması üçün köməkçi cədvəl.

Məhsul	Bazis dövrü		Hesabat dövrü		1 tonun qiyməti, dollarla		Qiymət indeksi $i_p=\frac{p_1}{p_0}$	$p_0q_1=\frac{q_1p_1}{i_p}$
	q_0	q_0p_0	q_1	q_1p_1	p_0	p_1		
A məhsulu – Cəmi	16962	24163	27078	35584	1424,54	1300,00	0,9126	38992,87
Ölkə №1	1697	2530	2290	3160	1490,87	1379,91	0,9256	3414,08
Ölkə №2	2681	3570	3860	4880	1331,59	1264,25	0,9494	5139,95
Ölkə №3	6649	9883	10601	13675	1486,39	1289,97	0,8679	15757,21
Ölkə №4	-	-	812	1172		1443,35		
Ölkə №5	953	1450	-	-	1521,51			
Ölkə №6	4982	6730	9515	12697	1350,86	1334,42	0,9878	12853,46
Müqayisə olunan ölkələr üzrə cəmi	16009	22713	26266	34412				37164,70
B məhsulu üzrə-Cəmi	11607	5264	3245	1982	453,52	610,79	1,3468	1471,67
Ölkə №1	198	129	989	584	651,52	590,50	0,9063	644,35
Ölkə №2	11409	5135	-	-	450,08			
Ölkə №3	-	-	2256	1398		619,68		
Müqayisə olunan ölkələr üzrə cəmi	198	129	989	584				644,35
Cəmi bütün məhsullar üzrə		29427		37566				40464,54
O cümlədən müqayisə olunan ölkələr üzrə		22842		34996				

Mənbə. Müəllif tərəfindən tərtib edilmişdir.

A məhsulu üçün formuladan istifadə edərək müqayisə olunan ölkələr üçün orta qiymət indeksini hesablayırıq:

$$\text{İ}_{\boldsymbol{p(A)}} = \frac{q_1p_1}{p_0q_1} = \frac{34412}{37164.70} = \mathbf{0,9259}$$

$\text{İ}_{\boldsymbol{p(A)}} = \mathbf{0.9259}$ olması odeməkdir ki, hesabat dövründə A məhsulunun orta qiyməti baza qiymətinin 92,59% -ni təşkil edir. Yəni, A məhsulunun orta qiyməti bazis qiyməti ilə müqayisədə 7.41% azalmışdır.

Eynilə formuldan istifadə edərək - B məhsulu üçün:

$$\text{İ}_{\boldsymbol{p(B)}} = \frac{q_1 p_1}{p_0 q_1} = \frac{584}{644.35} = \mathbf{0.9063}$$

Yəni, B məhsulunun hesabat dövründəki orta qiyməti baza qiymətinin 90,63% -ni təşkil edir. B məhsulunun orta qiyməti bazis qiyməti ilə müqayisədə 9,37% azalmışdır.

Düstura görə A və B mallar üçün orta qiymətlərin məcmu indeksini aşağıdakı kimi hesablamaq olar:

$$\text{İ}_{\boldsymbol{p(A+B)}} = \frac{\mathbf{35584 + 1982}}{\frac{\mathbf{35584}}{\mathbf{0,9259}} + \frac{\mathbf{1982}}{\mathbf{0,9063}}} = \frac{\mathbf{37566}}{\mathbf{38431,8 + 2186,9}} = \frac{\mathbf{37566}}{\mathbf{40618,7}} = \mathbf{0,9248}$$

$\text{İ}_{\boldsymbol{p(A+B)}} = \mathbf{0,9248}$ A və B mallarının orta qiymətləri hesabat dövründə 92,48% təşkil etmiçdir. Yəni, baza dövrü ilə müqayisədə 7,52% azalma baş vermişdir.

Düsturdan istifadə edərək A məhsulunun ixrac dəyəri İndeksini təyin edək

$$\text{İ}_{\boldsymbol{pq(A)}} = \frac{q_1 p_1}{p_0 q_0} = \frac{35584}{24163} = \mathbf{1,4727}$$

$\text{İ}_{\boldsymbol{pq(A)}} = \mathbf{1.4727}$ **olması o deməkdir ki,** ixracın dəyəri 1,4727 dəfə artmışdır. Yəni, bazis dövrü ilə müqayisədə hesabat dövründə A məhsulunun ixrac dəyəri 47,27% artmışdır.

Eynilə formuldan istifadə edərək - B məhsulu üçün:

$$\text{İ}_{\boldsymbol{pq(B)}} = \frac{q_1 p_1}{p_0 q_0} = \frac{\mathbf{1982}}{5264} = \mathbf{0,3765}$$

Yəni, ixracın dəyəri B məhsulu üzrə baza ilə müqayisədə hesabat dövründə 62,35% azalmışdır.

İndi isə ixrac dəyəri indeksini hər iki məhsul üçün birlikdə müvafiq düsturla təyin edək:

$$\text{İ}_{\boldsymbol{pq(A+B)}} = \frac{35584 + \mathbf{982}}{24163 + 5264} = \frac{\mathbf{37566}}{29427} = \mathbf{1,2766}$$

Yəni, hər iki malın ixracının dəyəri hesabat dövrü ilə müqayisədə 1,2766 dəfə (27,66%) artmışdır.

A məhsulu üçün ixracın fiziki həcm indeksini müəyyənləşdirmək üçün düstur:

Fiziki həcm indeksi düsturundan istifadə edərək, A məhsulu üçün ixracın fiziki həcm indeksini müəyyənləşdirək:

$$\text{İ}_{\boldsymbol{q(A)}} = \frac{\text{İ}_{\boldsymbol{pq(A)}}}{\text{İ}_{\boldsymbol{p(A)}}} = \frac{1{,}4727}{0{,}9259} = \mathbf{1,5906}$$

A məhsulu üçün ixracın fiziki həcm indeksininin $\text{İ}_{\boldsymbol{q(A)}} = \mathbf{1,5906}$ **olması** ixracın dəyərinin baza ilə müqayisədə hesabat dövründə 1.5906 dəfə və yaxud 59,06% artması deməkdir.

Eynilə, fiziki həcm indeksi düsturundan istifadə edərək, B məhsulu üçün ixracın fiziki həcm indeksini müəyyənləşdirsək aşağıdakı nəticəni alarıq:

$$\text{İ}_{\boldsymbol{q(B)}} = \frac{\text{İ}_{\boldsymbol{pq(B)}}}{\text{İ}_{\boldsymbol{p(B)}}} = \frac{0{,}3765}{0{,}9063} = \mathbf{0,4154}$$

Yəni, baza ilə müqayisədə hesabat dövründə ixracın dəyəri 41,54% təşkil etmişdir. Bu isə B məhsulunun baza ilə müqayisədə hesabat dövründə ixrac dəyərinin 58,36% azalması deməkdir.

Umumi indeks düsturundan istifadə edərək ixrac olunmuş A və B mallarının fiziki həcminin ümumi indeksini hesablasaq aşağıdakı nəticəni alarıq:

$$\text{İ}_{\boldsymbol{p(A+B)}} = \frac{\text{İ}_{\boldsymbol{pq(A+B)}}}{\text{İ}_{\boldsymbol{p(A+B)}}} = \frac{\mathbf{1,2766}}{\mathbf{0,9248}} = \mathbf{1,3804}$$

Yəni, A və B mallarının ixracının fiziki həcmi 1.3804 dəfə və yaxud 38.04% artmışdır.

2.1.5. *Xarici ticarətin gömrük statistikasında ixrac və idxalın struktur indeksi*

Bu indeks hər hansı obyektin göstəricisinin ümumi göstəriciyə nisbəti ilə müəyyən edilir və aşağıdakı düstura əsasən hesablanır:

$$\boldsymbol{i_{si} = d = \frac{f}{\sum f}} \qquad \textbf{(2.1.5.1)}$$

Yuxarıda göstərilmiş misala uyğun olaraq 2004-cü ildə Rusiya MDB ölkələrinə cəmi 4142 min ton, o cümlədən Gürüstana 10,7 min.ton ton neft məhsulu ixrac etdiyini nəzərə alsaq, MDB ölkələrində ixrac olunan neft məhsullarının tərkibində Gürcüstana ixracın xüsusi çəkisi düsturuna əsasən: 0,0026 [10,7/4142] və yaxud 2,6‰-*ni (promille)* təşkil edəcəkdir.

İdxal, izrac və xarici ticarət dövriyyəsinin strukturu aşağıdakı düsturla hesablanır.

Xarici ticarət dövriyyəsinin strukturunu ifadə edən düstur

$$\boldsymbol{S_{ü} = \frac{(İD+İX)_F}{(\sum İD+\sum İX)}} \qquad \textbf{(2.1.5.2)}$$

İdaxlın strukturunu ifadə edən düstur

$$\boldsymbol{S_{İD} = \frac{İD_F}{\sum İD}} \qquad \textbf{(2.1.5.3)}$$

İxracın strukturunu ifadə edən düstur

$$\boldsymbol{S_{İX} = \frac{İX_F}{\sum İX}} \qquad \textbf{(2.1.5.4)}$$

Xarici ticarət dövriyyəsinin orta həcmi

$$\boldsymbol{V_t = \frac{\sum İD+\sum İX}{n}} \qquad \textbf{(2.1.5.5)}$$

Burada, V_t - xarici ticarət dövriyyəsinin orta həcmi,

$\sum İD$ –bütün ölkələrlə aparılan idxal

$\sum İX$ –bütün ölkələrlə aparılan ixrac

2.1.6. Kordinasiya indeksi

Bu indeks obyektin hər hansı hissəsinin baza müqayisəsi üçün əsas götürülən digər hissəsinə nisbəti olub ümumi şəkildə aşağıdakı kimi hesablanır:

$$i_K = \frac{f}{f_{\acute{o}}}, \qquad \textbf{(2.1.6.1)}$$

Məsələn 2017-ci ildə idxal Azərbaycan Respublikasında 7316 mln. ABŞ dolları, ixrac isə 13911,7 mln. ABŞ dolları dəyərində olduğunu nəzərə alsaq koordinasiya indeksi (7) düsturuna əsasən: i_K = 13911,7/7316=1,9 yəni ixrac idxaldan 1,9 dəfə yüksəkdir.

Baza elementlərini dəyişməklə həmin düstura əsasən : i_K = 7316/13911,7= 0,526, yəni ixrac Azərbaycan Respublikasında 2017-ci il üzrə idxalın 52,6%-ni təşkil etmişdir.

Kordinasiyanın nisbi kəmiyyəti əsasən ixracın idxalı neçə % üstələməsini göstərir və aşagıdakı düsturla hesablanır.

$$\boldsymbol{K_n = \frac{\text{İ}X}{\text{İ}D}}, \ \textbf{(2.1.6.2)}$$

Burada, $\text{İ}X$ −ixracın həcmi,

$\text{İ}D$ −idxalın həcmi,

K_n − kordinasiyanın nisbi kəmiyyətidir.

Müqayisə indeksi. Bu indeks eyni əlamətə malik olan müxtəlif obyektlərin müqayisəsini ifadə edir. Müqayisə indeksi aşağıdakı kimi hesablanır:

$$\text{İ}_C = \frac{X_A}{X_B} \quad \textbf{(2.1.6.3)}$$

Burada, A və B müqayisə edilən obyektlərdir.

Yuxarıda göstərilmiş misala əsasən, 2010-cu ildə Azərbaycan Respublikasında ixracın həcmi fob dəyəri ilə 26480,0 mln. ABŞ dolları, Belorusiyada isə 25350,0 mln.ABŞ dolları olmuşdursa, bu halda ixracın həcmini müqayisə etsək nisbi kəmiyyəti i_c

=26480,0/25350,0=1,04458 olacaqdır. Yəni, demək olar ki, Azərbaycanda ixracın həcmi Belorusiya ilə müqayisədə 1,04458 dəfə çoxdur. Oyektlərin yerini dəyişsək bu halda i_c =25350,0/26480,0=0,957 alınacaqdır. Yəni, Belorusiya Respublikasının 2010-cü ildə ixracı Azərbaycan Respublikasının ixracının 95,7%-ni təşkil etmişdir.

2.2.Xarici ticarətin gömrük statistikasında İntensivlik əmsalı

Bu əmsal eyni obyektin müxtəlif əlamətlərinin müqayisəsidir. Xarici ticarətin gömrük statistikasında İntensivlik əmsalı aşağıdakı düstura əsasən hesablanır:

$$i_{IH} = \frac{X}{Y}. \qquad \textbf{(2.2.1)}$$

Burada, X – obyektin bir əlaməti; Y – həmin obyektin digər əlamətidir.

Məsələn, 1 gömrük işçisi tərəfindən qeydiyyata alınmış Dövlət Gömrük Bəyənnamələrinin sayı intensivlik indeksi olub, gömrük idarəsində qeydiyyata alınmış bəyənnamələrin intensivliyini xarakterizə edir.

III FƏSİL

XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA STATİSTİK KƏMİYYƏTLƏR VƏ ONLARIN XARAKTERİSTİKALARI

3.1. Xarici ticarətin gömrük statistikasında statistik kəmiyyətlər

Kütləvi hadisə və proseslər ayrı-ayrı amil kimi mövcuddur və statistik uçotun köməyi ilə qeydə alınır. Qeyd etmək lazımdır ki, statistikada hadisə və prosseslərin əlamətləri mühüm əhəmiyyət kəsb edir. Məcmui vahidlər əlamətlər adlanan müəyyən xüsusiyyətlərə malikdir. Əlamətlər onların təsnifatlaşdırılmasına əsas verən ölçü və digər xüsusiyyətləri nəzərə alan üsullarla fərqlənirlər. Bu aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 3.1.1.

Statistikada əlamətlərin əsas təsnifatı.

Təsnifat parametrləri	Əlamətlərin növləri	Əlamətlərə aid misallar
İfadə olunma xüsusiyyətləri üzrə	Təsvir etmə (atributiv)	Malın mənşə ölkəsi
	Kəmiyyət (rəqəm)	Malın çəkisi
Ölçmə üsulu üzrə	İlkin (həcmi)	Malın çəkisi
	Ikinci dərəcəli (hesabi)	Malın dəyəri
Xarakterizə olunan obyektə münasibət üzrə	Birbaşa (vasitəsiz)	Malın brutto çəkisi
	Dolayı	Malın netto çəkisi
Variyasiya xüsusiyyəti üzrə	Alternativ	Qeyri-ərzaq malları
	Diskret	Xarici iqtisadi fəaliyyətin əmtəə çeşidi üzrə malın kodu
	Fasiləsiz	Malın saxlama müddəti

Vaxta münasibət üzrə	Ani	Malın saxlama temperaturu
	İnterval	Malın saxlama dəyəri

Mənbə.Müəllif tərəfindən tərtib edilmişdir.

Kütləvi hadisələrin xüsusiyyətləri statistikada statistik kəmiyətlərlə (göstəricilərlə) müəyyən edilir. Statistik kəmiyyətlər (göstəricilərl) mütləq, nisbi və orta kəmiyyətlərə bölünürlər.

Xarici ticarətin gömrük statistikasının müşahidələrinin nəticələri, yəni yük gömrük bəyənnamələri üzrə toplanmış məlumatlar özlüyündə mütləq kəmiyyətlərə aiddir. Belə ki, burada hər hansı bir hadisənin inkişaf səviyyəsi ifadə edilir. Məsələn, hər hansə i malının j ölkəsinə ixrac-idxalının kəmiyyəti.

Gömrük statistikasında mütləq kəmiyyətlərin rolu böyükdür. Mütləq kəmiyyətlər ictimai hadisələrin həcmini, səviyyəsini xarakterizə edən ümumiləşdirici göstərici olub fərdi və yekun şəkildə olurlar.

Mütləq kəmiyyətlərin ölçü vahidləri-natural, şərti natural, kombinələşdirilmiş və dəyər (pul) formasındadır.

İctimai hadisələrin təbii xüsusiyyətlərinə uyğun olaraq istifadə olunan ölçü vahidlərinə natural ölçü vahidləri deyilir. Məsələn ixrac-idxal olunan yükün miqdarı (tonla), daşıma məsafəsi km-lə ifadə olunur.

Natural ölçü vahidləri içtimai hadisənin fiziki xüsusiyyətlərini xarakterizə edir. (ton, km, litr və s.)

Bir sıra hadisələrin həcmini ifadə etmək üçün kombinələşdirilmiş ölçü vahidlərindən istifadə edilir. Kombinələşdirilmiş ölçü vahidləri-yük dövriyyəsi (ton-km, sərnişin-km və s.). Bu vahidlər əsasən nəqliyyatın işini xarakterizə edən ən mühüm göstəricilərdir. İctimai hadisələri şərti natural ölçü vahidləri ilə ifadə etmək üçün çevirmə əmsallarından istifadə edilir. Çevirmə əmsalları hər hansı əlamət üzrə müxtəlif məhsulların natural ölçü vahidləri arasındakı nisbətlə müəyyən edilir. Müxtəlif ölçü vahidlərinin qiməti dəyərlə ifadə edilir. Qeyd etmək lazımdır ki, müxtəlif istehlak dəyəri məh-

sulların birlikdə həcmini ancaq pul ölçü vahidi ilə ifadə etmək mümkündür.

Mühüm ümumiləşdirici göstəricilərdən biri nisbi kəmiyyətlərdir. Nisbi kəmiyyətlər ümumiləşdirici göstərici olmaqla, konkret ictimai hadisələrə xas olan kəmiyyət nisbətlərini göstərir. Bu kəmiyyətlər 2 mütləq kəmiyyətin müqayisəsi nəticəsində alınır.belə müqayisə nəticəsində ictimai hadisənin mahiyyətini dərk etmək və həmin hadisə barəsində daha geniş təhlil aparmaq və nəticə əldə etmək mümkün olur. Ən sadə forması bir kəmiyyətin digərindən neçə dəfə az və ya çox olmasıdır. Bu kəmiyyətlərin geniş yayılmış ifadə formalarından biri faiz formasıdir. Bir sıra hallarda isə nisbi kəmiyyətlər promille (ədədin mində biri) ilə ifadə edilir.

Nisbi kəmiyyətlər bir sıra məqsədlər üçün hesablana bilər. Təcrübədə hesablanan nisbi kəmiyyətlərin əsas növləri əsasən aşağıdakılardan ibarətdir:

1.Planın yerinə yetiilməsi nisbi kəmiyyəti
2.Dinamika nisbəti kəmiyyəti
3.Qurluş nisbəti kəmiyyəti
4.İntensiv nisbəti kəmiyyəti
5.Kordinasiya nisbəti kəmiyyəti
6.Müqaisə nisbəti kəmiyyəti

Şərti işarələmələr.

Əsas dövrün mütləq kəmiyyəti-q_0

Hesabat dövrünün mütləq kəmiyyəti-q_1

Plan tapşırığının mütləq kəmiyyəti-$q_{pl.}$ olarsa,

Plan tapşırığının nisbi kəmiyyəti-$H_{pl} = \frac{q_{il}}{q_0}$

Plan yerinə yetirilməsinin nisbi kəmiyyəti-$H_j = \frac{q_1}{q_p}$

Dinamika nisbi kəmiyyəti-$H_d = \frac{1}{q_0}$

Dərk olunma səviyyəsinə görə nisbi kəmiyyətlər 3 əsas qrupa bölünür.

-müqayisələi nisbi kəmiyyətlər
-xüsusi çəki və qurluş nisbi kəmiyyətlər
-statistik əmsallar.

3.1.1. Mütləq kəmiyyətlər. Mütləq kəmiyyətlər X-la, statistik məcmuidə onunumumi sayı isə N-lə işarə edilir.

Mütləq kəmiyyətlər ani (müəyyən tarixə hadisələrin inkişaf səviyyəsi ifadə edilir, məsələn 01.01.2018-ci il tarixinə neftin ixrac qiyməti) və intervallı (müəyyən intervala hadisələrin inkişaf səviyyəsi ifadə edilir, məsələn ixracın həcminin aylıq, rüblük, illik və s.) olmaqla iki formada müəyyən edilir. Ani mütləq kəmiyyətlərdən fərqli olaraq, ntervallı mütləq kəmiyytlərdə ardıcıl cəmləmə aparılır. (məsələn, ixracın yanvar, fevral və mart ayları üzrə həcmini toplamaqla I rüb üzrə ixracın kəmiyyətini alarıq). Ümumi statistikada olduğu kimi gömrük statistikasında da aşağıdakı ölçü vahidləri geniş yayılmışdır:

1) natural ölçü vahidləri. Natural ölçü vahidləri sadə (məsələn, ədəd, ton, metr) və iki müztəlif adlı kəmiyyətlərin birləşməsindən yaranmış mürəkkəb kəmiyyətlərdir(məsələn, kilovat-saat, ton-mil);
2) şərt-natural(məsələn, alkoqollu işkilər dkl-də 100% spirt nəzərə alınır, lakin yanacağın müxtəlif növləri şərti yanacağa görə yanacağın istilik törətmə qabiliyyətinə 7000 ккal/kq və yaxud 29,3 MDJ/кq əsasən müəyyən ölçülür);
3) Dəyər forması. Bu əmtənin pul formasında qiymətləndirilməsidir ki, bunu da natural ölçü vahidləri ilə müəyyən etmək olmaz (ABŞ dolları, manat və s.)

Eyni kəmiyyətli əlamət vahidlərinin sayı *f*-lə işarə edilir və tezlik adlanır. Aydındır ki, bütün kəmiyyətin rəqəmlərini, eyni kəmiyyətli əlamətlərlə toplamaqla N-i almış olarıq. Yəni:

$$\sum f = N \qquad \textbf{(3.1.1)}$$

Mütləq kəmiyyətləri, məsələn Azərbaycan Respublikasının xarici ticarəti üzrə statistik məlumatlarını zaman və məkan amilüzrə müqayisə etmək, onların dəyişmə və inkişaf qanunauyğunluqlarını tədqiq etmək, məcmuyu qruluşunu öyrənmək mümk mühüm əhəmiyyət kəsb edir.Mütləq kəmiyyətlərdən istifadə etməklə bu məsə-

lələri həl etmək mümkün deyildir. Bu məsələlərin həlli məqsədi ilə nisbi kəmiyyətlərdən istifadə edilir.

3.1.2. Nisbi kəmiyyətlər ümumiləşdirici göstərici olmaqla, konkret ictimai hadisələrə xas olan kəmiyyət nisbətlərini göstərməklə, iki mütləq kəmiyyətin nisbəti (müqayisəsi) nəticəsində alınır. Ən sadə forması bir kəmiyyətin digərindən neçə dəfə az və ya çox olmasıdır. Kəsrin sürətində dayanan kəmiyyət kəsrin məxrəcində dayaynan kəmiyyətlə (baza müqayisəsi) müqayisə edilir. Məsələn, 2010-cu ildə Azərbaycan Respublikasında ixracın həcmi fob dəyəri ilə 26480,0 mln. ABŞ dolları, Belorusiyada isə 25350,0 mln.ABŞ dolları olmuşdursa, bu halda ixracın həcmini müqayisə etsək nisbi kəmiyyətə (26480,0 /25350,0=1,04458) əsasən demək olar ki, Azərbaycanda ixracın həcmi Belorusiya ilə müqayisədə1,04458 dəfə çoxdur. Alınmış nisbi kəmiyyət, nisbi kəmiyyətin ən sadə forması olub bir kəmiyyətin digərindən neçə dəfə çox olmasını göstərir.

Əgər müqayisə edilən göstərici baza göstəricisindən iki dəfə böyükdüesə, bu halda əmsal formasından istifadə edilir.

Əgər nisbi kəmiyyət vahidə yaxındırsa, bu halda o faizlə ifadə edilir.

Əgər nisbi kəmiyyət vahidən kiçik olarsa, bu halda o promille ilə ifadə edilir. Məsələn, 2004-cü ildə Rusiya MDB ölkələrinə cəmi 4142 min ton, o cümlədən Gürüstana 10,7 min.ton ton neft məhsulu ixrac etmişdir ki, bu da MDB ölkələrində ixrac olunan neft məhsullarının 0,0026 [10,7/4142] və yaxud 2,6‰-*ni (promille)* təşkil etmişdir.

Əsasən nisbi kəmiyyətlərin dinamiki, struktur, müqayisə və intensivlik indeksləri bir-birindən fərqlənirlər.

Dinamika indeksi hər hansı bir hadisənin zaman gprə dəyişmə xüsusiyyətlərini müəyyən edir. Bir çox ədəbiyyatlarda dinamika indeksi artım temi kimi də ifadə edilir. Dinamika indeksi hər hansı mütləq kəmiyyətin müxtəlif dövrlərdə həmin kəmiyyətə münasibətlərini ifadə edir. Bu indeks aşağıdakı düsturla təyin edilir:


$$i_D = \frac{X_1}{X_0}, \quad \textbf{(3.1.1.1)}$$

Burada, i_D –dinamika indeksi,
X_1 –hesabat və ya tədqiq olunan dövr,
X_0 – keçən il və yaxud bazis dövrüdür.

Dinamika indeksinin kriteriyası vahidlə müəyyən edilir (100%). Yəni, əgər i_D>1 olarsa, zamana görə artım tempi nümayiş etdirilir; əgər i_D=1 olarsa stabillik; əgər i_D<1 olarsa ictimai hadisənin zamana görə azalması müşahidə ediləcəkdir. Həmçinin indeks dinamikasında indeksin dəyişməsi də tez-tez istifadə edilir. Bu kəmiyyət indeks dinamikasınan vahid çıxılmaqla aşağıdakı kimi hesablanır:

$$T = i_D - 1, \quad \textbf{(2.1.2.2)}$$

Əgər T>0, olarsa artım tempi, *я*; T=0 olarsa stabillik, T<0 – azalma müşahidə ediləcəkdir. Bu göstərilənləri aşağıdakı qrafikə əsasən təhlil etmək olar.



Qrafik 3.1.2.1.Azərbaycan Respublikasının 2012-2018-ci illər üzrəticarət dövriyyəsi.
Məbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Bu qrafikə əsasən Azərbaycan Respublikasının ticarət dövriyyəsi üzrə 2018 və 2017-cı illərdə dinamika indeksi düsturuna əsasən: i_D = 30923,6/22593,6*100% = 136,9%, olacadır ki, bu da kriterial kəmiyyətdən (100%) çox olduğundan xarici ticarət dövriyyəsinin art-

ması deməkdir. Yuxarıda göstərilmiş 3 düsturundan istifadə etməklə, artım tempinin dəyişməsi: *T* = 136,9% – 100% = 36,9 % olacaqdır. Bu isə odeməkdir ki, 2018-ci ildə ficarət dövriyyəsi 36,9 % artmışdır.

Dinamika indeksində plan tapşırıqları indeksi və planın yerinə yetirilməsi indeksi müxtəlif kəmiyyətlərin planlaşdırılması və onların yerinə yetirilməsinə nəzarət etmə baxımından mühüm əhəmiyyət kəsb edir.

Plan tapşırığı indeksi plan üzrə kəmiyətin bazis kəmiyyətinə nisbətidir. Plan tapşırığı indeksi aşağıdakı düstura əsasən müəyyən edilir:

$$\boldsymbol{i_{PT} = \frac{X^{pt}{}_1}{X_0}}, \quad \textbf{(3.1.2.3)}$$

Burada, i_{PD} −plan tapşırığı indeksi,

$X^{pt}{}_1$ −planlaşdırılam qiymət,

X_0 − əlamətin bazis qiyməti.

Məsələn, ARDGK dölət büdcəsinə 2016-cı ildə gömrük rüsumları, ƏDV-si, aksizlər və yol vergisi üzrə bütünkükdə 2291,6 mln. ABŞ dolları həcmində vəsait ödəmişdir. 2017-ci ildə isə 2605 mln. ABŞ dolları ödənilməsini planlaşdırmışdır. Bu halda (4) düsturuna əsasən i_{PT} = 2605/2291,6 = 1,14 olacaqdır.Yəni, plan tapşırığı ARDGK-də 2017-ci il üzrə 2016-cı illə müqayisədə 114% təşkil edir.

Planın yerinə yetirilmə faizini yəyin etmək üçün planın yerinə yetirilmə indeksi hesablanmalıdır. Yəni, əlamətin müşahidə olunan qiymətinin plan (optimal, maksimal mümkün olan) qiymətinə nisbəti hesablanmalıdır. Planın yerinə yetirilmə indeksi aşağıdakı düstura əsasən hesablanır:

$$\boldsymbol{i_{Pjj} = \frac{X_1}{X^{pt}{}_1}}, \quad \textbf{(3.1.2.4)}$$

Məsələn, ARDGK 2017-cı ildə dölət büdcəsinə bütünkükdə 2600 mln. ABŞ dolları ödənilməsini planlaşdırmışdır, faktiki olaraq 2608,8 isə Bu halda (4) düsturuna əsasən i_{Pjj} = 2608,8/2600 = 1,0034

olacaqdır.Yəni, plan tapşırığı ARDGK-də 2017-ci il üzrə 100,3% yerinə yetirilmişdir.

3.1.3. Hesabi orta kəmiyyətlər. Kütləvi məlumat əsasında hesablanmış orta kəmiyyətlər hadisənin qanunauyğunluğunu xarakterizə edə bilir. Belə orta kəmiyyətlər təsadüfü hadisələri nəzərə almır.

Konkret məkan və zaman şəraitində ictimai hadisələrin dəyişən elementlərinin tipik səviyyələrini xarakterizə edən göstərici statistikada orta kəmiyyət adlanır. Orta kəmiyyətlərin ən çox yayılmış forması hesabi orta kəmiyyətdir. Bu kəmiyyətlər sadə hesabi orta kəmiyyətə və çəkili hesabi orta kəmiyyətə ayrılır.

Sadə hesabi orta kəmiyyət aşağıdakı düstura əsasən hesablanır:

$$\bar{X} = \frac{x_1+x_2+x_3+\cdots.+x_n}{n} = \frac{\sum x}{n} \quad \textbf{(3.1.3.1)}$$

Burada, $x_1, x_2, x_3, \ldots., x_n$ - əlamətlərin ayrı-ayrı qiymətləri və yaxud variantlardır,
n-müşahidələrin sayıdır.

3.1.4. Çəkili hesabi orta kəmiyyətlər

Orta kəmiyyətin daha geniş yayılmış forması çəkili hesabi orta kəmiyyətdir. Çəkili hesabi orta kəmiyyət aşağıdakı düstura əsasən müəyyən edilir:

$$\bar{X}_{ç} = \frac{x_1 f_1+x_2 f_2+x_3 f_3+\cdots.+x_n f_n}{f} = \frac{\sum xf}{\sum f} \quad \textbf{(3.1.4.1.)}$$

Burada, x-əlamətlərin (variantların) qiymətləri, f-əlamətlərin çəkisidir.

Çəkili hesabi orta kəmiyyəti sadə misalla izah edək.

Məsələ. 2017-ci ilin mart ayında gömrük idaəsində 23 gün ərzində gömrük işçiləri tərəfindən yük gömrük bəyənnamələri aşağıdakı cədvəldə göstərilmiş sayda qeydiyyata alınmışdır.

Mart ayında gömrük əməkdaşları tərfindən qeydiyyata alınmış YGB-nin günlərə görə bölgüsü.

Bir gün ərzində gömrük işçiləri tərəfindən qeydiyyata alınmış YGB-nin sayı, X	1	2	3	4	5	6	7
Günlərin sayı, f	3	5	7	4	2	1	1

Cədvəl məlumatlarından istifadə edərək YGB-nin orta sayını hesablayaq.

Həlli: Çəkili hesabi orta kəmiyyət aşağıdakı düsturuna əsaən bir gün ərzində gömrük işçiləri tərəfindən qeydiyyata alınmış YGB-nin sayı

$$\overline{X} = \frac{1*3+2*5+3*7+4*4+5*2+6*1+7*1}{23} = 73/23 = 3{,}17$$ ədəd

olacaqdır.

Orta kəmiyyətlər əsasən fasiləli variyasiya sıraları əsasında da hesablanır. Bu zaman əvvəlcə fasilənin orta qiyməti fasilənin aşağı və yuxarı həddinin cəminin yarısı ilə müəyyən edilir ($x = \frac{x_{max}+x_{\min}}{2}$). Orta kəmiyyətlərin fasiləli variyasiya sıraları əsasında hesablanmasına aid aşağıdakı məsələyə baxaq:

Məsələ: Aşağıdakı cədvəldə 2014-2017-ci illər üzrə şərti olaraq avtomobil nəqliyyat vasitələri ilə ixrac olunmuş yükün miqdarı, 1 ton yükün qiymət intervalı və yüklərin daşıma məsafəsi verilmişdir. Cədvəldə verilmiş şərti statistik məlumatlara əsasən avtomobil nəqliyyatının 2014-2017-ci illər üzrə orta yük dövriyyəsinin qiymətini təyin edin.

İllər	İxrac olunmuş yükün miqdarı, (ton)	1 ton yükün qiymət intervalı, (manat)	Məsafə (km)
2015	150	90-100	100
2016	180	80-100	400
2017	200	100-160	300

Həlli: Əvvəlcə qiymət üzrə fasilənin orta qiymətini fasilənin aşağı və yuxarı həddinə uyğun olaraq yuxarıda göstərilmiş $x = \frac{x_{max}+x_{\min}}{2}$ düsturuna əsasən hesablayaq. Bu halda, $x_{2015} = \frac{90+100}{2} = 95$, $x_{2016} = \frac{80+100}{2} = 80$, $x_{2017} = \frac{100+160}{2} = 130$ olacaqdır.

Avtomobil nəqliyyatının yük dövriyyəsi,

$Q_{2015} = q_{2105} * L_{2015} = 150 * 100 = 15000 ton * km$, $Q_{2016} = q_{2016} * L_{2016} = 180 * 400 = 72000 ton * km$, $Q_{2017} = q_{2107} * L_{2017} = 200 * 300 = 60000 ton * km$ olacaqdır.

Avtomobil nəqliyyatının 2014-2017-ci illər üzrə orta yük dövriyyəsi üzrə qiyməti çəkili hesabi orta kəmiyyət düsturuna əsasən aşağıdakı kimi hesablanacaqdır.

$\bar{X}_{ç} = \frac{95*15000+80*72000+130*60000}{15000+72000+60000} = 101{,}9$ manat

3.2. Orta kvadratik kəmiyyətlərin xassələri

Orta kvadratik kəmiyyət özünə məxsus xüsusiyyətlərə malikdir. Bunları bilmək onun istifadə edilməsində və hesablamalarda mühüm əhəmiyyət kəsb edir.

Əlamətlərin fərdi qiymətlərinin onu orta qiymətindən kənarlaşmasının cəmi sıfra bərabərdir. Bunu aşağıdakı kimi isbat etmək olar.

$$\sum_{i=1}^{N}(X_i - \bar{X}) = (X_1 - \bar{X}) + (X_2 - \bar{X}) + ... + (X_N - \bar{X}) = X_1 + X_2 + ... X_N - N\bar{X} = \sum_{i=1}^{N} X_i - N\frac{\sum_{i=1}^{N} X_i}{N} = 0$$

1.Əgər əlamətin hər bir qiymətini sabit ədəd vursaq və ya bölsək orta qiymət həmin qədər artacaq və azalacaqdır. İsbatı:

$$\frac{\sum_{i=1}^{N}(X_i : c)}{N} = \frac{\frac{X_1}{c} + \frac{X_2}{c} + ... + \frac{X_N}{c}}{N} = \frac{\frac{X_1 + X_2 + ... X_N}{c}}{N} = \frac{X_1 + X_2 + ... X_N}{N} : c = \bar{X} : c$$

Bu onu deməyə əsas verir ki, əlamətinfərdi qiymətini hər hansı c dəfə azaldıb orta qiyməti hesabladıqdan sonra nəticəni c-yə vurmaq olar.

2. Əgər əlamətin hər bir qiymətinə sabit bir ədədi əlavə etsək və ya çıxsaq, orta qiymət həmin ədəd qədər artacaq və ya azalacaqdır. İsbatı:

$$\frac{\sum_{i=1}^{N}(X_i+c)}{N}=\frac{(X_1+c)+(X_2+c)+\ldots+(X_N+c)}{N}=\frac{\sum_{i=1}^{N}X_i+Nc}{N}=\overline{X}+c$$

3. Bu xüsusiyyətdən orta kəmiyyətlərin çoxəhəmiyyətli və zəif variasiya olunmuş əlamətlərin qiymətinin hesablanmasında istifadə edilir.

4. Əgər çəkili hesabi orta kımiyyəti sabit bir ədədə vursaq və ya bölsək, orta kəmiyyət dəyişməyəcəkdir. İsbatı:

$$\frac{\sum_{i=1}^{N}X_i\frac{f_i}{c}}{\sum_{i=1}^{N}\frac{f_i}{c}}=\frac{\left(\sum_{i=1}^{N}X_if_i\right):c}{\left(\sum_{i=1}^{N}f_i\right):c}=\overline{X}$$

5. Əlamətin fərdi qiymətinin orta kvadratik kənarlaşması, istənilən digər ədədə nisbətən orta hesabi qiymətdən kiçikdir.

İsbatı: a dəyişənindən kənarlaşmanın orta kvadratik cəmini quraq: $f(a)=\sum_{i=1}^{N}(X_i-a)^2$, bu funksiyanın ekstremumunu tapmaq üçün onun a-ya görə törəməsini tapıb sıfra bərabərləşdirək. Yəni, $\frac{\partial f}{\partial a}=2\sum_{i=1}^{N}(X_i-a)(-1)=0$, buradan alarıq $\sum_{i=1}^{N}(X_i-a)=0$;

$$a\sum_{i=1}^{N}(1)-\sum_{i=1}^{N}X_i=0;\ aN=\sum_{i=1}^{N}X_i;\ a=\frac{\sum_{i=1}^{N}X_i}{N}=\overline{X}$$

Beləliklə, kvadratik kənarlaşmanın ekstremumunun maksimumu $a=\overline{X}$ olduqda alınır. Məntiqi baxımdan göründüyü kimi funksiyanın maksimum qiymət alma ehtimalı yoxdur və bu ekstremum minimum olacaqdır.

Əgər əlamətin fərdi qiymətinin orta qiymətlə dəyişdirilərsə bu zamanı ilkin qiymətlərin kvadratları cəminin dəyişməz saxlanılması vacibdir. Əks halda orta kəmiyyət orta kvadratik kəmiyyət olacaqdır. Orta kvadratik kəmiyyət aşağıdakı düstura əsasən müəyyən edilir.

$$\overline{X}_{кв} = \sqrt{\frac{\sum_{i=1}^{N} X_i^2}{N}} \qquad (3.2.1)$$

Əsasən orta kvadratik kəmiyyətdən təhlil və qiymətləndirmələrdə geniş sferada istifadə edilir. Hesabi orta kəmiyyətin 5-ci xassəsi əlamətlərin variyasiyasının məcmuda hesablanmasıdır.

Analoji olaraq, əgər məsələnin qoyulmuş şərtinə əsasən əlamətin fərdi qiymətinin kubunun dəyişməz cəmini onların orta qiymətinə dəyişməsini saxlamaq üçün orta kubik kəmiyyətə keçmək lazımdır. Orta kubik kəmiyyət aşağıdakı düsturla müəyyən edilir:

$$\overline{X}_{куб} = \sqrt[3]{\frac{\sum_{i=1}^{N} X_i^3}{N}} \qquad \textbf{(3.2.2)}$$

3.3. Statistikada həndəsi orta kəmiyyətlər

Statistikada orta kəmiyyətə yanaşı həndəsi orta kəmiyyətlər də geniş tətbiq edilir ki, bu da aşağıdakı kimi hesablanır:

$$\overline{X}_{геом} = \sqrt[N]{X_1 \cdot X_2 \cdot \ldots \cdot X_N} = \sqrt[N]{\prod X} \qquad \textbf{(3.3.1)}$$

Həndəsi orta kəmiyyət orta qiymət haqqında daha dəqiq və keyfiyyətli məlumat əldə etməyə imkan verir.

Həndəsi orta kəmiyyət də ora kvadratik kımiyyət kimi bir sıra riyazi xassələrə malikdir. Bu xassələrə əsasən həndəsi orta kəmiyyətin hesablanmasını xeyli sadələşdirmək olar. Həmin xassələrə aşağıdakılar aiddir.

1. Hər bir variantın çəkisini eyni bir ədədə vursaq və ya bölsək orta kəmiyyətin qiyməti dəyişnəyəcəkdir.

2. Ayr-ayrı variantın çəkilərinin mütləq qiyməti əvəzinə orta kəmiyyətin onların xüsusi çəkiləri əsasında hesablasaq, orta kəmiyyətin qiyməti dəyişnəyəcəkdir.

3. Variantları hər hansı bir ədəd qədər artırıb-azaaltsaq, o halda orta kəmiyyət həmin ədəd qədər artıb-azalar.

$$\bar{X} = \frac{\sum x(x-x_0)f}{f} + x_0 \quad \textbf{(3.3.2)}$$

4. Əgər hər bir variantı hə hansı bir sabit ədədə (d) bölsək (yaxud vursaq) onda orta kəmiyyət də həmin sabit ədəd dəfə azalar (yaxud artar).

$$\bar{X} = \frac{\sum\left(\frac{x}{d}\right)f}{\sum f} \times d \quad \textbf{(3.3.3)}$$

Hesabi orta kəmiyyətin moment düsturu açağıdakı kimi yazılır:

$$\bar{X}=\frac{\sum\left(\frac{x-x_0}{d}\right)f}{\sum f}\text{d}+x_0, \quad \textbf{(3.3.4)}$$

burada x_0-variantlar sırasında götürülmüş sabit bir ədəddir,
d- fasilənin böyüklüyüdür.

3.4. Statistikada harmonik orta kəmiyyətlər

Harmonik orta kəmiyyət hesabi orta kəmiyyətin çevrilmiş formasıdır. Sadə harmonik orta kəmiyyət aşağıdakı kimi hesablanır:

$$\bar{X}=\frac{n}{\sum\frac{1}{x}} \quad \textbf{(3.4.1)}$$

Əgər statistik məlunatlarda X_i məcmusu müxtəlif variantları üzrə f tezliyini saxlamırsa, Xf-in törəməsi kimi təqdim olunarsa, bu halda çəkili orta harmonik düsturdan istifadə edilir. Bu düsturu almaq üçün $Xf=w$ ilə işarə etsək, buradan $f=w/X$ alarıq. Bu əvəzləmələr düsturunda yerinə qoysaq, alınmış əvəzləmələrə əsasən çəkili orta harmonik kəmiyyətin düsturu aşağıdakı kimi olacaqdır:

$$\overline{X}_{гарм} = \frac{\sum w}{\sum \frac{w}{X}} = \frac{w_1 + w_2 + \ldots + w_N}{\frac{w_1}{x_1} + \frac{w_2}{x_2} + \ldots + \frac{w_N}{x_N}} \qquad \textbf{(3.4.2)}$$

Beləliklə, çəkili orta harmonik kəmiyyətin düsturu $w=Xf$ məlum olduğu, həqiqi cəki f məlum olmadığı halda tətbiq edilir. Bəzi hallrda, əgər hər variantın çəkisi w=1 olarsa, bu halda fərdi kəmiyyət X 1 dəfə görüşür. Sadə çəkili orta harmonik kəmiyyət aşağıdakı düsturla hesablanır:

$$\overline{X}_{гарм} = \frac{1+1+\ldots+1}{\frac{1}{x_1} + \frac{1}{x_2} + \ldots + \frac{1}{x_N}} = \frac{N}{\sum \frac{1}{X}} \qquad \textbf{(3.4.3)}$$

Yuxarıda gpstərilən bütün növ orta kımiyyətlər dərəcəli kəmiyyətlərin ümumi tipinə aid olub aşağdakı kimi müəyyən edilir:

$$\overline{X} = \sqrt[m]{\frac{\sum X^m}{N}} \qquad \textbf{(3.4.4)}$$

Əgər burada $m = 1$ olarsa, həndəsi orta kəmiyyəti;
$m = 2$ olarsa, orta kvadratik kəmiyyəti;
$m = 3$ olarsa, orta kubik kəmiyyəti;
$m = 0$ olarsa, orta həndəsi kəmiyyəti;
$m = -1$ olarsa orta harmonik kəmiyyəti ifadə edən düsturu alarıq.

Yuxarıda göstərilənlərə əsasən aşağıdakı əlaqəni qurmaq olar:

$$\overline{X}_{ГМ} \le \overline{X}_{геом} \le \overline{X}_{арифм} \le \overline{X}_{КВ} \le \overline{X}_{куб} \quad \textbf{(3.4.5)}$$

Bu əlaqə orta kəmiyyətlərin majorantlıq qaydası adlanır.

3.5. Statistikada moda və median

Öyrənilən ictimai hadisədə ən çoxtəsadüf edilən variant statistikada moda adlanır. Ən yüksək xüsusi çəkiyə malik olan varianta moda deyilir. Bərabər fasiləli variasiya sıralarında moda aşağıdakı düsturla hesablanır:

$$\boldsymbol{M_0 = x_{0`} + d\frac{f_2 - f_1}{(f_2 - f_1)+(f_2 - f_3)}} \quad \textbf{(3.5.1)}$$

Burada, $x_{0`}$ −moda olan variantda fasilənin aşağı sərhəddidir;
d- moda olan variantda fasilənin böyüklüyüdür;
f_1 −moda olan variantdan əvvəlki variantın çəkisidir;
f_2 −moda olan variantın çəkisidir;
f_3 −moda olan variantdan sonra gələn variantın çəkisidir.

Müəyyən qayda ilə (artan və ya azalan) düzülmüş sıranı bərabər hissəyə bölən ədədə median deyilir. Fasiləli variasiya sıralarında median aşağıdakı düsturla hesablanır:

$$\boldsymbol{M_e = x_{0`} + d\frac{\frac{\sum t}{2} - s_{m-1}}{f_m}} \quad \textbf{(3.5.2)}$$

Burada, $x_{0`}$ −moda olan variantda fasilənin aşağı sərhəddidir;
d- moda olan variantda fasilənin böyüklüyüdür;
$\sum t$-sıranın çəkilərinin(tezliklərinin) cəmidir;
s_{m-1} −median olan variantdan əvvəlki variantın artan yekun çəkisidir;
f_m − median olan variantın çəkisidir.

Əlamətlərin variyasiyası dedikdə əlamətin dəyişməsini başa düşmək lazımdır. Məsələn, gömrük idarəsində müəyyən dövr ərzində YGB-nin qeydiyata alınmasına sərf edilən vaxt, ixrac və idxal olunan yüklərin müəyyən dövrdə dəyişməsi, ixrac və ya idxal olunmuş eyni qrup məhsulların qiymətlərinin dəyişməsi və s. əlamətin variyasiyası adlanır. Variyasiy göstəricilərindən ən sadəsi

variyasiya genişliyidir.variyasiya genişliyi aşaöıdakı düstura əsasən hesablanır:

$$R = X_{max} - X_{min} \qquad (3.5.3)$$

Variyasiyalar eyni çəkiyə malik olduqda orta xətti uzaqlaşma aşagıdakı düstula hesablanır:

$$\bar{d}=\frac{\sum|x-\bar{x}|}{n} \qquad (3.5.4)$$

Variantların çəkiləri müxtəlif olduqda orta xətti uzaqlaşma aşağıdakı düstula hesablanır.

$$\bar{d}=\frac{\sum|x-\bar{x}|f}{\sum f} \qquad (3.5.5)$$

Variantların orta kəmiyyətdən uzaqlaşması kvadratlarının cəmindən hesablanmış orta ədədi dispersiya adlanır. Variantların eyni çəkilərə malik olduqda dispersiya aşagıdakı düstula hesablanır:

$$\sigma^2 = \frac{\sum(x-\bar{x})^2}{n} \qquad (3.5.6)$$

Disspersiyanın çəkili düsturu aşağıdakı kimi yazılır:

$$\sigma^2 = \frac{\sum(x-\bar{x})^2 f}{\sum f} \qquad (3.5.7)$$

Yüxarıda təqdim edilmiş hesablama düsturlarına müvafiq olaraq variyasiya əmsalının hesablanması düsturu aşağıdakı kimi olacaqdır.

$$U = \frac{\sigma}{x} \times 100\% \qquad (3.5.8)$$

3.5.1. Gömrük nəzarətinin təşkili və səmərəliliyi göstəricilərinin statistik uçotunun təhlilinin əsas istiqmətləri

Gömrük orqanlarının gömrük nəzarətinin gömrük dəyəri ilə bağlı işlərinin təhlili 1995-ci ildən etibarən AR Dövlət Gömrük Komitəsi Gömrük haqqında qanununa uğun olaraq aparılır. Bu istiqamətdə aparılan təhlili xarakterizə edən göstəricilər Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilir. Təhlil əsasən bir neçə istiqamət üzrə aparılır. Təhlil üçün ilkin məlumatlar Gömrük işinin təşkili şöbəsi, Gömrük nəzarəti və Gömrük statistikası və təhlili şöbələri, həmçinin gömrük nəzarəti sənədləri (aktlar,sertifikatlar, hesabatlar) və statistik hesabatların icmal formaları əsasında müəyyən edilir.

Təhlilin aparılması üzrə ilkin istiqamət gömrük dəyərinə nəzarətlə məşğul olan işçilərinin iş yükünün öyrənilməsidir. Təhlilin bu istiqaməti üzrə əsas göstəricilər aşağıdakılardır:

- bir gömrük işçisinə düşən YGB-nin (yük-gömrük bəyyənnaməsi) orta sayı;
- bir gömrük işçisinə düşən BGS-nın (bəyənnamələrin gömrük statistikası) orta sayı;
- bir gömrük işçisinə düşən GNS-nın (gömrük nəzarəti statistikası) orta sayı.

Statistik təhlil indeks metodundan istifadə etməklə aparılır. Burada funksional əlaqəli göstəricilər sistemləri nəzərdən keçirilir. Bu göstəricilərə YGB-nin sayının işçilərin sayından funksional asılığını ifadə edən aşağıdakı göstəricini göstərmək olar.

$$\boldsymbol{YB = N_{ə} \times N_{YGB}} \quad \boldsymbol{(3.5.1)}$$

Burada, $N_{ə}$- əməkdaşların sayı, N_{YGB}- 1 əməkdaşa düşən YGB-nin sayıdır.

İkinci istiqamət gömrük dəyəri üzrə yoxlamaların keyfiyyətinin təhlilidir. Bu təhlil istiqaməti aşağıdakı göstəricilər üzrə aparılır:

- gömrük dəyərinin yoxlanılması ilə yoxlama planına daxil edilmiş müqavilələrin sayı arasındakı nisbət (bir müqaviləyə düşən yoxlamaların orta sayı);

- əlavə gömrük ödənişlərinin məbləği və gömrük dəyərinin yoxlanılması sayı arasındakı nisbət (bir yoxlamaya düşən əlavə gömrük ödənişlərinin orta məbləği);

- gömrük dəyərinin düzgün göstərilməməsi ilə əlaqədar başlanmış işlərin sayı və aparılan yoxlamaların sayı arasındakı nisbət (bir yoxlamaya düşən başlanmış işlərin orta sayı);

- müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətlərinin xarici auditlərinin sayı və gömrük dəyəri məsələlərinə dair keçirilmiş yoxlamaların ümumi sayı arasındakı nisbət (gömrük dəyəri üzrə yoxlamaların ümumi sayında xarici yoxlamaların payı)- mürəkkəblik göstəricisi;

-hesablanmış cərimələrin miqdarının və gömrük dəyərinin düzgün göstərilməməsi ilə əlaqədar başlanmış işlərin sayı arasındakı nisbət (başlanmış bir işə görə hesablanmış cərimələrin orta məbləği);

- başlanmış işlərə görə pozuntular və hesablanmış cərimələr arasındakı nisbət.

IV FƏSİL

XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASINDA AMİL ÜSULU VƏ AMİLLƏR ÜZRƏ STATİSTİK TƏHLİL

4.1. Xarici ticarətin gömrük statistikasında amil üsulu

Bu üsulun mahiyyəti gömrük statistikasının müvafiq obyektlərinin mövcud vəziyyətinə və inkişafına təsir edən amillərin tədqiq edilməsindən ibarətdir. Amil üsulunun tətbiqinin birinci mərhələsində tədqiq olunacaq amillər seçilir, ikinci mərhələdə isə müvafiq riyazi model müəyyənləşdirilir:

$$\boldsymbol{Y = F(x_1, x_2, x_3, \ldots\ldots x_n)} \quad \textbf{(4.1.1)}$$

Burada, Y –nəticə amili kimi ticarət dövriyyəsinin, ixrac və ya idxalın bəzi göstəriciləri, yaxud da hansısa sistemin çıxış göstəricisi ola bilər;

$x_1, x_2, x_3, \ldots\ldots x_n$ - nəticə amili göstəricisinə təsir edən amillərdir.

Məlumdur ki, ölkənin ixracının həcminə təsir edən ən mühüm amil məcmui ictimai məhsul və ya milli gəlirin həcmidir. Əgər daxili tələbat mal istehsalının artımı ilə ödənilirsə, onda ixrac imkanı yaranır. İkinci amil isə ixrac olunan malların keyfiyyəti ilə xarakterizə edilir. Malların rəqabət qabiliyyətliliyini nəzərə almağa imkan verən amil onun keyfiyyət səviyyəsi ilə ölçülür. Təbii ki, bu zaman hər bir ixrac əməliyyatının səmərəliliyinin qiymətləndirilməsi aparılmalıdır. Bu məsələdə əsas meyar malın ixracından əldə olunan gəlirlə onun istehsalına çəkilən xərclərlə müqayisəsidir.

İqtisadiyyatın və əhalinin idxal edilən mallara olan tələbatı idxalın həcminə təsir göstərən ən mühüm amildir.İdxalın səmərəliliyi isə xarici bazarlarda malın qiymətinin daxili bazardakı qiymətlərlə mütənasibliyi ilə müəyyən edilir. Bu isə idxalın artırılmasının, yaxud da, əksinə ölkədə milli istehsalın yüksəldilməsinin məqsədəuy-

ğunluğunu qiymətləndirməyə imkan verir. Burada idxal edilən malın keyfiyyəti də nəzərə alınmalıdır.

4.2. Xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili

Xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin statistik təhlili cəlb edilmiş gömrük rüsumlarının (R) gömrük dəyəri (T) və gömrük tarifinin orta hesabi qiyməti ($\overline{R}$) amillərinə əsasən qiymətləndirilir.

Orta hesabi gömrük tarifi aşağıdakı düstura əsasən hesablanır:

$$\bar{R}=\frac{\text{gömrük rüsumlarının cəmi}}{\text{gömrük dəyəri}} \quad \textbf{(4.2.1)}$$

Bu halda, $R = T \times \bar{R}$ olacaqdır. Amillərin növbə ilə şərtləşdirilmiş dəyişmələrinə əsasən gömrük rüsumunun mütləq artımını hesablamaq olar. Hər bir amilin təsiri üzrə gömrük rüsumunun mütləq artımı aşağıdakı kimi olacaqdır.

Gömrük dəyərinə görə (T) gömrük rüsumunun mütləq artımı:

$$\Delta \boldsymbol{R(T)} = (\boldsymbol{T_1} - \boldsymbol{T_0}) \times \bar{\boldsymbol{R}} = (\text{İ}_{\boldsymbol{T}} - \boldsymbol{1}) \times \boldsymbol{T_0} \times \bar{\boldsymbol{R}}; \quad \textbf{(4.2.2)}$$

- gömrük tarifinin hesabi orta qiyməti, $\bar{R}$:

$$\Delta \boldsymbol{R(\bar{R})} = \boldsymbol{T_1} \times (\bar{\boldsymbol{R}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) = (\boldsymbol{T_1} \times \overline{\bar{\boldsymbol{R}}_{\boldsymbol{0}} \times (\text{İ}_{\bar{\boldsymbol{R}}} - \boldsymbol{1})}) \quad \textbf{(4.2.3)}$$

Əgər gömrük dəyrinə amillərin törəməsi kimi baxsaq, bu halda təhlili detallaşdırmaq olar:

-göndərilən (gələn) mallarınfiziki həcmi , q

-orta qiymət (p), ABŞ dolları ilə hesablanmış,

-ABŞ dollarının manata görə orta məzənnəsi ($\bar{K}$)

Xarici ticarətin gömrük statistikasında mallar üçün nəzərə alınan ABŞ dollarının orta məzənnəsi ABŞ dolları ilə ifadə edilən gömrük və statistik dəyərlərin nisbəti kimi müəyyən edilir:

$$\overline{\boldsymbol{K}} = \frac{\boldsymbol{gömrük\ dəyəri}}{\boldsymbol{statistik\ dəyər}} = \frac{\boldsymbol{T}}{\boldsymbol{S}} \quad \textbf{(4.2.4)}$$

Bu halda multiplikativ model $R = q \times p \times \overline{K} \times \overline{R}$.

Gömrük rüsumunun amillər üzrə mütləq artımı aşağıdakı kimi hesablanacaqdır:

-Malın fiziki həcminə görə q:

$$\Delta\boldsymbol{R(q)} = (\boldsymbol{q_1} - \boldsymbol{q_0}) \times \boldsymbol{p_0} \times \overline{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}} = (\ İ_{\boldsymbol{q}} - \boldsymbol{1}) \times \overline{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}}; \quad \textbf{(4.2.5)}$$

- orta qiymətə görə, ABŞ dolları ilə hesablanmış, p:

$$\Delta\boldsymbol{R(p)} = \boldsymbol{q_1} \times (\boldsymbol{p_1} - \boldsymbol{p_0})\overline{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}} = \ İ_{\boldsymbol{q}}(\ İ_{\boldsymbol{p}} - \boldsymbol{1}) \times \boldsymbol{C_0} \times \overline{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}} \ \textbf{(4.2.6)}$$

-dolların orta məzənnəsinə görə $\overline{K}$:

$$\Delta\boldsymbol{R}(\overline{\boldsymbol{K}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_1} \times (\overline{\boldsymbol{K}}_{\boldsymbol{1}} - \overline{\boldsymbol{K}}_{\boldsymbol{0}}) \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}} = \boldsymbol{C_1} \times (\ \overline{\boldsymbol{K}}_{\boldsymbol{1}} - \overline{\boldsymbol{K}}_{\boldsymbol{0}}) \times \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}} \quad \textbf{(4.2.7)}$$

Hesabi orta tarif qiymətinə görə $\overline{R}_0$:

$$\Delta\boldsymbol{R}(\overline{\boldsymbol{R}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_0} \times \overline{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\overline{\boldsymbol{R}}_{\boldsymbol{1}} - \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}}) = \boldsymbol{C_1} \times \overline{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\ \overline{\boldsymbol{R}}_{\boldsymbol{1}} - \overline{\boldsymbol{R}}_{\boldsymbol{0}}); \ \textbf{(4.2.8)}$$

Aksiz dərəcələri (A) üçün də mütləq kəmiyyətlərin amillər üzrə dəyişməsinə oxşar olan sistemi qurmaq olar. Bu halda aksizərin orta hesabi dərəcəsi analoji olaraq orta kömrük rüsumunda olduğu kimi hesablanacaqdır.

$$\overline{\boldsymbol{A}} = \frac{\boldsymbol{aksizlərin\ cəmi}}{\boldsymbol{gömrük\ dəyəri + gömrük\ rüsumu}} \quad \textbf{(4.2.9)}$$

Bu halda multiplikativ model aşağıdakı kimi olacaqdır.

$$\boldsymbol{A = q \times p \times \overline{K}(1 + \overline{R}) \times \overline{A}} \quad \textbf{(4.2.10)}$$

Qeyd etmək lazımdır ki, aksiz rüüsumlarına təsir edən amilləri əsasən malın fiziki həcmi, orta qiyməti, milli valyutanın məzənnəsi, həmçinin hesabi orta tarif qiyməti kimi təsnifləşdirmək olar. Bu amillərin aksiz rüsumuna təsir dərəcəsini aşağıdakı kimi qiymətləndirmək olar.

-malın fiziki həcminə görə q:

$$\boldsymbol{\Delta A(q) = (q_1 - q_0) \times p_0 \times \overline{K}_0 \times (1 + \overline{R}_0) = (\text{İ}_q - 1) \times C_0 \times \overline{K}_0 \times (1 + \overline{R}_0) \times \overline{A}_0;} \quad \textbf{(4.2.11)}$$

- orta qiymətə görə, ABŞ dolları ilə hesablanmış, p:

$$\boldsymbol{\Delta A(p) = (p_1 - p_0) \times q_1 \times \overline{K}_0 \times (1 + \overline{R}_0) \times \overline{A}_0 = \text{İ}_q(\text{İ}_p - 1) \times C_0 \times \overline{K}_0 \times (1 + \overline{R}_0) \times A_0;} \quad \textbf{(4.2.12)}$$

- ABŞ dollarının orta məzənnəsinə görə $\overline{K}$

$$\boldsymbol{\Delta A(\overline{K}) = q_1 \times p_1 \times (\overline{K}_1 - \overline{K}_0) \times (1 + \overline{R}_0) \times \overline{A}_0 = C_1(\overline{K}_1 - \overline{K}_0) \times (1 + \overline{R}_0) \times A_0;} \quad \textbf{(4.2.13)}$$

Hesabi orta tarif qiymətinə görə $\overline{R}_0$:

$$\boldsymbol{\Delta A(\overline{R}) = q_1 \times p_1 \times \overline{K}_1 \times (\overline{R}_1 - \overline{R}_0) \times \overline{A}_0 = C_1 \times \overline{K}_1 \times (\overline{R}_1 - \overline{R}_0) \times A_0;} \quad \textbf{(4.2.13)}$$

Aksizlərin hesabi orta tarifi :

$$\boldsymbol{\Delta A(\overline{A}) = q_1 \times p_1 \times \overline{K}_1(1 + \overline{K}_1) \times (\overline{A}_1 - \overline{A}_0) = C_1 \times \overline{K}_1 \times_1 (1 + \overline{R}_1) \times (\overline{A}_1 - \overline{A}_0).} \quad \textbf{(4.2.14)}$$

3) ƏDV üzrə amillərin təsir dərəcəsi əsasən aksiz, malın gömrük dəyəri və gömrük rüsumuna əsasən qiymətləndirilir. ƏDV-nin hesabi tarif dərəcəsi aşağıdakı kimi hesablanır:

$$\overline{\text{Ə}\boldsymbol{DV}} = \frac{\text{Ə}\boldsymbol{DV-nin\ məbləği}}{\boldsymbol{gömrük\ dəyəri+gömrük\ rüsumu+aksiz}} \quad \textbf{(4.2.15)}$$

Bu halda multiplikativ modelaşağıdakı kimi olacaqdır

$$\text{Ə}\boldsymbol{DV} = \boldsymbol{q} \times \boldsymbol{p} \times \bar{\boldsymbol{K}}(\boldsymbol{1} + \bar{\boldsymbol{R}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}} \quad \textbf{(4.2.16)}$$

Aşagıdakı amillərin aksiz rüsumuna təsir dərəcəsini qiymətləndirmək olar.

-malın fiziki həcminə görə q:

$$\Delta\text{Ə}\boldsymbol{DV}(\boldsymbol{q}) = (\boldsymbol{q_1} - \boldsymbol{q_0}) \times \boldsymbol{p_0} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \text{Ə}\boldsymbol{DV_0} = (\text{İ}_{\boldsymbol{q}} - \boldsymbol{1}) \times \boldsymbol{C_0} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}}(\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}}; \quad \textbf{(4.2.17)}$$

- orta qiymətə görə, ABŞ dolları ilə hesablanmış, p:

$$\Delta\text{Ə}\boldsymbol{DV}(\boldsymbol{p}) = (\boldsymbol{p_1} - \boldsymbol{p_0}) \times \boldsymbol{q_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \text{Ə}\boldsymbol{DV_0} = \text{İ}_{\boldsymbol{q}}(\text{İ}_{\boldsymbol{p}} - \boldsymbol{1}) \times \boldsymbol{C_0} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}}; \quad \textbf{(4.2.18)}$$

- ABŞ dollarının orta məzənnəsinə görə $\bar{K}$.

$$\Delta\text{Ə}\boldsymbol{DV}(\bar{\boldsymbol{K}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_1} \times (\bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \text{Ə}\boldsymbol{DV_0} = \boldsymbol{C_1}(\bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}}; \quad \textbf{(4.2.19)}$$

-Hesabi orta tarif qiymətinə görə $\bar{R}_0$:

$$\Delta\text{Ə}\boldsymbol{DV}(\bar{\boldsymbol{R}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\bar{\boldsymbol{R}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \text{Ə}\boldsymbol{DV_0} = \boldsymbol{C_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\bar{\boldsymbol{R}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}}; \quad \textbf{(4.2.20)}$$

Aksizlərin hesabi orta tarifi $(\bar{A})$:

$$\Delta\text{Ə}\boldsymbol{DV}(\bar{\boldsymbol{A}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}}(\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{1}}) \times (\bar{\boldsymbol{A}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \text{Ə}\boldsymbol{DV_0} = \boldsymbol{C_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times_{\boldsymbol{1}} (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{1}}) \times (\bar{\boldsymbol{A}}_{\boldsymbol{1}} - \bar{\boldsymbol{A}}_{\boldsymbol{0}}) \times \overline{\text{Ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}}; \ \boldsymbol{(4.2.21)}$$

ƏDV-nin hesabi orta tarifi $(\bar{A})$:

$$\Delta\text{ə}\boldsymbol{DV}(\overline{\text{ə}\boldsymbol{DV}}) = \boldsymbol{q_1} \times \boldsymbol{p_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{1}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{1}}) \times (\overline{\text{ə}\boldsymbol{DV}}_{\boldsymbol{1}} - \text{ə}\boldsymbol{DV_0}) = \boldsymbol{C_1} \times \bar{\boldsymbol{K}}_{\boldsymbol{1}} \times (\boldsymbol{1} + \bar{\boldsymbol{R}}_{\boldsymbol{1}}) \times (\boldsymbol{1} + \bar{\boldsymbol{A}}_{\boldsymbol{1}}) \times (\overline{\text{ə}\boldsymbol{DV}}_{\boldsymbol{0}} - \text{ə}\boldsymbol{DV_0}); \ (\boldsymbol{4.2.22})$$

Yuxarıda göstərilmiş amillər üzrə mütləq artımı ayrı-ayrı mal növləri üzrə hesablamaqla bərabər, məcmui qaydada da cəmləməklə hesablamaq olar.

Qeyd etmək lazımdır ki, nodelə gömrük dəyərinin xüsusi çəkisi kimi gömrük rüsumunun hesablanmasında heç bir güzəşt tətbiq edilməyən amillərin daxil edilməsi zamanı gömrük rüsumunun təhlilinin aparılmasında amillərin qarşılıqlı əlaqəsi aşağıdakı kimi olacaqdır.

$$\boldsymbol{P} = \boldsymbol{d} \times \boldsymbol{T} \times \bar{\boldsymbol{R}}, \quad \boldsymbol{P} = \boldsymbol{d} \times \boldsymbol{q} \times \boldsymbol{T} \times \bar{\boldsymbol{K}} \times \bar{\boldsymbol{R}} \ (\boldsymbol{4.2.23})$$

Yuxarıda göstərilmiş amillər üzrə mütləq artımı ayrı-ayrı mal növləri üzrə hesablamaqla bərabər, məcmui qaydada da cəmləməklə hesablamaq olar.

Qeyd etmək lazımdır ki, nodelə gömrük dəyərinin xüsusi çəkisi kimi gömrük rüsumunun hesablanmasında heç bir güzəşt tətbiq edilməyən amillərin daxil edilməsi zamanı gömrük rüsumunun təhlilinin aparılmasında amillərin qarşılıqlı əlaqəsi aşağıdakı kimi olacaqdır.

$$\boldsymbol{P} = \boldsymbol{d} \times \boldsymbol{T} \times \bar{\boldsymbol{R}}, \quad \boldsymbol{P} = \boldsymbol{d} \times \boldsymbol{q} \times \boldsymbol{T} \times \bar{\boldsymbol{K}} \times \bar{\boldsymbol{R}}, \ (\boldsymbol{4.2.24})$$

Bu halda gömrük rüsumunun orta hesabi tarifi faktiki ayrılmış gömrük rüsumuna əsasən malın gömrük dəyəri ilə təyin edilməlidir.

Eyni tərkibli mallar üçün orta qiymətə yalnız ayrı-ayrı əməkdaş ölkələrin təsirini deyil, həm də onların yükdövriyyəsi həcminin strukturunu da nəzərə almaq olar

$$\Delta\boldsymbol{R}(\boldsymbol{p}) = \boldsymbol{q_1} \times \left(\frac{\sum \boldsymbol{p_0 q_1}}{\sum \boldsymbol{q_1}} - \frac{\sum \boldsymbol{p_0 q_0}}{\sum \boldsymbol{q_0}}\right) \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}}; \ (\boldsymbol{4.2.25})$$

$$\Delta\boldsymbol{R}(\boldsymbol{f}) = \boldsymbol{q_1} \times \left(\frac{\sum \boldsymbol{p_1 q_1}}{\sum \boldsymbol{q_1}} - \frac{\sum \boldsymbol{p_0 q_1}}{\sum \boldsymbol{q_1}}\right) \bar{\boldsymbol{K}}_{\boldsymbol{0}} \times \bar{\boldsymbol{R}}_{\boldsymbol{0}} \quad (\boldsymbol{4.2.26})$$

Xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili zamanı dövlət büdcəsinə gömrük ödənişlərinin strukturundakı dəyişiklikləri müəyyən etmək olar. Bu məqsədlə aşağıdakı cədvələ uyğun olaraq dövlət büdcəsinə gömrük ödənişlərinin strukturundakı dəyişiklikləri qiymətləndirmək üçün yuxarıdakı düsturlardan istifadə edərək strukturun müqayisəsi məqsədi ilə sıralanma göstəricilərini hesablayaq. Bunun üçün 2009 və 2017-cü illərdə hər bir ödəmə növü üzrə cədvəl 4.1.1-də düstura əsasən köməkçi hesablama aparmaqla,vergüldən sonra 3 işarə (5 və 6 sütun) dəqiqliyi ilə 7 və 8 sütunda hər bir ödəniş növünün sıralarını təyin edək.

Cədvəl 4.1.1

Qrupun №	Ödəniş növləri	*2017 -ci il*	*2009 -ci il*	d_1 (2017)	d_0 (2009)	R_1	R_0	$(R_1 - R_0)$	$(R_1 - R_1)^2$
1	İdxal rüsumu	127,4	80,6	0,119	0,179	3	3	0	0
2	İxrac rüsumu	579,5	125,1	0,662	0,458	1	1	0	0
3	ƏDV	1773,2	832,5	0,195	0,282	2	2	0	0
4	İdxala aksiz vergisi	93,9	23,8	0,006	0,007	5	6	1	1
5	İxraca aksiz vergisi	-	43,9	0,000	0,021	6	5	1	1
6	Gömrük yığımları və digər ödənişlər	34,8	6,8	0,017	0,053	4	4	0	0
	Cəmi	2608,8	1112,7	1	1			2	2

Cədvəldən aydın görünür ki, ən böyük payı olan ödəniş növlərinin sıraları (ilk 4 yer) dəyişməyib, ən kiçik olan qruplarda isə dəyişikliklər baş verib, bu da 2017-ci ildə 2009-cü illə müqayisədə ödənişlərin strukturunda cüzi bir dəyişiklik olduğunu göstərir. Cədvəldəki məlumatlara əsasən struktur müqayisənin sıralanma göstəricilərini hesablamaq üçün baza dövrü üçün 2009 və hesabat dövrü üçün 2017-ci il götürək.

Düsturun köməyi ilə sıralarda intensivlik dərəcəsini cədvəlin 9-cu sütunu üzrə hesablasaq,

$$LK_R = \frac{2}{6^2/2} = 0{,}111 \text{ və ya } 11{,}1\%,$$

Alınmış 11,1% qiyməti sıralardakı dəyişikliyin mümkün olan maksimum həddini göstərir. Yəni çox cüzi bir dəyişiklik baş vermişdir. Həmin əməliyyatı cədvəlin 9-cu sütunu üzrə hesablasaq aşağıdakı nəticəni alarıq.

$$KK_R = \frac{3*2}{6^3-6} = 0{,}029 \text{ və ya } 2{,}9\%$$

Hesabata əsasən 2017 və 2009-cü illərdə gömrük ödənişləri üzrə əldə edilən dəyər strukturda cüzi bir fərq olduğu görünür.

Qeyd etmək lazımdır ki, 2018-ci il üzrə idxal olunmuş malların ümumi gömrük dəyəri 19490449136 manat, idxal edilmiş mallar üzrə toplanmış gömrük rüsumlarının məbləği isə 883150800 manat olmuşdur. İdxal edilmiş mallara tətbiq edilmiş orta rüsum dərəcəsi isə orta hesabi gömrük tarifinin düsturuna əsasən təşkil etmişdir.

$$\overline{R}=\frac{\text{gömrük rüsumlarının cəmi}}{\text{gömrük dəyəri}} \times 100\% = \frac{883150800}{1949044913} \times 100\% = 4{,}53\%$$

2018- ci il üzrə sadə orta çəkili tarif dərəcəsi isə çəkili hesabi orta kəmiyyət düsturuna əsasən 8,8% təşkil etmişdir. ARDSK-nin statistik məlumatlarına əəsasən 2018-ci ildən 7 pilləli tarif dərəcəsindən 3 pilləli tarif dərəcəsinə keçilmişdir. Aşağıdakı cədvəldə 2018-ci il üzrə müxtəlif mal mövqelərinə tətbiq edilən advalor rüsumlarının tarif dərəcələri ilə bölgüsü və spesifik gömrük rüsum dərəcələri və onların sayları verilmişdir.

Cədvəl 4.1.2.

Tarif dərəcəsi	XİFMN üzrə alt yarım mövqelərin sayı
0%	2865
5%	2062
15%	4947
Spesifik	362
Cəmi	10236

2018-ci il üzrə ölkə ərazisinə idxal edilən malların dəyəri 1647028 min ABŞ Dolları olmuşdur. 0% tarif dərəcəsi ilə idxal statistikasına əsasən "0" dərəcə ilə idxalın xüsusi çəkisi həmin dövr üzrə (11465023,91/1647028,3) 14,37% təşkil etmişdir. %

V FƏSİL
GÖMRÜK STATİSTİKASINDA DİNAMİKA SIRALARI VƏ ONLARIN NÖVLƏRİ

5.1. Dinamika sıralaraı və onların növləri

Statistikanın mühüm vəzifələrindən biri tədqiq edilən göstəricilərin zaman etibarı ilə dəyişilməsini öyrənməkdən ibarətdir. Dinamika yunan sözü olub, "qüvvə", «xronos» isə «vaxt» deməkdir. Statistik göstəricilərin qiymətlərinin xronoloji ardıcıllıqla düzülüşünə dinamika (zaman) sıraları deyilir. Dinamika sıralarının statistik işlənməsi üsulları XX əsrin iyirminci illərində intensiv inkişaf etməyə başlamışdır. Çünki bu dövrdən başlayaraq ayrı-ayrı ölkələrin iqtisadi inkişafında ciddi dəyişikliklər baş verməyə başlamışdır. Dünya sosializm sisteminin süquta uğraması ilə əlaqədar olaraq bir sıra ölkələrin, o cümlədən postsovet məkanında yaranmış müstəqil dövlətlərin iqtisadi inkişafında da ciddi dəyişikliklər baş vermişdir. Bu hadisə və proseslərin zaman etibarı ilə dəyişilməsini xarakterizə etmək üçün dinamika sıraları qurulmalıdır. Çünki onların inkişaf istiqamətlərini və qanunauyğunluqlarını aşkar etmək üçün müşahidə nəticəsində toplanmış məlumatları dinamika sıraları şəklində göstərmək mühüm əhəmiyyət kəsb edir. Hər bir dinamika sırası iki elementdən ibarətdir: birincisi statistika məlumatlarının aid olduğu vaxt anı (tarix və ya dövr), gün, il göstərilir, ikincisi isə müəyyən vaxt anında öyrənilən obyekti xarakterizə edən statistik göstəricilər verilir. Öyrənilən obyekti xarakterizə edən statistik göstəricilərə sıranın səviyyəsi deyilir. Hər iki element – vaxt və səviyyə dinamika sırasının üzvləri adlanır. Dinamika sıralarını düzgün tətbiq etmək üçün onların növlərini bilmək lazımdır. Vaxt əlamətinə görə dinamika sıraları an və fasilə dinamika sıralarına ayrılır. Sıraların səviyyələrinin aid olduğu zamandan asılı olaraq interval və an seriyaları fərqlənir. Yuxarıda qeyd edildiyi kimi interval sıraları müəyyən dövr üzrə (rüb, il və s.) dəyiişmə ilə xarakterizə edilən sıralar deyilir. Məsələn, ixracın (idxalın) həcmini xarakterizə edən sıra-

lar.Müəyyən vaxt anına görə sosial - iqtisadi hadisənin həcminin, səviyyəsinin dəyişilməsini xarakterizə edən göstəricilər sırasına an dinamika sırası deyilir. Göründüyü kimi an dinamika sırasında sıranın səviyyəsi müəyyən tarixə verilir. Məsələn, statistika müşahidəsi nəticəsində əhalinin sayı, kənd təsərrüfatı maşınlarının sayı və gücü, mal-qaranın sayı, ticarətdə əmtəə qalığı və s. haqqında toplanılan məlumat an dinamika sıraları şəklinlə sistemləşdirilir.

An dinamika sıralarının səviyyələrini cəmləməyin mənası yoxdur, çünki eyni bir kəmiyyət bir neçə dəfə müxtəlif səviyyələrdə təkrar iştirak edir. Müəyyən vaxt fasiləsində sosial-iqtisadi hadisələrin həcminin, səviyyəsinin dəyişilməsini ifadə edən göstəricilər sırasına fasilə dinamika sırası deyilir. Fasilə dinamika sırasında sıranın hər bir səviyyəsi müəyyən dövr ərzində hadisənin həcmini, səviyyəsini xarakterizə edir. An dinamika sıralarından fərqli olaraq fasiləli dinamika sıralarının səviyyələrini cəmləmək olar və cəmləmə nəticəsində iqtisadi mənası olan göstərici alınacaqdır. Belə ki, cəmləmənin nəticəsində alınan göstərici daha iri dövr ərzində hadisənin həcmini xarakterizə edir. Məsələn, sıranın günlük səviyyəsini cəmləmək nəticəsində 10 günlük, yarımaylıq, aylıq səviyyəni cəmləməklə rüblük və illik səviyyəni, illik səviyyə əsasında isə onillik, irimi illik və s. səviyyəni almaq mümkündür.Fasiləli dinamika sırasının səviyyəsini ardıcıl olaraq toplamaq yolu ilə artan yekunlarla dinamika sırası qurmaq olar. Dinamika sırasında öz əksini tapan vaxtın tamlığına görə, onları tam və tam olmayan dinamika sırasına ayırırlar. Dinamika sırasında dövrlər ardıcıl bərabər fasilələrlə verilərsə, belə sıraya tam dinamika sırası deyilir. Tam olmayan dinamika sıralarında isə ardıcıl bərabər fasiləli dövrlər verilmir. Dinamika sıralarının səviyyələrinin ifadə olunma üsuluna görə onları mütləq, orta və nisbi göstəricilərlə ifadə olunan dinamika sıralarına ayırırlar.

Dinamika sıraları iki yerə bölünür: fasilə və moment sıralarına.

5.1. Moment və fasilə sıraları. İctimai hadisələrin həcmini müəyyən vaxt momentinə görə xarakterizə edən ədələr sırası moment sırası adlanır.

İctimai hadisələrin həcmini müəyyən vaxt arasında ifadə edən ədələr sırası fasilə sırsı adlanır.

Dinamik sıranın təhlili prossesində hesablanan mühüm göstəricilərdən sıranın səviyəsini, mütləq artımı.artım surətini və nisbi artımı, bir faiz nisbi artımın mütləq qiymətini, sıranın orta səviyyəsini,orta artım surətini və orta nisbi artımı göstərmək oilar.

Səviyyələr arasındakı məsafədən asılı olaraq, dinamik sıralar bərabər məsafəli və bərabər olmayan aralıq səviyyələri olan sıralara bölünür. Dimanika sıralarının analizində ilkin məlumatların deterministik və təsadüfi komponentlərin olduğu ehtimal edilir. Determinativ komponent aşağıdakıların birləşməsi kimi təqdim edilə bilər:

-trend – dinamik sıranın inkişafının əsas istiqaməti, yəni, dinamik sıranın səviyyəsinin artması, azalması və ya sabit olmasına istiqamətlənmə;

- dövrlər - trendə nisbətən daha çox və ya az müntəzəm dəyişkən;

- mövsümi komponent – il daxili, bəzən də aydaxili dövri dalğalanmalar.

Vaxt (zaman) sırasını riyazi modeldən istifadə etməklə təqdim etmək olar:

-additiv- $y_t = U_t + Z_t + S_t + \varepsilon_t$,

-multiplikativ- $y_t = U_t \times Z_t \times S_t \times \varepsilon_t$,

Burada, U_t-trend, Z_t, S_t, ε_t-dövrü, mövsümi və təsadüfi komponentlərdir.

İnkişafın əsas meyllərini (istiqaməti) müəyyənləşdirmək və təmsil etmək üçün aşağıdakı metodlardan istifadə olunur (ən sadə üsul qrafikdir):

1) sağ və sol yarısı üzərində ortalama üsulu;
2) fasilələrin böyüdülməsi üsulu (məsələn, rüblük aylıq səviyyələr, illik rüblük və s.);
3) hərəkətli orta üsulla hamarlaşdırma;
4) ən kiçik kvadratlar metodu ilə analitik uyğunlaşdırma.

Mövsümi (tsiklik) komponenti müəyyən etmək üçün, Furye harmonikləri, multiplikativ - mövsümi göstəricilər hesablanır.

5.2. *Dinamika sıralarının qurulması prinsipləri və təhlili göstəriciləri*

Məlumdur ki, statistika müşahidəsi nəticəsində toplanmış məlumatlar dinamika sıraları şəklində sistemləşdirilir. Dinamika sıralarının qurulmasında elmi prinsiplərə ciddi riayət edilməlidir. Belə ki, dinamika sıralarının təhlili onların düzgün qurulmasından asılıdır. Dinamika sıralarının düzgün qurulmasının mühüm tələblərindən biri hər bir sıranın bütün səviyyələrinin müqayisəli şəkildə olmasıdır. Müqayisəli verilməyən məlumatın dinamika sırasını təhlil etmək olmaz. Müqayisəlilik prinsipinin pozulmasının əsas səbəbləri və sıranın səviyyələrinin müqayisəli şəklə salınması üsulları ilə tanış olaq.

Dinamika sırasının təhlili zamanı istifadə edilən göstəricilərə mütləq artım, artım sürəti, nisbi artım sürəti, 1% nisbi artımın mütləq qiyməti aiddir. Dinamika sırasının sonrakı səviyyəsi ilə müqayisə üçün əsas götürülmüş səviyyə arasındakı fərqə mütləq artım deyilir. Mütləq artım sıranın sonrakı səviyyəsinin müqayisə üçün əsas götürülmüş səviyyədən nə qədər çox və ya az olduğunu göstərir. Mütləq artımı silsiləvi qaydada hesablamaq üçün sıranın hər bir sonrakı səviyyəsindən əvvəlki səviyyəni çıxmaq lazımdır.

Dinamika sırasının ilk səviyyəsini Y1, son səviyyəsini Yn, sıranıncari səviyyəsini Y1, özündən əvvəlki səviyyəni Yi-1, mütləq artımı isə Δ ilə işarə etsək, onda mütləq artımı aşağıdakı düsturlarla hesablamaq olar:

$$\Delta_ə = Y_i - Y_1 \text{ (əsas qayda);}$$
$$\Delta_s = Y_i - Y_{i-1} \text{ (silsiləvi qayda).}$$

5.2.1.Sıranın səviyəsi. Dinamik sıranı təşkil edən hədlərə sıranın səviyyəsi deyilir. Sıranın ayr-ayrı səviyyəsini $y_1, y_1, y_1, ..., y_n$ ilə işarə etsək. Sıranın artım səviyyəsini aşagıdakı düsturla hsablaya bilərik.

$$\bar{Y} = \frac{\sum y}{n}$$

Bərabər fasiləli moment dinamika sırasında orta səviyyə xronoloji orta kəmiyyətin düsturuna əsasən hesablanır. Xronoloji orta kəmiyyətin düsturu aşağıdakı kimi yazılır.

$$\bar{Y}_{xro} = \frac{\frac{1}{2}y_1 + y_2 + y_3 + \cdots . + \frac{1}{2}y_n}{n-1} = \frac{\sum y}{n-1}$$

Burada,y-sıranın səviyyələrini,

n-sıradakı momentin sayını göstərir.

Moment (An) dinamika sırasında fasilələr qeyri - bərabər olduqda, orta kəmiyyət aşağıdakı düsturla hesablanır:

$$\bar{y} = \frac{(y_1 + y_2)t_1 + (y_2 + y_3)t_2 + \ldots + (y_{n=1} + y_n)t_{n-1}}{2(t_1 + t_2 + \ldots + t_{n-1})}$$

Burada t_i y_i və y_{i+1} qeydiyyat anları arasındakı vaxtdır.

Aşağıdakı məsələnin göməyi ilə bunu daha geniş izah etmək olar.

Məsələ. Aşağıdakı cədvəldə 2017-ci ilin rübləri üzrə şərti olaraq avtomobil nəqliyyat vasitələri ilə idxal olunmuş yükün daşınmasına sərf edilən yanacaq qalığı verilmişdir. Cədvəldə verilmiş şərti statistik məlumatlara əsasən nəqliyyat müəssisəsinin 2017-ci il üzrə orta rüblük yanacaq qalığını təyin edin.

Cədvəl 5.2.1.1

Dövr	Məhsul ixracına sərf edilmiş yanacaq qalığının miqdarı, (litr)
01.04. 2017-ci ilə	560
01.07. 2017-ci ilə	660
01.10. 2017-ci ilə	760
01.01. 2018-ci ilə	800

Həlli. Burada orta rüblük yanacaq qalığı, xronoloji orta kəmiyyətin düsturuna əsasən aşağıdakı kimi hesablanacaqdır.

$$\overline{Y}_{xro} = \frac{\frac{1}{2}y_1+y_2+y_3+\cdots.+\frac{1}{2}y_n}{n-1} = \frac{\frac{1}{2}\times 560+660+760+\frac{1}{2}\times 800}{4-1} = \mathbf{700}litr$$

Ümumiləşdirici göstərici olmaq etibarı ilə ictimai hadisələrin inkişaf prossesini xarakterizə etməkdə orta artım surəti və orta nisbi artım surəti göstəricilərinin də mühüm əhəmiyyəti vardır.

5.3. ***Orta artım surəti.*** Sıranın səviyyələri mütləq kəmiyyətlə ifadə olunarsa orta artım surətini aşağıdakı düsturla hesablamaq olar

$$\overline{\mathbf{K}} = \sqrt[n-1]{\frac{\mathbf{y_n}}{\mathbf{y_1}}}$$

Burada, $\overline{\mathrm{K}}$ – orta artım surətini ,
$\mathrm{y_n}$ – sıranın son səviyyəsini,
$\mathrm{y_1}$ – sıranın ilk səviyyəsini,
n-səviyyənin sayını göstərir.

Nəqliyyatın bütün növləri üzrə idxal-ixrac əməliyyatlarında daşınan yüklərin miqdarı və dəyərini ifadə edən 2012-2016-cı illərdə ixrac üzrə yük daşıma həcmnə əsasəni orta illik artım surəti aşağıdakı kimi olacaqdır.

$$\overline{\mathbf{K}} = \sqrt[4-1]{\frac{\mathbf{29273,9}}{\mathbf{30322,7}}} = \sqrt[3]{\mathbf{0,96541}} = \mathbf{0,9885}$$

Alınmış 0,9885 əmsalı o deməkdir ki, Azərbaycan Respublikasında 2012-2016-cı illərdə ixrac üzrə yük daşıma həcmnə əsasəni orta illik artım surəti 1,15% azalmışdır.

Dinamika sırası silsiləvi artım surəti ilə (əmsal şəklində) ifadə olunarsa, onda artım surəti həndəsi orta kəmiyyətin aşağıdakı düsturu ilə hesablanır.

$$\overline{\mathbf{K}} = \sqrt[4]{K_1 * K_2 * \ldots * K_n}$$

Burada, K- silsiləvi artım surəti əmsal şəklində n-silsiləvi artım surəti əmsallarının sayını göstərir. Dinamika sırasının təhlilində mühüm əhəmiyyətə malik olan orta göstəricilərdən biri orta mütləq artımdır. O müəyyən dövr ərzində sıranın səviyyəsinin orta hesabla nə qədər artdığı və ya azaldığını göstərir. Orta mütləq artımın hesablanması:

a) silsiləli mütləq artımlar əsasında

$$\overline{\Delta} = \frac{\Sigma \Delta_i}{n-1}$$

b) sıranın səviyyələri əsasında

$$\overline{\Delta} = \frac{y_n - y_1}{n-1}$$

Sosial iqtisadi hadisələrin inkişafının intensivliyinin ümumiləşdirici göstəricisi kimi təhlil prosesində orta artım sürəti və orta nisbi artım sürəti göstəricilərinin mühüm əhəmiyyəti vardır. Əmsal ifadəsində orta artım sürətini aşağıdakı düsturlarla hesablamaq olar:

Silsiləli artım sürəti əsasında

$$\bar{s} = \sqrt[n]{S_1 \times S_2 \times \ldots \times S_n}.$$

Burada, $\bar{S}$ orta illik artım sürəti, S1, S2,…,Sn silsiləvi artım sürəti əmsalları, n isə silsiləvi artım sürəti əmsallarının sayıdır. Dinamika sırasının səviyyələrinin nisbəti əsasında

$$\bar{s} = \sqrt[n-1]{\frac{y_n}{y_1}}.$$

Orta illik nisbi artımı hesablamaq üçün orta illik artım sürətindən əmsal şəklində verildikdə 1- i faiz şəklində verildikdə isə

100 - ü çıxmaq lazımdır. Qeyri - bərabər dövrlər üzrə orta illik artım sürətinin hesablanmasında aşağıdakı düstur tətbiq edilə bilər:

$$\bar{s} = \sqrt[\Sigma t]{S_1^{t_1} \times S_2^{t_2} \times ... \times S_n^{t_n}}$$

Burada t-vaxt fasiləsidir.

Orta illik artım sürəti və orta illik nisbi artım sosial-iqtisadi hadisələrin inkişafının intensivliyini xarakterizə edən mühüm göstəricilərdir. Respublikanın mühüm iqtisadi göstəricilərinin orta illik artım surəti və nisbi artımını digər ölkələrin göstəriciləri ilə müqayisə etdikdə iqtisadi inkişafımızın intensivlik səviyyəsini xarakterizə etmiş olarıq. Bu baxımdan respublikanın ayrı-ayrı rayonlarının iqtisadi göstəricilərinin də bu göstəricilər əsasında müqayisəsi mühüm əhəmiyyətə malikdir.

5.4. Dinamika sıralarının analitik üsulla işlənməsi. Hadisənin inkişaf meylinin maliyyələşdirilməsində istifadə edilən mühüm üsullardan biri dinamika sıralarının analitik üsulla işlənməsidir. Dinamika sıraları riyazi tənliklər əsasında hamarlaşdırılmasına sıranına analitik hamarlaşdırılması deyilir. Dinamika sıralarının analitik üsulla hamarlaşdırılması riyazi statistikadan məlum olan ənkiçik kvadratlar üsuluna əsaslanır.

Bəzi hallarda sıranın tərkibində hər hansı bir dövrün məlum olmayan səviyyəsini müəyyən etmək zərurəti ortaya çıxır. Dinamika sırasının tərkibində məlum olmayan səviyyənin hesablanmasına interpolyasiya deyilir.

Bəzən dinamika sırasının məlumolmayan kələcək səviyyəsini müəyyən etmək lazım gəlir. Dinamika sırasının gələcək səviyyəsinin müəyyən edilməsi ekstropolyasiya adlanır.

Artım sürəti sıranın sonrakı səviyyəsinin əvvəlki səviyyədən neçə dəfə (faiz) az və ya çox artdığını göstərir. Artım sürəti əmsal və ya faizlə hesablanır. Mütləq artım kimi o da tədqiqatın vəzifəsindən asılı olaraq əsas və ya silsiləvi qaydada hesablanır. Faiz ifadəsində artım sürətini aşağıdakı düsturlarla hesablamaq olar:

$S_ə = S_i / S_1 \times 100$ (əsas qayda);
$S_s = S_i / S_{i-1} \times 100$ (silsiləvi qayda).

Mütləq artımın müqayisə üçün əsas götürülmüş səviyyəyə nisbəti ***nisbi artım*** adlanır. Nisbi artımı artım sürətindən 100-ü çıxmaqla da hesablamaq olar (artım sürəti əmsalla ifadə olunarsa 1-i çıxmaq lazımdır). Artım sürəti faizlə ifadə olunarsa nisbi artımı aşağıdakı kimi hesablamaq olar:

a) Əsas qayda

$N_ə = S_ə - 100 = S_i / S_1 \times 100 - 100$;

b) silsiləvi qaydada

$N_s = S_s - 100 = S_i / S_{i-1} \times 100 - 100$.

Bir faiz nisbi artımın mütləq qiymətini hesablamaq üçün mütləq artımı nisbi artım sürətinə bölmək lazımdır. Bu göstərici yalnız silsiləvi qaydada hesablanır. Əsas qaydada o iqtisad məzmuna malik deyil. 1% nisbi artımın mütləq qiymətini $\Delta\%$ ilə işarə etsək, onda onu aşağıdakı düsturla hesablamaq olar:

$$\Delta\% = \Delta_s / N_s.$$

VI FƏSİL
GÖMRÜK STATİSTİKASINDA GÖSTƏRİCİLƏR ARASINDAKI ƏLAQƏNIN QİYMƏTLƏNDİRİLMƏSİ

6.1. Gömrük statistikasında göstəricilər arasındakı əlaqənin qiymətləndirilməsi metodları

Xarakterinə, istiqamətinə, analitik ifadəyə və s. görə əlaqələrin müxtəlif növləri və formaları mövcuddur. Hadisələr və onların göstəriciləri arasındakı əlaqə və asılılıqların xarakterinə görə əlaqələr funksional (tam) və korrelyasiya (tam olmayan) əlaqəsinə ayrılır. Funksional əlaqədə amil əlaməti ilə nəticə əlamətinin dəyişilməsi arasında tam asılılıq olur. Amil əlamətinin müəyyən kəmiyyətinin dəyişilməsi nəticə əlamətinin kəmiyyətinin dəyişilməsinə tam uyğun olarsa, belə əlamətlər arasında olan əlaqə funksional əlaqə adlanır. Başqa sözlə, nəticə əlamətinin dəyişilməsi tamamilə müəyyən amil əlamətinin və ya əlamətlərinin dəyişilməsindən asılıdırsa, belə göstəricilər arasında funksional əlaqə mövcuddur. Məsələn, idxal üzrə ƏDV-nin həcmi idxalın həcmi ilə düz mütənasibdir Burada idxalın həcmi amil əlaməti (səbəb amili) ƏDV-nin həcmi isə isə nəticə əlamətidir. Funksional əlaqə dəqiq riyazi düsturla: Y=f(x) ifadə olunur. Funksional əlaqə ən çox təbii hadisələr arasında mövcuddur. Sosial-iqtisadi hadisələrdə funksional əlaqəyə nadir hallarda rast gəlmək olar. Sosial-iqtisadi hadisələrin əlamətləri arasında, funksional əlaqədə olduğu kimi, ciddi uyğunluq olmur. Burada amil əlamətinin eyni qiymətinə nəticə əlamətinin müxtəlif qiymətləri uyğun gələ bilər. Məsələn, eyni iş stajına və yaxud eyni ixtisas səviyyəsinə malik olan fəhlələrin əmək məhsuldarlığı müxtəlif ola bilər. Korrelyasiya əlaqə formasında bir çox amil əlamətinin dəyişməsinin təsiri nəticəsində nəticə əlamətinin orta qiyməti dəyişir. Lakin əlamətlərin dəyişməsi arasında möhkəm nisbət olmur. Məsələn, torpağa verilən gübrənin miqdarı ilə bitkinin məhsuldarlığı arasında korrelyasiya əlaqəsi vardır. Nəliyyatınbütün növləri üzrə ixrac və idxal əməliyyatları üzrə eyni miqdarda yük daşıma fəaliyyətini həyata keçirmiş

ölkələrdə logistikanın səmərəlilik indeksi müxtəlif ölkələrd müxtəlif cür ola bilər. Deyilənlərdən belə nəticəyə gəlmək alar ki, nəticə əlaməti olan logistikanın səmərəlilik indeksinə (y) amil əlaməti alan yükdaşıma üzrə nəqliyyatın bütün növləri üzrə idxal və ixracın həcmi amilindən (X1, X2) başqa, nəzərə alınmayan digər amillər də-gömrük əməliyyatlarının səmərəlilik indeksi, beynəlxalq yükdaşımalara buraxılma qabiliyyəti, yüklərin çatdırılma tezliyi və s. təsir göstərir. Ona görə də korrelyasiya əlaqəsi az götürülmüş iki-üç əlamətin qiyməti əsasında deyil, çox götürülmüş müşahidə məlumatı əsasında özünü aydın büruzə verir. Deməli, korrelyasiya təhlilini çox götürülmüş statistika məlumatı əsasında aparmaq lazımdır [28]. Ancaq belə halda sosial-iqtisadi hadisələrin əlamətləri arasındakı qarşılıqlı əlaqələrin qanunauyğunluğunu aşkar etmək mümkündür. Əlaqələr istiqamətlərinə görə düz və tərs əlaqəyə ayrılır. Düz əlaqədə həm amil həm də nəticə əlamətləri eyni istiqamətdə dəyişir. Düz əlaqədə amil əlamətinin qiyməti artdıqca və yaxud azaldıqca nəticə əlamətinin də qiyməti artır, yaxud azalır. Amil əlamətinin qiyməti artdıqca və ya azaldıqca nəticə əlamətinin qiyməti müvafiq olaraq azalarsa və ya artarsa, belə əlaqə tərs əlaqə adlanır. Düz və tərs əlaqə həm funksional, həm də korrelyasiya əlaqələrində mövcuddur. Düz əlaqə formasında amil əlamətinin qiymətinin artması əsasında nəticə əlamətinin fərdi və orta qiymətlərinin artması meyli müşahidə olunur, tərs əlaqədə isə amil əlamətinin qiymətinin artması nəticə əlamətinin qiymətinin azalmasına və ya artmasına doğru meyl etməsinə səbəb olur.

Analitik ifadəyə görə əlaqə düzxətli və əyrixətli əlaqəyə ayrılır. Amil əlamətinin kəmiyyətinin artması və ya azalması nəticəsində nəticə əlamətinin kəmiyyəti müntəzəm olaraq artarsa, yaxud azalarsa belə asılılıq düzxətli korrelyasiya asılılığı və ya xətti əlaqə adlanır. Düzxətli əlaqənin koordinat sistemində qrafiklə təsviri düz xəttə yaxın olan bir xətlə ifada oluna bilər. Əgər amil əlamətinin qiyməti artdıqca və ya azaldıqca nəticə əlamətinin qiyməti müəyyən nisbətdə azalarsa və ya artarsa belə korrelyasiya asılılığına əyri xətli əlaqə deyilir. Belə əlaqənin qrafiklə təsviri əyri xəttə yaxın olan hər

hansı qırıq xətlərlə (hiperbola, parabola və i. a.) ifadə oluna bilər. Onu da göstərmək lazımdır ki, ancaq funksional əlaqə analitik tənliklə tam dəqiq ifadə oluna bilər, korrelyasiya əlaqəsi isə təqribi ifadə olunur.

Korrelyasiya təhlilində əgər bir amil əlamətilə nəticə əlaməti arasında əlaqə öyrənilərsə, belə əlaqə çüt korrelyasiya, nəticə əlamətinə bir neçə amil əlamətinin təsiri öyrənildikdə isə belə asılılıq çoxamilli korrelyasiya adlanır

6.1.1. Paralel sıralara gətirilməsi metodu

Sosial-iqtisadi hadisələrin əlaqələrinin öyrənilməsində istifadə edilən ən sadə və səmərəli statistika metodu paralel sıraların gətirilməsi metodudur. Hadisələr və onların əlamətləri arasındakı əlaqənin mövcudluğunu və istiqamətini müəyyən etmək üçün tədqiqat işlərində çox tez-tez paralel sıraları gətirilməsi metodundan istifadə edilir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, bir-birilə qarşılıqlı əlaqədə olan iki və daha çox hadisələrin və yaxud onların əlamətlərinin paralel sıraları verilir. Belə paralel sıraların gətirilməsi hadisələrin və ya əlaqələrin kəmiyyətlərinin dəyişilməsi arasındakı əlaqə və asılılığı və onun istiqamətini müəyyən etməyə imkan verir.

6.1.2. Göstəricilər arasındakı əlaqələrin öyrənilməsinin balans metodu

Sosial-iqtisadi hadisələrin qarşılıqlı əlaqələrinin təhlilində balans metodu xüsusi əhəmiyyət kəsb edir. Balans metodunun mahiyyəti ondan ibarətdir ki, o öyrənilən hadisənin ehtiyatlarını, istehsalını və bölgüsünü xarakterizə edir. Balans hər iki tərəfi bir-birinə bərabər olan ikitərəfli cədvəl şəklində tərtib edilir. Cədvəldə məlumatlar elə verilməlidir ki, ehtiyatların və onların bölüşdürülməsini xarakterizə edən göstəricilər arasında bərabərlik, balans olsun.

Statistika balansları dəyər və natural göstəricilər əsasında tərtib edilə bilər. Statistika balanslarında qarşılıqlı əlaqədə olan göstərici-

lər sistemi verilir. Ona görə də balanslar hadisələr arasındakı qarşılıqlı əlaqələri və nisbətləri xarakterizə etmək üçün mühüm əhəmiyyətə malikdirlər. Balansın ən sadə forması ayrı-ayrı müəssisələrin material ehtiyatları balansıdır. Material ehtiyatları balansmı funksional əlaqəyə xas olan bərabərlik şəklində vermək olar:

Hesabat dövrünün əvvəlinə qalıq + daxil olma = xərc + dövrün sonuna qalıq.

Statistikada, hər şeydən əvvəl, müxtəlif balans hesablamalarından, sənaye və kənd təsərrüfatı məhsullarının material balanslarından, əhalinin pul gəlirləri və xərcləri balanslarından və s. geniş surətdə istifadə edilir. Hazırda statistika orqanlarında çoxlu miqdarda müxtəlif balanslar tərtib olunur. Onlardan məhsulun istehsalı, istehlak və yığımı balansını, əmək ehtiyatları balansını, əsas fondlar balansını, milli gəlir balansını, maliyyə balansını və s. balansları göstərmək olar. Təkrar istehsal prosesinin əsas iqtisadi əlaqələri konkret rəqəmlərlə öz ifadəsini bu balanslarda tapır. Qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsində sahələrarası balansın tərtib edilməsinin mühüm əhəmiyyəti vardır. Sahələrarası balansın tərtibində ayrı-ayrı məhsul üzrə istehsal xərclərini müəyyən etmək üçün seçmə tədqiqatından geniş surətdə istifadə edilir. Sahələrarası əlaqəni öyrənmək üçün sahələrarası şahmat balansı da tərtib edilir. Belə bir balans sahələrarası istehsal əlaqələrini xarakterizə edir. Bu cür balanslara şahmat balansları da deyilir. Statistika orqanlarında tərtib olunan hesabat balansları hadisələr arasındakı qarşılıqlı əlaqələri və nisbətləri xarakterizə etməklə bərabər iqtisadiyyatın proqnozlaşdırılmasının elmi səviyyəsini yüksəltmək üçün mühüm əhəmiyyət kəsb edirlər.

6.1.3. Qarşılıqlı əlaqələrin tədqiqində analitik qruplaşdırma metodu

Sosial-iqtisadi hadisələrin əlaqələrinin tədqiqində istifadə edilən mühüm metodlardan biri analitik qruplaşdırma metodudur. Anali-

tik qruplaşdırma metodu sosial-iqtisadi hadisələr və onların əlamətləri arasındakı qarşılıqlı əlaqələrin mövcud olmasını və onların istiqamətlərini müəyyən etməyə imkan verir. Sosial-iqtisadi hadisələr və onların əlamətləri arasındakı əlaqənin mövcudluğunu və istiqamətini müəyyən etmək üçün amil əlaməti üzrə qruplaşdırma aparılır və hər bir qrup üçün nəticə əlaməti üzrə orta və nisbi göstəricilər hesablanır. Hesablanmış qrup orta kəmiyyətlərin variasiyası nəticə əlamətinin ümumi variasiyasının ancaq bir hissəsini əks etdirir, yəni qruplaşdırma əlamətinin nəticə əlamətinə təsirini xarakterizə edir. Əlamətin ümumi variasiyasının qalan hissəsi sair amillərin payına düşür. Bu sair amillər öz əksini qrup daxili variasiyada tapır. Qruplaşdırma kütləvi məlumat əsasında aparıldıqda və qrupların optimal sayı müəyyənləşdirildikdə qrup orta kəmiyyətlər hadisələrin qarşılıqlı əlaqələrinin qanunauyğunluğunu düzgün əks etdirirlər. Belə qrup orta kəmiyyətlər təsadüfi xarakter daşıyırlar. Məşhur rus statistiki A. A. Çuprov göstərmişdir ki, nə qədər çox qrup götürülsə, çıxarılan nəticə möhkəm olar, müəyyən edilmiş əlaqə təsadüfi xarakter daşımaz.

6.1.4.Qarşılıqlı əlaqələrin tədqiqində çoxölçülü qruplaşdırma metodunun tətbiqi

Son zamanlarda qarşılıqlı əlaqələrin öyrənilməsində çoxölçülü qruplaşdırma metodundan geniş surətdə istifadə edilir. Məlumdur ki. nəticə əlamətinə çoxlu miqdarda amil əlaməti təsir göstərir. Həmin amillərin nəticə əlamətinə birgə təsirini müəyyən etmək üçün çoxölçülü qruplaşdırmadan istifadə edilir. Çoxölçülü qruplaşdırmanı aparmaq üçün məcmunun hər bir vahidi üzrə amil əlamətlərinin natural qiymətləri onların hesabi ortaya nisbəti ilə əvəz olunur. Amil əlamətlərini hər bir məcmu vahidi üzrə mütləq kəmiyyətlərinin orta kəmiyyətə nisbəti (P_{ij}) - yəni nisbi kəmiyyət müəyyən edilir, sonra hər bir məcmu vahidi üzrə çoxölçülü orta göstərici aşağıdakı düsturla hesablanır. Hesablanmış çoxölçülü orta göstərici qruplaşdırma əlaməti kimi götürülür. Beləliklə, çoxölçülü qruplaşdır-

manın köməyi ilə bir neçə amil əlamətinin nəticə əlamətinə təsir dərəcəsini, yəni onların qarşılıqlı əlaqələrini müəyyən etmək mümkün olur.

6.1.5. Qarşılıqlı əlaqələrin təhlilində qrafik metodu

Əlaqələrin mövcud olmasının və onun istiqamətinin aşkar edilməsində qrafik metodunun böyük köməyi vardır. Nəzəri təhlil əlaqənin mövcudluğunu və onun xarakterini müəyyən etmək imkanına malik olmadığı halda da qrafik metodundan istifadə edilir. Qrafik metodu amil və nəticə əlamətləri arasındakı əlaqə və asılılıqları əyani şəkildə təsvir etmək imkanına malikdir. Nəticə əlamətinin (y) bir amil əlamətindən (x) asılılığını təsvir etmək üçün əyrilər şəklində xətti diaqramdan istifadə oluna bilər. Bunun üçün düzbucaqlı koordinat sistemində absis oxunda amil əlamətinin (x) qiymətləri, ordinat oxunda isə nəticə əlamətinin (y) qiymətləri təsvir edilir. Amil və nəticə əlamətlərinin müvafiq qiymətlərinə uyğun olan nöqtələri sınıq xətlərlə birləşdirəcək nəticə əlamətinin amil əlamətindən asılılığını əyani şəkildə təsvir edən xətti diaqramı alarıq. Qarşılıqlı əlaqələrin tədqiqində korrelyasiya sahəsindən də istifadə edilir. Korrelyasiya sahəsini qurmaq üçün absis oxunda amil əlamətinin qiymətlərinə, ordinat axunda isə nəticə əlamətinin qiymətlərinə uyğun nöqtələr qoyulur. Həmin nöqtələrin düzülüşünə müvafiq olaraq əlaqənin istiqaməti və gücü haqqında fikir söyləmək mümkündür. Nöqtələr korrelyasiya sahəsində nizamsız, dağınıq şəkildə düzülmüşdürsə, onda həmin əlamətlər arasında əlaqənin olmadığı və yaxud zəif olduğu, nöqtələr koordinasiya sisteminin aşağı sol küncündən yuxarı sağ küncünə doğru düzülərsə əlaqə düz və güclü, nöqtələr yuxarı sol küncdən aşağı sağ küncə doğru düzülərsə əlamətlər arasında tərs əlaqə olduğu müəyyənləşdirilə bilər.

6.1.6. Empirik korrelyasiya nisbəti

Əlaqənin sıxlıq dərəcəsini xarakterizə etmək üçün nəticə əlamətinin variasiya göstəricilərindən istifadə edilə bilər. Nəticə əlamətinin (y) empirik qiymətlərinin onun orta kəmiyyətindən ($\overline{y}$) tərəddüd dərəcəsini ümumi dispersiya xarakterizə edir. Ümumi dispersiya

$$\sigma^2 = \frac{\sum (y - \overline{y})^2}{n}$$

düsturu ilə yaxud $\sigma^2 = \overline{y^2} - (\overline{y})^2$ düsturu ilə müəyyən edilir. Ümumi dispersiya (σ^2) tədqiq olunan amil əlaməti də (x) daxil olmaqla bütün amillərin təsiri əsasında nəticə əlamətinin (y) tərəddüd dərəcəsini göstərir. Əlaqənin sıxlığını ölçmək üçün ümumi dispersiyadan (σ^2) başqa analitik qruplaşdırma məlumatından istifadə edərək qruplararası dispersiyanı da (δ^2) hesablamaq olar. Qruplararası dispersiya

$$\delta^2 = \frac{\sum (\overline{y_i} - \overline{y})^2 f_i}{\sum f_i}$$

nəticə əlaməti üzrə (y) qrup orta kəmiyyətlərin ($\overline{y_i}$) ümumi orta kəmiyyətdən ($\overline{y}$) tərəddüd dərəcəsini xarakterizə edir. Nəticə əlaməti (y) və amil əlaməti (x) arasında əlaqənin sıxlığını ölçmək üçün empirik korrelyasiya nisbəti göstəricisi hesablanır.

Qruplararası dispersiyanın (δ^2) ümumi dispersiyaya (σ^2) nisbəti empirik determinasiya əmsalı adlanır və özü də aşağıdakı düsturla hesablanır:

$$\eta^2 = \frac{\delta^2}{\sigma^2}$$

Burada, η -yunan hərfi eta olub korrelyasiya nisbəti; δ^2 - qruplararası dispersiya;

σ^2 - ümumi dispersiyadır.

Determinasiya əmsalı (η^2) nəticə əlamətinin (y) ümumi variasiyasının hansı hissəsinin qruplaşdırma əlaməti olan amil əlamətinin (x) variasiyası əsasında baş verdiyini göstərir.

Qruplararası dispersiyanın ümumi dispersiyaya nisbətinin kvadrat kökü empirik korrelyasiya nisbəti adlanır və aşağıdakı düsturla hesablanır:

$$\eta = \sqrt{\frac{\delta^2}{\sigma^2}}$$

Empirik korrelyasiya nisbətinin qiyməti sıfırla vahid arasında dəyişir. Qrup orta kəmiyyətlər bir-birinə bərabər olduqda, yəni qruplar arasında variasiya olmadıqda qruplararası dispersiya "0"-a bərabər olur. Bunun nəticəsində korrelyasiya nisbətinin qiyməti "0" -a bərabər olur. Qruplararası dispersiya ümumi dispersiyaya bərabər olduqda ($\delta^2 = \sigma^2$) korrelyasiya nisbəti vahidə bərabər olur, bu da əlamətlər arasındakı əlaqənin funksional əlaqə olduğunu göstərir.

6.1.7. İqtisadi göstəricilər arasındakı qarşılıqlı əlaqələrin reqressiya-korrelyasiya metodu ilə təhlili

Məlum olduğu kimi, sosial-iqtisadi hadisələr arasında qarşılıqlı əlaqə və asılılıqlar korrelyasiya əlaqə formasında baş verir. Korrelyasiya sözü ingilis dilində correlation sözündən əmələ gəlmişdir, bu da nisbət deməkdir. Reqressiya-korrelyasiya təhlili amil əlaməti əsasında analitik qruplaşdırmanın davamı və inkişafıdır. Reqressiya-korrelyasiya təhlilinin köməyilə amil əlamətinin nəticə əlamətinə təsir dərəcəsi ölçülür və nəticə əlamətinin dəyişməsində öyrənilən amilin rolu müəyyənləşdirilir. Reqressiya təhlilinin vasitəsilə amil

və nəticə əlamətləri arasında konkret əlaqə növü müəyyənləşdirilir, sonra onun əsasında əlaqə tənliyi qurulur və qiymətləndirilir. Korrelyasiya təhlilində əlamətlər arasındakı əlaqənin sıxlığı və nəticə əlamətinin ümumi dəyişməsində amil əlamətinin rolu müəyyən edilir. Reqressiya tənliyinin köməyilə amil və nəticə əlamətlərinin variasiyası arasındakı analitik əlaqə forması müəyyənləşdirilir. Korrelyasiya metodu ilə əlamətlər arasındakı əlaqənin sıxlıq dərəcəsi ölçülür. Korrelyasiya təhlili aşağıdakı ardıcıl mərhələlərdən keçir:

-ilkin məlumatların nəzəri təhlil;

- məsələnin qoyuluşunun müəyyən edilməsi, amil və nəticə əlamətlərinin seçilməsi;

-statistika məlumatının toplanılması və onun hazırlanması;

-qrafik və analitik qruplaşdırma metodlarının köməyilə qarşılıqlı əlaqələrin ilkin öyrənilməsi;

-əlaqə modelinin (reqressiya tənliyinin) qurulması;

- əlaqənin sıxlığı göstəricilərinin hesablanması;

-tədqiqatın nəticəsinin təhlili və qiymətləndirilməsi.

6.1.8. Göstəricilər arasındakı reqressiya tənliyinin (əlaqə modelinin) qurulması

Korrelyasiya modelinin qurulmasının başlıca problemi nəticə əlaməti və amil əlamətinin əlaqə mexanizmini əks etdirən analitik funksiyanın növünü müəyyən etməkdir. Əlaqə formasının seçilməsi reqressiya tənliyinin qurulması üçün həlledici əhəmiyyətə malikdir. Buradan aydındır ki, əlaqənin forması düzgün seçilmədikdə aparılan hesablamalar istənilən nəticəni verə bilməz. Əlaqənin forması yuxarıda göstərildiyi kimi, hər şeydən əvvəl, öyrənilən hadisənin məzmununun keyfiyyət təhlili əsasında müəyyən edilməlidir. Əlaqənin formasının seçilməsində qrafik metodunun rolu böyükdür. Amil əlaməti və nəticə əlaməti arasında düz əlaqə olduqda düzxətli əlaqə tənliyi qurulur. Onu da qeyd etmək lazımdır ki, sosial-iqtisadi hadisələr arasında əsasan düzxətli əlaqə forması baş verir. Düzxətli əlaqə tənliyinin düsturu aşağıdakı kimi yazılır:

$$\bar{y}_x = \alpha_0 + \alpha_1 x$$

Burada, $\bar{y}_x$ -nəticə əlamətinin dəyişən orta kəmiyyətidir; α_0 və α_1- düz xəttin parametrləri, x amil əlamətidir.

Bu tənlikdə amil əlamətinin (x) qiyməti həmişə məlumdur. Deməli, nəticə əlamətinin orta kəmiyyətini ($\bar{y}_x$)müəyyən etmək üçün α_0 və α_1 parametrlərini hesablamaq lazımdır. α_0 və α_1 parametrlərinin tapılması ən kiçik kvadratlar üsulu ilə aparılır, bu da iki xətti tənlik sisteminə gətirib çıxarır:

$$\begin{cases} \sum y = n\alpha_0 + b\alpha_1 \\ \sum yx = \alpha_0 \sum x + \alpha_1 \sum x^2 \end{cases}$$

Sistem tənliyi həll edərək α_0 və $\alpha_1$parametrlərini tapmaq olar.

6.1.9. Elastiklik əmsalı

Amil və nəticə əlamətləri arasındakı əlaqəni iqtisadi cəhətdən xarakterizə etmək üçün elastiklik əmsalından istifadə etmək daha əlverişlidir. Xətti asılılıq halında a_i parametrinin iqtisadi mənasını vermək üçün elastiklik əmsalının düsturu aşağıdakı kimi yazılır:

$$\mathbf{E} = a_i \times \frac{\bar{x}}{\bar{y}}$$

Elastiklik əmsalı nisbi ədəd olub amil əlamətinin bir faiz dəyişməsi nəticəsində nəticə əlamətinin orta hesabla neçə faiz dəyişdiyini göstərir.

6.1.10. Fexner əmsalı

Sosial-iqtisadi hadisələrin tərkibində normal bölgü olmadıqda hadisələr arasındakı qarşılıqlı əlaqələrin sıxlığını ölçmək üçün Fex-

ner əmsalı və ranqların korrelyasiya əmsalı hesablana bilər. Bununla bərabər normal bölgü halında da bu əmsallar hesablana bilər. Bu əmsalların üstünlüyü ondadır ki, burada mürəkkəb hesablamalar aparmaq tələb olunmur. Fexner əmsalı amil və nəticə əlamətlərinin ayrı-ayrı qiymətlərinin onların orta kəmiyyətindən kənarlaşmalarını göstərən işarələrin müqayisəsi əsasında hesablanır. Bu göstəricinin hesablanması alman statistiki Q. Fexner tərəfindən təklif olunduğuna görə onun adı verilmişdir və aşağıdakı düsturla hesablanır:

$$k_F = \frac{A - B}{A + B}$$

Burada, A - uyğun gələn işarələrdir; B - uyğun gəlməyən işarələrdir.

6.1.11. Ranqların korrelyasiya əmsalı

Əlamətlərin arasındakı sıxlığı ranqların korrelyasiya əmsalı daha dəqiq xarakterizə edir. Ranqların korrelyasiya əmsalı ilk dəfə G. Pirson tərəfindən təklif olunmuşdur, sonralar isə Spirman, Kendel və digərləri tərəfindən daha da təkmilləşdirilmişdir. Ranqların korrelyasiya əmsalı yunan hərfi (ρ) ilə işarə olunur və Spirmenin təklif etdiyi aşağıdakı düsturla hesablanır:

$$\rho = 1 - \frac{6\sum (x - y)^2}{n(n^2 - 1)}$$

Burada x- amil əlamətinin, y isə nəticə əlamətinin ranqlaşdırılmış qiymətləridir, n - müşahidə vahidlərinin sayıdır.

6.1.12. Konkordasiya əmsalı

Üç və daha çox əlamətlər arasındakı əlaqənin sıxlığını müəyyən etmək üçün konkordasiya əmsalı hesablana bilər. Konkordasiya əmsalı aşağıdakı düsturla müəyyən edilir:

$$w = \frac{12S}{m^2(n^3 - n)}$$

Burada, S-amillərin ranq qiymətləri cəminin kvadratları məbləğidir; m - amillərin miqdarıdır; n - müşahidələrin sayıdır.

6.1.13. Assosiasiya və kontingensiya əmsalları

İki keyfiyyət əlamətlərinin əlaqə sıxlığını müəyyən etmək üçün assosiasiya və kontengensiya əmsallarından istifadə edilir. Assosiasiya və kontingensiya əmsallarının hesablanması Sxemdə verilmiş a, b, c və d əlamətlərin tezlikləridir, n tezliklərin ümumi həcmidir. Assosiasiya əmsalını aşağıdakı düsturla hesablamağı təklif etmişdir.

$$A = \frac{ad - bc}{ad + bc}$$

Alternativ əlamətlər arasındakı əlaqənin sıxlığının müəyyən edilməsində istifadə olunan kontingensiya əmsalı aşağıdakı düsturla hesablanır:

$$K = \frac{ad - bc}{\sqrt{(a+b)(b+d)(a+c)(c+d)}}$$

Kontingensiya əmsalı həmişə assosiasiya əmsalından kiçik olur. Assosiasiya əmsalı - $A \geq 0{,}5$ olarsa, kontingensiya əmsalı isə - $k \geq 0{,}3$ olarsa əlamətlər arasında əlaqənin olduğu təsdiq olunur.

6.1.14. K.Pirsonun və A.A.Çuprovun qarşılıqlı qovuşma əmsalları

İkidən çox atributiv əlamətlər arasında əlaqənin sıxlığını ölçmək üçün K.Pirsonun və A.A.Çuprovun qarşılıqlı qovuşma əmsalların-

dan istifadə olunur. Onların təklif etdikləri düsturlar müvafiq olaraq aşağıdakı kimi yazılırlar:

$$K_{qPirs} = \sqrt{\frac{\varphi^2}{1+\varphi^2}};$$

$$K_{qÇÇup} = \sqrt{\frac{\varphi^2}{(k_1-1)(k_2-1)}}$$

Burada, K_1 - cədvəlin sütunları üzrə qrupların sayını, K_2 isə cədvəlin sətirləri üzrə qrupların sayını göstərir, φ^2 - qarşılıqlı qovuşma göstəricisidir. Qarşılıqlı qovuşma əmsalının qiyməti 0-la 1 arasında dəyişir

Əlaqə sıxlığı iki göstəricisi ilə parametrik və qeyri- parametrik göstəricilərlə qiymətləndirilir.

Əlaqə sıxlığının parametrik göstəricilərinə orta kvadratik kınarlaşma və korrelyasiya əmsalı parametrləri daxildir. Əlaqə sıxlığının parametrik göstəriciləri yalnız kəmiyyət şkalası ilə ifadə edilmiş əlamətlər üçün təyin edilir. Kəmiyyət şkalası sıralar arasında fasilənin kəmiyyəti və sıralama münasibətlərini müəyyən edir. Məsələn əmtəələrin netto çəkisi, statistik dəyəri və s. Əgər öyrənilən əlamətlər kəmiyyət üzrə, onların qiymətləri nominal və yaxud sıralama şkalasıdırsa bu halda qeyri parametrik göstəricilərdən istifadə edilir. Şkalalar nominal və sıralama şkalalarına bölünür.

6.2. Nominal şkala. Bu şkala əlamətlərin əhəmiyyətinin siyahısıdr. Məsələn, nəqliyyat növləri, gömrük əməliyyatları və s. Sıralama şkalası-obyektlərin böyüklük-kiçiklik prinsiplərinə əsasən klassifikasiyasıdır (sinifləşdirilməsi). Adətən siniflər nömrələnirlər, lakin onlar arasındakı həqiqi məsafələr məlum olmur.

Məsələn, ölkələrin klassifikasiyası - konturagentlər iqtisadi inkişaf dərəcəsinə görə müəyyən edilir.

Parametrik metodlarla müqayisədə qeyri-parametrik metodlar və göstəricilər az dəqiqliyə malikdirlər. Bunula bərabər tətbiq üçün daha sadədirlər. Bu isə onların bölüşdürmə qanunlarını tələb etmə-

mələri ilə bağlıdır. Əlaqə sıxlığının qeyri-parametrik göstəricilər üzrə qiymətləndirilməsi qarşılıqlı əlaqənin həm keyfiyyət, həm də kəmiyyət üzrə təhlilinin aparılmasında istifadə edilə bilər. Nominal şkala üzrə verilmiş əlamətlər arasındakı qarşılıqlı əlaqənin tədqiqatı zamanı verilənlər birləşdirilmiş cədvəl formasında yerləşdirilir.

Birləşdirilmış cədvəllərin ikiölçülü və çoxölçülü növləri fərqləndirilir:

- birləşdirilmış cədvəllərin ikiölçülü növləri iki əlamətlər üzrə qurulur;
- birləşdirilmış cədvəllərin çoxölçülü növləri üç və daha çox əlamətlər üzrə qurulur.

Sxematik olaraq ikiölçülü cədvəllərin birləşdirilməsini aşağıdakı kimi ifadə etmək olar:

Y \ X		Faktorial (səbəb) göstəricilərinin qiymətləri						Cəmi
		X_1	X_2	...	X_j	...	X_m	
Nəticə göstəricilərinin qiymətləri	Y_1	n_{11}	n_{12}	...	n_{1j}	...	n_{1m}	n_{1*}
	Y_2	n_{21}	n_{22}	...	n_{2j}	...	n_{2m}	n_{2*}
	...	...	...	...	...	...	...	...
	Y_k	n_{k1}	n_{k2}	...	n_{kj}	...	n_{km}	n_{k*}
	...	...	...	...	...	...	...	...
	Y_L	n_{L1}	n_{L2}	...	n_{Lj}	...	n_{Lm}	n_{L*}
Cəmi		n_{*1}	n_{*2}	...	n_{*j}	...	n_{*m}	$n_{**}=n$

Burada, -k-m nəticə əlamətinə və J-m faktor əlamətinə sahib olan obyektlərin sayıdır.

$$\sum_{k=1}^{l} n_{i*} = \sum_{j=1}^{m} n * j = n$$

Birləşdirilmış cədvəllərin ikiölçülü növlərinə ən sadə misal olaraq dörd xanalı cədvəl birləşməsini göstərmək olar.

	X_0	X_1
Y_0	n_{11}=a	n_{12}=b
Y_1	n_{21}=c	n_{22}=d

6.2.1. Nominal şkalda verilmiş keyfiyyət əlamətlərinin qarşılıqlı əlaqəsinin tədqiqi

Əsasən dörd xanalı cədvəl birləşməsi üçün assosiasiya əmsalı hesablanır. Bu əmsal aşağıdakı kimi müəyyən edilir.

$$K_{ass.} = \frac{ad - cb}{ad + cb}$$

Assosiasiya əmsalı əsasən -1-lə +1 qiymətlərini alır. |Kass.| nə qədər 0-a yaxındırsa qarşılıqlı əlaqə bir o qədər sıxdır.

Əgər tezliklərdən biri o bərabərdirsə, bu halda $K_{ass.} = 1$ olacaqdır. Bu isə funksional asılılıq əlaqəsi deməkdir.Funksional əlaqədə bütün qeyri-dioqanal tezliklər sıfra bərabər olmalıdır. Bu halda kontinqensiya əmsalından istifadə etmək daha səmərəlidir. Kontinqensiya əmsalı aşağıdakı düsturla hesablanır.

$$K_{kont.} = \frac{ad - cb}{\sqrt{(a+b)(b+d)(d+c)(c+a)}}$$

Assosiasiya əmsalı həmişə kontinqensiya əmsalından həqiqi ölçüsünə görə böyük olur. $|Kass.| > |Kkont|$. Əgər, $|Kass.| > 0{,}5$, $|Kkont.| > 0{,}3$ olarsa əlaqə tsdiq edilmiş hesab edilir.

İstənilən ölçülü cədvəl əsasən Çuprov əmsalına görə qurulur. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır.

$$K_{Ç} = \sqrt{\frac{x^2}{n\sqrt{(L-1)(m-1)}}}$$

Burada, x^2-nın hesablanması aşağıdakı qaydada müəyyən edilir.

$$x^2 = \sum_{kj} \frac{\left(n_{kj} - \frac{n_{*j} n_{k^*}}{n}\right)^2}{\frac{n_{*j} n_{k^*}}{n}} = \sum_{kj} \frac{\left(n_{kj} - {n_{kj}}^T\right)^2}{n_{kj}^T} = n\left[\sum_{kj} \frac{{n_{kj}}^2}{n_{*j} {n_k}^*} - 1\right]$$

x^2 –tezliklərin əlamətlərin bütün qiymətləri arasında proporsional bölüşdürülməsinə uyğun olaraq, faktiki tezliyin nəzəri tezlikdən normallaşdırılmış orta kvadratik kənarlaşmasıdır.

Çuprov əmsalının çatışmayan cəhəti bir düzbucaqlı cədvəlin hətta funksional əlaqədə belə birləşdirilməsinin mümkün olmamasıdır. Belə hallarda Kramer əmsalından istifadə etmək daha məqsədəuyğundur. Kramer əmsalı aşağıdakı düsturla hesablanır.

$$K_{kr.} = \sqrt{\frac{x^2}{n(min\{l,\ m\} - 1)}}$$

Verilmiş əmsalın statistik əhəmiyyətliliyi əsasən ${x_{kr.}}^2$ kriteriyasına görə müəyyən edilir. ${x_{kr.}}^2$ –nın qiyməti səbəst dərəcələr üzrə (l-1, m-1) qiymətlər x^2 bölüşdürmə cədvəllərindən təyin edilir. Əgər $x^2 > {x_{kr.}}^2$ olarsa, bu halda əlamətlərin asılı olmaması hiptezi rədd edilir. Çuprov və Kramer əmsalları əlaqənin sıxlığını qiymətləndirir, lakin onun istiqamətini müəyyən etmir. Bunun üçün birləşdirmə cədvəlləri dördxanalı vəziyyətə gətirilir və onun əsasında assosiasiya kontinqensiya əmsalları hesablanır. Həmin əmsalların işarəsinə əsasən əlaqənin istiqaməti xarakterizə edilir.

Çuprov və Kramer əmsallarının tətbiq edilməsi ${n_{kj}}^T > 5$ olduqda, daha doğrusu böyük həcmli müşahidələr zamanı (n>50–100) hesablanır.

Alternativ keyfiyyət və kəmiyyət əlamətləri arasındakı əlaqə sıxlığının qiymətləndirilməsi məqsədi ilə biserial korrelyasiya əmsalından istifadə edilir. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır.

$$r_{biss.} = \frac{|\bar{y}_1 - \bar{y}_2|}{\sigma_y} \times \frac{pq}{z}$$

Burada, $\bar{y}_1$ və $\bar{y}_2$ -qruplardakı nəticə əlamətinin orta qiymətidir;
σ_y– nəticə əlamətinin orta kvadratik kənarlaşmasıdır;
p, q – birinci və ikinci qrupların xüsusi çəkisidir;
z – bölüşdürülməsinin p-dən asılılığının cədvəl qiymətidir.

6.3. Gömrük statistikasında əlaqə sıxlığının parametrik və qeyri-parametrik göstəricilərlə qiymətləndirilməsi

Əlaqə sıxlığı iki göstəricisi ilə parametrik və qeyri- parametrik göstəricilərlə qiymətləndirilir.

Əlaqə sıxlığının parametrik göstəricilərinə orta kvadratik kınarlaşma və korrelyasiya əmsalı parametrləri daxildir. Əlaqə sıxlığının parametrik göstəriciləri yalnız kəmiyyət şkalası ilə ifadə edilmiş əlamətlər üçün təyin edilir. Kəmiyyət şkalası sıralar arasında fasilənin kəmiyyəti və sıralama münasibətlərini müəyyən edir. Məsələn əmtəələrin netto çəkisi, statistik dəyəri və s.

Əgər öyrənilən əlamətlər kəmiyyət üzrə, onların qiymətləri nominal və yaxud sıralama şkalasıdırsa bu halda qeyri parametrik göstəricilərdən istifadə edilir. Şkalalar nominal və sıralama şkalalarına bölünür.

Nominal şkala əlamətlərin əhəmiyyətinin siyahısıdr. Məsələn, nəqliyyat növləri, gömrük əməliyyatları və s. Sıralama şkalası-obyektlərin böyüklük-kiçiklik prinsiplərinə əsasən klassifikasiyasıdır (sinifləşdirilməsi). Adətən siniflər nömrələnirlər, lakin onlar arasındakı həqiqi məsafələr məlum olmur.

Əlamətlər arasındakı asılılıq xətti korrelyasiya əmsalı ilə təyin edilir. Bunun üçün əvvəlcə orta statistik kənarlaşma təyin edilir [29; 30].

$$\sigma_x = \sqrt{\frac{\sum x^2}{h} - \left(\frac{\sum x}{n}\right)^2} \quad (6.3.1.1)$$

$$\sigma_y = \sqrt{\frac{\sum y^2}{h} - \left(\frac{\sum y}{n}\right)^2} \quad (6.3.1.2)$$

Sərbəst və asılı dəyişənlərin hesabi orta qiyməti və onların hasilinin hesabi orta qiymətləri hesablandıqdan sonra orta statistik kənarlaşmanın (6.3.1.1) və (6.3.1.2) düsturlarına əsasən korrelyasiya əmsalı təyin edilir.Korrelyasiya əmsalı aşağıgakı kimi hesablanır [8; 29].

$$\boldsymbol{r = \frac{\overline{xy} - \bar{x}\,\bar{y}}{\sigma_x \sigma_y}} \quad \textbf{(6.3.1.3)}$$

Əlamətlər arasındakı asılılıq dterminasiya əmsalına əsasən aşağıdakı düsturla müəyən edilir [29].

$$\boldsymbol{\sigma^2 = \frac{S^2{}_y - S^2{}_{yx}}{S^2{}_y}} \quad \textbf{(6.3.1.4)}$$

Burada, $S^2{}_y = \frac{\sum(y_{hes.} - \bar{y})^2}{n}$

$$S^2{}_{yx} = \frac{\sum\left(y_{fak.} - y_{hes.}\right)^2}{n}$$

Həmin düstura əsasən Korrelyasiya əmsalı aşağıgakı kimi hesablanacaqdır.

$$\boldsymbol{r = \sqrt{\frac{S^2{}_y - S^2{}_{yx}}{S^2{}_y}}} \quad \textbf{(6.3.1.5)}$$

Səbəb amilin 1% dəyişməsi hesabına nəticə amilin neçə % dəyişməsini ifadə edən göstərici kimi üçün elastiklik əmsalından istifadə edilir.

Cüt korrelyasiyanın xətti reqressiya tənliyi üçün elastiklik əmsalı aşagıdakı düsturla hesablanır [8].

$$E = \frac{\propto_1 \bar{x}}{\bar{y}} \quad \textbf{(6.3.1.6)}$$

Burada, $\bar{x}$ –x sərbəst dəyişənin hesabi ortası,

$\bar{y}$ –Y asılı dəyişənin hesabi ortasıdır.

β əmsalı isə aşagıdakı kimi hesablanır [28].

$$\boldsymbol{\beta} = \frac{\propto_1 S_x}{S_y} \quad \textbf{(6.3.1.7)}$$

Burada, S_x –x sərbəst dəyişənin orta kvadratik uzaqlaşması,

S_y –y asılı dəyişənin orta kvadratik uzaqlaşmasıdır

Beta əmsalı x sərbəst dəyişənin onun orta kvadratik uzaqlaşması qədər dəyişməzi halında y asılı dəyişənin orta hesabla ğzünün orta kvadratik uzaqlaşmasının hansı hissəsi qədər dəyişəcəyini əks etdirir.

Əlamətlər arasındakı asılılıq xətti korrelyasiya əmsalı ilə təyin edilir.

Əvvəlcə orta statistik kənarlaşma təyin edilir [27].

$$\boldsymbol{\sigma_x} = \sqrt{\frac{\sum x^2}{h} - \left(\frac{\sum x}{n}\right)^2} \quad \textbf{(6.3.1.8)}$$

$$\boldsymbol{\sigma_y} = \sqrt{\frac{\sum y^2}{h} - \left(\frac{\sum y}{n}\right)^2} \quad \textbf{(6.3.1.9)}$$

Korrelyasiya əmsalı orta statistik kənarlaşmaya əsaən aşağıgakı kimi hesablanır [8;29].

$$\boldsymbol{r} = \frac{\overline{xy} - \bar{x}\,\bar{y}}{\boldsymbol{\sigma_x \sigma_y}} \qquad \textbf{(6.3.1.10)}$$

Əlamətlər arasındakı asılılıq dterminasiya əmsalına əsasən aşağıdakı düsturla müəyən edilir.

$$\boldsymbol{\sigma^2 = \frac{S^2{}_y - S^2{}_{yx}}{S^2{}_y}} \quad \textbf{(6.3.1.11)}$$

Burada, $S^2{}_y = \frac{\sum(y_{hes.} - \bar{y})^2}{n}$

$$S^2{}_{yx} = \frac{\sum\left(y_{fak.} - y_{hes.}\right)^2}{n}$$

Həmin düstura əsasən korrelyasiya əmsalı aşağıdakı kimi hesablanacaqdır.

$$\boldsymbol{r = \sqrt{\frac{S^2{}_y - S^2{}_{yx}}{S^2{}_y}}} \quad \textbf{(6.3.1.12)}$$

Qeyd etmək lazımdır ki, gömrük statistikasında statistik məlumatların işlənməsi xarici ticarət əməliyyatlarının təhlil edilməsində mühüm əhəmiyyət kəsb edir.

VII FƏSİL

GÖMRÜK STATİSTİKASINDA STATİSTİK MƏLUMATLARIN İŞLƏNMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

7.1. Statistik məlumatların işlənməsində riyazi statistikanın baza konsepsiyaları

Gömrü statistikasında statistika üsullarının öyrənilməsi və onlardan bacarıqla istifadə edilməsi statistik təhlil üçün zəruri olan ilkin şərtdir. Bu baxımdan statistik məlumatların təhlilinə yanaşmaların izahı, statistik məlumatların işlənməsi məqsədi ilə istifadə olunan əsas xarakteristikalarş mühüm əhəmittət kəsb edir.

Fərz edək ki, müəyyən obyektləri xarakterizə edən hər hansı kəmiyyət əlaməti öyrənilir. Məsələn, gömrük üzrə büdcə daxilolmaları, gün ərzində gömrük təşkilatlarında qeydə alınmış yük-gömrük bəyannamələrinin sayı, tədqiq edilən idxal məhsullarında ərzaq mallarının miqdarı və s.

Verilmiş real şərtlər kompleksi daxilində tədqiq olunan X təsadüfi kəmiyyətinin bütün mümkün qiymətləri yaxud reallaşdırılması çoxluğu baş (ümumi) yığım adlanır.

Bir çox hallarda bu və ya digər iqtisadi proseslərin təhlili üçün statistik məlumatların alınması qaydası vacib əhəmiyyyətə malikdir. Lakin dolayı məlumatların baxılması zamanı onların alınması qaydası nəzərə çarpacaq dərəcədə rol oynamır. Bundan başqa, X kəmiyyət əlamətinin baş yığımdan götürülmüş $x_1, x_2, x_3, \dots, x_n$ seçmə qiymətlərinin qeyd olunmuş ardıcıllıqla yazılması, sonradan təhlil aparmaq üçün adətən çətin və əlverişsiz olur. Seçimin statistik təsvir edilməsinin vəzifəsi onun elə yazılışını almaqdan ibarətdir ki, bu ehtimal xarakteristikalarını aşkar etməyə imkan vermis olsun. Bunun üçün seçimdə müxtəlif formada nizamlamalar tətbiq edilir - artma üzrə, üst-üstə düşən qiymətlər üzrə, intervallar üzrə və s. X göstəricisinin qeyd olunmuş anda (yaxud zaman amili nəzərə

alınmadan) müşahidə olunmuş $\boldsymbol{x_1, x_2, x_3, \dots, x_n}$ qiymətlərini adətən azalmamaq üzrə nizamlayırlar:

$$\boldsymbol{x_1 \leq x_2 \leq x_3 \leq \cdots, \leq x_n}$$

X əsadüfi kəmiyyət (TK) maksimum və minimum qiymətləri arasındakı fərq ***seçimin genişliyi*** adlanır.

Tutaq ki, seçimdəki müxtəlif qiymətlərin sayı k ($k \leq n$) - dır. Müəyyənlik üçün $\boldsymbol{x_1 < x_2 < x_3 < \cdots, < x_k}$ qəbul edək. $\boldsymbol{x_i}$, $\boldsymbol{i = 1, 2, 3, \dots, k}$ qiymətləri ***variantlar*** adlanır.

Əgər $\boldsymbol{x_i}$ qiyməti seçimdə $\boldsymbol{n_i}$ dəfə rast gəlirsə, onda $\boldsymbol{n_i}$ ədədi $\boldsymbol{x_i}$ qiymətinin ***tezliyi*** adlanır. $\omega_i = \frac{n_i}{n}$ isə $\boldsymbol{x_i}$ qiymətinin ***nisbi tezliyi*** adlanır. Onda müşahidə olunmuş qiymətləri aşağıdakı cədvəl 7.1.1-dəki kimi ***statistik sıra*** şəkilində qruplaşdırmaq olar:

Cədvəl 7.1.1

X	$\boldsymbol{x_1}$	$\boldsymbol{x_2}$	…	$\boldsymbol{x_k}$	
$\boldsymbol{n_i}$	$\boldsymbol{n_1}$	$\boldsymbol{n_2}$	…	$\boldsymbol{n_k}$	$\boldsymbol{\sum_{n=1}^{k} n_i = n}$
$\boldsymbol{\omega_i = \frac{n_i}{n}}$	$\boldsymbol{\frac{n_1}{n}}$	$\boldsymbol{\frac{n_2}{n}}$	….	$\boldsymbol{\frac{n_k}{n}}$	$\boldsymbol{\sum_{i=1}^{k} \frac{n_i}{n} = 1}$

Burada statistik sıra üzrə $F^*(x)$ ***empirik paylanma funksiyasını aşağıdakı kimi*** qurmaq olar:

$$\boldsymbol{F^*(x) = \frac{n_x}{n}}$$

burada $\boldsymbol{n_x}$— X təsadüfi kəmiyyətinin x- dən böyük olmayan qiymətlərinin sayı
n — seçimin həcmidir.

7.2. Seçmə xarakteristikaların hesablanması

İstənilən X təsadüfi kəmiyyət (TK) üçün, onun paylanma funksiyasının təyin edilməsindən başqa ədədi xarakteristikalarını da göstərmək məqsədəuyğundur. Bunlardan ən vacib olanları riyazi gözləmə, dispersiya, orta kvadratik meyldir. Tutaq ki, baş yığımın həcmi N-dir. Onda X TK riyazi gözləməsi olaraq baş orta (baş yığımın ortası) çıxış edir.Bbaş orta (baş yığımın ortası) aşağıdakı süturla hesablanır.

$$\overline{x_B} = \frac{1}{N}\sum_{i=1}^{N} x_i \quad \textbf{(7.2.1)}$$

X TK dispersiyası olaraq ***baş dispersiya (baş yığımın dispersiyası)*** çıxış edir:

$$\overline{D_B} = \frac{1}{N}\sum_{i=1}^{N}(x_i - \overline{x_B})^2 \qquad \textbf{(7.2.2)}$$

Baş dispersiyamn kvadrat kökü ***baş orta kvadratik meyl (baş yığımın orta kvadratik meyli)*** adlanır və aşağıdakı düstura əsasən təyin edilir:

$$\sigma_B = \sqrt{D_B} \qquad \textit{(7.2.3)}$$

Beləliklə, baş ədədi xarakteristikaları tapmaq üçün bütün baş yığımı təhlil etmək lazımdır. Bu məqsədlə praktiki olaraq çox zaman seçimlərlə işlənilir və ona görə də yuxanda göstərilən baş xarakteristikaların qiymətləndirmələrini tapmaq tələb olunur. Bunlara seçmə ədədi xarakteristikalar deyilir. Seçmə ədədi xarakterisyikalara seçmə orta, seçmə dispersiya, seçmə orta kvadratik meyl daxildir.

Seçimin müşahidə olunmuş qiymətlərinin ədədi ortası **seçmə orta** adlanır:

$$\overline{x_s} = \frac{1}{n}\sum_{i=1}^{n} x_i \qquad (\mathbf{7.2.4})$$

Seçim statistik sıralar şəkilində verildikdə seçmə orta aşağıdakı düsturla hesablanır:

$$\overline{x_s} = \frac{1}{n}\sum_{i=1}^{k} n_i x_i \qquad (\mathbf{7.2.5})$$

Baş dispersiyanm qiymətləndirməsi ***seçmə dispersiya*** adlanır:

$$\boldsymbol{D_s = \frac{1}{n}\sum_{i=1}^{n}(x_i - \overline{x_s})^2} \qquad (\mathbf{7.2.6})$$

$\overline{x_s}$ əvəzində sadəlik üçün $\bar{x}$ istifadə edəcəyik. Çox zaman D_s **-** in hesablanması üçün aşağıdakı düstur tətbiq edilir:

$$D_s = \frac{1}{n}\sum_{i=1}^{n}(x_i - \overline{x_s})^2 = \frac{1}{n}\sum_{i=1}^{n}({x_i}^2 - 2\,x_i\overline{x_s} + (\overline{x_s})^2)$$
$$= \overline{x^2} - \bar{x}^2 \qquad (\mathbf{7.2.7})$$

Seçim statistik sıra şəkilində verildikdə alırıq:

$$D_s = \frac{1}{n}\sum_{i=1}^{k} n_i(x_i - \overline{x_s})^2 \quad (\mathbf{7.2.8})$$

Seçmə dispersiyanm kvadrat kökü ***seçmə orta kvadratik meyl*** adlanır:

$$\sigma_s = \sqrt{D_s} = \sqrt{\frac{1}{n}\sum_{i=1}^{k} n_i(x_i - \overline{x_s})^2} = \sqrt{\overline{x^2} - \bar{x}^2} \qquad (\mathbf{7.2.9})$$

Seçim interval statistik sıra şəkilində verildikdə, (**7.2.4**) - (**7.2.9**) düsturlarında x_i əvəzində i altintervalm orta qiyməti götürülür:

$$x_i = \frac{x_{i-1} + x_i}{2}$$

V - seçmə variasiya əmsalı seçmə orta kvadratik meylin seçmə ortaya nisbətinin faizlərlə ifadəsinə deyilir:

$$V = \frac{\sigma_s}{x} \times 100\% \qquad (\mathbf{7.2.10})$$

Variasiya əmsalı - ölçüsüz kəmiyyətdir və müxtəlif ölçülərə malik iki seçimin səpələnməsi kəmiyyətlərini müqayisə etmək üçün əlverişlidir. İki təsadüfi kəmiyyətin əlaqəsinin xətti olduğu halda, ən çox istifadə olunan xarakteristikalar - kovariasiya və korrelyasiya əmsalıdır. Onların qiymətləndirmələri kimi uyğun olaraq ***seçmə kovariasiya*** S_{xy} və ***seçmə korrelyasiya əmsalı*** r_{xy} çıxış edirlər:

$$\boldsymbol{S_{xy} = \frac{1}{n}\sum_{i=1}^{n}(x_i - \overline{x})(y_i - \overline{y}) = \overline{xy} - xy} \qquad (\mathbf{7.2.11})$$

$$\boldsymbol{r_{xy} = \frac{S_{xy}}{\sigma_s(X)\sigma_s(Y)} = \frac{\overline{xy} - xy}{\sqrt{\overline{x^2} - \overline{x}^2}\sqrt{\overline{y^2} - \overline{y}^2}}} \qquad (\mathbf{7.2.12})$$

Burada, $\overline{xy} = \frac{1}{n}\sum_{i=1}^{n} x_i\, y_i$ ilə ifadə ediləcəkdir.

Məsələ 7.2.1. İstehsal müəssisəsinin kapital qoyuluşuna uyğun olaraq istehsal etdiyi məhsulların xarici ölkələrə ixracından əldə etdiyi mənfəəti təhlil edilir. Bu məqsədlə son 5 il ərzində ixracdan əldə edilmiş mənfəətin məbləği hesablanarkən aşağıdakı nəticələr əldə edilmişdir:

İllər	2014	2015	2016	2017	2018
Mənfəət, min. manat	15,0	10,0	-2,0	4,0	8

Cədvəl məlumatlarından istifadə edərək istehsal müəssisəsinin son beş ildə əldə etdiyi gözlənilən orta mənfəəti hesablayın və ixrac edilmiş məhsul istehsalı üzrə kapital qoyuluşunun riskini qiymətləndirin.

Həlli.

1. Müəssisənin son beş ildə əldə etdiyi orta və yaxud gözlənilən mənfəəti hesabi orta kəmiyətə əsasən aşağıdakı kimi olacaqdır.

$$\bar{x}=\frac{15+10-2+4+8}{5}=7\ \text{min}\ manat$$

2. Kapital qoyuluşunun riskini müəyyən etmək üçün, seçmə disspersiyanın kvadrat kökü olan seçmə orta kvadratik meyl və seçmə variasiya əmsalı əsasında müəyyən edilir.Buna müvafiq olaraq seçmə orta kvadratik meyl aşağıdakı kimi təyin ediləcəkdir.

$$\sigma_x=\sqrt{D_s}=\sqrt{\frac{1}{n}\sum_{i=1}^{n}(x_i-\bar{x}_s)^2}$$

Seçmə variasiya əmsalı,

$$v=\frac{\sigma_x}{\bar{x}}*100\%$$

$$\boldsymbol{\sigma_x=\sqrt{D_s}=\sqrt{\frac{1}{n}\sum_{i=1}^{n}(x_i-\bar{x}_s)^2}=\sqrt{\frac{(15-7)^2+(10-7)^2+(-2-7)^2+(4-7)^2+(8-7)^2}{5}}=\sqrt{32,8}=5,73}$$

$$v=\frac{\sigma_x}{\bar{x}}*100\%=\frac{5,73}{5}\times 100\%=114,6\%$$

Beləliklə, aparılmış hesablama nəticəsində alınmış variasiya əmsalının $v=114,6\%$ olması onu göstərir ki, istehsal müəssisəsinin son beş ildə ixrac etdiyi məhsullar hesabına ixracdan əldə etdiyi mənfəətinin səpələnməsi mənfəətinin gözlənilən həcmini aşır. Bu isə ixrac olunmuş məhsul istehsalı üzrə qoyulmuş kapital qoyuluşlarından riskin çox nəzərə çarpan olduğunu göstərir.

Məsələ 7.2.2. Ölkəyə 15-ci malqrupuna aid olan 151560100 mal kodu ilə idxal olunmuş xam yağ üzrə məhsulların miqdarı təyin edilir. Hesabat ili ərzində 60 dəfə idxal olunmuş xam yağ məhsullarının gömrük orqnında il ərzində miqdarı aşağıdakı kimi qeyd olunmuşdur:

39, 60, 40, 52, 32, 68, 77, 61, 68, 60, 47, 49, 70,55, 66,
80, 35, 67, 70, 55, 42, 52, 60, 82, 70, 55, 47, 39, 50, 58,
45, 50, 53, 33, 49, 54, 55, 70, 62, 60, 60, 40, 59, 64, 70,
55, 54, 35, 48, 52, 57, 55, 82, 70, 51, 35, 49, 60, 55, 47.

Verilmiş şərtlər daxilində aşağıdakələrı hesablayın.

a) göstərilən kəmiyyət üzrə seçmə ortanı, dispersiyam, orta kvadratik meyli hesablamalı;

b) 5 altintervaldan ibarət (bu məqsədlə hansı h addımını seçirsiniz və nə üçün) interval statistik sıranı qurun;

c) histoqramı qurun və onun şəkili üzrə TK paylanma qanunu haqqında fərziyyə irəli sürün;

ç) qurulmuş interval statistik sıra əsasında baxılan TK üzrə seçmə ədədi xarakteristikaları hesablamalı;

d) 7 altintervaldan ibarət interval statistik sıranı qurun və onun əsasında baxılan TK üzrə seçmə ədədi xarakteristikaları hesablamalı;

e) a), ç) və d) üzrə hesablama nəticələrini müqayisə edin; siz hansı nəticələrə gəlirsiniz?

Həlli

a): Göstərilən kəmiyyət üzrə seçmə ortanın hesablanması

$$\bar{x}_s = \bar{x}_s = \frac{39 + 60 + 40 + 52 + \cdots + 47}{60} = 55{,}58$$

Seçmə dispersiya və orta kvadratik meyl (2.3) və (2.6) düsturları üzrə hesablanırlar:

$$D_s = \frac{1}{60}[(39 - 55{,}58)^2 + (60 - 55{,}58)^2 + (40 - 55{,}58)^2 + - + 60 + (47 - 55{,}58)^2] = 145{,}61;$$

Orta kvadratik meyl.


$$\sigma_s = \sqrt{D_x} = \sqrt{145{,}61} = 12{,}07$$

b) 5 altintervaldan ibarət interval statistik sıra

$[x_{i-1}, x_i)$	[32, 42]	[42, 52]	[52, 62]	[62, 72]	[72, 82]
n_i	9	12	23	12	4

h addımı *h = (max - min)*/5 = (82 - 32)/5 = 10 düsturu ilə təyin edilir;

c) histoqram aşağıdakı şəkildə olur



Şəkil 7.2.2

Histoqram X TK normal paylanma qanununa tabe olması fərziyyəsini irəli sürməyə əsas verir.

ç) seçmə orta çəkili hesabi orta düsturu ilə hesablanır:

$$\bar{x}_s = \frac{9 \times 37 + 12 \times 47 + 23 \times 57 + 12 \times 67 + 4 \times 77}{60} = 55{,}33$$

Seçmə dispersiya və orta kvadratik meyl aşağıdakı kimi hesablanır:

Seşmə dispersiya,

$$D_s = \frac{1}{60}[9(37 - 55{,}33)^2 + 12(47 - 55{,}33)^2 + 23(57 - 55{,}33)^2 + (67 - 55{,}33)^2 + 4(77 - 55{,}33)^2] = 123{,}95$$

Orta kvadratik meyl.

$$\sigma_s = \sqrt{D_x} = \sqrt{123{,}95} = 11{,}13$$

d) 7 altintervaldan ibarət interval statistik sıra

$[x_{i-1}, x_i)$	[30,38)	[38,46)	[46,54)	[54,62)	[62,70)	[70,78)	[78,86)
n_i	5	6	14	19	6	7	3

h addımı $h = (max - min)/7 = (82 - 32)/7 = 7{,}14$

Seçmə orta

$$\bar{x}_s = \frac{5 \times 34 + 6 \times 42 + 14 \times 50 + 19 \times 58 + ,,, + 4 \times 77}{60} = 56{,}4$$

Seçmə dispersiya və orta kvadratik meyl uyğun olaraq aşağıdakı kimi təyin edilirlər:

$$\boldsymbol{D_s = \frac{5*(34-56{,}4)2+6*(42-56{,}4)2+\ldots 3*(82-56{,}4)2}{60} = 151{,}04;}$$

Orta kvadratik meyl.

$$\sigma_s = \sqrt{D_s} = \sqrt{151{,}04} = 12{,}29$$

e) a), ç) və d) üzrə hesablamaların nəticələri bir-birinə kifayət qədər yaxındırlar.

VIII FƏSİL
GÖMRÜK STATİSTİKASINDA GÖSTƏRİCİLƏR ARASINDAKI ƏLAQƏ SIXLIĞININ EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

8.1. İQTİSADİ GÖSTƏRİCİLƏR ARASINDAKI ƏLAQƏNİN MS EXCEL PROQRAM PAKETİNİN TƏTBİQİ İLƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Müasir şəraitdə iqtisadiyyatın bütün sahələri üzrə mikro, mezzo, makro və meqo səviyyələrində ekonometrik modellər keniş miqyasda tətbiq edilr. Bu modellərin köməkliyi ilə iqtisadiyyatın bütün sahələrində, həm ölkə daxili həm də xarici iqtisadi fəaliyyətlə bağlı məsələlərin optimal həll edilməsi, iqtisadi göstəricilərə təsir edən amillərin təsir dərəcəsi, ölkənin iqtisadi tarazlıq səviyyəsi və ona təsir edən amillərin optimallaşdırılması, iqtisadi təhlükəsizlik göstəricilərinin astana həddi və s. müəyyən edilərək strateji planlar hazırlanır. Qeyd etmək lazımdır ki, Iqtisadi göstəricilər arasındakı əlaqə riyazi statistikanın korrelyasiya və reqressiya təhlilinn köməyi ilə aparılır. Qurulmuş modellər vasitəsilə iqtisadiyyatın nəzəri məsələləri riyazi statistik üsulların tətbiqi ilə faktiki məlumatlara əsasən yoxlanılır. Ona görə də iqtisadi-riyazi modellərin qurulması və qurulmuş modelin adekvatlığının yoxlanması riyazi statistikanın əsasını təşkil edən korrelyasiya və reqressiya təhlili ilə bilavasitə bağlıdır.

Korrelyasiya sözü ilk dəfə XIX əsrin ortalarında ingilis alimləri F.Qalton və K.Pirson tərəfindən meydana gəlmışdır. “Korrelyasiya” sözü latınca “correlation“ sözündən yaranmış və mənası qarşılıqlı asılılıq, münasibət deməkdir. ”Reqressiya” sözünü də elmə ilk dəfə F.Qalton daxil etmişdir [37]. Latınca “regression” sözündən götürülüb və mənası geriyə hərəkət deməkdir. İctimai həyatın bütün sahələrində istənilən hər hansı bir hadisənin baş verməsi müəyyən nəticə ilə əlaqələnir. Nəticə amili həmişə səbəb amilinin hesabına formalaşır. Formalaşan nəticə amilinə müxtəlif şərait və vəziyyətlərdən asılı olaraq olduqca müxtəlif və çoxsaylə amillər tə-

sir göstərdiyindən bu amillərin təsir dərəcəsi həmişə bir-birindən fərqlənir. Korrelyasiya-reqressiya metodu təkcə iqtisadiyyatda deyil bütün sahələrdə, o cümlədən tibdə, hərbidə, texniki sahələrdə, kənd təsərrüfatında və s. geniş tətbiq edilir. Ən geniş tətbiq sahəsi isə iqtisadiyyatın bütün səviyyələrində iqtisadi fəaliyyət sahələridir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda bir sıra iqtisadi göstəricilər arasında sıx əlaqə mövcuddur. Bu elə asılılıqdır ki, bir dəyişənin hər hansı bir qiymətinə digər bir dəyişənin hansısa müəyyən deyil, çox sayda mümkün qiymətləri uyğun gəlir. Belə asılılıqlara misal olaraq, ölkənin ümumi daxili məhsulunun sənaye istesalının həcmindən, kapital (əsas fondlardan) və əmək qüvvəsindən, əsas kapitala yönəldilmiş investisiyalardan, ölkə üzrə infilyasiya səviyyəsindən, xarici ticarət dövriyyəsindən asılılıqlarını və s. göstərmək olar. Dəyişənlər arasındakı statistik asılılıqları korrelyasiya və reqressiya təhlilinin üsullarının köməkliyi ilə öyrənmək mümkündür. Bu üsulların köməyi ilə müxtəlif tipli məsələlər həll edilir. Bu baxımdan korrelyasiya və reqressiya təhlilinin əsas məsələsi mühüm əhəmiyyət kəsb edir.

Reqressiya təhlilinin əsas məsələsi dəyişənlər arasında asılılığın formasının müəyyən edilməsindən ibarətdir.

Korrelyasiya təhlilinin əsas məsələsi isə dəyişənlər arasındakı əlaqənin üzə çıxarılması və onun əlaqə sıxlığının qiymətləndirilməsindən ibarətdir.

Dəyişənlər arasında əsasən funksional və koorelyasiya asılılıqları mövcud olur. Funksional asılılıqda hər bir müşahidə tam olaraq ödənilir. Ona görə də bu asılılıqlarda korrelyasiya əmsalı vahidə bərabər olur. Funksional asılılıqdan fərqli olaraq korrelyasiya asılılıqları yalnız kütləvi müşahidələr zamanı yaranan asılılıqlardır.

Qeyd etmək lazımdır ki, iqtisadi sistemlərin göstəriciləri arasındakı korrelyasiya asılılıqlarının təhlili zamanı yaranan ən mühüm problemlərdən biri təhlilə cəlb edilən göstəricilərin düzgün seçilməsidir. Bu problemlərin həll edilməsi məqsədi ilə aşağıda göstərilən bəzi tələblərin ödənilməsi məqsədəuyğundur [7]:

-iqtisadi sistemin tədqiqat prossesində iştirak edən göstəricilərinin hər biri ayrı-ayrılıqda nəzəri baxımdan tam əsaslandırılmalı və bu göstəricilər qrupuna yalnız o göstəriciləri daxil etmək lazımdır ki, onlar iqtisadi sistemin davranışına əhəmiyyətli dərəcədə təsir göstərmiş olsunlar;

-təhlilə cəlb ediləcək göstəricilərin bir-birini təkrarlamasına yol verilməməlidir. Daha doğrusu, iqtisadi sistemin analoji xüsusiyyətlərini müxtəlif göstəricilərlə ifadə etmək olmaz. Əks halda bu göstəricilər bir-birindən xətti asılı olmaqla multikolleniarlıq halı yaranacaqdır. Multikolleniarlıq halını aradan qaldırmaq üçün öz aralarında xətti asılı olan göstəricilərdən birini tədqiqatdan mütləq kənarlaşdırmaq lazımdır;

-tədqiqata cəlb ediləcək göstəricilərin öz aralarında avtokorrelyasiya halının mövcud olmasına yol vermək olmaz. Avtokorrelyasiya o halda yarana bilər ki, iqtisadi sistemin davranışının müşahidəsi müxtəlif dövrlərdə aparılır və sonrakı dövrlə əvvəlki dövrləri əks etdirən məlumatlar arasında əlaqə mövcud olur. Avtokorrelyasiyanın aradan qaldırılmasının ən sadə yolu zaman faktorunun qurulacaq korrelyasiya modelinə sərbəst dəyişən kimi daxil edilməsidir;

-iqtisadi sistemə bilavasitə təsir göstərən amillər arasında keyfiyyət xarakterli amillərin olması da mümkün ola bilər. Bu halda onlar kəmiyyət baxımından approksimasiya edilməlidir. Əgər onları kəmiyyət baxımından approksimasiya etmək mümkün olmazsa, onda həmin amilləri tədqiqata cəlb etmək olmaz;

- iqtisadi sistemi xarakterizə edən göstəricilər arasında addıtıvlik əlaqəsi mövcud olmamalıdır. Yəni, tədqiqata həm ayrı-ayrı fərdi göstəriciləri, həm də onların məcmuyu kimi çıxış edən törəmə göstəricilərini tədqiata cəlb etmək olmaz.

İstənilən iqtisadi sistemdə iqtisadi göstəricilər arasındakı korrelyasiya asılılıqlarının müəyyən edilməsində ekonometrikanın korrelyasiya və reqressiya təhlili adlanan metodundan istifadə edilir. Korrelyasiya təhlili metodunun ən sadə variantı iqtisadi sistemin iki göstəricisi arasındakı korrelyasiya asılılığının müəyyən edilməsidir. Bu göstəricilərdən biri sərbəst dəyişən göstəricisi olmaqla x ilə işarə

edilir. İkinci göstəri isə nəticə göstəricisi olmaqla, modelə asılı dəyişən kimi daxil olaraq y ilə işarə edilir. Bu göstəricilər arasındakı korrelyasiya asılılığı $y = f(x)$ əlaqə tənliyi vasitəsi ilə ifadə edilir. Göstəricilər arasında korrelyasiya asılılığının mövcudluğu isə kəmiyyət təhlili prosesində deyil, keyfiyyət təhlili prosesində aşkar edilir. Kəmiyyət təhlili prosesində isə aşkar edilmiş bu korrelyasiya asılılığı dəqiqləşdirilir və kəmiyyətcə ifadə edilir. Belə korrelyasiya təhlilinə cüt korrelyasiya da deyilir.

Korrelyasiya təhlili çoxmərhələli proses olub bir neşə mərhələlərdən ibarətdir.

Təhlilin birinci mərhələsində əvəlcə iqtisadi sistemin y və x göstəriciləri arasındakı korrelyasiya asılılığının tipi müəyyənləşdirilir. y və x göstəriciləri arasındakı korrelyasiya asılılığının tipi müəyyənləşdirilərkən, bu göstəricilər arasındakı asılılığı ifadə etmək üçün seçilən əlaqə tənliyi həmin asılılığın xarakterini kifayət qədər adekvat əks etdirməlidir. Tədqiq edilən iqtisadi sistemin y və x göstəriciləri arasındakı korrelyasiya asılılığının ən sadə ifadə forması, $y = a + bx$ düz xətti tənliyidir. Burada y - asılı dəyişən, x- sərbəst dəyişən, a və b- isə həmin əlaqə tənliyinin əmsallarıdır. $y = a + bx$ əlaqə tənliyinə əsasən korrelyasiya tənliyi, çox zaman isə reqressiya tənliyi deyilir. Bu tənlik göstəricilər arasında elə bir əlaqəni əks etdirir ki, sərbəst dəyişənin müəyyən bir sabit kəmiyyət qədər dəyişməsi hesabına, asılı dəyişən başqa bir sabit kəmiyyət qədər dəyişir. Yəni, $y = a + bx$ əlaqə tənliyində x- sərbəst dəyişənin bir vahid dəyişməsi ilə y – asılı dəyişəni b- vahid dəyişəcəkdir. Qeyd edək ki, b əmsalı həm müsbət tam və ya kəsr, həm də mənfi tam və ya kəsr ədəd ola bilər. Əgər a əmsalının işarəsi müsbətdirsə, onda asılılıq artan xətti asılılıq, mənfidirsə, azalan xətti asılılıq tipində olur.

Korrelyasiya təhlilinin birinci mərhələsində iqtisadi sistemin y və x göstəriciləri arasında verilmiş tipdə korrelyasiya asılılığının müvcud olması haqqında keyfiyyət təhlilinin irəli sürdüyü fərziyyənin hansı dərəcədə həqiqi olduğu yoxlanılır. Bu məqsədlə göstəricilərin müşahidə cütləri bir-biri ilə tutuşdurulur və yaxud qrafiki təhlil aparılır. Qrafiki təhlil zamanı hər bir müşahidə düzbucaqlı ko-

ordinat sistemində bir nöqtə ilə göstərilir. Bu nöqtənin absisi x sərbəst dəyişənin qiymətinə, ordinatı isə y asılı dəyişənin qiymətinə uyğun olur. Nöqtələrin koordinat sistemində paylanmasının xarakterinə görə əlaqənin tipi haqqında irəli sürülmüş fərziyənin doğru olub-olmaması haqqında qərar qəbul edilir[29]. Bunu aşağıdakı məsələ üzərində izah edək.

Məsələ 8.1.1 ARDSK-nin məlumatlarına əsasən 2008-2017-ci illər üzrə Azərbaycan Respublikasında emal müəssisələri üzrə ümumi məhsul buraxılışının və ÜDM-in həcmi aşağıdakı cədvəldə verilmişdir. Həmin göstəricilərə əsasən MS Exceldə Azərbaycan Respublikasında emal müəssisələri üzrə ümumi məhsul buraxılışının və ÜDM-in həcmi arasındakı asılılığın tipini və onun həqiqiliyinin qrafiki təhlilini aparın.

Cədvəl 8.1.1


Azrbaycan Respublikasında 2008-217-ci illər üzrə ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı.

İllər	Emal müəssisələri üzrə ümumi məhsul buraxılışı (mlrd. manatla) X	ÜDM(mlrd.AZN) Y
2008	5,7	40,1
2009	4,8	35,6
2010	5,7	42,5
2011	6,3	52,1
2012	7	54,7
2013	7,2	58,2
2014	8,1	59
2015	7,9	54,4
2016	8,9	60,4
2017	9,7	70,1

Mənbə. ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Həlli. Korrelyasiya təhlilinin birinci mərhələsində iqtisadi sistemin y və x göstəriciləri arasında verilmiş tipdə korrelyasiya asılılığının müvcud olması haqqında keyfiyyət təhlilinin irəli sürdüyü fərziyyənin hansı dərəcədə həqiqi olduğu yoxlamaq üçün göstəricilərin qrafiki təhlilin aparaq. Bu məqsədlə Cədvəl 8.1.1-dəki məlumatları MS Excel proqramına daxil edərək izləməklə, insertə

(вставка) daxil olaraq nöqtəvi diaqramları seçməklə aşağıdakı qrafiki qurmuş olarıq.



Şəkil 8.1.1. Azərbaycan Respublikasında emal müəssisələri üzrə ümumi məhsul buraxılışının və ÜDM-in həcmi arasındakı asılılıq. Mənbə.MS Exceldə müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 8.1.1-dən göründüyü kimi korrelyasiya asılılığı xətti xarakterdədir. Korrelyasiya təhlilinin ikinci mərhələsində iqtisadi sistemin y və x göstəriciləri arasındakı korrelyasiya asılılığını ifadə edən əlaqə tənliyi konkretləşdirilir. Burada ən kiçik kvadratlar metodundan istifadə edilir. Faktiki olaraq əlaqə tənliyinin konkretləşdirilməsi dedikdə reqressiya tənliyinin, a və b əmsalları üçün ədədi qiymətlərin tapılması başa düşülür. Daha doğrusu, bu tənlik üçün elə bir analitik ifadə tapılır ki, həmin ifadəyə görə y asılı dəyişənin faktiki qiymətləri onun hesabi qiymətlərinə kifayət qədər yaxın olsun. Bu məqsədlə müxtəlif kriteriyalardan istifadə edilir. Həmin kriteriyalardan birinə görə $y = a + bx$ reqressiya tənliyinin a və b əmsalları elə seçilməlidir ki, bu qiymətlərdə y asılı dəyişənin faktiki qiymətlərinin onun hesabi qiymətlərindən kənarlaşmalarının kvadratlarının cəmi minimum olsun. Bu metoda ən kiçik kvadratlar metodu deyilir. 1806-cı ildə fransız riyaziyyatçısı Lejandr təklif etmişdir ki, kənarlaşmaları kvadrata yüksəldib onların çəminin ən kiçik qiymətinin tapılması nöqtələrin yaxınlığından keçən ən yaxşı xəttin (əyrinin) tapılmasına imkan verir. Ona görə də bu metod Ən Kiçik

Kvadratlar Üsulu (ƏKKÜ) (rus: Способ Наименших Квадратов, ing,: Ordinary Least Squares (OLS) method) adlandırılmışdır.

$y = a + bx$ reqressiya tənliyində a və b əmsallarının təyin edilməsi məqsədi ilə aşağıdakı normal tənliklər sistemindən istifadə edilir.

$$\begin{cases} \sum y = na + bx \\ \sum yx = a\sum x + b\sum x^2 \end{cases}$$

Burada, n-müşahidələrin sayı, a-sərbəst həd, b-sərbəst dəyişənin əmsalı, x −sərbəst dəyişən (səbəb amili), y −asılı dəyişəndir (nəticə amili). Bu normal tənliklər sistemini həll edərək, $y = a + bx$ reqressiya tənliyində a və b əmsallarının qiymətləri təyin edilir.


Yuxarıda verilmiş məsələnin şərtinə əsasən MS Exceldə Azərbaycan Respublikasında emal müəssisələri üzrə ümumi məhsul buraxılışının və ÜDM-in həcmi arasındakı asılıığın tipini və əlaqə tənliyinin müəyyən edərək iqtisadi təhlil aparmaq üçün müxtəlif metodlardan istfadə etmək olar.

8.2. İQTİSADİ GÖSTƏRİCİLƏR ARASINDA ƏLAQƏ TƏNLİYİNİN MS EXCELDƏ QURULMASI VƏ TƏHLİLİ QAYDASI

İlkin iqtisadi məlumatlar əsasında MS Excel proqramında iqtisadi göstəricilər arasındakı əlaqə tənliyinin qurulması məqədi ilə Excel proqramında Data Analyss (Анализ Данных) parametri aktivləşdirilir. Sonra isə komptüterin Data (Данные) menyusu vurulduqdan sonra Data Analyss (Анализ Данных) parametrində açılan təhlil alətlərindən Reression aləti seçilərək OK düyməsi vurulur və açılan reqressiya pəncərəsində (Regresssion) y asılı dəyişənin (İnput y Range) və X sərbəst dəyişənin (İnput X Range)giriş parametrləri daxil edilir. Lables (Метки) və Qutput Range (Выходной интервал) çıxış inttervalını göstərən nəticə xanası seçilərək Ok düyməsi vurulur. Bundan sonra işçi vərəqdə ümumi nəticə (SUM-

MARY OTPUT) qeyd edilir. Yuxarıda verilmiş məsələnin şərtinə əsasən MS Exceldə Azərbaycan Respublikasında emal müəssisələri üzrə ümumi məhsul buraxılışı ilə ÜDM-in həcmi arasındakı asılıığın tipini və əlaqə tənliyini qurmaq üçün işçi vərəqdə A1:B11 diapazonunda verilən cədvəlin məlumatlarını daxil edək. Regression alətini qoşaq. Açılan Regression dialoq pıncərəsində asılı və sərbəst dəyişənin parametrlərini müəyyən edək: Input Y Range - diapazon B2:B11; Input X Range - diapazon Al:A11.


Labels; Output Range bayrağı - Dİ ünvanı, Normal Probability l'lots bayrağı, Residuals plots xanası işarələnir və Ok düyməsi vurulur. Bundan sonra işçi vərəqdə alınmış ümumi nəticə alınacaqdır. Cədvəl 8.1.1-də göstərilmiş Azrbaycan Respublikasında 2008-2017-ci illər üzrə ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı arasındakı əlaqəni müəyyən etmək üçün həmin ardıcılığı MS Excel proqramında işləsək nəticə aşağıdakı şəkildəki kimi olacaqdır.



Şəkil. 8.1. ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı arasında reqressiya əlaqəsi yaratma prossesində parametrlərin seçilməsi.

Reqressiya təhlil aləti üzrə açılmış pəncərədə ÜDM-i ifadə edən y asılı dəyişəninin yerləşdiyi B2:B11, emal müəssisələri üzrə ümumi məhsul buraxılışını ifadə edən x sərbəst dəyişənin yerləşdiyi C2:C11


diapozonlarında yerləşən ədədləri və D1 xanasında giriş ntervalını daxil edirik. Həmçinin etibarlılıq səviyyəsi, qalıqlar və normal ehtimallıqrafik xanalarını işarələməklə aşağıdakı şəkildə göstərilmiş nəticəni alırıq.



	A	B	C	D	E	F	G	H	I
1	İllər	Emal X	ÜDM (mlrd.AZN) Y						
2	2008	5.7	40.1						
3	2009	4.8	35.6						
4	2010	5.7	42.5						
5	2011	6.3	52.1						
6	2012	7	54.7						
7	2013	7.2	58.2						
8	2014	8.1	59						
9	2015	7.9	54.4						
10	2016	8.9	60.4						
11	2017	9.7	70.1						
12									

Şəkil. 8.2.1 ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı arasında reqressiya əlaqəsi yaratma prossesində parametrlərin daxil edilməsi.

Azrbaycan Respublikasında 2008-2017-ci illəri əhatə edən dövr üzrə şəkil. 13.2-də əks edilmiş ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı arasında reqressiya əlaqəsi yaratma prossesində bütün tələb olunan parametrlər daxil edildikdən sonra OK düyməsi basılmaqla reqressiyanın nəticələri açağıdakı şəkildə göstərilmiş kimi olacadır.



	B	C	D	E	F	G	H	I	J	K	L	M	N
1	Emal X	ÜDM (mlrd.AZN)-y	SUMMARY OUTPUT										
2	5.7	40.1											
3	4.8	35.6	*Regression Statistics*										
4	5.7	42.5	Multiple R	0.949477404									
5	6.3	52.1	R Square	0.90150734									
6	7	54.7	Adjusted R Square	0.889195758									
7	7.2	58.2	Standard Error	3.49903428									
8	8.1	59	Observations	10									
9	7.9	54.4											
10	8.9	60.4	ANOVA										
11	9.7	70.1		*df*	*SS*	*MS*	*F*	*Significance F*					
12			Regression	1	896.5031	896.5031	73.22433	2.68129E-05					
13			Residual	8	97.94593	12.24324							
14			Total	9	994.449								
15													
16				*Coefficients*	*andard Erı*	*t Stat*	*P-value*	*Lower 95%*	*Upper 95%*				
17			Intercept	6.669917678	5.492923	1.214275	0.259268	-5.996786127	19.3366215				
18			X	6.457234547	0.754604	8.557121	2.68E-05	4.717115545	8.19735355				

Şəkil. 8.2. MS Exceldə ÜDM və emal müəssisələri üzrə ümumi məhsul buraxılışı arasında reqressiya əlaqəsi.

MS Exceldə əldə edilən nəticələr və onların interpretasiyasına nəzər salaq.

Determinasiya əmsalı R - square = 0,90151 olması onu göstərir ki, approksimasiya olduqca yüksəkdir. Determinasiya əmsalının R^2=0,90151 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 90,2% dispersiya nəticə göstəriciləri ilə, 9,8%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (90,2%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir,

Significance F~0,00000268 olduğundan, p < 0,05 şərtinə əsasən reqressiya modeli qiymətlidir.

Sərbəst həddi $a = 6{,}45723$, asılı dəyişənin əmsalı $b = 6{,}66992$ olduğundan, ÜDM-in emal üzrə sənaye məhsulunun həcmindən asıllığını ifadə edən reqressiya tənliyini almış oluruq. Əldə edilən məlumatların nəzərə alınması ilə emal sənayesi üzrə ümumi məhsul buraxılışı ilə ÜDM arasındakı xətti şəkildə funksional asılılıq ölçüsü:

$Y = 6{,}66992 + 6{,}45723x$ reqressiya ənliyi ilə ifadə ediləcəkdir.

burada X – emal sənayesi üzrə ümumi məhsul buraxılışının həcmidir.

F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F-Fişer kriteriyası, $F_{cədvəl}\,(a; m; n - m - 1)$ qiyməti ilə müqayisə edilməlidir, Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 73,22

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}\,(a; m; n - m - 1) =$ Fpacпoбp düsturunun köməkliyi ilə təyin etsək,

$$F_{cədvəl}\,(a; m; n - m - 1) = \text{Fpacпoбp}(0{,}05; 1; 8) = 5{,}32$$

F- Fişer kriteriyası, $F_{cədvəl}\,(a; m; n - m - 1)$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası $> F_{cədvəl}$ (73,22>5,32). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə şəkil. 13.2-dəki qurulmuş $Y = 6{,}66992 + 6{,}45723x$ modelinin adekvatlığı deməkdir.

Əldə edilmiş reqressiya tənliyindən istifadə etməklə ÜDM-in həcmini proqnozlaşdırmaq vəzifəsini də yerinə yetirmək müm kün dür.

Alınmış əlaqə tənliyindən belə nəticəyə gəlmək olar ki, emal sənayesi üzrə ümumi məhsul buraxılışının həcmi bir vahid artdıqda ÜDM-in həcmi 6.4 vahid artacaqdır.

Qeyd etmək lazımdır ki, tədqiq olunan göstəricilər arasındakı əlaqənin sıxlığını qiymətləndirmək üçün cüt korrelyasiyanın xətti əmsalı hesablanır. Bu əmsal aşağıdakı düstura əsasən müəyyən edilir, [6. səh, 7-8],

$$r_{xy} = \frac{\sum(y - \bar{y})(x - \bar{x})}{\sqrt{\sum(y - \bar{y})^2 \sum(x - \bar{x})^2}} \qquad (8.2.1)$$

Burada, $r_{xy}-$ çüt korreltasiyanın xətti əmsalı, $x-$ sərbəst dəyişən olub səbəb amilidir, $\bar{x}$-sərbəst dəyişənin hesabi orta kəmiyyəti, $Y-$ asılı dəyişən olub nəticə amilidir, $\bar{y}$ –asılı dəyişənin hesabi orta qiymətidir.

Əmsalın qiyməti [-1; 1] aralığında dəyişir, r_{xy}-əmsalının vahidə yaxın olması bu göstəricilər arasında sıx korrelyasiya asllılığının olduğunun göstərir, $r_{xy} = 0$ olması isə xətti asılılığın olmadığını göstərir. Əmsalın sıfra bərabər olması tədqiqat obyektləri arasında xətti asılılığın olmamasına baxmayaraq, qeyri-xətti asılılıq da ola bilər. Göstəricilər arasındakı asılılığ dərəcəsi əsasən Çeddok şkalasına görə müəyyən edilir. Bu şkala aşağıdakı cədvldə verilmişdir [28]

Cədvəl 8.2.1

Çeddok şkalası

Əlaqə sıxlığının kəmiyyət göstəriciləri	Əlaqə asılılığı gücünün keyfiyyət xarakteri
0	Əlaqə yoxdur
0,1-0,3	Zəif
0,3-0,5	Orta
0,5-0,7	Hiss olunan
0,7-0,9	Yüksək
0,9-0,99	Olduqca yüksək
1	Funksional

Mənbə. (28) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd etmək lazımdır ki, cüt korrelyasiyanın xətti əmsalı eyni zamanda səbəb və nəticə göstəricilərinin istiqamətini də müəyyən edir. Belə ki, əgər $r_{xy} > 0$ olarsa, göstəricilər arasında düz əlaqə vardır. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti də artır. Əgər, $r_{xy} < 0$ olarsa, bu halda göstəricilər arasında əks əlaqə mövcuddur. Yəni, səbəb amilinin(x) artması ilə nəticə

göstəricisinin (y) qiyməti azalır. Cüt korrelyasiyanın xətti əmsalını təyin etmək üçün KORREL statistik funksiyasından istifadə edilir. Bu asılılıqda determinasiya əmsalı aparılmış hesabata əsasən 0,902-yə bərabərdir. Bu isə Çeddok şkalasına əsasən olduqca yüksək asılılıq deməkdir.

İndi isə $y = a + bx = 6{,}66992 + 6{,}45723x$ cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablayaq.

$$E = \frac{b\bar{x}}{\bar{y}} = \frac{6{,}45723 * 7{,}13}{52{,}71} = 0{,}873455$$

Elastiklik əmsalının E=0,73 olması o deməkdir ki, emal sənayesi üzrə məhsul istehsalının həcminin 1% artması Azərbaycan Respublikası üzrə ÜDM-in 0,87% artması ilə nəticələnir.

8.3. Xətti və qeyri-xətti çoxkorrelyasiyalı modellərin MS Exceldə qurulması və təhlili

Yuxarıda nəzərdən keçirdiyimiz korrelyasiya asılılıqlarında, iqtisadi sistemin y nəticə göstəricisi yalnız bir amylin x sərbəst dəyişənin təsiri altında formalaşmışdır. Lakin, y asılı dəyişənin qiyməti bir deyil, bir neçə amilin (sərbəst dəyişənlərin) təsiri altında formalaşdığından bu göstəricilər arasındakı asılılıqların müəyyən edilməsi mühüm əhəmiyyət kəısb edir. Asılı dəyişən Y, sərbəst dəyişənlərin yəni $x_1, x_2, x_3, \dots, x_n$- nin birgə təsiri ilə formalaşdığı halda, y və x dəyişənlərinin korrelyasiya asılılıqlarına çoxkorrelyasiyalı asılılıqlar deyilir. Çoxkorrelyasiyalı asılılıqlar aşağıdakı şəkildə əlaqə tənliyi vasitəsi ilə əks etdirilir.

$$Y = f(x_1, x_2, x_3, , , x_n)$$

Əgər y və $x_1, x_2, x_3, , , x_n$ göstəriciləri arasındakı asılılıq xətti xarakter daşıyırsa, onda çox korrelyasiyalı əlaqə tənliyi olaraq,

$$Y = a_0 + a_1 x_1 + a_2 x_2 + a_3\, x_3 + , , , + a_n x_n$$

şəklində xətti çoxkorrelyasiyalı modeldən istifadə edilir. Əgər y və $x_1, x_2, x_3, , , x_n$ göstəriciləri arasındakı asılılıq qeyri-xətti olarsa, bu halda aşağıdakı şəkildə olan qeyri-xətti çoxkorrelyasiyalı modeldən istifadə edilir.

$$Y = a_0 + a_1 x_1 + a_2 x_2^2 + a_3\, x_3^3 + , , , a_n\, x_n^3$$

Xətti və qeyri-xətti çoxkorrelyasiyalı modellərin əmsallarının qiymətlərini ən kiçik kvadratlar metodu ilə təyin etmək olar.

Çoxkorrelyasiyalı modellərdə əlaqənin sıxlığını qiymətləndirilməsi məqsədi ilə əsasən, $R_{yx_1}, R_{yx_2}, R_{yx_3}, \dots, R_{yx_n}$ çoxkorrelyasiya əmsalından istifadə edilir. Bu əmsal aşağıdakı kimi hesablanır:

$$\boldsymbol{R_{yx_1,,x_2,x_3,\dots x_n}} = \sqrt{\frac{\boldsymbol{S_y^2 - S^2_{yx_1,x_2,x_3,\dots x_n}}}{\boldsymbol{S_y^2}}}$$

Burada $\boldsymbol{S^2_{yx_1,x_2,x_3,\dots x_n}}$ asılı dəyişənin bütün amilləri nəzərə almaqla təyin edilmış reqressiya tənliyinə görə dispersiyasıdır.

Mütləq qiymətə görə çoxkorrelyasiya əmsalının qiyməti $0 \leq \left|\boldsymbol{R_{yx_1,,x_2,x_3,\dots x_n}}\right| \leq 1$ intervalında dəyişir. Bu əmsalın işarəsi haqqında birqiymətli fikir söyləmək qeyri-mümkündür. Belə ki, tədqiqata cəlb edilmiş bir göstərici ilə korrelyasiya müsbət, digəri ilə mənfi, üçüncüsü ilə isə dəyişkən işarəli ola bilər. Bu əmsalın qiyməti 1-ə nə qədər yaxın olarsa y asılı dəyişənin sərbəst dəyişənlərdən asılılığı bir o qədər yüksək olur. Bu isə nəticə göstəricisinə bilavasitə təsir edən amillərin kifayət qədər dəqiq seçilməsinə və çoxkorrelyasiyalı modelin real iqtisadi şəraitə kifayət qədər yüksək adekvatlığı deməkdir.

Qeyd edək ki, korrelyasiya modelləri üçün orta kvadratik uzaqlaşmaları, korrelyasiya əmsallarını və digər parametrləri hesablamaq üçün başqa formulalardan da istifadə etmək olar. Lakin bu formulalar yalnız hesablamaların "texnologiyaları" ilə əlaqədardır və alınacaq kəmiyyət xarakteristikalarında əhəmiyyətli fərq vermir.

İndi isə xətti və qeyri-xətti çoxkorrelyasiyalı modellərinin MS Exceldə qurulması və təhlilinin aparılması üzrə bəzi statistik məlumatlar əsasında konkret nümunələrə baxaq.

8.4. Gömrük statistikasına əsasən Azərbaycanda idxala tələbə təsir edən amillərin xətti çoxkorrelyasiyalı modelinin MS Exceldə qurulması və təhlili

İdxala tələb əsasən daxili bazardan sıx asılıdır. Qeyd etmək lazımdır ki, ticarətin məhdudlaşdırma dərəcəsinin qiymətləndirilməsində əsas problemlərdən biri siyasi amillərdir. Ticarətin məhdudlaşdırılması prosesi ilk növbədə bütün ölkələr üzrə ticarət prosesinə təsir edən siyasətlə bağlıdır. Qeyd etmək lazımdır ki, tarif və qeyri-taarif tədbirlərinin kəmiyyətcə qiymətləndirilərək ümumi məhdudiyyətləri müəyyən etmək olduqca çətindir. Hər bir ölkədə idxal və ixrac olunan məhsullar müxtəlif olduğundan, idxal və ixraca tətbiq olunan məhdudlaşdırıcı tədbirləri nəzərə almaq və ölkədə ticarət üzrə ümumi məhdudiyyətlərin dərəcəsini hesablamaq üçün böyük səy tələb edilir.

Birinci problemi həll etmək üçün bəzi tədqiqatçılar tarif və qeyri-taarif məhdudiyyətləri üçün müəyyən hədlər qoymuşlar. Bu üsul BVF-da da geniş istifadə edilir.

İkinci problemi həll etmək üçün adətən 5000-dən çox müxtəlif əmtəələrə müxtəlif üsullarla tətbiq olunan tariflər ümumi tarifə gətirilir. Lakin, qeyd etmək lazımdır ki, bu metodlardan heç birinin nəzəri əsası yoxdur. Belə ki, taarif olduqca yüksək, idxalın həcmi aşağı, idxal olunacaq həmin mallara tələb isə yüksək ola bilər. Digər

tərəfdən isə tarif aşağı, lakin bu məhsula tələbatın az olması səbəbi ilə idxal həcmi də aşağı ola bilər. Hər iki halda, idxalda məcmui tarif eyni olacaqdır. Ticarət məhdudiyyətləri baxımından idxal birinci halda daha da məhdudlaşdırılmış olacaqdır.

J.Anderson və P.Etiri tərəfindən təklif edilən Eynitipli taariflərin ekvivalent rifah dərəcəsinin (The Welfare-Equivalent Uniform Tariff) əsas mənası ümumiləşdirilmiş ümumi tarifi tətbiq etməklə real gəlir və ya rifah səviyyəsinin təmin olunmasının saxlanmasıdır. Eyni tipli taariflərin ekvivalent rifah dərəcəsindən istifadə edərək son illərdə Azərbaycanda ticarət məhdudiyyətlərinin səviyyəsini qiymətləndirmək olar, Bu cür tarif dərəcəsi aşağıdakı kimi hesablanır:

$$\boldsymbol{\tau^{\Delta} = (\sum_{i}^{n} \omega_i \times \tau_i^2)^{1/2}} \qquad \textbf{(8.4.1)}$$

Burada, $\omega_i = \frac{(\pi_i^*)^2 \times \beta_i}{\sum_1^n (\pi_j^*)^2 \times \beta_j}$, $\beta_i -$ idxal məhsullarına tələbin elasikliyi, $\pi_i^* -$i məhsulunun dünya qiymətidir.

Yuxarıda qeyd edildiyi kimi, orta tarif dərəcəsindən fərqli olaraq, eynitipli taariflərin ekvivalent rifah dərəcəsi (τ^{Δ}) idxal dərəcəsindən deyil, idxala marginal tələbatdan asılıdır. Buna görə, eynitipli taariflərin ekvivalent rifah dərəcəsinin hesablanmasından əvvəl, idxal məhsullarına tələbin elasikliyi (β_i) hesablanmalıdır. İdxal məhsullarına tələbin elasikliyinin hesablanması i məhsulu üçün idxal tələbi funksiyasının yaradılması zərurətini yaradır.

Ölkədə daxili bazarın qorunması məqsədi ilə tarif və qeyri-tarif dərəcələrinin məhdudiyyətlərinin optimal səviyyəsinin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

Bunun üçün müəyyən mal qrupları üçün bu cür məhdudlaşdırıcı tədbirlərin "optimal" həddinin hesablanmasını və xüsusi mal kodları üçün "optimal" limit məhdudiyyətinin hesablanması tələb edilir. Bütün bu səviyyələrdə qiymətləndirmə zamanı müvafiq olaraq tələb və təklif funksiyasının ümumi idxal, məhsul qruplarına görə idxal və xüsusi məhsul kodu üzrə

qurulmalıdır. Bu məqsədlə Azərbaycan Respublikası iqtisadiyyatında tələb və təklif üzrə aşağıdakı cədvəldə verilmiş dinamikaya nəzər salaq.

Cədvəl 8.4.1

Azərbaycan Respublikasında qiymət indeksləri, ÜDM-in real və nominal həcmi, manatın məzənnəsi və ümumi təklif dinamikası (bazis ilı 1999 = 100)

İllər	Qiymət indeksi	Əhalinin gəlirləri (mln,, $)	Əhalinin gəlirləri (mln,, Man,,)	Əhalinin real gəlirləri (mln,, Man,,)	ÜDM (mln, ABŞ Dolları)	ÜDM (cari qiymətlərlə Mln, man,)	Real ÜDM(mln, man,)	Real ÜDM (mln, ABŞ Dolları)	Valyuta məzənnəsi $/ман
1999	100,0	-	-	-	4583,7	3775,1	3775,1	4583,7	0,8236
2000	101,8	4523,134	4047,30	3975,74	5272,8	4718,1	4634,7	5179,6	0,8948
2001	103,3	4618,92	4301,60	4164,18	5707,7	5315,6	5145,8	5525,4	0,9313
2002	106,2	5162,107	5018,60	4725,61	6235,9	6062,5	5708,6	5871,8	0,9722
2003	108,6	5842,089	5738,10	5283,70	7276,0	7146,5	6580,6	6699,8	0,9822
2004	115,8	6711,204	6595,10	5695,25	8680,4	8530,2	7366,3	7496,0	0,9827
2005	127,0	8524,791	8063,60	6349,29	13238,7	12522,5	9860,2	10424,2	0,9459
2006	137,5	11415,38	10198,50	7417,09	20983,0	18746,2	13633,6	15260,4	0,8934
2007	160,4	16965,62	14558,20	9076,18	33050,3	28360,5	17681,1	20604,9	0,8581
2008	193,8	25237,83	20735,40	10699,38	48852,5	40137,2	20710,6	25207,7	0,8216
2009	196,7	28121,31	22601,10	11490,14	44297,0	35601,5	18099,4	22520,1	0,8037
2010	207,9	31905,06	25607,00	12316,98	52909,3	42465,0	20425,7	25449,4	0,8026
2011	224,4	38653,41	30524,60	13602,76	65951,6	52082,0	23209,4	29390,2	0,7897
2012	226,8	44258,53	34769,50	15330,47	69683,9	54743,7	24137,4	30724,8	0,7856
2013	232,3	47880,18	37562,00	16169,61	74164,4	58182,0	25046':0	31926,1	0,7845
2014	235,5	50321,52	39472,20	16761,02	75234,7	59014,1	25059,1	31946,8	0,7844
2015	245,0	40682,97	41744,80	17038,69	52996,8	54380,0	22195,9	21631,3	1,0261
2016	275,3	28444,83	45395,10	16489,32	37862,8	60425,2	21948,9	13753,3	1,5959
2017	310,8	28564,81	49162,89	15818,18	40750,1	70135,0	22566,0	13111,4	1,7211


Mənbə: ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycan Respublikasında ÜDM-in real həcmi(ümumi təklif funksiyası) əsasən neft və qaz sektorundan daha çox asılı

olduğundan dünya qiymətlərinin dəyişməsi real ÜDM-in həcminə daha çox təsir göstərir. Cədvəldən göründüyü kimi Azərbaycan Respublikası üçün 1999-2017-ci il dövrünü qiymət indeksinin və ÜDM-in kəskin dəyişməsi dövrü kimi qiymətləndirmək olar. Ona görə də həmin dövr AD-AS modelində daha çox keçid dövrünə uyğun gəlir. Aşağıdakı qrafiklərdə Azərbaycan Respublikası üzrə məcmui təklif funksiyası göstərilmişdir.

Qrafik 8.4.1

Real ÜDM-lə (mln. ABŞ Dolları) qiymət indeksi arasında əlaqə



Mənbə: ARDSK-nin məlu matlarına əsasən MS Excel-də müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən göründüyü kimi real ÜDM-lə qiymət indeksi arasında y=0,0021x+105,92 xətti asılılıqla ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır və qiymət indeksinin dəyişməsi real ÜDM-in dəyişməsinə birbaşa təsir edir.

Qeyd etmək lazımdır ki, məcmui tələb funksiyası üzrə idxala tələbin qiymətləndirilməsində də müxtəlif metodikalardan istifadə

edilir. Əsasən bəzi tədqiqatlarda [32] məcmui tələbin idxala görə, bəzilərində isə [33] bəzi əmtəə qrupları üzrə hesablanması müəyyən edilmişdir. Bütün bu tədqiqatların son nəticəsi idxalın dəyişməsi qiymətlə müqayisədə gəlirin səviyyəsinə daha yüksək dərəcədə təsir edir. İdxala məcmui tələb funksiyasının Hindistanda D.Dulta və U.Nasir tərəfindən ekonometrik olaraq araşdırılarkən, idxala məcmui tələbin idxal və real ÜDM-in nisbi qiymətləri arasındakı kointeqrasiya əlaqələrindən ibarət olduğu müəyyən edilmişdir[33].

Qeyd etmək lazımdır ki, idxala məcmui tələb funksiyasının təyin edilməsində tətbiq edilən əksər metodologiyalarda əsasən idxal qiyməti *(WP_t)*,daxili bazarda qiymət dəyişmələri (DP_t) və adambaşına düşən gəlir *($Income_t$)* göstəriciləri tədqiq edilir. Lakin, bu göstəricilərdən fərqli olaraq idxala məcmui tələb funksiyası həmçinin real istehlakın həcmindən (C_{it}), idxal vergiləri, o cümlədən idxal rüsumları (CD_{it}), ƏDV (VAD_{it}), ümumi ödənişlər (ACD_{it}) və xarici ticarətin liberallıq səviyyəsindən *(XT_t)* də əsaslı şəkildə asılıdır. Lakin, başlıca əsas məsələ ayrıca əmtəə qrupu üzrə tələbin idxala son dərəcəsinin səviyyəsidir. Bu məqsədlə i-ci əmtəə qrupunun t ilində tələb funksiyasını aşağıdakı kimi ifadə etmək olar :

$$İ\boldsymbol{M_{it}} = \boldsymbol{F}(\boldsymbol{C_{it}}, \boldsymbol{income_t}, \frac{\boldsymbol{DP_{it}}}{\boldsymbol{WP_{it}}}, \boldsymbol{CD_{it}}, \boldsymbol{VAD_{it}}, \boldsymbol{ACD_{it}}, \boldsymbol{XTİ_t}) \quad \textbf{(8.4.2)}$$

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar 97 qrup və 5000-dən çox altqruplarda təsnifləşdirilmişdir. Bu əmtəə qrupları üzrə orta taarif dərəcələrinin çəkilərini hesablamaq çətin olduğundan idxala tələb funksiyası, idxala tələb dəyəri üzrə elastiklik, əmtəə qrupları üzrə orta idxal taariflərinin çəkisi hesablanmalıdır.

Cədvəl 8.4.2

Idxal üzrə orta taarif dərəcəsinin 2007-2017-ci illər üzrə dəyişməsi

İllər											
			2007	2008	2009	2010	2011				
Gömrük rüsumları üzrə büdcə daxilolmaları		1	160.28	238,65	205,68	218,25	231,57				
	Mln. man,										
	Min. $	2	190.81	298,31	257,1	272,82	293,13				
ƏDV üzrə büdcə daxilolmaları		3	535.06	775,23	832,52	810,95	835,0				
	Mln ..man,										
	Min $	4	636.97	969,04	1040,65	1013,7	1056,96				
Ümumi büdcə daxilolmaları		5	772.01	1110,4	1112,72	1101,73	1141,53				
	Mln. man,										
	Mln .$	6	919.06	1388,0	1390,9	1377,12	1444,97				
İdxalın həcmi		7	4799.34	5736,0	4898,48	5280,48	7707,24				
	Mln. man,										
	Mln. $	8	5713.5	7170,0	6123,1	6600,6	9756,0				
Orta taarif və qeyri-taarif dərəcəsi		9=(1:7)	0.0334	0,0416	0,0420	0,0413	0,0300				
	9=(1:7)										
	10=(2:7)	10=(2:7)	0.0334	0,0416	0,0420	0,0413	0,0300				
ƏDV dərəcəsi		11=(3:7)	0.1115	0,1352	0,1700	0,1536	0,1083				
	11=(3:7)										
	12=(4:7)	12=(4:7)	0.1115	0,1352	0,1700	0,1536	0,1083				
Gömrük ödənişlərinin ümumi taarifi		13=(5:7)	0.1609	0,1936	0,2272	0,2086	0,1481				
	13=(5:7)										
	14=(6:7)	14=(6:7)	0.1609	0,1936	0,2272	0,2086	0,1481				

2012	2013	2014	2015	2016	2017
230,62	298,25	365,89	387,38	600,21	706,87
295,67	382,37	469,1	384,39	353,06	415,81
916,98	986,08	1071,0	1101,2	1515,3	1773,2
1175,62	1264,2	1373,03	1097,5	891,4	1043,05
1208,35	1383,25	1510,76	1591,91	2291,67	2608,78
1549,2	1773,39	1936,87	1585,18	1348,04	1534,58
7529,26	8355,75	7166,41	9677,54	14431,47	14929,40
9652,9	10712,5	9187,7	9216,7	8532,45	8782,0
0,0306	0,0357	0,0511	0,0400	0,0416	0,0473
0,0306	0,0357	0,0511	0,0417	0,0416	0,0473
0,1218	0,1180	0,1494	0,1138	0,1050	0,1188
0,1218	0,1180	0,1494	0,1191	0,1050	0,1188
0,1605	0,1655	0,2108	0,1645	0,1588	0,1747
0,1605	0,1655	0,2108	0,1720	0,1588	0,1747


Mənbə: ARDGK-nin və ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən göründüyü kimi, ƏDV üzrə büdcə daxilolmalarının həcmi 2007-2017-ci illər üzrə artmışdır.

Azərbaycan Respublikasında ƏDV gömrük ödənişlərinin əsas mənbəyi hesab edilir. Tədqiq olunan dövr üzrə büdcə daxilolmalarında xarici ticarətə qoyulan məhdudiyyətlər içərisində ƏDV daha çox xüsusi çəkiyə malikdir. Aşağıdakı qrafikdə Azərbaycanda rüsum və ƏDV üzrə gəlirlərin dinamikası və orta tarif dərəcəsi və ƏDV dərəcəsinin dinamikası verilmişdir.

Qrafik 8.4.2


Gömrük rüsumları və ƏDV üzə büdcə daxilolmaları.



Mənbə: ARDGK-nin və ARDSK-nin məlumatlarına əsasən MS Excel-də müəllif tərəfindən hazırlanmışdır.

Qrafik 8.4.3.

Orta tarif və ƏDV dərəcəsi



Mənbə: ARDGK-nin və ARDSK-nin məlumatlarına əsasən MS Excel-də müəllif tərəfindən hazırlanmışdır.

Əgər hesablanmış orta tarif dərəcəsi və ƏDV dərəcəsini müqayisə etsək, bu halda idxalda ƏDV-nin orta dərəcəsi, orta tarif dərəcəsindən qrafikdə göründüyü kimi 4 dəfə yüksəkdir. Əsasən bu ödənişlər tarifə görə ödənişlər olmadığından, onlar beynəlxalq

hesabatlarda əks olunmur. Xarici ticarət məhdudiyyətlərinin səviyyəsi isə olduqca aşağıdır. İdxalçı müəssisələr və ya istehlakçılar üçün idxal olunmuş mallar üzrə ödənişlərin necə adlandırılmasının təbii ki, heç bir əhəmiyyəti yoxdur. Bu ödənişlər artıq idxal olunan məhsulların və daxili bazarın qiymətlərinə təsir edir. Qeyd etmək lazımdır ki, idxalda tarif ödənişlərinin qeyri-tarif ödənişlərinə dəyişdirilməsi üzrə meyillər bütün dünyada müşahidə edilir. Lakin, bu orta ödənişlərin optimal olub olmaması müəyyən suallar yaradır. Onların optimallığı ümumi rifahın maksimumunun təyin edilməsi ilə müəyyənləşdirilə bilər.

İdxala tələb funksiyası əsasən gəlirdən, real istehlak xərclərindən və milli valyutanın alıcılıq qabiliyyətindən asılıdır. Qeyd etmək lazımdır ki, idxala tələb istehlak xərcləri səviyyəsi, həmçinin manatın alıcılıq qabiliyyətinin səviyyəsi hesabına azalma, real gəlirlərin artması isə idxala tələbin artması ilə nəticələnir. Aşağıdakı cədvəldə idxala tələb funksiyasının determinantları göstərilmişdir.

Cədvəl 8.4.3

İdxala tələb funksiyasının determinantları.

İllər	İdxalın nominal həcmi, mln. man	Real istehlak xərcləri, mln. Man,	Real gəlirlər, mln, man	Sənaye-istehsal (PPS) man	Gömrük rüsumları (orta %)	İdxal üzrə ƏDV (orta %)	İdxal üzrə ümumi ödənişlər (%)
	Y	X1	X2	X3	X4	X5	X6
2007	5713,5	7850,374	9076,18	3,240	0,0334	0,1115	0,1609
2008	7170	9556,192	10699,38	2,475	0,0416	0,1352	0,1936
2009	6123,1	10777,63	11490,14	3,010	0,042	0,1700	0,2272
2010	6600,6	11521,69	12316,98	2,675	0,0413	0,1536	0,2086
2011	9756	12317,38	13602,76	2,191	0,03	0,1083	0,1481
2012	9652,9	13714,95	15330,47	2,159	0,0306	0,1218	0,1605
2013	10712,5	15354,5	16169,61	2,180	0,0357	0,1180	0,1655
2014	9187,7	16671	16761,02	2,231	0,0511	0,1494	0,2108
2015	9216,7	18193,22	17038,69	3,233	0,0417	0,1191	0,1720
2016	8489,1	14080,39	16489,32	4,447	0,0416	0,1050	0,1588
2017	8782	9103,218	15818,18	4,211	0,0473	0,1188	0,1747

Mənbə: **ARDGK-nin və ARDSK-nin məlumatlarına müəllif tərəfindən hazırlanmışdır.**

Cədvəl 8.3.2 məlumatları üzrə, 2007-2017-cı illər üzrə Azərbaycan Respublikasında idxalın nominal səviyyəsinə təsir edən amillər arasındakı asılılığı reqressiya analizinin aparılması üçün MS Excel proqramından istifadə edərək

Cədvəl 8.4.4

İdxal üzrə ümumi ödənişlərə təsir edən amillər arasındakı reqressiya əlaqəsi.

SUMMARY OUTPUT

Regression Statistics	
Multiple R	0.988765
R Square	0.977657
Adjusted R Square	0.944142
Standard Error	390.2126
Observations	11

ANOVA

	df	*SS*	*MS*	*F*	*Significance F*
Regression	6	26650551	4441759	29.17106	0.002907
Residual	4	609063.6	152265.9		
Total	10	27259615			

	Coefficients	*Standard Error*	*t Stat*	*P-value*	*Lower 95%*	*Upper 95%*
Intercept	5322.3	2634.08	2.020554	0.113426	-1991.08	12635.68
X1	-0.27728	0.112699	-2.4604	0.069662	-0.59019	0.035619
X2	0.90136	0.2137	4.217886	0.0135	0.308035	1.494685
X3	-1236.78	247.6164	-4.99472	0.007518	-1924.27	-549.282
X4	-181668	130958.3	-1.38722	0.237664	-545267	181930.6
X5	-165687	108130	-1.53229	0.200216	-465904	134530.4
X6	143663	109688.8	1.309733	0.260444	-160882	448208

Mənbə. Cədvəl 8.4.3 məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

MS Excel proqramının tətbiqi ilə idxalın nominal həcminə təsir edən amillər arasındakı reqressiya əlaqəsini ifadə edən cədvəl 8.3 məlumatlarına əsasən 2000-2017-cı illər üzrə Azərbaycan Respublikasında idxalın nominal həcminə təsir edən amillər

arasındakı asılılığı ifadə edən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır.

$$y = 5322,3 - 0,28x_1 + 0,9x_2 - 1236,78x_3 - 181668x_4 - 165687x_5 + 143663x_6 \quad (8.4.1)$$

Determinasiya əmsalı R - square = 0,9776 olması onu approksimasiyanın olduqca yüksək olması deməkdir. R^2=0,978 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 97,8% dispersiya nəticə göstəriciləri ilə, 2,2%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması nəticə amilinin 97,8%-nin modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir. Significance F~0.002907 olduğundan, p < 0,05 şərtinə əsasən reqressiya modeli əhəmiyyətlidir.

F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F-Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edilməlidir, Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 29,17

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр düsturunun köməkliyi ilə təyin etsək,

$F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр(0,05; 6; 11) =3,09

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (29,17>3,09). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə (16.1) modelinin adekvatlığı deməkdir.

Təyin edilmiş bu əlaqə tənliyinə əsasən, belə nəticəyə gəlmək olar ki, real istehlak xərclərini fadə edən X1 amilinin bir vahid artması, idxalın nominal həcminin 0,28 vahid azalmasına, real

gəlirlərin (X2) bir vahid artması idxalın nominal həcmini 0,9 vahid artmasına, sənaye-istehsalının (X3) bir vahid artması idxalın nominal həcminin 1236,78 vahid azalmasına, gömrük rüsumlarının (X4) bir vahid artması idxalın nominal həcminin 181667,99 vahid azalmasına, idxal üzrə ƏDV-nin (X5) bir vahid artması idxalın nominal həcmininin 165686,67 vahid artmasına, idxal üzrə ümumi ödənişlərin bir vahid artması idxalın nominal həcminin 143663,03 vahid artmasına səbəb olmuşdur. Göründüyü kimi idxal üzrə ümumi ödənişlər idxalın nominal həcmininin yüksəldilməsinə daha aktiv təsir edən amillərdən biridir.

İdxalın nominal həcmi ilə ona təsir edən amillər arasındakı asılılığı ifadə edən **Y = 143663.03*X6 - 165686.67*X5 - 181667.99*X4 - 1236.78*X3 + 0.9*X2 - 0.28*X1 + 5322.30** xətti reqressiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablasaq aşağıdakı nəticələri alarıq:

$$E_{real\ xərclər} = \frac{\propto_1 \times \overline{x_1}}{\bar{y}} = \frac{0{,}28 \times 12649{,}14}{8309{,}464} = 0{,}426$$

$$E_{real\ gəlirlər} = \frac{\propto_2 \times \overline{x_2}}{\bar{y}} = \frac{0{,}9 \times 14072{,}07}{8309{,}464} = 1{,}52$$

$$E_{sənaye\ istehsalı} = \frac{\propto_3 \times \overline{x_3}}{\bar{y}} = \frac{1236{,}78 \times 2{,}91}{8309{,}464} = 0{,}434$$

$$E_{gömrük\ rüsumları} = \frac{\propto_4 \times \overline{x_4}}{\bar{y}} = \frac{181667{,}99 \times 0{,}0397}{8309{,}464} = 0{,}87$$

$$E_{idxal\ üzrə\ ƏDV} = \frac{\propto_6 \times \overline{x_5}}{\bar{y}} = \frac{165686{,}67 \times 0{,}1282}{8309{,}464} = 2{,}56$$

$$E_{idxal\ üzrə\ ümumi\ ödənişlər} = \frac{\propto_6 \times \overline{x_6}}{\bar{y}} = \frac{143663{,}03 \times 3{,}113}{8309{,}464} = 0{,}18$$

Elastiklik əmsalının hesablanmış qiymətlərini aşağdakı cədvəldə əks etdirək.

Cədvəl 8.4.5

İdxalın həcminə təsir edən amillərin elastikliyi

İdxalat, mln. Man	Real istehlak xərcləri, mln. man,	Real gəlirlər, mln, man	Sənaye-istehsal man	Gömrük rüsumları (orta %)	İdxal üzrə ƏDV (orta %)	İdxal üzrə ümumi ödənişlər (%)
1%	-0.43%	+1.52%	-0.434%	-0.87%	-2.57%	+0.18%

MS Exceldə aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, dövlətin real istehlak xərclərinin və eləcə də yerli sənaye-istehsalatın həcminin 1% artması idxalatın həcmini -0.43% azalamasına və gömrük rüsumları və idxal üzrə ƏDV-nin orta dərəcəsinin 1% artması, müvafiq olaraq idxalın həcmini -0.87% və -2.57% azalmasına səbəb olur. Bunun əksinə, dövlət büdcəsinin real gəlirlərinin və İdxal üzrə ümumi ödənişlərin orta dərəcəsinin 1% artması idxalatın həcmini uyğun olaraq, +1.52% və +0.18% artması ilə nəticələnir. Belə nəticəyə gəlmək olar ki, idxalatın həcminin dəyişməsinə ən çox təsir edən amillər dövlət büdcəsinin real gəlirləri və idxal üzrə ƏDV-nin orta dərəcəsidir.

8.5. EVIEWS PROQRAM PAKETININ TƏTBİQİ İLƏ GÖMRÜK DAXİLOLMALARININ EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ


İqtisadi tədqiqatlarda geniş yayılmış Stadia və Statistica ststistik paketi ekonometrik modelləşmə məsələlərinin həllinə şərait yaratsa da, onların iqtisadi tədqiqatların aparılmasında müəyyən çatışmazlıqlara malikdır. Belə ki, modelin heteoksedantlığı və avtokorrelyasiyanın aşkar edilməsi məsələləri kifayyət dərəcədə araşdırıla bilmir. EViews ekonometrik proqramı iqtisadi modelləşdirmə üzrə daha genişməsələlərin tədqiq edilməsinə şərait yaradır. Bu məqsədlə bu proqram paketinin tətbiqi qaydalarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. EViews ekonometrik

tətbiqi proqram paketində iqtisadi tədqiqatların aparılması qaydalarını izah etmək məqsədi ilə Azərbaycan Respublikasında nəqliyyat xidmətindən əldə olunan gəlirə təsir edən nəqliyyatda istifadəyə verilmiş əsas fondlar, investisiyaların həcmi, ölkı üzrə infilyasiya səviyyəsi, ixrac və idxalın həcmi, həmçinin daxili səmərəlilik indeksi də daxil olmaqla logistikanın səmərəlilik indeksi kimi amillərin təsir dərəcəsini araşdıraq.Bu məqsədlə əvvəlcə Eviews tətbiqi proqram paketinə ilkin verilənlərin daxil edilməsi texnologiyasına baxaq.

8.6. İLKİN VERİLƏNLƏRİN EVIEWS TƏTBİQİ PROQRAM PAKETİİNƏ DAXİL EDİLMƏSİ VƏ ONLARIN TƏHLİLİ METODİKASI


Eviews tətbiqi proqram paketinin işə salınması alətlər panelindəki ”Пуск” düyməsi vasitəsi ilə aşağıdakı ardıcıllıqla yerinə yetirilir.

Программы → EViews 9/EViews10 və yaxud işçi stolda yarlıq vasitəsilə EViews10 proqram paketinin işə salınması ilə. Bu əməliyyatdan sonra praqram paketinin başlanğıc pəncərəsi açılacaqdır. EViews 9 proqram paketinin açılmış pəncərəsi aşağıdakı kimi olacadır.




Şəkil 8.6.1. EViews 9 proqram paketinin açılmış başlanğıc pəncərəsi.

EViews 9 proqram paketinin açılmış başlanğıc pəncərəsini göstərən şəkildə Greate a new EViews workfile (yeni Eviews işçi sənədinin yaradılması) menyusunu açsaq aşağıdakı nəticə alınacaqdır.




Şəkil 8.6.2. EViews 9 proqram paketinin işçi pəncərəsi.

Şəkildə əks edilmiş EViews 9 proqram paketinin işçi pəncərəsidən istifadə edərək istənilən dövrlər üzrə başlanğıc və son tarixlər göstərilməklə MS Exceldə əks edilmiş statistik məlumatları daxil edərək tədqiqat işini aparmaq olar.Bu işçi pəncərənin aşılmasını aşağıdakı ardıcılıqal da aparmaq olar. Bu məqsədlə, Eviews tətbiqi proqram paketinin işə salınmasında alətlər panelindəki ”Пуск” düyməsi vasitəsi ilə Программы → EViews 9 yığıldıqda aşağıdakı pəncərə açılacaqdır.




Şəkil 8.6.3. EViews 9 proqram paketinin açılmış başlanğıc pəncərəsi.

Şəkildə File(fayl) →Workfileyə (iş materialları) daxil olsaq aşağıdakı işçi pəncərə açılacaqdır.




Şəkil 8.6.4. EViews 9 proqram paketində işçi pəncərənin yaradılması.

. EViews 9 proqram paketində işçi pəncərənin yaradılmasını əks etdirən Şəkil 8.1.4-dən istifadə edərək Workfileni (iş materialları) tıklasaq aşağıdakı işçi pəncərə açılacaqdır.



Şəkil 8.6.5. EViews 9 proqram paketinin işçi pəncərəsi.

Şəkil 8.4.5-də əks edilmiş EViews 9 proqram paketinin işçi pəncərəsidə Data specificationa (məlumat spesifikasiyası) daxil olduqda aşağıdakı dialoq pəncərəsi açılacaqdır. Bu pəncərədə daxil eilən verilənlərin tipi əks edilmişdir



Şəkil 8.6.6. EViews 9 proqram paketində məsələnin verilənlərinin tipi.

EViews proqram paketində məsələnin verilənlərinin tipinə uyğun olaraq dialoq pəncərəsində Start date (başlanğıc tarix) və End date (son tarix) göstəriciləri üzrə verilənlər daxil edilir.

EViews 9 proqram paketində məsələnin verilənlərinin tipini əks etdirən 8.4.6 saylı şəkildən göründüyü kimi verilənlərin səkkiz tipi daxil edilə bilər:

-Annual (illik). Məsələn, Start date: (başlanğıc tarix) 2000 və End date: (son tarix) 2018;

-Semi-annual (yarım illik). Burada format-il və yarım il göstərilir).Məsələn Start date: 2000:1, End date: 2008:2;

-Quarterly (rüblük). Burada format-il və rübün nömrəsi göstərilir).Məsələn Start date: 2000:4, End date: 2010:3;

-Monthly (aylıq). Burada format-il və rübün nömrəsi göstərilir).Məsələn Start date: 2000:1, End date: 2018:11;

- Weekly (həftəlik) və 5/7 dayweeks (gündəlik). Burada format ay/gün/il və gün/ay/il formasındadır. Bunu işə salmaq üçün Options/Freguency Conversion& Date Display menyusundan istifadə edilir. Məsələn, proqrama daxil edilmiş 9:11:99 rəqəmləri belə interpretasiya olunacaqdır. Sentyabr, 11, 1999. Başlanöıc tarix Start date:Sentyabr, 11, 1999 kimi ifadəı ediləcəkdir.

Qeyd etmək lazımdır ki, burada əsas məsələ başlanğıc (Start) və son (End) tarix/müşahidələrinin (date/observation) göstərilməsidir.

9. EVIEWS TƏTBİQİ PROQRAM PAKETİİNDƏ İLKİN VERİLƏNLƏRİN DAXİL EDİLMƏSİ VƏ VERİLƏNLƏRİN TƏHLİLİ

EViews ekonometrik tətbiqi proqram paketində iqtisadi tədqiqatların aparılması qaydalarına uyğun olaraq ARDSK-nin və ARDGK-nin statistik məlumatlarına əsasən nəqliyyat xidmətindən əldə edilən gəlirin həcminə nəqliyyatda istifadəyə verilmiş əsas fondların, investisiyaların həcminin, ölkə üzrə infilyasiya səviyyəsinin, ixrac və idxalın həcminin, həmçinin daxili səmərəlilik indeksi də daxil olmaqla logistikanın səmərəlilik indeksi amillərinin təsir dərəcəsini araşdıraq. Bu məqsədlə Eviews-9 proqram paketini yuxarıdakı qaydalara uyğun olaraq aktivləşdirək. Kompütürin işçi stolundan müvaiq məlumatlar əks edilmiş aşağıdakı cədvəl məlumatları MS Excel faylında yerləşmişdir.

Cədvəl 9.1


Azərbaycan Respublikasında nəqliyyat xidmətindən əldə olunan gəlir və ona təsir edən bəzi amillər.

İllər	Nəqliyyat-da İstifadəyə verilmiş əsas fondlar, mln. Man. (X1)	Nəqliyyat-da İnvesti-siyaların həcmi, mln. man (X2)	Ölkə üzrə İnfilya-siya səviy-yəsi,%-lə (X3)	İxracın həcmi, mlrd,$ (X4)	İdxalın həcmi, mlrd,$ (X5)	Loqisti-kanın səmərəlilik indeksi (daxili səmərəlilik indeksi ilə) (X6)	Nəqliy-yat xidmətind ən ümumi gəlir, mln, manat (Y)
2000	16,4	44,0	1,8	1172,1	1745,2	1,86	375,1
2001	40,0	58,7	1,5	1431,1	2314,2	1,98	405,9
2002	80,6	89,2	2,8	1665,5	2167,4	2,06	440,0
2003	111,9	337,2	2,2	2626,2	2590,4	2,12	539,6
2004	165,1	324,0	6,7	3515,9	3615,5	2,18	599,4
2005	257,4	515,5	9,7	4211,2	4347,2	2,23	670,4

2006	1359,2	529,3	8,4	5266,7	6372,2	2,28	845,0
2007	240,5	740,9	16,6	5713,5	6058,2	2,29	2103,2
2008	542,9	1985,9	20,8	7170,0	47756,0	2,64	2524,9
2009	597,5	1706,0	1,6	6123,1	14701,4	2,45	2889,6
2010	729,3	2434,8	5,7	6600,6	21360,2	2,39	3065,8
2011	831,4	2509,4	7,9	9756,0	26570,9	2,44	3283,6
2012	1007,1	2610,3	1,0	9652,9	23908,0	2,49	3341,8
2013	890,6	3559,7	2,4	10712,5	23975,4	2,51	3508,8
2014	1393,6	2432,4	1,4	9187,7	21828,6	2,55	3678,1
2015	928,7	2195,3	4,0	9216,7	12729,1	2,82	4005,6
2016	1258,2	1391,0	12,4	8489,1	13457,6	2,91	4780,7
2017	1291,8	1491,0	13	8782,0	13811,6	2,98	5549,7

Mənbə. ARDGK-nin və ARDSK-nin materiallarına və müəllifin Azərbaycanda LSİ-nin indikatorları əsasında hesablamalrına əsasən tərtib edilmişdir.


Kompütürin işçi stolunda yerləşən Eviews-9 proqram paketini yuxarıdakı qaydalara uyğun olaraq aktivləşdirərək tədqiqat dövrü üzrə müşahidə illərinin başlanğıc və son tarixlərinin müvafiq xanaarda qeyd edək. Aşağıdakı şəkildə bunlar əks edilmişdir.



Şəkil 9.1. EViews 9 proqram paketinə tədqiq olunan göstəricilərin başlanğıc və son tarixlərinin daxil edilməsi.

EViews 9 proqram paketinə tədqiq olunan göstəricilərin başlanğıc və son tarixlərinin daxil edildikdən sonra Ok düyməsi basıldıqda Workfile Range (işləmə silsiləsi) formasında paket adsız


işçi fayl yaradır və ekranın işçi oblastında aşağıdakı şəkildə əks edilmiş pəncərə yaranır.



Şəkil 9.2. EViews 9 proqram paketinin işçi faylı.


Qeyd etmək lazımdır ki, bütün tədqiqatlarda bu işçi fayl paketində həmişə **C** əmsalı vektoru və dəyişən (seriya) **RESİD** olur.

Tədqiqat işinin aparılması üçün ilkin verilənlər Gəmi.xls. faylında yerləşir. EViews 9 proqram paketinə verilənlərin daxil edilməsinə baxış keçirilir. Bu məqsədlə vizuallıq üçün MS Excel cədvəl prosesorunu işə salaraq Gəmi.xls faylını açırıq. Bu əməliyyat İmport→İmport form file parametrlərinin köməkliyi ilə kompüterin işçi stolundan Gəmi.xls. faylının yüklənməsi ilə həyata keçirilir. Əməliyyat aşağıdakı şəkildə əks edilmişdir.




Şəkil 9.3. EViews 9 proqram paketinə verilənlərin daxil edilməsi.

Gəmi.xls. faylı yükləndikdən sonra ekranın işçi oblastında aşağıdakı şəkildə əks edilmiş pəncərə yaranacaqdır.




Şəkil 9.4. EViews 9 proqram paketində sərbəst və asılı dəyişənlərin parametrlərinin yoxlanması.

Gəmi.xls.faylı Şəkil 9.3-ə uyğun olaraq yükləndikdən sonra Şəkil 9.4-də göstərildiyi kimi X1, X2, X3, X4, X5, X6 sərbəst dəyişənlərin və Y asılı dəyişənin parametrləri yoxlanılaraq Finish (готово) düyməsi basılmaqla aşağıdakı çəkildə göstərilən nəticə əldə ediləcəkdir. Açılan pəncərədə bu şəkil üzərində X1, X2, X3, X4, X5, X6 sərbəst dəyişənləri və Y asılı dəyişəni işarələyərək, Open→as Eguation əməliyyatı ilə Y və X dəyişənləri arasındakı əlaqənin qiymətləndirlməsində istifadə ediləcək aşağıdakı pəncərə açılacaqdır.




Şəkil 9.5. EViews 9 proqram paketində sərbəst və asılı dəyişənlər arasındakı əlaqənin müəyyən edilməsi.

Şəkil 9.5-də əks olunmuş pəncərədə Ok düyməsini basmaqla tədqiq olunan göstəricilər arasındakı əlaqənin nəticələri Eviews proqram paketindən istifadə edilməklə aşağıdakı şəkildə göstərilmiş formada olacaqdır.



Şəkil 9.6. EViews 9 proqram paketində çoxluq reqressiyanın xətti modelinin parametrlərinin qiymətləndirilməsinin nəticəsi.

Şəkil 9.6-da aşılan pəncərədnViev→Representations seçilməklə göstəricilər arasındakı reqeressiya tənliyi aşağıdakı şəkildə açılmış pəncərədəki kimi olacaqdır.



Şəkil 9.7. EViews 9 proqram paketinə göstəricilər arasındakı əlaqənin qiymətləndirilməsi.

Şəkildən göründüyü kimi nəqliyyat xidmətindən əldə olunan gəlirlə ona təsir edən amillər arasındakı əlaqəni ifadə edən çoxluq reressiyanın xətti modeli aşağıdakı kimidir.

Estimation Command:
==========
LS Y X6 X5 X4 X3 X2 X1 C

Estimation Equation:
==========
Y = C(1)*X6 + C(2)*X5 + C(3)*X4 + C(4)*X3 + C(5)*X2 + C(6)*X1 + C(7)

Substituted Coefficients:


$$Y = 4305.34473913*X6 - 0.0251661243973*X5 - 0.0198682763995*X4 - 3.61495362464*X3 + 0.631372111621*X2 + 0.0184226102417*X1 - 8352.82074616 \quad (9.1)$$

EViews tətbiqi proqram paketinə əsasən reqressiya modelinin əmsallarının bərabərliyi hipotezini yoxlayaq.

EViews 9 proqram paketində nəqliyyat xidmətlərindən əldə olunan gəlir və ona təsir edən amillər arasınakı əlaqəni ifadə edən çoxluq reqressiyanın xətti modelinin parametrlərinin qiymətləndirilməsinin nəticəsində alınmış əlaqə tənliyindən belə nəticəyə gəlmək olar ki, nəqliyyatda istifadəyə verilmiş əsas fondların bir vahid artması nəqliyyat xidmətindən ümumi gəliri 0,0184 vahid artırır, nəqliyyatda investisiyaların həcminin bir vahid artması nəqliyyat xidmətindən ümumi gəliri 0,63 vahid artırır, ölkə üzrə infilyasiya səviyyəsinin bir vahid artması nəqliyyat xidmətindən ümumi gəliri 3,6 vahid azaldır, ixracın həcminin bir vahid artması nəqliyyat xidmətindən ümumi gəliri 0,02 vahid azaldır, idxalının həcminin bir vahid artması nəqliyyat xidmətindən ümumi gəliri 0,0025 vahid azaldır, logistikanın səmərəlilik indeksinin bir vahid artması isə nəqliyyat xidmətindən ümumi gəliri 4305 vaid artırır.


9.1. EViews ekonometrik proqram paketinin tətbiqi ilə reqressiya modelinin əmsallarının bərabərliyi hipotezininin yoxlanılması texnologiyası

EViews ekonometrik proqram paketinin tətbiqi ilə reqressiya modelinin əmsallarının bərabərliyi hipotezininin yoxlanılması üçün Eviews proqram paketinin pəncərə menyusunda Eguation seçərək View / Coefficient / Tests / Wald→Coefficientions parametrləri seçilr.Bu əməliyyat aşağğıdakı şəkildə göstərilmişdir.




Şəkil 9.1.1. **Eviews-9 proqram paketində reressiya əmsallarının bərabərliyi hipotezinin yoxlanılması.**

Wald $Test \rightarrow$ Coefficient Restricotions parametrini basdıqda aşağıdakı pəncərə açılacaqdırş




Şəkil 9.1.2. **Eviews-9 proqram paketində reressiya əmsallarının bərabərliyi hipotezinin yoxlanılması.**

Şəkil 9.1.2. pəncəriəsində reqressiya modelinin əmsallarının bərabərliyi hipotezininin yoxlanılması (Coefficient restricotions separated by commas) məqsədi ilə C(6)=C(7) yazırıq. Nəticə aşağıdakı şəkildə göstərilmişdir.



Şəkil 9.1.3. **Eviews-9 proqram paketində reressiya əmsallarının bərabərliyi hipotezinin yoxlanılması.**

Ok düymsini basdıqda aşağıdakı şəkildə əks edilmiş nəticə əldə ediləcəkdir.



Şəkil 9.1.4. Eviews-9 proqram paketində reressiya əmsallarının bərabərliyi hipotezinin yoxlanılmasının nəticəsi.

9.2. EViews ekonometrik proqram paketinin tətbiqi ilə heteroksedastikliliyin olmaması hipotezininin yoxlanılması texnologiyası

EViews ekonometrik proqram paketinin tətbiqi ilə heteroksedastikliliyin olmaması hipotezininin yoxlanılması üçün adətən White/1/, /3/ testindən istifadə edilir. Bu yoxlamanı aparmaq üçün ekoonometrik məsələdə alınmış nəticə üzrə heteroksedastikliliyin olmaması hipotezininin yoxlanılmasında White testindən istifadə edərək proqram paketinin menyusundakı Eguation pəncərəsindən View/Residual Diaqnostics→ White heterocsedasticity (no cross terms) seçilir. Bu aşağıdakı ardıcılıqla aparılır.

View
↓
Residual Diaqnostics→ Heterocsedasticity Test
↓
White

Sxem. Heteroksedastiklilik testi sxemi.

Bu ardıcılıqla əməliyyat aparıldıqdan sonra Ok düyməsi vurulmaqla açılan pəncərədə nəticələr əks olunacaqdır.

9.2.1. EViews ekonometrik proqram paketinin tətbiqi ilə gömrük üzrə ümumi büdcə daxilolmalarına təsir edən amillərin qiymətləndirilməsi

Azərbaycan Respunlikası Dövlət Gömrük Komitəsinin 2007-2017-ci illəri əhatə edən dövrlərdə gömrük rüsumları üzrə büdcə daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalar, idxalın həcmi və ümumi büdcə daxilolmaları haqqında statistik məlumatlara uyğun olaraq orta tarif və qeyri-tarif dərəcəsi, ƏDV dərəcəsi və gömrük ödənişlərinin ümumi tarifini hesablasaq aşağıdakı cədvəl məlumatlarını əldə etmiş olarıq. Məhz həmin cədvəl məlumatlarına əsasən EViews ekonometrik proqram paketinin tətbiqi ilə gömrük üzrə ümumi büdcə daxilolmalarına təsir edən amillər arasındakı əlaqəni ekonometrik qiymətləndirmək olar.

Cədvəl 9.2.1.

Gömrük üzrə ümumi büdcə daxilolmaları və ona təsir edən amillər

İllər	Orta tarif və qeyri-tarif dərəcəsi X1	ƏDV dərəcəsi, X2	**Gömrük ödənişləri-nin ümumi tarifi** X3	Gömrük rüsumları üzrə büdcə daxilolmaları, mln. man. X4	ƏDV üzrə büdcə daxilolmaları, mln. man. X5	İdxalın həcmi, mln. man. X6	Gömrük üzrə Ümumi büdcə daxilolmaları, mln. man. Y
2007	0,0334	0,1115	0,1609	160,28	535,06	4799,34	772,01
2008	0,0416	0,1352	0,1936	238,65	775,23	5736	1110,4
2009	0,042	0,17	0,2272	205,68	832,52	4898,48	1112,72

2017	2016	2015	2014	2013	2012	2011	2010
0,0473	0,0416	0,04	0,0511	0,0357	0,0306	0,03	0,0413
0,1188	0,105	0,1138	0,1494	0,118	0,1218	0,1083	0,1536
0,1747	0,1588	0,1645	0,2108	0,1655	0,1605	0,1481	0,2086
706,87	600,21	387,38	365,89	298,25	230,62	231,57	218,25
1773,2	1515,3	1101,2	1071	986,08	916,98	835	810,95
14929,4	14431,47	9677,54	7166,41	8355,75	7529,26	7707,24	5280,48
2608,78	2291,67	1591,91	1510,76	1383,25	1208,35	1141,53	1101,73

Mənbə. ARDGK-nin məlumatları və müəllif hesablaması əsasında tərtib edilmişdir.

Cədvəl 9.2.1 məlumatlarına əsasən 2007-2017-ci illər üzrə Azərbaycan Respublikasında gömrük üzrə ümumi büdcə

daxilolmaları ilə gömrük rüsumları üzrə büdcə daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalar, idxalın həcmi, orta tarif və qeyri-tarif dərəcəsi, ƏDV dərəcəsi və gömrük ödənişlərinin ümumi tarifi arasındakı asılılığın reqressiya analizinin aparılması üçün Eviews proqram paketindən istifadə edərək aşağıdakı nəticəni alarıq.

Cədvəl 9.2.2

Dependent Variable: Y
Method: Least Squares
Date: 09/10/19 Time: 00:27
Sample: 2007 2017
Included observations: 11

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X6	0.036637	0.004858	7.542352	0.0017
X5	0.920440	0.068553	13.42670	0.0002
X4	0.589247	0.113693	5.182818	0.0066
X3	6180.236	913.0607	6.768702	0.0025
X2	-5952.068	1174.757	-5.066638	0.0071
X1	-2558.604	1007.165	-2.540402	0.0640
C	-237.5473	29.01978	-8.185702	0.0012

R-squared	0.999985	Mean dependent var	1439.374
Adjusted R-squared	0.999964	S.D. dependent var	551.5270
S.E. of regression	3.322163	Akaike info criterion	5.500235
Sum squared resid	44.14706	Schwarz criterion	5.753442
Log likelihood	-23.25130	Hannan-Quinn criter.	5.340625
F-statistic	45933.99	Durbin-Watson stat	2.758188
Prob(F-statistic)	0.000000		

Mənbə: EViews -9 proqram paketində müəllif tərəfindən tərtib edilmişdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Estimation Command:
==========
LS Y X6 X5 X4 X3 X2 X1 C
Estimation Equation:
==========
Y = C(1)*X6 + C(2)*X5 + C(3)*X4 + C(4)*X3 + C(5)*X2 + C(6)*X1 + C(7)

Substituted Coefficients:

Y = 0.0366369763557*X6 + 0.920439536363*X5 + 0.589247489957*X4 + 6180.2358089*X3 - 5952.06795831*X2 - 2558.60444342*X1 - 237.5473069 (9.2.1)

Evievs proqram paketinin nəticələrinə uyğun olaraq, Azərbaycan Respublikasında ümumi büdcə daxilolmaları ilə gömrük rüsumları üzrə büdcə daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalar, idxalın həcmi, orta tarif və qeyri-tarif dərəcəsi, ƏDV dərəcəsi və gömrük ödənişlərinin ümumi tarifi arasında 9.6.1 reressiya tənliyi ilə ifadə olunan korrelyasiya əlaqəsi vardır. 9.6.1 modelinə daxil olan sərbəst dəyişənlərlərlə asılı dəyişən arasındakı korrelyasiya asılılığını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə tarif və qeyri-tarif dərəcəsinin bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 2558,6 vahid azalmasına, ƏDV dərəcəsinin bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 5952,1 vahid azalmasına, gömrük ödənişlərinin ümumi tarifinin bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 6180,2 vahid artmasına, gömrük rüsumları üzrə büdcə daxilolmalarının bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,037 vahid artmasına, ƏDV üzrə büdcə daxilolmalarının bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,92 vahid artmasına, idxalın həcminin bir vahid artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,59 vahid artmasına səbəb olmuşdur. Qurulmuş modelin statistik əhəmiyyətliliyini və adekvatlığını yoxlayaq.

Alınmış reqressiya tənliyinin F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}\,(a; m; n - m - 1)$ qiyməti ilə müqayisə edilməlidir. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 45933

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр düsturunun köməkliyi ilə təyin etsək,

$$F_{cədvəl} \text{ (a; m; n} - \text{m} - 1) = \text{Fpacпобр}(0{,}05; 6; 4) = 6{,}16$$

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (45933.0>6,16). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş (9.6.1) modelinin adekvatlığı deməkdir.

Darbon-Uotson statistikası DW=2,76 oduğundan, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsinə altı izahedici dəyişən (m=6) və n=11 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır [28].

$$d_l = 0.203, \qquad d_u = 3.005$$

$d_l = 0.203 < \text{DW} = 2{,}76 < d_u = 3.06$ olduğundan qalıqların avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuş **Y = 0.037*X6 + 0.92*X5 + 0.59*X4 + 6180.236*X3 - 5952.08*X2 - 2558.60*X1 - 237.55** modeli adekvatdır.

Qeyd etmək lazımdır ki, Darbon-Uotsonun statistikası əsasında avtokorrelyasiya nəticə aşağıdakı kimi formalaşır:

$$DW = \frac{\sum_{t=2}^{T}(e_t - e_{t-1})^2}{\sum_{t=1}^{T} e_t^2}$$

Darbon-Uotsonun statistikası $r_{e_t e_{t-1}}$-seçmə korrelyasiya əmsalı ilə sıx surətdə bğlıdır. Bu bağlılıq Darbon-Uotsonun statistikasının aşağıdakı kimi ifadə edilir:

$$DW = 2\left(1 - r_{e_t e_{t-1}}\right)$$

Darbin-Uotsonun statistikasının yuxarıda göstərdiyimiz böhran nöqtələri cədvəlindən istifadə edərək d_l və d_u böhran nöqtələri tapılır [28, s.302]. Darbin-Uotsonun paylanmasını əks etdirən

cədvəldən tapılan d_l *və* d_u böhran nöqtələrinə əsasən avtokorrelyasiya müəyyən edilir. Darbin-Uotson meyarlarına əsasən nəticələr aşağıdakı kimi qiymətləndirilir.

1. Əgər $0 \leq \mathrm{DW} < d_l$ olarsa, göstəricilər arasında müsbət avtokorrelyasiya vardır;
2. Əgər $d_l \leq \mathrm{DW} < d_u$ olarsa, göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmiş olacaqdır ;
3. Əgər $d_u \leq \mathrm{DW} < 4 - d_u$ olarsa, göstəricilər arasında avtokorrelyasiya olmayacaqdır;
4. Əgər $4 - d_u \leq \mathrm{DW} < 4 - d_l$ olarsa, göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmiş olacaqdır ;
5. Əgər $4 - d_u \leq \mathrm{DW} \leq 4$ olarsa, göstəricilər arasında mənfi avtokorrelyasiya mövcud olacaqdır.

Bu şərtlərə (2-ci şərtə) uyğun olaraq, yuxarıdakı nəticələrə əsasən $d_l = 0{,}203 < \mathrm{DW} = 2{,}76 < d_u = 3{,}06$ olduğundan avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir.

Əlaqə tənliyindəki sərbəst dəyişənlərin əmsalına və tədqiq olunan dövrlərdə gömrük üzrə ümumi büdcə daxilolmalarının hesabi orta qiymətlərinə müvafiq olaraq elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$\mathbf{E_{Orta\ tarif\ dərəcəsi}} = \frac{\boldsymbol{\alpha_1 \bar{x}_1}}{\boldsymbol{\bar{Y}}} = \frac{\mathbf{-2558,6 \times\ 0,039509}}{\mathbf{1439,374}} = \mathbf{-0,070231}$$

$$\mathbf{E_{ƏDV\ dərəcəsi}} = \frac{\boldsymbol{\alpha_2 \bar{x}_2}}{\boldsymbol{\bar{Y}}} = \frac{\mathbf{-5952,08 \times\ 0,127764}}{\mathbf{1439,374}} = \mathbf{-0,528327}$$

$$\mathbf{E_{Gömrük\ ödənişlərinin\ ümumi\ tarifi}} = \frac{\boldsymbol{\alpha_3 \bar{x}_3}}{\boldsymbol{\bar{Y}}} = \frac{\mathbf{6180,236 \times\ 0,179382}}{\mathbf{1439,374}} = \mathbf{0,770213}$$

$$\mathbf{E_{Gömrük\ rüsumları\ üzrə\ büdcə\ daxilolmaları}} = \frac{\boldsymbol{\alpha_4 \bar{x}_4}}{\boldsymbol{\bar{Y}}} = \frac{\mathbf{0,59 \times\ 331,2409}}{\mathbf{1439,374}} = \mathbf{0,135776}$$

$$\mathbf{E_{ƏDV\ üzrə\ büdcə\ daxilolmaları}} = \frac{\alpha_5 \bar{x}_5}{\bar{Y}} = \frac{0,92 \times 1013,865}{1439,374} = 0,648029$$

$$\mathbf{E_{İdxalın\ həcmi}} = \frac{\alpha_6 \bar{x}_6}{\bar{Y}} = \frac{0,037 \times 8228,306}{1439,374} = 0,211514$$

Azərbaycan Respublikasında gömrük üzrə tarif və qeyri-tarif dərəcəsinin 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarını 0,1% azalmasına, ƏDV dərəcəsinin 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,53% azalmasına, gömrük ödənişlərinin ümumi tarifinin 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,77% artmasına, gömrük rüsumları üzrə büdcə daxilolmalarının 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,14% artmasına, ƏDV üzrə büdcə daxilolmalarının 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,64% artmasına, idxalın həcminin 1% artması gömrük üzrə ümumi büdcə daxilolmalarının 0,21% vahid artması ilə nəticələnir.


(9.2.1) modelinin reqresiya tənliyi ilə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin habelə onlar arasındakı qalıqların (Residual) dinamikası aşağıfakı kimi olacaqdır.



Şəkil 9.2.1. modelinin reqresiya tənliyi ilə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin və onlar arasındakı qalıqların (Residual) dinamikası.

Çoxluq korrelyasiya əmsalının R=0,99 olması gömrük üzrə ümumi büdcə daxilolmaları ilə ona təsir edən amillər ifadə edən sərbəst dəyişənlər arasında olduqca yüksək funksional asılılıq

vardır. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir. Evievs proqram paketinin köməkliyi ilə sərbəst və asılı dəyişənlər arasındakı əlaqənin qrafiki təsvirini vermək üçün View→ $Grap$ seçildikdən sonra dialoq pəncərəsində aşağıdakı şəkildəki göstəricilər əks olunacaqdır.




Şəkil 9.2.2. EViews proqram paketində qrafiklərin qrulması.

Şəkil 9.2.2. EViews proqram paketində qrafiklərin qrulması pəncərəsində Mixed, Area və Area Bond göstəricilərini aktivləşdirsək tədqiq olunan göstəricilər üzrə təhlil aparmaq məqsədi ilə aşağıdakı qrafikləri almış olarıq.




Şəkil 9.2.2. EViews proqram paketində asılı və sərbəst dəyişənlərin illər üzrə dinamikasının qrafiki təsviri.

Bu qrafik Eviews-9 proqram paketində View→ $Grap \rightarrow Mixed$ parametrləri vasitəsilə qurulmuşdur. View→ $Grap \rightarrow Area$ parametrləri vasitəsilə isə aşağdakı şəkildə əks olunmuş qrafiki təsviri almaq olar.



Şəkil 9.2.3. EViews proqram paketində asılı və sərbəst dəyişənlərin illər üzrə dinamikasının qrafiki təsviri.

Göstəricilər arasındakı əlaqəni ifadə edən qrafiki təsvir isə View→ $Grap \rightarrow AreaBand$ parametrləri vasitəsilə isə aşağdakı şəkildə əks olunmuş qrafiki təsviri almaq olar.



Şəkil 9.2.4. EViews proqram paketində asılı və sərbəst dəyişənlərin illər üzrə dinamikasının qrafiki təsviri.

9.3. EVIEWS PROQRAM PAKETININ TƏTBİQİ İLƏ GÖMRÜK DAXİLOLMALARININ BÜDCƏ GƏLİRLƏRİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hər bir ölkənin iqtisadi fəaliyyətinin başlıca istiqaməti rəqabətqabiliyyətli məhsul istehsal edərək dünya əmtəə bazarında qabaqcıl yer tutaraq dünya təsərrüfatında baş verən qloballaşma prossesinə uyğunlaşmaqla, iqtisadi fəaliyyət sahələrinidə istehsal oluna məhsulların idxal və ixracının səmərəli bölgüsünün təmin edilməsidir. Son dövrlərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində aparılan uğurlu iqtisadi siyasət nəticəsində gömrük daxilolmaları əvvəlki illərlə müqayisədə artım nümayiş etdirməkdədir. Bu artım respublikamızda iqtisadi inkişafa təsir edərək dövlət büdcəsinin formalaşmasına müsbət təsir etmişdir. Qeyd etmək lazımdır ki, gömrük ödənişləri fiskal funksiyasını yerinə yetirərək bdcə gəlirlərinin formalaşmasına təsir edən amillər içərisində mühüm yer tutur. Əsasən təbii neft ehtiyatları ilə zəngin olan ölkələrin dövlət büdcəsinin formalaşmasında neft qiymətləri mühüm rol oynayır.

Beynəlxalq əmtəə ticarəti bazarındakı maliyyə vəziyyətının qeyri-sabitliyi, gömrük inteqrasiyasının genişləndirilməsi, iqtisadi metodlarla tənzimlənən təhlükəsiz milli iqtisadiyyat yaratmağa yönəlmiş mexanizmin yaradılması mühüm əhəmiyyət kəsb edir. İqtisadi metodların mahiyyəti gömrük işinin iqtisadi proseslərə təsiri üçün səmərəli mexanizm yaratmağa imkan verən gömrük tarifləri, ödənişlər, vergilər, valyuta məzənnələri, ödəmə balansı və digər iqtisadi alətlər vasitəsilə idarəetmə obyekti olan xarici iqtisadi fəaliyyətin iqtisadi mənafelərinə təsir edir [28].


Xarici ticarətdə gömrük-taarif tənzimlənməsi alətləri milli iqtisadiyyatın inkişafı.

Xarici ticarət fəaliyyətinin gömrük-tarif tənzimlənməsi alətləri və milli iqtisadiyyatın inkişafı kimi gömrük rüsumlarının, vergilərin, ödənişlərin miqdarı - gömrük ödənişlərinin tərkib elementləri kimi aşağı və ya yuxarı səviyyədə proteksionist

funksiyanı yerinə yetirməklə dəyişə bilər. Belə ki, fəaliyyətdə olan gömrük rüsumları, vergilərin və ya onların ləğvinin təsiri əmtəə istehsalçılarının, xarici iqtisadi fəaliyyət iştirakçılarının iqtisadi maraqlarına birbaşa təsir göstərir. Gömrük rüsumlari və vergilər idxal olunan və ixrac edilən məhsulların dəyərinin formalaşmasında, idxal olunan və ixrac edilən məhsulların qiymət səviyyəsinə, müəyyən məhsul bazarlarında səmərəli tələb və təklifin ödəmə qabiliyyətinin həcminə təsir göstərir. Gömrük ödənişləri və gömrük rüsumları şərtlərinin anlayışları dedikdə əsasən gömrük rüsumuna görə, Gömrük İttifaqının Gömrük Məcəlləsinin 4-cü maddəsinə görə gömrük orqanlarının malların gömrük sərhədindən keçməsi ilə bağlı gömrük orqanlarından götürülən məcburi ödənişi başa düşülür [10]. Gömrük ödənişlərinin tərkibinə idxal gömrük rüsumu, ixrac gömrük rüsumu, Gömrük İttifaqının gömrük ərazisinə malların idxalına görə əlavə dəyər vergisi, Gömrük İttifaqının gömrük ərazisinə malların gətirilməsinə görə götürülən aksiz və gömrük rüsumları daxildir [11]. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi son illərdə büdcə gəlirlərinin 10%-dən çoxunu idarə edir. Bunu aşağıdakı qrafikdən görmək olar.

Qrafik 9.3.1

Gömrük üzrə büdcə daxilolmalarının, Azərbaycan Respublikası üzrə büdcə gəlirlərində payı, %-lə




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi 2007-2013-cü illərdə gömrük üzrə büdcə daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi 13%-dən 7% düşmüş, 2013-cü ildən isə 2017-ci ilədək artaraq 17,15%-ə çatmışdır ki, bu da 2013-cü illə müqayisədə 2,4 dəfə yüksəkdir. ARDGK-də aparılna iqtisadi islahatlar hessabına büdcə daxilolmalarının tərkibində xarici iqtisadi fəaliyyətdən, ƏDV və aksiz vergilərindən daxil olan ödənişlərin payı daha da artmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafik 9.3.1

Gömrük üzrə ƏDV, aksiz və xarici iqtisadi fəaliyyət üzrə daxilolmaların, büdcə gəlirləri üzrə həmin göstəricilərdə payı, %-lə




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, 2017-ci ildə ARDGK üzrə ƏDV daxilolmaları büdcə gəlirlərində ƏDV-nin 52,2%-ni, aksiz vergisi üzrə daxilolmalar 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə (ixrac və idxal əməliyyatları üzrə) isə 85,1%-ni təşkil etməklə əvəlki illərlə müqayisədə artım nümayiş etdirmişdir. Qeyd etmək lazımdır ki, büdcə tapşırıqlarının yerinə yetirilməsi ölkəmizdə sosial və iqtisadi vəzifələrin uğurla həll edilməsinə imkan verən müsbət bir

addımdır. Gömrük üzrə vergi daxilolmalarının dinamikasına əsasən gömrük üzrə daxilolmaların artım tempi 2007-ci ildən 2010-cu ilədək azalmışdır. Aşağıdakı qrafikdə ARDGK-nin statistik məlumatlarından bunları daha aydın görmək olar.

Qrafik 9.3.2

Büdcə gəlirlərində gömrük ödənişlərinin dinamikası.



Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikə əsasən gömrük üzrə daxilolmalarının 2009 cü ildə 0,01% azalma tempi nümayiş etdirməsi dünyanı bürüyən qlobal maliyyə böhranlarının ölkəmizin xarici ticarətindən də yan keçməməsi ilə izah edilir. 2010-2013-cü illərdə gömrük daxilolmalarının həcminin artmasına baxmayaraq 2013-2015-ci illərdə maliyyə böhranları ilə əlaqədar olaraq neftin qiymətinin kəsgin uzuzlaşması gömrük daxiolmalarının artım tempinin 2013-cü illə müqayisədə 9,1 vahid azalması ilə nəticələnərək ödənişlərin fiskal fünksiyasının həmin dövr üzrə azalma tempi ilə xarakterizə

edilməsi ilə nəticələnmişdir. Sonrakı illərdə isə gömrük sahəsində aparılımış uğurlu iqtisadi islahatların hesabına gömrük daxilolmaları üzrə əvvəlki illə müqayisədə artım tempi nümayiş edilmişdir.

Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin inkişaf meyilləri.

Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiya prosesinin mürəkkəbliyinə baxmayaraq, Azərbaycanın ÜTT-yə tam hüquqlu iştirak etməsi onun uzunmüddətli iqtisadi maraqlarına tam uyğun gəlir [21]. Azərbaycanın qloballaşma proseslərində fəal iştirakının aparıcı istiqaməti göründüyü kimi, dinamik olaraq artan xarici ticarət əlaqələridir.


Dünya iqtisadiyyatında qloballaşmanın inkişafı müxtəlif beynəlxalq inteqrasiya birliklərinin yaradılması yolu ilə regionallaşma proseslərinə uyğun olaraq inkişaf edir. Azərbaycanın qısa müddət ərzində kapitalın beynəlxalq hərəkətində fəal iştirak etməsi, qlobal proseslərə qoşulmasına təkan verən mühüm amillərdən biridir. Kapitalın beynəlxalq axını müasir dövrün xarakterik xüsusiyyətini təşkil edir, təsərrüfatın beynəlmiləlləşməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə qlobal təsərrüfat əlaqələrinə qoşulmanın səmərəliliyi əsaslı dərəcədə ölkənin beynəlxalq rəqabət qabiliyyətinə malik olma dərəcəsinin səviyyəsindən asılıdır. Miladdan öncə II əsrdən başlayan tarixi "Böyük İpək Yolu" nun yenidən bərpası, bu yolun mərkəzində yerləşən Azərbaycan üçün çox mühüm strateji əhəmiyyət kəsb edir.

Texnoloji inqilabların mərkəzi olan Avropaya alternativ yollarla çıxış, bu ölkələrdə iqisadiyyatın müasir texniki və texnologiya ilə yenidən qurulmasında və bazar iqtisadiyyatının formalaşmasında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, Böyük İpək Yolu layihəsi Orta Asiya və Qafqaz ölkələrinin Rusiyadan asılılığını zəiflədilərək aradan qaldırılmasında da müstəsna əhəmiyyətə malikdir. Bu layihə zəngin faydalı qazıntı potensialının

mənimsənilməsi və dünya bazarına çatdırılması üçün həmin ölkələrin xarici kapital cəlb etmək imkanlarını daha da genişləndirmişdir. XXI əsrdən etibarən dünya ölkələrinin beynəlxalq iqtisadi inteqrasiyası daha da dərinləşdiyindən, hər hansı bir dövlətdə sosial-iqtisadi proseslərin inkişaf istiqamətləri, onların dünyada mövcud olan inteqrasiya birliklərinə daxil olmasından əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikasının son dövrlərdə xarici ticarətdə əldə etdiyi uğurlar əsasən əlverişli coğrafi mövqeyə uyğun olaraq xarici ticarətin coğrafiyasının genişliyi ilə izah edilir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafik 9.3.3

Azərbaycan Respublikasının ixrac üzrə xarici ticarət əlaqələrinin coğrafi quruluşu (mln. ABŞ dolları ilə)




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasının ixracında əsas yerləri Avropa və Asiya ölkələri tutur. Bu əlaqələr daha çox Avropaya meylliliklə müşahidə edilir.

Qrafik 9.3.4

Azərbaycan Respublikasının idxal üzrə xarici ticarət əlaqələrinin coğrafi quruluşu (milyon ABŞ dolları ilə)



	2012	2013	2014	2015	2016	2017
Okeaniya	31,3	0,4	0,5	0,6	0,3	0,7
Afrika	417,2	475	539,1	293,9	243,2	184,8
Amerika	1610,8	992,8	994,1	561,9	182,6	597,5
Asiya	9198,9	9573,4	7800,3	4484,1	4819,9	4476,8
Avropa	12649,7	12933,7	12494,6	7384,6	8211,5	8551,8
Cəmi	23908	23975,4	21828,6	12729,1	13457,6	13811,6

Mənbə: ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasının ixrac əməliyyatlarında Avropa və Asiya ölkələri əsas yer tutur. Bu iqtisadi əlaqələr də getdikcə daha çox Avropaya meylliliklə müşahidə edilir. Cədvəl məlumatlarına əsasən Azərbaycanda ixracın 50-60 %-i məhz Avropanın payına düşür. Azərbaycan Respublikasında ölkə qrupları üzrə ixracın coğrafi quruluşu da ölkənin beynəlxalq iqtisadi əlaqələr üzrə assosiativ fəaliyyətinin genişlənməsini göstərir.

Cədvəl 9.3.5

Azərbaycan Respublikasında ölkə qrupları üzrəın ixracın coğrafi quruluşu (milyon ABŞ dolları ilə)

Ölkə qrupları	2012	2013	2014	2015	2016	2017
Müstəqil Dövlətlər Birliyi (MDB)	1252,0	1509, 6	838, 0	526,4	663,6	1050,1
Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı	3708,1	3420, 6	2124, 2	2645, 3	2369,9	3202,3
İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)	1001,3	946,0	952 ,3	1794,91	1442,2	1532,1
İslam Konfransı Təşkilatı (İKT)	4013, 9	4562,0	3791, 5	2782, 3	1911,8	2262,4
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT)	12758,0	12674,2	12647, 7	8452, 9	8591,7	9074,9

Mənbə: ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir

Cədvəl məlumtlarından göründüyü kimi İxracda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İslam Konfransı Təşkilatı xüsusi çəkilərinə görə digər ölkə qruplarından fərqlənir. Coğrafi baxımdan Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizinin, Avropa və Asiyanın kəsişməsində yerləşməsi dünya ölkələrinə və dünya iqtisadiyyatına inteqrasiyası, Avropa ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi və beynəlxalq nəqliyyat qovşağına çevrilməsində geniş imkanlar yaratmışdır. Bu cür əlverişli coğrafi mövqenin yarafdığı münbit şərait, Azərbaycanın bir çox strateji əhəmiyyətli layihələrə qoşulmaqla iqtisadi qudrətinin artması ilə nəticələnmişdir. Azərbaycan üçün qloballaşma və regionallaşma milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi üçün böyük potensial imkanların olması ilə inkişaf etmiş ölkələr səviyyəsinə

yüksəlmək üçün geniş şərait yaradır. Bu baxımdan Azərbaycan Respublikası həmin proseslərə uyğunlaşaraq qloballaşmış dünya iqtisadiyyatında özünə layiqli yer tutacaqdır.

Əgər 2018-ci il üzrə büdcə gəlirlərinin qruluşu göstərir ki, burada balanslaşmada qeyri-bərabərlik müşahidə edilir. Aşağıdakı diaqrammada 2018-ci il üzrə dövlət büdcəsinin gəlirlərinin qruluşu göstərilmişdir.



Qrafik 9.3.6 Azərbaycanda daxilolmalarının quruluşu (%- lə)
Mənbə. ARDSK-nin məlumatlarına əsasən tərtib edilmişdir

Qrafikdən göründüyü kimi 2018-ci ildə ƏDV büdcə daxilolmalarının 19,1%-ni təşkil etmişdir ki, bunun da 52,2%-i ARDGK üzrə ƏDV daxilolmalarının payına düşmüşdür. Aksiz vergisi üzrə daxilolmalar 3,2% təşkil etmişdir ki, bunun da 16,6%-ni ARDGK üzrə aksiz daxilolmaları, xarici iqtisadi fəaliyyət üzrə isə 5,1% büdcə daxilolmalarının 85,1%-ni ARDGK –nin xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları təşkil etmişdir. Büdcə daxilolmalarında xarici-iqtisadi əlaqələr üzrə daxilolmalar Azərbaycanda 0,6% təşkil edirsə, Rusiyada bu göstərici federal büdcə üzrə 30-40% arasında dəyişərək 60%-i xammal ixracı üzrə gömrük rüsumlarının üzərinə düşmüşdür [80; 81]. Göründüyü kimi

Azərbaycanla müqayisədə Rusiya Federasiyasında federal büdcə daxilolmalarının tərkibində qeyri-bərabərlik olduqca yüksəkdir. Bu isə milli iqtisadiyatın inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təhlükə altına düşməsinə şəraitin yaranması ilə nəticələnə biləcəyini göstərir.

9.3.1. ARDGK üzrə ƏDV daxilolmalarının büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi

Qeyd etmək lazımdır ki, Azərbaycan Respubliasında gömrük daxilolmalarının büdcə daxilolmalarının həcminin artmasına təsir edərək ölkə üzrə sosial-iqtisadi inkişafın tarazlığında mühüm rol oynayır. Burada ARDGK üzrə daxilolmaların büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə gömrük üzrə ƏDV-nin büdcə üzrə ƏDV-yə təsirinin qiymətləndirilməsi üçün aşağıdakı cədvəl məlumatlarından istifadə edək.

Cədvəl 9.3.1.

Azərbaycan Respublikasında 2007-2017-ci illər üzrə büdcə və gömrük üzrə ƏDV daxilolmaları.

İllər	Büdcə üzrıə ƏDV (Y)	Gömrük üzrə ƏDV (X)
2007	1179,2	535,06
2008	1910,9	775,23
2009	2012,8	832,52
2010	2082,8	810,95
2011	2222,7	835
2012	2366,9	883,37
2013	2710	986,08
2014	3119,6	1070,96
2015	3454,7	1101,16
2016	3623,5	1366,91
2017	3668,6	1915,78

Mənbə. (42), (43) materiallarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatları üzrə 2007-2017-cı illər üzrə Azərbaycan Respublikasında gömrük üzrə ƏDV daxilolmaları ilə büdcə üzrə ƏDV-nin səviyyəsi arasındakı asılılığın reqressiya analizinin aparılması üçün Eviews proqram paketindən istifadə edərək cədvəl 2 məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

Cədvəl 9.3.1.2

Dependent Variable: Y
Method: Least Squares
Date: 05/09/19 Time: 09:52
Sample (adjusted): 2007 2017
Included observations: 11 after adjustments

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X	1.898268	0.361965	5.244336	0.0005
C	659.6547	387.1830	1.703728	0.1226

R-squared	0.753445	Mean dependent var	2577.428
Adjusted R-squared	0.726050	S.D. dependent var	806.1622
S.E. of regression	421.9469	Akaike info criterion	15.09060
Sum squared resid	1602353.	Schwarz criterion	15.16295
Log likelihood	-80.99831	Hannan-Quinn criter.	15.04500
F-statistic	27.50306	Durbin-Watson stat	0.853224
Prob(F-statistic)	0.000532		

Mənbə. EViews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$$\mathbf{Y = 1.89826788996*X + 659.654726436 \qquad (9.3.1.1)}$$

Göründüyü kimi EViews tətbiqi proqram paketinə əsasən alınmış cədvəl (9.3.1.3)-ə uyğun olaraq (9.3.1.1) modeli əhəmiyyətlidir. Bu əhəmiyyətlilik ilk növbədə X asılı dəyişənin C sərbəst dəyişənin əmsallarınnın standart səhvlərinin əmsalların qiyməindən kişik olması ilə izah edilir. (9.3.1.1) modelinə daxil olan sərbəst dəyişənlə asılı dəyişən arasındakı korrelyasiya asılılığını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə

gömrük üzrə ƏDV-nin bir vahid artması, büdcə üzrə ƏDV daxilolmalarını 1,9 vahid artmasına səbəb olmuşdurr.

Əgər $y = \alpha_0 + \alpha_1 x = 1{,}898x + 650{,}65$ cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.


$$E = \frac{\alpha_1 \bar{x}}{\bar{y}} = \frac{1{,}898 \times 1010{,}275}{2577{,}427} = 0{,}74$$

Alınmış hesabat nəticində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə ƏDV-nin 1% artması büdcə üzrə ƏDV-nin 0,74 % artması ilə nəticələnmişdir.

Çoxluq korrelyasiya əmsalının R=0,72 olması gömrük üzrə ƏDV ilə büdcə üzrə ƏDV daxilolmaları arasında əlaqənin yüksək olmasını göstərir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (75,3%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Qurulmuş **(9.3.1.1)** modelinin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir.

Qrafik 9.3.1.2



Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.


F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edilməlidir. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən, **F- statistic (Fişer kriteriyası) = 27.5**

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпoбp düsturunun köməkliyi ilə təyin etsək, $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпoбp(0,05; 1; 9) =5,12 olar.

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (27.5>5,12). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşımaqla, (**(9.3.1.1)** modelinin adekvatlığı deməkdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış büdcə üzrə ƏDV daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir. göstərilmişdir.

Qrafik 9.3.1.3



Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən istifadə edərək Azərbaycanda büdcə üzrə ƏDV daxilolmalarının proqnoz qiymətlərini də müəyyən etmək olar.

9.4. ARDGK üzrə gömrük rüsumlarının büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi

Büdcə daxilolmalarında gömrük rüsumlarının payı son dövrlərdə, xüsusən də 2013-cü ildən başlayaraq artmaqda davam etmiş və 2017-ci ildə 17,2% təşkil edərək büdcə xərclərinin normal tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir [6]. Büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdə gömrük rüsumlarının payı 2007-ci ildə 54,7% təşkil edirdisə 2017-ci ildə bu göstərici 30,4 vahid artaraq 85,1%-ə çatmışdır. Bu baxımdsan ARDGK üzrə büdcə daxilolmalarında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərə gömrük rüsumlarının təsirinin qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı cədvəl məlumatlarından istifadə edərək ARDGK üzrə gömrük rüsumlarının büdcə üzrə xarici iqtisadi fəaliyyətə təsirini qiymətləndirmək olar.

Cədvəl 9.4.1

Azərbaycan Respublikasında 2007-2017-ci illər üzrə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergilər və gömrük rüsumları üzrə daxilolmalar.

İllər	Büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	Gömrük rüsumu üzrə
2007	293,2	160,28
2008	449,7	238,64
2009	418,1	205,68
2010	291,8	218,25
2011	433,1	231,58
2012	592,5	230,62
2013	675,2	298,25
2014	684,7	365,89
2015	934,5	387,38
2016	861,2	546,64
2017	903	768,27

Mənbə. (69), (81) materiallarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Eviews proqram paketindən istifadə edərək cədvəl 4 məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

Cədvəl 9.4.2

Dependent Variable: Y
Method: Least Squares
Date: 05/09/19 Time: 11:52
Sample (adjusted): 2007 2017
Included observations: 11 after adjustments

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X	1.061240	0.250765	4.232005	0.0022
C	241.9912	93.86849	2.577981	0.0298

R-squared	0.665550	Mean dependent var	594.2727
Adjusted R-squared	0.628389	S.D. dependent var	236.0288
S.E. of regression	143.8829	Akaike info criterion	12.93884
Sum squared resid	186320.6	Schwarz criterion	13.01119
Log likelihood	-69.16363	Hannan-Quinn criter.	12.89324
F-statistic	17.90987	Durbin-Watson stat	1.172371
Prob(F-statistic)	0.002200		

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Y = 1.06123998885*X + 241.991218682 (9. 4.1)

(9.8.1) modelinə daxil olan göstəricilər arasındakı korrelyasiya asılılığına əsasən belə nəticəyə gəlmək olar ki, gömrük rüsumlarının bir vahid artması, büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarının 1,1 vahid artmasına səbəb olmuşdur.

Evievs proqram paketinin nəticəsinə əsasən göründyü kimi verilmiş halda $\alpha = 0{,}05$ olduqda, Styudent paylanmasının böhran

nöqtəsini hesablayaq. Bunun üçün β_1əmsalı üçün inamlı intervalı təyin edək. $\beta_1$parametrlərinin naməllum qiymətlərini (1-α) etibarlığı ilə özünə daxil edən inamlı interval açağıdakı bərabərsiliklə təyin edilir. [28]:

$$\boldsymbol{b_j - t_{\frac{\alpha}{2},\ n-m-1} S_{b_j} < \beta_j < b_j + t_{\frac{\alpha}{2},\ n-m-1} S_{b_j}} \qquad \textbf{(7.8.3)}$$

Bu düstura əsasən $t_{0,025;9} = 2{,}262$, $t_{0,005;9} = 3{,}250$ [18, səh.406] olduğundan 95%-lik inamlı interval hesablayaq. Bu məqsədlə (7.8.3) düsturundakı S_{b_j}-ni hesablayaq. Əvvəlcə S_{b_1} –i müəyyən edək.

$$\boldsymbol{S_{b_j} = \sqrt{\frac{S^2}{n(\sum x^2 - \sum \bar{x}^2)}},} \qquad \textbf{(9.8.4)}$$

Burada, $S^2 = \frac{\sum \varepsilon_1^2}{n-m-1}$ düsturına əsasən təyin edilir [28]. Bu düsturda $\sum \varepsilon_1^2$ aşağıdakı kimi hesablanır [28].

$$\boldsymbol{\sum \varepsilon_1^2 = (1 - R^2) * n(\sum y^2 - \sum \bar{y}^2)} \textbf{ (9.8.5)}$$

Yuxarıdakılara əsasən, cədvəl 7.1.3 formuluna əsasən uyğun hesablama aparsaq, nəticədə $S_{b_0} = 0{,}005977$, $S_{b_1} = 1{,}92$ alınacaqdır. Müvafiq olaraq, 90%-lik inamlı intervallar:

$$\textbf{241,991-2,262*1,92} < \boldsymbol{\beta_0} < \textbf{241,991} + \textbf{2,2262} * \textbf{1,92} \qquad \textbf{237,648} < \boldsymbol{\beta_0} < \textbf{246,334}$$

$$\textbf{1,061-2,262*0,005977} < \boldsymbol{\beta_1} < \textbf{1,061} + \textbf{2,262} * \textbf{0,00597} \Rightarrow \textbf{1,04748} < \boldsymbol{\beta_0} < \textbf{1,07452}$$

99%-lik inamlı intervallar:

$$\textbf{241,991-3,25*1,92} < \boldsymbol{\beta_0} < \textbf{241,991} + \textbf{3,25} * \textbf{1,92} \Rightarrow \textbf{-235,751} < \boldsymbol{\beta_0} < \textbf{243,68}$$

$$\textbf{1,061-3,25*0,005977} < \boldsymbol{\beta_1} < \textbf{1,061} + \textbf{3,25} * \textbf{0,00597} \Rightarrow \textbf{1,042} < \boldsymbol{\beta_0} < \textbf{1,08}$$

Alınmış reqressiya tənliyinin F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edilməlidir [28]. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 17.91

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр düsturunun köməkliyi ilə təyin etsək,

$F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр(0,05; 1; 9) =5,12

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (17.91>5,12). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş modelin adekvatlığı deməkdir.

Darbon-Uotson statistikası DW=1,174 oduğundan, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsinə bir izahedici dəyişən (m=1) və n=11 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır [28].

$$\boldsymbol{d_l = 0.879}, \qquad \boldsymbol{d_u = 1.32}$$

$d_l = 0.927 < \text{DW} = 1{,}174 < d_u = 1.324$ olduğundan qalıqların avtokorrelasiyası müsbətdir. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuş **Y = 1.0612*X + 241.991** modeli adekvatdır. Bu modelə əsasən Azərbaycan Respublikasında ÜDM-in bir vahid artması tikinti təşkilatları üzrə vergi daxilolmalarının 0,0174 vahid artmasına səbəb olması müəyyən edilir. Əlaqə tənliyindəki sərbəst dəyişənin əmsalına və tədqiq olunan dövrlər üzrə tikinti təşkilatları üzrə vergi daxilolmaları ilə ÜDM-in həcminin hesabi orta qiymətlərinə

müvafiq olaraq elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$E_{VD} = \frac{\alpha \times \bar{X}}{\bar{Y}} = \frac{52957{,}0 \times \ 0{,}0174}{598{,}357} = 1{,}54$$

$y = 241{,}99 + 1{,}061x$ cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$\boldsymbol{E = \frac{\alpha_1 \bar{x}}{\bar{y}} = \frac{1{,}061 * 331{,}95}{594{,}27} = 0{,}593}$$


Alınmış hesabata əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda gömrük rüsumlarının 1% artması büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxil olmalarını 0,59% artırır.

Çoxluq korrelyasiya əmsalı 0,62 olduğundan, Çeddok şkalasına əsasən tədqiq olunan göstəricilər arasında əlaqə yüksəkdir. Eviews tətbiqi proqram paketinin nəticəsinə görə determinasiya əmsalının R^2=0,6655 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 66,6% dispersiya nəticə göstəricisi ilə 33,4%-i isə modelə daxil olmayan digər amillərin təsiri nəticəsində izah edilir. Bu isə reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarının 66,6%-nin modelə daxil olan gömrük rüsumları amili hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlasaq, F-Fişer kriteriyası $> F_{cədvəl}$ (17.91>5,12) alarıq. Bu isə reqressiya tənliyinin bütövlükdə statistik əhəmiyyətli xarakter daşıması olmaqla, qurulmuş (1) modelin adekvatlığı deməkdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.

Qrafik 9.4.4



Forecast: YF
Actual: Y
Forecast sample: 2000 2017
Adjusted sample: 2007 2017
Included observations: 11

Root Mean Squared Error	130.1470
Mean Absolute Error	108.6126
Mean Abs. Percent Error	20.95518
Theil Inequality Coefficient	0.103501
Bias Proportion	0.000000
Variance Proportion	0.101435
Covariance Proportion	0.898565


Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən istifadə edərək Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətlərini də müəyyən etmək olar. MS Excel proqramına əsasən ARDSK-nin məlumatlarından istifadə edərək büdcə üzrə xarici iqtisadi fəlayyətlə bağlı vergi daxilolmalarının proqnozlaşdırsaq qrafik 7.8.5-də təsvir edilmiş aşağıdakı nəticəni alarıq.

Qrafikdən göründüyü kimi Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətlərinin 2025-ci ildə 2018-ci illə müqayisədə 39,5% və yaxud 395,5 mln.manat artacağı gözlənilir.

Qrafik 9.4.6

Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətləri.



Mənbə. MS Excel proqramına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin təhlili göstərir ki, Azərbaycan Respublikasının ixrac və idxalında Avropa və Asiya ölkələri əsas yer tutaraq, iqtisadi əlaqələr əsasən getdikcə daha çox Avropaya meylliliklə müşahidə edilir. İxracın 60 %-i Avropanın payına düşür. ARDGK üzrə ƏDV daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalarının 52,2%-ni, aksiz daxilolmaları aksiz vergisi üzrə daxilolmaların 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları isə xarici iqtisadi fəaliyyət üzrə büdcə daxilolmalarının 85,1%-ni təşkil etmişdir. Bu isə büdcə daxilolmalarının tərkibində MDB ölkələri ilə o cümlədən, Rusiya ilə müqayisədə qeyri-bərabərliyin yüksək olmaması hesabına, Azərbaycan milli iqtisadiyatının inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

Həmçinin, tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə ƏDV-nin 1% artması büdcə üzrə ƏDV-nin 0,74 %, gömrük rüsumlarının 1% artması isə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarını 0,59% artırır. Eviews tətbiqi proqram paketinə əsasən gömrük üzrə ƏDV ilə büdcə üzrə ƏDV arasında, eyni zamanda gömrük rüsumları ilə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmaları arasında yüksək korelyasiya əlaqəsinin olduğu müəyən edilərək, reqresiya tənlikləri qurulmuş və reqressiya tənliyinə əsasən xarici iqtisadi fəaliyətlə bağlı büdcə üzrə vergi daxilolmalarının və ƏDV daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları qrafiki olaraq müəyyən edillmişdir. Tədqiqat nəticəsində qurulmuş modellərin adekvatlığının yüksək olması müəyyən edilərək, Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının 2025-ci ilədək proqnoz qiymətləri hesablanmışdır.

9.5.Xarici ticarət əməliyyatları üzrə büdcə daxilolmalarının makroiqtisadi göstəricilərə təsiri

Makroiqtisadi proseslərin modelləşdirilməsi və onların müxtəlif ssenarilər əsasında proqnozlaşdırılması ölkənin ixrac-idxal əməliyyatlarının, bu əməliyyatlar üzrə büdcə daxilolmalarının təhlilinin və onun inkişaf əlamətlərinin müəyyən edilməsinin səmərəli vasitələrindən birdir.

Ekonometrik modellər böyük sayda tədqiqat ftələrinin - iqtisadi dəyişənlər arasında səbəb-nəticə əlaqələrinin təhlilinin, adi dəyişənlərin proqnozlaşdırılmasının, modellərlə imitasiya eksperimentlərinin əsasında iqtisadi siyasətin ssenarilərinin qurulmasının və seçilməsinin həyata keçirilməsinə imkan yaradır. Makroiqtisadi proseslərin modelləşdirilməsi və proqnozlaşdırılması şübhəsiz ki, ölkənin ixrac və idxal potensialının təhlilinin səmərəli vasitələrindən birdir. Qeyd etmək lazımdır ki, xarici ticarət əməliyyatlarında gömrük üzrə büdcə daxilolmaları dövlət büdcəsinin gəlirini artırmaqla bərabər ölkə üzrəÜDM-in həcminə də əsaslı şəkildə təsir edir. Bu göstəricilər arasında sıx korrelyasiya əlaqəsi mövcuddur. Aşğıdakı cədvəl məlumatlarında gömrük üzrə büdcə daxilolmaları və ÜDM-in 2010-2019-cu illər üzrə dinamikası verilmişdir.

Cədvəl 9.5.1

Azərbaycan Respublikasında büdcə üzrə gömrük daxilolmaları və ÜDM-in 2010-2019-cu illər üzrə dinamikası, mlrd. manatla

İllər	Gömrük rüsumu üzrə	ƏDV üzrə	Aksizlər üzrə	Yol vergisi üzrə	Gömrük üzrə ümumi daxilolmalar	ÜDM
2010	0,1916	0,74627	0,05582	0,00881	1,0025	42,46
2011	0,23158	0,835	0,06276	0,0122	1,14154	52,1
2012	0,23062	0,88337	0,07685	0,01751	1,20835	58,2

2013	0,29825	0,98609	0,08134	0,01758	1,38326	46,31
2014	0,3659	1,07096	0,05704	0,01688	1,51078	59,01
2015	0,38738	1,10116	0,08359	0,01978	1,59191	54,4
2016	0,60021	1,51532	0,09289	0,08324	2,29166	60,4
2017	0,70687	1,77319	0,09392	0,03479	2,60877	70,4
2018	0,82745	2,22378	0,16533	0,03652	3,25308	79,8
2019	1,10949	3,00408	0,24963	0,04543	4,40863	81,6

Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi büdcə üzrə gömrük daxilolmalarının həcmi son dövrlərdə, xüsusən də 2016-cı ildən başlayaraq artmaqda davam etmişdir. Bu artım gömrük üzrə büdcə daxilolmalarının bütün növlərində müşahidə edilmişdir. Gömrük üzrə büdcə daxilolmalarına son dövrlərdə gömrük sistemiondə aparılmış islahatlar hesabına ixrac və idxal əməliyyatlarının həcminin artması da müsbət təsir etmişdir. Aşağıdakı cədvəl məlumatlarından bunları daha aydın görmək olar.

Cədvəl 9.5.2


Azərbaycan Respublikasında 2011-2019-cu illər üzrə ixrac, idxal, ticarət dövriyyəsi və xarici ticarət dövriyyəsinin orta həcmi, mlrd. ABŞ Dolları ilə

İllər	Ölkələrin sayı	İxrac	İdxal	Ticarət dövriyyəsi	Xarici ticarət dövriyyəsinin orta hıcmi, Mlrd.ABŞ Dolları
2011	149	26,57	9,76	36,33	0,243826
2012	155	23,91	9,65	33,56	0,216516
2013	149	24	10,7	34,7	0,232886

2014	150	21,83	9,19	31,02	0,2068
2015	165	11,42	9,22	20,64	0,125091
2016	186	9,14	8,53	17,67	0,095
2017	187	13,81	8,78	22,59	0,120802
2018	185	19,46	11,46	30,92	0,167135
2019	195	19,64	13,66	33,3	0,170769

Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi Azərbaycan Respublikasında 2011-2019-cu illər üzrə xarici ticarət əməliyyatlarında iştirak edən ölkələrin sayı artmış və bütün tədqiq olunan dövr üzrə müsbət ticarət saldosu yaranmışdır. Ticarət dövriyyəsinin 2015-ci ildən etibarən ABŞ Dolları ilə həcminin 2011-ci illə müqayisədə azalması dünya bazarında neftin qiymətinin kəsgin ucuzlaşması ilə əlaqədar olaraq manatın məzənnəsinin ABŞ Dolları qarşısında ucuzlaşması ilə izah edilir. Aşağdakı qrafikdə xarici ticarət dövriyyəsi və xarici ticarət dövriyyəsinin orta həcmi təsvir edilmişdir.



Qrafik.9.5.7 Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsi və xarici ticarət dövriyyəsinin orta həcmi
Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi ticarət dövriyyəsinin həcminin artması bütün dövrlərdə respublika üzrə xarici ticarət dövriyyəsinin

orta həcmini də artşrmışdır.2019-cü ildə ticarət dövriyyəsinin həcmi 2014-cü illə müqayisədə 7,3% və yaxud 2,28 mlrd. ABŞ Dolları məbləğində artsa da xarici ticarət dövriyyəsinin orta həcmi 36,031 mln. ABŞ Dolları məbləğində azalmışdır. Xarici ticarət dövriyyəsinin orta həcminin azalması isə Azərbaycan Respublikasının 2014-cü illə müqayisədə ticarət əməliyyatları aparılan dünya ölkələrinin sayının 150-dən 195-ə çatması ilə izah edilir.

Cədvəl 9.5.4 məlumatları üzrə Azərbaycan Respublikasında büdcə üzrə gömrük daxilolmaları və ÜDM-in 2010-2019-cu illər üzrə dinamikasına əsasən ÜDM-lə gömrük üzrə büdcə daxilolmalarının arasındakı asılılığı reqressiya analizinin aparılması üçün hazır riyazi proqram paketlərindən EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar [28]. Bu məqsədlə EViews proqram paketindən istifadə edərək cədvəl 9.5.4 məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

Cədvəl 9.5.5

Dependent Variable: Y

Method: Least Squares

Date: 02/09/20 Time: 16:22

Sample: 2010 2019

Included observations: 10

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X	10.94704	1.666150	6.570262	0.0002
C	38.13275	3.821082	9.979569	0.0000

R-squared	0.843653	Mean dependent var	60.46800
Adjusted R-squared	0.824110	S.D. dependent var	13.15627
S.E. of regression	5.517641	Akaike info criterion	6.430634
Sum squared resid	243.5549	Schwarz criterion	6.491151
Log likelihood	-30.15317	Hannan-Quinn criter.	6.364247

F-statistic	43.16835	Durbin-Watson stat	2.514257
Prob(F-statistic)	0.000175		

Mənbə. EViews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Estimation Command:
==========
LS Y X C

Estimation Equation:
==========
Y = C(1)*X + C(2)

Substituted Coefficients:
==========

Y = 10.9470424564*X + 38.1327492762 (9.5.1)

(9.5.1) modelinə daxil olan göstəricilər arasındakı korrelyasiya asılılığına əsasən belə nəticəyə gəlmək olar ki, gömrük üzrə büdcə daxilolmalarının vahid artması ƏDV-nin 10,95 vahid artmasına səbəb olmuşdur.

Alınmış reqressiya tənliyinin F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edilməlidir[18]. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 17.91

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр düsturunun köməkliyi ilə təyin etsək,

$F_{cədvəl}$ (a; m; n − m − 1) = Fpacпобр(0,05; 1; 8) =5,32

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (43.17>5,32). Müşahidə qiyməti F=43.17>5,32 olduğundan, determinasiya əmsalı

statistik əhəmiyyətlidir. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır və qurulmuş model adekvatdır. Bununla bərabər Darbon-Uotson statistikası əsasında birinci tərtibdən avtokorrelyasiya haqqında hipotez yoxlanılmalıdır.

Darbon-Uotson statistikası DW=2,514 oduğundan, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsinə bir izahedici dəyişən (m=1) və n=10 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır/

$$d_l = 0.879, \qquad d_u = 1.320$$

$\mathrm{DW} = 2{,}514;\ d_u = 1.320 < 2{,}514 < 4 - 1{,}320 = 2{,}68 = 4 - d_u$ alınacaqdır. Bu isə onu göstərir ki, qalıqların avtokorrelyasiyası yoxdur.

Bu modelə əsasən Azərbaycan Respublikasında gömrük üzrə büdcə daxilolmalarının bir vahid artması hesabına ÜDM-in 10,9 vahid artmasına səbəb olması müəyyən edilir. Əlaqə tənliyindəki sərbəst dəyişənin əmsalına və tədqiq olunan dövrlər üzrə gömrük üzrə vergi daxilolmaları ilə ÜDM-in həcminin hesabi orta qiymətlərinə müvafiq olaraq $y = 38{,}1327 + 10{,}947x$ cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$E = \frac{\alpha \times \bar{X}}{\bar{Y}} = \frac{0{,}157883 \times\ 10{,}947}{26{,}073} = 0{,}0663$$


Alınmış hesabata əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda gömrük üzrə büdcə daxilolmalarının 1% artması ÜDM-in 0,07% artması ilə nəticələnir.

Çoxluq korrelyasiya əmsalı 0,82 olduğundan, Çeddok şkalasına əsasən tədqiq olunan göstəricilər arasında əlaqə yüksəkdir. Eviews tətbiqi proqram paketinin nəticəsinə görə determinasiya əmsalının R^2=0,8436 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 84,4%

dispersiya nəticə göstəricisi ilə 16,6%-i isə modelə daxil olmayan digər amillərin təsiri nəticəsində izah edilir.

2010-2019-cu illərdə ÜDM-in faktiki, hesabi və reqresiya qalığı Eviews proqram paketinə əsasən aşağıdakı kimi olacaqdır.


Qrafik.9.5.8



Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ÜDM-in illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.

Qrafik.9.5.9




Forecast: YF	
Actual: Y	
Forecast sample: 2010 2019	
Included observations: 10	
Root Mean Squared Error	4.935128
Mean Absolute Error	4.488200
Mean Abs. Percent Error	7.826042
Theil Inequality Coefficient	0.040029
Bias Proportion	0.000000
Variance Proportion	0.042478
Covariance Proportion	0.957522

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən istifadə edərək Azərbaycan Respublikasında gömrük üzrə büdcə daxilolmalarının və ÜDM-in proqnoz qiymətlərini də müəyyən etmək olar. MS Excel proqramına əsasən ARDSK-nin məlumatlarından istifadə edərək gömrük üzrə büdcə


daxilolmalarını və ÜDM-i 2025-ci ilədək proqnozlaşdırsaq qrafik aşağıdakı nəticəni alarıq.



Qrafik 9.5.10 Azərbaycan Respublikasında gömrük üzrə büdcə daxilolmalarının proqnoz qiymətləri.

Mənbə. MS Excel proqramına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən göründüyü kimi Azərbaycan Respublikasında gömrük üzrə büdcə daxilolmalarının proqnoz qiymətlərinin 2025-ci ildə 2019-ci illə müqayisədə 2,4 dəfə artaraq 10,5 mlrd. manata çatacağı gözlənilir.



Qrafik 9.5.11 Azərbaycan Respublikasında ÜDM-in proqnoz qiymətləri.

Mənbə. MS Excel proqramına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qurulmuş qrafikə əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında ÜDM-in 2025-ci ilədək həcmi proqnozlara görə artaraq artaraq 101,13 mlrd. manat olacaqdır ki, bu da 2019-cu illə müqayisədə 23,9% vəyaxud 19,53 mlrd. manat artım deməkdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin təhlili göstərir ki, Azərbaycan Respublikasının ixrac və idxalında Avropa və Asiya ölkələri əsas yer tutaraq, iqtisadi əlaqələr əsasən getdikcə daha çox Avropaya meylliliklə müşahidə edilir. İxracın 60 %-i Avropanın payına düşür. ARDGK

üzrə ƏDV daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalarının 52,2%-ni, aksiz daxilolmaları aksiz vergisi üzrə daxilolmaların 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları isə xarici iqtisadi fəaliyyət üzrə büdcə daxilolmalarının 85,1%-ni təşkil etmişdir. Bu isə büdcə daxilolmalarının tərkibində MDB ölkələri ilə o cümlədən, Rusiya ilə müqayisədə qeyri-bərabərliyin yüksək olmaması hesabına, Azərbaycan milli iqtisadiyatının inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir. Həmçinin, tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə daxilolmaların 1% artması ÜDM-i 0,07 % artırır.

EViews tətbiqi proqram paketinə əsasən gömrük üzrə büdcə daxilolmaları ÜDM arasında yüksək korelyasiya əlaqəsinin olduğu müəyən edilərək, reqresiya tənlikləri qurulmuş və reqressiya tənliyinə əsasən xarici iqtisadi fəaliyətlə bağlı gömrük üzrə büdcə daxilolmalarının və ƏDV daxilolmalarının qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları qrafiki olaraq müəyyən edillmişdir. Tədqiqat nəticəsində qurulmuş modellərin adekvatlığının yüksək olması müəyyən edilərək, Azərbaycan Respublikasında gömrük üzrə vergi daxilolmalarının və ÜDM-in 2025-ci ilədək proqnoz qiymətləri hesablanmışdır.

IX FƏSİL

GÖMRÜK STATİSTİKASINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÜNYA ÖLKƏLƏRİ İLƏ ASSOSİATİV FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin 2010-2016-cı illərin məlumatlarına əsasən Azərbaycan Respublikasının xarici ticarət üzrə idxal və ixracında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığını təhlil etməklə Azərbaycan Respublikasınlın dünya ölkələri ilə assosiativ fəaliyyəti qiymətləndirmək olar

Azərbaycan Respublikasınlın dünya ölkələri ilə assosiativ fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə iqtisadiyyatın idarəedilməsinin assosiativ optimallaşdırılması metodu xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə müxtəlif təbiətli, yəni müxtəlif ölçü vahidləri ilə ifadə edilən göstəricilərin təhlili və qiymətləndirilməsinin aparılması daha optimal nəticələrin alınmasına imkan yaradır.Entropiyanın assiativ optimallaşdırılma metodüna uyğun olaraq Azərbaycan Respublikasınlın idxal-ixrac əməliyyatlarının qiymətləndirilmək daha məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, ehtropiyanın həcminin artımı əsasən tənəzzülü, azalması isə tərqqini ifadə etsə də, iqtisadi hadisələrinin hər birin özünə məxsus xüsusiyyətləri olduğuna görə,bir halda entropiyanın artması, digər halda isə azalması tərəqqinin müəyyən edir [28]. Azərbaycanın xarici ticarət fəaliyyətində entropiya üzrə artımlar Azərbaycan üzrə müsbət hal kimi qiymətləndirilir, tərəfdaş ölkələr üçün isə əksinə mənfi hal kimi qiymətləndirilir. İstər idarəetmə, istərsə də tədqiqat prosselərinə nəzərən entropiyanın artımı problemin mürəkkəbləşməsini göstərir.

9.1. Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığının müəyyən edilməsi

Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin (ARDGK) 1996-2016-cı illər üzrə məlumatlarına əsasən respublika idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərini əks etdirən struktur cədvəli tərtib edərək hesabladığmız entropiya,informasiyanın miqdarı və onun faydalılığı aşağıdakı cədvəl əsasında təyin edilmişdir.

Cədvəl 9.1.1

Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlarının xüsusi çəkiləri.

Dövlət-lər	1996	1997	1998	1999	2000	2012	2013	2014	2015	2016
Rusiya	0,165	0,191	0,18	0,219	0,213	0,143	0,014	0,143	0,156	0,192
Türkiyə	0,225	0,226	0,204	0,138	0,11	0,158	0,014	0,14	0,127	0,138
Çin	0,003	0,022	0,018	0,013	0,02	0.065	0.053	0,076	0,055	0,082
Böyük Britaniya	0,015	0,018	0,064	0,065	0,05	0,051	0,012	0,106	0,06	0,058
ABŞ	0,018	0,028	0,037	0,008	0,089	0,074	0,035	0,061	0,092	0,053
Almaniya	0,08	0,049	0,043	0,045	0,058	0.081	0,077	0,077	0,075	0,045
İtaliya	0,003	0,108	0,086	0,037	0,031	0,027	0,023	0,022	0.064	0,039
Ukrayna	0,003	0,005	0,008	0,008	0,024	0.056	0,055	0,046	0.034	0,034
Yaponiya	0,003	0,001	0,000	0,054	0,014	0.025	0,027	0,026	0.060	0,031
Norveç	0.008	0,000	0,000	0,004	0.005	0,000	0,000	0.024	0.016	0,032
Sinqapur	0,000	0,000	0,000	0,04	0,011	0,011	0,000	0,003	0.011	0,024
Brazilya	0,000	0,000	0,000	0,001	0,004	0.019	0,035	0,000	0.013	0,019
İran	0,016	0,004	0,012	0,003	0,048	0,018	0,019	0,016	0.064	0,019
Fransa	0.013	0,022	0,018	0,024	0,016	0,019	0,040	0,017	0,023	0,018
Çexiya	0,003	0,002	0,002	0,002	0,003	0,021	0,001	0,000	0.001	0,012
Koreya Res.	0,006	0,004	0,005	0,014	0,004	0,025	0,021	0,020	0,014	0,000
Avstriya	0,003	0,007	0,003	0,002	0,007	0,001	0,017	0.016	0,013	0,000
Qazaxıstan	0,02	0,037	0,041	0,024	0,049	0,035	0.029	0,021	0,003	0,001
Niderland	0,008	0,008	0,015	0,015	0,001	0,015	0,017	0,021	0,001	0,004
Digər dövlətlər	0,408	0,268	0,264	0,284	0,243	0,156	0,511	0,165	0,118	0,199
Cəmi	1	1	1	1	1	1	1	1	1	1

Mənbə: ARDGK-nin 1996-2016-cı illər üzrə məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarına əsasən Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin 1996-2016-cı illər üzrə məlumatlarına əsasən respublika idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərini əks etdirən struktura əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığını hesablamaq üçün aşağıdakı düsturlardan istifadə edilir [30; 31].

$$\boldsymbol{H = -\sum_{i=1}^{m} p_i \times \log p_i} \qquad (\mathbf{9.1.1})$$

burada, H- entropiya, p_i- idxal və ixrac əməliyyatları üzrə əsas tərəfdaş ölkələrin xüsusi çəkisi, i −ölkəni göstərir.

Qeyd etmək lazımdır ki, xarici ticarətdə əsas tərəfdaş ölkələrin optimal sayı informasiyanın miqdarına əsasən müəyyən edilərək aşağıdakı düsturla hesablanır.

$$\text{İ} = \boldsymbol{n \times H} \qquad \mathbf{(9.1.2)}$$

Ölkənin müstəqil iqtisadi idxal və ixrac siyasəti üzrə potensial imkan kenişliyini müəyyən edən informasiyanın faydalılığı isə $\text{İ} = H_0 - H_1$ düsturuna əsasən hesablanır [31].

1996-cı il üzrə Rusiya üçün entropiya, yüxarıda göstərilmiş düstura əsasən, $H = -0{,}165 \log 0{,}165 = -0{,}165 \times (0{,}78252) = 0{,}129158$ olacaqdır.

Həmin düsturlardan (1 düsturundan) istifadə edərək cədvəl 1-də göstərilən məlumatların entropiyasının hesablasaq, aşağıdakı cədvəli alarıq.

Cədvəl 9.1.2.

Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən hesablanmış entropiya, informasiyanın miqdarı və onun faydalılığı.

Dövlətlər	1996	1997	1998	1999	2000	2012	2013	2014	2015	2016
Rusiya	0,129	0,191	0,18	0,219	0,213	0,143	0,014	0,143	0,156	0,192
Türkiyə	0,225	0,226	0,204	0,138	0,11	0,158	0,014	0,14	0,127	0,138
Çin	0,003	0,022	0,018	0,013	0,02	0.065	0.053	0,076	0,055	0,082
Böyük Britaniya	0,015	0,018	0,064	0,065	0,05	0,051	0,012	0,106	0,06	0,058
ABŞ	0,018	0,028	0,037	0,008	0,089	0,074	0,035	0,061	0,092	0,053
Almaniya	0,08	0,049	0,043	0,045	0,058	0.081	0,077	0,077	0,075	0,045
İtaliya	0,003	0,108	0,086	0,037	0,031	0,027	0,023	0,022	0.064	0,039
Ukrayna	0,003	0,005	0,008	0,008	0,024	0.056	0,055	0,046	0.034	0,034
Yaponiya	0,003	0,001	0,000	0,054	0,014	0.025	0,027	0,026	0.060	0,031
Norveç	0.008	0,000	0,000	0,004	0.005	0,000	0,000	0.024	0.016	0,032
Sinqapur	0,000	0,000	0,000	0,04	0,011	0,011	0,000	0,003	0.011	0,024
Brazilya	0,000	0,000	0,000	0,001	0,004	0.019	0,035	0,000	0.013	0,019
İran	0,016	0,004	0,012	0,003	0,048	0,018	0,019	0,016	0.064	0,019
Fransa	0.013	0,022	0,018	0,024	0,016	0,019	0,040	0,017	0,023	0,018
Çexiya	0,003	0,002	0,002	0,002	0,003	0,021	0,001	0,000	0.001	0,012
Koreya Res.	0,006	0,004	0,005	0,014	0,004	0,025	0,021	0,020	0,014	0,000
Avstriya	0,003	0,007	0,003	0,002	0,007	0,001	0,017	0.016	0,013	0,000
Qazaxıstan	0,02	0,037	0,041	0,024	0,049	0,035	0.029	0,021	0,003	0,001
Niderland	0,008	0,008	0,015	0,015	0,001	0,015	0,017	0,021	0,001	0,004
Digər dövlətlər	0,444	0,268	0,264	0,284	0,243	0,156	0,511	0,165	0,118	0,199
Cəmi	1	1	1	1	1	1	1	1	1	1
Entropiya	0,734	0,751	0,788	0,800	0,820	0,844	0,316	0,904	0,955	0,8673
İnformasi-yanın miqdarı	3,668	3,752	3,9395	4,800	4,922	4.220	1,894	5,426	4,776	4,336
İnformasiyanın faydalılığı		-2%	-4%	-1%	-2%	-1%	-2%	-3%	-3%	-2%


Mənbə: Cədvəl 1 məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

ARDGK-nin məlumatlarına əsasən tərtib edilmiş cədvəl-ə əsasən tərtib edilmiş Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən hesablanmış entropiya, informasiyanın miqdarı və onun faydalılığına əsaslanaraq aşağıdakı

diaqrammanı qurmaqla, respublika iqtisadiyyatında idxal siyasəti üzrə dövlət müdaxiləsinin nəticələrini müəyyən etmək olar [31].

Diaqramma1

Azərbaycan respublikasının idxalında əsas tərəfdaşların xüsusi çəkiləri üzrə entropiya,informasiyanın miqdarı və faydalılığı



Mənbə: Cədvəl 9.1.1 məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 9.1.2-dən göründüyü kimi, Azərbaycanın idxalında onun əsas tərəfdaşlarının xüsusi çəkiləri 1996-2016-ci illər üzrə daima bərabərləşməyə meylli olmuşdur. Bu isə o deməkdir ki, respublika iqtisadiyyatında idxal siyasəti üzrə dövlət müdaxiləsi idxalın balanslaşdırılmasına yönəldilmişdir.

İdxalın balanslaşdırılması xarici ölkələrin Azərbaycanın xarici siyasətinə ciddi təsir etmə dərəcəsinin azalmasına imkan verən ən mühüm göstəricidir. Belə ki, hesablanmış informasiyanın miqdarı onu deməyə əsas verir ki,1996-1997-ci illərdə əsas ölkələrin sayı 4-ə yaxın,1998-ci ildə 4,1999-cü ildə 5-ə yaxın, 2000-ci ildə 5,2012-ci ildə 4-ü keçmiş, 2013-cü ildə 2, 2014-cü ildə artaraq 5-i keçmiş, 2015-ci ildə 5-ə yaxınlaşmış, 2016-cı ildə isə 4-ü keçmişdir.

1996-2016-cı illər üzr dövrlərdə informasiyanın faydalılığı müvafiq olaraq aşağı düşmüşdür. Bu odeməkdir ki, 1997-ci ildə Azərbaycan əsas ölkələrdən asılılığını 2%,1998-ci ildə 4%,1999-cu ildə 1%, 2000-ci ildə 2%, 2012-ci ildə 1%, 2013-cü ildə 2% , 2014 və 2015-cü illərdə 3%, 2016-cı ildə isə 2% azaltmaqla son 15 il ərzində

müstəqil iqtisadi idxal siyasəti üzrə 20-ə %-ə qədər potensial imkan genişliyi əldə etmişdir.

9.2. Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlarının xüsusi şəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığının müəyyən edilməsi

Azərbaycan respublikasının idxal siyasətində olduğu kimi ixrac siyasətinin son 15 ildə təhlili və qiymətləndirilməsini də eyni metoda əsasən apamaq olar. Bu məqsədlə ARDGK-nin 1996-2016-cı illər üzrə məlumatlarına əsasən respublika ixracında əsas tərəfdaşlarının xüsusi şəkilərini əks etdirən struktur cədvəli tərtib edərək entropiya, informasiyanın miqdarı və onun faydalılığını hesablayaq [81]. Aşağıdakı cədvəldə 1996-2016-cı illər üzrə ARDGK-nin ninməlumatlarına əsasən Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlarının xüsusi şəkilərini əks etdirən cədvəl tərtib edilmişdir.

Cədvəl 9.2.1

Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlarının xüsusi şəkiləri.

Dövlətlər	1996	1997	1998	1999	2000	2012	2013	2014	2015	2016
İtaliya	0,016	0,042	0,074	0,337	0,437	0,232	0,250	0,22	0,197	0,171
Hindistan	0,000	0,00	0,000	0,000	0,000	0,079	0,04	0,003	0,024	0,048
Fransa	0,001	0,000	0,019	0,063	0,118	0.074	0.047	0,069	0,076	0,054
İndoneziya	0,000	0,000	0,000	0,000	0,000	0,073	0,000	0,092	0,042	0,000
İsrail	0,000	0,003	0,001	0,061	0,077	0,070	0,053	0,081	0,072	0,07
ABŞ	0,003	0,003	0,023	0,032	0,005	0.067	0,041	0,034	0,03	0,000
Alma-niya	0,005	0,008	0,009	0,008	0,005	0,040	0,057	0,088	0.11	0,068
Rusiya	0,176	0,231	0,175	0,089	0,056	0.040	0,045	0,029	0.036	0,045
Yunanstan	0,015	0,018	0,002	0,014	0,013	0.035	0,034	0,000	0.000	0,000
Tayvan	0.000	0,000	0,000	0,000	0.000	0,027	0,000	0.024	0.000	0,000
Türkiyə	0,062	0,053	0,224	0,074	0,060	0,025	0,022	0,002	0.027	0,124
Bolqarıstan	0,001	0,006	0,018	0,002	0,001	0.025	0,000	0,000	0.000	0,000
Gürçüstan	0,145	0,171	0,127	0,077	0,043	0,024	0,022	0,024	0.032	0,038
Çexiya	0.000	0,000	0,000	0,000	0,001	0,021	0,000	0,027	.048	0,023
İraq	0,000	0,000	0,000	0,000	0,000	0,002	0,000	0,000	0.000	0,000
Tailand	0,000	0,000	0,000	0,000	0,000	0,000	0,069	0,038	0,000	0,000
Portuqaliya	0,000	0,000	0,001	0,000	0,000	0,000	0,022	0.025	0,032	0,028
Xorvatiya	0,000	0,000	0,001	0,002	0,002	0,000	0,000	0,001	,001	0,025
Böyük Britaniya	0,021	0,002	0,067	0,012	0,011	0,000	0.020	0,000	0,000	0,000
Tayvan	0,000	0,000	0,001	0,000	0,000	0,001	0,019	0,020	0,000	0,087


İspaniya	0,000	0,000	0,001	0,000	0,000	0,000	0,004	0,000	0,028	0,014
Niderland	0,008	0,008	0,015	0,015	0,001	0,00	0,000	0,00	0,000	0,000
Avstriya	0,000	0,000	0,001	0,000	0,000	0,000	0,000	0,035	0,000	0,000
Tunis	0,000	0,000	0,002	0,004	0,002	0,000	0,000	0,025	0,000	0,021
Çin	0,001	0,002	0,001	0,000	0,003	0,000	0,000	0,000	0,000	0,030
Digər dövlətlər	0,546	0,453	0,238	0,210	0,165	0,165	0,255	0,163	0,245	0,154
Cəmi	1	1	1	1	1	1	1	1	1	1
Entropiya	0,664	0,67	0,762	0,72	0,633	0,701	0,671	0,650	0,707	0,694
İnformasiyanın miqdarı	3,668	3,758	3,939	4,800	4,922	5,450	5,217	5,054	5,497	5,396
İnformasiyanın faydalılığı		1%	9%	-4%	-9%	-2%	-2%	-3%	-4%	-3%

Mənbə: ARDGK-nin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 9.2.1-dən göründüyü kimi ixrac sahəsində 1996-2016cı illərdə əsas tərəfdaş ölkələr üzrə ixracın xüsusi çəkiləri bəzi dövrlərdə bir-birinə yaxınlaşmış, bəzi illərdə isə bir-birindən uzaqlaşmışdır. Bütün bunlar həmin dövrlərdə entropiyanın dəyişməsi ilə nəicələnmişdir. Bu dəyişmələrin ölkənin ixrac siyasəti hesabına əldə edilmiş nəticələrinə əsasən səmərəliliyini Azərbaycan respublikasının ixracında əsas tərəfdaşların xüsusi çəkiləri üzrə entropiya,informasiyanın miqdarı və faydalılığını əks etdirən cədvəl 3 məlumatlarına əsasən Azərbaycan Respublikasının ixrac əməliyyatlarında əsas tərəfdaşların xüsusi çəkiləri üzrə entropiya,informasiyanın miqdarı və faydalılığını əks etdirən aşağıdakı diaqrammadan görmək olar.

Diaqramma 9.2.1

Azərbaycan respublikasının ixracında əsas tərəfdaşların xüsusi çəkiləri üzrə entropiya,informasiyanın miqdarı və faydalılığı



Mənbə: Cədvəl 9.2.1 məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 9.2.1-dən göründüyü kimi ixrac sahəsində 1996-1998-ci illərdə əsas tərəfdaşlar üzrə ixracın xüsusi çəkiləri bir-birinə yaxınlaşmış və entropiya yüksəlmişdir.1999-2000-ci illərdə isə əksinə xüsusi çəkilər bir-birindən uzaqlaşmışdır və nəticədə entropiya azalmışdır. 2000-2012-ci illərdə isə xüsusi çəkilər yüksəlmiş və etropia azalmışdır. 2012-2015-ci illər üzrə xüsusi çəkilər yenə də yaxınlaşmış və entropia yüksəlmişdir. 2015-2016-cı illərdə isə xüsusi çəkilərin bir-birindən kiçik həcmədə uzaqlaşması ilə entropia qismən azalmışdır. Cədvəldəki hesabatlara əsasən informasiyanın miqdarına uyğun olaraq 1996-2000-cı illər üzrə üstünluk verilən ölkələrin sayı 3-4 olduğu halda, 2010-2016-c illərdə bu göstərici 5-dən cox olmuşdur.Bu isə o deməkdir ki, respublikada həmin dövrlər üzrə idxalla müqayisədə ixrac siyasəti daha da gücləndirilmişdir. Qeyd etmək lazımdır ki, İxrac istiqamətində ən yüksək pay Avropa İttifaqı ölkələrinin payına düşür. Burada İtaliyanın payı 2015-ci ildə, İtaliyada 20,3% Almaniyada 11,2%, Fransada 7,3%, 6,5% İsraildə 6,5% Çexiyada 4,6%, Avstriyada %, 3,8%, İspaniyada 3%, Portuqaliyada 2,9%, olmuşdur. Lakin, 2014-cü ildən 2016-cı ilədək ixrac dinamikasının aşağı istqamətlənməsi ixrac neftindən asılılığın mənfi təsirləri hesabına olduğu aydın olur.

Təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, xarici ticarətdə entropiyanın artması Azərbaycan üçün müsbət, ölkənin güclü tərəfdaşları üçün isə mənfi haldır. Bu onunla izah edilir ki, Azərbaycan üçün bütün tərəfdaş ölkələrlə bərabərsəviyyəli əməkdaşlıq yaratmaq faydalı olduğu halda, nisbətən güclü tərəfdaş ölkə üçün Azərbaycanla eynisəviyyəli əməkdaşlıq bir o qədər də müsbət hal deyildir. Belə ki, Azərbaycan Respublikasında siyasi və iqtisadi marağı olan güclü ölkə təbii ki, öz təsir dairəsini genişləndirməyə çalışacaqdır.

X FƏSİL

GÖMRÜK STATİSTİKASINDA MÜŞAHİDƏ OBYEKTLƏRİNİN ƏHATƏ EDİLMƏSİNİN BEYNƏLXALQ ƏSASLARI

10.1. Malların beynəlxalq ticarət statistikasının əsas prinsipləri

Malların beynəlxalq ticarət statistikasında (MBTS) müşahidə olunan obyektlər adı altında bir coğrafi ərazidən digər coğrafi əraziyə daşınması mümkün olan mallar və nəqliyyat vasitələri başa düşülür. Müşahidə olunan obyektlərin əhatəsi gömrük statistikasının tamlığını müəyyən edir. Gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinin (mal axını) meyar əsasında seçimi əhatə həcmini müəyyənləşdirir. Çox vacib məsələlərdən biri də ixrac və idxal əməliyyatlarının qeydəalınma vaxtıdır. Əməliyyatların qeydə-almma vaxtı onların həqiqətən də bəyannamələrə uyğun şəkildə həyata keçirilməsini təsvir etməlidir. Qeyd vaxtının düzgün müəyyənləşdirilməməsi ölkələrin xarici ticarətinin müqayisə edilməsinə mənfi təsir göstərir. Bu malların beynəlxalq ticarət statistikası iqtisadi statistikanın bir növüdür. Qeyd etmək lazımdır ki, milli hesabatların və tədiyə balanslarının tərtib edilməsi üçün xarici ticarətin statistikası ilə yanaşı, sənaye statistikası, tikinti statistikası və maliyyə statistikasından da geniş istifadə olunur. Malların beynəlxalq ticarət statistikasını tərtib etmək üçün müxtəlif mənbələr - gömrük sənədləri, xarici iqtisadi əlaqələr iştirakçılarının fəaliyyətinin araşdırılması ilə bağlı hesabatlar, əlavə dəyər vergisinin inzibati sənədləri və valyuta mübadiləsi sənədləri var. Lakin əsas informasiya mənbəyi gömrük sənədləridir [21]. Gömrük işi və operativ-əməliyyat fəaliyyətinin informasiya təminatı məqsədilə, eyni zamanda milli hesabatlar və tədiyə balanslarının tərtibi üçün gömrük sənədlərindən faydalanmaqla əlavə mənbələrdən istifadə edilməlidir ki, MBTS tam əhatə olunsun. Amma müəyyən səbəblərə görə tam həcmdə məlumat əldə etmək mümkün olmadığı hallarda başqa informasiya mənbələrindən

istifadə edilməsi təklif olunur. Məsələn, Avropa İttifaqında müəssisələrin aylıq hesabatı əsasında əlavə məlumat əldə olunur. Bundan başqa, əlavə məlumat vergi orqanlarından da almır. Gömrük orqanları tərəfindən bəzi əməliyyatlara tam nəzarət edilməsi mümkün olmadıqda (elektrik enerjisi, su, hərbi təyinatlı mallarla ticarət və s.) əksər ölkələrdə xarici əlaqələr iştirakçılarının müayinəsindən geniş istifadə edilir. Bəzi ölkələrdə isə MBTS maliyyə-valyuta orqanlarının hesabatları əsasında təşkil olunur. Burada ümumi prinsip ondan ibarətdir ki, beynəlxalq ticarətin statistikasında iqtisadi əraziyə idxal və ixrac nəticəsində ölkənin yalnız maddi resurslarını (ehtiyatlarını) artıran, yaxud azaldan mallar nəzərə almır [21; 24]. Ölkə ərazisindən keçən mallar (tranzit mallar) və ya ölkəyə müvəqqəti gətirilib-aparılan mallar ölkənin maddi resurslarını artırmır və azaltmır. Ona görə də bu mallar MBTS-ə daxil deyil. Qeyd etmək lazımdır ki, xarici ticarətdə qəbul olunmuş "iqtisadi ərazi" anlayışı geniş mənada başa düşülür İqtisadi əraziyə quru ərazisindən, daxili sulardan, Xəzər dənizinin AR-ə mənsub olan bölmələrindən və onların üzərindəki hava məkanından başqa, sərbəst gömrük zonaları və sərbəst anbarlar daxildir. Başqa rəhbər prinsip ixrac və idxal əməliyyatlarının tamamlanmasının qeydə alınmasıdır. Müxtəlif dövlətlərin xarici ticarət statistikasının bir-birinə uyğunluğunu təmin etmək məqsədilə ölkələr vahid uçot vaxtı qəbul etməlidirlər. Milli hesabatlar və tədiyə balansının tələblərinə müvafiq olaraq, mal sahibinin dəyişmə vaxtı əməliyyatların uçot vaxtı kimi qəbul oluna bilər. Amma gömrük sənədləri əsasında yaradılmış uçot sistemi mal sahibinin dəyişmə vaxtını müəyyən etməyə imkan vermir. Qeyd etmək lazımdır ki, malların ölkənin iqtisadi ərazisinə daxil olması və ya ərazidən çıxmasının uçot tarixi kimi qəbul edilməsi təklif olunmasının mühüm əhəmiyyəti vardır. Həmin sənədə görə, gömrük sənədləri əsasında yaradılmış məlumatların yığım sistemi digər prinsiplərin istifadəsini məhdudlaşdırmır. Bir variant, gömrük bəyannaməsinin rəsmiləşdirilmə tarixinin uçot tarixi kimi qəbul edilməsi təklif olunur. Bəzi hallarda malların uçot vaxtını

müəyyən etməkdə çətinliklər yaranır. Mallar nəql edilmək üçün ölkəyə sökülmüş vəziyyətdə, hissə-hissə, müxtəlif vaxtlarda və postlardan daxil olur və həmçinin, göndərən ölkə dən də eyni qaydada ixrac olunur. Göstərilən şəraitdə malın sonuncu hissəsinin ölkəyə daxil olması, yaxud ölkədən çıxarılması ixrac və idxal əməliyyatlarının tamamlanması hesab edilir, bu tarix uçot tarixi kimi qəbul olunur (həmin tarixdə malın təsnif edilməsi, gömrük dəyərinin və mənşəyinin təyin edilməsi də aparılır).

Qeyd etmək istərdik ki, gömrük xidməti ixrac və idxal əməliyyatlarının tam başa çatmasını təsvir edən uçot vaxtı seçməlidir. Bu əməliyyat sahəsində gömrük xidmətlərinə sərbəstlik verilmişdir.

Yuxarıda təsvir olunmuş ümumi rəhbər prinsiplər bir sıra malların statistikaya daxil edilməsində, yaxud edilməməsində və xüsusi prinsiplərin formalaşmasında əsas kimi istifadə olunur.

Qeyd etmək lazımdır ki, bəzi hallarda ticarət əməliyyatının mürəkkəbliyi əsas meyara müvafiq olan qərarın qəbul edilməsinə imkan vermir. Bir sıra malların statistikaya daxil edilməsindən başqa, onların uçotunun ayrıca aparılması və ümumi məlumat bazasından seçilməsi təklif olunur (məsələn, "geri" qaytarılmış mallar). Bəzi malların statistikaya birbaşa daxil edilməsi məqsədəmüvafiq deyil. Onlar ayrıca uçota alınır və gələcəkdə son nəticə almaq üçün üzərlərində düzəlişlər aparılır.

Beynəlxalq ticarətin ətraflı statistikasına daxil edilən mallar beynəlxalq əsaslarla aşağıdakıları əhatə edir.

Monetar olmayan qızıl. "Monetar olmayan qızıl" anlayışına qızıl tozu, emal olunmamış qızıl, qızıl pul və külçələr daxildir. Zərgərlik əşyalarının istehsalında, diş protezlərinin hazırlan–masında və başqa sahələrdə qeyd olunmuş mallardan geniş istifadə olunur Monetar qızıl, malların beynəlxalq ticarət statistikasına daxil edilmir.

Dövriyyədə olmayan banknotlar, qiymətli kağızlar və pullar mal kimi hesab olunaraq idxal, yaxud ixrac mallarının siyahısına daxil edilməlidir. Dövriyyəyə buraxılmış banknotlar, qiymətli kağızlar və pullar maliyyə aləti hesab olunaraq, mal statistikasına daxil edilmir.

Barter razılaşmalar əsasında satılan mallar statistikaya daxil edilməlidir.

Hökumət xətti ilə aparılan əməliyyatlar. Bu tip mallara mülki və hərbi mallar daxildir. Onlar hökumət tərəfindən aparılan əməliyyat və ya xarici yardım üzrə dövlət proqramlarının həyata keçirilməsi nəticəsində gömrük sərhədini keçir (əvəzsiz kömək, istiqraz, barter, yaxud beynəlxalq təşkilatlara yardım).

Ərzaq və digər humanitar yardım. Hökumət, beynəlxalq və qeyri-hökumət təşkilatlarının xətti ilə ölkəyə daxil olan və ya çıxarılan ərzaq, geyim, dərman və başqa mallar müvafiq ölkələrin ixrac və idxalında nəzərə alınmalıdır. Qeyd olunmuş mallar üzrə onların kodu, statistik dəyəri, miqdarı və partnyor ölkələrin göstərilməsi vacibdir.Beynəlxalq təşkilatın, yaxud digər tədarükçünün hansı dövlətin ərazisində yerləşməsindən asılı olmaya raq, malın mənşə ölkəsi partnyor ölkə kimi qəbul olunur. Əgər malın mənşə ölkəsini müəyyən etmək mümkün deyilsə, onda göndərən ölkə partnyor ölkə kimi qeyd olunur. Humanitar yardım sayılan mallar donor ölkənin ixracına daxil edilir.

- Gəlmə adamlar tərəfindən çox böyük sayda alınmış mallar (milli qanunvericilikdə nəzərdə tutulmuş qaydada) statistikaya daxil edilməlidir. Bu əməliyyatlar sadələşdirilmiş gömrük sənədləri əsasında qeydə alınır.

-**Konsiqnasiya əsasında göndərilən mallar statistikaya daxil edilir.** Bu əməliyyatlar həm ixraca, həm də idxala aiddir, amma gömrük sənədlərində bu mallar barədə etibarlı məlumatın olmaması mümkündür. Məsələn, satış məqsədilə xaricə göndərilən xam və başqa mallar barədə auksionda ilkin məlumatlar, adətən, dəqiq olmadığından gömrük orqanları malların satışının nəticəsinə əsaslanaraq onların həqiqi dəyərini və təyinat ölkəsini

dəqiqləşdirməlidir. Gömrük orqanları zəruri məlumatlar əldə etmək məqsədilə icra və ticarət müəssisələrinin müayinəsini aparmalıdır.

Proqram təminatı vasitələri və informasiya daşıyıcıları formasında istifadə olunan mallar. Bu növ mallara aşağıdakılar daxildir:

a) disket və ya kompakt disklərə yazılmış ümumi, yaxud kommersiya məqsədilə hazırlanmış kompüter proqramları və ya məlumat bazaları;

b) ümumi və ya kommersiya məqsədləri üçün yazılmış audio və video plyonkalar.

"Ümumi və ya kommersiya məqsədilə hazırlanmış" anlayışı elə mallara tətbiq olunur ki, onların bütün istifadəçilər tərəfindən mənimsənilməsi mümkündür. Material və proqram təminatının dəyəri malın statistik dəyərinin əsasını yaradır.

Emal üçün mallar - emal məqsədilə xaricə göndərilən və ya ölkəyə gətirilən mallardır. Neft və metal emalı, minik maşınlarının yığılması, yaxud geyim tikilişi kimi nümunələr göstərmək olar. Bu mallar və emaldan sonra alınmış mallar müvafiq ölkələrin ixrac və idxalında nəzərə alınmalıdır. Eyni zamanda, ölkənin sərbəst dövriyyəli zonalarına və sərbəst sənaye zonalarına idxal edilmiş, bu zonalardan daxili və xarici emal məqsədilə ixrac olunan mallar da buraya daxildir. Sadə emal məqsədilə idxal və ixrac olunmuş mallar müvəqqəti idxal və ya ixrac rejimində rəsmiləşdirildiyindən xarici ticarət statistikasına daxil edilmir.

Baş şirkətlər və törəmə müəssisələr (filiallar, bölmələr) arasında mal mübadiləsi statistikaya daxil edilməlidir. Bu cür malların gömrük dəyəri Umumdünya Ticarət Təşkilatının "Malların dəyərinin müəyyən edilməsi haqqında" Razılaşmasına müvafiq olaraq aparılır. ***Qaytarılmış mallar.*** Əvvəlcədən ixrac olunmuş mal geri qaytarılarsa, o zaman mal qaytarılmış tarixə idxal kimi rəsmiləşdirilir. Eyni qaydada, əvvəlcədən idxal olunmuş mal da geri qaytarılarsa, o halda ixrac kimi rəsmiləşdirilir.

Elektrik enerjisi, qaz və su. Bu ticarətin dəqiq uçotunu təmin etmək məqsədilə ölkələrə müvafiq prosedurları müəyyənləşdirmək təklif olunur. Bu prosedurlar vahid metodika əsasında hazırlanmalıdır.

Poçt vasitəsilə göndərilmiş mallar. Bu göndərişlərin tam həcmdə uçotunun aparılması böyük zəhmət tələb edən işdir və bununla əlaqədar xarici ticarətin statistikasında göndərişlərin ümumi göstəriciləri nəzərə almır.

Miqrantlarm əmlakı. Böyük həcmdə miqrasiya olan ölkələrdə miqrantlarm əmlakının fiziki mənada hərəkətinin uçotunun təşkili vacib məsələdir. Bəzi ölkələrdə əmlakın yalnız rüsuma düşən hissəsi statistikada nəzərə alınır. Bu mallar üzrə ümumiləşdirilmiş dəyər və miqdar məhdudiyyətləri nəzərə almır.

"Bufer" təşkilatı ilə mal mübadiləsinin aparılması. Müxtəlif ölkələrdə yerləşən təşkilatlarda bəzi mallar üzrə ehtiyatlar yaradılır. "Bufer" adlanan bu təşkilatlar dünya bazarının tələbat və təklifinə təsir göstərmək məqsədilə ehtiyat mallar hesabına mal dövriyyəsində dəyişiklik yaradırlar. Hansısa ölkədə yerləşən "bufer" təşkilatının xarici iqtisadi əməliyyatları nəticəsində göndərilmiş (alınmış) mal onun statistik uçotunu aparan ölkənin ixrac, yaxud idxalına daxil edilməlidir.

Maliyyə icarəsində olan mallar. İcarənin iki növü var: maliyyə və operativ.

Maliyyə icarəsində o mallar hesab olunur ki, bütün hüquq, öhdəlik və risklər malı icarəyə götürmüş şəxsə keçir. İcarədar iqtisadi baxımdan malın faktiki sahibi hesab olunur. Yuxarıda göstərilmiş xüsusiyyətlərə malik olmayan icarə operativ adlandırılır.

Operativ icarədə olan mallar xarici ticarətin statistikasına daxil deyil. Bəzi hallarda növlərin müəyyənləşdirilməsi üçün icarə müddətindən meyar kimi istifadə olunur. Bir il və ondan artıq müddətə olan icarə maliyyə icarəsidir, bir ilə qədər olan icarə isə-operativ icarədir. Maliyyə icarəsində ölkədən göndərilən mallar

ixraca, həmin mallar icarə müddətindən sonra ölkəyə qayıdanda isə idxala daxil edilir.

Gəmilər, uçan aparatlar və başqa mobil avadanlıq. Bu mallarla aparılmış beynəlxalq ticarət əməliyyatları "Malların beynəlxalq ticarət statistikası"na daxil edilməlidir. Bəzi hallarda statistikanı dəqiqləşdirmək məqsədilə uçan aparatların qeydiyyat siyahısından (registrlər) və müəssisələrin müayinəsindən istifadə olunur.

Statistik uçot ölkəsinin ərazisində yerləşən ofşor müəssisəsi tərəfindən göndərilən və alman mallar (iqtisadi ərazidən, yaxud başqa ölkənin iqtisadi ərazisinə) xarici ticarətin statistikasında nəzərə alınmalıdır. Bu əməliyyatların uçotu mövcud məlumat mənbələri əsasında, o cümlədən müəssisələrdə müayinə aparıldığı zaman əldə edilmiş məlumatlar əsasında formalaşır.

Milli portda xarici gəmidən boşalddan ovlanmış balıq, dəniz dibi mineralları və xilas edilmiş yüklər, yaxud açıq dənizdə onların milli gəmi tərəfindən xarici gəmidən alınması idxalın statistikasında nəzərə alınmalıdır.

Bunkerlər, bort ehtiyatları, ballast, döşəmə və separator materialları:

a) ölkənin iqtisadi ərazisində xarici gəmidən və ya uçan aparatdan milli gəmi, yaxud uçan aparat tərəfindən alınmış və ya milli portda xarici gəmidən, yaxud uçan aparatdan boşaldılmış mallar idxalın statistikasında nəzərə alınmalıdır;

b) ölkənin iqtisadi ərazisində xarici gəmilərə və ya uçan aparatlara verilmiş mallar ixracın statistikasında nəzərə alınmalıdır.

Boş butulkalar. Kommersiya məqsədləri üçün bir ölkədən digər ölkəyə satılan butulkalar statistikada nəzərə alınmalıdır.

Tullantılar və skrap (təkrar əridiləcək metal qalıqları). Müəyyən dərəcədə dəyəri olan tullantılar və skraplar, eyni zamanda mühitə mənfi təsir göstərən və lazımi təsnifatların mövcudluğu əsasında qeyd olunmuş mallar statistikada nəzərə alınmalıdır.

Peyklər və onların daşıyıcıları. Aşağıda qeyd olunmuş misallar peyk və onların daşıyıcılarına olan mövcud yanaşmanı nümayiş etdirir:

Misal 1: A ölkəsində istehsal olunmuş peyk sahibi dəyişilməmək şərtilə buraxılmaq üçün ***B*** ölkəsinə gətirilib. Peykin buraxılışı ***B*** ölkəsi tərəfindən A ölkəsinə göstərilən yardım xidməti kimi qiymətləndirilir və bunun əsasında ***B*** ölkəsinə idxal olunmuş peyk müvəqqəti rejimdə rəsmiləşdirilərək, həmin ölkənin statistikasına daxil edilmir.

Misal 2: A ölkəsində istehsal olunmuş peykin daşıyıcısı istifadə üçün ***B*** ölkəsinə idxal olunub. Bu əməliyyat A ölkəsində ixrac kimi, ***B*** ölkəsində isə idxal kimi nəzərə almır.

Misal 3: A ölkəsində istifadə edilmək üçün ***B*** ölkəsində istehsal olunmuş və ***A*** ölkəsinə göndərilmiş peyk. Peykə B ölkəsində ixrac malı kimi, A ölkəsində isə idxal malı kimi baxılmalıdır.

Elektron ticarət vasitəsilə malların hərəkəti. Elektron vasitələrin köməyi ilə ölkənin sərhədini keçən mallar elektron ticarət adlandırılır (internet vasitəsilə mal sifarişi və ödəniş). Bu malların uçotu o vaxt aparılır ki, onların fiziki və ya dəyər həcmi statistik həddi keçmiş olsun.

10.2 Beynəlxalq ticarətin ətraflı statistikasına bəzi malların daxil edilməməsi

Monetar qızıl. Milli, yaxud beynəlxalq maliyyə-kredit təşkilatları və ya müvəkkil banklar arasında mübadilə olunan qızıl monetar qızıl adlandırılır. Monetar qızıl maliyyə aktivi olaraq və eyni zamanda, mal olmadığı üçün onunla aparılan əməliyyatlar beynəlxalq ticarət statistikasında nəzərə alınmır.

Dövriyyədə olan banknotlar, qiymətli kağızlar və pullar maliyyə təminatını təşkil edən vəsaitlər olduğu üçün malların beynəlxalq ticarət statistikasına daxil deyil- müvəqqəti gətirilmiş və ya aparılmış mallar. Ölkəyə müvəqqəti gətirilmiş və ya aparılmış mallar dəyişməz vəziyyətdə geri qaytarılmalıdır. Sərgi və ticarət

yarmarkalarında nümayiş etdirilən avadanlıqlar, bədii eksponatlar, tədris-metodoloji materiallar və sənaye nümunələri, bağlama materialları, nəqliyyat vasitələri, konteynerlər və s. mallar nümunə kimi göstərilə bilər.

Dövriyyədə olan banknotlar, qiymətli kağızlar və pullar maliyyə təminatını təşkil edən vəsaitlər olduğu üçün malların beynəlxalq ticarət statistikasına daxil deyil, müvəqqəti gətirilmiş və ya aparılmış mallar. Ölkəyə müvəqqəti gətirilmiş və ya aparılmış mallar dəyişməz vəziyyətdə geri qaytarılmalıdır. Sərgi və ticarət yarmarkalarında nümayiş etdirilən avadanlıqlar, bədii eksponatlar, tədris-metodoloji materiallar və sənaye nümunələri, bağlama materialları, nəqliyyat vasitələri, konteynerlər və s. mallar nümunə kimi göstərilə bilər.

Müvəqqəti gətirilmiş, ya da aparılmış mallara milli normativ aktlara uyğun olaraq nəzarət edilir.

Tranzit mallar. Malın üçüncü ölkəyə çatdırılması məqsədilə ölkəyə daxil olmuş mal tranzit ölkənin maddi imkanlarını nə artırır, nə də azaldır və bununla əlaqədar statistikaya daxil edilmir.

Anklav ərazilərə ünvanlanmış və oradan göndərilmiş mallar. Fiziki mənada digər ölkənin ərazisində yerləşən ərazi də (anklav) ölkənin iqtisadi ərazisinə daxildir (səfirliklər, hərbi qurğular və s.). Bununla yanaşı, ölkədə yerləşən başqa ölkələrin anklavları isə həmin ölkənin iqtisadi ərazisi sayılmır. Ona görə də ölkənin və onun anklavları arasında dövriyyədə olan mallara daxili mal axını kimi baxılır. Onlar ölkənin ixracına və idxalına daxil deyil. Ölkə ərazisində yerləşən digər ölkənin anklavına göndərilmiş mallar da ölkənin idxalına daxil deyil.

Sərhədi keçməyən şəraitdə rezident tərəfindən öz qeyri-maliyyə aktivlərinin qeyri-rezidentə mülkiyyətə verilməsi. Torpaq, qurğular, avadanlıqlar və maddi ehtiyatlar qeyri-maliyyə aktivlərinə daxildir. Belə aktivlərin mülkiyyətə verilməsinin maliyyə əməliyyatı sayılmasını nəzərə alaraq, onlar malların beynəlxalq ticarət statistikasına daxil edilmir.

Xidməti ticarətin bir hissəsi olan mallar. Bu mallara

aşağıdakılar daxildir:

a) milli qanunvericiliklə müəyyən olunmuş normaları aşmayan şəxsi istifadə üçün gətirilmiş və şəxslər tərəfindən alınmış mallar;

b) abunə xətti ilə daxil olmuş qəzetlər və dövri mətbuat;

c) ölkənin iqtisadi ərazisində yerləşən səfirlik və xarici hərbi, yaxud başqa nümayəndəliklərin öz ehtiyaclarını ödəmək məqsədilə alınmış mallar.

Açıq dənizdə milli gəmi tərəfindən tutulmuş və ölkənin iqtisadi ərazisində boşaldılmış balıq beynəlxalq ticarət statistikasına daxil edilmir.

Ölkənin sərhədini keçmədən ölkədə qeyri-rezi- dentlər tərəfindən bir uçot dövrü ərzində alınmış və satılmış mallar beynəlxalq ticarət statistikasına daxil edilmir.

Operativ icarədə olan mallar. Bu növ mallar operativ icarəyə (maliyyə icarəsi olmayan hallarda) müvafiq olaraq göndərilir və adətən, belə əməliyyatlar müvəqqəti olduğu üçün statistikaya daxil edilmir.

Təyinat ölkəsinin iqtisadi ərazisinə çatmamış, lakin ixrac ölkəsinin iqtisadi ərazisindən çıxmış və itirilmiş, ya da məhv olmuş mallar idxal ölkəsinin statistikasına daxil edilmir. Göndərən ölkənin ixracatında bu əməliyyat nəzərə alınır. Əgər malın mülkiyyət hüquqları idxalçıya keçibsə, onda malın ölkəyə gətirilməsi ayrıca uçota almır.

Boş butulkalar. Təkrar istifadə üçün geri qaytarılan boş butulkalar "nəqliyyat tarası" sayıldığından beynəlxalq ticarət statistikasına daxil edilmir.

Tullantdar və skrap. Milli qanunvericiliyə əsaslanaraq, dəyəri olmayan tullantılar və skrap statistikada nəzərə alınmır, lakin onların uçotu ayrıca aparılır.

10.3 Gömrük statistikasında ayrıca uçotun aparılması təklif olunan mallar

Mobil avadanlığın sahibinin göndərən ölkədən kənar yerdə dəyişməsi. Belə hallar malların müvəqqəti ixracı ilə bağlıdır. Məsələn, tikinti işləri və yanğınların söndürülməsi, dənizdə qazıntı işlərinin aparılması məqsədilə müvəqqəti ixrac olunmuş mallar müəyyən müddətdən sonra bağışlanır və ya atılmaq nəticəsində sahibi dəyişir. Qeyd olunmuş mallar ayrıca uçota alınır.

Açıq dənizdə milli gəmidən xarici gəmiyə, ya da xarici portda milli gəmidən satılan balıq, dəniz dibindən hasil olunan minerallar və xilas olunmuş yüklər ölkənin ixracında nəzərə alınmır, lakin onların uçotu ayrıca aparılır.

Bunker, bort ehtiyatları, ballast, döşəmə və separasiya materialları:

a) ölkənin iqtisadi ərazisindən kənarda milli gəmi və uçan aparatlar tərəfindən alınmış yuxarıda göstərilən mallar tam statistikaya daxil edilmir, lakin uçotu ayrıca aparılır;

b) ölkənin iqtisadi ərazisindən kənarda xarici gəmiyə, ya da uçan aparata milli gəmi və ya uçan aparat tərəfindən satılmış, yaxud xarici portda milli gəmidən, ya da uçan aparatlardan boşaldılmış mallar tam statistikaya daxil edilmir, lakin onların uçotu ayrıca aparılır.

Beynəlxalq təşkilat tərəfindən onun yerləşdiyi ölkədə öz tələbatı üçün aldığı mallar. Bu mallar yerləşdiyi ölkə üçün ixrac mallar kimi uçota almır.

X FƏSİL

GÖMRÜK STATİSTİKASINDA TİCARƏT SİSTEMLƏRİ

10.1. Ticarət sistemində məlimatların yığılma metodikası mallar axın istiqamətləri

Malların beynəlxalq ticarət statistikasında "statistika ərazisi" anlayışından əsas anlayış kimi istifadə olunur [21]. ''Statistika ərazisi" o ərazi hesab olunur ki, həmin ərazinin xarici ticarəti barədə tam məlumat yığılır. Statistika ərazisi ölkənin iqtisadi ərazisi ilə bərabər ola, ya da onun bir hissəni əhatə edə bilər. Buradan belə nəticə çıxarmaq olar ki, statistika ərazisi ölkənin iqtisadi ərazisi ilə üst-üstə düşmürsə, onda beynəlxalq ticarət statistikası ölkəyə daxil olan və ölkədən çıxan malların tam uçotunun aparılmasını təmin etmir. Malların beynəlxalq ticarət statistikası iki növ ticarət sistemi üzrə - ***ümumi və xüsusi sistemlər*** üzrə aparılır.

Ümumi ticarət sistemindən o vaxt istifadə olunur ki, statistik ərazi ölkənin iqtisadi ərazisi ilə üst-üstə düşür. Ümumi ticarət sisteminin tətbiqi zamanı gətirilən bütün mallar ölkənin idxalına, ölkənin iqtisadi ərazisindən çıxarılan bütün mallar isə ölkənin ixracına daxildir.

Xüsusi ticarət sistemi, statistik ərazi ölkənin iqtisadi ərazisinin yalnız bir hissəsini əhatə etdiyi halda tətbiq edilir.

Məlumatın yığılma metodikası. Əksər ölkələrdə məlumatların yığıması gömrük prosedurları əsasında təşkil olunur və gömrük sərhədi statistika sərhədi kimi qəbul olunur. Amma qeyd etmək lazımdır ki, bəzi beynəlxalq ticarət əməliyyatları gömrük xidmətləri tərəfindən nəzərə alınmır. Məsələn, gömrük ittifaqlarının üzvləri arasında mal axınları nəzərə alınmır.

Bu hallarda gömrük orqanları qeyri-gömrük informasiya mənbələrindən istifadə edirlər: xarici iqtisadi əlaqələr iştirakçılarının müayinəsi, vergi orqanlarının məlumatı və s. Buna

baxmayaraq, gömrük sənədlərindən əksər ölkələrdə əsas informasiya mənbəyi kimi istifadə olunur.

Ticarət sistemləri müxtəlif kateqoriyalı mallarla və onların axını istiqaməti ilə təsvir olunur. Mallar, əsasən, 2 kateqoriyaya bölünür: yerli (daxili) və xarici mallar. ***Mənşəyi ölkənin iqtisadi ərazisi olan mallar yerli (daxili) mallar adlanır.*** Qeud etmək lazımdır ki, ölkədə tam istehsal olunmuş, yaxud emal nəticəsində ölkədə yeni yaradılmış mallar yerli mənşəli mallar hesab edilir.

Yerli (daxili) mallara aşağıdakılar daxildir:

a) sərbəst dövriyyə üçün buraxılmış mallar və ya kifayət qədər emal nəticəsində əmələ gəlmiş yeni mallar;

b) sərbəst sənaye zonalarında istehsal və emal olunmuş mallar;

c) daxili emal nəticəsində kompensasiya malları.

Mənşəyi ölkənin iqtisadi ərazisinə daxil olmayan ərazilər, yəni dünyanın başqa yerlərinə məxsus olan mallar xarici mallar adlanır.

Xarici mallara daxildir:

a) mənşəyi dünyanın başqa yerlərində olan, yəni ölkənin iqtisadi ərazisindən kənardakı yerlərə məxsus mallar;

b) xaricdə emaldan sonra kompensasiya malları

10.2. Ümumi ticarət sistemi

Ümumi ticarət sisteminin idxalına aşağıdakılar daxildir:

a) xarici malların dünyanın müxtəlif yerlərindən sərbəst dövriyyəli zonalara, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına idxalı;

b) xarici malların dünyanın müxtəlif yerlərindən gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına idxalı;

c) dünyanın müxtəlif yerlərindən sərbəst dövriyyəli zonalara, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına idxalı;

d) xaricdə emaldan sonra əmələ gəlmiş kompensasiya mallarının dünyanın müxtəlif yerlərindən gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına idxalı;

e) yerli malların dünyanın müxtəlif yerlərindən sərbəst dövriyyəli zonalara, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına əvvəlcə ixrac olunması və dəyişməz vəziyyətdə təkrar idxalı;

f) yerli malların dünyanın qalan yerlərindən gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına əvvəl ixrac olunması və dəyişməz vəziyyətdə təkrar idxalı.

Ümumi ticarət sisteminin ixracına aşağıdakılar daxildir:

a) yerli mənşəli malların sərbəst dövriyyəli zona və ya sərbəst sənaye zonasından dünyanın qalan yerlərinə ixracı;

b) sərbəst dövriyyəli zona və ya sərbəst sənaye zona mənşəli yerli malların gömrük anbarlarından, yaxud sərbəst ticarət zonalarından dünyanın müxtəlif yerlərinə ixracı;

c) kompensasiya (yerli) malların daxili emaldan sonra dünyanın qalan yerlərinə ixracı;

d) kompensasiya (yerli) malların daxili emaldan sonra gömrük anbarlarından və ya sərbəst ticarət zonalarından dünyanın qalan yerlərinə ixracı;

e) xarici malların sərbəst dövriyyədən, daxili emal yerlərindən və ya sərbəst sənaye zonalarından dünyanın qalan yerlərinə dəyişməz vəziyyətdə təkrar ixracı;

f) xarici malların gömrük anbarlarından və ya sərbəst ticarət zonalarından dünyanın qalan yerlərinə dəyişməz vəziyyətdə təkrar ixracı.

10.3 Xüsusi ticarət sistemi

Xüsusi ticarət sisteminin idxalına aşağıdakılar daxildir:

a) xarici malların dünyanın müxtəlif yerlərindən ölkənin sərbəst dövriyyəsinə, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına idxalı;

b) xarici malların gömrük anbarlarından və ya sərbəst ticarət zonalarından sərbəst dövriyyəyə, daxili emal yerlərinə, yaxud sərbəst sənaye zonalarına idxalı;

c) kompensasiya (xarici) malların xarici emaldan sonra dünyanın müxtəlif yerlərindən sərbəst dövriyyəyə, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına idxalı;

d) kompensasiya (xarici) malların xarici emaldan sonra gömrük anbarlarından və ya sərbəst ticarət zonalarından sərbəst dövriyyəyə, daxili emal yerlərinə, yaxud sərbəst sənaye zonalarına idxalı;

e) yerli malların dünyanın müxtəlif yerlərindən sərbəst dövriyyəyə, daxili emal yerlərinə və ya sərbəst sənaye zonalarına dəyişməz vəziyyətdə təkrar idxalı;

f) əvvəlcədən ixrac olunmuş yerli malların gömrük anbarlarından və ya sərbəst ticarət zonalarından sərbəst dövriyyəyə, daxili emal yerlərinə, yaxud sərbəst sənaye zonalarına dəyişməz vəziyyətdə təkrar idxalı.

Xüsusi ticarət sisteminin ixracına aşağıdakılar daxildir:

a) sərbəst dövriyyə və ya sərbəst sənaye zona mənşəli yerli malların dünyanın müxtəlif yerlərinə ixracı sərbəst dövriyyəli zona, yaxud sərbəst sənaye zona mənşəli yerli malların gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına ixracı;

b) daxili emal nəticəsində əmələ gəlmiş kompensasiya (yerli) malların dünyanın müxtəlif yerlərinə ixracı;

c) sərbəst dövriyyəli zonalardan, daxili emal yerlərindən və ya sərbəst sənaye zonalarından əvvəlcədən idxal olunmuş və dəyişməz vəziyyətdə xarici malların dünyanın qalan yerlərinə təkrar ixracı;

d) sərbəst dövriyyəli zonalardan, daxili emal yerlərindən, yaxud sərbəst sənaye zonalarından əvvəlcədən idxal olunmuş və dəyişməz vəziyyətdə xarici malların gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına təkrar ixracı.

10.3.1 Xüsusi ticarət sisteminin məhdudiyyətləri, problemləri və onların həlli yolları

Bəzi mallar xüsusi ticarət siteminin tətbiqi zamanı statistikada nəzərə alınmır və nəticədə, xüsusi ticarət sisteminin əhatə zonası

ümumi ticarət sisteminə nisbətən daha da dar olur. Məsələn, xarici malların, xarici və daxili emaldan sonrakı malların (kompensasiya malları) və yerli malların gömrük anbarlarına, yaxud sərbəst ticarət zonalarına, eləcə də həmin zonalardan idxal və ixracı nəzərə alınmır. Bundan başqa, digər ölkələr xarici ticarətin əsas anlayışlarını müxtəlif cür başa düşürlər və nəticədə, ölkələrin xarici ticarətində fərqlənmə müşahidə olunur. Məsələn, bəzi ölkələr xüsusi ticarət sistemini sərbəst dövriyyəli zonalara daxil olan malların uçotu əsasında təşkil edirlər (xüsusi ticarətin dar mənada başa düşülməsi). Bu cür yanaşmada xüsusi ticarət sistemi daxili emal məqsədilə ölkəyə idxal və ixrac olunan malları nəzərə almır. Lakin əksər ölkələr xüsusi ticarət sistemini geniş mənada başa düşür və yuxarıda qeyd olunmuş əməliyyatları nəzərə alırlar. Bundan başqa, bəzi ölkələr hesab edirlər ki, sərbəst sənaye zonalarının və daxili emal yerlərinin fəaliyyəti eynidir. Bununla əlaqədar sərbəst sənaye zonalarına daxil olan və ya çıxan malların uçotu xüsusi ticarət kimi nəzərə almır. Ticarət sistemlərinin əhatə zonalarından kəskin fərqlənməsi ondan irəli gəlir ki, gömrük nəzarətindən azad olan zonaların milli anlayışları və statistik izahları da bir-birindən fərqlənir. Gömrük nəzarətindən azad olan zonalar aşağıda qeyd olunmuş formada fəaliyyət göstərir:

- investisiya cəlb edən zonalar;
- ixracı emal edən zonalar;
- əcnəbilərlə ticarəti təmin edən zonalar;
- sərbəst ticarət zonaları;
- sərbəst sənaye zonaları.

Bəzi hallarda qeyd olunan zonalar coğrafi mənada ayrılmamış yerlərdə fəaliyyət göstərir, lakin vergi və gömrük rejimləri fərqlənir.

Gömrük nəzarətindən azad olan zonalar, əsasən, ərazi-istehsal anklavlarıdır. Onların yaradılmasının əsas məqsədləri aşağıdakılardır:

- xarici investisiyaların cəlb edilməsi;
- yerli sənayenin stimullaşması;
- yerli əhalinin məşğulluğunun artırılması

Sərbəst ticarət zonaları iki hüquqi status əsasında fəaliyyət göstərir:

- zonalarda gömrük qanunvericiliyi tətbiq olunmur;
-zonalarda müəyyən dərəcədə gömrük nəzarəti həyata keçirilir.

Sistemlərin fərqlənməsi əlavə olaraq ondan yaranır ki, partnyor ölkələrin müəyyənləşməsində qeyri-müəyyənlik var və müxtəlif qaydalardan istifadə olunur. Məsələn, sərbəst dövriyyəli zonadan sərbəst ticarət zonalarına ixrac edilən mallar üzrə partnyor ölkələrin müəyyənləşməsi mümkün deyil. Bəzi ölkələrdə gömrük anbarlarına və ya sərbəst ticarət zonalarına daxil olan malların uçotu daxil olan vaxt deyil, yalnız bu zonalardan malların ixrac vaxtı uçot vaxtı kimi qəbul olunur (bu zaman təyinat ölkəsi məlum olur).

Gömrük ərazisinin tərkib hissəsi olan müxtəlif statistikasının müqayisəsinə mənfi təsir göstərir. Ümumi uçot sistemi xüsusi uçot sisteminə nisbətən xarici ticarət axınının uçotunu daha tam təşkil edir. Bununla əlaqədar malların beynəlxalq ticarət statistikasının aparılması və malların hərəkətinin beynəlxalq uçotu üçün ümumi uçot sisteminin istifadə edilməsi daha məqsədəuyğundur.

XI FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK STATİSTİKASINDA TİCARƏT SİSTEMİ

11.1.Azərbaycan Respublikasının ticarət sistemi

Azərbaycan Respublikasının gömrük statistikasında ticarət sisteminin məzmunu gömrük xidmətinin mövqeyi əsasında müəyyənləşir. Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası bilavasitə onun ərazisində qüvvədə olan respublikanın normativ-hüquqi aktlarına əsaslanır. Xarici ticarətinin gömrük statistikasında sahibkarlıq subyektlərinin idaxl-ixrac əməliyatları zamanı tarif metodu, idxal qiymətləri üzərində dövlət nəzarəti, maliyyə əməliyyatları mexanizmi, idxal və ixrac mallarının beynəlxalq və ölkə standartlarına uyğunluğuna nəzarət kimi müvafiq normativ hüquqi aktlarla tənzimlənən mexanizmlərdən geniş istifadə edilir.

Azərbaycan Respublikasının gömrük statistikasının aparılmasının hüquqi əsasını "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi", 2013-cü ildə yeni redaksiyada hazırlanmış "Gömrük tarifi haqqında" qanun, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 91 saylı 22 aprel 1998-ci il tarixli qərarı, 1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları", Azərbaycan Respublikasının Hazirlər Kabinetinin "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi haqqında 26 aprel 2016-cı il tarixli 168 saylı qərarı, "İxrac nəzarəti haqqında" qanun, "Gömrük Məcəlləsi" və digər normativ hüquqi aktlar təşkil edir. Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 91 saylı 22 aprel 1998-ci il tarixli qərarına əsasən ixrac olunan mallar növlərindən asılı olmayaraq

ixrac rüsumuna cəlb edilmirdi. Xarici ticarətin gömrük statistikasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməyə uyğun olaraq hazırlanmış qanunvericilik aktları mühüm əhəmiyyət kəsb edir. Bu əssnaməyə əsasən gömrük orqanları öz fəaliyyətində idxalın əmtəə strukturunun tənzimlənməsi, valyuta nəzarətinin səmərəliliyinin artırılması məqsədi ilə valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətinin təmin edilməsini, iqtisadiyyatın rəqabət qabiliyyətini gücləndirilməsi üçün ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirlərindən qoruması, dünya iqtisadiyyatına inteqrasiyasına münbit şəraitin yaradılması kimi məsələləri müvafiq normativ-hüquqi qaydalarla tənzimləyirlər. Məsələn, idxalın tənzimlənməsi idxal üçün qanunda nəzərdə tutulmuş tarif kvotalarının tətbiqi ilə tənzimlənir ki, bu da idxalın müəyyən edilmiş həcmindən artıq mal idxalına yüksək gömrük rüsumu tətbiq edilməklə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatlarının tənzimlənməsi qaydaları" haqqında təsdiq edilmiş fərmana sasən, Azərbaycan Respublikasında bütün rezidentlər və qeyri-rezidentlər tərəfindən idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi Gömrük Məcəlləsində nəzərdə tutulan mallar istisna olmaqla heç bir məhdudiyyətlər daşımır. İdxal-ixrac əməliyyatları əsasən Dövlətlərarası Sazişlərlə nəzərdə tutulur. Xarici ticarət əməliyyatları gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir "İxrac nəzarəti haqqında" qanuna əsasən ixrac nəzarətinə düşən malların iş və xidmətlərin siyahısı Nazirlər Kabinetinin təklifi əsasında ölkə perzidenti tərəfindən təsdiq edilir.


Azərbaycan Respublikasında neft sazişlərinə aid idxal olunan mallar, əlvan və qara metallurgiya sənayesinin bəzi məhsulları, kreditlər, qrantlar, humanitar yardımlar, xarici sərmayə ilə işləyən müəssisələrin rezident olmayan əməkdaşlarının malları, fiziki şəxslərin gətirdiyi istehsal və kommersiya məqsədi daşımayaraq dəyəri 1000 ABŞ dollarından az olan bütün mallar heç bir vergiyə cəlb olunmurlar.

Hazirlər Kabinetinin "Gömrük yığımlarının məbləğlıri"nin təsdiq edilməsi haqqında 26 aprel 2016-cı il tarixli 168 saylı qərarı ilə təsdiq edilmiş "İxrac nəzarəti haqqında" qanuna əsasən, gömrük yığımlarının tətbiq edilməsi gömrük nəzarətinin həyata keçirilməsi, malların gömrük rəsmiləşdirilməsi, gömrük müşayyəti, malların saxlanılması və digər xidmətləri əhatə edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında 2018-ci ilədək 7 pilləli (0%, 0.5,% 1%, 3%, 5%, 10%, 15%) advalor gömrük rüsum dərələcələri tətbiq edilirdi. 2018-cii ildən isə 7 pilləli advalor gömrük rüsum dərələcələri yeni 3 pilləli (0%, 5%, 15%) gömrük rüsum dərəcələri ilə əvəz edilmişdir. Rüsum dərəcələrinin tərkibinin azldılaraq sadələşdirilməsi, ticarət dövriyyəsinin artırılması məqsədilə əksər mal kodları üzrə idxal gömrük rüsumlarının azldılması, yerli istehsalın qorunması məqsədilə isə müəyyən mal kodlarının gömrük rüsumları artırılmış, digərləri isə əvvəlki qaydada saxlanılmışdır. Gömrük tarifi mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi, ölkədə rəqabətədavamlı məhsulların istehsalı, daxili bazarın qorunması və qeyri-neft sektorunun davamlı inkişafında dövlət dəstəyinin daha da gücləndirilməsi, idxal rüsumlarının azpilləli sistemə keçirilməsi, habelə "Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında" Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə kodların Beynəlxalq Harmonik Sistemin yeni variantına uyğunlaşdırılması məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.5-ci və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının 3.2-ci bəndlərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetindən "Azərbaycan

Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsümlarının dərəcələri haqqında" 17 noyabr 2017-ci tarixli 500 nömrəli Qərarı təsdiq edilmişdir. Yenilənmiş təfsilati kodlaşdırma sistemi və malların idxal-ixrac rüsum dərəcələri VAİS proqram təminatına daxil edilmiş və 01.01.2018-ci il tarixindən xarici iqtisadi fəaliyyət iştirakçılarının rahatlığının təmin olunması üçün Dövlət Gömrük Komitəsinin "customs.gov.az" rəsmi saytında yerləşdirilərək ümumi istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gmrük komitəsində 2016-cı ildən "yaşıl dəhliz" sistemi tətbiq edilməsi gömrük rəsmləşdirilməsinin səmərəliliyinin artıraraq, gömrük əməliyyatlarına sərf edilən vaxtın və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilərək minimumulaşdırılmasına, şəffaflığın təmin olunmasına şərait yaratmışdır. Bu tədbirlər nəticəsində gömrüküzrə daxilolmalar əvvəlki dövrlə müqayisədə əsaslə şəkildə artmışdır. Butün bunları Azərbaycan Respublikasının 2010-2019-cü illəri əhatə edən dövrlərdə gömrük üzrə büdcə daxilolmalarını əks etdirən aşağıdakı qrafikdən görmək olar.



Qrafik 11.1. Gömrük üzrə büdcə daxilolmaları, mln. manatla
Mənbə. ARDGK-nin gömrük statistikası üzrə məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi gömrük üzrə büdcə daxilolmalarının həcmi 2016-cı ildən başlayaraq daha çox artmışdır. Belə ki, 2016-cı ildə 201-cu illə müqayisədə gömrük üzrə büdcə daxilolmaları 2,3 dəfə artmışdırsa 2019-cu ildə bu artım 2010-cu illə müqayisədə 4,4 dəfə, 2016-cı illə müqayisədə isə 1,9 dəfə və yaxud 2116,97 mln.manat artmışdır. Bu artım 2018-ci ilə nisbətən 35,5% təşkil etməklə 2019-cu ildə gömrük üzrə büdcə daxilolmalarının həcminin 4408,63 mln. manat səviyyəsində qərarlaşması ilə nəticələnmişdir. Qeyd etmək lazımdır ki, gümrük üzrə büdcə daxilolmalarının bütün elementləri-gömrük rüsumları, ƏDV, aksizlər və yol vergisi üzrə də bu artım müşahidə edilmişdir. Aşağıdakı cədvəl məlumatlarından bunları daha aydın görmək olar.

Cədvəl11.1.1

Azərbaycan Respublikasında gömrük üzrə büdcə daxilolmaları, mln. manatla

İllər	Gömrük rüsumu üzrə	ƏDV üzrə	Aksizlər üzrə	Yol vergisi üzrə	Cəmi
2010	191,6	746,27	55,82	8,81	1002,5
2011	231,58	835	62,76	12,2	1141,54
2012	230,62	883,37	76,85	17,51	1208,35
2013	298,25	986,09	81,34	17,58	1383,26
2014	365,9	1070,96	57,04	16,88	1510,78
2015	387,38	1101,16	83,59	19,78	1591,91
2016	600,21	1515,32	92,89	83,24	2291,66
2017	706,87	1773,19	93,92	34,79	2608,77
2018	827,45	2223,78	165,33	36,52	3253,08
2019	1109,49	3004,08	249,63	45,43	4408,63

Mənbə. ARDGK-nin gömrük statistikası üzrə məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarından göründüyü kimi gümrük üzrə büdcə daxilolmaları gömrük rüsumları, ƏDV, aksizlər və yol vergisi üzrə 2010-2019-cü illəri əhatə edən dövr üzrə artmışdır. Bütün elementlər üzrə ən böyük artım 2016-cı ildən sonrakı dövrləri əhatə edir. ƏDV üzrə büdcə daxilolmalarının payı 2019-cü ildə 68,1%, gömrük rüsumlarının payı isə 25,1% təşkil etmişdir.

Gömrük üzrə büdcə daxilolmaların həcminin artması əsasən aparılan uğurlu islahatlar hesabına əldə edilmişdir. Bu islahatlar içərisində idxal əməliyyatlarında güzəştlərin tətbiq edilməsi mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, investisiya təşviqi sənədi almış hüquqi və fiziki şəxslər, sənaye və texnologiyalar parklarının və aqroparklarının rezidentləri texnikanın, texnoloji avadanlıqların və qurğuların Azərbaycan Respublikasına idxalı zamanı idxal rüsumundan 7 il müddətinə azad edilməsi də sahibkarlığ mühitinin yaxşılaşdırılmasına xidmət edərək daxili istehsalın həcminin artaraq, ixrac yönümlü məhsul istehsalını stimullaşdırır. Bununla bərabər 2017-ci ildə gömrük qanunvericiliyində qanuna edilmiş dəyişikliklərə əsasən, malın gömrük ərazisinə idxalının artmış həcmi və şərtləri yerli istehsal sahələrinə ciddi zərər vurma təhlükəsi yaratdıqda xüsusi, antidempinq və kompensasiya rüsum növləri tətbiq edilməsi də iqtisadi fəaliyyət sahələrinin inkişafına müsbət təsir göstərir. Bu rüsum növlərinin formalaşdırılması və tətbiqi qaydası "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanuna uyğun olaraq araşdırma üzrə gömrük mütəxəssisi tərəfindən müəyyən edilir. Bu qanunda nəzərdə tutulan müddəaların yerinə yetirilməsi normal dəyərindən aşağı qiymətə Azərbaycana mal ixracının qarşısını alaraq, yerli istehsalı müdafiə etməklə daxili istehsalın inkişafına şərait yaradır.

2005-ci ildən Avropa Birliyi (AB) Komissiyası ABŞ-a qarşı ticarət sanksiyası tətbiq etdi. ABŞ-dan idxal olunan kənd təsərrüfatı, tekstil, kağız və maşınqayırma məhsullarına görə əlavə 15% rüsum tutulur. AB bu sanksiyanın ABŞ-m antidempinq qanunvericiliyini yumşaltmaq öhdəliyinə əməl etməməsi ilə əlaqədar tətbiq etmişdir.

AB-nın ABŞ-a olan iradları Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən də təsdiqlənmişdir. AB, eləcə də Braziliya, Meksika, Kanada, Hindistan, Koreya və Yaponiyanı qane etməyən ABŞ qanunvericiliyindəki "Bir düzəlişi"dir. Bu düzəlişə görə ABŞ istehsalçıları antidempinq tədbirləri çərçivəsində xarici rəqiblərindən tutulan rüsumları almaq hüququna malikdirlər. ÜTT bunun beynəlxalq ticarət normalarına zidd olduğuna qərar vermişdir. Sadalanan ölkələrin əks tədbir görmək hüququnu da təsdiqləmişdir. Avropalı ekspertlərin fikrincə, sanksiya nəticəsində ABŞ hər il 150 milyon dollar itirir [80]

Azərbaycan Respublikasında neft-qaz ixracı üzrə əməliyyatlar ümumi ixracın 90%-dən çoxunu təşkil etdiyinə görə işdə bu sektorun xarici ticarətinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə 2009-cu ildə qəbul edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" qanunkarbohidrogen fəaliyyəti ilə məşğul olan podratçıların və subpodratçılarm vergi, gömrük və valyuta tənzimlənməsi rejimləri və işçi qüvvəsindən istifadə məsələlərinin tənzimlənməsində mühüm rol oynayır. Bu qanuna əsasən ixrac yönlü neft-qaz fəaliyyəti ilə məşğul olan podratçılar mənfəət vergisi üzrə nəzərdə tutulan vergi rejimini seçməkdə sərbəstdirlər. Bununla bərabər Vergi Məcəlləsində nəzərdə tutulan hüquqi şəxsin mənfəət vergisinin dərəcəsinin artırılması zamanı bu qanunda nəzərdə tutulan hüquqi şəxsin mənfəət vergisi dəyişilməz qalır. Hüquqi şəxs statusunda olan podratçılar və xarici subpodratçılar malların təqdim edilməsi, iş və xidmətlərin göstərilməsindən əldə olunan gəlirə VM-nin müvafiq maddəsinə əsasən 5% dərəcəsi ilə hüquqi şəxsin mənfəət vergisini ödəyirlər. Onlar AR-na idxal etdikləri mallar, iş və xidmətlər üzrə əlavə dəyər vergisini ödəməkdən azad olunurlar. İxrac məqsədli neft-qaz fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün AR-na idxal-ixrac etdikləri mallar (işlər, xidmətlər) üçün gömrük rüsumlarını və əlavə dəyər vergisini AR-nm qanunvericiliyinə uyğun olaraq ödəyirlər.

Qeyd etmək lazımdır ki, podratçılar və subpodratçılar ödənişlər üzrə öhdəliklərini yerinə yetirdikdən sonra öz vəsaitlərini xarici valyutada AR-dan sərbəst olaraq kənara keçirmək, orada saxlamaq və istifadə etmək hüququna malikdirlər. Həmçinin 2014-cü ildə qəbul edilmiş "Gömrük Məcəlləsi"nə əsaən, "Hasilatın pay bölgüsü haqqında", "Əsas boru kəməri haqqında" sazişlərin və bu qəbildən olan digər beynəlxalq müqavilələrin icrası ilə bağlı gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara gömrük ödənişləri həmin sazişlərin müddəalarına uyğun olaraq tətbiq edilir".

2016-cı ildə imzalanmış "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərildiyi kimi islahatların yeni mərhələsində Azərbaycanda ixracyönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixracyönümlü iqtisadiyyata transfermasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur. Sərəncama uyğun olaraq, kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə qaydası tətbiq edilir. Xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda tətbiqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəlki tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilir. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistik mərkəzlərin yaradılması istiqamətində araşdırmalar aparılır, ixrac məlumat bazasının (elektron portal) yaradılması üçün işlər görülür. İxracda xüsusi önəm kəsb edən qablaşdırmanm əhəmiyyəti nəzərə alınaraq, bu sahədə təşkilatların yaradılması təşviq olunur, by sahəyə dövlət dəstəyi daha da gücləndirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən 2016-2018-ci illərdə idxal-ixrac əməliyyatlarının normativ-hüquqi bazasını təkmilləşdirmək istiqamətində ciddi addımlar atılmışdır. 2018-ci ildə maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması,

qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi və dövlətin fıskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin səmərəli əlaqələndirilməsi məqsədilə ölkə başçısı "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamda bir sıra idxal-ixrac əməliyyatları üzrə Gömrük Komitəsinin və Vergilər Nazirliyinin birgə nəzarəti nəzərdə tutulur.

2018-ci ildən başlayaraq Dövlət Gömrük Komitəsi tərəfindən islahatların aparılmasına başlamışdır. Bu islahatlar beynəlxalq standartlara cavab verən Avropa modelinin tətbiqinə, çevik idarəetmə sisteminin formalaşdırılmasma və nəzarət sistemindən xidmət sisteminə keçidə imkanlar yaratması nəzərdə tutulur. Onlardan biri də maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırlması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılmasıdır. Bu istiqamətdə dövlətin fıskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin əlaqələndirilməsi də nəzərdə tutulur. Nazirlər Kabinetinin qərarına əsasən ixrac-idxal əməliyyatlarında sərhəd-keçid məntəqələrində tələb olunan sənədlərin sayı azaldılmış, elektron yanaşmalar tətbiq edilməyə başlanılmış, vətəndaş münasibətləri minimuma endirilmişdir.İdxal-ixrac əməliyyatları üzrə Dövlət Gömrük Komitəsi və Vergilər Nazirliyi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi məqsədəuyğun hesab edilmişdir. Maliyyə, Vergilər, İqtisadiyyat nazirlikləri və Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə birgə nəzarətlə əhatə olunan prosedurların siyahısını, mexanizmlərini hazırlamış və baxılması üçün təqdim etmişlər. Dövlət başçısının "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmiləşdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamına uyğun olaraq, Vergilər Nazirliyinin yanında yeni struktur - İdxal-İxrac əməliyyatları üzrə Departament yaradılmışdır.

Azərbaycan Respublikasının gömrük statistikasının aparılmasının hüquqi əsasını Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında" qanun, digər qanunvericilik

aktları və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə təşkil edir. "Azərbaycan Respublikası gömrük statistikasının metodologiyası"nda (bundan sonra - "Metodologiya") qanunvericilik aktları ilə müəyyən olunmuş əsas gömrük qaydaları və üsulları şərh edilmişdir. "Metodologiya"nı hazırlayarkən BMT-nin Statistika komissiyasının tövsiyələrindən və ''Malların xarici ticarətinin statistikası" adlı rəhbər sənəddən [21] istifadə edilmişdir. "Metodologiya"nm işlənib hazırlanması Azərbaycan Respublikasının beynəlxalq praktikada qəbul olunmuş uçot və statistika sisteminə keçid tədbirlərinin həyata keçirilməsinə kömək edir. Metodologiya aşağıda göstərilən məsələləri əhatə edir:

-gömrük statistikası məsələləri;
-gömrük statistikasının formalaşma mənbələri;
-uçot obyektləri;
-xarici ticarətin uçot sistemləri;
-gömrük statistikasının göstəriciləri;
-qeyd vaxtı;
-malların statistik dəyərinin hesablanmasının əsas prinsipi.

11.2. Xarici ticarətin gömrük statistikasının əsas məsələləri və onun uçot meyarları

Gömrük statistikasının predmetinin əsası gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinin tam və dəqiq uçotunun təmin edilməsindən və xarici iqtisadi əlaqələrin təhlilini aparmaqla aşağıda qeyd olunmuş məsələlərin həll edilməsindən ibarətdir:

-respublikanın xarici iqtisadi əlaqələr üzrə siyasətinin müəyyən edilməsi;

-icra orqanları, dövlətlərarası ticarət danışıqları və operativ işlər üzrə məlumat təminatı;

-xarici iqtisadi əlaqələrin tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin yerinə yetirilməsinə aid məlumatın yığılması və emalının təmin edilməsi;

-daxili bazar konyunkturamın təhlili;

-valyuta nəzarəti tədbirlərinin aparılmasında informasiya təminatının təşkili;

-milli hesabatlar və tədiyə balansının bəzi göstəricilərinin tərtib edilməsi.

Gömrük statistikasında elə mallar nəzərə almır ki, onlar idxal və ixrac əməliyyatları nəticəsində ölkənin material ehtiyatlarını artırır və ya azaldır (əsas uçot meyarı). Gömrük statistikasının formalaşdırılması üçün statistik informasiyanın əsas mənbələri aşağıdakılardır:

-yük gömrük bəyannamələri;

-yükü müşayiət edən sənədlər;

-dövlət orqanlarının lisenziya və icazələri;

-müxtəlif elektron jurnallar.

Eyni zamanda, Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallar barədə lazımi məlumatlar olan digər sənədlərdən istifadə edilir. Xarici ticarətin gömrük statistikasının aparılması üçün ilkin məlumatlar yük gömrük bəyannamələrində qeyd olunmuş məlumatlar sayılır.

Boru kəməri (neft, qaz, neft məhsulları, su və s.) və elektrik ötürücü xətləri ilə nəql edilən malların uçotu sərhəd və ya nəzarət-bölüşdürücü məntəqələrində malların qəbulunu təsdiq edən sənədlərə (aktlara) müvafiq olaraq onların partiyalar üzrə bəyannamələşdirilməsinin xüsusiyyətlərinə görə aparılır.

11.3 Azərbaycan Respublikası xaricticarətinin uçot sistemi

Azərbaycan Respublikasının gömrük statistikası ümumi uçot sisteminə müvafiq olaraq aparılır. Bununla əlaqədar respublikanın gömrük ərazisinə gətirilən və ya aparılan bütün mallar uçota almır. Ümumi uçot sisteminə əsaslanaraq aşağıda qeyd olunmuş mallar nəzərə almır:

Azərbaycan Respublikasının idxalı:

-sərbəst dövriyyə üçün gətirilmiş mallar;

-təkrar idxal olunmuş mallar;

-gömrük ərazisində emal etmək üçün gətirilmiş mallar;

-gömrük ərazisindən kənarda emal edildikdən sonra gətirilmiş mallar;

-gömrük nəzarəti altında emal etmək üçün gətirilmiş mallar;

-Azərbaycan Respublikasının dövlət ərazisində azad ticarət zonasına və sərbəst anbarlara gətirilmiş mallar;

-sahibi tərəfindən dövlətin xeyrinə imtina edilən mallar;

-rüsumsuz ticarət mağazalarına gətirilmiş xarici mallar;

-bir il və ondan çox müddətə respublika ərazisinə müvəqqəti gətirilmiş mallar.

Azərbaycan Respublikasının ixracı aşağıdakıları əhatə edir:

-ixrac gömrük rejiminə müvafiq olaraq göndərilmiş mallar;

-sərbəst dövriyyə üçün gətirilmiş, sonradan isə ixrac gömrük rejiminə müvafiq olaraq Azərbaycan Respublikasından göndərilmiş mallar;

- gömrük ərazisində emal edildikdən sonra göndərilmiş mallar;gömrük nəzarəti altında emal edildikdən sonra göndərilmiş mallar;

- gömrük ərazisindən kənarda emal edilmək üçün göndərilmiş mallar;

- Azərbaycan Respublikası ərazisindən təkrar ixrac rejiminə müvafiq olaraq göndərilmiş mallar; azad ticarət zonasından və sərbəst anbarlardan Azərbaycan Respublikası ərazisindən kənara göndərilmiş mallar;

-rüsumsuz ticarət mağazalarından Azərbaycan Respublikasının ərazisindən kənara göndərilmiş Azərbaycan malları və xarici mallar; bir il və ondan çox müddətə respublika ərazisindən müvəqqəti göndərilmiş mallar.

11.4 Xarici ticarətin gömrük statistikasında nəzərə alınmayan mallar

Gömrük statistikasında respublikanın iqtisadi potensialının artırırılmasında heç bir rolu olmayan gömrük rejimləri nəzərə alınmır:

-Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçən mallar;

-gömrük anbarı rejimi altında qoyulmuş mallar;

-bir il və ondan çox icarə müddəti istisna olmaqla, müvəqqəti gətirilmiş (aparılmış) mallar;

-Azərbaycan Respublikasının ərazisində məhv edilən xarici mallar.

Gömrük statistikasına daxil edilməyən malların siyahısına aşağıakı mallar da daxil edilmir:

- tədavüldə olan, xarici və yerli bank müəssisələrinin qarşılıqlı hesablaşmaları tənzimləmək üçün mübadilə etdikləri valyuta (o cümlədən, monetar qızıl). Qeyd etmək istərdik ki, banklararası valyuta mübadiləsi yük gömrük bəyannaməsində (YGB) nominal qiymətində deyil, kommersiya qiymətində nəzərə alınmalıdır. Bu da o deməkdir ki, valyutanın ixracı və idxalı zamanı YGB- nin 42-ci qrafasmda (malın faktura dəyəri) valyutanın alqı-satqı kommersiya qiyməti göstərilir;

-girov əşyaları və öhdəliyi təmin edən digər vasitələr. Bu malların nəzərə alınmaması ondan irəli gəlir ki, onlar respublikanın iqtisadi potensialını artırmır;

-dəyəri statistika həddini keçməyən mallar;

-Maliyyə Nazirliyinin və ya Mərkəzi Bankın təsdiq- edici sənədi əsasında gətirilən qanuni tədiyə vasitələrindən olan valyuta, banknot, rəsmi dövlət sənədi blankları, habelə vətəndaş pasportları və qiymətli kağızlar. Göstərilən mallar iqtisadiyyata birbaşa təsir etmədiyindən gömrük statistikasının obyekti deyil;

-xarici ölkələrin, beynəlxalq dövlətlərarası təşkilatların, bu təşkilatların xarici dövlətlərdə diplomatik və konsulluq nümayəndəliklərinin xidməti istifadələri üçün mallar;

-Azərbaycan Respublikasının xaricdəki nümayəndəlikləri üçün gömrük ərazisindən çıxarılan mallar;

-xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak.

Bir qrup mal ticarət əməliyyatlarının obyekti olmadığından gömrük statistikasında nəzərə alınmır:

- fiziki şəxslər tərəfindən keçirilən kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan mallar (beynəlxalq poçt və baqaj vasitəsilə keçirilən mallar da daxil olmaqla);

-poçt nişanları;

-adət və mərasim əşyaları;

-fotoqrafıyalar, ekspozisiyalaşdırılmış və aşkarlanmış plyonkalar, layihələr, rəsmlər, kalkalar, əlyazmalar, iş kağızları, inzibati çap blankları, habelə beynəlxalq informasiya mübadiləsi çərçivəsində istifadə olunan daşıyıcı (o cümlədən, xarici standartlar, texniki şərtlər və təsvirlər və s.);

-gələn və ya öz daimi yaşayiş yerinə gedən fiziki şəxslər, habelə qaçqınlar və məcburi köçkünlər tərəfindən gətirilən və aparılan mallar.

Dünya praktikasında adətən elə ticarət əməliyyatları aparılır ki, onların həyata keçirilməsi zamanı ölkənin gömrük sərhədi ilə kəsişmə müşahidə olunmur və nəticədə bu, gömrük statistikasına daxil edilmir. Bu əməliyyatlardan aşağıdakıları göstərmək olar:

- beynəlxalq daşımalarda istifadə olunan dəniz gəmiləri, uçan aparatlar;

- Azərbaycan Respublikasının sərhədlərindən kənarda, o cümlədən xarici dövlətlərin ərazi sularında və açıq dənizdə milli gəmilərdən xarici gəmilərə satılan balıq və bütün növlərdən olan dəniz məhsulları;

- açıq dənizdə dənizin dibindən çıxarılan mallar;

- bunker yanacağı, ballast, Azərbaycan Respublikasının nəqliyyat vasitələri üçün xaricdə alman ərzaq və digər materiallar;

-ölkəyə gətirilmədən təkrar ixrac.

Xüsusi xarakterli əməliyyatlar da gömrük statistikasında nəzərə alınmır:

- reklamasiya, zəmanət xidməti qaydasında təmirə və təmirdən sonra göndərilən mallar;

- səhv göndərilən mallar.

11.5 Gömrük statistikasında xüsusi uçota alınan əməliyyatlar

Azərbaycan Respublikasının ərazisindən çıxarılan və bu əraziyə gətirilən bir sıra malların uçotunun öz xüsusiyyətləri var. Bunlardan aşağıdakıları qeyd etmək olar:

- ödəniş vasitəsi kimi çıxış etməyən qiymətli metallar, tədavüldə olmayan qiymətli kağızlar, banknotlar və sikkələrin kommersiya dəyəri ixrac-idxalda nəzərə almır;

- xarici yardım üzrə hökumət proqramları çərçivəsində malların gətirilməsi və aparılması da daxil olmaqla, hökumətlərarası mal göndərmələrində mallar BMT-nin Texniki yardım fondunun üzvlük haqları hesabına, hədiyyə və ya borc, mal mübadiləsi (barter) partiyası və ya restutisiya kimi göndərilməsindən asılı olmayaraq ixrac-idxala daxil edilir;

- humanitar yardım kimi daxil olmuş əşyalar gömrük orqanlarına gömrük rəsmiləşdirilməsi üçün bildirilmiş dəyər üzrə ixrac-idxala daxil edilir;

- bunker yanacağı, ballast, ərzaq və digər materiallar aşağıdakı hallarda nəzərə almır:

a) Azərbaycan Respublikasının gömrük ərazisində xarici gəmilər və uçan aparatlar üçün satıldıqda;

b) Azərbaycan Respublikasının gömrük ərazisində xarici gəmilərdən və uçan aparatlardan alındıqda.

- bir ildən çox müddətə icarəyə götürülmüş mallar icarəyə götürülmüş malın gətirilmə (göndərilmə) anından tam dəyəri üzrə uçota almır.

Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası ölkənin xarici ticarət dövriyyəsinə daxil edilməklə, emal üçün respublika ərazisinə gətirilmiş, yaxud gömrük ərazisindən kənara göndərilmiş və emal olunmuş aşağıdakı kateqoriyalardan olan malları, habelə emaldan sonra qaytarılmış malları xüsusi uçota alır.

İdxal əməliyyatları zamanı gömrük statistikasında xüsusi uçota alınan əməliyyatlara aşağıdakılar daxildir:

-Azərbaycan Respublikasının gömrük ərazisinə emal üçün, o

cümlədən gömrük nəzarəti altında emal üçün gətirilmiş mallar;

-Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda emal edildikdən sonra gətirilmiş mallar.

İxrac əməliyyatları zamanı gömrük statistikasında xüsusi uçota alınan əməliyyatlara aşağıdakılar daxildir:

-Azərbaycan Respublikasının gömrük ərazisində emal edildikdən sonra, o cümlədən gömrük nəzarəti altında emal edildikdən sonra göndərilən mallar;

- emal üçün Azərbaycan Respublikasının gömrük ərazisindən kənara göndərilən mallar.

11.6 İdxal və ixrac olunan malların uçotunun miqdar və dəyərlə ifadə formasında aparılma qaydası

Malların gömrük ərazisinə gətirilməsinin və çıxarılmasının statistik müşahidəsi yük gömrük bəyannaməsində (YGB) göstərilən məlumatlar əsasında təşkil olunur. YGB-lər gömrük sərhədindən keçən mallar barədə operativ məlumat alınmasına imkan yaradır. Bu bəyannamələrdə qeyd olunmuş məlumatlar statistik məlumat bazalarının formalaşması üçün rəsmi mənbə sayılır.

Xarici ticarətin gömrük statistikası malların idxal və ixracını miqdar və dəyərlə ifadə formasında aparır. Miqdar uçotu beynəlxalq mal dövriyyəsini tam təsvir edir. Dünya ticarətində malların dövriyyəsi ton, kiloqram, sentner və funtla ölçülür. Lakin gömrük statistikası "Malların kodlaşdırılması və təsvirinin harmonlaşdırıl- mış sistemi"nə [27] əsaslanaraq, uçotu, əsasən, brutto və ya netto çəkisində (kiloqramla) aparır. Brutto çəkisindən o vaxt istifadə olunur ki, malın tarasız istifadəsi mümkün deyil. Əsas ölçü vahidi "kiloqram" hesab olunur. Miqdar ölçü vahidindən başqa, bəzi mallar üçün əlavə ölçü vahidindən də istifadə olunur. Məsələn, ayaqqabı üçün uçot "cüt"lə aparılır, meşə materialı - kub metrlə, canlı heyvanlar - baş sayı ilə, avtomobil və avadanlıq isə ədədlə ifadə olunur. Eyni zamanda, başqa əlavə ölçü vahidləri də tətbiq olunur. Göstərilən hallarda statistik uçot əlavə ölçü vahidində

aparılır.Miqdar ölçü vahidindən başqa, gömrük sərhədini keçən malların qiymətləndirilməsi dəyər ölçü vahidi əsasında da aparılır. Xarici iqtisadi mal dövriyyəsinin dəyər qiymətləndirilməsi ölkələrin beynəlxalq əlaqələrinin və vəziyyətinin vacib göstəricisidir. Dəyər qiymətləndirilməsində satıcı və alıcı arasında malın təyinat ölkəsinə çatdırılma öhdəlikləri əsas amil kimi nəzərə alınmalıdır. Müqavilə şərtlərinə uyğun olaraq hesab-fakturada (invoysda) malın dəyəri müxtəlif olur. Satıcı hesab-fakturaya müqavilədə qeyd olunmuş ticarət (göndəriş) şərtlərinə müvafiq olaraq öz xərclərini daxil edir.

Beynəlxalq təcrübədə alqı-satqı müqavilələri müxtəlif ticarət şərtləri daxilində həyata keçirilir. Ticarət şərtləri (gömrük mənasında, göndəriş şərtləri) Beynəlxalq Ticarət Palatası tərəfindən müəyyən olunub. Beynəlxalq Ticarət Palatası ticarət şərtlərinin birmənalı başa düşülməsi üçün "Ticarət anlayışlarının şərhinin beynəlxalq qaydaları"nı tərtib etmişdir ("İnkoterms"). İlk dəfə "İnkoterms" 1936-cı ildə hazırlanmış, 1953, 1967, 1976, 1980 və 1990-cı illərdə düzəlişlər aparılmışdır. Hazırda istifadə olunan "İnkoterms" 2000-ci ildə qəbul olunub, amma ona da 2011 -ci ildə bir neçə düzəliş və əlavələr edilib. Göndəriş-ticarət şərtlərindən asılı olaraq satıcı tərəfindən alıcıya təqdim olunmuş hesab-fakturada malların dəyəri müxtəlif olur. Hesab-fakturaya satıcı o xərcləri daxil edir ki, onlar alqı-satqı müqaviləsində qeyd olunmuş ticarət şərtlərinə müvafiq olaraq satıcının öhdəsinə daxildir. Satıcının xərcləri bəyan olunan malın faktura dəyərinə daxildir və müqavilədə göstərilən valyutada ifadə olunur. Beynəlxalq Ticarət Palatasının ("İnkoterms") əsas funksiyalarından biri də müxtəlif ölkələrin xarici ticarəti arasında müqayisənin aparılması üçün metodoloji zəminin yaradılmasıdır. Metodologiya ondan ibarətdir ki, malın statistik dəyəri müqavilənin göndəriş şərtindən asılı olaraq dörd bazis-göndəriş şərtləri çərçivəsində hesablanır. Bu da müxtəlif ölkələrin xarici ticarətinin müqayisəsini aparmağa imkan verir. Müxtəlif göndəriş şərtlərinə müvafiq olaraq malın dəyəri də müxtəlif olur. Ölkələrin xarici ticarətinin müqayisəsi zamanı bir malın ixrac və idxalının fərqini müəyyən edərkən onların göndəriş

şərtlərinə müvafiq olaraq toplanması (ixrac və idxal üzrə) və fərqlərin hesablanması düzgün nəticə vermir. Eyni bir mal satıcının anbarından alınırsa, malın qiyməti onun maya dəyərinə və satıcının mənfəətinə müvafiq olacaq. Həmin mal ixrac ölkəsinin sərhədindən almırsa, onda malın faktura dəyəri artır. Malın daha da yüksək faktura dəyəri təyinat ölkəsinin sərhədində müşahidə olunacaq. Bu da təbiidir, çünki malın faktura dəyəri satıcıdan alıcıya qədər olan hərəkət zamanı nəqliyyat, sığorta və başqa xərclər hesabına artır. Bir neçə ölkədən respublikaya idxal olmuş eyni malların müqayisəsini aparmaq məqsədilə malların faktura və ya gömrük dəyərlərinin vahid ticarət şərtinə gətirilməsi zəruridir. Bazis-göndəriş şərtləri aşağıdakılar

- ***ixracda:*** FOB - Azərbaycan limanı və ya DAF - Azərbaycan Respublikasının sərhədi (2011 -ci il yanvarın 1-dən DAP ticarət şərti istifadə olunur);
- ***idxalda:*** CİF - Azərbaycan limanı və ya CİP - Azərbaycan Respublikasının sərhədi.

1993-cü ildən başlayaraq ixrac-idxal əməliyyatlarının statistik uçotu ABŞ dollarında aparılır və bununla əlaqədar müqavilədə göstərilən valyuta Mərkəzi Bank tərəfindən müəyyən edilmiş məzənnə əsasında ABŞ dollarına çevrilir və YGB-nin 46-cı qrafasma yazılır. Ümumiyyətlə, malın statistik dəyərinin hesablanması aşağıda göstərilən ardıcıllıqla aparılmalıdır:

-Müqavilə şərtlərinə uyğun olaraq ötürülmə məntəqələri (həmin məntəqələrdə malın sahibliyi satıcıdan alıcıya keçir) müəyyən olunmalıdır;

-Ötürülmə məntəqələri bazis-ticarət şərtlərinə uyğun gəlmədikdə malın faktura, yaxud gömrük dəyərinin üzərində əlavə hesablamalar aparılaraq onlar müvafiq olaraq bazis-ticarət şərtlərinə gətirilməlidir.

11.6.1 İdxal əməliyyatları üzrə malın statistik dəyəri

Müqavilədə qeyd olunmuş ticarət-göndəriş şərtləri bazis-ticarət şərtlərinə tam uyğun olursa (SİF - liman, SİP - sərhəd-təyinat məntəqəsi) və malın gömrük rəsmiləşdirilməsi sərhəddə aparılırsa, YGB-nin 46-cı qrafası manatın dollara olan kursu nəzərə alınmaqla aşağıdakı qaydada hesablanır:

$$\textbf{qrafa 46} = \frac{\textbf{qrafa 45 (YGB)}}{\textbf{YGB – nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu günə manatın ABŞ Dollarına görə məzənnəsi}}$$

Müqavilə-göndəriş şərtləri bazis şərtlərindən fərqli- dirsə, onda statistik dəyər aşağıdakı qaydada hesablanır:

$$\textbf{qrafa 46} = \frac{\textbf{qrafa 42} \times \textbf{qrafa 23(YGB)}}{\textbf{YGB – nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu günə manatın ABŞ Dollarına görə məzənnəsi}}$$

Burada, 42-ci qrafa malın faktura dəyərinin üzərində bazis-ticarət şərtlərinə keçid məqsədilə aparılmış hesablamalar nəticəsində alınan malın yeni dəyəridir.

11.6.2. İxrac əməliyyatları üzrə malın statistik dəyəri

Bazis şərtləri-FOB liman və ya DAF (DAP) Azərbaycan Respublikasının sərhədi. YGB-nin 46-cı qrafası yuxarıda göstərilmiş formula uyğun hesablanır. Əgər alqı-satqı müqaviləsinə uyğun olaraq əməliyyatlar manatla ödənilirsə, onda manatla ifadə olunmüş malın qiyməti YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gün üçün dolların kursu ilə hesablanır:

$$\textbf{qrafa 46} = \frac{\textbf{qrafa 42 (YGB)}}{\textbf{YGB – nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu günə manatın ABŞ Dollarına görə məzənnəsi}}$$

Əgər alqı-satqı müqaviləsi ABŞ dolları ilə ifadə olunubsa, onda YGB-nin 42-ci qrafası 46-cı qrafa ilə eyni olmalıdır (əgər müqavilədə qeyd olunmuş ticarət şərtləri bazis-ticarət şərtləri ilə eynidirsə).

Yuxarıda göstərilmiş formulu hesablamamışdan əvvəl malın faktura dəyəri bazis-göndəriş şərtlərinə gətirilməlidir.

Beynəlxalq təcrübədə 11 göndəriş şərtlərindən istifadə olunur və onların bazis-göndəriş şərtlərinə gətirilməsində dörd variant ola bilər:

1. Müqavilə-ticarət şərtləri bazis-ticarət şərtləri ilə üst-üstə düşür;
2. Müqavilə-ticarət şərtləri ixrac ölkənin daxilində yerləşir;
3. Müqavilə-ticarət şərtləri ara ölkəsində yerləşir;
4. Müqavilə-ticarət şərtləri təyinat ölkəsində yerləşir.

Qeyd olunmuş variantlar ötürülmə məntəqələrinin yerləşməsindən əmələ gəlir. Beləliklə, faktura və ya gömrük dəyərinin bazis-göndəriş şərtlərinə gətirilməsi metodikası ondan ibarətdir ki, müqavilə-göndəriş şərtləri (YGB-nin 20 qrafası) bazis şərtləri ilə müqayisə olunur. Şərtlər üst-üstə düşürsə (1- ci variant), onda statistik dəyər məzənnə nəzərə alınmaqla faktura dəyəri əsasında hesablanır. Əgər 2-ci və 3-cü variantlar əmələ gəlibsə, faktura və ya gömrük dəyərinə xərclər əlavə edilir və ya çıxarılır. Müvafiq düstur əsasında malın statistik dəyəri hesablanır. 4-cü variantda malın gömrük dəyərindən istifadə olunur.

Malların statistik dəyərinin ixrac əməliyyatları üzrə hesablanma metodikası aşağıda göstərilmiş ardıcıllıqla aparılır:

1. Müqaviləyə müvafiq olaraq (YGB-nin 20 qrafası) satıcı və alıcı arasında qəbul edilmiş ticarət-göndəriş şərtləri müəyyən olunur;
2. Əgər mal bazis şərtlərinə (FOB - liman və ya DAF - sərhəd məntəqəsi) əsasən satılıbsa, onda statistik dəyərin hesablanmasında Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş məzənnə nəzərə almır, YGB-nin 42- ci qrafasmda göstərilmiş faktura dəyərindən istifadə olunur;
3. Əgər mal digər göndəriş şərtləri əsasında satılıbsa, onda 42-ci

qrafa (müqavilə-göndəriş şərtinə uyğun faktura dəyəri) cari məzənnə nəzərə alınmaqla bazis- göndəriş şərtlərinə gətirilir;

Faktura dəyərinin dəyişməsi (düzəlişi) müqavilədə qeyd olunmuş ticarət-göndəriş şərtinin hansı ticarət-göndəriş qrupuna (“E”, ”F”, ”C”, ”D”) daxil olmasından asılıdır.

Əgər mal “E” (EXB) və ya “F” (FCA, FAS) qrupuna daxildirsə, onda ixrac ölkəsində mah dəniz və quru sərhədlərinə çatdırmaq üçün əlavə xərclər faktura dəyərinə artırılır, başqa sözlə, faktura dəyəri bazis şərtlərinə uyğun hesablanır. Mal “C” (CFR, CİF, CPT, CİP) və ya “D” (DAF, DES, DDP) şərtlərinə uyğun olaraq satıldığı hallarda Azərbaycan Respublikasının gömrük ərazisindən çıxdıqdan sonra faktura dəyərindən bütün xərclər silinir.

Azərbaycan Respublikasına gətirilən malların statistik dəyərinin hesablanma metodikası aşağıdakı qaydada aparılır:

1. Müqavilə-göndəriş şərtləri müəyyən olunur (YGB- nin 20-ci qrafası);

2. Əgər mal CİF və ya CİP bazis-göndəriş şərtlərinə uyğun satılıbsa, onda statistik dəyərin hesablanmasında YGB-nin 42-ci qrafasmda qeyd olunan faktura dəyəri Mərkəzi Bank tərəfindən müəyyən edilmiş məzənnə nəzərə alınmaqla istifadə olunur;

3. Əgər mal digər ticarət-göndəriş şərtlərinə müvafiq satılıbsa, onda 42-ci qrafa (faktura dəyəri müqavilə-göndəriş şərtinə uyğundur) bazis şərtlərinə (CİF -Azərbaycan limanı, CİP sərhəddə təyinat məntəqəsinə) gətirilir və sonra ABŞ dollarına çevrilir;

Faktura dəyəri üzərində düzəliş aparılması üçün müqavilə-göndəriş şərtinin hansı ticarət-göndəriş qrupuna (“E”, ”F”, ”C”, ”D”) daxil olması müəyyənləşdirilir.

Əgər mal “E” (EXB), ”F” (FCA, FAS, FOB) və ya “C” (CFR, CPT) göndərişlərinə uyğun alınıbsa, onda Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməni təmin edən xərclər də faktura dəyərinə əlavə olunur.

Müqavilədə göstərilmiş ticarət-göndəriş şərtləri “D” qrupuna (DES, DEQ, DDU, DDP) daxil olan hallarda gömrük ərazisinə gətirilmiş malların hərəkəti zamanı təyinat ölkəsinin daxilində sərf

olunmuş mövcud xərclər faktura dəyərindən çıxarılır.

Yuxarıda qeyd olunmuş hesablamalardan aydın görünür ki, onların etibarlılığı ötürülmə məntəqələrinin və ölkələrin giriş yerlərinin düzgün müəyyənləşdirilməsindən daha çox asılıdır.

Gömrük ərazisinin giriş yerləri adı altında aşağıdakılar başa düşülür:

- hava daşımaları üçün: təyyarənin yerə enməsi və malların boşaldılmasında təyinat hava limanı və ya birinci hava limanı;
- dəniz və çay daşımaları üçün: Azərbaycan Respublikasının ərazisində birinci boşaldılmış/yüklənmiş dəniz limanı və ya təyinat dəniz limanı;
- avtomobil və dəmir yolu daşımaları üçün: Azərbaycan Respublikasının gömrük ərazisində birinci gömrük orqanının yerləşdiyi yer;
- poçt vasitəsilə göndərilən mallar üçün: beynəlxalq poçt mübadilə məntəqəsi.

Dövlət Gömrük Komitəsində yaradılan məlumat bazalarının mövcud prosedurlara uyğunluğu, əsasən, təsnifatların təkmilləşdirilməsi yolu ilə təmin olunur. Əvvəllər emal gömrük rejiminə müvafiq olaraq təmirə göndərilən və təmirdən sonra geri qaytarılan mallar üçün keçirilmə xüsusiyyəti olmadığından dəqiq statistikanın aparılması mümkün olmurdu. Bu qüsuru aradan qaldırmaq məqsədilə ***"Təmirə göndərilən və təmirdən sonra geri qaytardan malların gömrük rəsmiləşdirilməsinin üsusiyyəti barədə" 2003-cü il 27 yanvar tarixli 012 nömrəli əmr qəbul edilmişdir*** [18]. Əmrdə göstərilir ki, gömrük sərhədindən malların keçirilmə üsullarının təsnifatına yeni kod - 34 kodu əlavə olunsun. YGB-nin 37-ci qrafasmda bu koddan istifadə etməklə "Təmirə göndərilən və təmirdən sonra geri qaytarılan mallar"m uçotu və məlumat bazasından bu əməliyyatların seçilməsi təmin olunur. Məlumat bazalarının üzərində aparılan axtarışların keyfiyyəti mövcud məlumatın tamlığından çox asılıdır. Məsələn, malların adı əsasında dəqiq axtarışı YGB-nin 31-ci qrafasmda qeyd olunmuş məlumatın tamlığından asılıdır.

"Yük gömrük bəyannaməsinin (YGB) 31-ci qrafasmda ayrı-ayrı mallar kateqoriyasının təsvirinə olan tələblər haqqında" 2002-ci il 25 dekabr tarixli 092 nömrəli əmr qəbul olunmuşdur [18]. Bu əmrlə təsdiqlənmiş siyahıdakı malların rəsmiləşdirilməsi zamanı YGB-nin "Malın təsviri və yük yerləri" olan 31-ci qrafasmda "YGB-nin doldurulma Qaydaları haqqında" Təlimatda göstərilən məlumat–lardan başqa, "1" rəqəmi yazılmaqla, qeyd olunan malların təsviri üzrə əlavə məlumatın verilməsi tələb olunur. Göstərilən əmrin tətbiqi malların eyniləşməsində böyük rol oynayır və birmənalı seçimi təmin edir. Təsnifat bazasının vaxtaşırı dəqiqləş–dirilməsi və genişlənməsi gömrük nəzarətinin səmərəliliyini təmin edir.

Malların gömrük sərhədindən keçirilmə üsulları, dünya ölkələrinin, gömrük ödənişlərinin, gömrük orqanlarının və YGB-nin 44-cü qrafasında məlumatların göstərilməsi zamanı istifadə olunan sənəd növlərinin yeni təsnifatları DGK-nın 139 nömrəli əmri ilə təsdiq olunub. Bu əmr əsasında təsnifat sistemi genişləndirilib - icra hakimiyyəti orqanları (Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi) tərəfindən verilmiş icazələrin təsnifatları, nəqliyyat növlərinin təsnifatları, tarif imtiyazlarının təsnifatları, maliyyə sənədlərinin təsnifatları və başqa təsnifatlar təsdiq olunub. DGK-nm 050 nömrəli əmri əsasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturasma yeni iki mal mövqeyi daxil edilmişdir: 8408 90 470 1 və 8408 90 470 9. Göstərilən əlavələr statistik təhlilin və gömrük nəzarətinin səmərəliliyini təmin etməlidir.

Qeyd etmək lazımdır ki, gömrük statistikasında İxrac-idxal əməliyyatlarının qeyd olunma vaxtı mühüm əhəmiyyət kəsb edir. Əsasən su, dəmir yolu, avtomobil və hava daşımaları zamanı idxal və ixrac olunan malların qeydiyyatı yük gömrük bəyannaməsində göstərilən gömrük rəsmiləşdirilməsi tarixinə əsasən aparılır. Boru kəməri ilə malların nəqli, eləcə də elektrik ötürücüləri vasitəsilə ötürülən elektrik enerjisinin idxal və ixracının tarixi boru kəməri və elektrik-ötürücü xətlərinin ötürücü-nəzarət məntəqələrində qəbul-təhvil aktlarına əsasən tərtib edilmiş YGB-nin rəsmiləşdirildiyi tarix

hesab olunur. Azərbaycan Respublikası gömrük xidmətində qəbul olunmuş YGB-də buraxılış tarixi əməliyyatların qeyd vaxtı kimi qəbul edilir.

XII FƏSİL

GÖMRÜK STATİSTİKASININ TƏSNİFAT BAZASI

12.1. Malların təsnifolma prossesində istifadə olunan qaydalar

Gömrük statistikasının səmərəliliyinin artırılmasında gömrük işinin təşkili mühüm rol oynayır. Gömrük işinin təşkili isə geniş miqyaslı təsnifatlardan ibarətdir. Qeyd etmək lazımdır ki, təsnifetmə təsnif olunan obyekt üçün müvafiq kodu müəyyənləşdirir. Əsasən hər bir təsnifat sistemi təsnif olunan obyektin adı və müvafiq kodlaşdırma sistemində ibarətdir. Obyekt adı altında (statistik mənada) xarici iqtisadi əlaqələrin iştirakçıları, mallar, ölkələr, gömrük prosedurları, nəqliyyat vasitələri, gömrük rəsmiləşdirilməsi və qeyd vaxtı istifadə olunan başqa obyektlər başa düşülür. Gömrük işinin təşkilində və gömrük nəzarətinin aparılmasında obyektlərin birmənalı təsnif edilməsi və təsnifatların aktuallığının vaxtaşırı təmin olunması ən vacib məsələlərdən biridir.

Məlumdur ki, malların kodları xarici iqtisadi əlaqələrin iştirakçısı tərəfindən müəyyənləşdirilir və YGB-də bəyan olunur. Amma gömrük orqanları təqdim olunmuş YGB-ni yoxlayarkən malın adı və kodu arasındakı uyğunluğa nəzarət edirlər. Şübhəli hallarda Mərkəzi laboratoriya cəlb olunur və malın həqiqi kodu müəyyən edilir. Bu sahədə əsas problem malın kodunun birmənalı təyin edilməsidir. Aydındır ki, malın kodundan asılı olaraq gömrük tarifləri və nəzarət formaları seçilir. Qeyd etmək lazımdır ki, malların təsnif edilməsi onların eyniliyi və oxşarlığı ilə yanaşı, həm də kodlaşdırılma üzrə aparılır.

Hazırda gömrük təcrübəsində malların təsnifolunma prosesində 6 qaydadan istifadə olunur [32]. Hər bir qaydanın öz tətbiq sahəsi və istifadə şərtləri var. Şübhəli hallarda ilkin mərhələdə ekspertin təhlili əsasında malın son tətbiq üçün

yararlılığı, tam (kompleks) olub-olmaması, yaxud gömrük orqanına sökülmüş halda təqdim edilməsi müəyyənləşdirilir. Əgər mal son tətbiq üçün yararlıdırsa, onda birinci qaydadan istifadə olunur. Malın adını əsas götürərək mal nomenklaturasına uyğun mal mövqelərinin şərhindən istifadə etməklə, bəyan olunmuş malın kodu müəyyən olunur. Əgər malın adı əsasında onun birmənalı kodunu müəyyənləşdirmək mümkün deyilsə, onda bölmələrə və qruplara aidiyyəti olan qeydlərdən geniş istifadə edilir. Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasmda (XİF MN) aşağıda təsvir olunmuş qeydlər işlədilir:

-malın istisnası üzrə qeyd (məsələn: 44-cü qrup üzrə 1 qeyd);

-malı təyinetmə qeydi (məsələn: 18-ci qrup üzrə 2 qeyd);

-mal mövqelərinin tərifl ərinin müəyyən edilməsi üzrə qeyd (məsələn: 5-ci qrup üzrə 3 qeyd);

-malları təyinetmə üzrə tövsiyələr:

- qruplaşdırılmış mallar (məsələn: 92-ci qrup üzrə 2 qeyd, 1 təklif);
- kompozisiya məmulatları (məsələn: XV bölmə üzrə 7 qeyd);
- qarışıq mallar (məsələn: 9-cu qrup üzrə 1 qeyd);
- malların hissələri (məsələn: XVI bölmə üzrə 2 qeyd).

-bir mal mövqeyinin digər mal mövqeyinə nisbətən üstünlüyü (məsələn: 5 qeydi üzrə 90-cı qrupun 9031 mal mövqeyindən üstünlüyü).

Birinci qayda geniş istifadə olunan təsnifetmə qaydasıdır. Bu qayda son istehlak üçün yararlı və tam kompleks mallara tətbiq olunur.

2) Təsnifetmə prosesində çətinlik yaradan hallar gömrük orqanına kompleks olmayan və başa çatdırılmamış, həm də yığılmamış və sökülmüş malların təqdim olunmasından ibarətdir. Göstərilən malların təsnif edilməsi 2a və 2b qaydalarına müvafiq olaraq aparılır. Gömrük orqanına təqdim edilmiş qeyri-kompleks və ya tamamlanmamış məmulat son malın tərkib hissəsi olaraq onun əsas xüsusiyyətini təsvir etdiyi hallarda 2a qaydasından istifadə olunur. Kompleks olmayan və başa çatdırılmamış malların təsnif

olunması zamanı 2a qaydası əsasında müvafiq kompleks və ya son malın kodu verilir. Bu yanaşma kompleks olmayan malda son istehlak üçün yararlı malın əsas göstəricilərinin cəmləşməsinə əsaslanır. Məsələn: sükansız və oturacaqsız idxal olunmuş velosiped hazır məhsulun kodu əsasında rəsmiləşdirilir. Tamamlanmamış və sökülmiş vəziyyətdə təqdim olunmuş malları istifadə vəziyyətinə gətirmək məqsədilə onların ayrı-ayrı hissələri bərkidici material (vint, bolt, qayka və s.) vasitəsilə son (komplekt) vəziyyətə gətirilir. Son (komplekt) malın yığılmasından sonra artıq qalmış hissələrin təsnif edilməsi ayrıca aparılır.

2a qaydasının "tədarük" mallara tətbiqi vaxtı müəyyən problemlər yaranır. Əgər tədarük malın ayrıca mal mövqeyinə aidiyyəti yoxdursa, onda bu qayda tədarük mallara da tətbiq olunur. Başqa sözlə, son malın formasını təxmini təsvir edən tədarük edilmiş mal tədarük mal sayılır. Məsələn: bir ucu bağlı, digər ucu isə açıq boru formasına oxşar plastmas butulka son plastmas butulkanın istehsalı üçün tədarük hesab olunur və bu mala 2a qaydası tətbiq olunur. Son məhsulun əsas xüsusiyyətlərini təsvir etməyən yarımfabrikatlara (disk, boru, kiçik dirək və s.) "tədarük" kimi baxılmalıdır. Onların rəsmiləşdirilməsi aidiyyəti mal mövqeləri üzrə aparılır.

2b qaydası iki və daha artıq materialların, yaxud maddələrin birləşmələrinə və qarışıq mallara tətbiq olunur. Bu qaydanın əsas məzmunu materiallara və maddələrə aid olan müxtəlif mal mövqelərinin qarışıq mallar və birləşmələr hesabına genişlənməsindən ibarətdir. Məsələn: yağın tərkibində 85% kərə yağı və 15% marqarin varsa, onda yağ "Kərə yağı və digər süd yağları" adlı 0405 mal mövqeyi ilə təsnif olunur. Əgər idxal olunmuş yağın tərkibində 15% kərə yağı və 85% marqarin varsa, onda bu mal 1517 mal mövqeyinə aiddir.

3) Əgər qarışıq mal və materialların, yaxud maddələrin birləşməsi iki və daha artıq mal mövqelərindən ibarətdirsə, onda onların təsnif edilməsi üçüncü qayda əsasında təmin olunmalıdır.

Təsnifetmə işində bəzi hallarda qeyri-müəyyənlik yaranması

eyniləşdirməni çətinləşdirir. Qeyri-müəyyən hallar ondan ibarətdir ki, bir mah bir neçə mal mövqeyinə aid etmək olar. Yaranmış vəziyyətdə 3a, 3b və 3v qaydalarının tətbiqi təklif olunur.

3a qaydası üzrə əsas təsnif amili ondan ibarətdir ki, bir neçə fərziyyə olunan mal mövqelərindən o mal mövqeyi seçilir ki, təsnif olunan mal üzrə seçilmiş mal mövqeyi digər mal mövqelərinə nisbətən onu daha konkret və geniş təsvir etsin.

Misal I: Qəzet kağızı rulonlarda və vərəqlərdə 480100 mal mövqeyində göstərmək olar. Lakin 4806 20 000 "Yağkeçirməyən kağız" və yaxud 4816 20 000 "Öz-özünə surətçıxarma kağızı" mal mövqelərindən istifadə olunur.

Misal II: Avtomobil salonu üçün xalçaların təsnifinin avtomobilin bir hissəsi kimi 8708 mal mövqeyi üzrə müəyyən edilməsi məqsədəmüvafıq hesab olunmur. Bu məqsədlə 5703 "Xalçalar və s. tekstil döşəmə örtükləri" mal mövqeyinin istifadəsi təklif olunur.

Misal III: Təyyarədə istifadə olunän çərçivəsiz şüşə 7007 "Təhlükəsiz şüşə, həmçinin möhkəmləndirilmiş və ya çox qatlı şüşə" mal mövqeyində təsnif olunur. 8803 mal mövqeyinin istifadəsi məqsədəmüvafıq hesab olunmur.

Misal IV: Təsnif olunan mal - yeni avtomobil şinləridir. Bu malın təsnif edilməsi iki mal qrupu üzrə aparıla bilər - 40 və 87. 87-ci mal qrupu, eyni zamanda nəqliyyat vasitələrinin ehtiyat hissələrini də əhatə edir. Lakin "Yeni rezin pnevmatik şinlər" 4011 mal mövqeyi təsnif olunan malı daha geniş təsvir etdiyindən 4011 mövqeyinin istifadəsi təklif olunur.

3b qaydasından o vaxt istifadə olunur ki, 3a qaydası səmərəli nəticə vermir. 3b qaydasına müvafiq olaraq, malların təsnifatı qarışıq malın tərkib hissəsi olan materiallar və ya maddələr üzrə aparılır. Təsnif olunan malların ayrılmaz hissəsi olan materiallar və maddələr kompleks malın əsas əlamətini xarakterizə etməlidir. 3b qaydasının tətbiqi zamanı hesab olunur ki, təsnif edilən mal yalnız kompleks malın əsas əlamətini səciyyələndirən tərkib hissədir.

Material, maddə və ya komponentlərin xüsusi çəkisindən asdı

olaraq aşağıda göstərilən amillərdən istifadə olunur:

- material, maddə və komponentlərin həcmi, miqdarı, kütləsi və ya dəyəri;
- material, maddə və komponentlərin təbiəti;
- malın istifadəsində onun tərkib hissəsi olan material, maddə və komponentlərin rolu.

Dördüncü qaydadan qeyri-müəyyən şəraitdə istifadə olunur. Üçüncü qayda heç bir nəticə vermirsə, onda dördüncü qayda tətbiq olunur. Dördüncü qaydanın əsas prinsipi - malların oxşarlığı əsasında təsnifetmənin aparılmasıdır. Malların oxşarlığı aşağıda göstərilən amillər üzrə aparılır:

- malların təsviri;
- malların xüsusiyyəti;
- malların təyinatı.

Beşinci qayda xüsusi mallara tətbiq olunur. Bu qaydadan o vaxt istifadə olunur ki, qablaşdırma konteynerləri aşağıda qeyd olunmuş xüsusiyyətlərə malikdir:

- Konteynerlərin xüsusi formaları var və onlar elə hazırlanıb ki, malın formasına tam uyğundur, yəni malın qabı malın formasını təkrar edir;
- Qablaşdırma konteynerləri mal kimi uzunmüddətli istifadə üçün yararlıdır. Bu qablar malın daşınması zamanı və saxlama müddəti ərzində istifadə olunur;

5a qaydasına əsasən, malın qablaşdırılması xüsusi seçilir və mal satışa, bir qayda olaraq qablaşdırılmış formada verilir.

Mallarla birgə təqdim olunan konteynerlərin siyahısı aşağıda göstərilir:

-zərgərlik məmulatı üçün qutular (7113 mal mövqeyi);
- elektrik üzqırxanları üçün futlyarlar (8510 mal mövqeyi);
- binokllar və teleskoplar üçün futlyarlar (9005 mal mövqeyi);
musiqi alətləri üçün çantalar və futlyarlar (9202 mal mövqeyi);
- silah üçün çexollar (9303 mal mövqeyi).

5b qaydası elə mallara tətbiq olunur ki, onların satışı sarğı material və qablaşdırılmış materialsız mümkün deyil. Misal üçün -

bankalarda kofe, sarğı kağızda kərə yağı və s. Təkrar istifadə olunan qablaşdırılmış material və konteynerlərin təsnif edilməsində bu qaydadan istifadə olunmur (məsələn: sıxılmış və ya maye qaz üçün balonlar).

Altıncı qayda subpozisiya səviyyəsində aparılır və onun tətbiqi yuxarıda göstərilən bütün qaydaların istifadəsi zamanı həyata keçirilir. Bu qaydanın əsas məzmunu ondan ibarətdir ki, müxtəlif mal subpo- zisiyalarınm müqayisəsi yalnız bir subpozisiya səviyyəsində aparılmalıdır. Başqa sözlə, müxtəlif mal mövqelərini müqayisə edərkən yalnız eyni səviyyəli mal mövqeləri arasında seçim aparılır.

Malların təsnif edilməsi ən mühüm məsələlərdən biridir. İstifadə olunan 6 qaydanı şərti olaraq iki makroqrupa bölmək olar. Son tətbiq üçün yararlı və kompleks olan, başqa sözlə desək, istehlaka tam hazır malları təsnif edən qaydalar birinci qrupa daxildir. İkinci qrup isə kompleks olmayan və ya başa çatmamış, yığılmamış və sökülmüş malların, eləcə də qarışıq malların və maddələrin birləşmələrinin təsnifatını təmin edən qaydalardır. İstehlaka hazır olan (birinci qrup) malların təsnifi 1-ci, 5-ci və 6-cı qaydalar əsasında aparılır.

Kompleks olmayan, yığılmamış və sökülmüş, qarışıq mallar və maddələrin birləşmələri (ikinci qrup) 2-ci, 3-cü, 4-cü və 6-cı qaydalar üzrə təsnif olunmalıdır

12.2 Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası

Xarici iqtisadi əlaqələri (XİƏ) təsvir edən amil mal axınıdır. Böyük mal axınının daxilində tarif və qeyri- tarif təmzimlənməsini aparmaq və operativ idarəetmə tədbirlərini həyata keçirmək üçün hər malın birmənalı seçimi olmalıdır. Bu məqsədlə 1988-ci il yanvarın 1-dən "Əmtəələrin təsviri və kodlaşdırılmasınm uyğunlaşdırılmış sistemi haqqında" Beynəlxalq Konvensiya [27] qüvvəyə minmişdir. Hazırda təxminən 150 dövlət ondan istifadə

edir. Beləliklə, uyğunlaşdırılmış (harmonlaş- dırılmış) sistem nomenklaturası dünya dövlətlərinin böyük əksəriyyəti üçün əmtəələrin vahid təsnifatı kimi ticarət təcrübəsinə daxil olub. Gömrük Əməkdaşlığı Şurası (GƏŞ) tərəfindən əmtəə nomenklaturasınm hazırlanmasına ötən əsrin 70-ci illərinin əvvəlindən başlanılmışdır. Onun hazırlanmasında 59 ölkənin və çoxlu höku- mətlərarası iqtisadi təşkilatın nümayəndələri, o cümlədən "Tariflər və ticarət üzrə ümumi saziş" (TTÜS), Ticarət və inkişaf üzrə BMT Konfransı (YUNKTAD), Beynəlxalq Ticarət Palatası (BTP), Standartlaşdırma üzrə beynəlxalq təşkilat (ISO), BMT Statistika Bürosunun mütəxəssisləri fəal iştirak etmişdilər.

Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturası harmonlaşdırılmış sistemə, Avropa İqtisadi Əməkdaşlığının (AİƏ) kombinə edilmiş no- menklaturasına, Müstəqil Dövlətlər Birliyinin xarici iqtisadi əlaqələrinin əmtəə nomenklaturasma və milli no- menklaturaya uyğun qəbul olunub. Onrəqəmli XİƏ əmtəə nomenklaturasınm kodları aşağıdakı hissələrdən ibarətdir:

- ilk altı rəqəm harmonlaşdırılmış sistemdə (HS) olan malların təsvirini və kodlaşdırılmasmı göstərir;
- həmin ilk altı rəqəm yeddinci və səkkizinci rəqəmlərlə birlikdə AİƏ-nin kombinə edilmiş statistik kodlarına müvafiqdir;
- əmtəənin doqquz rəqəmdən ibarət kodu Müstəqil Dövlətlər Birliyinin (MDB) xarici iqtisadi əlaqələrinin əmtəə nomenklaturasma tam uyğundur;
- onuncu rəqəmin əmtəə koduna daxil edilməsinin əsas məqsədi isə milli iqtisadiyyatın xüsusiyyətlərinin nəzərə alınmasıdır.

Beləliklə, əmtəə kodunun strukturu aşağıdakı kimidir [19]:

6 (HS)+ (7+8 AİƏ) + 9 (MDB) +10 (miili iqtisadiyyat)

Onrəqəmli əmtəə kodunu aşağıda göstərilmiş milli strukturda ifadə etmək olar:

XXXXXX XX X X

Aydındır ki, ixrac və idxal predmeti olan əmtəənin adı Azərbaycan Respublikasında qəbul olunmuş milli nomenklaturaya uyğun gəlməlidir.

Azərbaycan Respublikasında istifadə olunan milli təsnifat sistemi 6 mal mövqeyindən ibarətdir: bölmələr, qruplar, yarımqruplar, əmtəə pozisiyaları, subpozisi- yalar və altsubpozisiyaları.

Xarici iqtisadi fəaliyyətin vahid əmtəə nomenklaturasma daxildir:

- bölmələr - 21;
- mal qrupları (ikirəqəmli) - 97;
- altqruplar- 33;
- mal mövqeləri (dörd rəqəmli) - 1241;
- subpozisiyalar (altı rəqəmli) və
- altsubpozisiyalar - 5019.

Mal qrupları, altqruplar, mal mövqeləri, altpozisi- yalar və subpozisiyalar bölmələr üzrə paylanır.

Harmonlaşdınlmış sistemin nomenklaturasmm strukturu əsasında əmtəələrin müxtəlif əlamətlərinin məcmusu dayanır. Belə ki, bölmələrin formalaşdırılmasmda aşağıdakılardan istifadə olunur:

- əmtəənin hazırlanmış olduğu materialın mənşəyi;
- təyinatı;
- kimyəvi tərkibi.

Qrupların yaranmasında isə əmtəələrin emal olunmasının ardıcıllıq prinsipi dayanır: xammaldan, yarım- fabrikatlardan hazır məhsula qədər.

Əmtəə pozisiya və subpozisiyalarınm qurulması zamanı hər qrupda əlamətlərin öz ardıcıllığı tətbiq edilir.

Lakin malların məcmusunda əsas dörd əlamətdən istifadə olunur:

- emal dərəcəsi;
- təyinat;

əmtəənin hazırlandığı materialın növü;

- dünya ticarətində əmtəənin əhəmiyyəti.

- Harmonlaşdınlmış sistemin nomenklaturasında əmtəələrin təsnifat qruplarına birmənalı aid edilməsi başlıca problemlərdən biridir. Bu problemin həllinin əsas yollarından biri HS-də verilən qeydlərdir. Qeydləri təhlil edərək və yuxarıda göstərilmiş əlamətləri nəzərə alaraq hər bir əmtəəni yalnız bir təsnifat qrupuna aid etmək mümkündür. Demək olar ki, bütün bölmə və qruplara, bəzi hallarda isə subpozisiyalara görə də edilmiş qeydlər HS-nin ayrılmaz tərkib hissəsidir.

Əmtəənin kodlaşdırılması təsnif edilən obyektin müəyyən təsnifat sisteminin qaydaları əsasında işarə halında və ya işarə qrupları halında verildiyi texniki vasitədir. Təsnifetmənin kod sistemi məlumatın toplanması, ötürülməsi və təkmilləşdirilməsinin əlverişli formada verilməsi, həmçinin kodlaşdırılmış məlumatın uyğunlaşdırılınası üçün yaradılır. Eyni təsnifat sistemində təsnifatın işlənib hazırlanması zamanı müxtəlif kod sistemləri tətbiq edilə bilər. İstifadə olunan əmtəə nomenklaturasmda rəqəmlərlə işarələmə qəbul olunmuşdur. Burada bölmələr və alt qruplar - Rum rəqəmləri ilə, əmtəə qrupları, pozisiya və subpozisiyalar, altsubpozisiyalar isə ərəb rəqəmləri ilə göstərilir. Onrəqəmli kod işarəsi onluq sistem üzrə tərtib olunmuşdur. Buraya qrupların, əmtəə pozisiyalarmm, subpozisiyalarm və altsubpozisiyalarm kodları daxildir. Mal nomenklaturasmda məlumatı səmərəli təqdim etmək üçün malın adında défis, nöqtə və vergül işarələrindən istifadə olunur. Əgər mal mövqelərinin adının əvvəlində bir défis yazılıbsa, həmin mal səviyyəsindən bir sətir yuxarıda qeyd olunmuş bütün təsvirlər də həmin subpozisiyaya daxil olur. Önündə iki défis işarəsi olan mal subpozisiyası isə ondan iki sətir yuxarıda qeyd olunmuş bütün təsvirlərin də həmin subpozisiyaya daxil olduğunu bildirir. Malları təsnifetmə zamanı onların adında "vergül", "nöqtəli vergül" işarələri nəzərə alınmalıdır. Mal mövqeyinin adında "vergüf'dən istifadə edilirsə, onda mal mövqeyinin tərifləri bütün qeyd olunmuş mallara şamil edilir. Amma əgər mal mövqeyinin adında yeni malın təsviri "nöqtə

və vergüf'dən sonra verilirsə, onda "nöqtə və vergüf'dən sonra formalaşdırılmış təriflər "nöqtə və vergüf'ə qədər qeyd olunmuş mallara şamil olunmur.

Müxtəlif ölkələrin milli kodlaşdırma sistemləri müxtəlifdir. Məsələn, bu sistem AİB ölkələrində 14 rəqəmli, ABŞ-da 11 rəqəmli, Yaponiyada isə 9 rəqəmlidir. Amma göstərilən misalda onların ilk 8 rəqəmi harmonlaşdırıl- mış sistemlə və AİB-nin kombinə olunmuş nomenklatu- rası ilə üst-üstə düşür.

Məhsulun daha sürətlə yeniləşdirilməsi dövründə yeni məhsulun daxil edilməsi müasir əmtəə təsnifatları üçün mühüm əhəmiyyət kəsb edir. Kodlaşdırma sistemi malların təsnifatını pozmadan əmtəələrin nomenklatura- sınm sonradan genişləndirilməsinin mümkünlüyünü nəzərdə tutur. Belə ehtiyatlar "qeyriləri" subpozisiyaları səviyyəsində xüsusilə çoxdur. Qruplara gəldikdə isə, qeyd etmək lazımdır ki, istifadə olunan mal nomenklaturasmda üç ehtiyat qrupu - 77, 98 və 99 var. Onlardan nəinki GƏŞ-də sistemin yenidən nəzərdən keçirilməsi zamanı əmtəə nomenklaturasımn genişləndirilməsində, eyni zamanda ayrı-ayrı ölkələrin milli təcrübəsində spesifik əmtəələrin fərqləndirilməsində də istifadə edilə bilər.

12.3 Gömrük statistikasında bəyanetmə zamanı istifadə olunan təsnifatlar

Yük gömrük bəyannamələrinin (YGB) tərtibi zamanı və malların gömrük sərhədində qeydə alınması vaxtı müxtəlif təsnifatlardan istifadə olunur [21]. ***Əsas təsnifatlar aşağıdakılardır:***

- gömrük prosedurları (rejimləri);
- dünya ölkələri;
- ticarət-göndəriş şərtləri;
- nəqliyyat növləri;
- mal nomenklaturası;
- güzəştli mallar (preferensiyaya məruz qalmış mallar);
- malların keçirilmə xüsusiyyətləri;

- ölçü vahidləri;
- gömrük ödənişləri;
- broker təşkilatları;
- valyutalar;
- sövdələşmə xarakteri;
- ödəniş növləri;
- malların gömrük dəyərinin təyin edilməsi üsulları;
- gömrük post və idarələri;
- 44-cü qrafada istifadə olunan sənədlər.

Xarici ticarətdə vahid təsnifat sistemindən istifadənin əsas məqsədi mal dövriyyəsinin harmonlaşmasıdır və bu da öz növbəsində müxtəlif ölkələrin xarici ticarətinin müqayisəsi üçün zəmin yaradır. Hər bir təsnifatın strukturunda yuxarıda göstərilmiş obyektlərin adı və ona müvafiq kod qeyd olunub. YGB-nin gömrük rəsmiləşdirilməsi zamanı və digər gömrük sənədlərinin tərtibində qeyd olunmuş təsnifatların tətbiqi zəruridir.

İxrac və idxal əməliyyatları, həmçinin dövlətlərarası gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinin hərəkəti, adətən, alqı-satqı, daşınma və sığorta müqavilələri əsasında təmin olunur. Həmin müqavilələr, eyni zamanda, yükun satıcıdan alıcıya verilməsinin ticarət şərtlərini (gömrük mənasında, göndəriş şərtlərini) müəyyənləşdirir. Qeyd etmək istərdik ki, ticarət şərtləri, əsasən, YGB-də və nəqliyyat sənədlərində öz əksini tapır.

Yuxarıda ifadə olunanlardan aydın görünür ki, malların və nəqliyyat vasitələrinin alqı-satqısı zamanı gömrük orqanlarının ticarət şərtlərinin birmənalı təsviretmə təlimatına böyük marağı var. Bu mənada "İnkoterms" aparıcı rol oynayır [21]. "İnkoterms"in məqsədi xarici ticarətdə ən geniş istifadə olunan ticarət anlayışlarının (şərtlərin) şərhini təmin etməkdir. "İnkoterms"in tətbiqi müxtəlif ölkələrdə ticarət anlayışlarının təsvirində olan qeyri-müəyyənliyi xeyli dərəcədə azaldır və ya aradan qaldırır. Beləliklə, ''İnkoterms" beynəlxalq ticarət anlayışlarının məcmusu olaraq, hər bir konkret ticarət şərtinə müvafiq malın bir ölkədən

digər ölkəyə təchizatı ilə əlaqədar tərəfdaşların öhdəliklərini müəyyənləşdirir. ''İnkoterms" alıcı və satıcı arasındakı xərcləri, nəqliyyat növünü, riskin paylanmasını və ötürülmə məntəqəsini müəyyən edir, malların gömrük "təmizlənməsi" üzrə öhdəlikləri və digər öhdəlikləri təyin edir. Ticarət şərtləri "İnkoterms-2000"-ə [21] əsaslanmaqla, mahiyyəti üzrə 4 qrupa bölünmüşdür.

1-ci qrupa ticarət şərti EXW (EX Works (... named place)) - zavod üzrə sərbəst (... yerin adı) - daxildir.

Satıcı müəyyən olunmuş yerdə (zavod, anbar və s.) və ya öz müəssisəsində malı alıcıya təqdim edirsə, onda satıcı öz öhdəliklərini yerinə yetirir.

Satıcı ixrac vaxtı gömrük vergi və rüsumları ödəmədən və malı nəqliyyat vasitəsinə yükləmədən alıcıya təhvil verdikdən sonra, onun satıcı tərəfindən göndərildiyini bildirir.

Bununla əlaqədar baxılan ticarət şərti satıcıya minimal öhdəliklər müəyyən edir. Alıcı satıcının müəssisəsindən təyinat yerinə qədər malın daşınması ilə bağlı bütün xərcləri və riskləri ödəyir. Lakin əgər tərəflər satıcının malın yüklənməsini və bununla bağlı xərcləri və riskləri öz üzərinə götürməsini istəyirsə, onda qeyd olunmuş öhdəliklər əlavə müqavilədə əksini tapmalıdır.

Alıcı ixracın rəsmiləşdirilməsini birbaşa, yaxud dolayası ilə yerinə yetirə bilmirsə, bu şərtdən istifadə olunmamalıdır. Belə hallarda satıcının yükləmə ilə əlaqədar riskləri və xərcləri öz üzərinə qəbul etməyə razılıq verməsi şərtilə,''Franko-daşıyıcı" ("FCA") ticarət şərtindən istifadə olunmalıdır.

Satıcının öhdəliyi:

1. Satıcı alqı-satqı müqaviləsinə əsaslanaraq alıcıya malı, hesab-fakturanı, yaxud ona ekvivalent elektron sənədi təqdim etməlidir.
2. Satıcı alıcının xahişi ilə, onun riskinə və hesabına malın ixracı üçün lazım olan ixrac lisenziyalarını və başqa rəsmi sənədlərini almaqla hərtərəfli yardım göstərməlidir.
3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəlikləri yoxdur.
4. Satıcı malı müqavilədə qeyd olunmuş tarixdə və yerə

çatdırmalıdır. Əgər tərəflər müqavilədə tarix və yeri təyin etməyiblərsə, yaxud malın ötürülmə yerlərinin sayı bir neçədirsə, onda satıcı ən səmərəlisini seçir.

5. Satıcı dördüncü bənddə qeyd olunmuş ötürülmə yerinə qədər bütün risklərin qarşısını almalı və zədələnmiş malı bərpa etməlidir.

6. Dördüncü bənddə qeyd olunmuş ötürülmə yerinə qədər satıcı bütün xərcləri ödəməlidir.

7. Satıcı, malın nə vaxt və harada alıcının sərəncamına veriləcəyi barədə bildirişi ona göndərməlidir.

8. Malın göndərildiyinin sübutu, nəqliyyat sənədləri, yaxud onlara ekvivalent olan elektron məlumatların göndərilməsi satıcının öhdəliyinə daxil deyil.

9. Satıcı malın alıcının sərəncamına verilməsi üçün zəruri olan yoxlanılma əməliyyatları (keyfiyyətinin yoxlanılması, ölçülməsi, çəkilməsi və miqdarının sayılması) üzrə bütün xərcləri ödəməlidir. Daşınmanı təmin etmək məqsədilə və malın xüsusiyyətinə uyğun satıcı qablaşdı- rılmanı aparmalıdır və bununla əlaqədar bütün xərcləri öz hesabına təmin etməlidir. Qablaşdırılma lazımi qaydada aparılmalıdır.

10.Satıcı malın üçüncü ölkədən daşınması üçün, yaxud ixracı və ya idxalı zamanı alıcıya lazım ola biləcək, malın mənşə ölkəsində və ya göndərən ölkədə sənədləri, yaxud onların elektron surətlərinin alınmasında alıcının xahişi ilə onun vəsaiti və gözlənilən risklər hesabına hərtərəfli köməklik edir. Satıcı sığortanı təmin etmək məqsədilə alıcının tələblərinə müvafiq olaraq onu bütün lazımi məlumatla təmin edir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilməlidir.

2. Alıcı, öz hesabına və riskinə ixrac və idxal lisenziyaları, yaxud başqa rəsmi sənədləri almalıdır, mümkün olan yerdə, malın ixracı və idxalı üçün tələb olunan bütün gömrük rəsmiləşdirmələrini yerinə yetirməlidir.

3. Alıcının daşınma və sığorta müqavilələrini imzalamaq öhdəliyi yoxdur.

4. Satıcının öhdəliyinin 4-cü və 7-ci bəndlərinə müvafiq olaraq, alıcı satıcının göndərdiyi malı qəbul etməlidir.

5. Malların itkisi və zədələnməsi ilə əlaqədar risklərin qarşısının alınması alıcının öhdəliyinə daxildir.

6. Malın daşınması ilə əlaqədar bütün əsas və əlavə xərcləri alıcı ödəməlidir. İxrac vaxtı bütün rüsumlar və vergilər alıcı tərəfindən ödənilir. Eyni zamanda, satıcının öhdəliyinin 2-ci bəndinə müvafiq olaraq aparılan bütün xərcləri və yığımların ödənilməsini də alıcı həyata keçirir.

7. Əgər alıcının malın qəbul edilmə tarixini və yerini müəyyənləşdirmək imkanı varsa, onda bu məlumatı satıcıya çatdırır.

8. Alıcı malın qəbul edilməsi barədə satıcıya sübut təqdim edir.

9. İxrac ölkəsinin tələbi ilə yükləmədən əvvəl malın baxışının aparılması ilə əlaqədar xərclər alıcı tərəfindən ödənilir.

10. Satıcının 10-cu bəndində qeyd olunmuş sənədlərin, yaxud onların elektron surətlərinin alınması ilə bağlı xərcləri və yığımları alıcı ödəməlidir.

İkinci qrupa daxil olan ticarət şərtlərinə ("F" şərtləri FCA, FAS, FOB) uyğun olaraq, satıcı malı alıcı tərəfindən müəyyən olunmuş daşıyıcıya verməlidir. Bu qrupa daxil olan ticarət şərtlərinin hər birinin öz xüsusiyyətləri var:

-FCA: (Free Carrier (... named place)) - daşıyıcı üzrə sərbəst (...müəyyən olunmuş yerin adı).

-"Franko-daşıyıcı" (... müəyyən olunmuş yer) ticarət şərtinə müvafiq ixrac üçün gömrük vergi və rü- sumlari ödənilmiş mal alıcının göstərdiyi yerdə, onun təyin etdiyi daşıyıcıya təhvil verildikdən sonra, malın satıcı tərəfindən göndərildiyini bildirir.

Əgər mal satıcının binasından (yerindən) göndərilirsə, onda malın yüklənməsinə satıcı cavabdehdir. Əgər malın göndərilməsi başqa yerdən təmin olunursa, onda satıcı malın göndərilməsi üçün məsuliyyət daşımır. Bu ticarət şərti çərçivəsində əməliyyatın qarışıq

nəqliyyat növləri əsasında aparılması mümkündür. ''Daşıyıcı" sözü altında elə təşkilat başa düşülür ki, bu təşkilat daşınma müqaviləsinə müvafiq olaraq dəmir yolu, avtomobil, hava, dəniz və daxili su nəqliyyatından, yaxud onlardan birgə istifadə etməklə malın daşınmasını təmin edir. Əgər alıcı öz malını daşıyıcı olmayan şəxsə etibar edirsə, onda satıcı mah həmin şəxsə çatdırdıqdan sonra öz öhdəliyini yerinə yetirmiş sayılır.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə müvafiq olaraq, satıcı alıcıya malı, faktura hesabını, yaxud onun elektron surətlərini təqdim etməlidir.

2. İxrac lisenziyasını və başqa rəsmi sənədləri satıcı öz hesabına və riskinə almalıdır. Malın ixracı zamanı gömrük rəsmiləşdirilməsi ilə bağlı öhdəliklər satıcı tərəfindən həyata keçirilir.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üçün öhdəlik yoxdur. Lakin alıcının xahişi əsasında və ya ticarət təcrübəsini nəzərə alaraq, yaxud alıcının bu sahədə əvvəlcədən tapşırığı olmadığı hallarda alıcının hesabına və riskinə satıcı daşınma müqaviləsini imzalaya bilər. Satıcı müqaviləni bağlamaqdan imtina edərsə, bu barədə alıcını müvafiq qaydada dərhal xəbərdar etməlidir.

4. Satıcı malı təyin olunmuş yerdə, malın göndərilməsi üçün razılaşdırılmış tarixdə, yaxud müddətdə alıcı tərəfindən təyin etdiyi, yaxud 3-cü bəndə uyğun olaraq seçdiyi daşıyıcıya və ya başqa şəxsə təhvil verməlidir. Aşağıda qeyd olunmuş hallarda mal satıcı tərəfindən alıcıya təqdim edilmiş sayılır:

a) "müəyyən olunmuş yer" satıcının binasında yerləşirsə və mal alıcı tərəfindən təyin olunmuş daşıyıcıya, yaxud onun adından çıxış edən başqa şəxsin nəqliyyat vasitəsinə yükləndikdən sonra;

b) "müəyyən olunmuş yer" satıcının ərazisindən kənarda yerləşir və satıcının nəqliyyatından boşaldılmamış mal alıcı tərəfindən müəyyən olunmuş daşıyıcıya, yaxud 3-cü bəndə uyğun satıcı tərəfindən seçdiyi daşıcıya, ya da başqa şəxsə verildikdən sonra.

Əgər "göndərən yerdə" bir neçə məntəqə müəyyən olunubsa, onda satıcı ona sərfəli olan yeri seçir. Əgər alıcı satıcıya daşınma barədə heç bir şərt qoymursa, onda satıcı malın xüsusiyyətindən asılı olaraq nəqliyyat növünü özü seçir.

5. Malı 4-cü bəndə müvafiq göndərənədək onun məhvi və yaxud zədələnməsi ilə bağlı bütün xərcləri satıcı ödəməlidir.

6. Satıcı ötürülmə məntəqəsinə qədər bütün xərcləri ödəyir. Zəruri olan hallarda o, rüsum, vergi və başqa yığımları, habelə gömrük rəsmiləşdirilməsi ilə bağlı xərcləri də ödəyir.

7. Satıcı daşıyıcıya təqdim olunmuş mal barədə alıcıya məlumat verməyə borcludur. Əgər daşıyıcının təyin
olunmuş vaxtda malı qəbul etməyə imkanı yoxdursa, onda satıcı bu barədə alıcıya məlumat verir.

8. Satıcı öz hesabına alıcıya çatdırılmış mal barədə nəqliyyat sənədləri təqdim edir. Satıcının nəqliyyat sənədini təqdim etməyə imkanı olmadığı hallarda alıcının xahişi ilə və onun hesabına və riskinə nəqliyyat sənədinin alınmasına köməklik göstərir (dövriyyəli konosa- ment; dəniz, su, hava, dəmir yolu və avtomobil qaimələ- ri). Satıcı və alıcı arasında elektron rabitədən istifadə barədə razılaşma varsa, onda yuxarıda qeyd olunmuş sənədlər elektron surətlərlə əvəz olunur.

9. Malın keyfiyyətinin, ölçüsünün, çəkisinin və miqdarının müəyyən edilməsi ilə bağlı xərcləri satıcı ödəməlidir. Malın xüsusiyyətini nəzərə alaraq daşınmasını təmin etmək məqsədilə zəruri qablaşdırmaya sərf olunmuş xərcləri də satıcı ödəyir. Malın qablaşdırılması lazımi qaydada markalanmalıdır.

10. Satıcı göndərən ölkədə və malın mənşə ölkəsində rəsmiləşdirilmə zamanı istifadə olunan sənədlərin, yaxud malın tranziti və idxalı zamanı təyinat ölkəsində tələb olunan sənədlərin və ya həmin sənədlərin elektron surətlərinin alınmasına alıcının xahişi əsasında, onun riskinə və hesabına köməklik edir. Satıcı malın sığortalanmasını təmin etmək məqsədilə alıcını lazımi məlumatla təmin etməlidir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində müəyyən olunmuş malın dəyərini alıcı ödəməlidir. Alıcı öz hesabına lazımi idxal lisenziyası almalı və eyni zamanda, malın idxalı, zəruri hallarda isə başqa ölkələrin ərazisindən tranzitlə keçirilməsi üçün tələb olunan bütün gömrük rəsmiləşdirmələrini aparmalıdır.

2. Satıcı tərəfindən daşınma müqaviləsinin bağlandığı hallar istisna edilməklə, alıcı ötürülmə məntəqəsindən başlayaraq daşınmanı təmin edir və daşınma müqaviləsini imzalayır.

3. Alıcı satıcı tərəfindən ötürülmə məntəqəsinə çatdırılmış malı qəbul etməlidir.

4. Alıcı ötürülmə məntəqəsindən başlayaraq malın itkisi və zədələnməsi ilə bağlı riskin aradan qaldırılmasını və ödənilməsini öz üzərinə götürür. Alıcı tərəfindən daşıyıcının təyin edilməməsi və ya daşıyıcının, yaxud alıcı tərəfindən müəyyən olunmuş digər şəxsin malı qəbul etmək imkanı olmadığı hallarda alıcı bütün risklərlə bağlı xərcləri ödəyir.

5. Ötürülmə məntəqəsindən təyinat məntəqəsinə qədər bütün xərcləri, o cümlədən daşınmanı təmin edən nəqliyyat vasitəsinin dəqiq müəyyən edilməməsi, ya da daşıyıcının, yaxud alıcı tərəfindən müəyyənləşmiş digər şəxsin malı qəbul etməməsi ilə bağlı əlavə xərcləri alıcı ödəyir. Malın idxalı ilə əlaqədar rüsum, vergi və yığımları alıcı ödəyir. Zəruri hallarda gömrük rəsmiləşdirilməsi və tranzit daşımalarla bağlı xərcləri də alıcı ödəyir.

8. Alıcı daşınmanı təmin edən nəqliyyat təşkilatının adı və ya seçilmiş şəxsin adı, təchizatın tarixi və müddətini, daşınmanın növünü, zəruri hallarda isə ötürülmə məntəqəsində dəqiq ötürülmənin yeri barədə satıcıya məlumat verir. Alıcı malın göndərildiyini sübut edən nəqliyyat sənədləri qəbul etməlidir (satıcının öhdəliyinin 8-ci bəndinə müvafiq olaraq).

9. Göndərən ölkənin tələbi ilə aparılan baxışları istisna etməklə, malın yüklənməsindən əvvəl aparılan baxışlarla bağlı xərcləri alıcı ödəməlidir.

10. Sənədlərin və ya onların ekvivalent olan elektron surətlərinin alınması ilə əlaqədar bütün xərcləri alıcı ödəməlidir və bununla yanaşı, satıcının öhdəliyinin 3~cü bəndinə müvafiq bağlanmış daşınma müqaviləsi üzrə bütün xərcləri də alıcı ödəməlidir.

FAS (Free Aiongside Ship (...named port of shipment)) : gəmi göyərtəsi boyunca sərbəst.

Gəmi göyərtəsi boyunca sərbəst (... müəyyən olunmuş yüklənmə limanı) ticarət şərtinə müvafiq mal ötürülmə-yüklənmə limanında gəminin göyərtəsi boyunca yerləşdikdən sonra malın satıcı tərəfindən təchizatının həyata keçirildiyini sübut edir.

Bu andan etibarən bütün xərcləri, malın zədələnməsi və itkisi ilə bağlı riskləri alıcı aparır. FAS ticarət şərtinə müvafiq olaraq, malın ixracı ilə əlaqədar gömrük vergi və rüsumlarının satıcı tərəfindən ödənilməsi tələb olunur. Lakin tərəflər malın ixracı üçün gömrük vergi və rüsumlarının alıcı tərəfindəm ödəniləcəyi barədə razılaşarsa, alqı-satqı müqaviləsində bu şərt haqqında əlavə qeyd aparılmalıdır.

FAS ticarət şərti yalnız dəniz və ya daxili su nəqliyyatı istifadə edildikdə tətbiq olunur.

Satıcının öhdəlikləri.

1. Alqı-satqı müqaviləsinə müvafiq olaraq satıcı alıcıya malı, faktura hesabım və ya ona ekvivalent olan elektron surətləri təqdim etməlidir.

2. Satıcı ixrac lisenziyaları, yaxud başqa rəsmi sənədləri öz hesabına və riskinə almalı, mümkün olan yerdə malın ixracı üçün tələb edilən bütün gömrük rəsmiləşdirməsini aparmalıdır.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəlikləri yoxdur.

4. Satıcı müəyyən olunmuş müddət ərzində, yaxud tarixdə, müəyyən olunmuş portda alıcının təyin etdiyi gəminin göyərtəsi boyunca malı yerləşdirməlidir.

5. Ötürülmə məntəqəsi kimi müəyyən olunmuş porta qədər satıcı malın zədələnməsi və itkisi ilə əlaqədar bütün xərcləri ödəyir.

6. Satıcı ötürülmə məntəqəsinə qədər bütün xərcləri ödəyir. Mümkün olan yerdə, malın ixracı zamanı rüsum, vergi və başqa yığımlar da satıcı tərəfindən ödənilir.

7. Satıcı malın təyin olunmuş gəminin göyərtəsi boyunca yerləşdirilməsi barədə məlumatı alıcıya mütləq göndərməlidir.

8. Satıcı öz hesabına nəqliyyat sənədlərini alıcıya təqdim edir. Əlavə nəqliyyat sənədlərinin alınması zərurəti yaranan hallarda isə satıcı alıcının xahişi ilə və onun hesabına həmin sənədlərin alınmasına köməklik göstərir (dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatından istifadənin sübutu). Satıcı və alıcı arasında elektron əlaqə barədə razılıq olduğu hallarda yuxarıda qeyd edilmiş sənədlərin elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə bağlı xərcləri satıcı ödəyir. Satıcı malın daşınmasını təmin etmək məqsədilə malın qablaşdırılması ilə bağlı xərcləri də ödəyir. Malın qabı lazımi qaydada markalanmalıdır.

10. Satıcı malın tranziti və idxalı ilə əlaqədar sənədlərin, həmçinin, göndərən və mənşə ölkələrdə istifadə olunan sənədlərin alıcının xahişi ilə və onun hesabına və riskinə alınmasında, yaxud onların elektron surətlərinin alınmasında köməklik edir.

Satıcı alıcının xahişinə əsasən, onu sığorta müqaviləsinin bağlanması üçün lazım olan məlumatla təmin etməlidir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyərini alıcı ödəməlidir.

2. Malın üçüncü ölkələrlə tranziti və idxalı ilə əlaqədar, mümkün olan yerdə, gömrük rəsmiləşdirilməsinin aparılması və bununla yanaşı, idxal lisenziyasının, yaxud digər rəsmi arayışların alınması alıcının öz hesabına və riskinə olmalıdır.

3. Alıcı malı ötürülmə məntəqəsindən (portdan) daşımaq üçün öz hesabına daşınma müqaviləsi imzalayır.

4. Alıcı razılaşdırılmış porta çatdırılan malı qəbul etməyə borcludur.

5. Alıcı ötürülmə məntəqəsindən (portdan) başlayaraq malın

zədələnməsi və itkisi ilə əlaqədar riskləri öz üzərinə götürür. Alıcı malın alınması tarixi və müddəti barədə məlumatın satıcıya verilməməsi, təyin etdiyi gəminin vaxtında gəlməməsi və malı tələb olunan vaxtda qəbul etməməsilə bağlı riskləri üzərinə götürməlidir.

6. Portda alınmış malın daşınması ilə əlaqədar bütün xərcləri və eyni zamanda, gəminin vaxtında gəlməməsi, yaxud malın qəbul edilməməsi ilə bağlı xərcləri alıcı ödəyir. Bununla yanaşı, alıcı malın idxalının rəsmiləşdirilməsi və üçüncü ölkələrlə tranziti ilə əlaqədar bütün xərcləri ödəməlidir.

7. Alıcı malın göndərilmə vaxtı, yüklənmə yeri (port) və gəminin adı barədə satıcıya məlumat verməyə borcludur.

8. Alıcı malın alınmasını təsdiq edən sənədləri (nəqliyyat sənədləri) qəbul etməyə borcludur.

9. İxrac ölkəsinin tələbi ilə aparılan baxışları istisna etməklə, malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri alıcı ödəməlidir.

Sənədlərin və ya onların ekvivalent elektron surətlərinin alınması ilə əlaqədar xərcləri və eyni zamanda, bu sənədlərin alınması ilə bağlı satıcının xərclərini alıcı ödəməlidir.

FOB (Free On Board (... named port of shipment)): göyərtədə (bortunda) sərbəst (... müəyyən olunmuş ötürülmə (yükləmə limanı) Ötürülmə limanında malın gəminin tutacağmdan keçməsi və gəminin bortunda yerləşməsi o deməkdir ki, satıcı təchizatı icra edib.

Mal gəminin tutacağmdan keçdikdən sonra bütün xərcləri və eyni zamanda, onun itkisi və zədələnməsi ilə əlaqədar risklə bağlı xərcləri də alıcı ödəyir. FOB ticarət şərtinə müvafiq olaraq, ixrac zamanı malın gömrük rəsmiləşdirilməsi ilə bağlı gömrük vergi və rüsumları satıcının öhdəliyinə daxildir. Bu ticarət şərtindən malın yalnız dəniz və daxili su nəqliyyatı ilə daşınması zamanı istifadə olunur.

Əgər müqavilədə malın gəminin tutacağmdan keçirilməsi və bortda yerləşdirilməsi nəzərdə tutulmursa, onda FCA ticarət şərtindən istifadə olunur.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı alıcıya malı, faktura hesabını və ya onun ekvivalent elektron surətini təqdim edir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və ya digər rəsmi sənədi almalıdır. Mümkün olan yerdə satıcı malın ixracı ilə əlaqədar lazımi gömrük rəsmiləşdirməsini aparır.

3. Daşınma və sığorta müqavilələrinin imzalanması üzrə öhdəlik yoxdur.

4.Müəyyən olunmuş tarixdə, yaxud müddətdə satıcı mah müəyyən olunmuş ötürülmə məntəqəsinin (portun) xüsusiyyətlərini nəzərə alaraq gəminin bortuna yerləşdirir.

5.Ötürülmə məntəqəsində (limanda) malın gəminin tutacağından keçməsindən əvvəl onun ola biləcək itkisi və ya zədələnməsi ilə əlaqədar risklərlə bağlı əmələ gəlmiş xərclər satıcının öhdəsinə daxildir.

6. Malın gəminin tutacağından göyərtəsinə keçməsindən əvvəl bütün xərcləri, eyni zamanda gömrük rəsmiləşdirilməsi və ixracla əlaqədar rüsum, vergi və digər yığımları satıcı ödəməlidir.

7. Satıcı malın ötürülmə məntəqəsinə (limana) çatdırılması barədə alıcıya məlumat verməyə borcludur.

8. Satıcı malın çatdırılmasını sübut edən nəqliyyat sənədlərini öz hesabına alıcıya təqdim etməlidir. Əgər sübut üçün başqa nəqliyyat sənədləri tələb olunursa, onda alıcının xahişi ilə və onun hesabına və riskinə satıcı lazımi sənədlərin alınmasına köməklik göstərir (məsələn: dövriyyəli konosament, qeyri-dövriyyəli dəniz qaiməsi, daxili su nəqliyyatı ilə daşınmanın sübutu və s.).Yuxarıda qeyd olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən də istifadə oluna bilər.

9. İxrac vaxtı malın keyfiyyətinin, ölçüsünün, çəkisinin və miqdarının yoxlanması ilə bağlı bütün xərcləri satıcı ödəyir. Daşınma ilə bağlı malın qablaşdırılması xərclərini də satıcı ödəyir, lakin qablaşdırılma satıcıya məlum olan daşınma şərtləri çərçivəsində aparılmalıdır. Malın qablaşdırılması tələb olunan

qaydada markalan malıdır.

10. Malın üçüncü ölkədə tranziti ilə əlaqədar və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün göndərən ölkədə və malın mənşə ölkəsində istifadə olunan sənədlərin alınmasında satıcı alıcının xahişi ilə və onun hesabina və riskinə köməklik göstərməlidir.

11. Malın sığortalanmasını təmin etmək üçün satıcı alıcıya lazımi məlumat verməlidir.

Alıcının öhdəliyi:

1. Malın alqı-satqı müqaviləsində nəzərdə tutulmuş dəyərini alıcı ödəməlidir.

2. Alıcı öz hesabına və riskinə idxal lisenziyasını və başqa rəsmi sənədləri almalı, bununla yanaşı, zəruri hallarda tranzit ölkələrində malın keçirilməsi üçün və təyinat ölkəsində idxal üçün gömrük rəsmiləşdirilməsini yerinə yetirməlidir.

3. Alıcı ötürülmə limanından başlayaraq öz hesabına daşınma müqaviləsi imzalamalıdır. Sığorta müqaviləsi barədə öhdəlik yoxdur.

4. Alıcı ötürülmə limanına çatdırılmış malı qəbul etməyə borcludur.

5. Ötürülmə portunda malın gəminin tutacağmdan keçməsi və bortda yerləşməsi anından etibarən alıcı malın itkisi və zədələnməsi ilə əlaqədar risklərin qarşısını almaqla yanaşı, gəminin porta vaxtında gəlməməsi və ya malın qəbul edilməməsi səbəbindən əmələ gələn riskləri də'ödəməlidir.

6. Alıcı ötürülmə limanında malın gəminin tutacağmdan keçməsi və göyərtəsində yerləşməsi anından bütün xərcləri ödəməklə yanaşı, gəminin porta vaxtında gəlməməsi, yaxud müxtəlif səbəblərə görə malı qəbul etməməsi ilə bağlı xərcləri də ödəməlidir. Mümkün olan yerdə, alıcı malın idxalı ilə əlaqədar bütün rüsum, vergi və digər yığımları, həmçinin üçüncü ölkələrdə malın tranziti ilə əlaqədar xərcləri ödəməlidir.

7. Alıcı malın çatdırılma vaxtı, yüklənmə yeri və gəminin adı barədə satıcıya məlumat verməyə borcludur.

8. Malın çatdırılmasını sübut edən sənədləri (nəqliyyat sənədləri), yaxud onlara ekvivalent olan elektron məlumatları alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılmış yoxlamaları istisna etməklə, mala yükləmə qabağı baxışın keçirilməsi üzrə xərcləri alıcı ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin, yaxud onlara ekvivalent olan elektron məlumatın alınması ilə bağlı bütün xərcləri alıcı ödəməlidir.

3-cü C qrupuna dörd ticarət şərti daxildir - CFR, CİF, CPT və CİP.

CFR (Cost and Freight (. . . named port of destination)) : dəyər və fraxt (... müəyyən olunmuş limanın adı) Ötürülmə (müəyyən olunmuş) limanında malın gəminin tutacağından göyərtəsinə keçirilməsindən sonra, malın satıcı tərəfindən təchizatın tamamlanması deməkdir. Ötürülmə məntəqəsinə qədər malın çatdırılması ilə əlaqədar bütün xərcləri və fraxtı satıcı ödəməlidir. Lakin malın gəmidə yerləşməsindən sonra malın zədələnməsi və itkisi ilə bağlı risklər satıcıdan alıcıya keçir. CFR licarot şərtinə müvafiq olaraq, ixrac vaxtı gömrük vergi və rüsumlarının ödəməsi satıcının öhdəliyinə daxildir. Bu ticarət şərti yalnız dəniz və daxili su nəqliyyatı **vasitəsilə daşman mallara tətbiq olunur.** Əgər tərəflər malın tutacaqdan keçirilməsini və göyərtədə yerləşməsini nəzərdə tutınayıblarsa, onda CPT ticarət şərtindən istifadə olunur.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə müvafiq olaraq, satıcı alıcıya malı, faktura hesabını və ya ona ekvivalent olan elektron surətini təqdim edir. Alqı-satqı müqaviləsinin şərtlərindən asılı olaraq, satıcı əlavə sənədlərin də təqdim olunmasını təmin etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını, yaxud başqa rəsmi sənədləri almalı, mümkün olan yerdə ixracla bağlı gömrük rəsmiləşdirməsini aparmalıdır.

3. Satıcı öz hesabına müəyyən olunmuş limana qədər daşınma müqaviləsi imzalamalıdır. Malın xüsusiyyətlərini nəzərə almaqla,

müvafiq dəniz və ya daxili su nəqliyyatı seçilir. Sığorta müqaviləsinin bağlanması satıcının öhdəliyinə daxil deyil.

4. Satıcı müəyyən olunmuş tarixdə və ya müddətdə müəyyən olunmuş limanda malı gəminin göyərtəsində yerləşdirməlidir.

. 5. Satıcı malın gəminin tutacağmdan keçməsi anma qədər malın zədələnməsi və itkisi ilə əlaqədar bütün riskləri öz üzərinə götürür.

6. Satıcı malın gəminin tutacağmdan keçməsi anma qədər bütün xərcləri ödəyir. Gəminin fraxtı, malın gəminin bortuna yüklənməsi və boşaldılması ilə bağlı xərclər satıcının öhdəliyinə daxildir. Ehtiyac olan hallarda malın üçüncü ölkədə tranziti ilə bağlı xərcləri və eləcə də ixrac əməliyyatının rəsmiləşdirilməsi ilə əlaqədar xərcləri, o cümlədən, rüsum və vergiləri də satıcı ödəyir.

7. Satıcı malın ötürülmə (müəyyən olunmuş) limana çatdırılması barədə alıcıya məlumat verməlidir.

8. Satıcı öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim edir. Nəqliyyat sənədləri (dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatı vasitələrinin istifadəsini sübut edən sənəd və s.) alıcıya ötürülmə limanında malın alınmasına imkan yaratmalı və bununla yanaşı, tranzit daşınma vaxtı malın üçüncü tərəfə satılmasını da təmin etməlidir. Əgər satıcı və alıcı arasında elektron informasiya mübadiləsi qəbul olunubsa, onda həmin sənədlərin ekvivalent elektron surətlərindən istifadə olunur.

9. Satıcı malın keyfiyyətinin, ölçüsünün, çəkisinin və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri ödəməlidir. Malın daşınmasını təmin etmək məqsədilə satıcı öz hesabına malın qablaşdırılmasım təmin edir. Malın qablaşdırılması lazımi qaydada markalanmalıdır.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə üçüncü ölkədə malın tranzitini təmin etmək məqsədilə və təyinat ölkəsində idxal əməliyyatım aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malın mənşə ölkəsindən alınmasına, yaxud onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsi üzrə nəzərdə tutulmuş malın dəyərini alıcı ödəməlidir.

2. Alıcı idxal lisenziyasını, yaxud başqa rəsmi icazəni öz hesabına və riskinə almalıdır. Mümkün olan yerdə, malın idxalı ilə bağlı, zəruri hallarda isə üçüncü ölkədə malın tranzitini təmin etmək məqsədilə gömrük rəsmiləşdirməsini yerinə yetirməlidir.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması barədə öhdəlik yoxdur.

4. Alıcı müəyyən olunmuş (ötürülmə) limana çatdırılmış malı daşıyıcıdan almalıdır.

5. Müəyyən olunmuş (ötürülmə) limanda mal gəminin tutacağmdan keçdikdən və göyərtəsində yerləşdikdən sonra malın zədələnmə və itkisi ilə bağlı bütün risklər alıcıya keçir.

6. Malın ötürülmə limanına çatdırıldığı andan daşınma ilə bağlı bütün xərcləri alıcı ödəyir. Təyinat portuna qədər tranzit daşımaları, malın boşaldılma xərcləri, liman yığımları və daşınma cədvəlinin pozulması barədə vaxtında satıcıya məlumat verilməməsi ilə bağlı xərclər də alıcı tərəfindən ödənilir. Malın idxalı ilə əlaqədar xərclər və idxal əməliyyatlarının rəsmiləşdirilmə vaxtı rüsum, vergi və digər yığımlar alıcı tərəfindən ödənilməlidir.

7. Alıcıda malın yüklənmə tarixini və ötürülmə limanını müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda o, satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alıcı alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı mala yüklənmə qabağı baxışın keçirilməsi üzrə xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin, yaxud onlara ekvivalent elektron məlumatların alınması ilə bağlı bütün xərcləri alıcı ödəməlidir.

- CİF (Cost, Insurance and Freight (... named port of destination)): dəyər, sığorta və fraxt (... müəyyən olunmuş limanın

adı).

"Dəyər, sığorta və fraxt" ticarət şərtinin həyata keçirilməsi o deməkdir ki, ötürülmə limanında satıcı malı gəminin tutacağından keçirərək onu gəminin göyərtəsində yerləşdirib. Malın ötürülmə limanına çatdırılması ilə bağlı xərcləri və fraxtı satıcı ödəməlidir. Lakin malın müəyyən olunmuş CİF ticarət şərtinə uyğun çatdırılmasından sonra malın zədələnməsi və itkisi ilə bağlı risklərin aradan qaldırılması və digər əlavə xərclərin ödənməsi satıcıdan alıcıya keçir. Daşınma zamanı malın zədələnməsi və itki risklərinin aradan qaldırılması məqsədilə satıcı alıcının xeyrinə dəniz sığortasını əldə edir. Bununla əlaqədar satıcı sığorta müqaviləsi imzalamalı və sığorta haqqını ödəməlidir. Alıcı nəzərə almalıdır ki, satıcı riskləri minimal səviyyədə sığortalayır.' Alıcı sığorta səviyyəsini artırmaq istəyirsə, onda özü əlavə sığortalama tədbirləri keçirməlidir.

CİF ticarət şərti malın ixracına görə gömrük vergi və rüsumlarının satıcı tərəfindən ödənilməsini tələb edir. Bu ticarət şərti malın yalnız dəniz və daxili su nəqliyyatı ilə daşındığı şəraitdə tətbiq olunur.

Əgər ticarət iştirakçıları malın gəminin tutacağından keçməsini və göyərtəsində yerləşməsini nəzərdə tutmayıblarsa, onda CİP ticarət şərtinin istifadəsi təklif olunur.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və onun ekvivalent elektron surətini təqdim etməyə borcludur.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və digər rəsmi sənədləri əldə etməlidir, mümkün olan yerdə malın ixracını təmin etmək məqsədilə gömrük rəsmiləşdirməsini aparır.

3. Satıcı ötürülmə limanına qədər öz hesabına daşınma müqaviləsi bağlamalıdır.

Alqı-satqı müqaviləsinə müvafiq olaraq, satıcı öz hesabına malın sığortalanmasını təmin edir və alıcıya sığorta polisini və ya digər sığorta sübutlarım təqdim edir. Sığortalama elə səviyyədə

aparılır ki, alıcının sığortanı aparan şəxsə birbaşa müraciət etmək imkanı olsun. Yük terminallarının yaradılması İnstitutunun (İnstitut Cargo Clauses) şərtlərinə müvafiq olaraq, sığortalama minimal səviyyədə aparılır. Sığorta təminatının müddəti alıcının öhdəliyinin 4-cü və 5-ci bəndlərinə əsaslanaraq müəyyən olunur. Əgər buna imkan varsa, alıcının tələbi ilə və onun hesabına satıcı hərbi risklərdən, tətillərdən, qiyamlardan və digər mülki çaxnaşmalardan sığortalanmanı aparır. Sığortalama alqı-satqı müqaviləsində qeyd olunmuş malın dəyərindən ən azı 10% artıq olmalı (yəni 110%) və müqavilə valyutasında ifadə edilməlidir.

4. Satıcı müəyyən olunmuş tarixdə, yaxud müddətdə ötürülmə limanında malı gəminin göyərtəsində yerləşdirməlidir.

5. Ötürülmə limanında malın gəminin tutacağmdan keçməsinə qədər satıcı malın zədələnməsi və itkisi ilə bağlı riskləri öz üzərinə götürür.

6. Malın gəminin göyərtəsinə yerləşməsindən əvvəl bütün xərcləri satıcı ödəyir, həmçinin malın yüklənməsi və boşaldılması, fraxtı və sığorta polisinin alınmasını da satıcı təmin edir. Ehtiyac olan hallarda üçüncü ölkədə malın daşınması və ixrac vaxtı zəruri olan gömrük rəsmiləşdirilməsi ilə bağlı xərclər, rüsum, vergi və digər yığımların ödənməsi də satıcının öhdəliyinə daxildir.

7. Satıcı malm ötürülmə portuna çatdırılması və qəbulu üçün zəruri olan məlumatı alıcıya təqdim etməyə borcludur.

8. Satıcı öz hesabına razılaşdırılmış təyinat portu barədə alıcıya nəqliyyat sənədi təqdim etməlidir. Bu sənəd (məsələn, dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatı vasitəsilə daşınmanı sübut edən sənəd) daşınma müddəti ərzində təsir qüvvəsini saxlayır. Qeyd olunmuş sənədlər, malı qəbul etmək şərti və digər şərtlər yoxdursa, ölkədə malm satılması üçün alıcıya imkan yaradılmalıdır. Satıcı və alıcı arasında elektron informasiya mübadiləsi barədə razılaşma varsa, onda yuxarıda qeyd olunmuş sənədlərin elektron'surətlərindən istifadə olunur.

9. Malm keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə bağlı xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malm qablaş–

dırılmasım təmin etməlidir. Qablaşdırılma lazımi qaydada markalanmalıdır.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına üçüncü ölkədə malm tranzitini təmin etmək məqsədilə və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malm mənşə ölkəsindən alınmasına, yaxud onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı sığortanı tam həcmdə təmin etmək məqsədilə alıcının tələbinə əsasən lazımi sənədləri ona təqdim etməyə borcludur.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində müəyyən olunmuş malm dəyərinin alıcı tərəfindən ödənilməsi zəruridir.

2. Alıcı öz hesabına və riskinə idxal lisenziyasını və digər rəsmi sənədləri almalıdır. Mümkün olan yerdə alıcı malm idxalı üçün və ya üçüncü ölkələrdə tranzit daşımaları təmin etmək məqsədilə gömrük rəsmiləşdirməsi aparmalıdır.

3. Alıcının daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəliyi yoxdur.

4. Alıcı mah ötürülmə limanında qəbul etməlidir.

5. Malm ötürülmə limanında gəminin tutacağmdan keçməsi, göyərtəsində yerləşməsi anından onun zədələn- məsi və itkisi ilə bağlı risklərin qarşısının alınmasını alıcı öz üzərinə götürməlidir. Bununla yanaşı, çatdırılma vaxtı və təyinat limanı barədə satıcıya alıcı tərəfindən vaxtında məlumatın verilməməsi səbəbindən əmələ gəlmiş risklərin qarşısının alınması da alıcının öhdəsinə daxildir.

6. Malın gəminin bortunda yerləşməsindən sonra bütün xərcləri alıcı ödəməlidir.

Bununla yanaşı, müəyyən olunmuş limana qədər satıcı tərəfindən bağlanılan daşınma müqaviləsinə daxil olunmamış tranzit daşımalarla bağlı xərcləri, boşaldılma xərclərini (liman yığımlarını daxil etməklə) və satıcıya məlumatın vaxtında verilməməsi ilə əlaqədar xərcləri alıcı ödəməlidir. Mümkün olan yerdə, idxal vaxtı gömrük rəsmiləşdirilməsi ilə bağlı xərclər, rüsum, vergi və digər yığımlar və başqa ölkələrin ərazisindən tranzitlə

keçirilməsilə bağlı, lakin daşınma müqaviləsinin dəyərinə daxil edilməmiş xərclər də alıcı tərəfindən ödənilir.

7. Alıcıda malın çatdırılma tarixini və ötürülmə limanını müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması ilə bağlı bütün xərcləri alıcı ödəyir. Sığortanı satıcı tərəfindən təmin etmək məqsədilə alıcı satıcının tələbi əsasında onu lazımi məlumatla təmin etməlidir.

CPT (Carriage Paid To (. . . named place of destination)) : fraxt/daşmma ... dək ödənilmişdir (... təyinat yerinin adı).

Bu ticarət şərtinə müvafiq olaraq, satıcı malı özünün təyin etdiyi daşıyıcıya təhvil verməlidir və əlavə olaraq, malın müəyyən olunmuş yerə daşınması ilə bağlı olan xərcləri ödəməlidir. Mal bu tərzdə göndərildikdən sonra alıcı bütün riskləri və xərcləri öz üzərinə götürməlidir. Əgər daşınma bir neçə daşıyıcı əsasında aparılırsa, onda risk satıcıdan birinci daşıyıcıya keçir.

CPT ticarət şərti ixrac zamanı gömrük vergi və rüsumlarının ödənilməsini satıcıdan tələb edir. Hər hansı nəqliyyat növünün istifadəsi zamanı və ya onların birgə istifadəsində CPT ticarət şərtinin tətbiqi mümkündür.

Satıcının öhdəliyi:

1.Satıcı alqı-satqı müqaviləsinə müvafiq olaraq malı, faktura hesabını və ya onun elektron surətini alıcıya təqdim etməlidir. O, eyni zamanda, müqavilənin şərtlərinə uyğun əlavə məlumat da verir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyası və ya digər rəsmi sənədləri almalı, mümkün olan yerdə malın ixracı ilə əlaqədar gömrük rəsmiləşdirmələrini aparmalıdır.

3. Satıcı öz hesabına təyinat (ötürülmə) yerinə qədər malı çatdırmaq məqsədilə daşınma müqaviləsidir. Təyinat yerində konkret məntəqə müəyyən olunmayıbsa, onda satıcı özünə səmərəli olan məntəqəni seçir. Sığorta müqaviləsinin imzalanması satıcının öhdəliyinə daxil deyil.

4. Daşınma müqaviləsinə müvafiq olaraq, satıcı razılaşdırılmış tarixdə, yaxud müddətdə malı daşıyıcıya təqdim edir. Daşıyıcıların sayı bir neçə olduqda satıcı malı birinci daşıyıcıya təqdim edir.

5. Öhdəliyin 4-cü bəndinə müvafiq olaraq, malın zə- dələnməsi və itkisi ilə bağlı bütün risklər onun çatdırılmasına qədər satıcının öhdəliyinə daxildir.

6.Malın daşıyıcıya çatdırılması, həmçinin fraxt, malın yüklənməsi və təyinat yerində boşaldılması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirilməsi ilə bağlı xərcləri, rüsum, vergi və digər yığımları, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəyir.

7.Satıcı malın daşıyıcıya çatdırılma tarixi barədə alıcıya məlumat verməyə borcludur.

8. Satıcı öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim etməlidir (dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatı vasitəsindən istifadəni sübut edən sənədlər və s.). Satıcı və alıcı arasında informasiya-elektron mübadiləsi barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən istifadə olunur.

Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasını təmin etməli və qab- laşdırmanm markalanmasmı təmin etməlidir. 10. Satıcı alıcının xahişinə əsasən, onun riskinə və hesabına üçüncü ölkədə malın tranzitini təmin etmək və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malın mənşə ölkəsindən alınmasına və ya onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə yadım göstərməlidir. Sığortanı təmin etmək məqsədilə satıcı alıcının

tələbinə müvafiq lazımi sənədləri alıcıya təqdim etməyə borcludur.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilir.

2. Alıcı öz hesabına və riskinə idxal lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Mümkün olan yerdə, malın idxalı, ehtiyac olan hallarda isə alıcı üçüncü ölkələrdə tranziti ilə bağlı bütün gömrük rəsmiləşdirilməsini yerinə yetirməlidir.

3. Alıcının daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəliyi yoxdur.

4. Alıcı göndərilmiş malı qəbul etməli və müəyyən edilmiş yerdə daşıyıcıdan götürməlidir.

5. Malın daşıyıcıdan alındığı andan onun zədələnməsi və itkisi ilə bağlı bütün riskləri alıcı öz üzərinə götürməlidir. Eyni zamanda, alıcı tərəfindən satıcının alınma tarixi barədə vaxtında məlumatlandırılmaması, müəyyən olunmuş müddət ərzində malı vaxtında qəbul etməməsi səbəbindən əmələ gələn riskləri də alıcı aradan qaldırır.

6. Alıcı ötürülmə yerindən başlayaraq təyinat məntəqəsinə qədər bütün xərcləri, o cümlədən tranzit daşımaların xərclərini ödəyir. Bununla yanaşı, satıcının daşınma müqaviləsinə daxil olmayan, malın boşaldılma- ması ilə əlaqədar xərclər və təchizat vaxtı pozulan hallarla bağlı əlavə xərclər də alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə malın idxalı, ehtiyac olan hallarda isə alıcı üçüncü ölkələrdə tranziti ilə bağlı rüsum, vergi və yığımları, həmçinin idxal zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri ödəməlidir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüququ olduqda, onda alıcı satıcı-ya bu barədə bildiriş göndərməlidir.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini və onların ekvivalent olan elektron surətlərini alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki

baxışlarla əlaqədar xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların elektron surətlərinin təmin edilməsi ilə bağlı, həmçinin satıcı tərəfindən alıcıya göstərilən köməkliklə əlaqədar bütün xərcləri də alıcı ödəməlidir.

CIP (Carriage and Insurance Paid to (...named place of destination)): fraxt/daşınma və sığorta ödənilib ... dək (... **müəyyən olunmuş yerin adı)**

Mal müəyyən olunmuş daşıyıcıya çatdırılıbsa, onda CIP ticarət şərti həyata keçirilib və satıcı təyin olunmuş ötürülmə yerinə qədər bütün xərcləri ödəməlidir. Bu da onu göstərir ki, ötürülmə yerindən sonra alıcı riskləri və əlavə xərcləri öz öhdəsinə götürür. Lakin CIP şərtinə müvafiq olaraq, satıcı malın zədələnməsi və itki risklərindən sığortalanmasını aparır. Bununla əlaqədar satıcı sığorta müqaviləsi imzalayır və sığorta haqqı ödəyir. Sığorta satıcı tərəfindən minimal səviyyədə təmin olunur. Alıcı sığorta müqaviləsinin daha böyük məbləğə bağlanmasını istəyirsə, özü əlavə sığortalama tədbirləri keçirməlidir. Əgər daşınma bir neçə daşıyıcı əsasında aparılırsa, onda risk satıcıdan birinci daşıyıcıya keçir.

İxrac zamanı lazım olan vergi və rüsumların ödənməsi satıcının öhdəliyinə daxildir.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına ixrac lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, malın ixracı üçün gömrük rəsmiləşdirməsinin aparılması satıcının öhdəliyinə daxildir.

Satıcı müəyyən olunmuş ötürülmə yerinə qədər malı daşımaq məqsədilə öz hesabına daşınma müqaviləsi imzalayır. Əgər təyinat yerində məntəqə müəyyən olun- mayıbsa, onda satıcı özünə səmərəli olan bir məntəqə seçir. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı sığorta müqaviləsini elə şərtlər əsasında imzalayır ki, alıcı sığortanı aparan şəxsə birbaşa müraciət edə bilsin. Sığorta polisi və ya digər sığorta təminatını təmin edən sənəd alıcıya verilir.

Yük terminallarının yaradılması İnstitutunun (İnstitut Cargo Clauses) şərtlərinə uyğun sığortala- ma minimal səviyyədə aparılır. Sığortalama alıcının öhdəliyinin 4-cü və 5-ci bəndlərinə müvafiq şəkildə təmin olunur. Əgər buna imkan varsa, alıcının tələbi ilə və onun hesabına hərbi risklərdən, tətillərdən, qiyamlardan və digər mülki çaxnaşmalardan sığortalamanı satıcı aparır. Sığortalama alqı-satqı müqaviləsində qeyd olunmuş malın dəyərindən ən azı 10% artıq olmalı (yəni 110%) və müqavilə valyutasında ifadə edilməlidir.

3. Satıcı daşınma müqaviləsinə müvafiq olaraq, təyin olunmuş tarixdə və müddətdə malı daşıyıcıya təqdim edir. Daşıyıcıların sayı bir neçə olanda isə satıcı malı birinci daşıyıcıya təqdim edir.

4. Malı daşıyıcıya göndərənədək, onun itkisi və zədə- lənməsi ilə bağlı yaranan riskləri satıcı üzərinə götürməlidir.

5. Malın yüklənməsi, daşıyıcıya çatdırılması, fraxtı və təyinat yerində boşaldılması ilə əlaqədar bütün xərcləri satıcı ödəməlidir.

6. Sığortanın dəyərini satıcı ödəyir.

7. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, rüsum, vergi və digər yığımları, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəyir. Satıcı malın daşıyıcıya çatdırılması barədə alıcıya məlumat verməyə borcludur.

8. Satıcı öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim etməlidir (dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatı vasitəsindən istifadəni sübut edən sənədlər və s.). Satıcı və alıcı arasında informasiya-elektron mübadilə barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasmı təmin etməli və qab- laşdırmanın markalanmasmı aparmalıdır.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə üçüncü ölkədə malın tranzitini təmin etmək və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri olan sənədlərin göndərən

ölkədən, yaxud malın mənşə ölkəsindən alınmasına və ya onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı əlavə sığortanı təmin etmək məqsədilə alıcının tələbi ilə lazımi sənədləri ona təqdim etməyə borcludur.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyərini alıcı ödəməlidir.

2. Alıcı idxal lisenziyasını və ya digər rəsmi sənədləri öz hesabına və riskinə almalıdır. Mümkün olan yerdə, malın idxalı üçün və malın üçüncü ölkələrdə tranzitini təmin etmək məqsədilə gömrük rəsmiləşdirməsini alıcı yerinə yetirməlidir.

3. Alıcının daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəliyi yoxdur.

4. Alıcı malı təyinat məntəqəsində daşıyıcıdan almalıdır.

5. Daşıyıcıdan mal alındığı andan alıcı malın zədə- lənməsi və itkisi ilə bağlı bütün riskləri öz üzərinə götürür. Eyni zamanda, alıcı tərəfindən satıcının vaxtında göndərilmə tarixi barədə məlumatlandırılmaması, yaxud müəyyən olunmuş müddət ərzində malın götürülməməsi səbəbindən əmələ gəlmiş risklər də alıcı tərəfindən aradan qaldırılır.

6. Ötürülmə yerindən başlayaraq alıcı bütün xərcləri, o cümlədən daşınma müqaviləsinin dəyərinə daxil olmayan tranzit daşımaların xərclərini də ödəməlidir. Bununla yanaşı, daşınma müqaviləsinə əsaslanaraq, vaxtında malın boşaldılmaması ilə əlaqədar xərclər və təchizat vaxtının pozulduğu hallarla bağlı əlavə xərclər alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə alıcı rüsum, vergi və yığımları, eləcə də idxal zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri ödəməlidir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanının tələbi ilə aparılan

baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların elektron surətlərinin təmin edilməsi ilə bağlı xərcləri, həmçinin satıcı tərəfindən alıcıya göstərilən köməkliklə əlaqədar bütün xərcləri alıcı ödəməlidir.

Alıcı satıcının xahişinə əsasən sığorta müqaviləsinin bağlanması üçün ona lazım olan məlumatları verməlidir.

D qrupuna - ("Çatma") beş ticarət şərti daxildir (DAF, DES, DEQ, DDU və DDP):

DAF (Delivered at Frontier (... named place)): sərhədə qədər çatdırılmışdır (... çatdırılma yerinin adı). 2011-ci il yanvarın 1-dən DAF ticarət şərtinin əvəzinə D AP ticarət şərtindən istifadə olunur . DAF ticarət şərtinə müvafiq olaraq, satıcı ixrac üçün gömrük vergi və rüsumları ödənilmiş malı sərhəddə müəyyən olunmuş məntəqə, yaxud yerdə, lakin təyinat ölkənin gömrük sərhədini keçənədək, nəqliyyat vasitəsindən boşaldılmadan, idxal üzrə gömrük vergiləri və rüsumları ödənilmədən alıcının sərəncamına verdikdən sonra, ona satıcı tərəfindən malın çatdırılmasını sübut edir.

''Sərhəd" anlayışı adı altında müxtəlif ölkələrin sərhədləri, həmçinin ixrac (göndərən) ölkənin sərhədi də nəzərdə tutulur. Buna görə də, müqavilədə sərhəddəki yerin və məntəqənin dəqiq göstərilməsi vacibdir.

Əgər daxil olmuş nəqliyyat vasitəsindən malın boşaldılmasının, boşaldılma ilə bağlı risklərin və xərclərin satıcının öhdəliyinə daxil olması barədə tərəflərin qərarı varsa, onda alqı-satqı müqaviləsinin əlavəsində bu məsələ rəsmən öz əksini tapmalıdır. Bu ticarət şərtindən o vaxt istifadə olunur ki, mal quru sərhədinə müxtəlif növ nəqliyyat vasitələri ilə çatdırılır.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun ekvivalent olan elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, mümkün olan yerdə, sərhəddə müəyyən olunmuş yerə qədər ixracı və üçüncü ölkələrdə malın tranzitini təmin etmək məqsədilə gömrük rəsmiləşdirmə prosedurlarının aparılması satıcının öhdəliyinə daxildir.

3. Satıcı sərhəddə müəyyən olunmuş yerə qədər malı daşımaq məqsədilə öz hesabına daşınma müqaviləsini imzalayır. Əgər təyinat yerində məntəqə müəyyən olun- mayıbsa, onda satıcı özünə səmərəli olan məntəqəni seçir. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə daşınma müqaviləsi əsasında malın sərhəddən idxal ölkəsinin müəyyən olunmuş təyinat məntəqəsinə qədər çatdırılmasını öz üzərinə götürə bilər. Satıcı bu müqaviləni bağlamaqdan imtina edirsə, bunu müvafiq qaydada alıcıya dərhal bildirməlidir. Satıcının sığorta müqaviləsinin bağlanması üzrə öhdəliyi yoxdur.

4. Satıcı alıcıya təyin edilən müddətdə və ya tarixdə sərhəddə müəyyən olunmuş yerdə nəqliyyat vasitəsindən boşaltmadan malı təqdim edir.

5. Malın zədələnməsi və itkisi ilə bağlı bütün risklər öhdəliyin 4-cü bəndinə müvafiq daşınan malın təchizat anma qədər satıcının öhdəliyinə daxildir.

6. Öhdəliyin 3-cü bəndində göstərilmiş xərclərlə yanaşı, təyinat yerinə qədər əmələ gələn bütün xərcləri satıcı ödəyir. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, rüsum, vergi və digər yığımları, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəməlidir.

7. Satıcı malın sərhəddə müəyyən olunmuş yerə göndərildiyi barədə alıcıya məlumat verməyə borcludur.

8. Satıcı malın sərhəddə təyin edilmiş yerə çatdırılmasını sübut edən sənədləri və ya digər sənədləri öz hesabına alıcıya təqdim etməlidir. İdxal ölkəsində malın müəyyən yerə qədər alıcının hesabına və riskinə çatdırılmasını ikitərəfli müqavilə əsasında satıcı təmin edə bilər. Satıcı və alıcı arasında informasiya-elektron mübadilə barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd

olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasmı təmin etməli və qab- laşdırmanm markalanmasmı aparmalıdır.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə üçüncü ölkədə malın tranzitini təmin etmək və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malın mənşə ölkəsindən alınmasına və ya onların ekvivalent elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı alıcının xahişinə əsasən, onu sığorta müqaviləsinin bağlanması üçün lazım olan məlumatlarla təmin etməlidir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilməlidir.

2. Alıcı idxal lisenziyasını və ya digər rəsmi sənədləri öz hesabına və riskinə almalıdır. Mümkün olan yerdə, malın idxalı üçün və malın üçüncü ölkələrdə tranzitini təmin etmək məqsədilə gömrük rəsmiləşdirmə prosedurlarını alıcı aparmalıdır.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə alıcının öhdəliyi yoxdur.

4. Alıcı malı sərhəddə müəyyən olunmuş təyinat yerində daşıyıcıdan almalıdır.

5. Daşıyıcıdan mal alındığı andan alıcı malın zədə- lənməsi və itkisi ilə bağlı bütün riskləri öz üzərinə götürür. Eyni zamanda, müəyyən olunmuş müddət ərzində malın müxtəlif səbəblər əsasında alıcı tərəfindən götürül- məməsi nəticəsində əmələ gəlmiş risklər də alıcı tərəfindən aradan qaldırılır.

6. Alıcı sərhəddə müəyyən olunmuş yerdən başlayaraq bütün xərcləri, o cümlədən yükün boşaldılma xərclərini də ödəyir. Bununla yanaşı, təchizat vaxtı pozulan hallarla bağlı əlavə xərclər də alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə, malın idxalı ilə bağlı rüsum, vergi və yığımları, eləcə də idxal zamanı gömrük

rəsmiləşdirməsi ilə bağlı xərcləri alıcı ödəməlidir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların ekvivalent elektron surətlərinin təmin edilməsi ilə bağlı xərcləri, həmçinin satıcı tərəfindən alıcıya göstərilən köməkliklə əlaqədar bütün xərcləri alıcı ödəyir. Lazım olan hallarda, satıcının xahişi əsasında və alıcının hesabına icazə və digər sənədlər, yaxud onların surətləri alıcı tərəfindən satıcıya təqdim edilir və idxal ölkəsində təyinat yeri barədə məlumat verilir.

DES (Delivered Ex Ship (... named port of destination)): gəmidən çatdırılmışdır (... təyinat portunun adı). 2011-ci il yanvarın i-dən DES ticarət şərtinin əvəzinə DAP ticarət şərtindən istifadə olunur.

"Gəmidən çatdırılmışdır" ticarət şərtinə müvafiq olaraq, satıcı təyinat portunda gəminin göyərtəsində idxal üzrə gömrük vergi və rüsumları ödənilməmiş malı alıcıya təqdim etdikdən sonra, satıcı tərəfindən malın çatdırılması sübut olunur. Təyinat portunda malın boşaldılmasına qədər bütün xərcləri satıcı ödəyir və risklərin qarşısını alır. Əgər portda malın boşaldılması və riskin satıcının öhdəliyinə daxil edilməsi barədə tərəflərin razılaşması varsa, onda DEQ ticarət şərtindən istifadə olunur. DES ticarət şərtindən o vaxt istifadə edilir ki, daşınma dəniz, yaxud daxili su nəqliyyatı ilə təşkil olunur.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun ekvivalent olan elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, müəyyən olunmuş yerə qədər malın ixracı üçün və üçüncü ölkələrdə tranzitlə əlaqədar gömrük rəsmiləşdirməsinin aparılması satıcının öhdəliyinə daxildir.

3. Malı təyinat məntəqəsinə daşımaq məqsədilə satıcı öz hesabına daşınma müqaviləsini imzalayır. Əgər müəyyən olunmuş limanda müvafiq yer müəyyən olunma- yıbsa, onda satıcı özünə səmərəli olan yeri seçir. Sığorta müqaviləsinin bağlanması üzrə satıcının öhdəliyi yoxdur.

4. Satıcı malı müəyyən olunmuş müddətdə və ya tarixdə təyin olunmuş limanda gəminin göyərtəsində alıcıya təqdim edir. Malın təchizatının vaxtı elə seçilməlidir ki, malın xüsusiyyətini nəzərə alaraq müxtəlif boşaltma vasitələrinin istifadəsi mümkün olsun və mal alıcının sərəncamına verilsin.

5. Malın zədələnməsi və itkisi ilə bağlı risklər malın təchizatı anma qədər satıcının öhdəliyinə daxildir.

6. Öhdəliyin 3-cü bəndində göstərilmiş xərclərlə yanaşı, təyinat yerinə qədər əmələ gələn bütün xərcləri də satıcı ödəyir. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, rüsum, vergi və digər yığımları, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəməlidir.

7. Satıcı gəminin təyinat portuna ehtimal olunan çatma vaxtı barədə alıcıya məlumat verməyə borcludur. Bu məlumat malın vaxtında alınmasını təmin edir.

8. Satıcı təyinat portunda malı daşıyıcıdan tələb etmək üçün öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim edir (məsələn: dövriyyəli konosament, dəniz qaimə- si, daxili su nəqliyyatının istifadəsini sübut edən sənədlər və s.). Satıcı və alıcı arasında informasiya-elektron mübadilə barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd olunmuş sənədlərin elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdınlmasım təmin etməli və qab- laşdırmanm markalanmasmı

aparmalıdır.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə üçüncü ölkədə malın tranzitini təmin etmək və təyinat ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malın mənşə ölkəsindən alınmasına və ya onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı alıcının xahişinə əsasən, onu sığorta müqaviləsinin bağlanması üçün lazımi məlumatlarla təmin etməlidir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilməlidir.

2. Alıcı idxal lisenziyası və ya digər rəsmi sənədləri öz hesabına və riskinə almalıdır. Mümkün olan yerdə malın idxalı üçün tələb olunan bütün gömrük rəsmiləşdirmələrini yerinə yetirməlidir.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə alıcının öhdəliyi yoxdur.

4. Alıcı malı gəminin göyərtəsində qəbul etməlidir.

5. Alıcı təyinat limanında malın alındığı andan onun zədələnməsi və itkisi ilə bağlı bütün riskləri öz üzərinə götürür. Eyni zamanda, müəyyən olunmuş müddət ərzində malın müxtəlif səbəblərə görə alıcı tərəfindən qəbul edilməməsi ilə bağlı və bununla əlaqədar malın zədələnməsi və itkisi xərcləri də alıcı tərəfindən aradan qaldırılmalıdır.

6. Mal gəminin göyərtəsinə alındığı andan başlayaraq, alıcı bütün xərcləri, o cümlədən yükün boşaldılma xərclərini də ödəyir. Bununla yanaşı, təchizat vaxtı pozulan hallarla bağlı əlavə xərclər də alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə idxal rüsumu, vergi yığımları və zəruri hallarda isə başqa ölkələrin ərazisindən tranzitlə gömrük rəsmiləşdirilməsi ilə bağlı xərcləri də alıcı ödəyir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alıcı alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini, yaxud onlara ekvivalent olan elektron məlumatları

qəbul etməlidir.

9. Göndərən ölkənin hakiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəyir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların elektron surətlərinin təmin edilməsi, həmçinin satıcı tərəfindən alıcıya göstərilən köməkliklə əlaqədar bütün xərcləri alıcı ödəyir.

DEQ (Delivered Ex Quay (... named port of destination)): körpüdən çatdırılmışdır (... müəyyən olunmuş limanın adı). 2011-ci il yanvarın 1-dən DEQ ticarət şərtinin əvəzinə DAT ticarət şərtindən istifadə olunur.

Müəyyən olunmuş limanda idxal rüsumları ödənilməmiş mal körpüdən (sahildən) alıcının sərəncamına verildikdən sonra, satıcı öz öhdəliyini yerinə yetirir. Satıcı malın müəyyən olunmuş limana gətirilməsi və körpüyə (sahilə) boşaldılması üzrə bütün riskləri və xərcləri üzərinə götürməlidir. DEQ ticarət şərtinə müvafiq olaraq, malın idxal vaxtı gömrük rəsmiləşdirilməsi ilə bağlı xərclər və rüsumun, vergi və digər yığımların ödənməsi alıcının öhdəsinə daxildir. Amma tərəflər razılığa gəlib- lərsə, malın idxalı ilə bağlı bütün xərcləri və ya onların bir hissəsini satıcı öz üzərinə götürə bilər. Bu ticarət şərtindən o vaxt istifadə olunur ki, dəniz və ya daxili su nəqliyyatı, yaxud qarışıq nəqliyyat növləri əsasında daşınma nəticəsində mal gəmi vasitəsilə limanın körpüsündə yerləşdirilib. Malı körpüdən anbara, terminala, yaxud digər yerə daşımaq lazımdırsa və tərəflər bununla bağlı xərcləri və riskləri satıcının öhdəliyinə daxil etmək istəyirlərsə, onda ***DDU*** və ***DDP*** ticarət şərtlərindən istifadə olunmalıdır.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun ekvivalent olan elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, üçüncü ölkələrdə malın

tranzitlə keçirilməsi və malın ixracı üçün gömrük rəsmiləş–dirməsinin aparılması satıcının öhdəliyinə daxildir.

3. Təyinat limanında müəyyən olunmuş körpüyə qədər malı daşımaq məqsədilə satıcı öz hesabına daşınma müqaviləsini imzalayır. Əgər təyinat məntəqəsində yer müəyyən olunmayıbsa, onda satıcı özünə səmərəli olan yeri seçir.Sığorta müqaviləsinin bağlanması üzrə satıcının öhdəliyi yoxdur.

4. Satıcı müəyyən olunmuş tarixdə və ya müddətdə təyin olunmuş körpüdə mah alıcıya təqdim etməlidir.

5. Malın zədələnməsi və itkisi ilə bağlı risklər malın təchizatı anma qədər (təyin olunmuş körpüyə qədər) satıcının öhdəliyinə daxildir.

6. Öhdəliyin 3-cü bəndində göstərilmiş xərclərlə yanaşı, təyinat yerinə qədər əmələ gələn bütün xərcləri satıcı ödəyir. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, rüsum, vergi və digər yığımları, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəməlidir.

7. Satıcı gəminin təyinat portuna ehtimal olunan çatmasının vaxtı barədə alıcıya məlumat verməyə borcludur. Bu məlumat alıcı tərəfindən hazırlıq tədbirlərinin vaxtında görülməsini təmin edir.

8. Təyinat limanında malı daşıyıcıdan tələb etmək üçün satıcı öz hesabına alıcıya nəqliyyat sənədlərini təqdim edir (məsələn: dövriyyəli konosament, dəniz qaiməsi, daxili su nəqliyyatının istifadəsini təsdiqləyən sənədlər və ya qarışıq nəqliyyatın istifadəsini sübut edən qaimə və s.). Bu da öz növbəsində malın alıcı tərəfindən körpüdən vaxtında aparılmasını təmin edir. Satıcı və alıcı arasında informasiya-elektron mübadilə barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasım və qablaşdırmanm markalanmasmı təmin etməlidir.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə təyinat

ölkəsində idxal əməliyyatını aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən, yaxud malın mənşə ölkəsindən alınmasına və ya onların surətlərinin elektron rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı sığortanı təmin etmək məqsədilə alıcının tələbi ilə lazımi sənədləri ona təqdim etməyə borcludur.

***Alıcının* öhdəliyi:**

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilir.

2. Alıcı öz hesabına və riskinə idxal lisenziyasını və ya digər rəsmi sənədləri almalı, mümkün olan yerdə malın idxalı üçün gömrük rəsmiləşdirməsini aparmalıdır.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə alıcının öhdəliyi yoxdur.

4. Alıcı malı körpüdə qəbul etməlidir.

5. Malın körpüdə alındığı andan ola biləcək zədələnməsi və itkisi ilə bağlı bütün riskləri alıcı öz üzərinə götürür. Müəyyən olunmuş müddət ərzində alıcı tərəfindən malın müxtəlif səbəblərə görə vaxtında götürülməməsi, onun zədələnməsi və itkisi ilə əlaqədar risklər də alıcı tərəfindən aradan qaldırılmalıdır.

6. Alınmış malın bütün hərəkətləri ilə bağlı xərcləri, o cümlədən malın körpüdən götürülməsi üçün və ya malın anbarda, yaxud terminalda yerləşməsi ilə əlaqədar, yaxud limanda malın üzərində əməliyyatların aparılması ilə əlaqədar xərcləri də alıcı ödəməlidir. Bununla yanaşı, çatdırılmış malın körpüdən müxtəlif səbəblərə görə vaxtında aparılmaması hallarında əlavə xərclər də alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə, gömrük rəsmiləşdirilməsi ilə bağlı xərcləri də alıcı ödəməlidir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini, yaxud onlara ekvivalent olan elektron məlumatı alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan

baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların elektron surətlərinin təmin edilməsi, həmçinin satıcı tərəfindən alıcıya göstərilən köməkliklə əlaqədar bütün xərcləri alıcı ödəməlidir.

DDU (Delivered Duty Uppaid (... named place of destination): rüsum ödənilmədən çatdırılmışdır (... müəyyən olunmuş yerinin adı). 2011-ci il yanvarın ildən DDU ticarət şərtinin əvəzinə DAP ticarət şərtindən istifadə olunur.

Satıcı DDU ticarət şərtinə, müvafiq olaraq, təyin olunmuş yerdə nəqliyyat vasitəsindən boşaldılmamış və idxal üzrə gömrük vergi və rüsumları ödənilməmiş malı alıcıya təqdim edir. Təyin olunmuş yerə qədər satıcı bütün xərcləri, o cümlədən risklərlə bağlı xərcləri də ödəyir. Malın idxalı, vaxtı-vaxtında gömrük rəsmiləşdirilməsinin aparılmaması ilə bağlı xərcləri və riskləri, eləcə də idxal gömrük ödənişlərini və yığımları alıcı ödəyir. Amma əlavə müqavilə şərtləri əsasında gömrük rəsmiləşdirilməsi ilə əlaqədar xərclər və risklər satıcının öhdəsinə daxil edilə bilər.

Nəqliyyat növündən asılı olmayaraq, DDU ticarət şərtindən istifadə olunur. Lakin malın gəminin göyərtəsinə və ya ötürülmə limanının körpüsünə (sahilinə) çatdırılması planlaşdırılıbsa, onda müvafiq olaraq DES və ya DEQ ticarət şərtlərindən istifadə olunur.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun ekvivalent olan elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac lisenziyasını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, üçüncü ölkələrin ərazisindən malın keçirilməsi üçün və malın ixracı üçün gömrük rəsmiləşdirməsinin aparılması satıcının öhdəliyinə daxildir.

3. Təyin olunmuş yerə qədər malı daşımaq məqsədilə satıcı öz hesabına daşınma müqaviləsi imzalayır. Əgər təyinat yerində

məntəqə müəyyən olunmayıbsa, onda satıcı özünə səmərəli olan məntəqəni seçir. Sığorta müqaviləsinin bağlanması üzrə satıcının öhdəliyi yoxdur.

4. Satıcı müəyyən edilmiş müddətdə və vaxtda, təyin olunmuş yerdə nəqliyyat vasitəsindən boşaldılmamış mah alıcıya və ya alıcı tərəfindən müəyyənləşdirilmiş şəxsə təqdim edir.

5. Malın zədələnməsi və itkisi ilə bağlı risklər malın təchizatı anma qədər (təyin olunmuş yerə qədər) satıcının öhdəliyinə daxildir.

6. Öhdəliyin 3-cü bəndinə müvafiq olaraq göndərilmiş malın təyinat yerinə qədər əmələ gələn bütün xərclərini satıcı ödəyir. Mümkün olan yerdə, ixrac zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəməlidir.

7. Satıcı malın göndərildiyi barədə və digər lazımi məlumatları alıcıya verməyə borcludur. Bu məlumatlar malın alıcı tərəfindən vaxtı-vaxtmda alınmasını təmin edir.

8. Satıcı öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim edir (məsələn: dövriyyəli konosament, dəniz qaimə- si, daxili su nəqliyyatının istifadəsini təsdiqləyən sənədlər, hava, dəmir yolu və avtonəqliyyat qaimələri, yaxud qarışıq nəqliyyatın istifadəsini sübut edən qaimə və s.). Bu da öz növbəsində malın alıcı tərəfindən təyin olunmuş yerdən vaxtı-vaxtmda aparılmasını təmin edir.Satıcı və alıcı arasında informasiya-elektron mübadilə barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd edilmiş sənədlərin elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasını və qablaşmanm markalanmasmı təmin etməlidir.

10. Satıcı alıcının xahişi ilə və onun hesabına və riskinə təyinat ölkəsində idxal əməliyyatım aparmaq üçün zəruri sənədlərin göndərən ölkədən və ya malın mənşə ölkəsindən alınmasına və ya onların elektron surətlərinin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərir. Satıcı sığortanı təmin etmək məqsədilə lazımi

sənədləri alıcıya təqdim etməyə borcludur.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilir.

2. Alıcı öz hesabına və riskinə idxal lisenziyasını və ya digər rəsmi sənədləri almalı, mümkün olan yerdə malın idxalı üçün gömrük rəsmiləşdirməsini aparmalıdır.

3. Alıcının daşınma və sığorta müqavilələrinin bağlanması üzrə öhdəliyi yoxdur.

4. Alıcı təyin olunmuş yerə çatdırılmış malı qəbul etməlidir.

5. Təyin olunmuş yerdən başlayaraq malın zədələn- məsi və itkisi ilə bağlı bütün riskləri alıcı öz üzərinə götürür. Alıcının müəyyən olunmuş müddət ərzində malı götürməməsi səbəbindən onun zədələnməsi və itkisi ilə əlaqədar risklər də alıcı tərəfindən aradan qaldırılmalıdır.

6. Təyin olunmuş yerdən başlayaraq alıcı bütün xərcləri, o cümlədən daşımalar və ya malın anbarda, yaxud terminalda yerləşməsi ilə əlaqədar xərcləri də ödəyir. Bununla yanaşı, çatdırılmış malın vaxtı-vaxtında təyin olunmuş yerdən aparılmaması halları ilə bağlı əlavə xərclər də alıcı tərəfindən ödənilir. Mümkün olan yerdə, idxal zamanı aparılan gömrük rəsmiləşdirilməsi ilə bağlı xərcləri də alıcı ödəməlidir.

7. Alıcıda malın daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək hüquqi səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini və onlara ekvivalent olan elektron məlumatı alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri alıcı ödəməlidir.

10. Satıcının öhdəliyinin 10-cu bəndində qeyd olunmuş sənədlərin alınması və ya onların elektron surətlərinin təmin edilməsi, həmçinin satıcı tərəfindən alıcıya göstəriləh köməkliklə əlaqədar bütün xərcləri alıcı ödəməlidir.

DDP (Delivered Duty Paid (... named place of destination)): rüsum ödənilməklə çatdırılmışdır (...müəyyən olunmuş yerinin adı)

"Rüsumları ödənilməklə çatdırılmışdır" ticarət şərtinə müvafiq olaraq, müəyyən olunmuş yerdə idxal üzrə gömrük vergi və rüsumlari ödənilmiş mal nəqliyyat vasitəsindən boşaldılmadan satıcı tərəfindən alıcıya təqdim olunur. Satıcı malın müəyyən olunmuş yerdə çatdırılması ilə bağlı bütün riskləri və xərclərin ödənməsini öz üzərinə götürməlidir.

DDP ticarət şərti satıcının öhdəliyini böyük həcmdə nəzərdə tutduğu halda, EXW ticarət şərti isə satıcının minimal öhdəliyini planlaşdırır.

Satıcı idxal lisenziyası ala bilmirsə, onda bu ticarət şərti tətbiq oluna bilməz. Malm idxalı zamanı bəzi xərclərin satıcının öhdəliyindən istisna olunması yalnız əlavə müqavilə əsasında həyata keçirilir. Əgər alıcı malın idxalı ilə bağlı xərcləri öz öhdəliyinə götürmək istəyirsə, onda DDU ticarət şərti tətbiq olunmalıdır. DDP ticarət şərtinin istifadəsi malm daşınma üsulundan asılı deyil, malm çatdırılması gəminin göyərtəsində, yaxud təyinat yerinin körpüsündə təmin olunubsa, onda DES və ya DEQ ticarət şərtlərindən istifadə olunmalıdır.

Satıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsinə uyğun olaraq, satıcı malı, faktura hesabını və ya onun ekvivalent olan elektron surətini alıcıya təqdim etməlidir.

2. Satıcı öz hesabına və riskinə ixrac və idxal lisenziyalarını və ya digər rəsmi sənədləri almalıdır. Bununla yanaşı, üçüncü ölkələrdə malın tranziti ilə və malın ixracı və idxalı üçün gömrük rəsmiləşdirməsinin aparılması satıcının öhdəliyinə daxildir.

3. Satıcı təyin olunmuş yerə qədər malı daşımaq məqsədilə öz hesabına daşınma müqaviləsini imzalamalıdır. Əgər təyinat yerində məntəqə müəyyən olunmayıbsa, onda satıcı özünə səmərəli olan məntəqəni seçir.Sığorta müqaviləsinin bağlanması üzrə satıcının öhdəliyi yoxdur.

4. Satıcı müəyyən olunmuş müddətdə və vaxtda, təyin olunmuş yerdə nəqliyyat vasitəsindən boşaltmadan malı alıcıya və ya alıcı tərəfindən müəyyən olunmuş başqa şəxsə təqdim edir.

5. Malın zədələnməsi və itkisi ilə bağlı risklər malın təchizatı anma qədər (təyin olunmuş yer) satıcının öhdəliyinə daxildir.

6. Öhdəliyin 3-cü və 4-cü bəndlərinə müvafiq malların daşıması ilə əlaqədar təyinat yerinə qədər əmələ gələn bütün xərcləri satıcı ödəməlidir. Mümkün olan yerdə, ixrac və idxal zamanı gömrük rəsmiləşdirməsi ilə bağlı xərcləri, eyni zamanda üçüncü ölkədə malın tranziti ilə əlaqədar xərcləri də satıcı ödəməlidir.

7. Satıcı, malın göndərildiyi barədə bildirişi və digər lazımi məlumatları alıcıya verməyə borcludur. Bu məlumat malın alıcı tərəfindən vaxtı-vaxtında alınmasını təmin etməlidir.

8. Satıcı öz hesabına alıcıya nəqliyyat sənədləri təqdim edir (məsələn: dövriyyəli konosament, dəniz qaimə- si, daxili su nəqliyyatından istifadəni təsdiqləyən sənədlər, hava, dəmir yolu və avtonəqliyyat qaimələri, yaxud qarışıq nəqliyyatın istifadəsini sübut edən qaimə və s.). Bu da malın öz növbəsində təyin olunmuş yerdə alıcı tərəfindən vaxtı-vaxtmda aparılmasını təmin edir. Satıcı və alıcı arasında informasiya-elektron mübadiləsi barədə razılaşma qəbul olunubsa, onda yuxarıda qeyd olunmuş sənədlərin ekvivalent olan elektron surətlərindən istifadə olunur.

9. Malın keyfiyyəti, ölçüsü, çəkisi və miqdarının yoxlanması ilə əlaqədar bütün xərcləri satıcı ödəyir. Satıcı öz hesabına malın qablaşdırılmasmı və qablaşdırmanm markalanmasmı təmin etməlidir.

10. Satıcı rəsmiləşdirilmə əməliyyatını aparmaq üçün zəruri sənədlərin alınması ilə əlaqədar, yaxud onlara ekvivalent olan elektron surətlərin rabitə vasitəsilə əldə edilməsinə köməklik göstərən alıcının bütün xərclərini ödəməlidir.

Alıcının öhdəliyi:

1. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş malın dəyəri alıcı tərəfindən ödənilir.

2. Alıcı satıcının xahişi ilə və onun hesabına və riskinə malın

idxalı üçün idxal lisenziyasının və ya digər rəsmi sənədlərin alınmasına köməklik edir.

3. Daşınma və sığorta müqavilələrinin bağlanması üzrə alıcının öhdəliyi yoxdur.

4. Alıcı təyin olunmuş yerə çatdırılmış malı qəbul etməlidir.

5. Təyin olunmuş yerdən başlayaraq malm zədələn- məsi və itkisi ilə bağlı bütün riskləri alıcı öz üzərinə götürür. Eyni zamanda, 2-ci bənddə göstərilən öhdəliklər yerinə yetirilmədikdə və alıcı tərəfindən malm alınma tarixi və müddəti barədə əvvəlcədən məlumatın satıcıya verilməməsi ilə əlaqədar malm zədələnməsi və itkisi ilə bağlı risklər də alıcı tərəfindən aradan qaldırılmalıdır.

6. Təyin olunmuş yerdən başlayaraq alıcı bütün xərcləri ödəməlidir. Bununla yanaşı, alıcı tərəfindən idxal lisenziyasının alınmaması və satıcıya vaxtı-vaxtmda məlumatın verilməməsi ilə əlaqədar əlavə xərcləri də alıcı ödəməlidir.

7. Alıcıda malm daşınma müddətini və ötürülmə məntəqəsini müəyyən etmək səlahiyyəti varsa, onda alıcı satıcıya bu barədə məlumat verməyə borcludur.

8. Alqı-satqı müqaviləsinə uyğun olan nəqliyyat sənədlərini, yaxud onlara ekvivalent olan elektron məlumatları alıcı qəbul etməlidir.

9. Göndərən ölkənin hakimiyyət orqanlarının tələbi ilə aparılan baxışlar istisna olmaqla, alıcı malın yüklənməsindən əvvəlki baxışlarla əlaqədar xərcləri ödəməlidir

10. Alıcı malın əldə edilməsi üçün, satıcının xahişi ilə və onun hesabına və riskinə müxtəlif sənədlərin və onların elektron surətlərinin alınmasına köməklik etməlidir.

"Inkoterms"in təhlili aşağıda göstərilənləri müəyyən edir [24]:

1 Daşınmada istifadə olunan nəqliyyat vasitəsinin növü

2. Satıcıdan alıcıya verilən yükün ötürülmə məntəqəsi

3."İnkoterms" ticarət şərtləri xarici ticarət tərəflərinin üzərinə müxtəlif öhdəliklər müəyyən edir. Onlardan biri də ötürülmə məntəqəsinin müəyyən edilməsidir, həmin məntəqələrdə daşman malın sahibi dəyişir, satıcıdan alıcıya keçir.

4.Satıcı və alıcı arasında risklərin paylanması.

İxrac və idxal zamanı mal və nəqliyyat vasitələrinin "gömrük təmizlənməsi" üzrə öhdəliklə adətən, bütün ticarət şərtlərinin istifadəsində "gömrük təmizlənməsi" ixracda satıcı tərəfindən, idxalda isə alıcı tərəfindən aparılır. Amma EXW və DDP ticarət şərtlərinin tətbiqində bu prinsip pozulur.Ümumiyyətlə, ''İnkoterms" təsnifatı malların hərəkəti zamanı ötürülmə məntəqəsini müəyyən etməklə, xərclərin və risklərin alıcı və satıcı arasında paylanmasını və onların satıcıdan alıcıya keçidini müəyyənləşdirir. Adətən, bu məntəqələrin sayı bir olur, lakin "C" şərtləri üçün bu məntəqələr fərqlənə də bilər. Aydındır ki, ticarət şərtləri gömrük nəzarətinin təşkilində və maliyyə ödənişlərinin təmin edilməsində böyük məna daşıyır. Malın statistik dəyərinin hesablanmasında bazis ticarət şərtlərinin (FOB, DAF, CİF və CİP) nəzərə alınması təlimata uyğun aparılmalıdır (bax: Fəsil V - "Gömrük statistikasına dair normativ sənədlər"). Təlimata uyğun olaraq malın gömrük dəyəri üzərində bazis ticarət şərtləri nəzərə alınmaqla hesablamalar aparılır və malın statistik dəyəri müəyyən olunur. 3 saylı Əlavədə mövcud ticarət şərtlərinin bazis ticarət şərtlərinə keçidinin alqoritmi göstərilib. 2010-ci il sentyabrın 27-də "İnkoterms-2010" qəbul olunmuşdur. 2011-ci il yanvarın 1-dən qüvvəyə minən bu təsnifat yeni ticarət şərtlərini və dəyişiklikləri müəyyənləşdirmişdir [22]. "İnkoterms - 2000"-dən dörd ticarət şərti çıxarılıb. Cargo Clauses İnstitutu (İCC) bu şərtlərin əvəzinə, iki yeni "Çatdırma" ticarət şərti qəbul edib:

DAP (Delivered At Place) - "müəyyən yerə qədər çatdırılıb" ticarət şərti. DAF, DES və DDU ticarət şərtlərinin əvəzinə, DAP ticarət şərtindən istifadə olunmalıdır;

DAT (Delivered At Terminal) - "terminala çatdırılıb" ticarət şərti. DEQ ticarət şərtinin əvəzinə, DAT ticarət şərtindən istifadə olunmalıdır. Nəqliyyat vasitəsinin növündən asılı olmayaraq yeni ticarət şərtlərinin istifadəsi mümkündür.Yeni ticarət şərtlərinin təsnifata daxil edilməsi ona əsaslanır ki, nəqliyyat təşkilatları daşınma prosesinin şərtlərini düzgün seçmirlər və bu da

müqavilələrin arasında ziddiyyət yaradır.

Nəqliyyat növündən asılı olmayaraq EXW, FCA, CPT, CİP, DAP, DAT və DDP ticarət şərtləri tətbiq olunmalıdır.

FAS, FOB, CFR və CİF ticarət şərtlərindən malın dəniz və daxili su nəqliyyatı ilə çatdırılması təmin olunan hallarda istifadə edilməlidir. Yeni "İnkoterms" həm beynəlxalq daşımalar, həm də daxili daşımalar üçün istifadə imkanı yaradır. Bu, müxtəlif ittifaqlara daxil olan ölkələr üçün xüsusilə vacibdir. Avropa İttifaqı ölkələri arasında formal sərhədlərin olması yeni "İnkoterms" rəsmiləşdirməsini sadələşdirir.

Satıcı və alıcı arasında müqavilə sənədlərinin elektron formalarından istifadə və onların mübadiləsinin mümkünlüyü elektron sənədlərin həcminin kəskin surətdə artmasını bir daha göstərir.

Beynəlxalq ticarətdə əsas problemlərdən biri mal və nəqliyyatın daşınması zamanı təhlükəsizliyin təminatıdır. Bununla əlaqədar ölkələr təhlükəsizliyə ciddi önəm verirlər. Yeni qaydalara əsasən, tərəflər malların və nəqliyyat vasitələrinin idxal və ixrac əməliyyatlarının "gömrük təmizlənməsi" zamanı sorğu əsasında təhlükəsizliklə bağlı əlavə məlumatın verilməsini öhdəlik kimi öz vəzifələrinə daxil edirlər. ''İnkoterms - 2000"-də belə bir öhdəlik nəzərdə tutulmamışdır. CİP, CPT, CFR, CİF, DAT və D AP ticarət şərtlərinə müvafiq olaraq, satıcı malın təyin olunmuş yerə qədər çatdırılmasını və bütün xərclərin ödənilməsini təmin etməlidir.

Mövcud təcrübədə elə hallar müşahidə olunur ki, satıcı və alıcı təyinat yerində malın terminalda saxlanma xərclərini ödəyirlər. Bununla əlaqədar "ikiqat ödəmələr" müşahidə olunur.

XIII FƏSİL

GÖMRÜK STATİSTİKASINDA MALLARIN STATİSTİK DƏYƏRİNİN BEYNƏLXALQ ƏSASLARI

13.1. İdxal və ixrac üzrə malların statistik dəyərinin hesablanmasının beynəlxalq əsasları

Yük gömrük bəyannaməsində qeyd olunmuş malın statistik dəyəri, təbii ki, statistik məqsədlər üçün istifadə olunur. Əsas statistik məqsəd iki ölkənin xarici ticarətinin etibarlı müqayisəsinin aparılması və eyni malların eyni gömrük və ticarət şəraitində ölkəyə idxalı zamanı qiymətləndirilmənin təmin edilməsidir. Malların statistik dəyərinin hesablanması zamanı ticarət şərtlərindən asılı olaraq malların gömrük dəyərindən və ya faktu- ra dəyərindən istifadə olunur. Bu, bir daha göstərir ki, faktura, gömrük və statistik dəyərlər arasında müvafiq asılılıq vardır.

Qeyd etmək lazımdır ki, 1947-ci ildə Ticarət və tariflər üzrə Baş Razılaşmanın (TTBR) VII maddəsinin qəbul edilməsi malların dəyərini müəyyənləşdirən gömrük metodikasının standartlaş– masında əhəmiyyətli addım oldu. TTBR-i imzalamış ölkələr malların faktura qiyməti əsasında onların gömrük dəyərinin müəyyən edilməsini qərara almışdılar. Malların dəyərini müəyyən edən gömrük metodikasının təkmilləşdirilməsi məqsədilə 1953-cü ildə Brüssel razılaşması qəbul edildi. 1981-ci ildə TTBR-in VII maddəsinin səmərəli tətbiqi ilə əlaqədar yeni metodika təsdiq olundu (1981-ci il Razılaşması). Nəhayət, 1995-ci ildə əlavə Razılaşmanın qəbulu baş tutdu. TTBR-in Razılaşmasında qeyd olunub ki, malların gömrük dəyərini malın satış qiyməti müəyyən edir. Malın qiyməti müqavilədə göstərilmiş dəyər əsasında hesablanır, yəni saziş dəyəri nəzərə almır. Ümumdünya Ticarət Təşkilatı TTBR-in təklifinə əsaslanaraq malların gömrük dəyərinin hesablanma qaydalarını hazırlayıb. Malların dəyərinin müəyyənləşdirilməsi məqsədilə Ümumdünya Ticarət Təşkilatı

tərəfindən tərtib olunmuş Razılaşmadan istifadə edilməsi təklif olunur. Xidmətlərin dəyəri və saziş üzrə malların dəyərinin cəmi malların statistik dəyərini təşkil edir. Burada qeyd olunmuş xidmətlər malların yalnız ixrac və ya idxal ölkələrinin sərhədinə qədər çatdırılması ilə əlaqədar xidmətləri nəzərdə tutur. Lakin bir qayda olaraq, sazişlərin dəyərinə xidmətlərin (geniş mənada) dəyərləri daxil edilmir. Eyni zamanda, malların gömrük dəyərinə sazişin dəyərindən başqa, onların ixrac və idxal ölkələrinin sərhədinə çatdırılması ilə bağlı xidmətlərin (əsasən, fraxt və sığorta) dəyəri də daxil edilir. Bunu nəzərə alaraq, gömrük dəyəri statistik dəyər kimi qəbul olunur. Lakin əksər hallarda Ümumdünya Ticarət Təşkilatının malların dəyərinin müəyyən edilməsi barədə Razılaşmasına əsaslanaraq, gömrük dəyəri üzərində lazımi düzəlişlər aparılır.

Saziş dəyəri. Malların təyinat ölkəsinə satışı və daşınması ilə bağlı ödənilmiş və ya ödənilməsi planlaşdırılmış dəyərlər saziş dəyərini müəyyən edir. Saziş dəyərini müəyyənləşdirmək üçün ödənilmiş dəyərə xərclərin bəzi elementləri əlavə oluna bilər**.** Bu növ xərclər qeyd olunmuş Razılaşmanın 8.1 maddəsində göstərilib [21, səh.41]. Saziş dəyəri və malların faktura qiyməti. Satıcıya birbaşa ödənilmiş pul faktura dəyərinə müvafiqdir. Saziş dəyərinə daxil olan, yaxud istisna təşkil edən bəzi ödəmələr nəzərə alınmaya bilər. Malın faktura dəyəri özünə əlavə xərcləri də daxil edilir.

Xidmətlərin dəyəri. Malların göndərən ölkədən təyinat ölkələrinin sərhədinə qədər çatdırılması ilə əlaqədar xidmətlər nəzərə alınır (malların yüklənməsi və boşaldılması, gömrük rəsmiləşdirməsinin aparılması, daşınma, sığortalama və risklə bağlı xidmətlər).

Ümumdünya Ticarət Təşkilatının malların dəyərini müəyyən edən Razılaşmasına əsasən, aşağıda göstərilmiş xərclərin gömrük dəyərinə əlavə edilməsinə və ya çıxarılmasına icazə verilir: giriş məntəqələrinə və ya limanlara (təyinat portuna) qədər idxal mallarının nəqlinə sərf olunmuş xərclər;

1. giriş məntəqələrinə və ya limanlara (təyinat portuna) qədər

idxal mallarının nəqli ilə əlaqədar yükləmə, boşaltma və yüklərin emalı ilə bağlı xərclər;

2. sığortanın dəyəri.

Qeyd etmək lazımdır ki, bəzi hallarda idxal mallarının gömrük dəyəri xidmətlərin dəyərlərini əhatə etmir. Bununla əlaqədar malların statistik dəyərini hesablamaq üçün xidmətlərin dəyərləri ticarət şərtləri nəzərə alınmaqla gömrük dəyərinə əlavə olunur.

Yuxarıda göstərilən qeydləri nəzərə alaraq, ölkələr malların gömrük dəyərini FOB və ya CİF ticarət şərtlərinə müvafiq olaraq aşağıda göstərilən qaydada hesablayır:

- FOB dəyəri: malın FOB dəyərinə "saziş" dəyəri və ixrac ölkəsinin sərhədinə qədər çatdırılma xərcləri (xidmətlərin dəyəri) daxildir;

- CİF dəyəri: malın CİF dəyərinə "saziş" dəyəri, ixrac ölkəsinin sərhədinə qədər çatdırılma xərcləri və ixrac ölkəsinin sərhədindən idxal ölkəsinin sərhədinə qədər olan bütün daşınma və digər xərclər daxildir [21].

Mövcud statistik uçotun vəziyyəti və ticarətdə olan təcrübəyə əsaslanaraq, beynəlxalq ticarəti əks etdirən məlumatların müqayisəsini təmin etmək məqsədilə malların statistik dəyərini aşağıda göstərilən prinsip əsasında hesablamaq təklif olunur:idxal mallarının statistik dəyəri CİF ticarət şərtində;

- ixrac mallarının statistik dəyəri FOB ticarət şərtində [21, səh. 108]. Adətən, alqı-satqı müqavilələrində ticarət şərtləri qeyd olunur. CİF və FOB şərtlərini müəyyən etmək üçün əlavə sənədlərin alınması zərurəti yaranır. Dəniz və ya daxili sular vasitəsilə ixrac ölkəsindən göndərilən mallar FOB ticarət şərtində rəsmiləşdirilir, digər nəqliyyat növündən istifadə olunursa, onda FSA ticarət şərti tətbiq edilir.

Əgər FOB və FSA ticarət şərtlərinin istifadəsi mümkün deyilsə (dəmir yolu və ya boru kəməri ilə ixrac zamanı), onda "sərhədə qədər çatdırma" DAF (DAP) ticarət şərtindən istifadə olunur. Nəzərə almaq lazımdır ki, FSA və DAF (DAP) ticarət şərtləri ixrac ölkəsinin sərhədinə qədər olan bütün xərcləri özlərində cəmləşdirir.

Onlar FOB ticarət şərti ilə eyni mənada istifadə olunur. DAF (DAP), FSA və FOB ticarət şərtlərinin tətbiqi FOB ticarət şərtinin istifadəsi deməkdir.

Dəniz və ya daxili sular vasitəsilə idxal edilən malların dəyəri CİF ticarət şərtləri şəraitində müəyyən olunur. İdxal ölkəsinə digər nəqliyyat növləri ilə daxil olan malların dəyərinin hesablanmasında CİF ticarət şərtinin istifadəsi qeyri-mümkündür. Bu hallarda giriş məntəqələrində malların dəyəri "daşınma və sığorta ödənilib" CİP ticarət şərtləri əsasında hesablanır. Əgər ticarət əməliyyatları digər ticarət şərtləri əsasında həyata keçirilərsə (zavoddan göndəriş, gəmi bortu ilə sərbəst və s.), onda malların dəyərini FOB və CİF ticarət şərtləri daxilində hesablamaq üçün əlavə informasiya mənbələrindən istifadə olunmalıdır. Qeyd etmək lazımdır ki, bu yaxınlara qədər beynəlxalq praktikada 13 ticarət şərtindən istifadə olunurdu "İnko- terms 2000" təsnifatının məzmunu və şərhi), lakin 2011- ci il yanvarın 1 -dən 11 ticarət şərti tətbiq olunur ("İnkoterms-2011"). Ümumdünya Ticarət Təşkilatı tərəfindən qəbul olunmuş Razılaşmaya əsasən, malların statistik dəyərinin hesablanması üçün əsas səbəb malın gömrük dəyəridir. Cari ticarət şərti CİF və FOB şərtlərindən fərqlidirsə, onda faktura dəyəri, yaxud gömrük dəyəri üzərində düzəlişlər apardır. Cari şəraitdən asılı olaraq düzəlişlər aparmaq üçün müvafiq xərclərin faktura, ya da gömrük dəyərinə əlavələr və ya istisnalar edilir. Xarici ticarətdə aparılan təhlillərin tələbatını təmin etmək məqsədilə malların dəyəri idxalda CİF qiymətində, ixracda isə FOB qiymətində müəyyən olunur. Məsələn, daxili bazarda bazarda satılan malların qiyməti ilə müqayisə aparmaq üçün malların CİF qiymətinin hesablanması zərurəti əmələ gəlir. CİF və FOB dəyərlərinin müəyyən edilməsi müxtəlif sənədlərdən istifadə zərurəti yaradır. Bunlardan əsası alqı-satqı müqavilələridir. Alqı-satqı müqavilələri digər məlumatlarla yanaşı, malın qiymətini də göstərir (müqavilə/saziş qiyməti). Malın qiyməti he- sab-faktura qoşma sənədində də göstərilir. Xüsusilə qeyd etmək lazımdır ki, müqavilə qiymətləri malın idxalı və ya ixracı ilə bağlı bütün xərcləri özündə əks etdirmir. Müxtəlif müqavilələrdə

göstərilmiş göndəriş ticarət şərtlərinin təhlili nəticəsində malın tam dəyəri müəyyənləşdirilir. Bu ərəfədə hesab-faktura, daşınma və sığorta müqavilələri təhlil olunur. Malların dəyərinin bəzi beynəlxalq ticarət əməliyyatları üzrə müəyyən edilməsi çətinliklər və suallar yaradır.

Ümumiyyətlə, malların dəyəri Ümumdünya Ticarət Təşkilatının Malların dəyərinin müəyyən edilməsi barədə Razılaşmasına əsasən aparılmalıdır. Bununla yanaşı, aşağıdakılar təklif olunur:dövriyyədə olmayan banknot, qiymətli kağızlar və pulların nominal dəyərini nəzərə almamaq şərtilə, onların çap edilməsinə sərf olunmuş xərclər yük gömrük bəyannamələrində qeyd olunur;

- ümumi və ya kommersiya məqsədləri üçün proqram təminatı, məlumat bazaları və disketlər tam dəyər əsasında rəsmiləşdirilir, yəni proqram təminatının, məlumat bazasının və disketin dəyərləri nəzərə alınır;

-təmirə göndərilmiş malın dəyərində təmirə sərf olunmuş xərclər nəzərə alınır, yəni təmir işlərinin dəyəri, dəyişdirilmiş hissələrin dəyəri və s. Beynəlxalq təcrübədə bəzi mallar üzrə dəyərlərin müəyyənləşdirilməsində təqribi üsulların istifadəsinə yol verilir. Bu cür sazişlərin həyata keçirilməsində valyuta və ya kreditlərin hərəkəti müşahidə olunmur. Məsələn: barter əməliyyatları, ərzaq və digər humanitar yardımlar, malların konsiqıasiya əsasında göndərilməsi, miqrantlarm əmlakının göndərilməsi, satılmamış malların geri qaytarılması, şəxsi təşkilatlar və fiziki şəxslər tərəfindən hədiyyələrin aparılması, gömrük sərhədini qeyri-qanuni keçən malların müsadirəsi. Göstərilən hallarda malların dəyərinin müəyyənləşdirilməsində Ümumdünya Ticarət Təşkilatının Razılaşması əsasında eyni və oxşar malların dəyəri və ya hesablanmış dəyərlər təcrübəsindən geniş istifadə olunur. Malların statistik dəyərinin düzgün müəyyən edilməsi beynəlxalq ticarət statistikasının etibarlılığı üçün böyük əhəmiyyət daşıyır.

XIV FƏSİL

XARİCİ TİCARƏT ƏMƏLİYYATLARININ UÇOTUNDA "GÜZGÜLÜ STATİSTİKA"NIN ƏSAS MƏQSƏDİ

14.1. "Güzgülü statistika"nın əsas məqsədi


"Güzgülü statistika"nın əsas məqsədi dövlətlərarası xarici iqtisadi əlaqələrin təhlilidir. Bir ölkənin ixracının kontragent ölkənin idxalına olan bərabərliyinin qiymətləndirilməsi "güzgülü statistika"nın qarşısında duran əsas məsələdir. Bu qiymətləndirilmə yük gömrük bəyannaməsinin 46-cı qrafasında göstərilmiş malın statistik dəyəri əsasında aparılır. ki dövlətdə eyni gömrük statistikasının metodologiyasından və normativ sənədlərdən istifadə olunursa, onda bir ölkənin ixracı digər ölkənin idxalına təxminən yaxın olmalıdır və ya əksinə, ikinci ölkənin ixracı birinci ölkənin idxalına təxminən bərabər olmalıdır. Xüsusi şəraitdə (qonşu ölkələrin əraziləri sahə baxımından eyni olan hallarda) ixrac-idxalın bərabərliyi tam ola bilər.

Beləliklə, dövlətlərarası qeydə alınmış idxal və ixrac əməliyyatları balansının hesablanması və təhlili "güzgülü statistika"nın əsas məqsədidir. Xarici ticarət müqavilələrinin bağlanması zamanı müxtəlif göndərilmə ticarət şərtlərindən istifadə edilir. Malların ixrac və idxalı üzrə ümumi dəyəri müəyyən etmək üçün məlumatların sadəcə olaraq toplanması yolu ilə müqayisə və təhlil aparılması kifayət deyil və bu səhvdir. Ona görə də, bütün idxal və ixrac olunan malların dəyər qiymətləndirilməsi göstəricisinin alınması üçün onların qiymətlərini vahid bazisə gətirmək lazımdır.

14.2 "Güzgülü statistika" problemlərinin araşdırılmasında müqavilə-ticarət şərtlərinin bazis-ticarət şərtləri ilə eyniliyinin təsiri

Ümumi prinsiplərə əsaslanaraq, "güzgülü statistika" problemlərini araşdırmaq məqsədilə idxal əməliyyatını struktur sxemini təsvir edək. Bu sxem aşağıdakı şəkildə göstərilmişdir.

şəkil 14.2.1



Burada: gx - göndərən ölkədə ixrac əməliyyatı zamanı mövcud xərclər;

ax - tranzit ölkələrdə ödənilmiş bütün xərclər;

tx - təyinat ölkəsində daxili xərclər Şəkil 14.2.1-də göstərilmiş idxal əməliyyatına uyğun olaraq iki variantı təhlil edək:

Variant A

-müqavilədə qeyd olunmuş göndərilmə ticarət şərtləri bazis şərtləri ilə (CİF, CİP, FOB, DAF (2011-ci il yanvarın 1 -dən D AP)) üst-üstə düşür;

- malın faktura dəyəri malın maya dəyərinə və istehsalçının mənfəətinə bərabərdir;

- müqavilə valyutası göndərən ölkənin milli valyutasında ifadə olunur.

Şəkil 14.2.1-də göstərilmiş idxal əməliyyatına uyğun olaraq iki varia

14.2.1 Təyinat ölkəsində statistik dəyərin hesablanması qaydası

Müqavilə-ticarət şərtlərinin bu variantda bazis şərtləri ilə üst-üstə düşdüyünü nəzərə alsaq, onda gömrük dəyəri aşağıda göstərilən qaydada hesablanır:

GDt=(FD+gx+ax+tx) (göndərən ölkənin milli valyu-tasmda)/(göndərən ölkənin milli valyutası ilə manatın məzənnəsi)

GDt - təyinat ölkəsi üçün malın gömrük dəyəri;

FD - malın faktura dəyəri.

gx - göndərən ölkədə ixrac əməliyyatı zamanı mövcud xərclər;

ax - tranzit ölkələrdə ödənilmiş bütün xərclər; tx - təyinat ölkəsində daxili xərclər.

Son nəticədə təyinat ölkədə malın statistik dəyəri aşağıda göstərilmiş düstur əsasında hesablanır:

SDt=GDt-tx=(FD+gx+ax)/(manatla dolların məzənnəsi) (1)

Burada: SDt - təyinat ölkəsində malm statistik dəyəri

gx - göndərən ölkədə ixrac əməliyyatı zamanı mövcud xərclər;

ax - tranzit ölkələrdə ödənilmiş bütün xərclər;

tx - təyinat ölkəsində daxili xərclər.

FD - malın faktura dəyəri.

14.2.3 Göndərən ölkədə statistik dəyərin hesablanması qaydaları:

SDg = FD + gx /göndərən ölkənin milli valyutası ilə dolların məzənnəsi (2)

Burada: SDg - göndərən ölkədə malm statistik dəyəridir.

Təyinat və göndərən ölkələrdə malm statistik dəyərlərinin (1) və (2) düsturların müqayisəsi göstərir ki, bu dəyərlər fərqlidir.

SDt-SDg=(FD+gx+ax)-(FD+gx) = ax (3)

14.3 Göndərən ölkədə statistik dəyərin hesablanması qaydaları

FOB, DAF CİF,CİP

Müqavilə-ticarət şərtləri bazis-ticarət şərtlərindən fərqlidir

Variant B

-müqavilədə qeyd olunmuş göndərilmə-ticarət şərtləri bazis şərtlərindən fərqlidir;

-malın faktura dəyərinə onun maya dəyərindən və mənfəətindən başqa, digər xərclər də daxildir;

-kontrakt valyutası göndərən ölkənin milli valyutasında və ya ABŞ dolları ilə ifadə olunur.

B variantında malın faktura dəyərinin strukturundan və müqavilə şərtlərindən asılı olaraq, çoxsaylı variantlar ola bilər. Malın faktura dəyəri onun təyinat (ötürülmə) məntəqəsinə çatdırılması ilə bağlı xərcləri də əhatə edə bilər. Burada üç variantın yaradılması mümkündür: təyinat (ötürülmə) məntəqəsinin göndərən, tranzit və təyinat ölkələrinin daxilində yerləşməsi.

Nümunə 1

- müqavilə şərtinə müvafiq olaraq, mal tranzit ölkəsinin hansısa təyinat (ötürülmə) məntəqəsinə çatdırılmışdır;
- kontrakt valyutası ABŞ dollarıdır.

Fərz edək ki, təyinat (ötürülmə) məntəqəsi Moskva şəhəridir. Onda təyinat ölkəsində malın statistik dəyəri aşağıda göstərilən qaydada hesablanır:

SDt=FD+xl (4)


Burada, X1 – Moskva şəhərindən təyinat ölkəsinin sərhədinə qədər olan xərclərdir;

FD - müqavilə şərtinə uyğun olaraq, malın faktura dəyəri onun maya dəyərindən başqa, Moskva şəhərinə qədər olan xərcləri də əhatə edir.

Göndərən ölkə üçün bazis şərtlərinə keçidi təmin etmək məqsədilə göndərən ölkənin sərhədinə qədər olan xərclər malın faktura dəyərindən çıxılmalıdır. Bununla əlaqədar göndərən ölkə üçün statistik dəyərin hesablanması aşağıda düstur əsasında aparılır:

SDg=FD-x2 (5)

Burada, X2 - ötürülmə məntəqəsindən (Moskva şəhəri) göndərən ölkənin sərhədinə qədər olan xərclərdir. Bu variant aşağıdakı 14.4 saylı şəkildə təsvir olunub.



Burada SDg və SDt-nin müqayisəsi əsasında fərqlənmə halları müəyyən olunur.

Nümunə 2

müqavilə şərtinə müvafiq olaraq təyinat (ötürülmə) məntəqəsi təyinat ölkənin daxilində yerləşir (DDP ticarət şərtindən istifadə olunur);

kontrakt valyutası dollardır.

Fərz edək ki, təyinat məntəqəsi Gəncə şəhəridir. Onda malın gömrük dəyərini təyinat ölkəsində bazis şərtinə (CIP - sərhəd, CİF - port) gətirmək üçün malın gömrük dəyərindən təyinat ölkəsində olan xərclər çıxılmalıdır:

GDt*=GDt-tx

Təyinat ölkəsində malın statistik dəyəri gömrük dəyəri əsasında hesablanır:

SDt=GDt*/milli valyuta və dollar arasında məzənnə


Göndərən ölkədə isə gömrük dəyəri belə hesablanır:

GDg* = FD - x3

Burada, X3-Gəncə şəhərindən göndərən ölkənin sərhədinə qədər olan xərclərdir.Statistik dəyər isə göndərən ölkədə aşağıdakı qaydada hesablanır:

SDg=GDg*/milli valyuta və dollar arasında məzənnə

SDt (təyinat ölkəsində statistik dəyər) və SDg-nin (Göndərən ölkədə gömrük dəyəri) müqayisəsi onların nisbətini müəyyən etməyə imkan yaradır.



Nümunə3

- müqavilə şərtinə uyğun olaraq, alıcı malı birbaşa satıcıdan alır (franko - zavod : EXW ticarət şərti);
- kontrakt valyutası dollardır.

Göndərən ölkə üçün hesablanan malın gömrük dəyərini bazis şərtlərinə gətirmək məqsədilə, göndərən ölkədəki xərclər ixrac bəyannaməsində qeyd olunan faktura dəyərinə əlavə edilməlidir. Eyni zamanda, təyinat ölkəsində malın gömrük dəyərini bazis şərtlərinə gətirmək məqsədilə, təyinat ölkəsində əmələ gəlmiş bütün xərclər malın ümumi gömrük dəyərindən çıxılmalıdır.

Misallar göstərir ki, "güzgülü" statistikamın üsulları yalnız qonşu ölkələr üçün və kontrakt valyutası dollarla ifadə olunanda qənaətbəxş nəticə verir.

14.4 Dövlətlərarası xarici iqtisadi əlaqələrin göstəriciləri arasında yaranan fərqə təsir edən amillər

Dövlətlərarası xarici iqtisadi əlaqələrin göstəriciləri arasında olan fərq, əsasən, aşağıda qeyd olunmuş amillərin təsiri altında əmələ gəlir:

1. Göndərən və təyinat ölkələrində malın hesablanmış statistik dəyərləri (SDg və SDt) tranzit ölkələrində olan xərclər hesabına fərqlənir (bax: düstur (3));
2. Zaman amilinin təsiri:
   - malın bir ölkədən digər ölkəyə çatdırılması müəyyən vaxt tələb edir və həmin müddət ərzində kontrakt valyutası ilə ABŞ dolları arasında olan məzənnə dəyişir. Nəticədə, malın statistik dəyəri göndərən ölkədə bir məzənnə əsasında hesablandığı halda, təyinat ölkədə digər məzənnə əsasında hesablanır;
   - zamandan asılı olaraq, milli valyutalar arasında olan məzənnə dəyişir.

- 3. İlin sonunda rəsmilərdirilən xarici iqtisadi əməliyyatların "güzgülü statistika"ya mənfi təsiri var. Məsələn, göndərən ölkədə dekabrın 30-31-də rəsmiləşdirilən yüklər təyinat ölkədə növbəti ilin əvvəlində qeydə almır. Beləliklə, həmin mal göndərən ölkənin cari ilinin gömrük statistikasına daxil edildiyi halda, təyinat ölkəsində növbəti ilin statistikasına düşür;
- 4. Tərəfdaş ölkələrdə malların statistik dəyərinin hesablanmasında bir-birindən fərqlənən üsullardan istifadə;
- 5. Mənşə ölkənin düzgün müəyyən edilməməsi;
- 6. Tərəfdaş ölkələrdə malın təsnif edilməsində müxtəlifliyə yol verilməsi (bir malın göndərən və təyinat ölkələrdə müxtəlif kod və ad altında rəsmiləşdirilməsi);
- 7. Tərəfdaş ölkələrdə statistik həddin fərqlənməsi;
- 8. Malların gömrük rejimlərinin düzgün seçilməməsi.
- Beynəlxalq praktikada "güzgülü statistika"nm problemləri hələ də aktual olaraq qalır və bu sahədə geniş elmi-tədqiqat işləri aparılır.
- Qeyd etmək lazımdır ki, eyni mənşəli malların ölkəyə eyni marşrutla idxal olunmasının təhlili "güzgülü statistika" əsasında aparılarkən səmərəli nəticələr verir. Bu məsələlərdə əməliyyatların bazis şərtlərinə gətirilməsi həqiqi qiymətləndirmənin aparılmasına imkan verir.

XV FƏSİL
XARİCİ TİCARƏT ƏMƏLİYYATLARININ MÜHASİBAT UÇOTU

15.1. Gömrük statistikasında idxal əməliyyatlarının uçota alınması

Məlumdur ki, xarici ticarət əməliyyatları zamanı idxal və ixrac olunan malların gömrükdə Yük Gömrük Bəyannaməsi tərtib olunur. Yük Gömrük Bəyannaməsində (YGB) malların müxtəlif dəyərlər göstərilir, ƏDV və rüsumlar (idxal və gömrük rüsumları) hesablanmaqla qeyd edilir. İdxal əməliyyatları zamanı ƏDV Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 162.1-ci maddəsinə əsasən idxal olunan malın gömrük dəyəri, gömrük rüsumu və aksiz məbləğinə əsasən hesablanır. Yəni, ƏDV = (gömrük dəyəri + gömrük rüsumu + aksiz məbləği) * 18%. İdxal olunmuş malın YGB-də əsasən faktura dəyəri, gömrük dəyəri və statistic dəyərindən ibarət olan 3 dəyər göstərilir:

Faktura dəyəri malların alınmasına faktiki ödənilmiş məbləğdir. Bu dəyər YGB-nin 42-ci qrafasında göstərilir. Mühasibat uçotunda isə mallar həmin qiymətlə mədaxil olunur.

Gömrük dəyəri idxal olunmuş malın bazar qiymətini göstərir və YGB-nin 45-ci qrafasında göstərilir. İdxal olunmuş mallar mühasibat uçotunda bu dəyərlə hesablanmır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 14.3.1.-ci maddəsinə əsasən idxal-ixrac əməliyyatlarında vergilər bazar qiyməti nəzərə alınmaqla hesablandığına görə malın gömrük dəyəri yalnız gömrükdə ƏDV-ni hesablamaq üçün istifadə edilir.

Statistik dəyər YGB-nin 46-cı qrafasında göstərilir. İdxal olunmuş malın statistik dəyəri "Azərbaycan Respublikasının xarici-ticarətinin gömrük statistikasının Metodologiyası"-na əsasən idxal olunan mallara hesablanan dəyərdir. Qeyd etmək lazımdır ki, mühasibat uçotunda mallar statistik dəyərlə uçota alınmır.

15.2.Gömrük əməliyyatlarında vergilərin tətbiqinin təhlili və onların təkmilləşdirilməsi istiqamətləri

Gömrük münasibətləri xarici iqtisadi münasibətlərin başlanğıcı ilə bərabər, eyni zamanda xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün ölkələr arasındakı iqtisadi sərhədləri təşkil edir. Gömrük münasibətləri bir sıra vacib funksiyaları yerinə etirməklə, dövlətin maliyyə vəsaiti ilə təmin olunması, vergi siyasətinin, xüsusilə də xarici iqtisadi fəaliyyət çərçivəsində həyata keçirilən vergi siyasətinin tiqamətinin müəyyən olunması, maliyyə nəzarətinin təşkili, xarici investisiyalarm idarə olunması və stimullaşdırılması, və s. kimi mühüm vəzifələri öz üzərinə götürür. Ölkələr arasındakı iqtisadi münasibətlər, xüsusilə maliyyə münasibətləri gömrük münasibətləri ilə daim əhatə olunurlar. Bu baxımdan da gömrük münasibətləri xarici iqtisadi fəaliyyətdə müəyyən məqamlarda maliyyə münasibətlərinin tərkib hissəsinə çevrilir. Malların, iş və xidmətlərin ölkələr arasında təqdim olunması, həmçinin onların dəyərinin ödənilməsi öz əksini ölkələrarası gömrük münasibətlərində tapır. Malların, iş və xidmətlərin ölkələr arasındakı hərəkəti idxal-ixrac əməliyyatları hesab edilərək, onların dəyərinin ödənilməsi, o cümlədən həmin dəyərləri yaradan resursların (kapitalın, işçi qüvvəsinin və xidmətlərin) hərəkəti isə kapitalın və maliyyə vəsaitlərinin hərəkəti şəklində təzahür olunur. Bu əməliyyat zamanı həyata keçirilən gömrük-vergi siyasəti bu hərəkətin daha səmərəli baş verməsini və dövlətin qarşısında qoyduğu əsas məqsədlərin əldə olunmasını şərtləndirir.

Qeyd etmək lazımdır ki, kapitalın və maliyyə vəsaitlərinin beynəlxalq hərəkəti dedikdə, hər hansı ölkədə kapitalın və maliyyə ehtiyyatlarmın bir hissəsinin müxtəlif formalarda milli təkrar istehsal prosesindən çıxarılaraq, başqa bir ölkədə dövriyyəyə buraxılması deməkdir [56, s.326].

Azərbaycan Respublikasında həyata keçirilən gömrük siyasəti ölkənin xarici iqtisadi fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir

göstərir. Gömrük siyasəti bir qayda olaraq əsasən vergi mexanizmi vasitəsi ilə reallaşaraq tənzimlənir. Məhz bu baxımdan da burada gömrük-vergi siyasəti bütün münasibətləri özündə cəmləşdirir. Azərbaycan Respublikasında gömrük-vergi siyasəti daxili bazarın qorunması, ölkənin mövcud potensialına uyğun ixrac yönümlü iqtisadiyyatın qurulmasına və inkişaf etməsinə xidmət edir.

Gömrük siyasətinin həyata keçirilməsində əsas vasitələrdən biri malların ixrac və idxal əməliyyatları zamanı yaranan gömrük dəyəridir. Qeyd etmək lazımdır ki, idxal vergisi və idxalda tətbiq olunan bir sıra dolayı vergilər malın gömrük dəyərinə əsasən müəyyən edilir [39]. Burada gömrük dəyəri dedikdə malın alıcının ünvanına qədər başa gəldiyi dəyər kimi başa düşmək olmaz. Çünki gömrük dəyəri malın alıcının ünvanına qədər mövcud dəyərini ifadə etməklə bərabər, eyni zamanda dövlətin iqtisadi siyasət tədbirlərinin həyata keçirilməsi baxımından həmin dəyərdən yüksək də götürülə bilər.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə əsasən tətbiq olunan gömrük vergi və rüsumlarına aşağıdakılar aid edilir [1]:

-gömrük rüsumu
-əlavə dəyər vergisi
-aksizlər
-müxtəlif gömrük yığımları və gömrük haqqları.

Azərbaycan Respublikasında gömrük rüsumu «Gömrük tarifi haqqında» Azərbaycan Respublikası qanununa uyğun olaraq ödənilir [12]. Belə hesab edilir ki, idxal gömrük rüsumu özünün iqtisadi mahiyyətinə görə vergi anlayışını daha çox əhatə edir. Çünki idxal gömrük rüsumu məcburi ödəniş formasıdır və bu ödəniş qarşısında ödəyiciyə gömrük orqanı tərəfindən heç bir qarşılıqlı xidmət göstərilmir. Eyni zamanda idxal gömrük rüsumu fiskal xarakter daşımaqla, həmin rüsumun ödəyicisi olan sahibkarlıq subyektinin fəaliyyətinə dolayı yolla təsir göstərmək imkanına malikdir. Bu isə öz əksini dövlət büdcəsinin yenidən bölgüsü prosesində tapır.

Azərbaycan Respublikasında tətbiq edilən gömrük rüsumları aşağıdakılardan ibarətdir [34; 42]:

- advalor, yəni malın gömrük dəyərinə faizlə hesablanan,

-spesifik, mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan,

-kombinə edilmiş. Burada göstyərilən hər iki növ gömrük rüsumları birləşdirilməklə gömrük rüsumu hesablanır.

Gömrük rüsumlarının ayrı-ayrı növlərinin tətbiqi müxtəlif məqsədlərlə həyata keçirilir. Bəzi hallarda malın sövdələşmə dəyərinə əsasən gömrük rüsumunun hesablanması ölkənin gömrük siyasəti baxımından əlverişli olmur. Buna görə də gömrük rüsumunun hesablanmasının digər növlərindən istifadə olunur. Brada alternativ vasitə kimi gömrük rüsumunun hesablanmasının spesifik növdən istifadə edilir. Gömrük siyasətinin məqsədləri çərçivəsində respublikamızda bir sıra malların gömrük rüsumunun hesablanmasında advalor və ya spesifik növünün tətbiq olunması vaxtaşırı olaraq dəyişilir. Belə ki, bir sıra mal qrupları müəyyən dövr ərzində spesifik qaydada idxal rüsumuna cəlb olunaraq, sonradan advalor qayda ilə idxal rüsumuna cəlb efilir. Gömrük siyasətinin əsas istiqamətlərindən biri kimi, advalor və spesifik gömrük rüsumlarının təyinatı üzrə səmərəli tətbiqi zəruri şərt kimi qəbul olunmalıdır. Bu zaman spesifik idxal rüsumunun tətbiq edilməsi zamanı onun nəzarət və fiskal üstünlükləri mütləq qaydada nəzərə alınmalıdır [18, s.2; 19; 26; 55, s.191].

Azərbaycan Respublikasında malların ixracı zamanı gömrük rüsumu Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alman yığımların miqdarı haqqında» qərarı ilə müəyyən edilir [19]. Bu qərarda ixrac olunan malların ixrac gömrük rüsumuna cəlb olunan siyahısı və ixrac rüsumlarının dərəcələri öz əksini tapmışdır. İxrac rüsumları spesifik qaydada lesablanmaqla, mal vahidinə görə ABŞ dolları ilə müəyyən edilir. Bu siyahı əsasən strateji məhsulları əhatə edir. Bu məhsullardan ixracı zamanı rüsumların tutulması qaydası məqsədə müvafiqdir

və Azərbaycan Respublikasının ixrac potensialına mənfi təsir göstərə bilməz. Ona görə də bu məqsədlə strateji malların ixrac rüsumuna cəlb olunmasını zəruri hesab etmək lazımdır.

Azərbaycanda idxal gömrük rüsumları advalor qaydada hesablandıqda malların nomenklaturasına əsasən onların dərəcələri də müxtəlifdir. Ayrı-ayrı mal mnoenklaturasına 0,5; 5; 15 faiz dərəcəsi ilə idxal rüsumu tətbiq edilir. İdxal rüsumunun müxtəlif dərəcələrlə tətbiq edilməsi proteksionizm siyasətinin həyata keçirilməsi məqsədi ilə daxili bazara təsir göstərmə səviyyəsinə əsasən müəyyən edilir [17].

Malın gömrük dəyərinin müəyyən olunması böyük əhəmiyyət kəsb etməklə, gömrük-vergi siyasətinin düzgün həyata keçirilməsini öz üzərinə götürür, malların gömrük dəyəri idxal-ixrac əməliyyatlarının mühasibatlıqla əks etdirilməsində, xarici mal göndərənlər və malalanlarla hesablaşmalarda əsas götürülmür. İxrac-idxal əməliyyatlarının mühasibatlıqda əks etdirilməsində və xaricə malgöndərən və malalanla hesablamalar aparılmasında hesablaşma sənədəlri olan hesab-faktura, invoys və digərlərində olan qiymətlər, fakturalanmamış göndərişlər üzrə isə kontrakt qiymətləri əsas götürülür [18]

Azərbaycan Respublikasında gömrük dəyərinin müəyyən olunmasının "Gömrük Tarifi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq ığıdakı üsulları tətbiq olunur [18; 42]:

- gətirilən malların sövdələşmə qiyməti ilə
- eyni malların sövdələşmə qiyməti ilə
- eyni cinsli malların sövdələşmə qiyməti ilə
- dəyərin çıxılması üsulu ilə
- dəyərin toplanması üsulu ilə
- ehtiyat üsulu ilə.

Gömrük dəyərinin müəyyən edilməsində başlıca üsul kimi gətirilən malların sövdələşmə qiyməti götürülür. Gətirilən malların sövdələşmə qiyməti üsulundan istifadə edilə bilinmədiyi halda, yuxarıda göstərilən üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir və

hər bir sonrakı üsulun tətbiqi gömrük dəyərini əvvəlki üsulla təyin etmək mümkün olmadıqda həyata keçirilir [34].

Gömrük dəyərinin malm sövdələşmə qiymətinə görə müəyyən edilməsi zamanı həmin malın Azərbaycan Respublikasının gömrük ərazisinədək gətirilməsi xərcləri də nəzərə alınmalıdır. Bu zaman malın göndərilmə şərti nəzərə alınmalı və gömrük dəyərinin müəyyən olunması zamanı nəqliyyat, sığorta, malların boşaldılma və yenidən yükləmə xərcləri, həmçinin alıcının çəkdiyi digər xərclər nəzərə alınmalıdır [18; 42]. Bu zaman bəyannaməçi (deklarant) gömrük dəyərini müəyyən edərkən tərəflər arasındakı kontrakt və malın təqdim olunmasını təsdiq edən faktura və ya invoys əsasında qiyməti hesablamalıdır. Bunu sadə formada izah etmək olar. Frz edək ki, malın göndərilmə şərti CİF Bakı şəhəri nəzərdə tutulmuşdur və mal Bakı şəhərində qeydiyyatda olan müəssisənin ünvanına göndərilmişdir. Burada malın gömrük dəyəri kimi digər şərtlər olmadığı halda onun sövdələşmə qiymətini götürmək olar. Əgər malın göndərilmə şərti CİF Bakı şəhəri deyilsə, bu halda malın gömrük dəyərinin hesablanmasında digər sənədlər də nəzərə alınmalıdır. Tutaq ki, malgöndərən İtaliyada yerləşir. Malın göndərilmə şərti CİF Poti limanıdır. Bu zaman malın həmin şərt ilə göndərilmə qiymətini təsdiq edən faktlardan başqa, Poti limanından Bakı şəhərinə qədər mal gətirmiş olan nəqliyyat şirkətinin təqdim etdiyi faktura, həmçinin malın yük sığorta şəhadətnaməsi (Poti-Bakı) və digər məsrəfləri təsdiq edən sənədlər əsasında malın gömrük dəyəri hesablanmalıdır [18].

Yuxarıdakıları nəzərə almaqla hesab etmək olar ki, gömrük dəyərinin müəyyən ediməsində əsas üsul kimi malın sövdələşmə qiyməti götürülməlidir. Bu onunla izah edilir ki, bu metod vasitəsilə malın faktiki sənədləri əsasında gömrük dəyəri tesablanır və sonradan vergitutma məqsədləri və vergi nəzarətinin həyata keçirilməsində bu sənədlərin böyük əhəmiyyəti vardır. Sövdələşmə qiyməti ilə gömrük dəyəri müəyyən edilə bilmədikdə eyni malların sövdələşmə qiyməti əsas götürülərək gömrük dəyəri müəyyən edilir [55, s.186]. Bu üsulun tətbiq olunması zamanı eyni malların

sövdələşmə qiyməti aşağıdakı şərtlər nəzərə alınmaqla əsas götürülür [42]:

-fiziki xüsusiyyətlərinə görə,

-keyfiyyətinə və bazardakı nüfuzuna görə,

-malın mənşə ölkəsinə görə,

-malın istehsalçısına görə.

Bu üsul gömrük dəyərinin müəyyən edilməsi üçün o zaman əsas verir ki, həmin mallar aşağıdakı şərtləri ödəsin[42]:

-mallar Azərbaycan Respublikasının ərazisinə gətirilmək üçün satılsın,

-qiymətləndirilən malların gətirilməsi ilə eyni bir vaxtda və ya 90 gündən artıq olmamaqla həmin vaxtdan əvvəl gətirilsin,

-qiymətləndirilən mallarla eyni kommersiya şərtləri ilə təxminən eyni miqdarda gətirilsin.

Bu metoda oxşar metod kimi gömrük dəyərinin müəyyən edilməsində eyni cinsli malların sövdələşmə qiyməti tətbiq olunur. Belə ki, malın gömrük dəyəri malların sövdələşmə qiyməti ilə müəyyən edilə bilmədikdə, bu üsuldan istifadə edilə bilər [55, s. 188]. Bu zaman, eyni cinsli mallar dedikdə, bütün xüsusiyyətlərinə görə eyni olmasa da, qiymətləndirilən mallarla eyni vəzifələri yerinə yetirə bilən və kommersiya baxımından bir-birini əvəz edə bilən mallar düşülür [42].

Eyni mallar və ya eyni cinsli mallar Azərbaycan Respublikası ərazisində öz ilkin vəziyyətini dəyişmədən satıldıqda gömrük dəyərinin müəyyən edilməsi kimi dəyərin çıxılması üsulundan istifadə edilir [55]. Bu zaman malın satış qiymətindən aşağıdakı xərclər və əlavələr çıxılır [42]:

- mənfəətə əlavə və komisyon mükafatlanlırma xərcəlri,
- malların idxalı və satışı ilə əlaqədar Azərbaycan Respublikasında ödənilməli olan idxal gömrük rüsumlarının, vergilərin, yığımların və digər ödənişlərin məbləği,
- malların Azərbaycan Respublikasında daşınması, yüklənməsi, boşaldılması işlərinə və sığortalanmasına sərf olunan xərclər.

Dəyərin çıxılması üsulu gömrük dəyərinin müəyyən olunmasına imkan vermədikdə dəyərin toplanması üsulundan istifadə olunur [55]. Bu üsulla malın gömrük dəyəri aşağıda göstərilən xərc maddələrini toplanmaqla müəyyən olunur [42]:

-materialların dəyəri və istehsalçı tərəfindən qiymətləndirilən malın istehsal xərcləri,

-ixrac edən ölkədən eyni növlü malların Azərbaycan Respublikasında satışı üçün səciyyəvi olan ümumi xərclər, o cümlədən nəqliyyat, yükləmə yerinədək sığorta xərcləri və s.,

-Azərbaycan Respublikasında belə malların göndərilməsi nəticəsində ixrac edənin əldə etdiyi mənfəət.

Əgər gömrük dəyəri yuxarıda göstərilən üsulların ardıcıl tətbiqi nəticəsində bəyannaməçi tərəfindən müəyyən edilə bilinmirsə və ya gömrük orqanları gömrük dəyərinin müəyyən edilməsində bu üsullardan istifadə oluna bilməməsini əsalandırılarsa, onda ehtiyat üsulu tətbiq olunmaqla qiymətləndirilən malların gömrük dəyəri beynəlxalq təcrübəyə əsasən müəyyən edilir [18; 42; 55].

Gömrük dəyərinin yuxarıda göstərilən bu üsullardan hər hansı biri ilə müəyyən olunması zamanı bir sıra əsas məqamlar nəzərə alınmalıdır. İlk növbədə malın gömrük dəyəri dövlətin həyata keçirdiyi gömrük-vergi siyasətinin istiqamətlərini özündə əks etdirməlidir. Bu gün respublikamızın həyata keçirdiyi gömrük-vergi siyasətindən biri də başlıca olaraq daxili bazarın qorunmasına xidmət etdiyinə görə, gömrük dəyərinin müəyyən olunması zamanı bu amil nəzərə alınmalıdır. Bununla yanaşı malların ixracı prosesində gömrük dəyəri sövdələşmə qiyməti ilə müəyyən olunduğu üçün və ixrac olunan mallara gömrük rüsumu spesifik qaydada hesablandığından bu sahədə gömrük dəyərinin müəyyən edilməsində demək oar heç bir ciddi çatışmazlıq yoxdur. Lakin buna baxmayaraq, idxal prosesində gömrük dəyərinin müəyyən olunması zamanı yuxarıda göstərilən üsulların hər birində müxtlif məqamlar vardır ki, onların da nəzərə mühüm zəruri əhəmiyyət kəsb edir.

Belə ki, eyni malların və ya eyni cinsli malların sövdələşmə qiymətinə əsasən gömrük dəyəri müəyyən olunduqda həmin malların göndərilmə şərti və kommersiya şərti mütləq nəzərə alınmalıdır. Bunu aşağıdakı məsələnin timsalında izah etmək olar.

Tutaq ki, A müəssisəsi CİF Bakı şəhəri göndərilmə şərti ilə 12500 ABŞ Dolları məbləğində mal idxal etmişdir. Malın kommersiya şərtlərinə əsasən alıcı malı qəbul etdikdən 30 gün sonra onun dəyərini satıcının hesablaşma hesabına köçürməlidir. Bu zaman malın gömrük dəyəri yuxarıda göstərdiyimiz qaydada malın faktura dəyəri əsas götürülməklə hesablanır.

A müəssisəsindən fərqli olaraq, ikinci variantda B müəssisəsi eyni xüsusiyyətli və keyfiyyətli malı A məssisəsinin malı aldığı şirkətin yerləşdiyi ölkədəki digər törəmə müəssisəsindən FOB 9000 ABŞ dolları göndərilmə şərti ilə almışdır. Malın alqı-satqısının kommersiya şərti qabaqcadan ödəmə yolu ilə razılaşdırılmışdır. B məssisəsi gömrük rəsmiləşdirilməsi üçün gömrük təşkilatına aşağıdakı sənədləri təqdim etmişdir:

1.Faktura (invoys) - 9000 ABŞ dolları. FOB şərti ilə

2.Sığorta şəhadətnaməsi - 200 ABŞ dolları

3.Daşıma məsrəflərini təsdiq edən faktura - 2500 ABŞ dolları

Burada malın dəyəri cədvəl 3.1-də göstərildiyi kimi formalaşacaqdır. Malın gömrük dəyərinin müəyyən edilməsi üçün ilkin məlumatlar aşağıdakı cədvəldə əks edilmişdir.

Cədvəl 15.2.1

A və B müəssisələri üzrə gömrük dəyərinin müəyyən olunması

	Malın FOB alış dəyəri (cost	Sığorta (insurance)	Nəqliyyat (Freight)	CİF (cost, insurance, freight)	Gömrük Dəyəri
	1	2	3	4=1+2+3	5
A müəssisəsi				12500	12500
B müəssisəsi	9000	200	2500	11700	12500

Cədvəl 15.2.1-dən göründüyü kimi mal B müəssisəsinə təqdim olunmuş sənədlər əsasında 11700 ABŞ dollarına başa gəlmişdir. Malın kommersiya şərtlərinə görə A müəssisəsi malı kreditlə satış şərti ilə almışdır və mal yüklənib yola salındıqdan təxminən 35 gün sonra onun dəyərini ödəyəcəkdir. Burada 5 gün malın satıcıdan alıcınm ünvanına qədər çatdırılması vaxtı nəzərdə tutulur. Malsatanm ölkəsində kommersiya kreditinin orta göstəricisinin aylıq olaraq 2 % olduğunu nəzərə alaraq B müəssisəsi A müəssisəsi ilə eyni kommersiya şərtləri əsasında malı idxal etmiş olsa idi, o zaman malın dəyəri aşağıdakı kimi hesablanacaqdı.

$$\mathbf{9000}\ \boldsymbol{ABŞ\ Dolları} \times \frac{\mathbf{35}\ \boldsymbol{gün}}{\mathbf{30}\ \boldsymbol{gün}} \times \mathbf{2\%} = \mathbf{210}\ \boldsymbol{ABŞ\ Dolları}$$

Bu isə odeməkdir ki, malın dəyəri 210 ABŞ Dolları məbləğində əlavə məsrəflə başa gələcəkdir. Göründüyü kimi bütün bu şərtlər daxilində B müəssisə A müəssisəsindən malı 590 ABŞ dolları məbləğində aşağı qiymətə əldə etmişdir. Lakin bu hesablamalar yalnız B müəssisənin təqdim etdiyi sənədlər əsasında aparıldığından, qalan məbləğ qədər B müəssisəsinin digər məsrəflərinin çəkildiyi ehtimalı əsasında malın gömrük dəyəri olaraq 12500 ABŞ dollarının manat ekvivalenti götürülür.

Bununla bərabər gömrük dəyərinin müəyyən olunmasında istifadə olunan dəyərin çıxılması və dəyərin toplanması üsullarında da bir sıra zəruri məqamların nəzərə alınmasının əhəmiyyəti vardır. Dəyərin çıxılması üsulunda gömrük dəyərinin müəyyən olunmasında nəzərdə tutulan malın bazardakı satış qiyməti əsas götürülür və geriyə hesablama aparılır. Əgər mal pərakəndə ticarətdə realaşdırılarsa, onda pərakəndə ticarət müəssisələrində rentabellik göstəricisi əsasında ticarət əlavəsi çıxılmaqla malın topdansatış dəyəri hesablanmalıdır. Eyni zamanda topdansatış müəssisəsinin mənfəəti və malın gömrük rəsmiləşdirilməsi zamanı tətbiq olunan gömrük rüsumları və vergilərin məbləği də çıxılmalıdır. Fərz edək ki, A müəssisəsi tərəfindən 20000 kq

həcmində günəbaxan yağı idxal olunmuşdur. Həmin günəbaxan yağının pərakəndə ticarətdə 1 litrinin qiyməti 3 manatdır. Pərakəndə ticarət müəssisəsinin orta rentabellik göstəricisinin 10%, topdansatış müəssisəsinin, yəni mal idxal edən müəssisənin rentabellik göstəricisinin 5 % olduğunu nəzərə almaq olar. O cümlədən günəbaxan yağının gömrük rəsmiləşdirilməsində 0,3 % gömrük əməliyyatları rüsumu və 15 % idxal rüsumunun hesablanması da nəzərə alınsa, o zaman malın gömrük dəyərini bu metod vasitəsi ilə aşağıdakı qaydada müəyyən edə bilərik:

$$\left(\boldsymbol{GD} + \frac{\boldsymbol{GD}}{\mathbf{100}} \times \mathbf{0,3} + \frac{\boldsymbol{GD}}{\mathbf{100}} \times \mathbf{15}\right) \times \boldsymbol{R_p} \times \boldsymbol{R_T} \times \mathbf{18\%} = \mathbf{3}\ \boldsymbol{manat}$$

burada: R_p- pərakəndə ticarətdə rentabellik faizi;

R_T - topdan satış müəssisəsində rentabellik faizi;

GD - mal vahidinin gömrük dəyəri olaraq nəzərdə tutulur.

Bu zaman 20000 litr həcmində günəbaxan yağının gömrük dəyəri 38182 AZN olaraq hesablanacaqdır.

Dəyərin toplanması üsulunda əsas əhəmiyyət kəsb edən tərəf kimi malın satıcının ölkəsində satış qiymətinin müəyyən olunmasıdır. Daha doğrusu ixracatçının qiymətinin müəyyən edilməsi əsas göstərici hesab edilir. Bundan sonra isə analoji olaraq digər xərclər nəzərə alınaraq malın Azərbaycanın gömrük ərazisinə qədər olan dəyəri hesablana bilər.

Azərbaycan Respublikasının vergi sistemində xüsusi əhəmiyyətə malik olan ƏDV öz əhəmiyyətini gömrük sistemində də saxlamaqdadır. Gömrükdə ƏDV fiskal xarakter daşımaqla yanaşı iqtisadi tənzimlənmə, nəzarət funksiyasını da yerinə yetirir. Fiskal funksiya kimi ƏDV büdcəni maliyyə vəsaiti ilə təmin edir və bu maliyyə vəsaiti son nəticədə idxal olunan malların satışından büdcəyə daxil olmalı və ya idxal olunan malların dəyərinə əlavə olunur. Lakin gömrük rəsmiləşdirilməsində bu vəsaitin əsas hissəsi dövlət büdcəsinə ödənilir və qalan hissəsi isə malın reallaşdırılması

zamanı büdcəyə ödənilir. Ümumiyyətlə ƏDV-ni satıcıdan malı alarkən ilkin olaraq ona ödəyir. Xarici iqtisadi əlaqələr çərçivəsində ixrac əməliyyatları əsasən ƏDV-yə sıfır dərəcə ilə cəlb olunduğu üçün, burada ƏDV-nin agenti funksiyasını malın satıcısı deyil, həmin malı idxal edən şəxs və dövlətin gömrük orqanları həyata keçirirlər [43]. Bu baxımdan da bəzi hallarda malların idxalında ƏDV-dən azad olunmasını gömrük münasibətlərində vergi krediti kimi göstərə bilərik. Fərz edək ki, kompyüter avadanlığı idxalda ƏDV-dən azaddır, gömrük dəyəri 100000 AZN olan bu avadanlıq idxal edilmişdir. Eyni zamanda nəzərə alaq ki, ikinci variant kimi kompyüter avadanlığına idxalda ƏDV tətbiq edilir və göstərilən hər iki variantı müqayisə edərək, cədvəl 3.2-ə əsasən hər iki variantda maliyyə nəticəsi dəyişməz olaraq qalmaqdadır.

Cədvəl 15.2.2

ƏDV-yə münasibətdə idxal əməliyyatı

	Göstəricilər	idxalda ƏDV tətbiq olunur	idxalda ƏDV-dən azad olunur
1	Malm gömrük dəyəri	100000	100000
2	İdxalda əməliyyat rüsumu	300	300
3	idxal gömrük rüsumu	15000	15000
4	idxalda ƏDV	20754	0
5	Malm ümumi dəyəri	115300	115300
6	Satış qiyməti ilə ümumi dəyər	150000	150000
7	latışdan hesablanan ƏDV	22881	22881
8	Büdcəyə ödənilməli ƏDV	2127	22881
9	Satışdan mənfəət	11819	11819

Göründüyü kimi alqı-satqı məqsədləri üçün idxal olunan mallara tətbiq olunan mallara vergi güzəşti vergilərin ödənilmə vaxtını uzadır. Ümumilikdə götürdükdə isə ƏDV üzrə vergi ödənişi məbləği dəyişməz qalır. Bu baxımdan da qeyd edək ki, Nazirlər

Kabitnetinin «Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında» qərarı bir sıra mal nomenklaturası üzrə fiskal baxımından güzəşti nəzərdə tutmur [21]. Bu siyahıya əsasən strateji əhəmiyyətli mal qrupları daxil edilmişdir. Eyni zamanda qərara əsasən birbaşa istehlak məqsədləri üçün idxal olunan bir sıra mallar ƏDV üzrə fiskal güzəştlər verilir. Nazirlər Kabinetinin müvafiq qərarında göstərilir ki, Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün gətirilərsə, o zaman əmlak ƏDV-dən idxalda azad olunur.

Nazirlər Kabinetinin müvafiq qərarı [21] öz növbəsində xarici investisiyaların cəlb olunmasını stimullaşdırır. Eyni zamanda «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikası qanununa əsasən eyni təyinatla idxal olunan əmlak idxal gömrük rüsumundan da azad edilir [50]. Bu göstərilən güzəştlər vergi öhdəliyinin azaldılması istiqamətində müəssisələr tərəfindən tətbiq edilə bilər. Belə ki, nizamnamə kapitalına qoyulan əmlakın demək olar ki, idxalda bütün ödənişlərdən azad olunması, həmin əmlakın dəyərinin şişirdilməsinə yol açа biləcəkdir. Bu məqsədlə bu təyinat ilə, yəni ölkəyə idxal olunan avadanlığın idxal gömrük rüsumundan azad olunduğu və ya güzəştli idxal rüsumunun tətbiq olunduğu, həmçinin ƏDV-dən azad olunduğu hallarda, həmin vəsaitlərin qiymətinin faktiki dəyərinə uyğunluğunun müəyyən olunması üçün vergi və gömrük orqanları tərəfindən araşdırma aparılmasının zəruri olduğunu hesab etmək olar. Çünki əmlakın dəyərinin şişirdilməsi gələcəkdə mənfəət vergisi üzrə müsisənin vergi öhdəliyini azaldacaqdır. Bunu şərti misal üzərində aşağıdakı kimi təhlil etmək olar.

Tutaq ki, A dövlətində yerləşən müəssisə Azərbaycan Respublikasında birgə müəsıssisənin nizamnamə kapitalına istehsal avadanlığını qoymağı planlaşdırır. Eyni zamanda həmin istehsal avadanlığının dəyərini əsassız olaraq artıraraq birgə müəssisənin balansına mədaxil olunması nəzərdə tutulur. Bu isə amortizasiya

ayrılmaları şəklində onun dəyərini hissə-hissə gəlirdən çıxaraq gələcəkdə vergiyə cəlb olunan mənfəəti azaldacaqdır. Bununla paralel həmçinin xarici investor fiktiv (yalançı) investisiya şəklində investisiya qoyuluşunu artırmağa nail olacaqdır. Nəticədə həyata keçirilən əməliyyat xarici ölkə sahibkarları ilə yerli sahibkarlar arasında qeyri-bərabər biznes və vergi mühitinin yaranmasına gətirib çıxaracaqdır.

Azərbaycanda neft yataqlarının hasilatının pay bölgüsü haqqında sazişlərə protokollarda vergitutma ilə bağlı verilmiş güzəştlərin tədqiq olunmas bir sıra məqamları aşkar etmişdir. Bu protokollara əsasən saziş çərçivəsində fəaliyyət göstərən müəssisələr ƏDV-yə sıfır dərəcə ilə cəlb olunur və protokol çərçivəsində həyata keçirilən əməliyyatlar idxal-ixrac rüsumları və vergilərdən azad edilir [81]. Qeyd edək ki, saziş çərçivəsində idxal olunan avadanlıqların və malların idxal rüsumundan azad içilməsi, həmin avadanlıqların və malların investisiya dəyərinin artırılmasının qarşısını alır. Bununla yanaşı həmin müəssisələrin ƏDV-yə cəlb olunmaması, onların təqdim etdikləri malın ixrac təyinatlı olduğundan, sonradan həmin ƏDV-ni büdcədən geri istəmələrinə və ya digər vergi borcları ilə əvəzləşdirmələrinə, yaxud yuxarıda qeyd etdiyimiz kimi, idxal olunan adanlıqların və malların dəyərinin artırılmasına gətirib çıxara bilər. Buna görə də hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən müəssisələrə tətbiq olunan vergi güzəştləri, xarici iqtisadi fəaliyyətdə əlverişli vergi rejimi yaratmaqla, beynəlxalq vergi münasibətlərində kapitalın cəlb olunması məqsədilə vergi yükünün azaldılmasına deyil, əsasən karbohidrogen fəaliyyətinin həyata tecirilməsi ilə dünyada yanacaq ehtiyatlarının işlənməsini və böyük şirkətlərin kapitalının bu sahəyə yönəldilməsidir.

Azərbaycan Respublikasının Vergi məcəlləsində malların və bir sıra xidmətlərin ixracı sıfır dərəcə ilə ƏDV-yə cəlb olunur. Bu xidmətlərə əsasən aşağıdakılar aid edilir [81]:

-patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqlarının mülkiyyətə verilməsi və ya güzəşt edilməsi,

-məsləhət, hüquq, mühasibat, mühəndis və ya reklam xidmətlərinin, həmçinin məlumatların işlənməsi üzrə xidmətlərin və digər analoji xidmətlərin göstərilməsi,

-işçi qüvvəsinin verilməsi üzrə xidmətlərin göstərilməsi,

-daşman əmlakın icarəyə verilməsi. Burada nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri istisna olunur,

-müqavilənin əsas iştirakçısı adından bu maddədə göstərilən xidmətlərin yerinə yetirilməsi üçün hüquqi və ya fiziki şəxsi cəlb edən agentin xidmət göstərməsi.

Yuxarıda göstərilən xidmətlərin ixracının respublikamızda elə də böyük bir həcmdə olmaması, bu sahədə tətbiq olunan ƏDV üzrə vergi öhdəliyinin əhəmiyyətli səviyyədə olmamasını ifadə edir. Bununla yanaşı bu cür xidmətlər başqa ölkələrdə idxal zamanı ƏDV-yə cəlb oluna bilir. Bu baxımdan da beynəlxalq prinsiplər əsasında mallar kimi xidmətlərin də ixracının ƏDV-dən azad olması normal xarakter daşımalıdır.

Hal-hazırda Azərbaycan Respublikasında malların idxalı idxalda müəyyən olunmuş qayda ilə ƏDV-yə cəlb olunur. Malların idxalı ilə yanaşı xidmətlərin idxalı da bu əməliyyatlarda öz əksini Vergi Məcəlləsi ilə tapmaqdadır. Vergi Məcəlləsinin 169-cu maddəsinə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində vergi agenti sayılan Azərbaycan Respublikasında ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməyən şəxsə xidmət göstərib və ya iş görürsə, bu zaman həmin iş və xidmətlər ƏDV-yə cəlb olunmalıdr. Belə halda ƏDV-nin hesablanması və ödənilməsi üzrə vergi öhdəliyi vergi agentinin üzərinə düşür. Bunları patent hüquqlarının təqdim olunmasının mühasibat yazılışına əks etdirən aşağıdakı cədvəldə güstərilmiş müxabirləşmə əsasında izah etmək olar.

Cədvəl 15.2.3

Patent hüquqlarının təqdim olunmasının mühasibat yazılışı

Debet		**Kredit**				
Hesa-bın əv-vəlki №-si	Hesa-bın yeni №-si	Hesa-bın əvvəlki №-si	Hesa-bın yeni №-si	**Valyuta məbləği**	**AZN məbləği**	**Məzmunu**
20	202	60	601	100000	92000	Faktura əsasında
76	538	68	521		16560	ƏDV hesablanılır
68	521	51	223		16560	ƏDV ödənilir
68	521	76	217		16560	ƏDV əvəzləşdirilir (ƏDV-dən azad dövriyyə olmamaq şərti ilə tam məbləğ)
60	531	68	421	10000	9200	Ödəmə mənbəyində vergi hesablanır
60	531	51	223	90000	82800	Malgöndərənə ödəniş
68	521	51	223		9200	Ödəmə mənbəyində vergi ödənilir

Mənbə. Müəllif tərəfindən tərtib edilmişdir.

Tutaq ki, hər hansı A dövlətində yerləşən müəssisə Azərbaycan Respublikasında yerləşən müəssisəyə patent hüquqlarını təqdim edir. Bunun əvəzində 100000 ABŞ dolları məbləğində həmin müəssisə tərəfindən faktura verilir. Azərbaycanda olan vergi agenti həmin məbləğə 18 % həcmində ƏDV hesablamalıdır. Bu zaman fakturanın tarixi ilə Mərkızi Bankın məzənnəsinə əsasən əməliliyyatlar Azərbaycan manatı ilə rəsmiləşdirilməlidir. Bu əməliyyatlar əsasında müəssisə tərəfindən cədvəl 3.3-də olduğu şəkildə mühasibat yazılışları aparılacaqdır.

Göstərdiyimiz əməliyyatın müəssisənin mühasibatlığında rəsmiləşdirilməsi, müəssisənin ƏDV-nin qeydiyyatında olduğu zaman həyata keçirilir. Vergi agenti rolunda çıxış edən müəssisə ƏDV-nin qeydiyyatında olmadıqda ödənilmiş ƏDV büdcədən əvəzləşdirilməyərək, vergi ödəyicisinin gəlirindən çıxılır.

Cədvəl 15.2.4

Ödəmə mənbəyində tutulan vergilərin sərbəst mənfəət hesabına ödənilməsi zamanı vergitutmanın prinsiplərinin qorunması məqsədilə mühasibat yazılışları

Debet		kredit		Valyuta məbləği	AZN məbləği	Məzmunu
Hesabın əvvəlki №-si	Hesabın yeni №-si	Hesabın əvvəlkiNo-si	Hesabın yeni №-si			
20	202	60	601	100000	92 000	Faktura əsasında
60	601	68	421	10 000	9 200	Ödəmə mənbəyində vergi
68	421	51	223		9 200	Ödəmə mənbəyində tutulmuş verginin ödənişi
60	601	52	223	100 000	92 000	Faktura əsasında ödəniş
81.88	801	60	601	10000	9 200	Ödəmə mənbəyində tutulmuş verginin müəssisənin sərbəst mənfəəti hesabına ödənilməsi
81.88	901	68	421		1 022	Mənfəətin bu istiqamətdə bölüşdürülməsindən ödəmə mənbəyində tutulan vergi

Yuxarıdakı əməliyyat çərçivəsində gəlirin əldə olunduğu yer Azərbaycan mənbəyindədir. Bu baxımdan da həmin gəlir ödəmə mənbəyində vergiyə cəlb olunur. Əgər A dövlətində yerləşən qeyri-rezident Azərbaycan mənbəyində ödədiyi vergini, həmin dövlətlə Azərbaycan Respublikası arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş və ya konvensiya olarsa, o zaman həmin ödənilmiş vergini həmin saziş və ya konvensiyada nəzərdə tutulmuş qaydada öz ölkəsində vergilərin ödənilməsində nəzərə

almaq lazımdır. Bəzi hallarda müəssisələr arasında xüsusi razılaşmaya əsasən qarşılıqlı işlərin görülməsi və xidmətlərin göstərilməsi zamanı hər hansı bir ölkədə yaranan vergi öhdəliyinin həmin ölkədə yerləşən müəssisə tərəfindən ödənilməsi haqqında razılığa gəlindiyi halda, Azərbaycan mənbəyində əldə olunan gəlirdən ödəmə mənbəyində verginin tutulmamasına şamil edilmir. Bu zaman qeyri rezidentdən ödəmə mənbəyində vergi tutulur və büdcəyə ödənilir, qeyri-rezidentdən tutulmuş vəsait isə Azərbaycanda yerləşən müəssisənin sərbəst mənfəəti hesabına ödənilə bilər. Bu isə öz növbəsində müəsisənin bölüşdürülməmiş mənfəəti hesabına həyata keçirildiyindən, həmin məqsədlə həyata keçirilən ödəmələrdə 10% bölüşdürülməmiş mənfəətin istifadəsinə görə müəssisəyə ödəmə mənbəyində vergi tutulmasını məqsədəuyğu hesab etmək olar. Buna görə də cədvəl 15.2.4-də göstərilən mühasibat yazılışlarının verilməsi və vergilərin tutulması lazım gəlir.

Cədvəl 15.2.-də göstərilən əməliyyatda 10222 AZN (9200+1022) əldə olunmuş razılığa əsasən Azərbaycan mənbəyində yaranan vergi öhdəliyinin Azərbaycan müəssisəsi tərəfindən ödənilməsi məqsədi ilə bölüşdürülmüşdür. Onun 10 %-i divident şəklində özünü əks etdirərək ödəmə mənbəyində vergiyə cəlb edilməlidır. Yuxarıdakı əməliyyatların təhlilinin son nəticəsi kimi qarşılıqlı razılaşma əsasında həyata keçirilən hər bir əməliyyat Azərbaycan Respublikasında vergi öhdəliyinin pozulmasına imkan verməməlidir. Çünki, müəssisə gəlirdən çıxılmayan xərclərini əsassız şişirdərək, mənfəət vergisi üzrə öhdəliyini pozmasa da, digər vergilər üzrə vergi öhdəliklərini süni surətdə azaltmış ola bilir. Bu məqsədlə müəssisənin bəzi xərclərinin bölüşdürülməmiş mənfətdən ödənilməsini vergitutma baxımından nəzərdən keçirilməsi tövsiyyə edilir.

Aşağıdakı cədvəldə əks edilmiş tədiyyə balansına əsasən gəlirlərin repatriasiyasına nəzər salaq.

Cədvəl 15.2.5

Tədiyyə balansına əsasən gəlirlərin repatriasiyası, (min ABŞ dolları)

İllər	Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu	Xarici iqtisadiyyata Azərbaycan Respublikasının investisiyası	İnvestisiyanın repatriasiyası	Kapitalın və maliyyənin hərəkəti üzrə daxilolmalarda repatriasiyanın xüsusi çəkisi, %-lə
2006	4469	705,5	5070	113,4
2007	4291,1	520,6	9108,2	212,2
2008	3982,4	555,6	3971,8	99,7
2009	2899	326,1	2426,7	83,7
2010	3347,3	235,7	2782,5	83,1
2011	4443,9	554	2977,3	67,0
2012	5289,4	1194,2	3284,8	62,1
2013	6278	1477,9	3661	58,3
2014	8049,2	2208,8	3635,7	45,2
2015	7483,1	3259,7	3437,4	45,9
2016	7323,6	2573,6	2824	38,6
2017	5713,8	2564,4	2847,7	49,8
2018	4109,1	1760,9	3156,2	76,8
2019-cu ilin 9 ayı	2669,8	1665,1	2365,6	88,6
Cəmi	70348,7	19602,1	51548,9	73,3

Mənbə. Azərbaycan Respublikasının Mərkızi Bankının statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Respublikasının vergi sistemi gəlirlərin repatriasiyasını əlverişli formada həyata keçirir. Belə ki, xarici investorlar tərəfindən Azərbaycan Respublikasında əldə olunan gəlir və ya mənfəət yenidən investisiya kimi Azərbaycan iqtisadiyyatına qoyula bilər. Bununla yanaşı xarici investor Azərbaycan mənbəyindən əldə etdiyi mənfəəti və ya gəliri sərbəst

surətdə ölkədən çıxara bilər [27]. Bu zaman ödənilən dividentdən 10 % mənbəyində vergi tutulur. Beləliklə, əsas şərt kimi ödənilmiş dividentə görə ödəmə mənbəyində vergilərin tutulmasıdır. Yəni, xarici investorun digər vergilər üzrə borcu olması, onun əldə etdiyi mənfəətin repatriasiyasını əlverişli şəkildə həyata keçirdiyindən xarici investisiya qoyuluşunun həyata keçirilməsində investorlar üçün əlverişli şərılərdən biri hesab olunur.

Azərbaycan Respublikasının tədiyyə balansını təhlil edərək investisiyaların repatriasiyası üzrə cədvəl 15.2.5-dəki məlumatları müşahidə etmək olar. Cədvəl 15.2.5-dən göründüyü kimi investisiyanın repatriasiyası başlıca olaraq neft-qaz sektorunda həyata keçirilir. Bu da neft ixracı zamanı mənfəət neftinin ölkədən çıxarılması ilə əlaqədardır. Apardığımız araşdırmalar neft-qaz rektorunda 2005-ci ildə investisiyanın repatriasiyasının kəskin surətdə artdığını göstərir. Bunu mənfi hal kimi qiymətləndirmək lazım gəlir. Çünki Azərbaycan mənbəyindən əldə olunan mənfəət demək olar ki, tam şəkildə ölkədən çıxarılır.

Göründüyü kimi Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarında vergilərin tətbiqinin təhlil olunması nəticəsində onların təkmilləşdirilməsi isqamətlərinin şərh edilməsində, əsasən idxal-ixrac əməliyyatlarında vergitutma obyektinin, daha doğrusu gömrük dəyərinin müəyyən olunması ilə vergilərin hesablanması və ödənilməsi əsas istiqaməti kimi müəyyən edilmişdir. Bununla yanaşı xidmətlərin idxalı və ixracı xüsusiyyətləri nəzərə alınaraq onların rəsmiləşdirilməsi yolları tədqiq olunması zaman meydana çıxa bilən bir sıra məqamlar geniş şəkildə aydınlaşdırılmışdır. Bütün bu tədqiqatlar göstərir ki, gəlirlərin və ya mənfəətin repatriasiyası baxımından Azərbaycanın vergi sisteminin əlverişli investisiya mühitini yaratmasına xidmət edəcəkdir.

15.3. Müxtəlif sahibkarlıq subyektlərinə idxal olunmuş malların mühasibat uçotunda əməliyyatlar üzrə müxabirləşməsi

Sahibkarlıq subyektləri əlavə dəyər vergisi (ƏDV) ödəmələrinə görə ƏDV ödəyicisi və sadələşdirilmiş vergi ödəyicilərinə bölünürlər. Xarici ticarət əməliyyatlarında bu təsərrüfat subyektlərinin mühasibat uçotunda əməliyyatların aparılmasının uçotu mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı praktiki məsələdə bunları daha aydın görmək olar.

Misal. Müəssisə 22 oktyabr 2014-cu il tarixində xarici dövlətin müəssisəsinə əvvəlcədən 100000 ABŞ dolları məbləğində avans ödəmiş və həmin tarixə 1 ABŞ dollarının məzənnəsi 0,79 man olub. Faktura dəyəri 100000 ABŞ dolları məbləğində olan mal 15 noyabr 2014-cu ildə ölkəyə gətirilmişdir. Həmin tarixə isə 1 ABŞ dollarının məzənnəsi 0.78 manat olmuşdur. YGB üzrə malın gömrük dəyəri 130000 ABŞ dolları olub (130000 * 0,78 = 1014000 man). Malın gömrük dəyərinə müvafiq 14040 manat (93600 * 15%) 15% gömrük rüsumu hesablanıb. Gömrük rüsumu və ƏDV nağd ödənilib. Yerli karqo şirkəti ilə bağlanmış müqavilyə görə həmin mal müəssisəyə 5000 manat daşınmışdır.

Bu verilənlərdən istifadə edərək məsələni ayrı-ayrılıqda sahibkarlıq subyekti üzrə həm ƏDV, həm də sadələşdirilmiş vergi ödəyicilərində göstərməklə mühasibat uçotunda müxabirləşmələrini (provodkalarını) aşağıdakı kimi vermək olar.

İlk öncə verilmiş məsələnin şərtinə uyğun olaraq ƏDV ödəyiciləri üzrə əməliyatın müxabirləşməsinin (provodkalarını) göstərək. Bu əməliyyatlar ƏDV ödəyiciləri üzrə aşağıdakı cədvəldəki kimi olacaqdır.

Cədvəl 15.3.1.

ƏDV ödəyicisi olan sahibkarlıq subyektinə idxal olunmuş malın mühasibat uçotunda əməliyyatlar üzrə müxabirləşməsi

D-T			K-T			Məbləğ	Əməliyyatın məzmunu
Sintetik hesabların №-si		Sintetik hesabların adı	Sintetik hesabların №-si		Sintetik hesabla-rın adı		
Köhnə	Yeni		Köhnə	Yeni			
61	192	Mal satan lara və podratçılara avans qaydasında ödənilmişdir	52	223	Nağd valyuta alındıqda	79000	22 oktyabr 2014-cu il tarixində avans ödənilib
15	205	Materialların tədarükü və əldə edilməsi	60	531	Göstərilən xidmətlə-rin dəyəri malsatan-lara və podratçı-lara ödənilmiş dir.	78000	15 noyabr 2014-cu il tarində mal gəlib.
60	204	Göstərilən xidmətlərin dəyəri malsatanlara və podratçılara ödənilmişdir	61	243	Mal satan lara və podrat-çılara avans qaydasın da ödənil-mişdir	79000	Avans bağlanır

83	801	Gələcək dövrün gəlirləri	60	332	Malsatan və poratçı-larla hesablaş malar	1000	Mənfin məzənnə fərqi göstərilir
15	205	Materialların tədarükü və əldə edilməsi	76	538	Müxtəlif debitor və kreditorl arla hesablaş malar	14040	Gömrük rüsumu hesablanıb
19	241	Alınmış mallar üzrə Əlavə dəyər vergisi	76	245	Müxtəlif debitor və kreditorl arla hesablaş malar	20770,92	Gömrükdə ƏDV hesablanıb ((93600 + 14040) * 18%)
76	223	Müxtəlif debitor və kreditorlarla hesablaşmala r	50	221	Kassa	33410,52	Gömrük rüsumu və ƏDV nağd ödənilib
68	521	Büdcə ilə he–sablaşmalar	19	241	Alın-mış mallar üzrə ƏDV	20770,92	ƏDV əvəzləşdirilir
15	205	Materialların tədarükü və əldə edilməsi	60	431	Mal-satan və podratçıl arla hesablaş malar	5000	Nəqliyyat xərci göstərilib
60	431	Mallar	15	204	Malların tədarükü və əldə edilməsi	97040	Mal faktiki maya dəyərinə görə uçota alınır

Mənbə. Müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 15.3.2

Sadələşdirilmiş vergi ödəyicisi olan sahibkarlıq subyektinə idxal olunmuş malın mühasibat uçotunda əməliyyatlar üzrə müxabirləşməsi

D-T		K-T		Məbləğ	Əməliyyatın məzmunu
Sintetik hesabların №-si		Sintetik hesabların №-si			
Köhnə	Yeni	Köhnə	Yeni		
61	192	52	223	79000	22 oktyabr 2014-cu il tarixində avans ödənilib
15	205	60	531	78000	15 noyabr 2014-cu il tarində mal gəlib.
61	192	60	531	79000	Avans bağlanır
83	801	60	332	1000	Mənfi məzənnə fərqi göstərilir
15	241	76	245	14040	Gömrük rüsumu hesablanıb
15	205	76	538	20770,92	Gömrükdə ƏDV hesablanıb ((93600 + 14040) * 18%)
76	223	50	221	33410,52	Gömrük rüsumu və ƏDV nağd ödənilib
68	521	19	241	20770,92	ƏDV əvəzləşdirilir
15	205	60	431	5000	Daşıma xərci göstərilib
41	204	15	531	117810,92	Mal faktiki maya dəyərinə görə uçota alınır

Mənbə.Müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi, ƏDV ödəyicisində malların faktura maya dəyəri 97040 manat, bazar qiyməti isə manat 101400 manat olub. Lakin mal 101400 manatdan ucuz satılarsa, mənfəət vergisinin və ƏDV-nin məqsədləri üçün gəlirin məbləği 101400 manat götürüləcəkdir. Deməli, gömrük dəyərindən daha ucuz başa gələn malların qiymətləndirilməsi zərurəti meydana çıxır. Qiymətləndirmə ilə bağlı müxabirləşmə (provodka) verək:

Cədvəl 15.3.3.

D-T		K-T		Mıbləğ	Məzmumu
Hesablar planı		Hesablar planı			
Köhnə	Yeni	Köhnə	Yeni		
41	205	15	232	970400	Malın faktura dəyəri uçota alınır
41	205	14	231	4360	Malın bazar qiymətindən faktura dəyəri çıxılır
14	208	80	801	4360	Malın bazar qiyməti ilə faktura dəyəri arasındakı fərq

Mənbə. Müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, mal faktura dəyəri ilə uşota alındıqda, əvvəlki hesab üzrə Dt 41 Kt 15 – 970400, yeni hesab üzrə isə Dt 205 Kt 232 müxabirləşməsi aparılır. Malın bazr qiymətindən faktura dəyəri çıxıldıqda, əvvəlki hesab üzrə Dt 41 Kt 14 – 4360 ilə, yeni hesab üzrə Dt205 Kt231 müxabirləşməsi aparılır. Əməliyyatın sonunda qiymətləndirmə aparılır və nəticədə yaran müsbət fərq gəlirə əlavə edilir (101400-97040). Bu əməliyyat üzrə cədvəldən göründüyü kimi əvvəlki hesab üzrə Dt14 Kt80 – 4360, yeni hessab üzrə isə Dt208Kt801-4360 müxabirləşmə aparılacaqdır.

Göründüyü kimi idxal olunmuş malın bazar qiyməti ilə (101400) onun faktura dəyəri (117810,92) demək olar ki, bir-birinə yaxındır. Bu isə onu deməyə əsas verir ki, sadələşdirilmiş vergi ödəyicisində qiymətləndirməni aparmağa ehtiyac yoxdur.

Azərbaycan Respublikasının tədiyyə balansını təhlil edərək investisiyaların repatriasiyası üzrə cədvəl 15.2.5-dəki məlumatları müşahidə etmək olar. Cədvəl 15.2.5-dən göründüyü kimi investisiyanın repatriasiyası başlıca olaraq neft-qaz sektorunda həyata keçirilir. Bu da neft ixracı zamanı mənfəət neftinin ölkədən çıxarılması ilə əlaqədardır. Apardığımız araşdırmalar neft-qaz rektorunda 2005-ci ildə investisiyanın repatriasiyasının kəskin surətdə artdığını göstərir. Bunu mənfi hal kimi qiymətləndirmək

lazım gəlir. Çünki Azərbaycan mənbəyindən əldə olunan mənfəət demək olar ki, tam şəkildə ölkədən çıxarılır.

Azərbaycan Respublikasının vergi sistemi gəlirlərin repatriasiyasını əlverişli formada həyata keçirir. Belə ki, xarici investorlar tərəfindən Azərbaycan Respublikasında əldə olunan gəlir və ya mənfəət yenidən investisiya kimi Azərbaycan iqtisadiyyatına qoyula bilər. Bununla yanaşı xarici investor Azərbaycan mənbəyindən əldə etdiyi mənfəəti və ya gəliri sərbəst surətdə ölkədən çıxara bilər [27]. Bu zaman ödənilən dividentdən 10 % mənbəyində vergi tutulur. Beləliklə, əsas şərt kimi ödənilmiş dividentə görə ödəmə mənbəyində vergilərin tutulmasıdır. Yəni, xarici investorun digər vergilər üzrə borcu olması, onun əldə etdiyi mənfəətin repatriasiyasını əlverişli şəkildə həyata keçirdiyindən xarici investisiya qoyuluşunun həyata keçirilməsində investorlar üçün əlverişli şərlərdən biri hesab olunur.

Azərbaycan Respublikasının vergi sistemi gəlirlərin repatriasiyasını əlverişli formada həyata keçirir. Belə ki, xarici investorlar tərəfindən Azərbaycan Respublikasında əldə olunan gəlir və ya mənfəət yenidən investisiya kimi Azərbaycan iqtisadiyyatına qoyula bilər. Bununla yanaşı xarici investor Azərbaycan mənbəyindən əldə etdiyi mənfəəti və ya gəliri sərbəst surətdə ölkədən çıxara bilər [27]. Bu zaman ödənilən dividentdən 10 % mənbəyində vergi tutulur. Beləliklə, əsas şərt kimi ödənilmiş dividentə görə ödəmə mənbəyində vergilərin tutulmasıdır. Yəni, xarici investorun digər vergilər üzrə borcu olması, onun əldə etdiyi mənfəətin repatriasiyasını əlverişli şəkildə həyata keçirdiyindən xarici investisiya qoyuluşunun həyata keçirilməsində investorlar üçün əlverişli şərlərdən biri hesab olunur.

Göründüyü kimi Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatalarında vergilərin tətbiqinin təhlil olunması nəticəsində onların təkmilləşdirilməsi isqamətlərinin şərh edilməsində, əsasən idxal-ixrac əməliyyatlarında vergitutma obyektinin, daha doğrusu gömrük dəyərinin müəyyən olunması ilə vergilərin hesablanması və ödənilməsi əsas istiqaməti kimi müəyyən edilmişdir. Bununla

yanaşı xidmətlərin idxalı və ixracı xüsusiyyətləri nəzərə alınaraq onların rəsmiləşdirilməsi yolları tədqiq olunması zaman meydana çıxa bilən bir sıra məqamlar geniş şəkildə aydınlaşdırılmışdır. Bütün bu tədqiqatlar göstərir ki, gəlirlərin və ya mənfəətin repatriasiyası baxımından Azərbaycanın vergi sisteminin əlverişli investisiya mühitini yaratmasına xidmət edəcəkdir.

XVI FƏSİL

GÖMRÜK STATİSTİKASINDA İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

16.1. Azərbaycan Respublikasının gömrük işində informasiya sistemləri və texnologiyaları

Azərbaycanda zəngin bir tarixi yol keçmiş gömrük xidməti, hələ qədim İpək Yolu dövründə möcud olmuşdur. Çar Rusiyası dövründə I Aleksandrın fərmanı ilə 1807-ci il fevralın 7-də Bakı Gömrük İdarəsi təsis edilmişdir. Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra təşəkkül tapmış yeni strukturlardan biri olan gömrük sistemi (Dövlət Gömrük Komitəsi) 1992-ci il yanvarın 30-da yaradılmış və müstəqil gömrük xidməti kimi ölkəmizin təhlükəsizliyi istiqamətində mühüm işlər görür.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin iqtisadi təhlükəsizliyinin qorunmasının daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görürdü. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da modernləşməsinə yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iqtisadiyyatın bütün sahələrində olduğu kimi, gömrük sisteminin fəaliyyətinin bütün istiqamətlər üzrə daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayaraq, Azərbaycan gömrük xidməti dinamik inkişaf etməsinə zəmin yaratmışdır. Bütün bunlar gömrük sisteminin fəaliyyətində müasir layihələr həyata keçirməklə beynəlxalq standartlara cavab verən informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verməklə bu sahədə köklü islahatlar aparılması ilə nəticələnmişdir.

Dövlət Gömrük Komitəsi (DGK) Azərbaycanda yeni texnologiyaların tətbiqini həyata keçirən, dünya praktikasında istifadə edilən texnoloji avadanlıqları, elektron idarəetmə sistemlərini ölkənin gömrük xidmətində reallaşdıran bir qurumdur. DGK-i kağızsız ticarətin həyata keçirilməsində, gömrük əməkdaşı ilə vətəndaş təmasının minimuma endirilməsində, gömrük işində şəffaflığın təmin edilməsində mühüm addımlar ataraq, bu istiqamətdə ardıcıl işlər həyata keçirməyə davam edir. Azərbaycan gömrüyündə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə hələ 1995-ci ildə start verilib və 1999-cu ildə gömrüyün İKT strategiyası artıq beynəlxalq standartlar səviyyəsində qurulmağa başlanılıb. Dövlət Gömrük Komitəsi öz fəaliyyətində "elektron hökumət" layihəsinə töhfə vermək, vətəndaşlara xidmət, beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaratmaq üçün mühüm islahatlar aparıb. "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli Sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sisteminin yaradılması istiqamətində ciddi tədbirlər görülüb. "Gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS)" layihəsi bugünkü elektron gömrük xidmətinin əsasını təşkil edir. Kağızsız ticarətin həyata keçirilməsi istiqamətində atılan əsas addımlardan biri də məhz 2011-cu ildə Dövlət Gömrük Komitəsində "VAİS-Kargüzarlıq" avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiq edilməsidir. Bununla da komitənin strukturuna daxil olan bütün təşkilatları əhatə edən avtomatlaşdırılmış kargüzarlıq işi tam şəkildə tətbiq edilib, 2011-ci ilin əvvəlindən gömrük rəsmiləşdirilməsi üzrə müraciətlərin qeydiyyatının VAİS-də elektron formada aparılmasına başlanılıb. Bundan başqa, Ümumdünya Gömrük Təşkilatının Malların Buraxılış Vaxtının Ölçülməsinə dair Təlimat metodologiyasından

istifadə etməklə, Malların Buraxılış Vaxtının Ölçülməsi layihəsi hazırlanıb və Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə inteqrasiyası təmin edilib. Layihə gömrük prosedurlarındakı və malların, eləcə də nəqliyyat vasitələrinin sərhəd boyu hərəkətindəki boşluqları müəyyən etməyə imkan yaradır. Həmçinin 2016-cı ildən başlayaraq risklərin idarə edilməsi sistemi VAİS çərçivəsində fəaliyyət göstərir. Bununla yanaşı, tranzit yük maşınlarına GPS qurğuları quraşdırılır. Bu, Dövlət Gömrük Komitəsində yaradılan "Hədəf" mərkəzindən onların izlənilməsinə və təyin edilmiş marşrutdan yayındıqları zaman mobil qruplar sayəsində zəruri tədbirlər görməyə imkan yaradır. Azərbaycanın istənilən gömrük sərhəd-keçid məntəqəsində vətəndaşların, mal və nəqliyyat vasitələrinin sürətli keçidinin təmin edilməsi üçün bir çox elektron xidmətlər tətbiq olunub. Hazırda "elektron hökumət" portalı üzərindən 14 elektron gömrük xidməti istifadəyə verilib. Elektron gömrük xidmətlərinə və onların yaratdığı imkanlara bir neçə misal gətirmək olar. "Gömrük Bəyannamələri haqqında məlumatın verilməsi" elektron xidməti vasitəsilə müvəkkil banklar və digər aidiyyəti təşkilatlar bəyannaməsinin VÖİN-ini və gömrük bəyannaməsinin qeydiyyat nömrəsini daxil etməklə gömrük bəyannaməsini elektron formada əldə edə bilirlər. "Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron Gömrük Bəyannaməsinin qəbulu" xidmətində şəxslər Azərbaycan Respublikasının gömrük sərhədindən keçirdikləri mallar üçün bəyannamələri elektron formada tərtib edərək gömrük orqanlarına təqdim edirlər. Bəyannamədə və ona əlavə edilmiş sənədlərdə olan məlumatlar interaktiv qaydada yoxlanılır və nəticəsi barədə istifadəçiyə məlumat verilir. "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin bəyannaməsinin qəbulu" elektron xidmətinə əsasən fiziki şəxslər Azərbaycan Respublikasına keçirdikləri mallar və nəqliyyat vasitələri, həmçinin valyuta sərvətləri barədə məlumatları gömrük orqanlarına onlayn qaydada təqdim edirlər. Bu xidmət

sərhədkeçmə zamanı ləngimə hallarının qarşısını almağa imkan verir. Həmçinin "Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi" xidməti hüquqi və fiziki şəxslər tərəfindən gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin müasir ödəniş mexanizmlərindən istifadə etməklə elektron formada həyata keçirilməsini təmin edir. "Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi" elektron xidməti vasitəsilə isə xarici iqtisadi fəaliyyət iştirakçıları həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatları elektron qaydada əldə edə bilərlər. "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda idxal-ixrac vergilərindən azadolma haqqında sertifikatın verilməsi" xidməti sayəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda hasilatın pay bölgüsü üzrə saziş iştirakçısı olan şirkətlər idxal-ixrac əməliyyatları üzrə vergi və rüsumlardan azad olunmalarını təsdiqləyən sertifikatı əldə etmək üçün Dövlət Gömrük Komitəsinə müraciət edirlər və müraciət əsaslı olduqda sertifikat sahibi olurlar. Bunda başqa "Dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün ilkin məlumatlandırma üzrə müraciətin və sənədlərin qəbulu" xidməti vasitəsilə fiziki və hüquqi şəxslər gömrük sərhədindən keçirdikləri mallar və nəqliyyat vasitələri barədə məlumatları gömrük orqanlarına onlayn qaydada təqdim edirlər. Bu gömrük rəsmiləşdirilməsi prosedurlarının sürətləndirilməsinə və sərhədkeçmə zamanı ləngimə hallarının qarşısını almağa imkan verir. Qeyd edək ki, son olaraq istifadəyə verilən elektron gömrük xidmətlərindən biri DGK-da yaradılan vahid "SMS-məlumatlandırma" sistemidir və bu ilin may ayının 29-dan qismən tətbiq edilir. Sistemə əsasən hazırda sahibkarlara idxal zamanı yük gömrük ərazisindən çıxdıqda və təyinat nöqtəsinə çatdıqda SMS vasitəsilə bildiriş göndərilir. Təkmilləşdirmə işləri aparıldıqdan sonra yüklərin sənədləşdirilməsi, ödəniləcək gömrük

rüsumu ilə bağlı da SMS-lə məlumat veriləcək. Elektron gömrük xidmətlərinin tətbiqi ticarətin asanlaşdırılması ilə yanaşı, həmçinin təhlükəsizliyin də daha rahat təmin edilməsinə səbəb olur. Belə ki, GPS sistemindən istifadə, başqa ölkələrin gömrük orqanları ilə qarşılıqlı informasiya mübadiləsi, "Hədəf" mərkəzinin fəaliyyəti, yaradılan mobil qruplar, həmçinin reallaşdırılması planlaşdırılan sürətli poçt göndərişləri ilə bağlı layihə də ölkəyə gətirilən malların qanunvericiliyə uyğunluğunu təmin edəcək. Dövlət Gömrük Komitəsinin elektron xidmətlə bağlı gələcək fəaliyyətinə GUAM və digər ikitərəfli əməkdaşlıq platformaları çərçivəsində elektron imzaların qarşılıqlı tanınması, tranzitlə bağlı Avropa İttifaqının Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin (NCTS) tətbiqi, eTIR layihəsinin hazırlanması da daxildir. Qeyd etmək vacibdir ki, Prezident İlham Əliyevin 2018-ci il iyunun 28-də imzaladığı "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamında idxal olunan malların elektron formada əvvəlcədən bəyan edilməsi sistemini tətbiq edəcək icraçı orqanlardan biri DGK-dır. Tədbirlər Planında gömrük prosedurlarının sadələşdirilməsi və gömrük rəsmiləşdirilməsi prosesində "Bir pəncərə" sisteminə qoşulan dövlət orqanları arasında sənəd mübadiləsinin təkmilləşdirilməsi də nəzərdə tutulub. Bütün bunların bəhrəsi olaraq Azərbaycan BMT-nin Ticarətin Asanlaşdırılması və Kağızsız Ticarətin Tətbiqi üzrə qlobal sorğu 2015-2017-ci illərdə 120 ölkə arasında 3-cü yerdə qərarlaşıb. Açıq dənizə çıxışı olmayan ölkələr arasında isə 75% göstərici ilə Azərbaycan birinci yerdədir və təsadüfi deyil ki, bir çox ölkələrdən Azərbaycan gömrük xidmətinin təcrübəsindən yararlanmaq üçün müraciətlər edilir, ölkəmizdə elektron gömrük mövzusunda təlimlər, seminarlar, konfranslar təşkil olunur. Dövlət Gömrük Komitəsinin müasir tələblər nəzərə alınmaqla istifadəyə verilən internet saytı Azərbaycan Milli İnternet Mükafatı olan NETTY 2017-nin "Dövlət saytı" nominasiyası üzrə ikinci yerə layiq görülüb. Gömrük qanunvericiliyi, gömrük orqanlarının fəaliyyəti, gömrük xidməti ilə bağlı digər məsələlərə dair yeniliklər haqqında

ictimaiyyətin Komitənin internet saytı vasitəsilə məlumatlandırılması təmin edilib. Komitənin saytında DGK sədrinə birbaşa müraciət ünvanlamaq üçün "Virtual qəbul" bölməsi yaradılıb. Gələcəkdə də gömrük xidməti respublikamızın iqtisadi inkişafına təkan verməklə, ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin yeni-yeni uğurlar qazanmasında mühüm rol oynayacaq. Azərbaycan gömrükçüləri dövlət başçısının müstəqil Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, xalqımızın firavan gələcəyinin təmin edilməsi uğrunda göstərdiyi fəaliyyətdə yaxından iştirak edəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

Azərbaycanın dinamik inkişafında rabitə və informasiya texnologiyalarının rolu artmaqdadır. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının və ümumiyyətlə, dövlət idarəçiliyinin inkişafının əsas göstəricilərindəndir. Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində parlaq inkişaf dövrü ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Son illərdə isə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə digər sahələrdə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsi də sürətlə inkişaf etmiş, respublika bu sahədə regional liderə, inkişaf etmiş dünya ölkələrinin və nəhəng İKT şirkətlərinin diqqət mərkəzinə çevrilmişdir.Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəaliyyətində əsas istiqamətlərdən biri də gömrük işində informasiya texnologiyalarının tətbiqidir.Respublikada gömrük sisteminin inkişafını sürətləndirmək və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə ölkə prezidentinin 1 fevral 2007-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının həyata keçirilməsinin əsas istiqamətlərindən biri kimi - gömrük nəzarəti

metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması və gömrük prosedurlarının avtomatlaşdırılması sahəsində görüləcək tədbirlərin sürətləndirilməsi nəzərdə tutulur. Proqramda qarşıya qoyulan vəzifələr yerinə yetirildikdən sonra malların idxalı və ixracı zamanı gömrük rəsmiləşdirilməsi əməliyyatlarının avtomatlaşdırılmış əsaslarda təşkil edilməsi mümkün olacaqdır. Bu isə gömrük rəsmiləşdirilməsinin səmərəliliyinin artırılmasına və xarici ticarət iştirakçılarına göstərilən xidmətin səviyyəsinin yaxşılaşmasına və bütövlükdə gömrük orqanlarında idarəetmənin təkmilləşməsinə imkan verəcəkdir. Dövlət Gömrük Komitəsində İKT-nin tətbiqinin əsasən 1999-cu ildən başlandığını söyləyən DGK sədrinin müavini onu da bildirmişdir ki, 1999-cu ilin yanvarından Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması" layihəsi həyata keçirilmişdir. Bunun nəticəsində Dövlət Gömrük Komitəsinin mərkəzi aparatının, Naxçıvan Dövlət Gömrük Komitəsinin, bütün gömrük idarələrinin və əsas gömrük-keçid məntəqələrinin birbaşa əlaqəsini təmin edən kompüter şəbəkəsi yaradılmışdır. Layihənin həyata keçirilməsi sayəsində 2002-ci ilin oktyabrından "Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş hüquq pozuntularının qeydiyyatı və nəzarətinin Avtomatlaşdırılmış Sistemi"nin tətbiqinə başlanılmışdır. Bu layihənin sonrakı mərhələsində - 2003-cü ilin avqustundan Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında məlumatların qeydiyyatı,göndərilməsi, alınması, nəzarətdə saxlanılması və nəzarətdən çıxarılması işinin təkmilləşdirilməsi məqsədilə avtomatlaşdırılmış sistemin istismarına başlanılmışdır. layihənin tətbiqinin 2-ci və 3-cü mərhələlərində 2004-cü ilin sentyabrından başlayaraq "Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin avtomatlaşdırılmış sistemi" tətbiq edilmişdir. 2008-ci ilin dekabrından isə layihə çərçivəsində "Risklərin Avtomatlaşdırılmış

İdarəetmə Sistemi"nin bəzi gömrük idarələrində eksperimental tətbiqinə başlanılmışdır.

"Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Prezidentinin 11 noyabr 2008-ci il tarixli fərmanının tələblərinə görə sərhəd-keçid məntəqələrində "bir pəncərə" prinsipinin həyata keçirilməsinə məsul tərəf Dövlət Gömrük Komitəsi müəyyən edilmişdir. Fərmanın tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə 2009-cu ilin avqustundan "Bir pəncərə - Avtomatlaşdırılmış İdarəetmə Sistemi"nin pilot variantının istifadəsinə başlanılmışdır. Bu isə məntəqələrdə yoxlama dövrünü azaltmağa imkan yaratmışdır.Gömrük işində İKT-nin tətbiqinin mühüm istiqamətlərindən biri də elektron yük gömrük bəyannaməsinin tətbiq olunmasıdır. Belə ki, elektron bəyannamənin istifadəsi mal və nəqliyyat vasitələrinin sərhəd-keçid məntəqələrindən keçməsini sürətləndirməyə xidmət edəcəkdir. Azərbaycan Respublikasında "elektron hökumət"in formalaşdırılması istiqamətində aparılan işlər, Dövlət Gömrük Komitəsində inteqrə olunmuş məlumat bazalarının yaradılması və "Bir pəncərə - Avtomatlaşdırılmış İdarəetmə Sistemi"nin tətbiqi respublikanın gömrük orqanlarında "elektron gömrük" sisteminin tətbiq olunmasına imkan yaradacaqdır. Qloballaşan dünyanın dinamik inkişaf edən bir üzvü olan Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət siyasətinn tərkib hissəsi kimi məqsədyönlü işlər görülür. Ölkədə İKT-nin tətbiqi prioritet elan olunaraq, bilik iqtisadiyyatı qurulması məqsədilə yüksək texnologiyalar sektoru inkişaf etdirilir. Gömrük xidmətlərinin inkişafının keyfiyyətcə yeni mərhələsi inteqrasiya proseslərinin köməyi, ümumi səy və imkanların birləşdirilməsi, xarici ticarətlə məşğul olan və ya onu təmin edən biznes dairələrinin potensialından maksimum istifadə nəticəsində mümkündür. MDB İqtisadi Şurasının 12 sentyabr 2008-ci il tarixli qərarına əsasən, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan

dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası sözügedən dövlətlərin gömrük xidmətlərində Vahid İnformasiya Sisteminin yaradılması imkanlarını araşdırmalıdır. İrəli sürülən məqsədlər asan olmasa da, mövcud intellektual potensialın köməyilə həll olunandır Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində hələ ötən əsrin ortalarında ilk addımlar atılmış və bu işlər o zaman nəinki SSRİ-də, hətta Avropada yenilik sayılırdı. Bu gün isə Azərbaycanda sözügedən sahəyə xüsusi diqqət yetirilir, ölkədə "elektron hökumət"in yüksək səviyyədə formalaşdırılması üçün mühüm tədbirlər görülür. Azərbaycanda dövlət qurumları arasında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işində Dövlət Gömrük Komitəsi ilk vaxtlardan fəallıq göstərmiş, bu sahədə bir sıra nailiyyətlər qazanmışdır. "Gömrük sahəsində vahid avtomatlaşdırılmış informasiya-idarəetmə sisteminin yaradılmasında konseptual yanaşma" adlı təqdimatda Baş İdarənin rəisi Azərbaycan Gömrük Xidmətinin informasiya sistemləri və texnologiyaları prosesinin inkişafı istiqamətində həyata keçirilən bir sıra işlər və perspektivlər barədə məlumat vermişdir. Mərkəzləşdirilmiş məlumat bazalarının yaradılması və bazalardan məsafədən istifadə kimi müasir və səmərəli sahəni nəzərə alaraq gömrük xidmətinin mərkəzləşmiş daxili Web-portalı hazırlanmışdır. Portalın mühafizə sisteminin proqram təminatı yaradılmış və istifadəçilərin hüquqlarına uyğun olaraq portalın bütün səhifələrinə daxilolma prosesi proqramlaşdırılmışdır. gömrük xidmətində "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar olaraq, sərhəd-keçid gömrük orqanları xüsusi proqram təminatı və ən müasir tələblərə cavab verən zəruri avadanlıqlarla təchiz edilmişdir.

16.2.Gömrük təşkilatlarında informasiya sisteminin inkişafının gömrük xidmətlərinin təkmilləşdirilməsində rolu

Gömrük orqanlarının fəaliyyətinə yeni informasiya texnologiyalarının tətbiqi, onların modernləşdirilməsi yaxın gələcəkdə gömrük xidmətlərinin inkişafı üçün ən vacib vəzifələr olaraq qalır. Gömrük sisteminin bütün strukturlarının qarşılıqlı fəaliyyətini, hərəkətliliyini, operativliyini, şəffaflığını, qərarların sağlamlığını və uyğunluğunu təmin etmək tədbirlər, informasiya texnologiyaları gömrük xidmətlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Gömrük xidmətinin keyfiyyətinin artmasında əsasən innovatik elementlərin inkişafı mühüm əhəmiyyətə malikdir. Gömrük xidməti prosesinin innovatik elementlərində əsas istiqamətlərin müəyyənləşdirilməsinə istiqamətlənmiş konseptual əsaslandırmaya uyğun olan məlumatlandırma, informasiyalaşdırma formalarının struktur siyasətinin həyata keçirilməsinə, onların iqtisadi inkişafına və təşkilati quruluşuna, informasiya infrastrukturunun yaradılmasına yönəlmiş strateji bir yanaşmanın işlənib hazırlanması xüsusi yer tutur. [53]

Hal hazırda Azərbaycan Respubliasının bütün gömrük orqanları vahid avtomatlaşdırılmış məlumat sistemi ilə birləşir. İnformasiya texnologiyalarının tətbiqi ilə gömrük orqanlarının bank sistemi, digər tənzimləmə və hüquq mühafizə orqanları ilə qarşılıqlı informasiya mübadiləsi qurulmuşdur. Gömrük postlarında malların elektron bəyannaməsi, o cümlədən neft məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı elektron uçot üçün təcrübə kimi qabaqcıl gömrük texnologiyası fəal tətbiq olunur. Bu texnologiyanın istifadəsi zamanı elektron sənəd idarəetməsi üçün bütün zəruri şərtlər yaradılmışdır.

Gömrük xidmətləri sahəsinin informasiya sferasi aşağıdakılara istiqamətlənmişdir:

1. Gömrük bəyannaməsinin təqdim edilməsi prosesinin sadələşdirilməsi və sənədlərin bəyan edilməsinin zəruriliyi;

2. Gömrük rəsmiləşdirilməsi prosesində olan malların olduğu dövrlə əlaqəli sərf edilən vaxtın azaldılması (Azərbaycan Respublikasının ərazisindən xaricə çıxana qədər gömrük nəzarəti zonasında olan, Azərbaycan Respublikasının ərazisindən çıxanadək müvəqqəti saxlamada olan);

3. Bəyanedici ilə (deklarantla) və ya gömrük brokkeri ilə gömrük orqanının vəzifəli şəxsinin birbaşa əlaqə ehtiyacının minimuma endirilməsi.

Bu günə qədər gömrük fəaliyyətinin informasiya təminatı problemlərinin həllinə hərtərəfli kompleks yanaşma demək olar ki, yoxdur. Mövcud sistemlər ya xarici iqtisadi fəaliyyət iştirakçıları üçün məlumat vərəqəsi kimi fəaliyyət göstərir, ya da elektron gömrük bəyannamələri üçün poçt qutusu kimi. Azərbaycan Respublikası gömrük orqanlarının normativ bazasının, iş proseslərinin və informasiya texnologiyalarının təkmilləşdirilməsini təmin edən məlumat sisteminin hərtərəfli modernləşdirilməsinə daha böyük ehtiyac vardır.

16.3 İnformasiya, informasiya texnologiyaları və informasiya sisteminin mahiyyəti.

İnsan fəaliyyətinin bir çox sahələrində olduğu kimi, informasiyanın toplanması, təhlili və emalının sürətləndirilməsi baxımından inqilabi dəyişikliklər kompyüter texnologiyaların meydana gəlməsindən qaynaqlanır. İnsanın informasiyaya münasibəti informasiya emalının avtomatlaşdırılması mümkünlüyündən sonra kökündən dəyişməyə və inkişaf etməyə başlamışdır. Bunun da nəticəsində yaradıcı və mütəxəssis insanların intelektual fəaliyyətinin məhsulu kimi informasiya ehtiyatları sürətlə çoxalmağa başlamışdır.

Gömrük fəaliyyəti ticarətin yaranması, inkişafı və tənzimlənməsi ilə ayrılmaz dərəcədə əlaqəlidir. Ticarət münasibətlərinin tənzimlənməsi və idarə edilməsinin səmərəliliyi həmişə iqtisadi məlumatların və toplanması, uçotu, işlənməsi və

mübadiləsi üçün texnologiyaların keyfiyyəti ilə müəyyən edilmişdir. İndiki dövrdə, kompüter elmləri, informasiya texnologiyalarının surətlə inkişaf etdiyi bir zamanda informasiya anlayışı son dərəcə böyük həmdə və geniş yayılmışdır.

"İnformasiya" termini özü Latın sözündən əmələ gəlmiş və izahat, maarifləndirmə, təqdimat mənasını verir. Geniş mənada informasiya- məlumat, bilik, saxlama, ötürülmə obyekti olan və problemin həllinə kömək etmə məlumatlarıdır. İnformasiya-fundamental və prinsipial anlayış olub, bütövlükdə müasir cəmiyyətdə, eləcə də informasiya sistemlərində baş verən proseslərin başa düşülməsi və qavranması üçün açardır. İnformasiya termini bütövlük və bölünməzlik baxımından tərif verilə bilinməyən termindir. İnformasiya formal mənada isə formasından asılı olmayaraq şəxslər, faktlar, əşyalar, hadisələr və proseslər haqqında məlumatlardır. İqtisadi inkişaf prosesində demək olar ki, informasiya, verilənlər və biliklər müəyyən həddən sonra eyniləşir. Məhz bu səbəbdən də informasiya, verilənlər və biliklərin informasiya ehtiyatları kimi rolunun qiymətləndirilməsi də çətinləşir.

Verilənlər-hadisələr və təzahürlər haqqında qeyd olunmuş məlumatlardır.

İnformasiya-istifadəçinin qərarların qəbul etməsi və analitik tədqiqatların aparması üçün yararlı şəkildə təsvir olunmuş, emal edilmiş verilənlərdir.

Biliklər-qərarların qəbul edilməsi və məsələlərin həlli üçün istifadə edilən və ya istifadə edilmiş, emal olunmuş informasiya, eyni zamanda qərarların qəbulu üçün informasiyanın emalı üsulları haqqında məlumatlardır.

Hesab edilir ki, müasir texnoloji tərəqqi istehsalın üç əsas faktoruna yeni informasiya faktorunu əlavə etmişdir. Yaxın keşmişdə informasiya ənənəvi istehsal faktorlarını əvəz edə bilməzdi. Çünki informasiyanın təkcə toplanması deyil, onun istifadə üçün yararlı şəkildə təqdim olunması da mümkün deyildi. Belə ki, ilkin verilənlərin toplanması vaxtı ilə onun lazımi

informasiyaya şəklinə salınaraq istifadə üçün təqdim olunması arasındakı uzun müddət ilkin verilənlərin əhəmiyyətini sıfra çevirirdi. Bu gün mövcud olan informasiya texnologiyaları və sistemləri dünyanın istənilən nöqtəsində lazımi məlumatların toplanaraq, emal olunmasına və çox qısa müddətə tələbə uyğun olaraq ünvana çatdırılmasına imkan verir. Qeyd edək ki, informasiya texnologiyaları və sistemlərinin inkişafının bu günkü inkişaf səviyyəsi iri həcmli informasiya axımlarının toplanması, emalı və istifadəsi xərclərini mininmuma endirir.

Bütün qeyd olunanlarla yanaşı müasir iqtisadiyyatın əsas faktoru olan informasiya və onun növlərinin, başqa sözlə informasiya ehtiyatlarının xüsusiyyətləri, malik olması tələb olunana xassələri və onlardan istifadənin ümumi qaydaları həm istehsalçı, həm də istifadəçi tərəfindən dəqiq mənimsənilməlidir.

Iqtisadi məlumatların əsas hissəsi onları təşkil edən rəqəmlər, hərflər, simvollar- işarələr formasında emal olunur və ötürülür. Bu səbəbdən də iqtisadi informasiya semiotikanın terminləri vasitəsilə izah və təhlil oluna bilər. Semiotika işarələr sistemi haqqında nəzəriyyədir (Semiotika (yunanca "semiotikon", "semeion"-işarə, əlamət)- işarə və işarələr sisteminin xassələrini tədqiq edən elmdir. Semiotika "işarə-ifadə edilən" münasibətinin xarakterik xüsusiyyətlərini öyrənir. İşarə informasiya daşıyıcısı olduğundan, bu elmi sahə informasiyanın emalı və ötürülməsi proseslərindəişarələr sisteminin layihələndirilməsi və tədqiqində böyük tətbiqi əhəmiyyətə malik olmaqla, geniş tətbiq olunur). Semiotika istənilən obyekti sintaksis, semiotik və praqmatik nöqteyi nəzərdən təhlil etməyi təklif edir. Məhz bu səbəbdən də informasiyanın da müasir iqtisadiyyatda xüsusi rola malik faktor və ya obyekt kimi bu nöqteyi nəzərlərdən nəzərdən keçirilməsi düzgündür.

-Sintaksis aspekt-informasiyanın fiziki xarakteristikasını: onun təqdim olunma üsullarını, ötürülmə sürətini, daşıyıcının tipini, kodlaşdırma üsulunu, istifadə olunan kanalları, ötürmənin təhlükəsizliyi və inamlılığını əks etdirir. Yalnız sintaksis nöqteyi-

nəzərindən baxılan informasiya verilənlər hesab oluna bilər və burada onun məzmununa baxılmır.

-İnformasiyanın məzmunu semantik aspektlərlə xarakterizə olunur. Burada informasiyanı təşkil edən məlumatlar və onlar arasında əlaqələr öyrənilir.

-İnformasiyanın praqmatik aspekti onun qərarların qəbul edilməsində istifadəçilər üçün qiymətliliyini müəyyənləşdirir.

Müasir informasiya sistemləri özündə üç tərkib hissəsini birləşdirir: texnologiya, biznes və insanlar. Informasiya sistemləri mühitində insanlar informasiya texnologiyalarının köməyi ilə iqtisadiyyat, biznes və idarəetmə məsələlərini həll edir. İnformasiyaya semiotik yanaşmada informasiya texnologiyaları informasiya ilə işləyir, sintaksis mənada isə informasiya texnologiyaları tez və sürətlə verilənləri toplayır, ötürür. Emal edir, saxlayır və təqdim edir.

İnformasiyanın semantikası ilə məşğul olan mütəxəssislər verilənlərin emalının nəticələrindən lazımi məlumatları müəyyən edərək götürməklə məşğul olurlar. Əldə olunan nəticələr sonradan idarəetmə və istehsalla bağlı qərarların qəbul edilməsində istifadə olunur.

Texniki tərəfdən hər bir mütəxəssisi ötürülən informasiyanın həcmi, onun saxlanmasına olan tələblər, ötürülmə istiqaməti, ötürmənin sürəti və informasiyanın nə cür təqdim olunması daha vacibdir. Bunlar içərisində ən çətini informasiyanın kəmiyyətcə qiymətləndirilməsidir. Adətən informasiya istifadəçilərini daha çox alınan informasiyada olan lazımlı məlumatların olub-olmaması və miqdarı maraqlandırır. Həm istifadəçi, həm də istehlakçını maraqlandıran isə istifadəyə verilmiş informasiyadan əldə olunacaq gəlir maraqlandırır. Qoyulan bu sualların cavabı informasiyanın xassələrinin tədqiqi ilə müəyyənləşdirilə bilər.

Verilənlərin xüsusiyyətləri. Toplanmış verilənlər onların aid olduqları hadisə və prosesi tam əks etdirmə xüsusiyyətinə malik olmadırlar. Burada əsas əhəmiyyətə malik olanlar aşağıdakılardır:

-verilənlərin yığılması üçün obyektin düzgün seçilməsi;

-ölçü üçün əhəmiyyətli olan əlamətlərin müəyyənləşdirilməsi;

-obyektlərin yetərincə sayının olması;

-verilənlərin, onlardan istifadə edilərək həll olunması nəzərdə tutulan məsələnin qoyuluşuna uyğun olması.

Məhz verilənlərin göstərilən xüsusiyyətlərə malik olması və bu tələbləri ödəməsi toplanmış verilənlərin emalından sonra alınacaq informasiyaların qərarların qəbul edilməsi üçün hansı dərəcədə yararlı olacağını müəyyənləşdirir. Məlumdur ki, informasiya məsələnin qoyuluşu müəyyənləşdirildikdən sonra meydana gəlir və yalnız bundan sonra mövcud verilənlər seçilir, emal edilir və informasiya şəklində təqdim olunur.

Verilənlərin digər xüsusiyyətləri onların dəqiqliyi ilə əlaqədardır. Bu baxımdan aşağıdakıların seçilməsi qəbul edilmişdir:

-ədədin sonuncu mərtəbəsinin qiymət vahidi ilə ölçülən formal dəqiqlik;

-ədədin sonuncu mərtəbəsinin qiymət vahidi ilə ölçülərək gerçəkliyinə qarant verilən real dəqiqlik;

-maksimal və ya əldə oluna bilən dəqiqlik, hansı ki, verilənlərin toplanmasının konkret şəraitində əldə olunur;

- həlli üçün verilənlər toplanan məsələnin tələbatları ilə müəyyən olunana lazımi və ya tələb olunan dəqiqlik.

Hər hansı məsələnin həlli zamanı verilənlərin etibarlılıq və ya gerçəkliyi xüsusiyyətləri öyrənilən obyekti şərtə uyğun olan dəqiqliklə təqdim etməyə imkan verir. Qeyd etmək lazımdır ki, iqtisadi verilənlərin etibarlılığı və gerçəkliyi bu sahədə informasiya sistemlərinin tətbiqinə imkan verən əsas xüsusiyyətlərdəndir. İqtisadi verilənlər üçün bu mənada xüsusi əhəmiyyətə malik məşhur Cayqou (Gigo prinsiple) prinsipi mövcuddur. Bu prinsipə görə "gərəkli informasiya keyfiyyətsiz verilənlərdən alına bilməz". Adətən praktikada verilənlərin gercəklikliyi və ya etibarlılığı verilənlərdəki xətalar və ya kənarlaşmalarla müəyyənləşdirilir. Bunlara isə aşağıdakı faktorlar təsir edir:

-verilənlərin ölçülməsi dəqiqliyi;

-ölçmə və ya hesablama metodikası;

-informasiya prosesinin müxtəlif mərhələlərində maraqlı olan şəxslər tərəfindən verilənlərə daxil edilməklə alınan təhriflər.

Aydındır ki, kiminsə maraqlarına görə təhrif edilmiş verilənlər etibarlı sayıla bilməz və bu verilənlərdən alınan informasiya ilə işləmə də mənasızdır.

Yuxarıda verilənlərin göstərilən bütün xüsusiyyətlərini nəzərə alaraq artıq demək olar ki, prosesi və ya obyekti tam əhatə edən, həlli tələb olunan məsələnin qoyuluşuna uyğun olan, dəqiq, gerçək və etibarlı verilənlər həmin obyekt və proseslərin öyrənilməsi və həll üçün yaralı verilənlərdir.Məhz iqtisadi baxımdan bu cür verilənlər əsasında əldə olunmuş informasiya iqtisadi inkişafın təmin olunması və düzgün qərarların verilməsini təmin edə bilər.

İnformasiya ehtiyatlarının digər bir tərkib hisssəsi və ya növü olan informasiyanın xüsusiyyətlərinin və istifadə mexanizmlərini nəzərdən keçirək.

İnformasiyanın xüsusiyyətləri. Göründüyü kimi verilənlərə daha çıx sintaksis aspektdən baxılır. İnformasiyaya isə verilənlərdən fərqli olaraq daha çox semantik aspektdən, yəni məzmun cəhətdən baxılması məqsədəuyğun hesab edilir. İnformasiyanın əsasən aşağıdakı iki xüsusiyyətə malik olması zəruridir: aktuallıq və vaxta uyğun olması.

İnformasiyanin aktualliği qərar qəbul etmə üçün onun yararliliğinin saxlanma dərəcəsi ilə müəyyənləşdirilir. İnformasiyanın aktuallığı informasiya alınması üçün istifadə olunan verilənlərin hansı müddətə tələb olunan xüsusiyyətləri və mahiyyətini saxlamasından asılıdır. Əgər verilənlər köhnəlirsə və uyğun prosesi təqdim etmək qabliyyətini itirirsə. Onda həmin verilənlərin aktuallaşdırılması və ya yenilənməsi tələb olunur.

İnformasiyanın vaxta uyğunluğu xassəsi onun lazımi vaxtda daxil olmasını şərtləndirir. İnformasiya tələbata uyğun vaxtdan əvvəl daxil olarsa. O qərar qəbul etməyə qədər öz aktuallığını itirir.

Əgər informasiya qərar qəbul etmədən sonra daxil olarsa o heç bir əhəmiyyət kəsb etmir.

Biliklərin xüsusiyyətləri. Məlum olduğu kimi, biliklər emal olunmuş informasiyadan alınır. Bu səbəbdən də həm verilənlərin, həm də informasiyanın malik olduğu müsbət cəhətlər biliklərdə cəmlənir. Biliklər aşağıdakı şəkillərdə mövcud ola bilərlər.

Konkret sahəyə aid olan konkret bilik kimi. Bu şəkildə biliklər ayrıca sahə üzrə mövcud olan informasiyadan alınmaqla konkret şəkildə qoyulmuş məsələnin həllində qərarların qəbul edilməsi üçün istifadə olunur;

-Umumiləşdirici və ya konseptual bilik kimi. Bu şəkildə olan biliklər bir çox sahələr üzrə olan informasiyalardan alınır və adətən əlaqəli sahələrə və idarəetməyə aid məsələlərin həllində istifadə olunur.

-Metabiliklər kimi. metabiliklər-biliklər haqqında biliklərdir. Onlar yeni biliklər. sonda isə elm yaradır.

Metabiliklərə misal göstərək: kimyada- Mendeleyev cədvəli yeni kimyəvi elementlərin mövcudluğundan xəbər verdi; genetikada- Vavilovun homoloji sıralar nəzəriyyəsi konkret regionda verilmiş xassələrə malik bitkilərin olduğunu göstərdi; fizikada- Semyonovun zəncirvari reaksiyaları nəzəriyyəsi kimyəvi və nüvə reaksiyalarını izah etdi və göstərdi ki bu reaksiyalar nəticəsində enerji və yeni məhsullar yaranaraq zəncirvari reaksiyanı davam etdirir.

Əslində metabiliklər elmin fəlsəfəsi olub. elmi nəzəriyyələrin gəldikləri son nəticələrdən ibarətdirlər.

Müasir dövrdə, yeni texnologiyaların və üsulların tətbiqi biliklərin vacibliyini önə çəkir. İnkişaf etmiş dünya ölkələrində "qeyri material istehsalı" sahəsi olan yeni sahə yaradılır və inkişaf etdirilir. Bu sahənin əsas vəzifəsi biliklərin istehsalı, emalı, saxlanması və təqdim edilməsini həyata keçirir. İnformasiya cəmiyyətində biliklər qərarlar, qaydalar. Standartlar, normativlər, kodekslər şəklində fəaliyyət göstərir. Hazırda müəssisədə istehsalın təşkili və idarəetmənin günün tələbləri səviyyəsində həyata

keçirilməsi rəhbər vəzifədə olanların. Mütəxəssislərin biliklərdən istifadə bacarığından sıx asılıdır. Adətən bu proseslərdə istifadə olunan biliklər müəyyən qaydalara və qanunauyğunluqlara tabedirlər. lakin nəzərdən qaçırmaq olmaz ki. bütün cəmiyyətlərdə olduğu kimi, informasiya cəmiyyətində də eyni əqidəyə, baxışlara. Dinə məxsus müxtəlif qrupların tabe olduqları yazılmamış qanun və qaydalar da mövcuddur. Məhz buna görə də biliklərə yalnız istifadə aləti. inkişafın əsas faktoru kimi deyil, həm də qanun yaradıcısı. Inandırma vasitəsi, yeni bilik və qaydaların törədicisi kimi baxmaq lazımdır.

İnformasiya, verilənlər və biliklər hər bir prosesdə bir-biri ilə sıx əlaqədar olduqlarından və spiralvari inkişaf modelində onlardan birinin digərini törətməsini nəzərə alaraq hazırda verilənlər, informasiya və biliklərdən istifadə də informasiya sistemlərindən, inun xüsusi növləri olan intellektual sistemlərdən istifadə olunur. Müasir dövrdə ən geniş istifadə olunan intellektual sistemlər ekspert sistemləridir. Bu sistemlər sorğu, axtarış, qərarların qəbul edilməsi, əlaqələrin qurulması, perspektiv planların hazırlanması, proqnozların verilməsi və s. sahələrdə geniş tətbiq olunur. Qeyd olunan informasiya sistemlərinin əsasında isə xüsusi qayda və tələbatlara uyğun yaradılmış verilənlər bazaları durur.Verilənlər bazaları həm verilənlərin, həm onlardan istifadə edilərək hazırlanmış informasiyaların, həm də biliklərin saxlanması, emalı və təqdimatı üçün istifadə olunur.

İnformasiyanın saxlanmasında başlıca vasitə olan fayylarla əlaqədar bir çox çatışmamazlıqların olması verilənlər bazasının yaranmasına səbəb olmuşdur. Başqa sözlə veriənlər bazası fayl sistemlərinin inkişafı nəticəsində yaranmışdır və verilənl-ərin strukturunun ən yüksək səviyyəsi hesab olunur. Verilənlər bazası konsepsiyası tam şəildə XX əsrin 60-cı ıllərin sonunda formalaşdırılmışdır. Verilənlər bazası bir yerdə saxlanan, mərkəzləşdirilmiş idarə olunan, bir-biri ilə qarşılıqlı əlaqəli və müxtəlif istifadəçilər tərəfindən müxtəlif məqsədlərlə istifadə edilən fayylar toplusudur. Verilənlər bazası elə təşkil olunur ki, orada

a) verilənlərin izafiliyi minimum olur;

b) verilənlər, onları emal edən proqramlardan asılı olmur;

c) verilənləri axtarıb tapmaq, onları dəyişdirmək və yeniləşdirmək üçün ümumi idarəetmə üsullarmdan və vasitələrindən istifadə olunur;

d) verilənlər bazasının tətbiq sahəsini genişləndirmək mümkün olur.

İstifadəçilər verilənlər bazası ilə işləyərkən verilənlər bazası üzərində aşağıdakı əməliyyatları yerinə yetirirlər: verilənlərin seçilməsi, əlavə edilməsi, dəyişdirilməsi və kənarlaşdırılması. Verilənlər bazasınınn layihələndirilməsi tətbiq sahəsinin strukturlaşdırılması ilə başlanır. Əvvəlcə obyektlər təsnif olunur və verilənlər bazasında əks olunan obyektlərin tipləri təyin olunur. Sonra isə hər bir tip üçün tipə məxsus obyektləri təsvir edən xassələr və həmin obyektlər arasında əlaqələr müəyyənləşdirilir. Nəhayət, həmin obyektlər haqqında verilənlər bazasında hansı informasiyanın saxlanması və bu informasiyanın verilənlər vasitəsilə necə təsvir olunması məsələsinə baxılır. Göstərilən məsələlərin həlli verilənlər bazasının struktur layihələnndirilməsinin əsas mahiyyətini təşkil edir. Struktur layihələndirməyə başqa sözlə konseptual layihələndirmə də deyilır. Beləliklə, struktur layihələndirmədə əsas məqsəd verilənlər bazasına daxil edilən verilənləri müəyyənləşdirmək və onları verilənlər bazasını idarəetmə sistemlə-rindən asılı olmayan formada təsvir etməkdən ibarətdir. Bu mərhələnin yerinə yetirilməsi nəticəsində verilənlər bazasının struktur və ya konseptual sxemi yaradılır ki, həmin sxemə də informasiya-məntiq sxemi deyilir.

Struktur layihələndirmə praktikasında həm «obyek təsviri», həm də «mahiyyətlərin modelləşdirilməsi» üsullarından istifadə olunur. Bu üsullar ayrılıqda və ya birlikdə istifadə edilə bilər. Əslində bu üsullar arasında elə də prinsipial fərq yoxdur. Əsas fərq layihələndirməyə olan yanaşmada və istifadə terminologiyasındadır. Obyektlərin təsviri üsulu tətbiq sahəsinin obyektlərini təyin edən anlayışların (konsepsiyaların)

inteqrasiyasına və ümumiləşdirilməsinə əsaslanır. Əvvəlcə obyektlər müəyyənləşdirilir, sonra aqreqatlaşdırma və ümumiləşdirmə abstraksiyaları vasitəsilə növlərə ayırıb, aqreqatlar və siniflər yaratmaqla obyektlərin ierarxik sxemi tərtib edilir.

"Mahiyyət-əlaqə" modelində informasiyanı təsvir etmək üçün "mahiyyət", "at-ribut" və "əlaqə" konstruktiv elementlərindən istifadə edilir. Haqqinda informasiya toplanan obyektlər mahiyyətlərlə ifadə olunur, sonra onların xassələri, yəni atributları təyin edilir və nəhayət mahiyyətlər arasında əlaqələr yaradılır.

Hər bir mahiyyət üçün onu təyin edən açar seçilməlidir. Açar bir və ya bir neçə atributdan ibarət ola bilər.Əgər mahiyyəti xarakterizə edən atributlar içərisindən açar seçmək mümkün deyilsə onda açar rolunu oynaya bilən və mahiyyətə aid yeni atribut daxil edilir. Mahiyyəti təyin edən bir neçə açar olarsa onlardan biri əsas kimi istifa-dəçi tərəfindən seçilərək müəyyən edilir.

Açar kimi istifadə olunan atribut və ya atributların zənciri seçildikdən sonra mahiyyətin xassələrini təsvir edən digər atributlar müəyyənləşdirilir. Açar kimi seçilən atribut mahiyyəti tam təyin etdiyindən, təsviredici atributlarla açar arasında funksional asılılıq olmalıdır. Təsviredici atributların tərkibi ola bilməz, yəni onlar birqiymətli olmalıdır.

Əlaqələrin müəyyənləşdirilməsi addımında lokal təsvirdəki mahiyyətlər arasında əlaqələr müəyyənləşdirilir. Müəyyənləşdirilən əlaqələrin xarakteristikaları təyin edilir və hər əlaqəyə ad verilir.

16.4 İNFORMASIYA MƏHSULLARI VƏ XIDMƏTLƏRI, ONLARIN TƏSNIFATI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ QAYDALARI

Müasir dövrdə digər ənənəvi məhsullarla yanaşı informasiya da iqtisadi fəaliyyətin sərbəst obyektinə çevrilmişdir. Bu hər şeydən əvvəl informasiya texnologiyalarının yüksək inkişaf sürəti və həyatın müxtəlif sahələrinə dərindən daxil olunması ilə əlaqədardır. İnformasiya texnologiyalarının inkişafı yeni texniki vasitələrin,

kompüterlərin, kompüter texnologiyası və telekommunikasiya vasitələrinin, proqramların yaranması və get-gedə daha geniş məkanda yayılmasına səbəb olmuşdur. Lakin bu vasitə və texnologiyalar dünyanın bütün ölkələrində hazırlanmır və istehsal edilmir. Eyni zamanda istehsalçı ölkələr daxilində də informasiya texnologiyalarının vasitə və proqramları müxtəlif şirkətlər tərəfindən istehsal edilir. Bunun nəticəsində də informasiya-kommunikasiya texnologiya və vasitələrinin, proqram təminatı məhsullarının istər-istəməz alınıb satılması tələbatı meydana çıxır. Beləliklə də informasiya məhsulları, onların növ müxtəlifliyi ortaya çıxır. Bu baxımdan müasir dövrdə mövcud olan informasiya məhsul və xidmətləri, onların təsnifatının öyrənilməsi və xarakterik xüsusiyyətlərinin araşdırılması qabliyyətinə malik olma tələb olunur.

İnformasiya məhsulları informasiya sistemlərinin fəaliyyətinin nəticəsi olub, yayılma və realizasiya üçün təyin olunmuş sənədlər, informasiya massivləri, verilənlər bazası və informasiya xidmətləridir.

İnformasiya texnologiyası onun üçün əsas mühit olan informasiya sistemləri ilə sıx bağlıdır. İnformasiya texnologiyası verilənlər üzərində əməllərin, əməliyyatların, mərhələlərin aparılması üçün dəqiq reqlamentlənmiş qaydalardan ibarət olan prosesdir. İnformasiya texnologiyasınm əsas məqsədi ilkin informasiyanın məqsədyönlü emah nəticəsində istifadəçi üçün lazımi informasiyanı almaqdır.

İnformasiya sistemi kompüterlərdən, kompüter şəbəkələrindən, proqram məhsullarından, verilənlər bazalarından, insanlardan, müxtəlif növ rabitə vasitələrindən və s. ibarət olan muhitdir. İnformasiya sistemi, informasiya emalı sistemidir və burada əsas məqsəd informasiyanın saxlanması, sorğulara görə axtarışı və seçilən informasiyanı lazımi formaya salıb, istifadəçiyə çatdırılmasıdır.

Aydındır ki, informasiya məhsullarının mövcudluğu informasiya bazarını yaradır. İnformasiya bazarı- informasiya

məhsullarının və xidmətlərinin, informasiya texnologiyalarının satışı üzrə iqtisadi, hüquqi və təşkilatı münasibətlərin sistemidir.

İnformasiya bazarı nöqteyi nəzərindən informasiya məhsullarının iki sinfə ayırmaq olar: informasiya məhsulları və informasiya xidmətləri.

İnformasiya məhsulu istifadəçinin tələbinə uyğun hazırlanmış, və mal formasinda təqdim edilmiş, sənədləşdirilmiş informasiyadır. İnformasiya məhsullarına proqram məhsulları, verilənlər bazası və bankları və digər informasiyalar aiddir.

İnformasiya xidmətləri informasiya məhsullarını təqdim etməklə istifadəçinin informasiya tələbini ödəməyə yönəldilmiş xidmətlərdir. Başqa sözlə informasiya xidmətləri istifadəçilərin informasiya məhsulları ilə təmin olunması üçün subtektlərin (mülkiyyətçilərin və sahibkarların) hərəkət və fəaliyyətləridir.

Qeyd etmək lazımdır ki. informasiya bazarında olan məhsullara görə ödəmələrə və tarixi səbəblərə görə hal-hazırda informasiya bazarı iki böyük sərbəst fəaliyyət göstərən bazara bölünmüşdür. Bunlar informasiya texnologiyaları bazarı və kütləvi informasiya vasitələri bazarıdır. Bu bazarların hər birində məhsulun realizasiyası və əldə olunmuş məhsula görə ödəmələr də müxtəlif cür aparılır. Əgər informasiya texnologiyaları bazarında klient alınmış məhsula görə şəxsən ödəmə aparırsa, kütləvi informasiya vasitələri bazarında məhsulu istifadəçi ya havayı əldə edir, ya da ödəməni qismən aparır və əsas gəliri üçüncü tərəf olan reklamçılar əldə edirlər. Bu mənada da informasiya məhsullarını fərqləndirmək tələb olunur.

Qeyd etmək lazımdır ki, son illərdə informasiya texnologiyalarının sürətli inkişafı və əhatə dairəsinin durmadan genişlənməsi göstərilən bazarların bir-birinə yaxınlaşması və hətta bəzən eyniləşməsinə də səbəb olur. Bu səbəbdən də daha universal olan informasiya texnologiyaları bazarında fəaliyyət göstərən informasiya məhsulları və onlara aid xarakterik xüsusiyyətlərin nəzərdən keçirilməsi daha düzgündür. Bundan əlavə bir faktı da qeyd etmək lazımdır ki, müasir şəraitdə informasiya texnologiyaları

bazarı iqtisadiyyatın digər sahələrinə görə infrastrukturludur və qeyd olunduğu kimi bütün iqtisadi sahələri əhatə edir. İnformasiya texnologiyaları bütün iqtisadi sahələrə siyarət etdiyi kim, həmin sahələrin birbaşa iştirakı ilə yeni informasiya sənayesinin, yəni informasiya məhsulları və xidmətləri bazasında yeni iqtisadi sahənin yaranmasına səbəb olmuşdur. İnformasiya sənayesi özündə hesablama texnikasının, kommunikasiya vasitələrinin, proqramlarınistehsalını özündə birləşdirir. İnformasiya bazarının inkişafı və informasiyanın bu inkişafda başda durması informasiya iqtisadiyyatının təşəkkül tapmasına səbəb olmuşdur. Bu iqtisadiyyatın ümumi məhsulu informasiya və biliklərin istehsalı, emalı, saxlanması və yayılması ilə əlaqədar olan məhsullarla təmin olunur.

İnformasiya məhsullarının miqdarı. Ona olan tələbat, informasiya xidmətlərinin göstərilməsi və bu xidmətlərin səviyyəsi informasiya bazarının tələbatından, istehsal gücü və istehlakçının müasirlik səviyyəsindən birbaşa asılıdır. İnformasiya məhsullarının keyfiyyəti istehsalçılar arasındakı rəqabətdən, bazarda eyni tip məhsulun növ müxtəlifliyindən. miqdarından, qiymətlərdən, ölkə əhalisinin rifah halından ciddi asılıdır.

İnformasiya məhsullarına proqram təminatı və informasiya sistemlərindən başqa kitabları, digər nəşrləri. elmi işləri. analitik hesabatları və s. aid etmək olar. Müəyyən mənada hər bir informasiya məhsulu intellektual mülkiyyətdir və onların dəyərində istehsal tərkibləri və bazar dəyəri minimumdur.

Müasir informasiya texnologiyaları informasiya məhsullarının ilkin elektron variantlarının mövcudluğunu təmin edir. Bu isə həmin məhsulların böyük tirajla çoxaldılması və yayılmasını mümükün edir. Digər tərəfdən elektron variantların mövcudluğu məhsulun satışı zamanı ancaq konkret nüsxəyə görə ödəməni aradan qaldırır. Belə ki. alıcı informasiya məhsulunun bir nüsxəsini almaqla demək olar ki. həmin məhsulun sonsuz sayda surətlərinə sahib olma ixtiyarını əldə etmiş olur.

İnformasiya məhsulları içərisində proqram vasitələri məhz qeyd olunan xüsusiyyətə daha çox malik olan məhsullardır. Lakin proqram mıhsullarının satışı və realizasiyasında lisenziyalardan istifadə edilir. Lisenziya – elə müqavilədir ki, o hüquqi olaraq lisenziya alan istifadəçiyə lisenziya verilən məhsuldan istifadə imkanı verir. Lisenziya onu alan şəxsə istifadə ilə bərabər məhsulu lisenziya və ya digər müqavilələrlə istifadəyə vermə hüququnu da verə bilər. Adətən informasiya məhsullarına verilən lisenziya həmin məhsulun istifadəsinə başlamaq üçün onu açan və ya istifadə etməyə başlayan andan mövcudluğa başlayır. Lisenziyalar proqram məhsullarına istifadə olunan surətlərin sayına, istifadəçilərin sayına, yayılma şərtlərinə, ödəmə üsuluna görə məhdudiyyətlər qoya bilər.

Verilən lisenziyalara görə informasiya məhsulları kommersiya (lisenziyalara görə ödəniş tələb edən) və qeyri-kommersiya (lisenziyalara görə ödəniş tələb etməyən) məhsullarına bölünürlər.

Kommersiya məhsulları sonrakı istifadənin məhdudlaşdırılmasına görə məxsusi və azad informasiya məhsullarına bölünürlər.

Hal-hazırda informasiya məhsullarının çatdırılmasına görə ən geniş yayılmış forması As İs (“Necə var”) prinsipi ilə həyata keçirilir. Bu prinsipin əsas məğzi ondan ibarətdir ki, alıcı məhsulu alınma anına qədər necə var eləcə də alır və bu məhsulun tətbiqində ortaya çıxacaq riskləri öz boynuna götürür. Başqa sözlə gələcəkdə əmələ gələcək problemlərin əksər hissəsinə cavabdehliyi istifadəçi könüllü olaraq öz üzərinə götürür. Lakin qeyd edək ki, müasir dövrdə proqram və informasiya məhsulları bazarında eyni məsələnin həlli üçün müxtəlif şirkətlərin və istehsalçıların məhsullarının mövcudluğu istehsalçılara öz məhsullarına daha diqqətlə yanaşmağa və gələcəkdə ortaya çıxa bilən problemlərin minimuma, daha çox hallarda sıfra endirilməsinə çalışırlar. Əks halda müasir informasiya bazarında rəqabətə davam gətirmək mümkün deyil.

Satış nöqteyi nəzərindən əsas informasiya məhsulları olan proqram məhsulları kommersiya, şərti-havayı (shareware), pulsuz,

azad yayımlı (freeware) məhsullarına bölünürlər. Əslində bu bölgü baza bölgüsüdür. Real biznes şəraitində bu bölgünü başqa modifikasiyaları və kombinasiyaları da mövcud ola bilər.

Kommersiya proqramları bu günkü dövrdə ən geniş yayılmış növdür. Alıcı kommersiya proqramına görə satıcıya ödəniş edir və lisenziyada olan müqaviləyə əsasən məhsuldan istifadə edir. Satıcı isə müəyyən müddətə məhsula görə məsləhət və ya informasiya-texniki təminat etmə məsuliyyətini üzərinə götürür. Eyni zamanda müəyyən müddət ərzində satıcı alıcıya ya havayış ya da güzəştlərlə ödəmə ilə məhsulun yeni versiyalarının və yeni komponenetlərinin də çatdırılmasını öz üzərinə götürə bilər. Belə proqram məhsulların hazırda geniş istifadə edilən antivirus proqramlarını aid etmək olar.

Şərti-havayı proqramların əsas prinsipi "almazda əvvəl sınaqdan keçir" prinsipidir. Bu cür proqramlar istifadəçiyə lisenziyaya görə pul ödəmədən verilir (belə proqramları İnternet və ya fiziki daşıyıcılardan (CD, fleş və s.) əldə etmək olar. Müəyyən dövr ərzində istifadədən sonra bu proqramlara görə istehsalçıya ya pul ödənməli, ya da istifadə dayandırılmalıdır. Adətən istifadəyə məhdudiyyət istifadə müddətinə, məhsula müraciətlərin sayına, proqram məhsulunun funksional fəaliyyətinə. Komponentlərdən istifadəyə qoyula bilər. Adətən məhdudiyyətlər haqqında məlumatlar məhsuldan istifadənin müəyyən müddətində xəbərdarlıq şəklində verilir.

Bəzən pulsuz proqram məhsulları da istifadəçiyə təklif oluna bilər. Lakin bu zaman bu proqramdan istifadəyə və ya onun yayılmasına məhdudiyyət qoyulur. Pulsuz proqram məhsullarının istehsalında və istifadəyə verilməsində məqsəd ya reklam məqsədidir (adətən. istehsalçı şirkətlərin imkanlarının reklam edilməsi), ya proqram məhsulundan istifadə, onun konkret şərait və məsələnin həlli üçün uyğunlaşdırılmasına görə ödəmələrə istifadəçinin cəlb edilməsidir, ya da məhsulun içərisində reklam məhsullarının yerləşdirilməsidir.

Azad yayımlı proqram məhsullarının Free Software, Open Software, Open Sourse modelləri mövcuddur. Bu proqram məhsulları daha dinamik inkişaf edir və müasir informasiya texnologiyalarının və intellektual mülkiyyətin inkişafının əsas tendensiyalarının müəyyənləşdirir. Azad yayımlı proqram məhsulları- azad yayımlanan proqram təminatıdır və bu proqramlarda istifadəçi dəyişikliklər edə bilər. Bu məhsulların istehsalçıları hansısa əlavə komponentlər və ya xidmətlərin istifadəçiyə verilməsini nəzərdə tutmur. Adətən bu cür məhsullarla birlikdə məhsula aid olan kodlar da istifadəçiyə verilir. Bu cür məhsullar üçün lisenziyaların kopileft (copyleft ingilis sözüdür– bəzən sol köçürmə kimi tərcümə edilir) prinsipinə əsaslanan xüsusi növü hazırlanmışdır. Kopileft sözü kopirayt (copyright ingiliscə-sürətini alma hüququ) sözünün cinasıdır (kalamburudur). Müəlliflik hüququna ənənəvi yanaşmaya əks olaraq, hansı ki, məhsulun surətinin çıxarılmasına məhdudiyyət qoyulur, kopileft müəlliflik hüququnun istənilən şəxs üçün məhdudlaşdırılmaması üşün istifadə edilir. Hüquqi mənada kopileftin prinsipi kopiraytın prinsipləri ilə eynidir, yəni bütün müəlliflik hüquqların ariayət edilir. Bu konsepsiyanın müəllifi amerika filosof və proqramisti Riçard Stollmendir. O, 1988-ci ildə yaradılmış Open Software Foundation GNU General Public License GNU (Universal ümumigirişli lisenziyalı GNU və ya Aşıq lisenziya müqaviləsi GNU)-nin müəllifidir. Bu lisenziyanı qısaca olaraq GNU GPL və ya sadəcə olaraq GPL da adlandırırlar. Bu lisenziyanın modifikasiya olunmuş sonuncu, ikinci versiyası 1991-ci ildə buraxılaraq Lesser General Public License (LGPL) (kiçik və ya kiçildilmiş GPL) adlandırılmışdır. GNU GPL-in məqsədi istifadəçiyə proqramların surətini çıxarmaq, modifikasiya etmək və yaymaq, habelə bu proqram vasitəsinin törəmələri olan proqramların istifadəçilərinin də bu hüquqlara malik olmasına imkan verməkdir. GPL kompüter proqramlarını əldə edənlərə aşağıdakı hüquq və "azadlıqları" verir:

- istənilən məqsəd üçün proqramdan istifadə etmək azadlığı;

- proqramın modifikasiya edilməsinin vəonun necə işləməsini öyrənmək azadlığı (bunun üçün ilkin kodun əldə olunması tələb olunur);
- surətlərin yayılması azadlığı;
- proqramın daha da təkmilləşdirilməsi və yeni alınmış versiyanın ümumi istifadəyə verilməsi azadlığı (bunun üçün də ilkin kodun əldə olunması tələb olunur);

Bu cür lisenziyalardan istifadə təkcə proqram məhsullarına deyil, eləcə də informasiya məhsullarının digər növlərinə də tətbiq edilə bilər. Məsələn, GNU Free Documentation License (GNU azad sənədləşmə lisensiyası) lisenziyalarında məqalə və elmi işlərin nəşrində istifadə edilir. GNU FDL-dən istifadəçilər üçün rəhbərlik, dərsliklər və kompüter proqramları ilə müşayət olunan digər sənədlər üçün istifadə olunur. Qeyd edək ki, GNU FDL-in müəyyən məhdudiyyətləri də vardır. Bu məhdudiyyətlərə belə lisenziyalı sənədlərin kağıza çap edilə bilməməsi və müəyyən mətn hissələrinin modifikasiya oluna bilməməsidir.

İnformasiya xidmətlərinin əsas növləri bunlardır:

- Texnoloji platforma bazasında reallaşdırılan xidmətlər. Bu xidmətlər geniş miqyası əhatə edə bilər və belə geniş miqyas dəyərin aşağı düşməsinə səbəb olur;
- İnsanlara göstərilən xidmətlər. bu halda xidmətin miqyası xətti olur.

Birinci xidmət növünə müxtəlif İnternet-servisləri aid etmək olar. Məsələn poçt xidməti olan e-mail, eləcə də servis kimi təqdim olunan proqram təminatları. İkinciyə misal olaraq sifarişlə hazırlanan informasiya məhsullarını və müxtəlif xəbərlər xidmətlərini aid etmək olar.

Texnoloji platforma bazasında göstərilən xidmətlər üçün adətən mediya modeli deyilən və kütləvi informasiya vasitələrində istifadə olunan prinsipdən istifadə edilir. İnsanlar üçün göstərilən xidmətlərə müasir dövrdə daha çox istifadə olunan utiliti-modelini aid etmək olar. Bu modelə görə adətən ayrı-ayrı şəxslərə kommunal xidmətlərə:qaz, su, işıq vəs. görə sayğacların göstəricilərinə uyğun

ödənişlər elektron xidmətlərin köməyi ilə həyata keçirilir. Birbaşa insanların əməyi ilə əlaqədar olan xidmətlərə görə elektron ödəmələrdə işin həcmi, onun vahidinin dəyəri nəzərə alınaraq hesablama aparılır və müəyyən olunmuş ünvan və şəxsə ödəmələr edilir.

Qeyd etmək lazımdır ki, informasiya xidmətlərinin də miqyası və istifadə əhatəsi artdıqca xidmətlərin növləri. onlara görə ödəmə prinsipləri və istifadə olunan yeni modellər və ya mövcud modellərin yeni modifikasiyaları meydana gəlir.

Bütün məhsullar və xidmətlər kimi informasiya məhsulları və xidmətləri də alqı satqı prosesində müəyyən qayda ilə qiymətləndirilməlidir.

İnformasiya məhsulları çox vacib, lakin unikal olmayan xüsusiyyətə malikdir. Belə ki, informasiya məhsullarının illkin nüsxələrinin qiyməti sonrakı nüsxələrə görə çox yüksəkdir. Bu xüsusiyyət yalnız informasiya məhsullarına deyil yolların tikintisi, telekommunikasiya şəbəkələrinin qurulması, ümumiyyətlə texniki infrastrukturun qurulmasında və faydalı qazıntıların axtarılması prosesində də özünü göstərir.

İqtisadi baxımdan məhsul nə qədər çox istehsal edilərsə, onun orta qiyməti də bir o qədər aşağı olacaq. Lakin burada istehsal qiymətlərinin strukturunun xüsusiyyətləri əhəmiyyətli rol oynayır.

Müasir dövrdə informasiyanı istehsal etmək baha başa gəlsə də. onun təkrar istehsalı ucuz başa gəlir. Bəzən isə informasiya məhsulunun (kitab, kino, musiqi və s.) ilkin nüsxəsi yaradıldıqdan sonra istehsal olunan surətlərin qiyməti heçə enir. İnformasiya məhsullarının istehsalında qeyd olunmuş xərclər böyükdür, marjinal (dəyişən) xərclər isə çox kiçikdir. Qiymətlərin belə strukturu miqyas iqtisadiyyatına gətirib çıxarır, yəni qeyd edildiyi kim nə qədər çox istehsal olsa məhsulun orta qiyməti o qədər aşağı olacaq. Bu zaman informasiyanın qeyd olunmuş və dəyişən xərcləri xüsusi struktura malik olurlar:

1.Qeyd olunmuş xərclərin başlıca tərkib elementi qaytarılmayan xərclərdir. Yəni bu xərclər əgər istehsal müvəffəqiyyətlə başa çatmasa qaytarılmayacaq.

2. İrəliləmə və marketinqə xərclər çox yüksəkdir. İnformasiya iqtisadiyyatında başlıca defisit müştərilərin diqqətidir.

Dəyişən xərclər də özlərinə xas olan struktura malikdirlər. Burada məhsulun əlavə surətlərinin istehsalı, hətta surətlərin çox sayda artırılmasında beə adətən yüksəlmir. Məhz bu xarakterik xüsusiyyət və aparılan əməliyyatların iri həcmi Mikrosoft şirkətinə ümumi gəlirin 92% artımına səbəb olmuşdur.

Dəyişən xərclərin aşağı səviyyəsi çox böyük marketinq imkanları verir: bazara yeni məhsulun çıxarılması istehsalçıdan öz müştərilərinə sınaq nüsxələrinin göndərilməsini tələb edir. İnformasiya məhsullarının demo versiyaları şəbəkə vasitəsilə praktiki olaraq havayı göndərilir. Yadda saxlamaq lazımdır ki, yüksək qeyd olunmuş xərclərlə, aşağı səviyyəli dəyişən xərclərin vəhdəti informasiya sahəsinin cazubədarlığı deyil.

Beləliklə informasiya məhsulları istehsalı ilə əlaqədar olan əsas xüsusiyyətlər kimi aşağıdakıları aydınlaşdırdıq:

-informasiyanı istehsal etmək baha, təkrar istehsal etmək isə ucuz başa gəlir;

-əgər informasiya məhsulunun birinci nüsxəsi istehsal edilibsə, onda qeyd olunmuş xərclərin əsas hissəsi qaytarılan deyil;

-məhsulun çoxsaylı surətləri daimi yeni xərclər hesabına istehsal olunur;

-məhsulun əlavə surətlərinin sayı praktiki olaraq qeyri-məhduddur.

İnformasiya məhsullarının bu xüsusiyyətləri onların rəqabətədavamlı qiymət strategiyasının yaradılmasında həlledici əhəmiyyətə malikdir.

Hazırki dövrdə qeyd etmək lazımdır ki, informasiya məhsulları bazarı mükəmməl rəqabətin olduğu bazar deyil. Yəni bu bazarda qiymətə təsir imkanına malik olmadan oxşar məhsullar təklif edən çoxlu sayda istehsalçılar mövcud deyil. İnformasiya

bazarı və informasiya məhsullarının qiymətləndirilməsinin göstərilən xüsusiyyətlərinin daha yaxşı başa düşülməsi üçün Cd-lərdə telefon sorğu məlumatlarının yaradılmasını nəzərdən keçirək. CD-lərdə ilk telefon sorğu məlumatları toplusu 1986-cı ildə Nynex şirkəti tərəfindən Nyu-York şəhəri üçün yaradılmışdır. İlk yaradılan disk 10 min dollar qiymətində olaraq FTB-na satılmışdır. Sonra həmin disklər digər dövlət strukturlarına satılmışdır. Nynex şirkətində istehsalın rəhbəri olan Jeyms Bryant öz xüsusi Pro CD şirkətini yaratdı. O, qarşısına milli sorğu toplusunun yaradılmasını qoydu. Lakin bu anda başqa bir problem meydana çıxdı. Belə ki, ABŞ-da mövcud olan telefon kompaniyaları sorğu toplusunun təklif olunan elektron variantlarından istifadədən imtina etdilər. Səbəb isə kapital qoyuluşu 10 mlrdş dollar olan Yellow Pages sorqularının məhvinə gətirib çıxara bilərdi. Belə halda Pro CD Çin dövlətinə müraciət edərək, elektron şəkildə telefon sorğu kitablarının yaradılması üçün Pekin şəhərində zavod tikdilər. Onlar işçilərə gündəlik 3-5 dollar ödəməklə ABŞ-da olan bütün sorğu kitablarının elektron variantını yaratdılar. Sonra isə həmin elektron kitablar ikinci dəfə müqayisə edilərək son variant hazırlandı, və hazırlana variant 70 mln yazıdan ibarət verilənlər bazası oldu. Bu hazərlanan ilkin diskin yüz minlərlə nüsxəsi çıxarıldı. Hər bir diskin maya dəyəri bir dollardan aşağı oldu. Satışda isə bir diskin qiyməti bir neçə yüz dollar qoyuldu. Beləliklə. Pro CD şirkəti 1990-cı illərin əvvəlində çox böyük həcmdə gəlir götürsü.

Həmin dövrdə digər şirkətlər də CD-lər şəklində telefon sorğu kitablarının buraxılmasına başladı. Bunula da Cd-lərin qiyməti əvvəlcə 20 dollara, daha sonra isə lap aşağı düşdü. Sonda belə sorğu kitabları İnternetdə yerləşdirildi və sorğu kitabları havayı oldu.

Göstərilən misaldan aydın oldu ki, rəqabət qiymətlərin sürətlə aşağı düşməsinə və hətta heçə enməsinə gətirib çıxardı. Bu tendensiyanı ənənəvi məhsul bazrında da müşahidə etmək olar. Lakin informasiya məhsulları bazrında bu proses çox sürətlə və qısa müddətə baş verir. Deməli aydın olur ki, informasiya məhsullarının

istehsalı və qiymətləndirilməsi arasında müəyyən əlaqəni əvvəlcədən hesablayıb müəyyənləşdirmək lazımdır. Qurulan proqramın hesabatlarında yol verilən sadə və ilkin baxışdan əhəmiyyətsiz səhvlər və ya xətalar sonda arzuolunmaz nəticələrə gətirə bilər.

İnformasiya məhsulları bazarında ya qiymət və xərclərə görə lider olmaq, ya da bazara unukal informasiya məhsulu çıxarmaq lazımdır. Məhsula qiymət qoyularkən həmin məhsulun istehlakçısının da tələbləri nəzərə alınmalıdır. Əgər məhsul istehsalçısı bazarda aprıcı rola malikdirsə və rəqabət onu çox narahat etmirsə belə məhsulun qiymətləndirilməsinə xüsusi diqqət ayrılmalıdır ki, satışdan əldə olunana gəlr maksimum olsun.

Müasir dövrdə informasiya məhsulları istehsalı ilə məşğul olan iri şirkət və müəssiələr qiymət tənzimlənməsinə nail olmaq məqsədilə eyni məhsul istehsal edən kiçik həcmli müəssisələri həm onları, həm də kiçik müəssisəni qane edən qiymətlərlə alır və ya istehsalın birgə təşkilinə nail olmağa çalışırlar. Əgər buna nail olunmursa, onda müəssisə məhsulun istehsalını vbə bununla da bazara çıxarılan məhsulun sayını artırır. Lakin prosesin bu cür gedişi məhsulun satış qiymətinin aşağı düşməsinə səbəb olur. Məhz buna görə də bazara çıxarılan məhsulun sayını o həddə qədər artırmaq lazımdır ki, satışdan əldə edilən gəlir, qiymət düşməsindən itirilən gəlirdən artıq olsun və eyni zamanda bazarda liderlik əldə saxlanıla bilsin. Ümumiyyətlə, informasiya məhsulları bazarında eyni məhsulun dəfələrlə satışının mümükün olduğu nəzərə alınarsa, qiymətləndirmənin xüsusi əhəmiyyətə malik olan problem olduğu məlum olar.

Yadda saxlamaq lazımdır ki, müəyyən dövrdə hər hansı informasiya məhsulunu bazara çıxaran şirkət yeganə olsa da oxşar məhsulu həmin bazara çıxaracaq şirkətin hansı bir andasa fəaliyyətini nəzərdən qaçırmaq olmaz. Belə hallarda adətən məhsulu ilkin təqdim edən şirkətlər məhsulun qiymətini müəyyən vaxta və ya ümumiyyətlə aşağı salmaqla həmin bazarı digər istehsalçı üçün maraqsız edir.

İri həcmli informasiya məhsulları istehsalçısı olan şirkətlər bazarda uzunmüddətli liderliyi saxlamaq məqsədilə hər bir yeni məhsulun ilkin satışa çıxarılması zamanı gələcək tələbatları və potensial müştəriləri əvvəlcədən özününküləşdirirlər və müəyyən intervallarla həmin sifarişçilərə və alıcılara müxtəlif xidmət və ya əlavə komponentlər təklif edirlər.

İnformasiya məhsullarının qoyulmuş qiymətlərinin qorunması və uzun müddətə qalması məqsədilə oxşar məhsulu bazara çıxarmağa çalışan şirkətlərlə mübarizənin digər bir üsulu məhsulla əlaqədar ikinci dərəcəli məhsulların istehsalı və aşağı qiymətə təklif edilməsi, məhsulun digərlərinin edə bilməyəcəyi təminat və keyfiyyət göstəricilərinə malik olmasına çalışmaqdır.

Ənənəvi iqtisadiyyatda olduğu kimi informasiya iqtisadiyyatında da məhsul sifarişçisi ilə xüsusi münasibətlərin qurulması xüsusi əhəmiyyətə malikdir. Lakin ənənvi iqtisadiyyatdan fərqli olaraq informasiya iqtisadiyyatında məhsul alan müştərilərlə əlaqələrin yaradılması, onların tələbatlarının öyrənilməsi daha asandır. İnformasiya məhsulunun qiymətinin qoyulması və uzun müddətə saxlanması məqsədilə hər bir informasiya məhsulu istehsalçısı olan şirkət əvvəlcə xüsusi qaydalarla müştərilərin münasibətlərini öyrənir. İnformasiya məhsulu istifadəçisi haqqında məlumatların alınmasının iki yolu vardır:

1) Qeydiyyata alma və billinq. Bunların köməyi ilə istifadəçi haqqında lazımi demoqrafik informasiya alınır.

Bir çox şirkətlər resurslara daxil olma üçün ödəniş tələb etmir, ancaq qeydiyyata düşməni tələb edir. Adətən qeydiyyata düşmədə üç parametr olur: soyadı, adı, atasının adı; zip kod; yaş və cins. Qeyd edək ki, bu proses heç də istənilən səviyyədə getmir. Belə ki, ABŞ-ının Vanderbilt universitetinin apardığı tədqiqatlar göstərmişdir ki, müasir veb istifadəçilərin 94%-i özləri haqqında informasiya vermək istəmirlər, 40%-i isə yalan informasiya verirlər.

2) İstifadəçinin davranışlarının müşahidə edilməsi.

İstifadəçilərin on-line rejimində davranışlarının öyrənilməsi biznes üçün yaralı olan məlumatlar verir. Veb saytların əksəriyyəti öz məzmunları ilə sərbəst tanış olmağa imkan verir. Lakin bu zaman saytlar üçün istifadəçinin nə axtardıqları, hansı sorğulara müraciət etdikləri maraqlı deyil. Lakin bu prinsipin üstün cəhəti ondan ibarətdir ki, istifadəçi üçün ekranda alınan informasiya maraqlı olduqca, o həmin məlumata baxmaqla daha çox saytda qalır. İndi həmin prinsipi on-line mağaza üçün təsəvvür edək. Əgər malların kataloqlarında təkcə onların adı və qiyməti deyil, xırda detalları da verilərsə, avtomatik olaraq hər bir malda istifadəçinin daha çox fikir verdiyi komponentlər məlum olar. Bu məlumatlar yekunda istifadəçinin, yəni müştərinin hansı aspektlərə maraqlı olduğu müəyyənləşdirilir. Həmin məlumatların ardıcıl emalı son nəticədə müştərinin tələbatının öyrənilməsi və gələcək məhsulun qiymət və tələbatının müəyyənləşdirilməsində xüsusi rol oynayır.

Müasir dövrdə informasiya məhsullarının realizasiyasında satıcı müəssisələrin müştəriyönümlülüyünün mühüm əhəmiyyəti vardır. Müştəriyönümlülüyün təmini isə iri həcmli tədqiqat kompaniyalarının verdiyi informasiyalardan istifadədən asılıdır. Belə kompaniyalara Gartner Group, Forrester Research, McKinzey, CİO və digərlərini göstərə bilərik. Bu kompaniyaların istifadəçisi olan abunəçilər ildə onlara 50-100 min dollar pul ödəyirlər. Lakin qeyd edək ki, bu məbləğin əvəzinə informasiya məhsulları istehsalçıları dəyərli məlumatlar və onları maraqlandıran suallara dolğun cavablar alırlar.

Qeyd edək ki, informasiya məhsullarının qiymətləndirilməsinin müasir cəhətlərinin biri də istifadəçilərin qiymət baxımından qruplara bölünməsidir. Belə ki, informasiya məhsullarını əldə etmək istəyinə görə müştərilər fanatlara və adi istifadəçilərə bölünürlər. Məhz bu səbəbdən də uzunmüddətli müşahidələrin və qeyd olunmuş kompaniyaların verdikləri informasiyaların nəticələrinə istinadən istehsalçı şirkətlər bu qrupların tərkib sayını müəyyən edərək məhsulun iki cür qiymətləndirilməsini aparır. Birinci qrup olan fanatlar üçün


qiymətlər daha yüksək qoyulur. Lakin adi istifadəçilər üçün qiymət daha aşağı təyin olunur. Qeyd etmək lazımdır ki, bu prinsip "qiymət diskriminasiyasına" yol açsa da informsiya bazarının uzunmüddətli araşdırmaları onun effektivliyini sübut edir. Lakin əvvəldə göstərilən şərtlərin yəni tələbat və qrup tərkiblərinin hərtərəfli öyrənilməsindən sonra.

İnformasiya məhsullarının qiymətləndirilməsində xüsusi endirimlərin edilməsi də nəzərdə tutulur. Adətən belə qrupa aid olanlar tələbələr, aspirantlar və digərləridir. Həmin qrupa aid olanların hər bir ölkədə savadlı kütlənin hissolunacaq hissəsini tələb etdiyini və gələcək real müştərilər olduğunu nəzərə alsaq onda aparılan qiymət siyasətinin özünü doğrultduğuna inana bilərik.

16.5 İNFORMASİYA TEXNOLOGİYALARI VƏ ONLARIN GÖMRÜK STATİSTİKASINDA TƏTBİQİ


Texnologiya sözü yunanca «techne» (ustalıq, bacarıq) və «logos» (öyrənmə, idrak) sözlərinin birləşməsindən yaranmışdır və istehsal proseslərinin yerinə yetirilməsi üçün üsullar və vasitələr haqqında biliklər toplusunun və həmin proseslərin özlərini ifadə edir.

Material istehsalı texnologiyasında materialın ilkin vəziyyəti dəyişdirilməklə material məhsulu alınır (şəkil 16.5.1).



Şəkil 16.5.1. Material istehsalı texnologiyası

Neft, qaz, faydalı qazıntılar və s. tipli material resurslan ilə yanaşı informasiya da cəmiyyətin vacib resurslanndan biridir. Odur ki, informasiyanm emalı prosesini də material resurslarmm emalı prosesinə analoji olaraq informasiya texnologiyası adlandırırlar (şəkil 16.5.2).



Şəkil 16.5.2. İnformasiya texnologiyası

Şəkildən də görünüyü kimi, informasiya texnologiyası- verilənlərin toplanması, ötürülməsi və emalı üçün metod və vasitələrdən istifadə etməklə tədqiq olunan obyektin, prosesin, hadisənin vəziyyəti haqqında informasiya məhsulunun alınması prosesidir.

Material istehsalı texnologiyasında məqsəd insanın və ya sistemin tələblərinə cavab verən məhsulun istehsalıdır. İnformasiya texnologiyasında isə məqsəd insan tərəfindən təhlil edilmək və onun əsasında qərar qəbul etmək üçün informasiya istehsalıdır.

Məlumdur ki, eyni material resurslarına müxtəlif texnologiyaları tətbiq etməklə müxtəlif məmulat və məhsul almaq olar.Bu deyilən informasiyamn emalı texnologiyasına da aiddir.

Müqayisə üçün cədvəl 16.5.1-də bu iki texnologiyanın əsas komponentləri verilmişdir.

Cədvəl 16.5.1.

Material və informasiya texnologiyalannm əsas komponentləri

Sıra sayı	Material texnologiyası	Informasiya texnologiyası
1	Xammalın və materialların yığılması və ya	Verilənlərin və ya ilkin informsiyanın toplanması
2	Material məhsulun istehsalı	Verilənlərin emalı və nəticəvi infomasiyanın
3	Istehsal məhsullarının istehlakçıya çatdırılması	Nəticəvi informasiyanın istifadəçilərə çatdırılması

Cəmiyyətin informasiya resurslarından istifadə etməsi prosesinin vacib tərkib hissəsi informasiya texnologiyası hesab olunur. İnformasiya texnologiyası elmi-texniki tərəqqinin inkişafı, informasiya emalı üçün yeni texniki vasitələrin yaradılması ilə təyin olunan bir neçə təkamül mərhələsi keçmişdir. Müasir cəmiyyətdə informasiya emalı texnologiyasının əsas texniki vasitəsi texnoloji proseslərin işlənib hazırlanması və istifadə olunması konsepsiyasına, həmçinin nəticəvi informasiyanın keyfiyyətinə ciddi təsir etmiş fərdi kompüter hesab olunur. Fərdi kompüterin informasiya mühitində tətbiqi və telekommunikasiya vasitələrindən istifadə olunması informasiya texnologiyasının inkişafını yeni mərhələyə çatdırdı. Bununla da «informasiya texnologiyası» söz birləşməsinə «yeni» sözü əlavə olundu: yeni informasiya texnologiyası. Yeni informasiya texnologiyası inkişaf edərək müasir informasiya texnologiyasına çevrilmişdir. Yeni sözü bu texnologiyanın təkamüllüyünü yox, yeniliyini və müasirliyini göstərir. Onun tətbiqi o mənada yenilik hesab olunur ki, o, təşkilatların və müəssisələrin fəaliyyət növlərinin məzmununu əhəmiyyətli dərəcədə dəyişdirir. Yeni informasiya texnologiyası anlayışına həmçinin informasiyanın müxtəlif vasitələrlə

ötürülməsini təmin edən kommunikasiya texnologiyaları da daxil edilir. Cədvəl 2-də yeni informasiya texnologiyasımn əsas xüsusiyyətləri verilmişdir.

Cədvəl 16.5.2.

Yeni informasiya texnologiyasının əsas xüsusiyyətləri

Metodologiya	Əsas əlamət	Nəticə
İnformasiyanın emalı və ötürülməsi üçün yeni vasitələr	İdarəetmə texnologiyasına qoşulmaq	Yeni kommunikasiya texnologiyası
Bütöv texnoloji sistemlər	Mütəxəssislərin və mene-cerlərin funksiyalannın inteqrasiyası	İnformasiya emalınm yeni texnologiyası
İnformasiyanın hazırlan-ması, ötürülməsi, saxlanması və əks etdirilməsinin məqsədyönlü təşkili	Sosial mühitin qanunauyğunluq-larının nəzərə alınması	Idarəetmə üçün qərarların qəbulunun yeni texnologiyası

Yeni informasiya texnologiyası istifadəçilərlə «dostsayağı» interfeyslə işləməyi təmin edən, fərdi kompüterlərdən və telekomminikasıya vasitələrindən istifadə edən texnologiyadır.

Yeni informasiya texnologiyasının 3 əsas prinsipi aşağıdakılardır:

- kompüterlə interaktiv (dialoq) rejimində işləmək;

-proqram məhsullarımn inteqrasiyası (birləşdirilməsi, qarşılıqlı əlaqələndirilməsi);

-həm verilənlərin, həm də məsələnin qoyuluşunun dəyişdirilməsi prosesinin çevikliyi.

Material istehsalı texnologiyası müxtəlif texniki vasitələrlə (avadanlıq, dəzgahlar, instrumentlər, konveyr xətləri və s.) reallaşır. Analoji olaraq informasiya texnologiyası üçün də texniki vasitələr mövcuddur. İnformasiya istehsalının texniki vasitələrinə onun aparat, proqram və riyazi təminatmı yerinə yetirən vasitələr daxildir. Bu vasitələrin köməyilə ilkin informasiya emal edilərək yeni kefıyyətli informasiyaya çevrilir. Həmin vasitələrin içərisində proqram vasitələrinin xüsusi yeri var. Həmin vasitələrə başqa sozlə informasiya texnologiyasının proqram instrumentarisi deyilir. Proqram instrumentarisi istifadəçi tərəfından qoyulan məqsədə nail olmaqdan ötrü müəyyən tip kompüter üçün bir və ya qarşılıqlı əlaqəli bir neçə proqram məhsulundan ibarətdir. İnstrumentari kimi fərdi kompüterlər üçün geniş yayılmış aşağıdakı proqram məhsullarından istifadə edilə bilər: mətn prosessorları və ya redaktorları, stolüstü nəşriyyat sistemləri, elektron cədvəllər, qrafik redaktorlar, verilənlər bazalarının idarəetmə sistemləri, elektron yazı kitabçaları, funksional təyinatlı (maliyyə, mühasibat, marketinq və s.) informasiya sistemləri, İnternet bələdçiləri, ekspert sistemləri və s.

İnformasiya texnologiyası onun üçün əsas mühit olan informasiya sistemləri ilə sıx bağlıdır. İlk baxışdan onların bir-birinə çox oxşarlığı təəssüratı yaranır, əslində isə bu belə deyildir.

İnformasiya texnologiyası verilənlər üzərində əməllərin, əməliyyatların, mərhələlərin aparılması üçün dəqiq reqlamentlənmiş qaydalardan ibarət olan prosesdir. İnformasiya texnologiyasmın əsas məqsədi ilkin informasiyanın məqsədyönlü emalı nəticəsində istifadəçi üçün lazımi informasiyanı almaqdır.

İnformasiya sistemi kompüterlərdən, kompüter şəbəkələrindən, proqram məhsullarından, verilənlər bazalarından, insanlardan, müxtəlif növ rabitə vasitələrindən və s. ibarət olan muhitdir. İnformasiya sistemi, «insan-kompüter» tipli informasiya emalı sistemidir və burada əsas məqsəd informasiyanın saxlanması, sorğulara görə axtarışı və seçilən informasiyanı lazımi formaya salıb, istifadəçiyə çatdırılmasıdır.

İnformasiya sisteminin funksiyalarının reallaşdırılması ona yönəlmiş informasiya texnologiyasını bilmədən mümkün deyil. İnformasiya texnologiyası isə informasiya sistemindən kənar olaraq reallaşdırıla bilər.

Beləliklə, informasiya texnologiyası informasiya cəmiyyətində informasiyanın çevrilmə prosesləri haqqında müasir təsəvvürü ifadə edən daha geniş anlayışdır. İnformasiya sisteminin uğurla qurulmasının və fəaliyyətinin təminatı isə informasiya və idarəetmə texnologiyalarından birgə və bacarıqla istifadə olun-raasıdır.

Material istehsalı sahəsindi istifadə olunan norma, normativ, texnoloji proses, texnoloji əməliyyat və s. kimi anlayışlardan informasiya texnologiyasında da istifadə oluna bilər. Hər bir texnologiyada bu anlayışları müəyyənləşdirməkdən əvvəl məqsədi təyin etmək lazımdır.

Kompüter əsasında reallaşdırılan informasiya texnologiyasının inkişafına bir neçə baxış mövcuddur. Bu baxışlar müxtəlif bölgü əlamətləri ilə təyin edilir. Aşağıda nəzərdən keçirilən baxışlar üçün ümumi cəhət ondan ibarətdir ki, fərdi kompüterlərin yaranması ilə informasiya texnologiyasının inkişafında yeni mərhələ başlandı və insanın həm peşə fəaliyyətində, həm də məişətdə informasiya tələbatlarını ödəmək mümkün oldu.

İnformasiya texnologiyasını aşağıda göstərilən əlamətlərə görə mərhələlərə ayırırlar. Qeyd edək ki, göstərilən ayırmalar və illər müəyyən mənada şərti xarakter daşıyır.

İnformasiya emalı proseslərinin və məsələlərinin növünə görə:

1-ci mərhələ (1960-1970-ci illər)-hesablama mərkəzində kollektiv istifadə rejimində verilənlərin emalı. İnformasiya texnologiyasının inkişafının əsas istiqamətini insanın yerinə yetirdiyi atil əməliyyatların (əsasən hesablama tipli) avtomatlaşdırılması təşkil edirdi.

2-ci mərhələ (1980-ci illərdən sonra) - strateji məsələlərin həllinə yönəlmiş informasiya texnologiyalarının yaradılması.

Cəmiyyətin informasiyalaşması istiqamətində duran problemlərə görə:

1-ci mərhələ (60-cı illərin sonuna qədər) - məhdud imkanlı aparat vasitələri şəraitində böyük həcmli verilənlərin emalı problemi ilə xarakterizə olunur.

2-ci mərhələ (70-ci illərin sonuna qədər) - III nəsil kompüterlərin (IBM 360, EC seriyalı EHM və s.) geniş yayılması ilə əlaqələndirilir. Bu mərhələnin problemi proqram təminatının aparat vasitələrinin inkişafından geri qalmasında idi.

3-cü mərhələ (80-cı illərin əvvəlindən) - kompüter qeyri-peşəkar istifadəçilərin alətinə, informasiya sistemləri isə qərar qəbuletmənin təminatı vasitəsinə çevrilir. Bu mərhələnin əsas problemi istifadəçilərin tələbatlarını maksimum ödəmək və kompüter mühiti ilə işləmək üçün əlverişli interfeys yaratmaqdan ibarət idi.

4-cü mərhələ (90-cı illərin əvvəllərindən) - təşkilatlararası əlaqələrin və informasiya sistemlərinin müasir texnologiyasının yaradılması. Bu mərhələnin özünün bir çox problemləri vardır ki, onlardan da əsasları aşağıdakılardır:

- kompüter əlaqələri üçün razılaşmalarm, standartların və protokolların hazırlanması;
- strateji informasiyaya müraciətin təşkili;
- informasiyanın mühafizəsinin və təhlükəsizliyinin təşkili.

Kompüter texnologiyasının verdiyi faydaya görə:

1-ci mərhələ (60-cı illərin əvvəllindən) - hesablama mərkəzlərinin resurslarından kollektiv şəkildə istifadə etməklə atil əməliyyatların yerinə yetirilməsi üçün informasiyanın səmərəli emalı ilə səciyyələnir. Bu mərhələdə əsas problem psixoloji problem idi. İnformasiya sistemlərinin istifadəçiləri ilə onları hazırlayanlar arasmda qarşılıqlı əlaqələr zəif idi. Bunun da nəticəsində elə sistemlər qurulurdu ki, istifadəçi onları başa düşmürdü və ona görə də geniş imkanlarına baxmayaraq, onlardan tam istifadə olunmurdu.

2-ci mərhələ (80-cı illərin əvvəlindən) - fərdi kompüterlərin yaranması ilə bağlıdır. İnformasiya sistemlərinin qurulmasına yanaşma dəyişdi - onlar fərdi istifadəçilər tərəfindən qərarların qəbulunun təminatına istiqamətləndilər. Sistemin hazırlanmasmda istifadəçinin marağı artır, layihəçi ilə əlaqə yaradılır və hər iki tərəfin bir-birini anlaması baş verir. Bu mərhələdə verilənlərin həm mərkəzləşdirilmiş, həm də mərkəzləşdirilməmiş emalından istifadə olunur. Sonuncu halda istifadəçilər iş yerlərində lokal bazalarla işləmək və lokal məsələləri həll etmək imkanını əldə edirlər.

3-cü mərhələ (90-cı illərin əvvəlindən)-biznesdə strateji üstünlüyün təhlili ilə bağlıdır və paylanmış informasiya emalının telekommunikasiya texnologiyalarına əsaslanır. İnformasiya sistemləri təkcə verilənlərin emalı səmərəliliyini artırmaq üçün deyil, həm də idarəetmə heyətinə kömək etmək üçün istifadə olunurlar.İnformasiya texnologiyaları rəqabətə davam gətirməkdə və üstünlük qazanmaqda təşkilatlara kömək edirlər.

Texnologiyanın alətlərinin növlərinə görə:

1-ci mərhələ (XIX əsrin ikinci yarısma qədər) - «əl» texnologiyası. İnstumentari kimi qələm, kağız, mürəkkəb, kitab istifadə olunurdu. Komminikasıya əl üsulu ilə poçt və ya kuryer vasitəsilə məktubların, paketlərin, depeşlərin göndərilməsi ilə həyata keçirilirdi. Texnologiyanın əsas məqsədi informasiyanı lazımi formada təsvir etmək idi.

2-ci mərhələ (XIX əsrin sonundan başlayaraq)- «mexaniki» texnologiya. İnstrumentari kimi çap maşını, telefon, diktafon, daha təkmil vasitələrlə təmin olunmuş poçt istifadə olunurdu. Texnologiyanın əsas məqsədi informasiyanı lazımi formada daha əlverişli vasitələrlə istifadəçilərə çatdırmaq idi.

3-cü mərhələ (XX əsərin 60-cı illərinə qədər) - «elektrik» texnologiyası. İnstrumentari kimi böyük kompüterlər, elektrik çap maşınları, kseroks, portativ diktofanlar istifadə olunurdu. Bu mərhələdə texnologiyanın məqsədi də dəyişdi. Əsas diqqət informasiyanın təsvir formasmdan məzmunun formalaşmasına yönəldi.

4-cü mərhələ (70-ci illərin əvvəlindən)-«elektron» texnologiyası

Əsas alət kimi geniş spektrli baza və xüsusi proqram kompleksləri ilə təchiz olunmuş böyük kompüterlər və onların əsasında qurulmuş avtomatlaşdırılmış idarəetmə sistemləri və informasiya-axtarış sistemləri istifadə olunurdu. Texnolo-giyanın ağırlıq mərkəzi ictimai həyatın müxtəlif sahələrinin idarəetmə mühitləri üçün məzmunlu informasiyanın formalaşmasına və analitik işin təşkilinə daha çox istiqamətləndi. Bir sıra obyektiv və subyektiv faktorlar informasiya texnologiyasının yeni konsepsiyasmm qarşısında qoyulan məsələlərin həllinə imkan vermədi. Lakin məzmunlu idarəetmə informasiyasının formalaşmasında təcrübə qazanıldı və texnologiyanın yeni mərhələsinə keçid üçün professional, psixoloji və sosial baza yaradıldı.

5-ci mərhələ (90-cı ildən başlayaraq)- «yeni» informasiya texnologiyası. Əsas instrumentari kimi müxtəlif təyinatl geniş çeşidli proqram məhsulları ilə təmin edilmiş fərdi kompüterlərdən istifadə olunur. Bu mərhələdə mütəxəssislər tərəfindən qərar qəbuletmənin təminatı sistemlərinin qurulması ilə avtomatlaşdırılmış idarəetmə sistemlərinin fərdiləşməsi prosesi baş verir. Bu cür sistemlər idarəetmənin müxtəlif səviyyələri üçün məzmunlu analiz və intellekt elementlərinə malik olub, fərdi kompü-terlərdə reallaşdırılır və telekommunikasiyadan istifadə edirlər.Müxtəlif sahələrdə lokal və qlobal kompüter şəbəkələrindən, o cümlədən, İnternet şəbəkəsindən geniş istifadə olunu. Mövcud olan müasir informasiya texnologiyalarını 2 növə ayırmaq olar: 1) verilənlərin emalı texnologiyası; 2) idarəetmənin informasiya təminatı texnologiyası. Hər bir konkret texnologiya bu növlərdən birinə və ya hər ikisinə aid edilə bilər.

Verilənlərin emalı texnologiyası lazımi ilkin verilənlərə malik olan, emal üçün alqoritmlər və digər standart prosedurlar olan yaxşı strukturlaşdırılmış məsələlərin həlli üçün nəzərdə tutulur. Bu texnologiyadan elm, təhsil, istehsalat və digər sahələrdə təkrarlanmalarla yerinə yetirilən atil əməliyyatların

avtomatlaşdırılması məqsədilə heyətin əməli fəaliyyəti səviyyəsində istifadə edilir. Bu səviyyədə informasiya texnologiyalarının və sistemlərinin tətbiqi idarə heyətinin əmək məhsuldarhğını artırır, onu atil əməliyyatlardan azad edir və bəzi hallarda işçilərin sayını azaldır.

Əməli fəaliyyət səviyyəsində aşağıdakı məsələlər həll olunur:

- təşkilatın (firmanın, şirkətin, bankın və s.) yerinə yetirdiyi əməliyyatlar haqqında verilənlərin emalı;

- təşkilatdakı işlərin vəziyyəti haqqında vaxtaşırı nəzarət hesabatlarının hazırlanması. Məsələn, nəğd vəsaitlərin balansına nəzarət üçün banka daxil olan və xaric olan nəğd vəsaitlər haqqında gündəlik hesabat;

- bütün mümkün olan cari sorğulara cavab almaq və onları kağız sənədlər və ya hesabatlar formasmda tərtib etmək. Məsələn, müəyyən vəzifəni tutmaq üçün namizədlərə qoyulan tələblər haqqında verilənlərin alınması məqsədilə kadrlar üzrə verilənlər bazasına sorğu.

Bu texnologiyanı fərqləndirən xüsusiyyətlər aşağıdakılardır:

- verilənlərin emalı üzrə təşkilata lazım olan məsələlərin həlli. Qanuna görə hər bir təşkilat özünün fəaliyyəti haqqında verilənlərə malik olmalı və onları saxlamalıdır. Həmin verilənlərdən təşkilatın informasiya dəstəklənməsi vasitəsi kimi istifadə olunur. Odur ki, müasir şəraitdə hər bir təşkilatda verilənlərin emalı sistemi olmalı və uyğun informasiya texnologiyası işlənib hazırlanmalıdır;

- alqoritmləşdirilə bilən yaxşı strukturlaşdırılmış məsələlərin həlli;

- emalın standart prosedurlarının yerinə yetirilməsi. Mövcud standartlar verilənlərin emalının tipik prosedurlarını təyin edir və bütün təşkilatlardan onlara riayət edilməsini tələb edir;

- işlərin əsas hissəsinin insanın minimal iştirakı ilə avtomatlaşdırılmış rejimdə yerinə yetirilməsi;


- detallaşdırılmış verilənlərdən istifadə edilməsi. Təşkilatın fəaliyyəti haqqında yazılar təftiş aparmağa imkan verən təşkilati

xarakterli olmalıdır.Yoxlanma prosesində təşkilatın fəaliyyəti yoxlanma dövrünün əvvəlindən sonuna və sonundan əvvəlinə qədər təftiş olunur;

- hadisələrin xronologiyasına üstünlük verilir;

-problemlərin həllinə digər səviyyələrdən mütəxəssislərin cəlb edilməsinə az ehtiyac olur.

Verilənlərin emalı texnologiyasmın əsas komponentləri şəkil 3-də verilmişdir. Bu komponentlərə qısaca baxaq.



Şəkil 16.5.3. Verilənlərin emalı texnologiyasının əsas komponentləri

Şəkildə göstərilmiş verilənlərin emalı texnologiyasının əsas komponentlərini aşağıdakı kimi izah etmək olar.

Verilənlərin toplanması. Təşkilatın fəaliyyəti (məhsul istehsalı, xidmət göstərilməsi) ərəfəsində onun hər bir əməliyyatı uyğun verilənlərin qeydiyyatı ilə müşayiət olunur. Xarici mühitlə (sifarişzilərlə, kənar təşkilatlarla və s.) aparılan əməliyyatlar da bu sıraya daxildir.

Verilənlərin emalı. Daxil olunan verilənlərdən təşkilatın fəaliyyətini əks etdirən informasiya almaq üçün aşağıdakı tipik əməliyyatlardan istifadə olunur:

-ümumiləşdirmə və ya qruplaşdırma. Verilənlər, onların aid olduğu obyektlərə (sexlərə, qurğulara, şöbələrə, işçilərə və s.) görə qruplara ayrılır;

- aqreqatlaşdırma və ya birləşdirmə. Obyektin oxşar xassəlrini əks etdirən verilənlər bir yerə yığılır;

- nizamlama (çeşidləmə). Verilənlərin müəyyən əlamətə görə sıraya düzülməsi (məsələn, simvol qiymətlərin əlifba, ədədi qiymətlərin azalma və ya artma qaydası ilə düzülməsi);

- seçmə. Müəyyən əlamətlərə görə verilənlərin seçilməsi;

- hesablama. Verilənlərin cəmlənməsi, hasili və ya müəyyən üsul və ya düsturla onlar üzərində hesab və ya məntiq əməliyyatlarının aparılması.

Verilenlərin saxlanması. Əməli fəaliyyət səviyyəsində toplanan və emal olunan bir çox verilənləri sonrakı istifadələr üçün bu və ya digər səviyyədə saxlamaq lazım gəlir. Bu məqsədlə verilənlər bazası yaradılır.

Hesabat sənədlərininin hazırlanması. Verilənlərin emalı texnologiyasında son məhsul kimi təşkilatın rəhbərliyi, işçiləri və həmçinin xarici təşkilatlar üçün hesabatlar və ya sənədlər hazırlanır. Sənədlər həm vaxtaşırı, həm ayın, kvartalın və ilin sonımda, həm də təşkilatın apardığı əməliyyatlarla əlaqədar olaraq sorğulara görə hazırlana bilər.

İdarəetmənin informasiya təminatı texnologiyasının əsas məqsədi təşkilatın qərarqəbuletmə ilə bağlı olan bütün həmkarlarının informasiya tələbatını ödəməkdir. Həmin texnologiya idarəetmənin istənilən səviyyəsində faydalı ola bilər.

Bu texnologiya idarəetmənin informasiya sistemi mühitində işləməyi nəzərdə tutur və həll olunan məsələlərin zəif strukturlaşması hallarında istifadə olunur. İdarəetmənin informasiya sistemi təşkilatın müxtəlif funksional bölmələrinin və ya idarəetmə səviyyələrinin oxşar informasiya tələbatlarını ödəmək üçün daha əlverişlidir. İnformasiya sisteminin təqdim etdiyi informasiya təşkilatm keçmişi, bu günü və ehtimal olunan gələcəyi haqqında məlumat ola bilər. Həmin informasiya müntəzəm və ya xüsusi idarəetmə hesabatları şəklində verilə bilər.

Təşkilatm fəaliyyətinə nəzarət səviyyəsində qərarların qəbul edilməsi üçün informasiya ümumiləşdirilmiş şəkildə verilməlidir ki, verilənlərin dəyişmə meylini pozmadan kənaraçıxmaların səbəblərini və qəbul olunan qərarlan izləmək mümkün olsun. Bu mərhələdə verilənlərin emalı üzrə aşağıdakı məsələlər həll olunur:

- idarə olunan obyektin planlaşdırılmış vəziyyətinin qiymətləndirilməsi;


-planlaşdırılmış vəziyyətdən kənara çıxmaların qiymətləndirilməsi;

- kənara çıxmaların səbəblərinin aşkarlanması;

- mümkün qərarlarm səbəblərinin aşkarlanması;

-mümkün qərarların və hərəkətlərin qiymətləndirilməsi.

Giriş informasiyası əməliyyat səviyyəsindəki verilənlərin emalı sistemindən daxil olur. Çıxış informasiyası qərar qəbul etmək üçün əlverişli formada təsvir olunan (qrafik, cədvəl, mətn və s.) hesabatlardır. Aşağıdakı şəkill 16.5.4-də bunlar təsvir edilmişdir.



Şəkil 16.5.4. İdarəetmənin informasiya təminatı texnologiyasmın əsas komponentləri.

Uyğun proqram təminatı vasitəsilə verilənlər bazasından götürülən verilənlər müntəzəm və ya xüsusi hesabatlara çevrilir və qərar qəbul edən mütəxəssislərə çatdırılır. Göstərilən informasiyanın alınması üçün verilənlər bazası iki cür verilənlərdən ibarət olmalıdır:

1) müəssənin apardığı əməliyyatların qiymətləndirilməsi əsasında toplanan verilənlər;

2) idarəetmə obyektinin(müəssisənin və ya onun funksional bölmələrinin) planlaşdırılmış vəziyyətini təyin edən planlar, standartlar, büdcələr və digər normativ sənədlər.

16.6. İNFORMASİYA SİSTEMLƏRİ VƏ ONLARIN İQTİSADİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ TƏTBİQİ

Sistem dedikdə müəyyən məqsədə nail olmaq üçün bir-birilə əlaqələndirilmiş müxtəlif elementlərdən ibarət obyekt başa düşülür və həmin obyektə vahid tam kimi baxılır. Sistemlər bir-birindən həm onların qarşısına qoyulan məqsədlərə, həm də tərkiblərinə görə fərqlənirlər. Cədvəl 3-də müxtəlif elementlərdən ibarət olan və müxtəlif məqsədləri reallaşdıran sistemlərə aid misallar göstərilmişdir.

İnformatikada «sistem» anlayışı geniş yayılmışdır və bir neçə mənada işlədilir. Ən çox texniki vasitələrin və proqramların toplusu mənasında işlədilir. Məsələn, müəyyən sinfə aid məsələləri həll edən proqramlar və onlarla işləmək üçün sənədlər toplusuna sistem kimi baxılır.

«Sistem» sözünə «informasiya» sözünün əlavə edilməsi onun yaradılmasında və fəaliyyətində məqsədi göstərir.

İnformasiya sistemi (İS) müəyyən sahədə məsələlərin həllini təmin edən qərarların qəbul edilməsi üçün informasiyamn toplanması, saxlanması, axtarışı, emalı və istifadəçilərə çatdırılmasını təmin etmək məqsədilə texniki, proqram, linqvistik, metodloji və təşkilatı vasitələrdən ibarət kompleksdir.

Cədvəl 16.6.1.

Sistemə aid misallar

Sistem	**Sistemin**	**Sistemin**
Firma	İnsanlar, avadanlıq, materiallar, binalar	Məhsul istehsalı
Kompüter	Elektron və elektromexaniki elementlər, əlaqə	Verilənlərin emalı

Telekommunikasiya sistemi	Komputerlər, modemlər, rabitə kanallan, şəbəkə proqram təminatı və	Informasiyanın ötürülməsi
Informasiya sistemi	Kompüterlər, kompüter şəbəkələri, insanlar, informasiya, proqram və linqvistik	Professional informasiyanm istehsalı

Müasir informasiya sistemlərində informasiyanın emalı üçün əsas texniki vasitə kimi fərdi kompüterdən istifadə edilir. Böyük təşkilatlarda və firmalarda texniki vasitələrə fərdi kompüterlə yanaşı, meynfreym və super kompüter də daxil edilə bilər. Paylanmış informasiya sistemlərində texniki təminat funksiyalarını kompüter şəbəkələri yerinə yetirirlər.

İnformasiya sistemlərinin yarandığı ilk vaxtlar (1970-1980ci illər) onlar «Avtomatlaşdırılmış informasiya sistemləri» adlandırılırdı. İnformasiya sisteminin əsasını kompüter təşkil etdiyi üçün xaricdə çox vaxt «Kompüter informasiya sistemi» (Computer İnformation System-CIS) terminindən istifadə edilir. Bir çox avropa və MDB ölkələrində isə, o cümlədən, Rusiyada «İnformasiya sistemi» terminindən istifadə edilir. Biz də bu termini işlədirik.

İnformasiyanın saxlanmasını, axtarışını və emalını reallaşdırmaq üçün uyğun proqramlar olmalıdır ki, onlar da informasiya sisteminin proqram təminatını təşkil edirlər. İnformasiyanın və sorğuların kompüterin başa düşəcəyi formada təsviri, istifadəçilərlə sistem arasında ünsiyyətin qurulması üçün müəyyən linqvistik vasitələr (dillər) olmalıdır.

İnformasiya sistemi «insan-maşm (kompüter)» tipli sistemlər sinfinə daxildir. Bu tip sistemlərdə insanın sistemin fəaliyyətində iştirakı vacib sayılır. İnsan bir tərəfdən sistemin istifadəçisi rolunda çıxış edir, digər tərəfdən isə sistemin fəaliyyətinə cavabdehlik edir (sistemin iş qabiliyyətli vəziyyətdə olması, istifadəçi sorğularının

ödənilməsi, sistemdə saxlanan informasiyamn aktuallığının təminatı və s.). Kompüterlə informasiya sisteminin fərqi də insan amili ilə bağlıdır. Xüsusi proqram vasitələri ilə təmin olunmuş kompüter informasiya sisteminin texniki bazasını və instrumentini təşkil edir. İnformasiya sistemini kompüterlə və telekommunikasiya vasitələri ilə qarşılıqlı əlaqə yaradan insansız təsəvvür etmək mümkün deyil.

İnformasiya sistemlərinin inkişaf tarixi və müxtəlif dövrlərdə onlardan istifadə edilməsində məqsədlər cədvəl 4-də verilmişdir.

İlk informasiya sistemləri keçən əsrin 50-ci illərində yaradılmışdı. Onlar əsasən hesabat sənədlərinin hazırlanması üçün istifadə olunurdu, böyük kompüterlərdə və elektromexaniki mühasibat-hesab maşınlarında reallaşdırılırdı. Bununla da kağız sənədlərin hazırlanması vaxtı və məsrəf müəyyən qədər azalırdı.

Cədvəl 16.6.2

İnformasiya sistemlərinin inkişaf tarixi

Vaxt dövrü	**Informasiyadan istifadə konsepsiyası**	**Informasiya sistemlərinin növü**	**İstifadə məqsədi**
1950-1960-cı illər	Hesabat sənədlərinin kağız axımı	Hesabat sənədlərinin emalı üçün informasiya sistemləri	Sənədlərin emalı sürə-tinin artırılması
1960-1970-ci illər	Hesabatlann hazırlan-masmda və informasiya axtanşında kömək	Elmi-texniki informasiya üçün informasiya-axtanş sistemləri. İsehsalat informasiyası	Informasiya axtanşını asanlaşdırmaq. Hesabatlann hazırlanması-nın sürətləndirilməsi

1970-1985-ci illər	Oyrətmə. Idarəetmə. Diaqnostika. Proqnozlaşdırma.	Avtomatlaşdırılmış öyrətmə sistemləri. Qərarların qəbulunun təminatı sistemləri. Ekspert sistemləri	Fənlərin öyrənilməsində kömək. Daha səmərəli qərarların qəbul edilməsi. Obyektin vəziyyətinin proqnozlaşdırılması
1985-cı ildən indiyədək	Əvvəlki konsepsiyalarla yanaşı, informasiya rəqabət üstünlüyünü təmin edən strateji resurs rolunda çıxış edir.	Avtomatlaşdırılmış öyrətmə sistemləri. Qərarların qəbulunun təminatı sistemləri. Ekspert sistemləri. Strateji informasiya sistemləri. Avtomatlaşdırılmış ofislər	Əvvəlki məqsədlərlə yanaşı firmaların rəqa-bətə tab gətirməsi və inkişafı

60-cı illər informasiya sistemlərinə münasibətin dəyişilməsi ilə əlamətdardır. Onların köməyilə alınan informasiya bir neçə parametrə görə dövrü hesabatlarda istifadə olunurdu. Bu sistemlərin qurulması üçün kiçik, orta və böyük kompüterlərdən istifadə olunurdu.

70-ci illərdən başlayaraq İS-dən qərarların qəbulu prosesini sürətləndirən və dəstəkləyən vasitə kimi istifadə olunmağa


başlandı. Bu sistemlərdən həmçinin müəyyən fənlərin (kimya, riyaziyyat, proqramlaşdırma və s.) öyrənilməsində köməkçi vasitə kimi istifadə olunurdu. Ekspert sistemi adlanan intellektual səviyyəli İS-dən isə diaqnostika və proqnozlaşdırma məsələlərinin həlli üçün istifadə olunurdu.

85-ci ildən fərdi kompüterlərin geniş istehsalı və tətbiqi ilə əlaqədar olaraq informasiya sistemlərindən istifadə konsepsiyası ciddi dəyişikliklərə məruz qaldı. Əvvəlki təyinatlarla yanaşı, İS-dən strateji informasiya mənbəyi kimi təşkilatın bütün səviyyələrində istifadə olunur. Bu dövrün informasiya sistemləri lazımi informasiyanı vaxtında çatdırmaqla firmaya fəaliyyətində uğur qazanmağa, yeni məhsullar və xidmətlər yaratmağa, yeni satış bazarı tapmağa və beləliklə bazar iqtisadiyyatı şəraitində rəqabətə davam gətirməyə və inkişafa kömək edirlər.

İstənilən təyinatlı informasiya sistemindəki prosesləri və onlarm yerinə yetirilmə ardıcıllığını şəkil 5-dəkı kimi göstərmək olar.

Bu proseslərə aşağıdakılar aiddir:

- xarici və ya daxili mənbələrdən informasiyanın daxil edilməsi;
- informasiyanın kompüterin xarici yaddaşında saxlanması;
- istifadəçilərin sorğularına uyğun informasiyanın axtarışı;
- tapılan informasiyanın emal edilməsi və əlverişli formada təsvir edilməsi;
- informasiyanın istifadəçilərə və ya digər sistemə çatdırılması üçün xaric edilməsi;
- əks əlaqə: əgər alınan nəticəvi informasiya istifadəçini təmin etmirsə, onun təklifi ilə daxil edilən informasiyada, sorğuda, informasiyanın saxlanma sxemində, axtarışında və emalında düzəlişlər edilə bilər.



Şəkil 16.6.1. İnformasiya sistemində yerinə yetirilən proseslər

İnformasiya sistemi aşağıdakı xassələrlə səciyyələnir:

-istənilən İS-in analizi, qurulması və idarə edilməsi sistemlərin yaradılmasının ümumi prinsipləri əsasmda yerinə yetirilir;

- İS dinamiki və inkişaf edən sistemdir;

- İS-in qurulmasmda sistemli yanaşmadan istifadə olunur;

- İS-in çıxış məhsulu qərarların qəbul edilməsi üçün istifadə edilən informasiyadır;

- İS «insan-maşm» tipli verilənlərin emalı sistemidir.

Baxmayaraq ki, ümumi halda İS-in kompütersiz variantı da ola bilər, müasir informasiya sistemlərinin, demək olar ki, hamısı kompüter texnikası əsasında reallaşdırılır.

İnformasiya sisteminin işini anlamaq üçün onun həll etdiyi problemin mahiyyətini və həmçinin hansı təşkilatı proseslərə qoşulduğunu bilmək lazımdır. Məsələn, qərarların qəbulunun təminatı üçün qurulan informasiya sisteminin imkanlarını təyin edəndə aşağıdakıları nəzərə almaq lazımdır:

- həll olunan idarəetmə məsələlərinin strukturlaşdırılması;
- firmanın idarə edilməsi iyerarxiyasının hansı səviyyəsində qərar qəbuletmə aparılır;
- həll olunan məsələlərin hansı funksional bölmələrə aid olması;
- istifadə olunan informasiya texnologiyasının növü.

İnformasiya sistemi ilə işləmə texnologiyası kompüter sahəsini bilməyən mütəxəssislər tərəfindən asan mənimsənilir və professional fəaliyyət proseslərinə nəzarət edilməsi və onların idarə olunması üçün müvəffəqiyyətlə istifadə oluna bilər.

İnformasiya sisteminin tətbiqi aşağıdakıları əldə etməyə imkan verir:

-riyazi və süni intellekt metodlarının tətbiqi sayəsində idarəetmə məsələlərinin həllinin daha səmərəli variantlarının alınması;
- avtomatlaşdırma sayəsində işçilərin atil işlərdən azad edilməsi;
- informasiyanın həqiqiliyinin təmin edilməsi;
- kağız daşıyıcıları əvəzinə verilənlərin kompüterdə emalının səmərəli təşkilini təmin edin maqnit və kompakt disk daşıyıcılarından, fleş yaddaşdan istifadə edilməsi;
-müəssisədə informasiya axımlarının strukturunun və sənəd dövriyyəsinin təkmilləşdirilməsi;
-məhsul istehsalına və xidmətlərin göstərilməsinə qoyulan xərclərin azaldılması;
- istifadəçilərə lazımi informasiya xidmətinin göstərilməsi;

- yeni bazar münasibətlərinin qurulmasına kömək edilməsi;
- müxtəlif güzəştlər və xidmətlər sayəsində firmaya alıcıların və tədarükçilərin cəlb edilməsi.

Hər hansı bir təşkilat üçün informasiya sisteminin yaradılması və istifadə olunması zamanı aşağıdakılar nəzərə alınmalıdır:

1. İS-in strukturu və onun fünksional təyinatı təşkilat qarşısında qoyulan məqsədlərə uyğun olmalıdır. Məsələn, kommersiya firmasında-səmərəli biznes, dövlət müəssisəsində-sosial və iqtisadi məsələlərin həlli.

2. İnformasiya sistemi insanlar tərəfindən nəzarət edilməli, başa düşülməli və uyğun sosial və etik prinsiplərlə istifadə olunmalıdır.

3. İS gerçək, etibarh, müasir və sistemləşdirilmiş informasiya hasil etməlidir.

Gösətərilənlərin nəzərə alınması üçün İS-i qurmazdan əvvəl təşkilatın strukturunu, funksiyalarnı, siyasətini, idarə olunmanın məqsədlərini, qəbul edilən qərarları, kompüter texnologiyasının imkanlarını öyrənib başa düşmək lazımdır. İstismara verilən İS təşkilatın bir hissəsinə çevrilir.

İS-in yaradılmasına təşkilatın idarə strukturunun analizindən başlanır. Təşkilatın bütün bölmələrinin işinin koordinasiyası müxtəlif səviyyəli idarəetmə orqanları vasitəsilə aparılır. «İdarəetmə» dedikdə təşkilatı, plan, uçot, analiz, nəzarət, stimullaşdırma kimi funksiyaların reallaşdırılması şəraitində qarşıya qoyulan məqsədin təmin edilməsi başa düşülür.

Son illər idarəetmə sahəsində «qərar qəbuletmə» anlayışından və onunla əlaqəli qərar qəbuletmə sistemləri, metodları və vasitələri anlayışlarından çox istifadə olunur.

Qarar qəbuletmə situasiyanın analizinə, məqsədin təyin edilməsinə və bu məqsədə nail olma proqramına əsaslanaraq idarə olunan obyektə məqsədyönlü təsiretmə aktıdır.

İstənilən təşkilatın idarəetmə strukturu 3 səviyyədən ibarət olur: operativ, funkisonal və strateji.

İdarəetme səviyyəsi (idarəetmə fəaliyyətinin növü) həll olunan məsələlərin mürəkkəbliyi ilə təyin olunur. Məsələ mürəkkəbləşdikcə onun həll üçün idarəetmə səviyyəsi də yüksək olmalıdır. Həlli dərhal (operativ) tələb olunan sadə məsələlər daha çox yaranır, odur ki, onlar üçün idarəetmə səviyyəsi daha aşağı olmalıdır. Bu səviyyədə operativ qərarlar qəbul edilir. İdarəetmədə həmçinin qəbuledilən qərarların reallaşdırılma dinamikası nəzərə alınmalıdır. Bu da idarəetməyə vaxt amili nöqteyi-nəzərindən baxmağı tələb edir.

16.7. VERİLƏNLƏR BAZASINI İDARƏETMƏ SİSTEMLƏRİ (VBİS)

Verilənlər bazasını idarə olunması linqvistik və proqram təminatı baxımından verilənlər bazasının idarəetmə sistemi, təşkilatı baxımdan isə verilənlər bazasının administratoru tərəfindən yerinə yetirilir.


Verilənlər bazasmın mərkəzləşdirilmiş idarə olunmasını və verilənlərə müraciəti təmin etmək üçün linqvistik və proqram vasitələrindən ibarət xüsusi kompleks yaradılır ki, onun da adına Verilənlər Bazasını Idarəetmə Sistemi (VBİS) deyilir. VBİS informasiya sisteminin mərkəzi hissəsini təşkil edir.

Verilənlərin təsvir edilməsi üçün seçilən modeldən asılı olmayaraq, verilənlər VB-də əlaqələndirildmiş fayllar şəklində saxlanır. Odur ki, VBİS-in əsas funksiyalarına aşağıdakılar daxildir:

- VB-nin faylların, aralarındakı əlaqələri nəzərə almaqla, təşkil etmək;
- VB-də lazımi düzəlişləri - verilənlərin əlavə edilməsi, dəyişdirilməsi və silinməsini təmin etmək;
- sorğulara görə verilənlərə müraciəti yerinə yetirmək.

Bu əsas funksiyalardan əlavə müasir VBİS-lərdə sorğuya görə seçilən verilənlərin emalı (onlar üzərində hesab və məntiq əməllərinin aparılması) və çıxış sənədlərinin (hesabatlann) la-zımi formaya salınıb əks etdirilməsi də nəzərə alınır.

Şəkil 15-də verilənlər bazasınm idarəetmə sisteminin sadələşdirilmiş sxemi verilmişdir.



Şəkil 16.7.1. Verilənlər bazasınm idarəetmə sisteminin sadələşdirilmiş sxemi

Burada VBİS-in əsas komponentləri olan verilənlər bazası, proqram təminatı, linqvistik təminat və onlarm əməliyyat sistemi ilə, VB-nin administratoru ilə və istifadəçilərlə qarşılıqlı əlaqələri göstərilmişdir. VBİS həm istifadəçi şəxslərin, həm də istifadəçi proqramların (tətbiqi proqramların) sorğularına cavab verir.

Verilənlərə müraciətin VBİS tərəfindən idarə olunması aşağıdakı kimi aparılır:

1. Məyyən dildən (məsələn, SQL dilindən) istifadə etməklə istifadəçi öz sorğusunu formalaşdırıb, sistemə daxil edir.

2. VBİS sorğunu qəbul edərək onu təhlil edir.

3. Sonra VBİS tərəfindən həmin sorğuya uyğun xarici sxem, onun konseptual sxemdə əksi, konseptual sxemin fiziki sxemdə əksi araşdırılıb, tələb olunan verilənlərin fiziki strukturları təyin olunur və onlar yaddaşın işçi sahəsinə köçürülür.

4. VBİS seçilən verilənlər üzərində tələb olunan əməliyyatları aparır.

5.Alının nəticələr lazımi formaya salınıb hesabat tərtib edilir və çıxışa verilir.

Verilənlərə müraciət prosesinin şərhi xeyli sənədləşdirilmişdir. Burada nəzərə alınır ki, bütün proses interpretasiya olunandır, yəni sorğunun təhlili, müxtəlif sxemlərdən seçmələr və digər əməliyyatlar sorğunun icrası zamanı yerinə yetirilir. İnterpretasiya prosesinə nisbətən çox vaxt sərf olunduğundan, onun məhsuldarlığı aşağı olur. Praktikada çox vaxt sorğunun icrasından əvvəl o kompilyasiya edilir, yəni sorğu əvvəlcədən sistemin daxili dilinə çevrilir.

VBİS verilənlərin bütün səviyyələrdə (xarici, konseptual və fiziki) təyinini və bu təyinlərin birindən digərinə çevrilməsini (əks olunmasını) təmin etməlidir. Bunun üçün onun tərkibində linqvistik vasitələr, yəni hər səviyyəyə uyğun verilənlərin təsvir dilləri və bu dillərin morfologiyasını və sintaksisini «başa düşən» linqvistik prosessor olmalıdır.

VBİS verilənlərin seçilməsi, dəyişdirilməsi, yeniləşdirilməsi və silinməsi əməliyyatlarının yerinə yetirilməsini təmin etməlidir. Bunun üçün o verilənlərin emalı dilinə və prosessora malik olmalıdır. Həmin prosessor istənilən tip, yəni həm reqlamentli (plandlaşdırılmış), həm də ixtiyri (planlaşdırılmamış) sorğuların emalını təmin etməlidir. Reqlamentli sorğuların emalı əvvəlcədən hazırlanmış proqramlarla, ixtiyari sorğuların emalı isə təyinat üzrə interaktiv aparılır.

VBİS istifadəçilərin sorğularını nəzarətdə saxlamalı, verilənlərin təhlükəsizliyini və tamlığını təmin etməlidir. Verilənlərin bərpasına və təhlükəsizliyinə nəzarət də VBİS-in fiınksiyalarına daxildir. VBİS-in vacib tərkib hissələrindən biri də

verilənlər lüğətini saxlayan sitstem kataloqudur. Verilənlər lüğətinə sistemin metaverilənlər bazası kimi baxmaq olar. Burada «verilənlər haqqında verilənlər» (metaverilənlər), o cümlədən hər səviyyəyə (xarici, konseptual və fiziki) uyğun sxemlərin təsviri, sxemlərin bir-birində əksləri, reqlamentli sorğular, həmin sorğularla onları emal edən proqramlar arasında əlaqələr, sorğulara uyğun hesabat formaları, istifadəçilər, verilənlərin alınma mənbələri, sistemə qoşulan terminallar və s. haqqında məlumat saxlanır. Metaverilənlər bazasının idarəolunması, yəni onun yaradılması, verilənlərin seçilməsi və dəyişikliklər aparılması üçün də ayrıca proqram təminatı hazırlanır.

Şəbəkə mühitində işləyən VBİS-də istifadəçilərin sorğuları VB-yə uzaq məsafədən kommunikasiya məlumatı formasmda istifadəçinin işçi stansiyasından birbaşa və ya əməliyyat məntəqəsi vasitəsilə ötürülür. İstifadəçilərə cavablar da VBİS-dən birbaşa və ya əməliyyat məntəqəsi vasitəsilə bu cür məlumat formasında çatdırılır. Bu prosesin idarə olunması «verilənlərin ötürülməsi dispetçeri» adlanan proqram kompleksi vasitəsilə apanlır. Adətən bu proqram kompleksi VBİS-dən ayrı yaradılır və özünün hüquqi əsaslarına malik olur. Bu cür sistemlər kliyent/server, çoxqovşaqlı və ya paylanmış arxitekturalarla təşkil olunurlar.

Beləliklə, yuxarıda şərh edilənləri yekunlaşdıraraq demək olar ki, VBİS-in əsas vəzifəsi verilənlər bazası ilə istifadəçi arasında interfeysin yaradılmasından ibarətrdir. Həmin interfeys vasitəsilə xarici səviyyədə istifadəçinin VB ilə qarşılıqlı əlaqələri təşkil edilir. VBİS-in digər funksiyaları isə konseptual və fiziki səviyyələrdə verilənlər bazasının reallaşdırılmasından ibarətdir.

VBİS-in yuxarıda baxılan fünksiyaları öz növbəsində aşağı səviyyənin aşağıda göstərilən fiınksiyalarından istifadə edirlər:

1- xarici yaddaşda saxlanan verilənlərin idarə edilməsi;
2- əməli yaddaşm buferlərinin idarə edilməsi;
3- tranzaksiyaların idarə edilməsi;
4- VB-nin jurnalına dəyişikliklərin daxil edilməsi;
5- VB-nin tamlığının və təhlükəzisliyinin təmin edilməsi;

Bu funksiyaların VBİS tərəfindən yerinə yetirilməsinə qısaca nəzər yetirək.

1. Xarici yaddaşda saxlanan verilənlərin idarə edilməsi Müxtəlif sistemlərdə bu funksiyalar resursların idarə olunması səviyyəsində (fayl sistemi səviyyəsində və ya bilavasitə xarici yaddaşın idarə olunması səviyyəsində) və həmçinin verilənlərin idarə edilməsi alqoritmləri səviyyəsində müxtəlif cür reallaşdırılır. Verilənlərin idarə olunmasınm metodları və alqoritmləri VBİS-in daxili işi hesab olunur və istifadəçilərə birbaşa dəlaləti yoxdur. Bu fünksiyanın reallaşdırılmasının keyfiyyəti böyük tutumlu VB-yə malik, mürəkkəb sorğuları və böyük həcmli verilənləri emal edən sistemlərə ciddi təsir göstərir.

2. Əməli yaddaşın buferlərinin idarə edilməsi Verilənlər bazasında saxlanan informasiyanın həcmi adətən əməli yaddaşın həcmindən böyük olur. Bəllidir ki, əməli yaddaş-da saxlanan informasiyaya müraciət vaxtı xarici yaddaşla saxlanan informasiyaya nisbətən xeyli az olur. Odur ki, hər dəfə verilənlərə müraciət zamanı xarici yaddaşla informasiya mübadiləsi aparılsa, sistemin işləmə sürəti xarici yaddaşın işləmə sürəti ilə təyin olunacaq. Xarici yaddaşla əməli yaddaş arasında verilənlər mübadiləsinin sürətləndirilməsini əməli yaddaşda verilənlərin buferləşdirilməsi vasitəsilə əldə etmək olar. Bu məqsədlə əməli yaddaşda VB-nin VBİS tərəfindən istifadə edilməsi planlaşdırılan fraqmentlərinin saxlanması üçün buferlər yaradılır.Bunun üçün VBİS-də əməli yaddaşda ayrılan buferlərin dəsti və həmin buferlərin əvəz edilməsi mexanizmi dəstəklənir.

3. Tranzaksiyalann idarə olunması. VBİS-də tranzaksiya mexanizmindən verilənlərin tamlığını təmin etmək məqsədilə istifadə edilir. Tranzaksiya - bazadakı verilənlər üzərində aparılan əməliyyatların bölünməz ardıcıllığıdır. VBİS bu ardıcıllığa tam vahid kimi baxır və onun əvvəldən sonadək yerinə yetirlməsini izləyir. Əgər tranzaksiyaya daxil olan bütün əməliyyatlar üğula yerinə yetirilirsə, tranzaksiya uğurlu nəticə ilə başa çatır və VBİS həmin əməliyyatlara uyğun olaraq xarici yaddaşda verilənləri

dəyişdirir. Əgər hər hansı bir səbəbdən (avadanlığın və ya sistemin nasazlığı, proqram təminatındakı səhvlər və s.) tranzaksiya sona çatmırsa, o, bütövlükdə icra edilmir və geri qaytarılır.

Tranzaksiya aşağıdakı xassələrə malikdir:

- atomarlıq; yəni tranzaksiyaya daxil olan əməliyyatların ya hamısı yerinə yetirilir, ya da heç biri;
- seriyallaşma, o deməkdir ki, çoxistifadəçili sistemdə eyni vaxtda yerinə yetirilən tranzaksiyaların bir-birinə təsiri olmur;
- davamlılıq, o deməkdir ki, sistem işini dayandırdıqda belə, icra olunmuş tranzaksiyanın nəticələri saxlanır.

Tranzaksiyaya misal olaraq işçilər haqqında verilənlər bazasında hər hansı bir işçinin əmək haqqı atributunun qiymətində düzəliş edilməsi və sonra həmin işçi haqqmda verilənlərin VB-dən seçilib ekrana çıxarılması əməliyyatlarının ardıcıllığını göstərmək olar. Əgər bu əməliyyatlardan hər hansı biri uğursuz başa çatsa, tranzaksiya bütövlükdə uğursuz başa çatacaq və geri qaytarılacaqdır.

Tranzaksiyaların paralel yerinə yetirilməsi zamanı baş verə bıləcək toqquşmaları VBİS həll edir. Bu halda adətən bir və ya bir neçə tranzaksiya geri qaytarılır və onlar tərəfindən aparılan dəyişikliklər ləğv edilir.

4. VB jurnalına dəyişikliklərin daxil edilməsi Aparat nasazlıqları və ya proqram təminatındakı səhvlər üzündən verilənlərin saxlanmasının etibarlığını təmin etmək məqsədilə VB-də aparılan dəyişiklərin VBİS-in xüsusi jurnalında qeyd edilməsi vacib əhəmiyyət kəsb edir. Hər dəfə verilənlər üzərində aparılan dəyişikliklər VBİS tərəfindən avtomatik olaraq jurnala daxil edilir. Bu jurnala istifadəçilər müraciət edə bilməzlər. VB-də aparılan dəyişikliklər jurnalda müxtəlif VBİS-lərdə müxtəlif səviyyədə əks olunur: fiziki (xarici yaddaşda) aparılan dəyişikliklərdən tutmuş, məntiqi səviyyədəki dəyişikliklərə qədər (yeni yazının daxil edilməsi, yazının silinməsi, sütunun silinməsi, sahənin qiymətinin dəyişdirilməsi və s.). Bəzi sistemlərdə icra olunan tranzaksiyalar da jurnalda qeyd olunur.

VB jurnalının səmərəli idarə olunması üçün onun saxlanma etibarlılığını yüksək səviyyədə təmin etmək və jurnalın özünü işlək vəziyyətdə saxlamaq lazımdır. Bu məqsədlə sistemdə VB jurnalı bir neçə nüsxədə saxlanır.

5. VB-nin tamlığının və təhlükəsizliyinin təmin ediməsi bütün VB-lərin, ələlxüsus şəbəkə mühitində işləyən VB-nin səmərəli fəaliyyəti üçün lazımi şərtdir.

VB-nin tamlığı o deməkdir ki, VB-də tam, ziddiyyətsiz və tətbiq sahəsini adekvat əks etdirən informasiya saxlanır. VB-nin tamlığmın təmin edilməsi onun tamlığmın yoxlanması və verilənlər arasında ziddiyyət aşkar edildikdə onun bərpa edilməsi ilə əldə edilir. VB-nin tamlığı VB-də saxlanan verilənlərə qoyulan şərtləri əks etdirən tamlıq məhdudiyyətləri ilə ifadə edilir. Bu cür şərtlərə misal olaraq atributların mümkün qiymətlərinin dəyişmə diapazonlarına qoyulan şərtləri və ya relasiya VB-nin cədvəllərində təkrarlanan yazıların olmaması şərtini göstərmək olar.

VB-nin təhlükəsizliyi verilənlərin və tətbiqi proqramların şifrələnməsi, parol mexanizmi ilə mühafizə, VB-yə və onun ayrı-ayrı elementlərinə (cədvəllərə, formalara, hesabatlara və s.) müraciət səviyyəsinin tənzimlənməsi və digər vasitələrlə təmin edilir.

VBİS-in linqvistik və proqram təminatı . VBİS-in linqvistik vasitələrinə onun fəaliyyəti üçün istifadə olunan müxtəlif dillər və lüğətlər daxildir. Lüğətlər sistem kataloqunda saxlamr.

VBİS-də istifadə olunan dillərə aşağıdakılar aiddir:

- verilənlərin təsviri üçün dillər;
- verilənlərlə əməliyyat aparmaq üçün dillər;
- tətbiqi proqramların yaradılması üçün işlədilən dillər;

Həm istifadəçilər, həm də VB-nin adminstratoru verilənlərin strukturunun təyini və dəqiq təsviri məqsədilə verilənlərin təsviri dillərindən istifadə edirlər. Verilənlərin təsviri üçün səmə-rəli dillərin yaradılması verilənlər bazalarının və onların idarəetmə sistemlərinin layihələndirilməsində mühüm problemlərindən biri sayılır. Bu dillər kompüter texnologiyası ilə məşğul olan bir sıra

öncül fırma və müəssisələr tərəfindən təklif olunmuş və yayılmışdır.

Verilənlərin təsviri metodlarını tədqiq etmək və səmərəli dillər yaradıb yaymaq məqsədilə kompüter texnologiyası, o cümlədən, verilənlər bazaları üzrə mütəxəssislər tədqiqat qrupları təşkil etmişlər. Onlara misal olaraq verilənlərin emalı sistemləri üçün dil vasitələrinin yaradılması ilə məşğul olan komitənin (CODASYL) verilənlər bazaları üzrə işçi qrupunu (DBTG), kompüter texnikası komitəsinin faylların təsviri və emalı üzrə xüsusi qrupunu (ACM SİGFİDET), verilənlərin idarəetmə sistemləri üzrə tədqiqat qrupunu (ANSİ/SPARC) göstərmək olar.

Təsvir səviyyəsinə uyğun olaraq verilənlərin təsviri üçün 3 tip dillərdən istifadə olunur:

- xarici sxemin - sorğuların - təsviri üçün dillər (istifadəçilərlə ünsiyyət dilləri);
- konseptual sxemin təsviri üçün dillər;
- daxili sxemin təsviri üçün dillər.

Hər tip istifadəçinin xüsusiyyətlərinə uyğun ünsiyyət dili var. İstifadəçi - proqramlar (tətbiqi proqramlar) üçün bu ya proramlaşdırma dillərindən biri (Pascal, Basic, C, Cobol və s.) və ya baxılan sistemin xüsusi dilidir.

İstifadəçi - şəxslər ünsiyyət dili kimi sorğu dilindən və xüsusi təyinatlı dildən istifadə edirlər.

Sorğu dili əsasən xüsusiləşdirilmiş xarakter daşıyır, yəni o istifadəçinin tələblərinin ödənilməsi baxımından yaradılır. Bəzi sistemlərdə istifadəçilər tətbiqi proqramçıların işlətdiyi dilə yaxın olan əmrlər dilindən istifadə edirlər. Lakin bu dil proqramçı olmayan istifadəçilər üçün çətinlik törədir. Bu səbəbdən də inkişaf etmiş VBİS-lərdə istifadəçi-şəxslər üçün xüsusi sorğu dilləri yaradılır. Müasir VBİS-lərdə əsasən QBE və SQL dillərindən istifadə edilir və VBİS-lərin demək olar ki, hamısı SQL dilini dəstəkləyirlər.

VBİS-lərdə xüsusi təyinatlı sorğu dillərindən də geniş istifadə olunur. Bu dillər əsasən interaktiv rejimdə işləmək üçün nəzərdə

tutulur və dialoq dilləri adlanır. Dialoq dili quruluşuna və öyrənilməsinə görə daha sadə olub, təbii dilə yaxındır.

Dialoq dilinin də müxtəlif formaları mövcuddur. Bu formalar sistemlə istifadəçi arasındakı dialoqun təşkili üsulu ilə bağlıdırlar. İstifadəçi ilə sistem arasında 3 tip dialoq mümkündür: 1) təşəbbüskarı sistem olan dialoq; 2) təşəbbüskarı istifadəçi olan dialoq; 3) qarışıq (sərbəst) dialoq, yəni təşəbbüskarı həm sistem, həm də istifadəçi ola bilən dialoq. Hər 3 tip dialoq üçün yararlı olan ümumi bir dildən istifadə oluna bilər. Lakin bu cür dilin öyrənilməsi və işlədilməsi çətinlik törədir. Odur ki, hər bir dialoq tipinə uyğun xüsusi dildən istifadə edilir.

Təşəbbüskarı istifadəçi olan və qarışıq tipli dialoqlarda əmr-ər dillərinin bu və ya digər növlərindən istifadə edilir. Təşəbbüskarı sistem olan dialoqlu sistemlərdə isə ən geniş yayılmış sorğu dili «menyu» prinsipi əsasında qurulan dildir. Bu dil quruluşca sadə və təbii dilə daha yaxın olduğundan istifadəçilər üçün əlverişlidir. Sistem istifadəçiyə onun informasiyaya olan sorğusunu ödəmək məqsədilə suallar verir. Bu suallara cavabın verilməsini asanlaşdırmaq üçün istifadəçiyə mümkün cavabların siyahısı (menyu) təqdim edilir. Menyudan seçmə prinsipinə uyğun olaraq istifadəçi lazımi cavabları seçib, sistemə çatdırır. Menyu dilinin elementlərindən qarışıq tipli dialoq tətbiq edilən sistemlərdə də işlədilə bilər. «Menyu» dili təbii dilin normallaşdırılmış formalarmdan biri olduğundan, intellektual sistemlərdə, o cümlədən, onların interfeyslərində geniş istifadə olunur.

Konseptual və daxili sxemlərin təsviri üçün və həmçinin verilənlərlə əməliyyat aparmaq üçün tərkibində faylların, yazılarm və onlar arasındakı əlaqələrin təsviri üçün konstruksiyalar olan proqramlaşdırma dilindən və ya sistemin xüsusi dilindən istifadə olunur. Bu məqsədlə istifadə edilən xüsusi dillərə misal olaraq iyerarxik modelli İMS sistemi üçün yaradılmış DL/1, şəbəkə modelli sistemlər üçün yaradılmış CODASYL, relasiya modelli sistemlər üçün yaradılmış SQL dillərini göstərmək olar.

Bütün bu dilləri ümumiləşdirsək, demək olar ki, onların h-mısı verilənlər bazasımn obyektləri və əməliyyatları ilə bağlı konstruksiyalardan ibarət olan verilənlərin altdilinə malikdirlər. Baza dili adlandırılan proqramlaşdırma dilində verüənlərin altdili onun içərisinə daxil edilmişdir, yəni baza dili VB ilə bağlı olmayan konstruksiyalara da malikdir. Sistem bir neçə baza dilini və verilənlərin altdilini reallaşdıra bilər. Lakin SQL dilindən praktik olaraq bugünkü sistemlərin hamısında istifadə olunur. Bəzi sistemlərdə SQL ayrıca dil kimi, bəzilərində isə baza dilinə (C, Cobol) daxil edilmiş verilənlərin altdili kimi reallaşdırıhr. SQL dili relasiya modelli sistemlərin standart dili kimi qəbul edilmişdir.

Arxitektura baxımından verilənlərin altdilini və baza dilini bir-birindən ayırmağın əlverişli olmasma baxmayaraq, praktikada onlar bir-birindən ayrılmaya bilərlər. İstifadəçi baxımmdan onların bir-birindən ayrılmaması məqsədəuyğundur. Əgər onlar bir-birindən ayrılmırsa və ya çətin ayrılırsa, onlara bərk əlaqəli dillər deyilir. Əgər onlar aşkarca fərqlənirsə, zəif əlaqəli dillər adlanırlar. Bərk əlaqəli dillər istifadəçilərə geniş imkanlar verirlər. Odur ki, bütövlükdə bərk əlaqəli dillərə keçilməsi məqsədə uy-ğun sayılır.

Proqram vasitələri. VBİS-in proqram təminatı verilənlər bazasının yaradılması və istismarı ilə əlaqədar olan proseduraları yerinə yetirən proqram modullarından ibarət olan mürəkkəb kompleksdir. Bu kompleksin yerinə yetirdiyi əsas fünksiyalar aşağıdakılardır:

- verilənlər bazasının yaradılması;
- verilənlər bazasının təshih edilməsi;
- verilənlər bazasının genişləndirilməsi;
- istifadəçi sorğularının emal üçün hazırlanması;
- verilərin axtarışı;
- verilənlər bazası ilə istifadəçilər arasmda interfeysin təşkili;
- axtarış nəticələri üzərində sorğunun tələb etdiyi əməliyyatların yerinə yetirilməsi;
- verilənlərin tamlığının və mühafızəsinin təmin edilməsi;
- sistemin interaktiv rejiminin idarə olunması;

- teleemal rejiminin idarə olunması;
- sistem kataloqunun yaradılması və idarə edilməsi.

İnformasiya sistemi fəaliyyət göstərən müəssisələrdə verilənlərin mərkəzləşdirilmiş idarə olunmasına məsuliyyəti verilənlərin administratoru daşıyır. Bu işin texniki təminatı isə verilən-lər bazasımn administratorunun üzərinə düşür. Beləliklə, verilənlər bazasınm administratoru verilənlərin mərkəzləşdirilmiş idarə olunmasma texniki səviyyədə cavab verir.

Verilənlər bazasının administratoru (VBA) verilənlər bazasına qoyulan tələblərin formalaşdırılmasına, onun layihələndirilməsinə, reallaşdırılmasına, səmərəli istifadə edilməsinə və müşayiət edilməsinə cavab verən şəxs və ya şəxslər qrupudur. Praktikada verilənlər bazasının administratoru adətən İS-in layihələndirilməsində, reallaşdırılmasında və tətbiqində bilavasitə iştirak edir.

Biristifadəçili lokal informasiya sistemində VBA sistemin yerinə yetirdiyi bütün funksiyalara özü cavabdehlik daşıyır. Şəbəkə mühitində fəaliyyət göstərən informasiya sistemində isə VBA bu cavabdehliyi şəbəkənin administratoru ilə birlikdə daşıyır. Bu halda şəbəkənin administratorunun vəzifələrinə aşağıdakılar aid edilir: şəbəkənin aparat-proqram vasitələrinin fəaliyyəti, şəbəkənin konfiqurasiyasının dəyişdirilməsi, avadanlıqda nazaslıq baş verdikdən və aradan qaldırıldıqdan sonra proqram təminatının bərpa edilməsi, profilaktik tədbirlər və sistemə müraciətin məhdudlaşdırılmasının təmini.

Müasir informasiya sistemlərində VBA-nın yerinə yetirdiyi əsas funksiyalara qısa nəzər salaq. Göstərilən funksiyaları yerinə yetirən proqramlar VBİS-in idarəedici proqramları sayılır. Bu proqramlardan əlavə VBİS-in tərkibinə yaddaş sərfini azaltmaq üçün verilənlərin sıxlaşdırılmasını və açılmasını yerinə yetirən proqramlar, verilənlərin düzgünlüyünü yoxlayan proqramlar və digər servis xarakterli proqramlar da daxil edilir.

VBİS-in və tətbiqi proqramın fəaliyyətinin proqram mühiti əməliyyat sistemidir. İnformasiya sisteminin işinin

qiymətləndirilməsində onun da rolu az deyildir. Bəzən əməliyyat sisteminin seçilməsi prinsipial xarakter daşıyır. Məsələn, Windows mühitində işləyən VBİS-dən istifadə edilməsi digər əməliyyat sistemlərinin seçilməsini mümkünsüz edir.

16.7.1. Azərbaycanın gömrük təşkilatlarında VAİS-in tətbiqi

Azərbaycanın Gömrük təşkilatlarında VAİS, gömrük sisteminin bütün səviyyələrində məlumat proseslərini həyata keçirən kompüter avadanlıqları və rabitə vasitələri də daxil olmaqla təşkilati qaydada sənədlər dəsti (sənədlər seriyası) və informasiya texnologiyaları olan gömrük fəaliyyəti proseslərini idarə edən avtomatlaşdırılmış bir sistemdir. VAIS-in yaradılması və tətbiqi məqsədi, dövlətin vahid gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsinin və gömrük orqanlarının kompüter texnologiyalarının tətbiqi və müasir məlumat ötürmə vasitələrindən və riyazi metodlardan istifadə əsasında öz funksiyalarının yerinə yetirilməsində fəaliyyətinin artırılmasıdır.

İndiki mərhələdə beynəlxalq ticarətin inkişafı üçün əsas şərtlərdən biri gömrük orqanlarının praktikasında informasiya texnologiyalarının geniş tətbiqi ilə əlaqədar gömrük prosedurlarının sadələşdirilməsidir. Ümumdünya Gömrük Təşkilatı gömrük prosedurlarını sadələşdirmək üçün mütəmadi olaraq xüsusi konfranslar keçirir. 1995-ci ildə Monrealada bildirildi ki, "gömrük prosedurlarının sadələşdirilməsinə ən böyük töhfə informasiya texnologiyalarından düzgün istifadə yolu ilə edilə bilər."

VAİS-in əsas funksiyaları bunlardır:

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin bölmələrini və dövlət qurumlarını gömrük statistikası üçün zəruri olan məlumatlarla təmin etmək;
- Bütün idarəetmə səviyyələrində gömrük orqanlarının təşkilati və iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi;
- Mallar üçün sənədlərə gömrük nəzarətinin avtomatlaşdırılması;

• Sərhəd yolu keçən sərnişinlərin baqajlarına gömrük nəzarətinin səmərəliliyinin artırılması;
• Gömrük ödənişlərinin mərkəzləşdirilmiş yığımının və nəzarətinin təmin edilməsi;
• Qaçaqmalçılıq və gömrük qanun pozuntularına qarşı mübarizədə informasiya dəstəyi;
• Xarici ticarət fəaliyyətinə gömrük-bank və valyuta nəzarəti üçün informasiya texnologiyalarının yaradılması.

Gömrük orqanlarında VAIS tərkibinə kompüter hesablama qurğuları (KHQ), proqram vasitələri və hesablama texnikasının proqram məlumat məhsulları (verilənlər bazası), texniki və məlumatlarının proqram-texniki qorunması vasitələri, LAN şəbəkəsi avadanlığı, telekommunikasiya avadanlığı, məlumat ötürmə şəbəkəsi daxildir.

Gömrük orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni səviyyəsinə, ilk növbədə Mərkəzi kompüter şəbəkəsinin modernləşdirilməsi, avtomatlaşdırılmış məlumat sisteminin, o cümlədən mərkəzləşdirilmiş kompüter şəbəkələrinin yaradılması yolu ilə nail olmaq mümkündür.

Hal-hazırda VAİS, xarici iqtisadi fəaliyyətə nəzarət ilə əlaqəli demək olar ki, bütün prosesləri avtomatlaşdıran hərtərəfli coğrafi paylanmış bir sistemdir. Xüsusilə VAİS, gömrük əməliyyatları, malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti ilə əlaqəli prosesləri, gömrük sahəsində gömrük orqanlarına verilmiş digər funksiyaları, habelə gömrük orqanlarının fəaliyyətini təmin edən funksiyaları təmin edir.

VAIS-in tərkibində informasiya və proqram vasitələri və məlumat bazaları da daxil olmaqla təxminən dörd yüzə yaxın funksional avtomatlaşdırılmış sistem fəaliyyət göstərir. Hesablama kompleksləri telekommunikasiya şəbəkələri ilə birləşdirilir və dörddə üçü 2 Mbit / s və daha yüksək ötürmə qabiliyyətinə malik iki min məlumat ötürmə kanalını əhatə edir.

VAIS-in işi yüksək keyfiyyətli mühəndis və texniki mütəxəssislər tərəfindən təmin olunur, onlardan kompüter

avadanlıqlarının, informasiya və proqram vasitələrinin fasiləsiz, müntəzəm işləməsi və rabitə kanalları vasitəsilə zəmanətli məlumat axının təmin edilməsi asılıdır.

VAIS texniki, məlumat, proqram, linqvistik təmin etmə növləri ilə xarakterizə olunaraq, texniki vasitələr kompleksinin qurulmasının əsas prinsiplərinə əsasən onun quruluşuna, nomenklaturasına və məlumatların toplanması, ötürülməsi, təqdim edilməsi və işlənməsi üçün texniki vasitələrin sayı ilə müəyyən edilir.

VAIS məlumat dəstəyi təsnifat və kodlaşdırma sisteminin, göstəricilər sisteminin, vahid gömrük sənədləri sistemlərinin və verilənlər bazası sənədlərinin birləşməsidir. İdarəetmə nöqteyi-nəzərindən, informasiya dəstəyi, bir tərəfdən, məlumat idarəetmə sistemlərinin və obyektlər haqqında məlumatların toplanması, işlənməsi və ötürülməsi üçün bir əlaqə sisteminin (müxtəlif səviyyələrdə) birləşməsidir, digər tərəfdən məlumatın yerləşdirilməsi və təşkili üçün metod və vasitələrin məcmusu, normativ-hüquqi bazanın mövcudluğunun tənzimləməsi və xüsusi təlim keçmiş kadrların olmasıdır.

VAIS, sistemdə birləşdirilmiş bütün komponentlərin məzmundakı məlumat uyğunluğu (anlayışların, terminlərin, tərifların vəhdəti), təsnifat və kodlaşdırma sistemləri, məlumat formatları, ictimai məlumatların təqdim etmə üsulları və formaları, məlumatların toplanması (təşkili) metodları əsasında inteqrasiyasını təmin edir. VAİS-in informasiya dəstəyi olaraq maşın və maşın daxilində məlumat bazaları inkişaf etdirilmişdir.

Təsnifat və kodlaşdırma sistemi aşağıdakılara cavab verməlidir:

-təsnifat və kodlaşdırma sistemi bütün VAIS komponentləri üçün vahid olmalıdır;

- VAIS tərəfindən istifadə olunan bütün təsnif edilmiş obyektləri tam əhatə etməli və tətbiq olunan problemlərin həlli üçün zəruri olan obyektlərin əsas əlamətlərini və xüsusiyyətlərini əks etdirməlidir;

-kifayət qədər və iqtisadi cəhətdən əsaslandırmaya sahib olmaqla, təsnif edilmiş obyektlərin, xüsusiyyətlərini genişləndirmək, təsnifat quruluşunu pozmadan lazımi düzəlişlər etmək və s. üçün müəyyən bir rahatlıq və ehtiyata malik olmalıdır.

VAIS proqramı, gömrük orqanlarının bütün səviyyələrində informasiya texnologiyalarının tətbiqi üçün bir vasitədir. Proqram və təlimatçı materialların birləşməsi ilə təmsil olunur və sistem səviyyəsinə bölünür və tətbiq olunur.

VAIS proqramı Vahid Biznes İnkişaf Standartına uyğun olaraq hazırlanır. Bu standart VAIS-in işləməsi üçün nəzərdə tutulmuş proqram təminatı, proqram sənədləri və təlimat materialları sistemidir və VAIS-in funksional vəzifələrinin həllini təmin edir.

Proqram təminatının hazırlanması və tətbiqi həyata keçirilmə vaxtı və ayrılmış maliyyə vəsaiti nəzərə alınmaqla mərhələlərlə həyata keçirilir.

Onun yaradılması kompüter şəbəkələrində işləyən paylanmış məlumat emalı sistemlərinin qurulması prinsiplərinə əsaslanır. Azərbaycanın gömrük orqanlarının idarə edilməsində VAİS-in rolu VAIS gömrük orqanlarının informasiya və texniki infrastrukturunun əsas tərkib hissəsidir və məlumat mənbələrinin, gömrük orqanlarının proqram təminatı, məlumat və telekommunikasiya sistemləri və şəbəkələrini tənzimləyir.

Hal hazırda VAIS gömrük orqanlarının təkmilləşdirilməsi və inkişafı, xarici iqtisadi fəaliyyətdəki inteqrasiya prosesləri, qanunvericilikdəki əhəmiyyətli dəyişikliklər, dövlət orqanlarının fəaliyyətinə yeniliklərin tətbiqi ilə birbaşa bağlıdır.

16.8. İQTİSADİ İNFORMASİYANIN İŞLƏNMƏSİNİN AVTOMATLAŞDIRILMASI TEXNOLOGİYALARI

16.8.1 AVTOMATLAŞDIRILMIŞ İŞ YERLƏRİ (AİY)

İqtisadi informasiyanın işlənməsinin avtomatlaşdırılmasının səviyyəsi birbaşa verilənlərin emalı texnologiyalarından asılıdır. Bu texnologiyalar isə öz novbəsində emalın yerinə yetirilməsində tətbiq olunan texnoloji proseslərin məcmuudur. Verilənlərin emalının texnoloji prosesi- iqtisadi məsələnin həlli üçün emal və informasiyanın ötürülməsi mərhələlərinin məntiqi ardıcıllığının təşkili üçün istifadə olunan üsul və vasitələrin toplusudur. Verilənlərin emalının texnoloji prosesinin mərhələsi dedikdə həmin prosesin müəyyən funksiyalarını reallaşdıran qarşılıqlı əlaqəli prosedurlar yığımı nəzərdə tutulur. Prosedura isə verilənlərin emalına uyğun texnoloji proseslərin reallaşdırılmasını təmin edən texnoloji əməliyyatlar yığımıdır. Texnoloji əməliyyatlar- elementar hərəkətlər olub, verilənlərin emalına uyğun texnoloji proseslərin

16.8.2. ELEKTRON- TİCARƏT VƏ ONUN İNFRASTRUKTURU

Müasir dövrdə internet və informasiya texnologiyaları hər bir ölkənin xarici iqtisadi fəaliyyətinin, məhsul və xidmətlər bazarının geoiqtisadi qlobal inkişafının effektiv vasitəsinə çevrilmişdir.

Bu gün İnternetdən sövdələşmələrin bağlanması, məhsul və xidmətlərin satışı məqsədi üçün universal kanal kimi istifadə edilir. Qeyd etmək lazımdır ki, belə sövdələşmələrin və satışın açıq şəbəkə vasitəsilə aparılması riskə məruzdur. Bu risk hər şeydən əvvəl şəbəkənin təhlükəsizliyinin və məxviliyinin tam təmin olunmamasından irəli gəlir. Lakin nəzərə almaq lazımdır ki, aşağı səviyyəli və açıq şəbəkədən istifadə xərclərin az olması baxımından daha sərfəlidir.

Müasir İnternet iqtisadiyyatın əsas istiqamətlərindən biri elektron ticarətdir. Bu sahə son illərdə daha dinamik inkişaf tempinə malikdir. Elektron ticarət nədir? Mövcud olan ən mükəmməl tərifl ərdən birinə görə elektron ticarət bir biri ilə birbaşa fiziki kontaktlar olmadan, müasir informasiya şəbəkələri və texnologiyalarından istifadə etməklə müxtəlif tərəflər arasında həyata keçirilən bütün növdən olan biznes və işgüzar əlaqələrdir. Ümumilikdə elektron ticarət işgüzar əməliyyatların bütün mövcud formalarını əhatə edir. Bu əlaqələrin qurulmasında isə müasir şəbəkə texnologiyaları və İKT əsas əlaqələndirici rolunu oynayır. Qeyd etmək lazımdır ki, bu işgüzar və biznes əlaqələri kompaniyalarla fərdlər, fiziki şəxslər, digər kompaniyalar, dövlət müəssisələri və təşkilatları arasında aparıla bilər. Elektron ticarət müxtəlif spektrli fəaliyyət növlərini özündə birləşdirir. Elektron ticarətin özünün fəaliyyəti isə texniki baxımdan tam, bütöv bir texnoloji dövrdür. Elektron ticarətin fəaliyyət dairəsinə məhsul və xidmətlərin reklamı, onların hərəkəti, məhsulun satış bazarında konyukturanın öyrənilməsini, elektron satış və ödəmələri, satılmış məhsulların çatdırılması və satışdan sonrakı təminatını əhatə edir. Elektron ticarətin müasir inkişaf səviyyəsi aparılan bütün kommersiya əməliyyatlarının, yəni sifarışın qəbulu və tərtibatı, məhsul və xidmətlərin daşınması və çatdırılmasını, satışa görə ödəniləcək məbləğlərin təqdimatı və ödənilməsini, satıcı ilə alıcı arasında əmələ gələn digər münasibət və əlaqələrin yerləşmə məkanından asılı olmayaraq İnternet vasitəsilə həyata keçirilməsinə imkan verir.

Elektron ticarətdə fiziki məhsullarla intellektual və informasiya məhsullarının satışı arasındakı fərqi mütləq nəzərə almaq lazımdır. Fiziki məhsulların elektron ticarəti özündə ənənəvi ticarətin müasir inkişafını əks etdirir. Bu inkişaf məhsul istehsalının rentabelliyinin və səmərəliliyinin artırılmasını, bazar potensialının yüksəldilməsini, istehlakçıların tələblərinin daha yaxşı ödənilməsini, transaksion xərclərin və əməkdaşların məşğulluğunun azaldılmasını təmin edir.

İntellektual və informasiya məhsullarının elektron ticarəti satışın yeni növüdür. Qeyd etmək lazımdır ki, bu növ məhsulların satışı üzrə tam kommersiya əməliyyatları eyni bir şəbəkə vasitəsilə həyata keçirilir. Bu isə öz növbəsində ənənəvi olmayan bazar yaradır. Belə bazarın yaranması insanların hüquqlarının qorunması, intellektual mülkiyyətin mühafizəsi məqsədilə beynəlxalq ticarət qaydalarına uyğun xüsusi qayda və qanunların yaradılmasını tələb edir. Beləliklə elektron ticarət törəmə bazardır.

Yüksək sürətlə dəyişən mühitdə biz biznesin, ticarət cəmiyyətlərinin, mal və xidmətlərin satışı bazarının həddən artıq çox sayda innovasiyalı virtual formalarının inkişafını müşahidə edirik. Bir çox müəssisələr və şirkətlər üçün İnternetdən istifadə imkanı sifarişlərin çatdırılması və qəbulu əməliyyatlarını distribütorlar tərəfindən deyil məhz özləri tərəfindən yerinə yetirilməsini adi hala çevirir. Distribütorlar isə öz növbəsində virtual mühitə daxil olaraq mal və xidmətlərin hərəkətini İnternet texnologiyaların tətbiqi ilə virtual hərəkətə çevirir.

Şəbəkə texnologiyalarından istifadə ilə alıcılar, satıcılar və vasitəçilər mal və xidmətlərin İnternet bazarını yaradır. Bu bazar müasir dövrdə dünya iqtisadiyyatının müxtəlif sahələrində böyük gəlirlərin əldə olunmasına şərait yaradır.

Müasir informasiya texnologiyalarının biznesə inteqrasiyası dünya bazarında məhsul və xidmətlərin istehsalçılarının imkanlarının hissolunacaq dərəcədə genişlənmə ilə xarakterizə olunaraq, müəssisələrin rəqabətədavamlılığını artırır və istehlakçıların günü-gündən artan tələbatlarının təmin olunmasına zəmin yaradır.

Elektron ticarətin müxtəlif dünya ölkələrində inkişaf səviyyəsi fərqlidir. Bu hər şeydən əvvəl ölkədə informasiya texnologiyalarından istifadənin və iqtisadi inkişafın səviyyəsindən asılıdır. Şübhəsiz bu sahədə lider ABŞ-dır. Forrester Research kompaniyasının məlumatlarına görə Avropa bu sahədə ABŞ-dan 2-3 il geri qalır.

Elektron ticarətin inkişafı bir çox dünya ölkələrinin iqtisadiyyatının strukturunda köklü dəyişikliklərin baş verəcəyinə və yeni iqtisadi inteqrasiyaya səbəb olacaq.

İnternetdən istifadə və elektron ticarətin tətbiqi kiçik və orta biznesin inkişafında xüsusi əhəmiyyətə malikdir. Belə ki, elektron ticarət onların öz məhsul və xidmətləri ilə dünya bazarına çıxmasına imkan verəcək. Bütün bunlarla bərabər iqtisadiyyatın malların böyük məsafələrə çatdırılması ilə məşğul olan sahələri də İnternetdən gündəlik fəaliyyətlərində müvəffəqiyyətlə istifadə edirlər.

Elektron ticarət mal satanlar və alıcılar arasında yeni münasibətlərin yaranmasına səbəb olur. Belə ki, mal seçiminin imkanları genişlənir, faktura və digər xərclər azalır.

Öz təbiətinə görə elektron ticarət transmilli olub beynəlxalq mal və xidmətlərin satışının genişlənməsinə səbəb olur, vahid bazarda rəqabətin inkişafını birbaşa stimullaşdırır.

Elektron ticarət əslində müasir dövrdə geniş sahəni əhatə edir. Buraya ixtiyari kommersiya əməliyyatları aid edilir. Elektron ticarətin bəzi formaları indiyədək mövcud olan biznesin modernləşmiş variantıdır. Elektron ticarətin belə çoxşaxəli xüsusiyyəti ona müxtəlif tərifl ərin verilməsinə səbəb olmuşdur: Elektron ticarətin və ya biznesin elektron variantda aparılması, özündə elektron sənəd dövriyyəsini, elektron satış və elektron ödəmələri birləşdirən işguzar fəaliyyət mühitidir. Başqa bir tərifə görə elektron ticarət mövcud tərəfdaşlıq əlaqələri bazasında mal və xidmətlərin mübadiləsinin elektron kommunikasiya vasitələri ilə aparılan iqtisadi prosesdir.

Elektron ticarətin əsas hüquqi prinsipi ondan ibarətdir ki, tərəflərdən heç biri onlar arasındakı sövdələşməni qanuniliyini onun elektron üsulla aparılmasına görə şübhə altına salmamalıdır. Xidmət (1993) və telekommunikasiyalar (1997) üzrə Ümumdünya Ticarət Təşkilatı çərçivəsində dünyanın bir çox ölkələri öz üzərlərinə geniş miqyasda elektron ticarətə başlamaq öhdəliklərini götürmüşlər. Eyni zamanda hal-hazırda elektron bazara bir çox

dünya ölkkələrinin daxil olmasına mane olan səbəblərin aradan qaldırılması istiqamətində də ciddi işlər görülür. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, beynəlxalq elektron ticarətin bərqərar olması üçün etibarlı mexanizmin yaradılmasının müxtəlif səpgili problemləri hələ də mövcuddur. Bu hər şeydən əvvəl buraya müxtəlif ölkələrdə elektron ticarətin standartlarındakı fərqləri, ödənişlərin təhlükəsizliyini, "kibercinayətkarlıq"la mübarizəni, etibarlılıq və inam Kodeksinin yaradılmasını aid etmək olar. Bu problemlər əslində Beynəlxalq Ticarət Təşkilatına üzv olan dövlətlərə aid problemlərdir. Lakin məlumdur ki, dünyanın bir çox ölkələri bu təşkilatın üzvü deyil. Məhz bu səbəbdən də təşkilata üzv olmayan ölkələrdə elektron ticarətin inkişafı müxtəlif büdrəmələrlə və neqativ nəticələrlə inkişaf edir. Belə mənfi hallar isə həmin ölkələrin inkişaf istiqamətində gedən proseslərdən geri qalmasına və arzuolunmaz iqtisadi vəziyyətlə rastlaşmasına gətirib çıxara bilər.

Elektron ticarətin ölkədə inkişafı əslində müəyyən infrastrukturun yaradılması və inkişafını tələb edir. Buraya elektron mağazaların və virtual kiberkompaniyaların yaradılmasını, elektron ödəmələri həyata keçirə bilən bank sisteminin olmasını. İnternet reklam və marketinqin inkişafını və s. aid etmək olar.

Hər bir ölkənin elektron ticarət sistemini yaratmaqda ilkin rastlaşdığı problem dövlət ehtiyaclarının ödənilməsinin həllidir. Dövlət ehtiyacları üçün elektron ticarətin təşkilinə ümumilikdə elektron ticarətin yaradılmasının başlıca istiqaməti kimi qəbul etmək lazımdır. Qeyd etmək lazımdır ki, bu yönümdə hazırlanan və həyata keçirilməsi nəzərdə tutulan proqram ölkənin biznes sahəsindəki informasiya texnologiyalarının tətbiqinin əsası olmalıdır. Lakin inkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki. Elektron ticarətin tətbiqi iqtisadiyyata yeni texnologiya və üsulların gətirilməsini və mütəşəkkil şəkildə onların tətbiqini tələb edir. Dövlət ehtiyaclarının ödənilməsi məqsədilə elektron ticarət sisteminin yaradılması birbaşa ölkədə istehsal olunan məhsullar və göstərilən xidmətlərə uyğun vahid verilənlər bazasının

yaradılmasını ilkin şərt kimi qarşıya qoyur. Belə bazanın mövcudluğu mal və xidmətlərin bütün nomenklatur spektrinin nizamlanmasına imkan verir.

Elektron ticarət sisteminin yaradılması istiqamətində həyata keçirilməsi lazım bilinən ikinci tədbir ölkə üzrə ümumi informasiya-marketinq şəbəkəsi siteminin yaradılmasıdır. Bu sistemin əsas vəzifəsi bütün səviyyələrdə olab dövlət strukturlarını bazar haqqında analitik informasiya ilə təmin etməkdir. Burada əsas diqqəti informasiya-marketinq şəbəkələri ilə birgə elektron imzaları təsdiq edən elektron mərkəzlərin və elektron ödəmə sistemlərinin mövcudluğunun da təmin edilməsinə yönəldilməlidir. Əks halda ayrılıqda informasiya-marketinq şəbəkələrinin fəaliyyəti heç bir nəticə verə bilməz.

Nəhayət elektron ticarət sisteminin yaradılmasında sonuncu tədbir elektron ticarətin ölkə daxilində fəaliyyətinin tədarük sferası da daxil olmaqla monitorinqini aparan mərkəzin yaradılmasıdır.

Aydındır ki, belə irimiqyaslı, əhəmiyyətli sistemin yaradılması onun əsas konsepsiyasını yaratmadan mümkün deyil. Elektron ticarətin dövlət ehtiyacları üçün yaradılmış sisteminin ümumi konsepsiyalarının hazırlanması müasir böyük sistemlərin layihələndirilməsi metodologiyalarına uyğun olaraq aparılır. Bu layihələndirmədə əsas yeri ümumi tendensiyaların təhlili tutur. Qeyd etmək lazımdır ki, dövlət tədarükləri, əhalinin tələbatı, istehsal olunan məhsullar, göstərilən xidmətlər, onların təqribi də olsa həcmi, perspektiv inkişaf istiqamətləri və inkişaf tempi, avtomatlaşdırılmış mühitin mövcudluğu və fəaliyyət səviyyəsi və sairin öyrənilməsi ilə bərabər elektron ticarətin təşkilinin aşağıda göstərilən operativ texniki prinsiplərinə də riayət olunması tələb olunur:

- ölkədaxili ehtiyacların ödənilməsi üçün lazım olan tədarüklərin maksimal informasiya aşkarlığının təmini;
- dövlət strukturlarının idarə etmə və fəaliyyətində İKT-nin tətbiq səviyyəsinin öyrənilməsi və inkişaf etdirilməsi;
- İnternet-texnologiyaların prioritet tətbiqi;

- mümkün qədər qısa müddətə dövlət ehtiyaclarının ödənilməsinə yönəldilmiş elektron ticarət sisteminin yaradılması;

- yaradılmış elektron ticarət sistemi çoxsəviyyəli elektron hesablama sistemi kimi fəaliyyət göstərməlidir;

- İKT-larının tətbiq və istifadə sahələrinin genişləndirilməsi ilə bərabər həm də kompüterlər, yeni texniki vasitələrin ölkədə istehsalının artırılması;

- göstərilənlərin həyata keçirilməsi məqsədilə bütün texniki qərarların vahid sistem halına salınaraq lazımi səviyyələrə vaxtında çatdırılması .

Qeyd olunan operativ-texniki prinsiplərlə bərabər ümumi təşkilatı prinsiplərə də riayət edilməlidir. Bu təşkilati prinsiplər aşağıdakılardır:

- baş idarələrlə əlaqəli şəkildə sistemin yaradılmasında iştirak edən və bütün səviyyələrdə olan icraçıların birgə işinin təşkili;

- bütün dövlət xidmətləri üçün mərhələli şəkildə elektron ticarət sisteminin yaradılması və tətbiqi;

- elektron ticarət sisteminin yaradılmasını digər dövlət əhəmiyyətli və beynəlxalq məsələlərlə əlaqəli həyata keçirilməsi;

Bu prinsiplərin həyata keçirilməsi texniki və təşkilatı təminatla bərabər, həm də iri həcmli maliyyə vəsaitləri tələb edir. Eyni zamanda elektron ticarət sisteminin yaradılması yeni intellektual səviyyəli kadrların olmasını və dünya praktikasının bu sahədəki təcrübələrindən şəraitə uyğun istifadə edilməsini tələb edir.

Elektron ticarət sisteminin yaradılmasında rast gəlinən üç əsas maneə aşağıdakılardır:

- telekommunikasiya şəbəkələrinin keyfiyyətinin lazımi səviyyədə olmaması;

- informasiya təhlükəsizliyinin və mühafizəsinin aşağı səviyyədə olması;

- prosesin tam, müfəssəl hüquqi bazsının olmaması.

Qeyd etmək lazımdır ki, göstərilən maneələrdən ilk ikisi texniki təminat və proqram vasitələri ilə müəyyən dərəcədə aradan

qaldırıla bilərsə də. sonuncu maneənin aradan qaldırılması dövlət tərəfindən beynəlxalq prinsiplərə uyğun və müasir dünyada mövcud sistemlə əlaqələndirilmiş hüquqi əsasın işlənib hazırlanaraq həyata keçirilməsini tələb edir.

Bütün elektron sistemlərdə olduğu kimi elektron ticarətdə də razılaşmalar, sövdələşmələr və alqı-satqı prosesləri verilən və məlumatların mübadiləsi ilə aparılır. Bu mübadilə bütün dünyada "elektron verilənlərin mübadiləsi" kimi adlandırılan əvvəlcədən razılaşdırılmış və qəbul edilmiş sxem üzrə aparılır. Verilənlərin elektron emalı elektron ticarətdə də həm ölkə daxilində. Həm də xarici əlaqələrdə geniş istifadə edilir. Istənilən ölkədə elektron kommunikasiya vasitələrinin mövcudluğu elektron verilənlərin mübadiləsi mühitini yaradır. Elektron ticarət sisteminin qurulması və fəaliyyətində də elektron verilənlərin mübadiləsinin mühüm rolu vardır. Ümumiyyətlə elektron verilənlər mübadiləsi bir çox üstünlükləri ilə hər bir elektron prosesdə tətbiq edilir. Bu üstünlüklərə aşağıdakıları aid etmək olar:

- istənilən sahəyə aid informasiyanın ötürülməsində dəqiqlik artır;
- səhvlərin və xətaların səviyyəsi azalır;
- aparılan proseslərə insan müdaxiləsinin səviyyəsi aşağı düşür;
- əməliyyatların dəyəri və müxtəlif məsrəflərin miqdarı azalır;
- eyni verilənlərdən dəfələrlə təkrar olaraq istifadə imkanı yaranır;
- informasianın saxlanılması daha sərfəli və az yer tələb edən olur;
- müxtəlif instansiyalar arasında informasiya mübadiləsi sürətlənir;
- xərclərin azalması istehsalçı və istehlakçılar arasındakı qarşılıqlı əlaqələrin genişlənməsinə səbəb olur;
- marketinqinqin səviyyəsi yüksəlir. Mal və xidmətlərin çatdırılmasının çevik qrafikinin təşkili və tətbiqinə imkan yaranır;

- çoxzəhmət tələb edən işlərin aradan qalxması ilə əlaqədar olaraq məhsuldarlıq artır ;

- istehsal proqramları və prosedurları üçün vahid proqram tərtibinə imkan yaranır;

- işçilərin sayı azalır.

Bütün göstərilənlərlə bərabər elektron ticarətin təşəkkül tapması digər sahələrdə də bank işində maliyyə əməliyyatlarının aparılmasında elektron sistemlərin yaranmasına səbəb olur.

16.9. ELEKTRON HAKİMİYYƏT VƏ İDARƏETMƏ, ONLARIN KEYFİYYƏT MEYARLARI. ELEKTRON DÖVLƏT VƏ ELEKTRON HÖKUMƏT

İnformasiya cəmiyyətinə gedən yol bəşəriyyətin gələcəyinə gedən yoldur. Bu irəliləyiş mövcud təsəvvürlərin çoxunu dəyişir. İnformasiya texnologiyalarının müasir imkanları istənilən ölkədə regionlararası və qlobal əlaqələrin genişlənməsinə kömək edir. son illərdə dünya ölkələrinin hökümətləri informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə öz işlərinin keyfiyyətini və səmərəliliyini yüksəldirlər. Hökümətin fəaliyyətində elektron imkanlardan istifadə üzrə proqramlar və bu istiqamətdə aparılan cəhdlər beynəlxalq aləmdə "e Government" adını almışdır. Artıq dünya təcrübəsi göstərir ki, İKT-nın tətbiqi vətəndaşlar və biznesə dövlət orqanlarının yüksək keyfiyyətli xidmətlərindən istifadə etməyə və bu xidmətlərin dəyərinin azaldılmasına səbəb olur. "e Government" termini "Elektron hökumət" kimi tərcümə edilir. Əslində tam düzgün tərcümədə bu termin "elektron dövlət" mənasını verir. "Elektron hökumət" terminində hakimiyyətin yalnız bir qolu olan icra strukturları əks olunur. Lakin "elektron dövlət", "elektron hakimiyyət" və ya "elektron idarəetmə" terminləri bütün dövlət strukturlarını əhatə edir.

Elektron hakimiyyət konsepsiyasının əsasını hakimiyyət orqanlarının və idarəetmənin fəaliyyətinin idarəçilik yönümündən vətəndaşların və təsərrüfat subyektlərinin tələbatlarına uyğun istiqamətə yönəldilməsi təşkil edir. Menecmentdə belə yanaşma "müştəri-yönümlü yanaşma" adlanır. Qeyd etmək lazımdır ki, aparılan tədqiqatlar və təcrübələr göstərir ki, hakimiyyət və idarəetmənin mövcud səmərəsiz prosedurlarının informasiyalaşdırılması və həmin fəaliyyət strukturlarında İKT-nın tətbiqi təhlükəlidir. Buna görə də hakimiyyət və idarəetmə orqanlarının, dövlət strukturlarının əsas fəaliyyət proseslərini kökündən dəyişmək lazımdır. Eyni zamanda hakimiyyətin müasir tələblərə uyğun fəaliyyətinin təmini üçün "bir pəncərə prinsipindən" istifadə olunmalıdır. Bu prinsipin tətbiqi vətəndaşlarla idarə və hakimiyyət orqanları arasında birbaşa əlaqənin yaranmasına şərait yaradacaq. Əslində bir pəncərə prinsipinin tətbiqi vətəndaşları təşkilatdan-təşkilata, idarədən-idarəyə getməsini, adi sənəddən ötrü süründürməçiliyi aradan qaldırır. Lakin bütün qeyd olunanların həyata keçirilməsi üçün ölkədə idarələr arasında informasiya mübadiləsini və onların əlaqəli işləməsinin təmin etmək məqsədilə ümumilli standartlar və reqlamentlər işlənib hazırlanmalıdır.

Son onillikdə hakimiyyət və idarəetmənin yenidən qurulması "Yeni dövlət menecmentinə" istinad edilərək həyata keçirilir. Yeni dövlət menecmenti 1970-ci illərdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə başlayan "yenidən qurulan dövlət" hərəkatının çərçivəsində yaranmışdır. Bir çox mütəxəssislərin fikrinə görə qeyd olunan hərəkat son yuz ildə dövlət idarəetməsi fəlsəfəsində və paradiqmasında ən ciddi dəyişiklikdir. Qeyd edək ki, "yenidən qurulan dövlət" konsepsiyasının müəllifi Devid Osborn və Ted Qebler olmuşdur. Onlar konsepsiyanı hansısa normativlər kimi deyil, dövlət idarəetməsində ümumiləşmiş dəyişikliklər kimi verirlər. İlkin prinsiplər aşağıdakı kimi verilir:

- dövlətə qaçılmaz bədbəxtlik kimi deyil, kollektiv fəaliyyətin üsulu və ictimai problemlərin həlli kimi baxılır;

- səmərəli dövlətçilik informasiya cəmiyyətinin və biliklər iqtisadiyyatının tələblərinə uyğun olmalı, böyük, mərkəzləşdirilmiş və standartlaşdırılmış bürokratiya keçmişdə qalmalıdır;

- dövlət idarəetməsinin problemi insan yox. Bürokratik sistemin özüdür;

- ənənəvi demokratiya dövlətin bu günə mövcud olan problemlərini vəsaitlərin bölüşdürülməsi ilə həll edilə bilməz. Odur ki, problemin həllinin səmərəliliyi hökumətin "yenidən ixtirası"ndan asılıdır;

- bütün vətəndaşlar üçün imkanların bərabərliyinin təmin olunması prinsipinə əsaslanmaq lazımdır.

Bu konsepsiyanın əsas ideyası ondan ibarətdir ki, dövlətin özünə yox. Onu stimullaşdıran dəyişikliklərə vermək lazımdır ki, hakimiyyət və idarəetmə daha səmərəli çevik olsun. Bu isə sonda bütün resursların aşağı səviyyədən daha səmərəli olan yuxarı səviyyəyə keçməsinə şərait yaradar. Hakimiyyət və idarəetmədə elektron vasitələrin tətbiqi dövlətin idarəedilməsində elektron variantın tətbiqindən başlayır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş dünya ölkələrində elektron hakimiyyət və idarəetmənin tətbiqi "hökumətin yenidən qurulması" konsepsiyasının əsas prinsiplərinə əsaslanaraq həyata keçirilir. Bu prinsiplər aşağıdakılardır:

- hökumət üçün xidmətlər təqdim edə biləcək strukturların rəqabətinin mövcudluğu;

- yerli cəmiyyətlərə böyük səlahiyyətlər vermək;

- dövlət aparatının fəaliyyətinin nəticələrinin ölçülməsində son nəticəyə görə qiymətləndirmənin əsas istiqamət kimi götürülməsi və bununla da fəaliyyətin təkmilləşməsinə nail olunması;

- sadəcə olaraq qaydalara riayət etmək əvəzinə dövlət strukturunun çevikliyi və innovasiyalılığına yönələn missiyaların yerinə yetirilməsi;

- "servis dövlət" modelinin tətbiqini təmin etməklə dövlət sektoru təşkilatları arasında vəsaitlərin bölüşdürülməsində siyasiləşməni azaldır, məsuliyyəti artırır;

- uzunmüddətli planlaşdırma, proflaktika və qabaqlama üsulları ilə daha az xərclərlə problemləri həll etmək;

- dövlət strukturunu pulu xərcləməyə deyil, onu qazanmağa yönləndirmək;

- hökümətin fəaliyyətinin mərkəzləşməsinin ləğv edərək böyük səlahiyyətlərə malik qulluqçulardan ibarət layihə komandalarını yaratmaq;

- dövlət strukturunun fəaliyyətinin bazar mexanizmlərinə istinadını təmin etmək;

- dövlət ictimai problemlərin həlli üçün kommersiya və qeyri-dövlət sektorunda dəyişikliklərin katalizatoru kimi çıxış etməlidir.

Sonuncu bənd "müşahidə et, amma yığışdırma" prinsipi kimi qəbul edilir. İdeya ondan ibarətdir ki, əgər hökumət bütün gücünü təsərrüfat işlərinə sərf edərsə, onun yeni kursun müəyyənləşdirilməsinə imkanı qalmayacaq. Başqa sözlə iri miqyaslı dövlət tapşırıqlarının yerinə yetirilməsinə ehtiyatlar kifayət etməyəcək, bu səbəbdən də kommersiya və digər istehsal sektorlarının imkanlarını ictimai problemlərin həllinə yönəltmək tələb olunur. Qeyd etmək lazımdır ki, bir çox ölkələrin dövlət xidmətləri heç də yaxşı dövrlərini yaşamırlar. Dövlət xidmətlərinin islahatlarının əsasını aşağıdakılar təşkil edir:

- məcmu məşğulluğun artması və əmək haqqına xərclər müxtəlif səviyyələrin büdcələ-rinə düşən yükü daima artırır;

- dövlət işçilərinin zəif dəlilləri və ixtisaslı heyətin çatışmamazlığı dövlət aparatının fəaliyyətinin səmərəliliyiynin azalmasına səbəb olur;

- korrupsiyanın və süründürməçiliyin inkişafı cəmiyyətin çinovniklərə və dövlət aparatına inamının azalması ilə müşayət olunur;

- dəyişikliklərə dövlət aparatının zəif reaksiyası dövlət xidmətlərinin aşağı keyfiyyətli olmasına və səmərəsiz fəailiyyətinə səbəb olur;

Yeni dövlət menecmenti konsepsiyasının müxtəlif ölkələrdə ayrı-ayrı adlarla mövcud olan formaları eyni komponenetlərə malik olmuşlar. Bu konsepsiyanın aşağıdakı baza prinsipləri mövcuddur:

-dövlət müəssisələrində şəxsi şirkətlərə aid olan menecmentdən istifadə edilməsi, rəh-bərliyin bürokratik üslubdan daha çevik və elektron texnologiyalarına əsaslanan yeni üsul-ların tətbiqinə keçidinə imkan yaradır;

- dövlət sektorunda rəqabətin bərqərar olmasının təmini və bununla xidmətlərin gecik-məsinin aradan qaldırılması və onların keyfiyyətinin yüksəldilməsinin təmin olunması, təşkilatlarda və dövlət sektorunun daxilində müqavilə münasibətlərinin aktiv istifadəsinin təmin olunmasının həyata keçirilməsi;

- dövlət idarələri bazasında təşkilat və vətəndaşlara yüksək keyfiyyətli və müasir tə-ləblərə cavab verən xidmətlərin göstərilməsini təmin edən bölmələrin yaradılması;

- yaradılmış bölmələrin fəaliyyətinin dəqiq standartlarının və məqsədlərin öyrənilmə-sinin təmini, qoyulan tapşırığın müvəffəqiyyətinin təyini indikatorunun müəyyənləşdirilmə-si;

-nəticələrin alınma prosesinin deyil nəticələrin qiymətləndirilməsi; prosesdə iştirak edən və səmərəliliyin artırılması ilə məqsədə çatanların nəticələrə uyğun irəliyə çəkilməsi, mükafatlandırılmasının həyata keçirilməsi;

-nizam-intizamın gücləndirilməsi, insan ehtiyatlarından düzgün istifadə, xərclərin azaldılması.

Qeyd edək ki. baza prinsiplərinin bərqərar olması yuxarı səviyyəli dövlət strukturlarının fəaliyyətinin effektiv olmayan cəhətlərinin tez bir zamanda aşkarlanmasına və onların fəaliyyət dairələrinin aşağı səviyyəli idarəetmə aparatına verilməsinə və beləliklə vətəndaşlarla dövlət arasındakı sədlərin ləğvinə səbəb olur.

Korporativ idarəetmə prinsiplərinin hakimiyyət və idarəetmənin yenidən qurulmasına tətbiqində inzibatçılıq prosesinin mövcud spesifikasını nəzərə almaq lazımdır. Dövlət idarəetməsi dövlət təşkilatlarının fəaliyyətində xüsusi mexanizmlərin nizamlanması yolu ilə həyata keçirilir və dövlət funksionerlərinin tapşırıqları yerinə yetirməsini təmin edir. Qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində dövlət fəaliyyəti üç əsas sferada əks olunur. Bu sferalar siyasi, hüquqi və sosial-iqtisadi sferalardır. Qeyd olunan sferaların hər biri öz ənənələrinə, sərvətlərinə və işin təşkili spesifikasına malikdirlər. Dövlət inzibatçılığı bu üç dövlət fəaliyyəti sferalarının həyata keçirilməsinin forması olub. əməliyyat fəaliyyəti kimi özündə resursların planlaşdırılmasını, şəxsi heyətin idarə olunmasını, layihələrin, proqramların, proseslərin idarə olunmasını və s. birləşdirir.

Müasir dövrdə yeni dövlət menecmenti prinsipləri öz mövqelərini itirirlər. Bu səbəbdən də həmin termindən imtina edərək inzibati yenidən qurma proseslərində bazar ideologiyası terminindən istifadə edilməsi təklif olunur.

İdarəetmə proseslərini tədqiqində siyasi yanaşmanın əhəmiyyəti get-gedə artır. Məlum olmuşdur ki, yeni dövlət konsepsiyasının təklif etdiyi idarəetmənin öz resursları ilə siyasətdən aralanması perspektivsizdir. Elektron hakimiyyət və idarəetməyə keçidin əsas istiqaməti "Governance" (idarə etmək, nizamlamaq, qaydaya salmaq) anlayışı ilə bağlıdır. Faktiki olaraq yeni dövlət menecmentindən "governance" kateqoriyalarına keçid inzibati islahatların metodoloji əsaslarını kökündən dəyişir. Bu yeni konsepsiya vətəndaşların və qrupların öz maraqlarını ifadə etdikləri. öz hüquqlarını reallaşdırdıqları mexanizmləri, proses və institutları birləşdirir və mövcud fərqləri balanslaşdırır. "Governance" konsepsiyasının məğzi ondan ibarətdir ki, idarəetmə daha yumşaq, detallaşmış və reqlamentləşmiş olub, dövlət orqanları, assosiasiyalar, vətəndaş cəmiyyətləri və biznes arasındakı şaquli əlaqələrdən çox üfiqi əlaqələr bazasında fəaliyyət göstərir. Bu

yeni yanaşma "keyfiyyətli idarəetmə" kimi qəbul edilməklə BMT-nın strukturlarında hazırlanmış metodologiyaya uyğun keyfiyyət meyarlarını özündə əks etdirir. Həmin keyfiyyət meyarları aşağıdakılardır:

- vətəndaşlar və hakimiyyətin əməkdaşlığı və birgə işi;
- qaydaların aliliyinin tanınması;
-hakimiyyətin və onun qərarlarının şəffaflığı;
- təsirə cavab verməyə həssaslıq, operativlik;
- konsensusa yönümlülük (eyni məqsədə gəlməyə yönümlülük);
- bərabərlik və ayrıseçkiliyin ləğvi;
- nəticəvilik, səmərəlilik və qənaətçillik;
- hakimiyyətin vətəndaşlar qarşısında hesabat verməsi.

"Keyfiyyətli idarəetmə2 konsepsiyasının gələcək inkişafı kimi "demokratik idarəetmə" (Democratic Governance) anlayışını qəbul etmək olar. Artıq BMT-nın bir çox proqramlarında, o cümlədən, inkişaf etməkdə olan ölkələrin müqayisəli qiymətləndirilməsi və kompozit indekslərin qurulması üçün BMT-nın İnkişaf Proqramında (United Nations Development Programme- UNDP) bu termin istifadə edilir.

Qeyd etmək lazımdır ki, ictimai idarəetmənin yeni şəbəkə modelinin qurulması şəraitində dövlət inzibatçılığında İKT-dan istifadənin konseptual prinsip və paradiqmalarında irəliləməsi baş verir. Mütəxəssislərin fikrinə görə ümumilikdə İKT-nın imkanlarının genişliyinin tam qəbul edilməsi istiqamətində müsbət nəticələr əldə olunur. Bu imkanlar elektron hakimiyyət və idarəetmənin mümkünlüyünü və bərqərar ola bilməsini təsdiq edir.

Əgər elektron hökumət və elektron dövlət hökumət və dövlət informasiyalarının açıqlığını və ictimai onlayna təqdim olunmasını nəzərdə tutursa, yeni elektron idarəetmə əlavə olaraq ictimayyətlə əməkdaşlığı, onun iştirakını və təkliflərə uyğun koordinasiyanı da nəzərdə tutur. Faktiki olaraq söhbət elektron demokratiyadan gedir ki, bu da vətəndaşların siyasi qərarların

qəbulu prosesinə təsir formalarının və sferasının genişlənməsinə imkan verir.

Qeyd etmək lazımdır ki, indiyə qədər və hal-hazırda dövlətə böyük korparasiya kimi baxılır, bununla əlaqədar olaraq korporativ menecmentin prinsip və yanaşmaları biznes proseslər kimi qəbul edilən inzibati proseslərin optimallaşdırılması üçün istifadə edilir. Lakin nəzərə almaq lazımdır ki, kommersiya sektorunda işlənmiş idarəetmə prinsiplərinin mexaniki olaraq dövlət inzibatçılığına keçirilməsi tezliklə nəticə verə bilməz və bu səbəbdən də dövlət aparatının fəaliyyətini səmərəliliyinin qısa müddətə artacağından söz gedə bilməz.

Biznes əməliyyatlarının idarə edilməsindən fərqli olaraq dövlət idarəetməsində dövlət fəaliyyətinin üç əsas sferasının xüsusiyyətləri, dövlət strukturlarının fəaliyyətinin prosedur aspektləri və dövlət idarəetməsinin inzibati reqlamentlər adlanan mexanizmləri nəzərə alınmalıdır.

Müasir dövrdə hər bir şəxs bu və ya digər mənada istər-istəməz "elektron dövlət", "elektron hökumət" terminləri ilə rastlaşırlar. İlk baxışdan audın olur ki, bu terminlər informasiyalaşma və kompüterlərlə əlaqədardır. Söhbət elektron dövlət və ya elektron hökumətdən gedirsə və bunlar kompüterlərin tətbiqi ilə əlaqədardırsa, deməli onların qurulması üçün müəyyən miqdarda vəsaitlərin ayrılması, başqa sözlə büdcə xərcləri nəzərdə tutulur.

"Elektron dövlət" anlayışı onun texnoloji olmayan antipodu olan "kağız" hökuməti kimi metaforadır, bunu üçün də bu termin ciddi və birqiymətli olaraq müəyyən olunmamışdır. Bundan başqa dövlətin əhəmiyyətli problemləri onun öz fəaliyyətində kompüterlərdən və ya kağızdan istifadə etməsindən asılı deyil. Məhz buna görə də qeyd olunan termində əsas məğzi "elektron" sözü deyil, "dövlət" və ya "hökumət" sözü kəsb edir. əslində bu termin ingilis dilində olan Electronic govrnment (e-government) sözündən götürülmüşdür. Bu söz ingilis dilində yalnız icra hakimiyyəti olan hökumət deyil, həm də bütövlükdə dövlət

mənasını daşıyır. Qeyd olunanlardan məlum olur ki, ingilis dilində olan e-goverment terminini "elektron dövlət idarəetməsi kimi qəbul etmək daha düzgün olardı. Qeyd olunanlarla bərabər həm məna, həm də dünya praktikasında terminin istifadəsinin məğzini nəzərə alaraq rəsmi termin kimi daha çox "elektron dövlət" terminə üstünlük verilir.

Terminin hansı variantının harada istifadə edilməsi əslində onun praqmatik məzmunu ilə təmin olunur. Elektron dövlət idarəetməsinin öyrənilməsi və mövcud səviyyəsi aşağıdakı xüsusiyyətlərlə müəyyənləşdirilir:

- "dövlət" və "dövlət idarəetməsi" anlayışları arasındakı əlaqələrin qurulması;
- dövlətin həyatında kompüterləşmənin spesifik özünü büruzə verməsi nədə özünü göstərdiyini müəyyənləşdirilməsi;
- dövlət idarəetməsinin keyfiyyətinə kompüterləşmənin təsirinin müəyyənləşdirilməsi.

Bu cür təhlillə müəyyən edilir ki, dövlət öz fəaliyyətinin keyfiyyətini dəyişmədə kompüterləşmədən istifadə etməklə e-government-ə hansı dərəcədə daxil olmuşdur. Qeyd edək ki, bu cür yanaşmanın əsas üstünlüyü istənilən anda dövlət idarəetməsinin əsas aspektlərinə informasiyalaşmanın təsir dərəcəsini müəyyənləşdirməyə imkan verir.

e-government-in yaradılması göründüyü kimi informasiya texnologiyalarının tətbiqinin nəticəsidir. Daha döğrusu bu proses proqram təminatından istifadə ilə həyata keçirilir. Ümumiyyətlə proqram təminatı hesablama texnikası vasitəsilə mücərədliyin istənilən səviyyəsində qoyulan məsələni həll etsə də prosesin mərkəzində verilənlərlə işləmə durur. Lakin yaddan çıxarmaq olmaz ki. verilənlər üzərində məhdud sayda əməliyyatlar aparmaq olar. Bu əməliyyatlar verilənlərin toplanması, saxlanması, emalı, ötürülməsi və ləğv (məhv) edilməsidir. Müasir informasiya texnologiyaları öz imkanları ilə bu əməliyyatların daha səmərəli şəkildə, sürətlə, böyük həcmdə və ucuz yerinə yetirilməsini təmin edir. İnformasiya texnologiyalarının tətbiqi dövlət idarəetməsinə də

yeni imkanlar vermişdir. Belə ki, ən sadə halda vətəndaşlarla dövlət aparatı arasında informasiya mübadiləsi müasir informasiya texnologiyalarının tətbiqi ilə daha geniş məkanda aparıla bilir. Belə ki. ixtiyari anda vətəndaşların iri həcmli informasiya kütləsi dövlət strukturuna çatdırıla, təyinatına görə seçilə, qısa müddətdə cavablandırıla və təyinat ünvanına cavab göndərilə bilər.

Efron və Brokhauzun kiçik ensklopedik lüğətində dövlət və hökumət haqqında deyilir: " Hökumət- dövlətdə ali qanunvericilik, icra və məhkəmə hakimiyyətinə malik şəxslər və idarələr yığımıdır. Monarxiyalarda bunlar bir şəxsin monarxın, konstitusiyalı dövlətlərdə isə respublika prezidenti, parlament, nazirlər kabineti və ali məhkəmənin əlində cəmlənmişdir". İnformasiya sistemlərinin tətbiqi ilə qeyd olunan hər iki haldakı hökumətin və dövlətin məhdudiyyətlərini aradan qaldırır. Bu sistemlərin tətbiqi dövlət və hökumət fəaliyyətini ölkə vətənadşlarının hər birinə çatdırmaqla, onların da idarəetmədə birbaşa iştirakına şərait yaradır. İnformasiya texnologiyaları və sistemlərinin müasir səviyyəsi isə bu prosesin daha sürətli və operativ aparılmasına, geniş miqyası əhatə etməsinə və müxtəlif səviyyələri əhatə etməsinə şərait yaradır.

Dövlət orqanlarının və bu orqanlarda işləyənlərin əsas vəzifələri inzibati reqlamentlərlə uçot verilənlərinin əlaqələndirilməsidir. Məlumdur ki, dövlət qulluqçuları üçün ictimai hüququn "birbaşa icazə verilməyən hər şey qadağan edilib" prinsipi əsas götürülür. Bu isə o deməkdir ki, istənilən informasiya və ya daxil olan verilənlərlə əməliyyatların aparılmasə normativ aktlarla müəyyənləşdirilir. Bununla bərabər dövlət qulluqçuların fəaliyyətində əsas yeri uçot fəaliyyəti tutur. Belə fəaliyyətin əsasını isə daxil və xaric olan sənədlərin qeydiyyatının uçotu, dövlət sifarişləri üzrə işlərin nəticələrinin uçotu, hakimiyyət orqanlarına aid saytlarda uçota aid məlumatların verilməsi, arayışların verilməsi, müxtəlif informasiya və verilənlərin emalının yekunlarının uçotu və s. təşkil edir. Qeyd etmək alazımdır ki, elektron dövlət idarəetməsini yaradılması ilk növbədə inzibati reqlamentlərlə informasiya uçotunun informasiya texnologiyaları

vasitəsilə əlaqələndirilməsini tələb edir. Umumiyyətlə, inzibati reqlamentlə informasiya uçotu arasında sıx əlaqə mövcuddur. İnzibati reqlamentlər dedikdə, hakimiyyət orqanlarının fəaliyyətinin əsası və qaydaları başa düşülür. Bu reqlamentlərdən fəaliyyət üzrə uçot verilənlərinin dəyişdirilməsi üçün istifadə edilir. Digər tərəfdən uçot verilənləri inzibati reqlamentlərin yerinə yetirilməsi prosesində vətəndaşların, dövlət qulluqçularının, təşkilatların hüquq və vəzifələrində əmələ gələn dəyişiklikləri qeyd etmə üsuludur. Uçot nəticəsində əldə olunan verilənlər həmçinin inzibati reqlamentlərin cari yerinə yetirilməsinin statusunu da qeyd edir və beləliklə reqlamentin hər hansı elementinin nə vaxt yerinə yetirildiyini müəyyənləşdirir. Beləliklə. aydın olur ki, adi qaydada olduğundan fərqli dövlət idarəetməsində uçot müəyyən informasiyaların mövcud bazadan silinməsi olmayıb, hər şeydən əvvəl kiminsə hüquq və vəzifələrinin dəyişməsini qeyd edir. Bu mənada elektron dövlət və ya elektron hökumətin yaradılmasında inzibati reqlamentlərlə uçot informasiyasının müasir texnoloji əsaslarla əlaqələndirilməsi və inkişafı xüsiusi əhəmiyyətə malikdir.

Elektron dövlət idarəetməsinin yaradılmasında yuxarıdakı prinsip və əlaqələrin izahı belə nəticəyə gəlməyə imkan verir ki, əldə olunacaq ilkin nəticə dövlətlə, onun vətəndaşları arasında birbaşa əlaqələr genişlənir. Dövlət qurumları vətəndaşların hüquq və fəaliyyətini qoruduğu halda, hər bir vətəndaş da dövlət idarəçiliyinə müəyyən mənada nəzarət edir. Bu isə demokratik birgəyaşayışın əsas prinsiplərindəndir.

e-government-in nyaradılmasının digər üstün cəhəti ölkədə korrupsiyanın ləğvidir. Vətəndaşlar və dövlət qulluqçularının birbaşa əlaqəsi korrupsiyanı yaradan əsas faktorlardan biridir. İnformasiya texnologiyalarının dövlət idarəetməsində tətbiqi korrupsiyanın ləğvi üçün yeni keyfiyyət imkanlarını açır.

İnformasiya texnologiyalarının xarakterik xüsusiyyətlərindən biri onun həddən artıq formallığıdır. Çünki kompüter proqramı normativ aktların tələblərinin interpretasiyasıdır. Digər tərəfdən hər bir proqram yalnız onun

tərtibində nəzərdə tutlan prosesi reallaşdırır. Beləliklə, aydın olur ki, elektron variantda reqlamentləşdirilməmiş əlaqələrin baş verməsi mümkün deyil. Bu xüsusiyyət isə korrupsiyanın baş verməsi imkanlarını aradan qaldırır.

Lakin qeyd etmək lazımdır ki, qeyd olunan xüsusiyyət neqativ nəticələrə də gətirib çıxara bilər. Belə ki, proqramda olan hər hansı bir səhv kiminsə hüquqlarının pozulmasına səbəb ola bilər ki, onu da operativ olaraq düzəltmək mümkün olmaz.

İKT-nın dövlət idarəetməsində tətbiqi hakimiyyət orqanları tərəfindən informasiya emal edilməsi qabliyyətini artırır. Belə halda vətəndaş dövlət orqanlarının fəaliyyəti haqqında daha çox məlumat alır, bu isə dövlət idarəetməsinin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Lakin emal olunma səviyyəsinin və informasiya həcminin artması dövlətin vətəndaşların şəxsi həyatlarına daha dərindən müdaxiləsinə də şərait yaradır. Beləliklə aydın olur ki, elktron dövlət idarəetməsinin təşkilində istifadə olunan texnologiyaların hansı prinsiplərə əsaslandığı mühüm əhəmiyyətə malikdir.

Yuxarıda qeyd olunan bütün şərtləri nəzərə alaraq dövlət idarəetməsinin keyfiyyətinin İKt-ları əsasında yaxşılaşdırılması və e-government-in yaradılmasında BMT-nın metodikasına görə dövlət idarəetməsinin aşağıdakı dəyərləri və meyarlarının nəzərə alınması məsləhət görülür:

Dövlət idarəetməsinin dəyərləri:

- siyasi dəyərlər (qanunverici orqanların dəyərləri);
- hüquqi dəyərlər (məhkəmə orqanlarının dəyərləri);
- sosial-siyasi dəyərlər (icra orqanlarının dəyərləri);
- universal təşkilati dəyərlər.

Dövlət idarəetməsinin meyarları:

- dövlətlə vətəndaşların razılaşdırılmış şəkildə birgə işləməsinin, bu əlaqənin xeyirxahlıq zəminində operativ təşkilinin təmini;
- qanunların aliliyi şəraitində bərabərliyin və hüquqların tapdalanmamasının təmini;
- nəticəvilik və qənaətcilliyin təmini;

- proseslərin şəffaflığının və dəqiq uçotunun aparılmasının təmini;

Qeyd etmək lazımdır ki, bir çox dünya ölkələrində informasiya texnologiyalarının inkişafı, texniki vasitələrlə təminatın səviyyəsinin yüksəlməsi heş də dövlət idarəetməsinin yeni keyfiyyətlərlə fəaliyyətinə gətirib çıxarmamışdır. Məlum olmuşdur ki, bunun əsas səbəbləri dövlət idarəetməsinnin yeni keyfiyyət meyarlarına uyğun qurulmasında əsas indikatorlar təmin edilməmişdir. Buraya iadarəetmə fəaliyyətinə uyğun hesabatların verilməməsi, siyasi sabitliyin təmin olunmaması, səmərəli dövlət idarəedilməsinin həyata keçirilməməsi, tənzimləmə keyfiyyətinin aşağı olması, hüquqların aliliyinin və korrupsiya üzərində nəzarətin düzgün təşkil edilməməsini aid etmək olar. Əslində bu şərtlərin ödənməməsi vətəndaşlar tərəfindən deyil, dövlət aparatı işçiləri tərəfindən qaydalara riayət olunmaması və ya bu istəyin olmamasıdır. Bir sözlə neqativ halların əksəriyyəti bürokratik əngəllərlə bağlıdır. Buna görə də e-government-in qurulması ilkin şərtlərdən biri kimi insan faktoru və onun şüurunun bu prosesə hazırlığını tələb edir.

e-government-in təşkilində aşağıda qeyd olunanların da nəzərə alınması vacibdir. Kompüterləşmənin lazımi nəticələri verməməsinin əsas səbəblərindən biri informasiyalaşma layihələri məqsədilə məsələlərin düzgün qoyulmamasıdır. Çox vaxt informasiya texnologiyalarının idarəetmədə tətbiqində artıq mövcud inzibati prosedurun elektron formasının eyni ilə tətbiqinə yol verilir. Bu az xərclə, artıq sınanmış qaydaların tətbiqinə imkan versə də fəaliyyətin bütün aspektlərini nəzərə almağa imkan vermir. Nəticədə idarəetmə fəaliyyətinin informasiyalaşması və onun elektron variantının effektivliyi əldə olunmur. Bu səbəbdən də dövlət idarəetməsində hər bir fəaliyyət növü üzrə xüsusi proqramla, spesifik xüsusiyyətləri nəzərə almaqla əvvəlcə ayrılıqda, daha sonra isə diqqətlə öyrənilərək əlaqələndirilmiş sistemin təşkili tələb olunur.

e-government-in yaradılmasının şərtlərindən biri də informasiya texnologiyalarından istifadə sahəsində hüquqi qanunların yaradılmasıdır. İnformasiyalaşma və kompüterləşmənin hərtərəfli tətbiqi heş də informasiya resurslarından və elektron imkanlardan qaydasız istifadə edilməsi demək deyil. Bu sahədə də həm iştirak, həm istifadə baxımından müəyyən təyinatların düzgün seçilməsi, qaydalara riayət olunmasına nəzarət öndə durur. Qeyd etmək lazımdır ki, belə tədbirlər içərisində dövlət təhlükəsizliyi, iqtisadi maraqlar, ölkə əhalisinin həyat səviyyəsi və rifahının yaxşılaşdırılması, demokratik sərvətlərdən düzgün istifadə ali sayılır.

Müasir dövrdə bir çox dünya ölkələrində informasiya azadlığı haqqında xüsusi qanunlar qəbul edilmişdir. İlk belə qanun hələ 1766-cı ildə İsveçdə konstitusiyanın bir hissəsi kimi qəbul olunmuş "Dövri mətbuat azadlığı haqqında" qanundur. Əslində bu qanun ölkə vətəndaşlarına dövlət və yerli orqanların fəaliyyətini birbaşa müşahidə etmək imkanı vermişdi. Lakin həmin qanunda da ölkə vətəndaşlarının ixtiyarına veriləcək informasiyaların müəyyən məhdudiyyətə malik olması bildirilirdi.

Əfsuslar olsun ki, həm inkişaf etmiş dünya ölkələrində, həm də inkişaf etməkdə olan ölkələrdə dövlət idarəetməsi, dövlət orqanlarının fəaliyyəti haqqında məlumatların vətəndaşlar üçün açıq olması formal xarakter daşıyır. Bu isə özlüyündə elektron idarəetmənin, yekunda elektron dövlət və elektron hökumətin yaranmasında ciddi əngəl əməmlə gətirir.

Belə nəticəyə gəlmək olur ki, iqtisadi inkişaf, İKT-larının inkişafı, informasiyalaşma və kompüterləşmənin hazırki sürət və miqyası, demokratik cəmiyyətin qurulmasına olan müasir cəhdlər e-government-in yaradılmasını gec və ya tez zəriri edəcək. Dünya təcrübəsi göstərir ki, e-government-in qurulması üçün və ya başqa sözlə informasiyalaşmanın köməyi ilə dövlət idarəetməsinin keyfiyyətinin yüksəldilməsi üçün aşağıdakı faktorların mövcudluğu tələb olunur:

- inkişaf etmiş texnoloji infrastruktur (kompüterlər, şəbəkələr, onlardan istifadə vərdişlərinə yiyələnmə);
- qarşılıqlı təsirin və uçotun elektron formasının hüquqi əhəmiyyəti (qanuniliyi);
- qarşılıqlı təsirin və uçotun elektron formasının gerçəkliyinin təmin olunmasının təşkilati və texnoloji mexanizmləri;
- konkret inzibati proseslərdə yanaşı gedən inzibati dəyişmələrə siyasi ixtiyarın verilməsi;
- dövlət idarəetməsinin bütün sferalarının (təkcə icra orqanlarını deyil, parlament və məhkəmə də) informasiyalaşma prosesinə qoşulması;

Beləliklə, e-government-in yaradılması kompleks fəaliyyət olub, texnoloji, hüquqi və inzibati məsələlərə toxunur. e-government yaradılmasında müvəffəqiyyətin əldə olunmasında başlıca rolu dövlətin inzibati dəyişməsi oynayır.

16.10. ELEKTRON HAKİMİYYƏTİN BEYNƏLXALQ TƏCRÜBƏSİ VƏ ELEKTRON HÖKUMƏTİN ELEKTRON XİDMƏTLƏR GÖSTƏRMƏSİNİN BEYNƏLXALQ STANDARTLARI

Dünya ölkələrinin iqtisadi inkişaf səviyyələrinin müxtəlifliyi, informasiya-kommunikasiya texnologiyalarından istifadə səviyyəsi, kompüterləşmə və informasiya texnologiyaları istehsalına görə fərqlər ümumilikdə informasiyalaşmış cəmiyyətin qurulmasında da səviyyə fərqinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, müasir şəbəkə texnologiyalarından istifadə, "yeni iqtisadiyyat", informasiya iqtisadiyyatı", İnternet iqtisadiyyat" adlanan iqtisadiyyatın inkişaf səviyyəsindən asılı olaraq dünya ölkələrində elektron hakimiyyətin tətbiqində də fərqlər mövcuddur.

Ümumiyyətlə indiyədək mövcud olan dövlət idarəetməsinin daha inkişaf səviyyəsinə malik, daha yüksək demokratik dəyərləri

özündə əks etdirən dövlətlərdə inkişafın növbəti səviyyəsi olan elektron idarəetməyə keçid daha perspektivli və müqayisədə asandır. Lakin dünyanın müxtəlif regionlarında həm idarəetmədə, həm sosial-iqtisadi inkişafda olan fərqlər elektron hakimiyyət baxımından ölkələrin aparıcı, ilkin rüşeymlər əmələ gələn və ümumiyyətlə bu prinsipdən istifadə edilməyən ölkələrə bölünməsinə səbəb olmuşdur.

Hal-hazırda elektron hakimiyyətin istifadə və inkişafı baxımından ABŞ və Avropa İttifaqı daha öndədir. Lakin bu o demək deyil ki, həmin ölkələrdə informasiyalaşmış cəmiyyət tam bərqərar olmuş və ən yüksək inkişaf fazasındadır. Bütün bunlarla yanaşı respublikamızın da daxil olduğu inkişaf etməkdə olan ölkələr tərəfindən həmin ölkələrin təcrübələrinin öyrənilməsi, prosesin gedişatının araşdırılması, yerli şərait və xüsusiyyətlərin nəzərə alınması ilə mexaniki olaraq yox, düşüncəli şəkildə tətbiqi xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrdə elektron hakimiyyətin təşkili və tətbiqi dövlət idarəetməsində bütün digər elementlərlə yanaşı dövlət və hökumət idarələrinin özlərinin də bu layihədə hərtərəfli iştirakını tələb edir. Başqa sözlə elektron hakimiyyətə keçid ən başlıcası mövcud hakimiyyətin istəyi və iştirakını şərtləndirir. Əks halda prosesin yerinə yetirilməsi hər cür bürokratik əngəllər və iqtisadi təsirlərlə gecikdirilə və hətta neqativ hallara gətirib çıxara bilər. əslində hakimiyyətin deyil dövlət idarəetməsi əməliyyatlarının dəyişdirilməsi və elektron hakimiyyətə uyğunlaşdırılması lazımdır.

ABŞ-nın hökumət islahatları konsepsiyasında hökumət fəaliyyətinin tərkib əməliyyatlarının onun xidmət etdiyi vətəndaşlarla qrşılıqlı əlaqədə olan hissələrinin dəyişdirilməsi tələb olunur. Bu dəyişikliklərin əsasında aşağıdakı üç əsas prinsip dayanır:

- hökumət bürokratiyaya deyil, vətəndaşlara yönümlənməlidir;
- hökumət öz fəaliyyətinin nəticələrinə istiqamətlənməlidir;

- hökumət innovasiyaları aktiv hərəkət etdirməklə baza kimi bazarı seçməlidir.

Amerika Birləşmiş Ştatlarında elektron hakimiyyətin yaradılmasının qanuni bazası 1995-ci ildə B. Klinton/A. Qor idarəsi tərəfindən yaradılmışdır. Bu başlanğıc "Kağız sənəd dövriyyəsinin azaldılması" qanunu olmuşdur.

1996-cı ildə "İnformasiya azadlığı haqqında" (The Freedom of İnformation Act) qanunda ciddi dəyişikliklər edilərək Klincer-Koenin "İnformasiya texnologiyalarından istifadədə islahatlar haqqında" qanunu qəbul edildi.

1998-ci ildə "Hökümət idarələrində kağız sənəd dövriyyəsindən xilas olma haqqında" növbəti qanun qəbul edildi.

1999-cu ilin dekabrında B. Klinton tərəfindən iki memorandum imzalandı. Bu memorandumlar elektron hökumət haqqında (Electronic Government) və cəmiyyət xeyrinə informasiya texnologiyalarından istifadə haqqında (Use of İnformational Technology to improve Our Society) idi. Bu memorandumların qəbulu əslində amerikanını dövlət strukturlarında geniş miqyasda elektron hakimiyyət texnologiyalarının tətbiqi layihəsinin həyata keçirilməsi üçün start idi. Layihədə əsas məqsəd kimi ölkə vətəndaşlarının hər hansı problemin həlli üçün müxtəlif idarələdə süründürməçiliklə rastlaşmalarını qarşısını almaqla, müraciətin birbaça hökümət idarəsinə çatdırılması idi.

Qeyd olunan qanunların verilməsi və ilk gündən başlayaraq bu qanunların icrasına xüsusi diqqətin ayrılması, güclü nəzarət ilk illər olan 1995-1999-cu illərdə ABŞ-da İnternetdən istifadə edənlərin sayının dörd dəfə artmasına və beləliklə də ölkə əhalisinin 40%-ə qədərinin bu xidmətdən istifadə imkanını əldə etməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki. şəbəkə texnologiyalarından istifadədə bir çox ölkələrdə də yüksək faizlər mövcuddur. Lakin bu ölkələrin əksəriyyətində İnternetdən istifadə payının çoxu mərkəzi və iri şəhərlərdə yaşayanların payına düşür Belə nəticə isə elektron hakimiyyət imkanlarından istifadə üçün məqbul sayıla bilməz.

başqa sözlə İnternet və ya şəbəkə istifadəçiləri mümkün qədər ölkə ərazisində əhalinin yerləşməsinə uyğun olaraq paylanmalıdır.

C. Buş adminstrasiyası da ABŞ-da İKT-dan istifadə etməklə hakimiyyət strukturlarının yenidən təşkilinə xüsusi diqqət ayırmışdır. 2001-ci ildə C. Buş ABŞ-ı Konqresinə müraciətində idarəetmədə islahatların genişlənməsinin yeni proqramını təklif etmişdir.

2002-ci ildə ABŞ-da xüsusi işçi qrup tərəfindən " Elektron hökumətin yaradılması strategiyası" hazırlanmışdır. Bu strategiyada informasiya texnologiyalarının hakimiyyədə tətbiqində maneəçilik göstərən dörd əsas problem göstərilmişdir:

- dövlət proqramlarının icrasının aşağı səviyyəsi;
- dövlət strukturlarında biznes proseslərdə informasiyalaşma və avtomatlaşdırmanın zəifliyi;
- "ada" avtomatlaşdırılmasının mövcudluğu, yəni informasiya sistemlərinin inteqrasiyasının olmaması;
- dövlət strukturları tərəfindən dəyişikliklərə qarşı müqavimətlərin olması;

Bu proqramların hazırlanması və elektron hakimiyyətin qurulması istiqamətində aparılan işlərlə bərabər ABŞ-da xüsusi qrup tərəfindən 70 dövlət idarəsinin 150 məsul işçisinin 200 təklifdən ibarət anketə uyğu sorğusu keçirilmişdir. Alınan nəticələrdən məlum olmuşdur ki, hökümətin fəaliyyətində təkrarlama və izafilik çoxdur. Bu isə öz növbəsində vətəndaşlar tərəfindən lazımi xidmətlərin alınmasına maneəçilik törədir, eyni zamanda hesabatların verilməsi və sənəd dövriyyəsinin həddən artıq olmasına səbəb olur. Sorğu aparan işçi qrupun tərtib etdiyi anketə görə:

- hökümət orqnlqrı üzərinə 30 əsas funksiya və prosedur qoyulmuşdur;
- bu 30 funksiyadan orta hesabla 19-u idarələr tərəfindən yerinə yetirilir;
- hər bir idarə məcburi olaraq 17 hökumət funksiyasının yerinə yetirilməsinə cəlb edilir.

Alınan nəticələr və digər istiqamətdə aparılan işlər ABŞ-da elektron hakimiyyətin qurulması prosesinin işlənib hazırlanmasına gətirib çıxarmışdır. Əldə olunan nəticələrə uyğun olanlar "Elektron hökumət haqqında" qanunda öz yerini tapmış, İnzibati-büdcə idarəsi çərçivəsində elektron hakimiyyətin yaradılmasının xüsiusi təşkilatı (Office of Electronic Government) və illik büdcəsi 45-150 milyon dollar olan elektron hökumət Fondu (Office of Managment and budget) yaradılmışdır.

Bütün bunlarla bərabər ABŞ-da elektron hakimiyyətin inkişafı prosesini idarəetmə sistemi meydana gəlmiş və elektron hakimiyyətin addımlarla tətbiqedilən ayrılmaz hissə kimi inzibati islahatların əsası olmuşdur. Bu sahədə müvəffəqiyyətlərin vaciv faktoru informasiyalaşmış dövlət idarəetməsilə əlaqəli mövqelərin nizamlanması və interaktiv hökumət xidmətlərinin keyfiyyətliliyidir. Dövlət və hökumət idarələrinin fəaliyyətinin səmərəliliyinin ümumi qiymətləndirilməsində onların dövlət büdcəsindən və xüsusi fondlardan maliyyələşməsi də xüsusi rol oynayır. Başqa sözlə yeni texnologiyaların tətbiqi, sistemdə dəyişikliklərin həyata keçirilməsi, əhalinin xidmətlərdən istifadə səviyyəsi və onların prosesdə iştirak səviyyəsi ilə bərabər bu proqram və proseslərin maliyyə təminatının da xüsusi əhəmiyyəti vardır.

Elektron hakimiyyətin qurulmasında nailiyyətləri olan digər bir region Avropa İttifaqı dövlətləridir. "Elektron dövlət" –in qurulmasına Avropa yanaşmasınən baza prinsipləri ABŞ-dan fərqlənir. Belə ki, bu prinsiplər İttifaqa daxil olan ölkələrin informasiya cəmiyyətinin qurulmasında makroiqtisadi siyasətinə əsaslanır. Qeyd etmək lazımdır ki, Avropa İttifaqına daxil olan ölkələrin özləri də İKT-nın tətbiqi və istifadəsi baxımından fərqlənirlər. Eyni zamanda son illərdə quruma daxil olan bir çox ölkələrin iqtisadi durumu da istənilən səviyyədə deyil. İttifaq ölkələrinin iqtisadiyyatında, milli düşüncə və ənənələrdə olan fərqlər və s. elktron hakimiyyətin də təşkilində öz təsirini göstərir. ABŞ-ları və Avropa İttifaqı arasında olan müxtəlif fərqlər

prinsiplərdə də mənaca da olmasa müəyyən istiqamət və əsaslara görə fərqlərin yaranmasına imkan yaradır. Avropa İttifaqının informasiya cəmiyyətinin qurulması proqramıhda elektron hakimiyyətin qurulması prinsipləri də şərh edilmişdir. Bu proqramın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- xüsusi mərkəzlərin yaradılması vasitəsilə cəmiyyətin müasir İKT-ndan istifadəsi imkanlarının genişləndirilməsinə yardım etmək;
- elektron formada təqdim edilmiş sosial xidmətlər toplusunun genişləndirilməsi və onlardan istifadə imkanlarının artırılması;
- dövlət təhsil və yenidən hazırlanma sisteminə informasiya cəmiyyəti texnologiyalarının tətbiqi;
- İKT-nın yayılması və bütün kateqoriyalardan olan vətəndaşların yeni həyat şəraitinə uyğunlaşması imkanları ilə əlaqədar sosial nəticələr sahəsində tədqiqatların aparılması;
- İKT-nın imkanları ilə cəmiyyətin tanışlıq səviyyəsinin yüksəldilməsi (burada hakimiyyət orqanları öz gündəlik fəaliyyətlərində elektron texnologiyalardan istifadəyə görə lider olmalıdır və bununla da bütün cəmiyyətin informasiya inkişafının sürətlənməsini stimullaşdırmalıdır);
- şəbəkələrin, habelə təqdim olunan interaktiv şəbəkə xidmətlərinin uyğunlaşmasının təmin olunması üçün informasiya sistemlərinin standartlaşdırılması prosesinə yardım etmək;
- biznes və vətəndaşların hüquqlarına riayət olunması və uyğun qanunçuluğun işlənib hazırlanmasına nəzarət.

Göstərilən prinsiplərdən də məlum olur ki, avropa modelini fərqləndirən əsas cəhət elektron hakimiyyətin yaradılması və tətbiqində cəmiyyətin dil və sosial-mədəni müxtəlifliyinin nəzərə alınması əsas götürülür.

Bu müxtəlifliyin nəzərə alınması və Avropa İttifaqı üçün daha çevik və mütəhərrik proqramın işlənib hazırlanmasının digəri bir səbəbi də gələcəkdə ittifaqa yeni ölkələrin daxil ola bilməsi imkanlarını mövcudluğudur. Məlum olur ki, inkişaf etmiş dünya

ölkələrində elektron hakimiyyətin yaradılması və tətbiqində eyni, ümumi prinsip və qaydalar olsa da, fərqlər də mövcuddur. Məhz buna görə də mütəxəssislər də qeyd edir ki, elektron hakimiyyətin qurulmasında xarici ölkələrin təcrübələri diqqətlə öyrənilməli və sonra tətbiq olunmalıdır. Daha döğrusu nəticələr mexaniki deyil, şəraitə uyğun. yerli xüsusiyyətlər nəzərə alınmaqla tətbiq olunduqda səmərə verə bilər.

Respublikamızda bu istiqamətdə görülən işlərdə Avropa İttifaqının elektron hökumət yaratmaq üçün ayrı-ayrı ölkələrdə yerinə yetirilməsi tələb olunan və izlənən 20 baza dövlət xidmətlərinin tam öyrənmək lazımdır.Bu xidmətlər siyahısı iki hissəyə bölünür: xidmətlərin 12-si vətəndaşlar üçün, 8-i isə biznes üçündür.

Elektron hökumətin qurulmasında əsas məqsəd dövlət orqanları ilə ölkə vətəndaşlar arasındakı əlaqələrin daha şəffaf olması, süründürməçiliyin aradan qaldırılması, korrupsiyanın ləğvi, dövlət və hökümət idarələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və beləliklə də informasiyalaşmış demokratik cəmiyyətin yaradılmasıdır.

Bu istiqamətdə inkişaf etmiş dünya ölkələrinin təcrübəsi haqqında əvvəlki mövzularda məlumat verilmişdir. Bu ölkələrdən Avropa İttifaqı ölkələrinin təcrübəsi respublikamız üçün daha maraqlıdır. Belə ki, bu ittifaqa daxil olan bəzi ölkələr vaxtilə respublikamızın da daxil olduğu Sovet İttifaqının respublikaları olmuşlar. Bu isə həmin ölkələrdə yaxın dövrlərə qədər olan dövlət və hökumət strukturları, onların inkişaf istiqamətləri eynidir. Digər tərəfdən ölkəmizlə Avropa ölkələri arasındakı əlaqələrin daha geniş olması və bu əlaqələrin daha da genişlənməsi həmin ölkələrin təcrübələrindən bəhrələnməyə daha çox əsas verir.

Digər tərəfdən Avropa İttifaqının elektron hakimiyyətin yaradılması və inkişafında olduğu səviyyə ölkəmiz üçün daha yaxındır. Belə ki, elektron hakimiyyətin tətbiqində ABŞ-nın müasir inkişaf səviyyəsi mövcud sistemin yaxşılaşdırılması və genişləndirilməsi istiqamətində müxtəlif proqramların həyata

keçirilməsi ilə əlaqədardırsa, avropa da tərtib olunan proqramlar belə bir sistemin yaradılmasının ilkin mərhələsindədir. Avropa İttifaqının elektron hakimiyyətin yaradılması istiqamətində apardığı işlərin başqa bir fərqi də bu proqramda elektron hakimiyyətin qurulması üçün lazım olan tələblər, nəzarət funksiyaları və qaydaları da göstərilmişdir.

Keçmiş sovet məkanında olan respublikalardan İKT-larının tətbiq səviyyəsinə görə irəlidə olan ölkələrdən biri Rusiya federasiyasında da Avropa İttifaqının prinsip və qaydalarına istinad edilmişdir. Bu isə həm coğrafi, həm də regional inkişaf cəhətdən avropa prinsiplərinin öyrənilməsi və tətbiqini önə çəkir. Bunları nəzərə alaraq Avropa İttifaqı tərəfindən elektron hökumət tərəfindən göstərilən elektron xidmətlərin standartlarının öyrənilməsi daha məqsədəuyğundur.

Qeyd etmək lazımdır ki, elektron hakimiyyətin qurulması istiqamətində yerinə yetiriləcək proqramda iki əsas istiqamət nəzərdə tutlmuşdur. Bunlardan birincisi dövlət orqanları ilə vətəndaşlar arasındakı əlaqələrin demokratik prinsiplər üzrə qurulmasına, şəffalığın, bərabərliyin və hüquqların tam təminin olunmasına nail olmaq məqsədini daşıyır. İkincisi isə ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsi olan, insanların rifah halının yüksəlməsinə, ölkənin siyasi və iqtisadi qüdrətinin artırılmasında xüsusi əhəmiyyəti olan biznesə aiddir.

Hal-hazırda Avropa İttifaqı tərəfindən vətəndaşlara və biznesə göstərilən 20 əsas elektron xidmət nəzərdə tutulur. Bu xidmətlərdən 12-si vətəndaşlara, 8-i isə biznesə aid edilir.

Vətəndaşlar üçün baza elektron xidmətlər aşağıdakılardır:

- gəlir vergisinin deklarasiyası;
- məşğulluq xidmətinin köməyi ilə iş axtarışı;
- sosial yardımın rəsmiləşdirilməsi (uşağa və işsizliyə görə yardım, tibbi xidmətlərə görə xərclərin ödənişi, təhsilə görə ödəniş);
- şəxsi sənədlərin rəsmiləşdirilməsi (pasport, sürücülük vəsiqəsi və s.);

- avtomobilin qeydiyyata salınması (təzə, istifadə olunmuş, xaricdən gətirilmiş);
- tikintiyə görə ərizənin verilməsi;
- polisə informasiyanın verilməsi (məsələn oğurluq haqqında və s.);
- ictimai kitabxanalardan istifadə (kataloqlara daxil olma, axtarış sistemləri);
- şəhadətnamələrin rəsmiləşdirilməsi (doğum haqqında, nigah haqqında);
- tədris müəssisəsinə daxil olmaq üçün ərizənin verilməsi;
- yaşayış yerinin dəyişməsi haqqında məlumat;
- tibb ilə əlaqədar xidmətlər (interaktiv məsləhətlər, müxtəlif müəssisələrdə tibbi xidmətdən istifadə, konkret tibbi müəssisədə müalicənin alınması və s.);

Avropa İttifaqının biznes üçün nəzərdə tutlan baza elektron xidmətləri aşağıdakılardır:

- qulluqçulara sosial ayırmaların rəsmiləşdirilməsi;
- korporativ vergilərin deklarasiyası;
- əlavə dəyər vergisinin rəsmiləşdirilməsi (deklarasiya, xəbərdarlıq);
- yeni müəssisələrin qeydiyyatı;
- statistik verilənlərin ötürülməsi;
- gömrük deklarasiyası;
- ətraf mühitin qorunması ilə əlaqədar icazələrin alınması;
- dövlət tədarük sisteminin fəaliyyəti.

Göstərilən proqram müddəalarının həyata keçirilməsi hüquqi, maliyyə əsasları ilə bərabər ölkədə texniki təminatın da yüksək səviyyədə olmasını tələb edir. əslində bu müddəaların yerinə yetirilməsi informasiya texnologiyaları vasitələrinin ölkə daxilində istehsalının müasir tələblər səviyyəsində təşkilindən, bu sahədə çalışacaq mütəxəssislərin yetişdirilməsini və ölkə qanunlarına istinad edilərək elektron məkanın mühafizəsi qaydalarının, təhlükəsizliyin təmin olunması prinsiplərinin işlənib

hazırlanmasında mütləq, operativ qanunların hazırlanması və qəbulunu tələb edir.

2006-cı ilin aprelində Avrokomissiya çərçivəsində elektron hökumətin inkişafının yeni fəaliyyət planı hazırlanmışdır. Bu planda informasiya cəmiyyətinin inkişafına investisiyaların artırılmasının lazım olduğu göstərilmişdir. Belə ki, Avropa İttifaqının informasiya cəmiyyəti və kütləvi informasiya vasitələri üzrə komissarı Vivian Redinq qeyd edir ki, Avropada İKT sahəsində tədqiqatlara investisiya qoyulyşları, onların konkurentləri olan ABŞ-ın bu sahəyə cəlb etdiyi investisiyaların yarısına bərabərdir [52].

Müasir dövrdə elektron hökumət sisteminin fəaliyyəti istifadəçilər (vətəndaşlar və təşkilatlar) tərəfindən dövlətə elektron xidmət və məhsullar təklif edən mənbə kimi baxılmasına səbəb olmuşdur. Bununla bərabər istehlakçılar dövlət xidmətlərinə "həyati epizodlar"la müraciət edirlər. Başqa sözlə istehlakçılar elektron hökumətin təklif etdiyi xidmətlərə yalnız özlərinin hansısa probleminin həllində hökumətin iştirakı lazım olduqda müraciət edirlər. Əslində isə elektron hökumətin fəaliyyəti və göstərdiyi xidmətlər və onun keyfiyyəti məhz istifadəçilərin iştirakı, təklifləri və sorğuları əsasında formalaşmalıdır.

Əgər yaradılmış elektron hökumət effektiv fəaliyyət göstərərsə və onun təşkili yuxarıda qeyd olunmuş standartlara uyğun olarsa, istehlakçı mövcud problemin həllində hansı hökümət və ya dövlət idarəsinin iştirak etdiyində maraqlı olmur. Başqa sözlə istifadəçinin problemi "bir pəncərə" prinsipi ilə elektron hökumət tərəfindən həll edilir. Bu isə nəticə etibarı ilə süründürməçiliyin və bürokratiyanın aradan qaldırılması, dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsini və demokratik dəyərlərin daha yüksəkdə durmasını təmin edir.

Qeyd etmək lazımdır ki, respublikamızda İKT-ları sahəsində son illərdə baş verən yüksəliş, ölkəmizin həm regionda, həm də MDB məkanında İKT-ları sahəsində öndə gedən ölkələrdən biri olması, eləcə də Respublika Prezidenti tərəfindən elektron ticarət,

elektron dövlət və iqtisadiyyatın müxtəlif sahələrində İKT-larının tətbiqinin genişləndirilməsi sahəsində verdiyi fərmanlar, qəbul edilmiş qərarlar elektron hakimiyyətin dünya standartları çərçivəsində təşkili və inkişafına münbit şərait yaradır. Lakin bütün bunlarla yanaşı informasiya cəmiyyəti texnologiyalarının cəmiyyətdə yayılması daha çox əhalinin interaktiv servisə tələbatından, İnternetdən istifadə imkanlarından, vətəndaşların rifahından və ölkə regionlarının sosial-iqtisadi inkişafından asılıdır.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, ixtiyari dövlətdə elektron hökümətin xidmətlərinin tətbiq səviyyəsinin qiymətləndirilməsi aşağıdakı xarakteristikalarla müəyyənləşdirilir:

- hökumət strukturlarının təşkilatı hazırlığı, dövlət funksiyalarının standartlaşdırılması, reqlamentləşdirilməsi, əhaliyə və biznesə dövlət xidmətlərinin göstərilməsi səviyyəsi;
- ölkədə internet-infrastrukturun inkişafını, elektron dövlət informasiya resursları və sistemlərini, lazımi infrastrukturun mövcudluğunu nəzərə alan informasiya-texnoloji hazırlıq səviyyəsi;
- ölkə əhalisinin və biznesin interaktiv hökumət xidmətlərindən istifadəyə hazırlığı səviyyəsi.

Respublikamızda elektron hakimiyyət sahəsində hələlik ayrı-ayrı dövlət strukturlarında elektron texnologiyaların qismən tətbiqi və mövcud idarəetmə sistemlərindən tədricən elektron idarəetməyə keçid mərhələsi hökmranlıq edir. Lakin respublikamızın inkişaf etmiş dünya ölkələri ilə əlaqələrinin genişlənməsi, mötəbər təşkilat və qurumlara inteqrasiyası elektron dövlət, elektron idarəetmə texnologiyalarının daha sürətlə, məqsədəyönlü surətdə effektiv tətbiqini tələb edir. Digər tərəfdən beynəlxalq əlaqələrin informasiya dəstəyi də bu prosesin sürətləndirilməsi və ona xüsusi diqqət ayrılmasını gündəmə gətirir. Qeyd etmək lazımdır ki, məhz elmi cəmiyyətlərin, hakimiyyət və idarəetmə orqanlarının, biznes-strukturun, qeyri-hökumət təşkilatlarının kooperasiyası və koordinasiyası ölkəmizdə, eləcə də onun regionlarında informasiya cəmiyyətinin müasir tələblərə uyğun inkişafına, informasiya

siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinə və sonda elektron dövlətin geniş fəaliyyətinə zəmin yaradacaq.

16.11. ELEKTRON HAKİMİYYƏT VƏ ELEKTRON İDARƏETMƏNIN TƏŞKİLİNİN QAYDA VƏ PRİNSİPLƏRİ

Elektron hakimiyyət və elektron idarəetmənin təşkili məqsədilə hər bir ölkə prosesin həyata keçirilməsi konsepsiyasını hazırlamalıdır. Bu konsepsiyada müxtəlif ölkələr mövcud texnoloji səviyyə. əhalinin informasiya texnologiyalaı ilə təmin və istifadə səviyyəsini, şəbəkə texnologiyalrının mövcud vəziyyətini, dövlət idarəetməsində və hökumət idarələri ilə vətəndaşlar. Müəssisələr. sahibkarlar arasındakı əlaqələr öyrənilməli və nəzərə alınmalıdır. Lakin bütün bunlarla bərabər elektron hakimiyyət və idarəetmənin yaradılması konsepsiyasında aşağıdakı müddəalar öz əksini tapsalar daha yaxşı olar:

- elektron hakimiyyət və idarəetmənin məqsədi və vəzifələri;
- elektron dövlət və hökumətin yaradılması istiqamətləri;
- elektron hakimiyyətin və idarəetmənin yaradılması mərhələləri.

Elektron hakimiyyət və idarəetmənin yaradılmasında ilkin şərt ölkədə mövcud olan inzibati idarələrin fəaliyyətində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün islahatların aparılması tələb olunur. Bu islahatlarda məqsəd ümumilikdə aşağıdakıların təmin olunmasına yönəlir:

- nəticəyə görə idarəetmə;
- informasiya texnologiyaları və sistemləri sahəsində standartlaşdırmanın və reqlamentləşmənin aparılması;
- dövlət və hökumət inzibati idarələrində fəaliyyətin optimallaşdırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə onun ləğvi;

- ölkədə vətəndaş cəmiyyəti ilə hakimiyyət orqanları arasındakı qarşılıqlı əlaqələrin gücləndirilməsi və demokratik prinsiplər üzrə qurulması;
- ölkə daxilindəki informasiya fəzasının müasir texnologiya və proqram təminatlarından istifadə etməklə müasirləşdirilməsi.

Elektron hakimiyyət və idarəetmədə dəyişdirilməsi tələb edilən əsas halqa icra strukturudur. Belə ki, demokratik qanunların verilməsi. cəmiyyətin istək və arzularına uyğun dövlətin fəaliyyəti yönümündə verilən qərarlar, təcrübələrin göstərdiyinə görə çox vaxt icra strukturları və inzibati idarədə çalışanlar tərəfindən pozulur. Məhz bu mənada ilkin olaraq elektron hökumətin yaradılması istiqamətində qarşəda duran məqsədlərin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlər aşağıdakıları əhatə etməlidir:

-dövlət idarəçiliyində yeni keyfiyyətin əldə olunması;

- hökümət idarələri və inzibatçılarla vətəndaşların münasibətlərinin yeni, daha mütərəqqi formalarına keçid;

-müasir informasiya texnologiyalarının ən aşağı pillələrdən başlayaraq, sonuncu pilləyə kimi bütün imkanlarından istifadə ilə tətbiqinin təmin olunması.

İnformasiya cəmiyyətinin tələblərinə uyğun dövlət və hökumət strukturlarının yaradılması idarəetmədə yeni tələblərin meydana gəlməsinə səbəb olacaq. bu tələblər aşağıdakılardır:

-dövlət xidmətlərindən hərtərəfli istifadə imkanı;

- bu xidmətlərin alınmasının sadəliyi və rahatlılığının təmini;

- dövlət orqanlarının fəaliyyətinin şəffaflığı və tam nəzarətdə olması;

- dövlət qərarlarına ictimai ekspertizanın tətbiqi imkanlarının yaradılması;

Elektron dövlət qeyd olunduğu kimi elə dövlətdir ki, burada dövlət idarəetməsinin keyfiyyət səviyyəsinin yüksəldilməsi üçün istifadə olunan əsas amil informasiya texnologiyalarıdır. Başqa sözlə elektron dövlət özündə hökumətin vətəndaşlara daha çox açıq

olmasını, onun fəaliyyətinin səmərəli və hər bir hərəkətə görə hesabat verməsini təmin etmək məqsədilə lazımi dəyişikliklərin aparalması üçün informasiya-kommunikasiya texnologiyalarından istifadəni əks etdirir.

Dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və ondan istifadə imkanlarının artması ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi. öz hüquqlarını qoruması, sərvətlərdən layiqincə yaralanması, bütün dəyərlərdən bərabər pay alması imkanlarını yaradır.

Dövlət orqanlarının fəaliyyətinə nəzarət məqsədilə onların informasiyalarını açıqlığının təmin olunması lazımdır. Belə informasiyaya ölkə vətəndaşlarının daxil ola bilməsi imkanı onların özlərinin hüquq və vəzifələrinə necə nəzarət etmələri ilə bərabər, həm də dövlət orqanlarının pozuntuları, həddən aşmalarını vaxtında ifşa etməyə imkan verir. Bütün qeyd olunanların ölkədə tətbiqi dövlət idarəetməsinin fəaliyyətinin əsas istiqamətə biznesə yönəlməsini, bu sahədə xərclərin azalmasına, müxtəlif inzibati sədlərin silinməsinə, vaxtlı vaxtında dövlət xidmətlərindən yaralanmaya imkan verir.

Qeyd etmək lazımdır ki, elektron hakimiyyətin və idarəetmənin yaradılması və tətbiqində ən geniş istifadə olunan şəbəkə texnologiyalarıdır. Məhz bu texnologiyalar dövlət və hökumət idarələrinin həm öz aralarında, həm də vətəndaşlarla birbaşa əlaqələrin qurulmasında başlıca vasitədir. Lakin təcrübələr göstərir ki, elektron hakimiyyətin tələblərə uyğun fəaliyyəti dövlət xidmətlərinin portallarının yaradılması ilə daha səmərəli təşkil oluna bilər. Bu səbəbdən də ölkədə belə portalların vahid sisteminin yaradılması gərəkdir. Bu portallarda aşağıdakılar öz əksini tapmalıdır:

- süründürməçiliyin, müxtəlif idarə və təşkilatlara gedib-gəlmənin, bürokratiyanın aradan qaldırılmasına, birbaşa dövlət və hökumət idarəsi ilə əlaqənin qurulmasına imkan verən, təşkilat və vətəndaşlar üçün vahid pəncərə;

- bütün dövlət xidmətləri haqqında ətraflı informasiya;

- elektron sənədlərin əldə olunması imkanı;
- müxtəlif dövlət və hökumət idarələrində qəbula yazılış və ərizələrin verilməsi imkanı;
- xidmətlərin distant üsulla əldə olunması imkanları.

Qeyd olunduğu kimi elektron hakimiyyət və idarəetmənin qurulması və fəaliyyəti mərhələlərlə həyata keçirilir. Bu prinsip əslində qoyulan məqsədin öz təbiətindən irəli gəlir. Belə ki, ölkə miqyasında bu cür dəyişikliklərin baş verməsi həm yeni texniki vasitələrin və texnoloji üsulların, o cümlədən hər dəfə yeni kompüterlər, şəbəkə texnologiyaları, proqram təminatı vasitələrini, maliyyə vəsaitlərini tələb edir. Çox vaxt yuxarıda göstərilən xidmətlərin əhaliyə çatdırılması xüsusi mərkəzlərin yaradılmasını tələb edir. Göründüyü kimi bütün qeyd olunanlar vaxt və vəsait tələb edir. Başqa bir səbəb isə insanların yerinə yetirilən və yetirilməsi nəzərdə tutlan əməliyyatlara hazırlıq səviyyəsi, onların intellekrual səviyyələrindən də asılıdır. Bu səbəblərdə ümumilikdə prosesin mərhələlərlə yerinə yetirilməsini tələb edir.

Bir çox ölkələrin təcrübəsi sübut edir ki, ilkin mərhələdə sənəd dövriyyəsinin avtomatlaşdırılması və elektron sənəd dövriyyəsini tətbiq inə nail olmaq lazımdır. Elə bu mərhələdəcə dövlət strukturları ilə əkaqələrin qurulmasında telefon və digər mövcud telekommunikasiya vasitələrindən istifadəyə üstünlük vermək lazımdır. Dövlət xidmətləiri içərisindən ən çox və tez-tez istifadə olunanların elektron variantının hazırlanaraq tətbiqi daha önəmlidir. Buraya müxtəlif formaların, anketlərin doldurulması, büdcəyə ödəniləcək xərclər və s. aid etmək olar.

Əyalətlərdə elektron hakimiyyət və idarəetmənin təşkili daha ciddi problemlər yaradır. Bu hər şeydən əvvəl əyalətlərdə telekommunikasiya vasitələrinin və ondan istifadənin aşağı səviyyəsi ilə izah edilir. Buna görə də həmin yerlərdə müxtəlif çoxfunksiyalı mərkəzlərin yaradılması daha məqsədəuyğundur. Bu mərkəzlərdə aşağıdakıların təmin edilməsi tələb olunur:

-yerli və dövlət orqanları, idarələri və təşkilatlarla qarşılıqlı əlaqələrin qurulması;

- bir pəncərə sisteminin tələblərinə tam riayət olunması;

-yerli və dövlət orqanları ilə vətəndaş və təşkilatların qarşı-qarşıya əlaqə və müzakirələri üçün rahatlıq zəmininin yaradılması;

- bütün mərkəzlərdə ümumi qəbul edilmiş standartların keyfiyyətinin təmini.

Pilləli şəkildə elektron hakimiyyət və idarəetmənin həyata keçirilməsi mütəmadi olaraq yerinə yetirilənləri və keçilmiş mərhələlərin nəzarətdə saxlanılmasını tələb edir. Bu nəzarət adətən aşağıda göstərilən göstəricilərə nəzərən müəyyənləşdirilir:

-Yerli və dövlət xidmətləri göstərən çoxfunksiyalı mərkəzlərin fəaliyyəti və müasirlik səviyyəsi üzrə göstəricilər:

-Vahi dövlət xidmətləri portallarının fəaliyyəti üzrə göstəricilər:

-Hakimiyyət orqanlarını fəaliyyətini əks etdirən İnternet saytların keyfiyyətlilik göstəriciləri;

-Telefon xidməti mərkəzlərinin texniki təminatı və xidmət səviyyəsi göstəriciləri;

- İdarələrarası informasiya mübadiləsinin təmin olunması üçün dövlət informasiya mərkəzlərinin fəaliyyəti üzrə göstəricilər;

- Ölkə daxilində dövlət informasiya sistemlərinin standartlaşma səviyyəsi.

Aydındır ki, bu gıstəricilərin əldə olunması və müqayisəsi və nəticələrin hazırlanması məqsədilə xüsusi qurumun yaradılması və bu prosesdə ölkə vətəndaşlarının, müxtəlif biznes adamlarının, sahibkarların iştirakı vacibdir.

16.12. AZƏRBAYCANDA ELEKTRON HAKIMIYYƏT VƏ ELEKTRON IDARƏETMƏNIN MÖVCUD VƏZIYYƏTI VƏ PERSPEKTIVLƏRI

Müstəqillik əldə olunduqdan sonra respublikamızda iqtisadi inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi məqsədilə müasir texnologiyaların və mütərəqqi üsulların tətbiqinə xüsusi diqqət yetirilməy başlandı. İqtisadiyyatın müxtəlif sahələrində aparılan islahatlar, istehsalın, məhsul satışının, əldə olunan gəlirlərdən istifadənin dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrindən istifadə etməklə məqsədəuyğun şəkildə istifadəsi müvəffəqiyyətlərin əldə olunmasına səbəb oldu.

Respublikamızda mövcud karbohidrat ehtiyatlarından düzgün istifadə proqramlarının hazırlanması beynəlxalq əhəmiyyətli neft və qaz müqavilələrinin bağlanaraq həyata keçirilməsi iqtisadi inkişafın yüksək tempinin əsası oldu. Respublika rəhbərliyinin apardığı düzgün iqtisadi siyasət keçən əsrin 95-ci ilindən sonra ölkəmizdə iqtisadiyyatın demək olar ki, bütün sahələrində gəlirlərin artmasını təmin etdi.

Neft və qaz sahələrindən əldə olunan gəlirlərin düzgün istifadəsi və iqtisadiyyatın digər sahələrinin inkişafı həmin dövrdəki ölkə prezidenti Heydər Əliyev tərəfindən texnologiyaların istehsalı və tətbiqi, aqrar sahənin yeni əsaslar üzərində inkişafını özündə əks etdirən mühüm əhəmiyyətli qəərarların qəbul edilməsi və ardıcıl olaraq həyata keçirilməsində uzaqgörənlik göstərdi.

Dünya ölkələrinin iqtisadi inkişafının təhlilindən aydın oldu ki, yalnız malik olduğumuz sərvətlərin xammal kimi xarici ölkələrə satışı ölkənin iqtisadi inkişafının davamlı olmasını təmin edə bilməz. Məhz buna görə də iqtisadi sahələr içərisində ölkə daxilində yeni texnologiyaların təbiqi və ən müasir texniki vasitələrin istehsal sahələrinin yaradılması qarşıya məqsəd qoyuldu. Hal-hazırda respublikamızda müasir kompüterlərin, müxtəlif telekommunikasiya vasitələrinin istehsalı müəssisələri fəaliyyət göstərir. Bu isə özlüyündə ölkə daxilində İKT-nın tətbiqi və

istifadəsi səviyyəsinin yüksəlməsinə səbəb oldu. Hal-hazırda respublikamız İKT-nın tətbiqi səviyyəsinə görə ən öndə olan ölkədir.

Respublikamızın xarici əlaqələrinin genişlənməsi, ölkəmizin dünya iqtisadi sisteminə daha dərindən inteqrasiyası müasir texnologiyalara əsaslanan iqtisadiyyatın və idarəetmənin də yaradılması və bərqərar olması zərurətini doğurmuşdur. Bu sahədə irəliləyiş digər sahələrə nisbətən elə böyük olmasa da, əvvəlki illərlə müqayisədə müsbət nəticələr əldə edilmişdir. Ölkəmizin coğrafi mövqeyi, ABŞ və Avropa İttifaqı ölkələri ilə artan əlaqələri İKT-nın tətbiq sahələrinin hərtərəfli genişləndirilməsini və bu sahədə təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir.

İkt-nın ilk tətbiq sahəsi bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da müxtəlif tədqiqat işlərinin aparılması, bank və maliyyə sistemində ilk olaraq tətbiq edilməyə başladı. Ölkənin müharibə şəraitində olması, texniki təminatın zəifliyi, maliyyə vəsaitlərinin ilk müstəqillik illərində olmaması bu sahədə inkişaf üçün əlverişli olmayan şəraitin formalaşmasına səbəb olmuşdur. Lakin 1993-cü ildən başlayaraq respublikamızın İKT-ları sahəsində müxtəlif aparıcı dövlətlərlə əlaqələrinin genişlənməsi, ölkə Prezidentinin İKT-nın və onun tətbiq sahələrini genişlənməsinə dair düzgün, vaxtlı sərəncam və qərarları öz müsbət nəticələrini verdi.

İkt-larının idarəetmə və hakimiyyətdə ilk tətbiqi kimi respublikamızda tələbə qəbulunun test üsuluna keçilməsi, seçkilərin keçirilməsində şəbəkə texnologiyalarından istifadədə görmək olar. Son keçirilən seçkilərin təşkili İKT-larından geniş istifadəyə verilən əhəmiyyət artıq inkişaf etmiş dünya dövlətləri tərəfindən də yüksək qiymətləndirilmişdir.

Bu gün respublikamızda mobil telefon və İnternet istifadəçilərinin sayının gündən-günə yüksək templə artması elektron hakimiyyət və idarəetmənin qurulması və bərqərar olması üçün gözəl zəmin yaradır.

Aydındır ki, elektron dövlət və hökumətin yaradılmasında ölkə əhalisinin İKT-larından istifadə səviyyəsi xüsusi rol oynayır. Son illərdə respublikamızda kompüter istifadəçilərinin sayı artmışdır. Hazırda hər 100 nəfər əhaliyə 7 kompüter düşür. Lakin ölkə ərazisində keçirilən müxtəlif proqramlar və güzəştli şərtlərlə kompüterlərin verilməsi bu rəqəmin yaxın zamanlarda daha yüksək olmasına şərait yaradır.

Son illərdə Respublika Prezidenti tərəfindən "elektron sənəd dövriyyəsi", "elektron dövlət", "elektron ticarət" haqqında verdiyi fərmanlar ölkəmizdə elektron idarəetmənin bərqərar olmasına və demokratik intellektual səviyyəsi yüksək cəmiyyətin qurulmasında mühüm addımdır.

Maliyyə. Bank və kredit əməliyyatlarının aparılmasında artrıq geniş şəkildə elektron variantdan istifadə edilir. Əmək haqqlarının, təqaüdlərin, müxtəlif yönümlü sosial yardımların plastik kartlarla ödənişi, müəssisə və təşkilatlar arasında, müəssisələrlə bank və bankların öz aralarındakı əməliyyatlar demək olar ki, bütövlüklə elektron variantda aparılır.

Əhalinin kommunal xərclərinin ödənilməsində də elektron ödəmələrdən istifadəyə başlanmışdır. Belə ki, 2009-cu ildə artıq Bakı şəhərində kommunal xərclərin ödənilməsində elektron variant sınaqdan çıxarılmış və nəticələr gözlənildiyindən də yaxşı alınmışdır. Deməli əhalinin şəbəkə texnologiyalarının və elektron ödəmələrin tətbiqinə inamı artmışdır. Bu isə insan şüurunun da müasir texnologiyalara sürətlə uyğunlaşması başlamışdır.

Hazırda respublikaməzda bir çox dövlət idarələrində və dövlət strukturlarında elektron idarəetmənin tətbiqinə geniş yer verilir. Buna misal olaraq vergi bəyyanamələrini doldurulması, gömrük deklarasiyalarını hazırlanması və bu sahələrdə vahid pəncərə sistemlərinin tətbiqi elektron idarəetmənin irəli sürdüyü tələblərə uyğundur.

Son zamanlar ayrı-ayrı dövlət və hökümət idarələri, nazirliklərin xüsusi portalları yaradılır, onların xüsusi saytlarında gördükləri işlər, yeni qanu və qaydalar haqqında geniş məlumat

verilir. Eyni zamanda bu saytlarda gündəlik məlumatların verilməsi də məhz dövlət və hökumət idarələrinin işində şəffaflığın təmin olunmasına xidmət edir. lakin bəzi portallar və İnternet saytlar mövcud olslar da onların iş prinsipi müasir tələblər səviyyəsində deyil.

Respublikamızda İKT sahəsində xüsusi canlanma hiss olunur. Elektron dövlətin və elektron hökumətin qurulmasında mühüm əhəmiyyəti olan elektron imza haqqında qəbul olunmuş qərarlar, onun hüquqi bazasının təşkili və respublikada elektron imzanın tətbiqi mühüm əhəmiyyətə malikdir.

2012-ci ildə respublikamızın özünün xüsusi rabitə peykinin olması istiqamətində aparılan işlər də əslində elektron idarəetmənin həyata keçirilməsinin mərhələli şəkildə yerinə yetirilməsinin bir hissəsidir.

Respublikamızın müxtəlif regionlarında İnternet mərkəzlərin yaradılması, ali və orta ixtisas məktəblərində, elmi müəssisələrdə, orta məktəblərdə İnternet şəbəkələrdən geniş istifadə və elektron kitabxanaların yaradılması da bu prosesin tərkib hissəsidir.

Əvvəlki möxzularda elektron hakimiyyətin və idarəetmənin təşkilinin tələbləri, konsepsiyaları və bu prosesin yerinə yetirilməsi qaydaları verilmişdi. Respublikamızda bu sahədə görülən işlərin ardıcıllığına nəzər saksaq həmin prinsiplərə riayət olunduğunu, prosesin sürətlə də olmasa həyat keçirildiyinin şahidi olaraq.

Elektron hakimiyyətin qurulmasının ilkin şərtlərindən biri ölkədə şəbəkə texnologiyalarından istifadə imkanlarının, mobil telefonlardan istifadənin səviyyəsinin yüksəkliyi nəzərdə tutulurdu. Bu gün respublikaməzda istifadə olunan telefon şəbəkəsinin əksər hissəsi elektron qurğularla təmin olunub. Bu isə şəbəkə texnologiyalarının tətbiqinə münbit şərait yaradır. Bütün bunlarla bərabər sürətli İnternetin tətbiqi üçün geniş imkanlara malik simsiz telefonlardan istifadə də inkişaf edir. Yaxın zamanlara qədər İnternet istifadəçilərini sayının aşağı olmasının səbəblərindən biri kimi İnternet xidmətlərinin qiymətinin digər region ölkələri ilə müqayisədə baha olması göstərilirdi. Lakin son zamanlarda

respublikamızda İnternet xidmətlərini qiyməti dəfələrlə aşağı salınmışdır. Aydındır ki, bu şəbəkə texnologiyalrından istifadənin artmasına və bu xidmətlərin göğrafi ərazi baxımından daha geniş yayılmasına şərait yaradır. Elektron variantın tətbiqinin digər bir şərti texniki vasitələrlə təmin səviyyəsinin yüksəkliyidir. Artıq respublikada həm xarici istehsal, həm də ölkədaxili müəssisələrin istehsalı olan fərdi kompüterlərin sayı kifayət qədər artmışdır. Müxtəlif tədqiqatların aparılması, İKT-ları sahəsində gələcək proqramların əhalinin istək və təklifləri əsasında yaradılması üçün həm İnformasiya Texnologiyaları nazirliyində, həm də Milli Elmlər Akademiyasında xüsusi kompüter mərkəzləri fəaliyyətə başlamışdır. Son illərdə respublikamızda korporativ şəbəkələrin tətbiqinə və yeni şəbəkə texnologiyalarına əsaslanan xüsusi virtual əlaqələrdən istifadəyə diqqət artırılmışdır.

Elektron idarəetmə və hakimiyyətin təşkili həm də informasiya texnologiyalarının mahiyyətinin bütün ölkə vətəndaşlarına çatdırılması, onun üstünlüklərinin təbliğini tələb edir. Hazırda respublikamızda ümumtəhsil məktəblərini ən aşağı siniflərindən bu texnologiyaların öyrənilməsinə başlanmışdır. Digər tərəfdən İKT sahəsi mütəxəssislərini hazırlanması üçün ölkə ali məktəblərində xüsusi ixtisas və fakültələr fəaliyyət göstərir. Artıq istehsalatda olan səriştəli mütəxəssislərdən digər işçilərin yenidən hazırlanması və müasir informasiya texnologiyaları ilə işləmə vərdişlərini öyrədilməsi dövlət idarə və müəssiusələrində geniş vüsət almışdır. Elektron varianta uyğun yeni dövlət və hökumətin qurulması konsepsiyasının müddəalarında nəzərdə tutlduğu kimi dövlət və hökümətin yeni əsaslar üzərində fəaliyyətini təşkili xüsusi əhəmiyyət kəsb edir. Dövlət strukturlarının əlaqələndirilməsi və ümumi quruluşun dəyişikləklərə uyğun təşkili ən başlıca məsələlərdən biridir. Respublikamızda dövlət qulluğun son dövrlərdə seçmənin xüsusi qaydada xarici müşahidəçilərin iştirakı ilə aparılması və korrupsiyaya qarşı mübarizənin güclənməsi, bu sahəyə aid verilmiş fərmanlar. Intellektual səviyyəli, gənc və daha bacarıqlıların idarələrə gəlməsinə şərait yaradır. Belə halda artlq

yeni dövrün tələbi olan dövlət və hakimiyyət orqanlarının təşkili üçün münbit şərait yaranır.


Elektron hakimiyyət və iadrəetmənin təşkili və bütün pillələrdə olan dövlət strukturlarında fəaliyyətinin təminində elektron sənədlərin, informasiya məhsullarının və xidmətlərinin, müəllif hüquqlarının qorunmasının hüquqi əsaslarının yaradılaraq tətbiqi müstəsna əhəmiyyət kəsb edir. Son illər respublikamızın müxtəlif xarici ölkələrin məşhur informasiya məhsulları istehsalçıları ilə sıx əlaqələri bu məsələnin həlli istiqamətində atılan mühüm addımlardır. Belə əlaqələrə Microsoft ilə olan 2008-ci ildəki əlaqələri, eləcə də HP və NEC şirkətləri ilə qurulmuş əlaqələri misal göstərmək olar.

Ümumiyyətlə, ölkəmizdə İKT-nın tətbiqi və elektron xidmətlərdən istifadənin diapazonu günü-gündən genişlənir. Əhaliyə yeni, daha müasir texnoloji yeniliklər təklif edilir. Bu isə sübut edir ki, iqtisadi cəhətdən sabit duruma malik respublikamız yaxın gələcəkdə informasiya cəmiyyətinin yaradılmasına və ən müasir, tam demokratik, şəffaf dövlət idarəetməsinə və hakimiyyətə malik olacaq. Məlumat ən vacib strateji mənbədir. Xarici iqtisadi fəaliyyətin informasiya sahəsi ən müxtəlif və heterojen informasiya mənbələrinin, məlumat axınlarının, onların ötürülməsi, idarə edilməsi və işlənməsi üçün alqoritmlərin və texnologiyaların birləşməsini əhatə edir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya və avtomatik idarəetmə sistemlərinin təminatının təmin edilməsini aşağdakı sxemdə göstərilmiş vahid konseptual platforma əsasında həyata keçirmək daha məqsədəuyğundur.

Sxem 16.12.1.

Gömrük xidməti prosseslərinin avtomatlaşdırılmasının struktur-funksional sxemi.




XVII FƏSİL

BLOKÇEYN TEXNOLOGİYASI VƏ ONUN TƏTBİQ İSİQAMƏTLƏRİ

17.1. Blokçeyn texnologiyasının mahiyyəti və tətbiq sahələri

Elektron gömrük sisteminin meydana gəlməsi blockşeyin texnologiyalarının tətbiq edilməsini daha da aktuallaşdırır. Bu texnologiyanın tətbiqi ilə təkcə gömrük orqanlarının deyil, həm də xarici iqtisadi fəaliyyət iştirakçılarının da fəaliyyətlərini asanlaşdıracaqdır. Digər sektorlarda olduğu kimi, blockçein beynəlxalq ticarətin inkişafını dəyişdirə bilər. Rəqəmsal kitab texnologiyasına əsaslanan bu tətbiqlər, gömrük prosedurlarının və gömrük əməliyyatlarının tətbiqi üçün zəruri sayılan sənədlərin və çox sayda bürokratik prosedurların azaldılmasına kömək edəcəkdir. Blokçeyn texnologiyasının tətbiqi üzrə tədqiqatın əsas məqsədini müəyyən etmək üçün blockçein vasitəsilə məlumat mübadiləsi sahəsində Koreya və ABŞ təcrübələrini təhlil edərək gömrük inzibatçılığını yaxşılaşdırmaq və xarici ticarət fəaliyyətini tənzimləmək üçün blockchain texnologiyasından istifadə imkanlarını nəzərdən keçirmək daha məqsədəuyğundur. Bu məsələnin təhlili məqsədilə tədqiqatın obyekti kimi xarici iqtisadi fəaliyyət iştirakçıları ilə xarici ölkələrin gömrük orqanları arasındakı münasibətlər, habelə Azərbaycan Respublikasında gömrük administrasiyası və xarici ticarətin tənzimlənməsi qaydalarıdır.

Blokçeyn texnologiyasının tətbiqində mal mübadilə əməliyyatlarında iştirakçıların qarşılıqlı təsirinin sxemi



Blockçeyn texnologiyası, bitcoin və bir çox digər mərkəzləşdirilməmiş mübadilə sistemlərinin və proqramların yaradılması platformasının əsası olan gömrük inzibatçılığının problem və vəzifələrinin həlli üçün əhəmiyyətli potensiala malikdir. İnternetdə məlumat mübadiləsi texnologiyası xaricdə təkcə dövlət qurumlarında deyil, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər arasında inkişaf etməyə başlayır.Təchizat zəncirinə

tətbiq edilməsi kontekstində blockchain texnologiyasını nəzərdən keçirməzdən əvvəl, bu texnologiyanın əsaslandığı bəzi əsas anlayışları qeyd etmək lazımdır. Birincisi, "blockchain" termini "blok" və "zəncir" anlayışlarının birləşməsidir; "Blok" bir iştirakçıdan digərinə köçürülməli olan fiziki aktivlərə mülkiyyət daxil ola biləcək maliyyə və ya maliyyə olmayan bir sıra əməliyyat qeydlərinə aiddir. Bu qeydlər ixtiyari ölçüdə hər hansı bir məlumatın (düymələrin) fərqli bir formatla sabit ölçülü məlumatlara çevrilə biləcəyi bir hasqa funksiyası ilə təchiz olunmuş "zəncir" komponenti ilə bir-birinə bağlanır. Yaradıldıqdan sonra hər bir əməliyyat sistemin növbəti iştirakçı qrupu tərəfindən şəkil 1-də göstərildiyi kimi təsdiqlənməlidir (şəkil). Blockçeyn müəyyən bir kompüter şəbəkəsi daxilində mərkəzləşdirilməmiş quruluşu ilə xarakterizə olunur; Şəbəkə daxilində və ya xaricində heç bir obyekt, şəbəkə iştirakçıları arasındakı əməliyyatları yoxlayaraq izləmə yolu ilə şəbəkəni idarə etmək səlahiyyətinə malik deyildir. Blockchain, "paylanmış kitab" texnologiyasının bir formasıdır,Bunlar blokda (verilənlər bazasında) bütün yeniliklər avtomatik olaraq mərkəzi bir serverdə saxlanılmaq məqsədi ilə hər bir şəbəkənin iştirak edən qovşağına paylanan digər bloklara köçürülür. Hər şəbəkədə sənədlərin eyni nüsxələrini saxlaması, şübhəsiz ki, bütün məlumat şəbəkəsinin bütövlüyünü təmin edir. Paylanmış reyestr yenilənir və hər bir şəbəkədə saxlanılır.

Blockçeyn texnologiyası əlavə olaraq vergi orqanlarına gözlənilən əlavə dəyər vergisi (ƏDV) və faktiki alınan ƏDV gəlirləri arasındakı fərqi azaltmaq üçün kifayət qədər imkanlara malikdir. Bu, mümkün olan bütün gizli əməliyyatları və vergidən yayınma nəticəsində yaranan boşluğu azalda bilər. Bu texnologiyanın istifadəsinin nəticələrini müzakirə edən İngilis mütəxəssislərinin fikrincə, "blockçeyn, fırıldaqçılıq və səhvlərin aşkarlanmasını asanlaşdırır,Bu əsasən blokçeyn texnologiyası sisteminin internetdəki əməliyyatlar haqqında aydın və şəffaf məlumat verməsi hesabına əldə edilir." Xarici ticarət üzrə İxracatçı (satıcı) və idxalçı (alıcı) arasındakı müəyyən əməliyyatlar haqqında

məlumatlar blockchain-də qeyd olunduğuna görə blokçeyn texnologiyasından gömrük əməliyyatlarında da uğurla istifadə etmək olar. Məsələn, idxal edən ölkənin gömrük idarəsi, idxalçının bəyannaməsini iki tərəfin iştirakı ilə şəbəkədən çıxarıla bilən müvafiq məlumatlarla müqayisə edərək tərtib edə bilər. Qeyd etmək lazımdır ki, blockşeyin texnologiyası biznesin bir çox müxtəlif sahələrində yayılmışdır. Biznes, təhsil müəssisələri, səhiyyə təminatçıları və maliyyə sektoru sahələri blockchain texnologiyalarının istifadə edildiyi və inkişaf etdiyi sahələrdir. Xaricdə blokçeyn texnologiyasından istifadə etməyə çalışan ən çox yayılmış iqtisadi fəaliyyət sahəsi dövlət orqanlarının fəaliyyətidir. Yalnız Amerikalılar deyil, digər ölkələrin hökumətlər də bu texnologiyanının səmərəliyini daha da yüksək şəkildə təmin etmək üçün bu sahəyə əlavə investisiyalar qoyurlar. Məsələn, ConsenSys, texnoloji firması blockçeynin faydalarını təbliğ etmək üçün hökumətlə sıx əməkdaşlıq edir.

Brooklyn, New York ştatının mərkəzində Bruklində ən böyük blockchain proqram təminatını inkişaf etdirən şirkətlərdən biri olaraq, hökumət orqanları ilə sıx işləməyə davam edir. ConseSys BƏƏ-də keçirilən Ethereum blockchain kursunu yaratmaq üçün Dubay hökuməti ilə əməkdaşlıq etməyə başlamışdır.

Koreya Gömrük Xidməti, yerli Chosun media mağazası olan elektron ticarət sənayesi üçün blockchain əsaslı gömrük platforması inkişaf etdirmək üçün milli operator Malltail ilə müqavilə imzalamışdır. Malltail, Koreyanın bir milyondan çox istifadəçisi olan müştəri bazasına malik aparıcı istehlakçı şirkətidir. Bu şirkətə ABŞ, Yaponiya və Almaniyanın yeddi Malltail paylama mərkəzinə ixrac olunacaq, blockçeyn texnologiyasına əsaslanan gömrük platformasının iş və texniki inkişafı həvalə ediləcəkdir.

Şirkət gözləyir ki, texnologiya tam tətbiq olunduqdan sonra malların gömrük rəsmiləşdirilməsi prosesi məlumat mübadiləsi və avtomatik gömrük bəyannamələri tərtib etməklə asanlaşdırılacaqdır ki, bu da ümumilikdə daha şəffaf və səmərəli gömrük tənzimlənməsinə səbəb olacaqdır.

2018-ci ilin yanvar ayında Maersk və IBM, blockchain texnologiyasından istifadə edərək qlobal ticarətin daha səmərəli və etibarlı metodlarını təmin etmək üçün yeni bir blockchain platforması yaratmaq niyyətlərini açıqlamışlar. Yeni şirkət, sənayeni bir sıra rəqəmsal məhsullar və inteqrasiya xidmətləri təqdim edən açıq bir blockchain platformasında birləşdirməyə çalışır. Hal-hazırda platforma ticarət üçün daha müasir proseslərin inkişaf etdirilməsində maraqlı olan bir sıra seçilmiş tərəfdaşlar tərəfindən sınaqdan keçirilir [70].

Avropa ölkələri gömrükdə blockçeyn sisteminin tətbiqi meylini dəstəkləyir. Blokçeyn sisteminin tətbiqi ilə əlaqədar olaraq 5 dekabr 2018-ci il tarixində Fransa, İtaliya, İspaniya, Malta, Kipr, Portuqaliya və İspaniya Brüsseldə - iqtisadi fəaliyyətlərini blockçeynin bir "zəncir sistemində" dəyişdirə biləcək bir təşəbbüslə Qarşılıqlı Bəyannamə imzaladılar [70]. Avropa Birliyi ölkələrinin fikrincə, "blockchain" təhsil və səhiyyə sahələrindən nəqliyyat və gömrük sahələrinə qədər ictimai xidmətlərin səmərəliliyini və şəffaflığını artıracaqdır. Texnologiya vətəndaşlara hesabatlı və son istifadəçilər üçün xidmətlərin məxfiliyi və hesabatlılığını yaxşılaşdıra bilər. Bu, təkcə dövlət elektron xidmətlərinin yaxşılaşdırılmasına deyil, ümumi şəffaflığın artırılmasına və bürokratik əngəllərin azalmasına, gömrük rüsumlarının toplanması sisteminin yaxşılaşdırılmasına və sosial əhəmiyyətli məlumatlara çıxış imkanlarının genişlənməsinə səbəb ola bilər [70].

Blokçeyndən istifadə etməklə məlumatların bölüşdürülməsi gömrük və sərhəd rəsmilərinə nəzərdə tutulan sona çatan "məlumat kəməri" ni həyata keçirməyə kömək edə bilər. Gömrük təşkilatları ümumi yayılmış texniki platformadan istifadə edərək, məlumat mübadiləsi üçün yeni imkanlar açmaq üçün blockçein texnologiyasından faydalana bilərlər. Blockçein sistemi gömrük üçün aşağıdakı üstünlükləri təmin edə bilər:

-Verilənlərin tamlığı (bütövlüyü). Tutaq ki, blokçein malların distribyutorda satışını qeyd etməklə başlanır və sonra xarici iqtisadi fəaliyyətin sonrakı hər bir iştirakçısı tərəfindən əlavə olunur

(məsələn, anbarda saxlanma, digər mallarla konsolidasiya, ixrac zamanı karantin, konteynerdə qablaşdırma, gəmiyə yükləmə, gömrük orqanı tərəfindən gömrük proseduru altında yerləşdirmə v və s.). Paylanmış uçot konsepsiyası blokçeində saxlanan məlumatların bütövlüyünə zəmanət verir və buna görə idxal edən ölkələrin gömrük orqanlarına təqdim edildikdə, malların gömrük sərhədindən keçməsi zamanı yaradılan məlumatlara etibar edə bilərlər.

-Gömrük orqanları üçün məlumatların əldə edilmə imkanları. Blokçeyn sistemi sənədlər, məsələn, faktura, müqavilə, konosament kimi sənədləri əhatə edə bilər. Beləliklə, gömrükdə iddia olunan mallarla əlaqəli lazımi və dəqiq məlumatları (satıcı, alıcı, qiymət, miqdar, daşıyıcı, maliyyə, sığorta və s.) görə bilmək, real vaxt rejimində belə malların yerini və vəziyyətini izləmək mümkündür.

- Yüksək təhlükəsizlik. Malların gömrük sərhədindən keçməsi zamanı dəyişdirilə və dəyişdirilə bilmədiyi üçün korrupsiya və ya sui-qəsd imkanları minimuma endirilə bilmə imkanlarır.

- Çoxfunksiyalı interfeys. Vaxt keçdikcə blockçeinlər, gömrük orqanlarında risklərin idarə edilməsi imkanlarını artıracaq risk anlayışını təqdim etmək üçün xarici ticarət meyllərini təhlil etmək üçün istifadə edilə bilən geniş bir depo yaradacaqdır.

- Gömrük statistikasının dəqiqliyi. Xarici ticarət iştirakçılarının əksəriyyətinin blockchain sisteminə daxil edilməsi statistik göstəricilərin manipulyasiyası və boz idxal istisna olmaqla real vaxt rejimində ticarət axınının nəzərə alınmasına imkan verəcəkdir.

- Məxfilik zəmanəti. Məlumatların məxfiliyi, zəncirin əvvəlində baş verən və tədarük zəncirindəki digər tərəflərə, o cümlədən gömrük orqanlarına ötürülən şifrəli bir açarla təmin edilir.

Təcrübədə blockçein texnologiyası gömrük orqanlarının fəaliyyətinə yalnız digər ictimai xidmətləri deyil, beynəlxalq ticarətlə əlaqəli transmilli korporasiyaları da əhatə edəcək ortaq bir platforma vasitəsi ilə təqdim edilə bilər və beləliklə, bu da onlar arasında məlumat mübadiləsinə imkan verəcəkdir.Blokçeyn texnologiyasının başqa bir üstünlüyü ondan ibarətdir ki, bloklar

zəncirinə daxil edilmiş məlumatlar heç kim tərəfindən birtərəfli qaydada silinə və dəyişdirilə bilməz; buna görə də gömrük əməliyyatları yalnız təqdim olunan məlumatların yoxlanılması ilə məhdudlaşacaqdır.

Blokçeyn texnologiyasının bir çox üstünlüklərə malik olmasına baxmayaraq, bu texnologiyanın tətbqinin aşağıdak göstərilmiş sıra ciddi çatışmazlıqları da vardır:

1.Sistemin həyata keçirilməsinin mürəkkəbliyi. Təəssüf ki, Azərbaycanda blockchain sisteminin tətbiqi yüksək məhsuldarlığa, müasir kompüter texnologiyalarına və gömrük işçilərinin yenidən ixtisaslaşmasına ehtiyac vardır. Bu məsələlərin həlli üçün kifayət qədər vaxt və texniki yenidən qurulması üçün böyük həcmdə material ehtiyyatları tələb olunur.

2.Saxtakarlıq. Dünya təsərrüfatında mütəşəkkil cinayətkarlıq şəbəkələri tez-tez uydurma məhsul təsvirləri və ya saxta hesab-fakturalar yaradan saxta şirkətlərin kompleks sistemi vasitəsilə fəaliyyət göstərirlər. Bu problemi aradan qaldırmaq üçün gömrük orqanlarının və digər təşkilatların məlumat emalı imkanlarını genişləndirmək lazımdır.

3. Əməliyyatlar üzrə sövdələşmələrin və yerdəyişmələrin yoxlanılmasının mürəkkəbliyi. Blokçeyn əməliyyatın baş verdiyini sübut edə bilər, lakin bu əməliyyatların şərtlərinin yerinə yetirilməsinə zəmanət verə bilməz. Tam əməliyyatın avtonom olduğu bitkoinlərdən fərqli olaraq, real təchizat zəncirində müqavilənin etibarlılığı məhsulun miqdarı və ya keyfiyyəti və ya bəzi hərəkətlər (məsələn, A-dan B-yə keçid) kimi xarici amillərdən asılıdır.

4. Məlumatların məxfiliyi problemi. Blockchain sisteminə giriş yalnız xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları tərəfindən məhdudlaşdırıla bilərsə belə, bu məhdud üzvlüyün daxilində məlumatların məxfiliyi qorunmalıdır. Məsələn, bir təchizatçı müəyyən bir alıcı üçün nəzərdə tutulmuş malları bir göndərmə xəttinə göndərə bilər, lakin göndərmə xətti də həmin tədarükçüün rəqiblərinə xidmətlər göstərir. Əməllə əlaqəli bütün

qeydlər iştirakçılar arasında bölüşdürüldükdə bu problemlər yarada bilər.

5. Qanunauyğunluq. Gömrük prosedurlarının tətbiqi və gömrük əməliyyatlarının aparılması prosesini asanlaşdırmaq və sürətləndirmək üçün məlumatların saxlanıldığı blockchain sistemi ilə bağlı yurisdiksiyaya və mülkiyyət məsələsinə Azərbaycanda qanuniləşdirilməlidir.

Gömrük xidməti, paylanan mühasibat kitablarından istifadə etməklə tədarük zəncirlərinin "izləmə" və "bağlantı" yaxşılaşdırılması təşəbbüsü ilə birlikdə, xüsusən malların və pul vəsaitlərinin hərəkəti baxımından beynəlxalq ticarəti daha geniş və daha aydın təsvir etmə imkanına malik olacaqdır. Beləliklə, blockchain texnologiyası hazırda perspektivlidir. Bu sistemin idarəetmədə istifadəsi mübahisəli bir məsələ olmasına baxmayaraq, iqtisadi sahənin rəqəmsallaşdırılmasına ehtiyac olası şübhə doğurmur.

Qeyd etmək lazımdır ki, Aərbaycanda ən son blockçeyn texnologiyasının tətbiqi prosesi mürəkkəb və uzun bir proses olmasına baxmayaraq, bu texnologiyanın təklif etdiyi üstünlüklər mühüm əhəmiyyətə malikdir. Buna görə də Azərbaycan Respublikasının gömrük sistemində informasiya texnologiyasının mövcud risklərin idarəetmə sisteminə əlavə olaraq bu sistemin köməkçi kimi istifadə edilməsi mühüm əhəmiyyət daşıyır.

Beləliklə, Azərbaycan respublikasının gömrük sistemində və xarici ticarət fəaliyyətinin tənzimlənməsində blockchain texnologiyasının istifadəsi perspektivləri ilə bağlı aşağıdakı nəticələri qeyd etmək olar:

1. Blokçeyn texnologiyasından gömrük sistemində istifadəsinin tətbiq olunması mühüm inkişafa səbə ola bilər. Məlumatlar blokçeynində artım, əlavə olunduğu kimi, malların hərəkəti nəticəsində, idxal edən ölkənin gömrük orqanlarının müvafiq və etibarlı məlumat almasını təmin edəcəkdir. Gömrük sərhədindən keçən malların növbəti mərhələsində saxta bəyannamələrə cəhdlərin qarşısı alınacaq, çünki bu zaman məlumat saxtalaşdırıla

və ya dəyişdirilə bilməz. Bundan əlavə, blockçyn sisteminə giriş yalnız xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları tərəfindən məhdudlaşdırıla bilərsə, məlumatların məxfiliyi bu məhdud üzvlüyün daxilində də qorunmalıdır.

2.Texnologiyanın sonrakı inkişafı vahid, geniş bir saxlama bazasının yaradılmasına gətirib çıxaracaqdır ki, bunun da praktik əhəmiyyəti xarici ticarət fəaliyyətinin təhlili və gömrük statistikasının aparılması üçün böyük imkanlar yaradaaraq əlavə bu gömrük risklərinin açıqlanmasını təmin edəcəkdir.

3.Bu texnologiyanın ölkəmizdə tətbiqində "Blok zənciri" sistemi hələ mükəmməl deyil və Azərbaycan respublikasının hökumət strukturlarında tətbiq edilməzdən əvvəl kifayət qədər öyrənmə və təkmilləşmə tələb olunur. Bununla yanaşı, kifayət qədər vaxt və maddi resurs tələb edə biləcək yüksək keyfiyyətli hesablama gücü, sürətli İnternetə çıxış, gömrük işçilərinin yenidən hazırlanması tələb olunur.

17.2 Elektron ticarətdə vergi daxilolmalarının tənzimlənməsi

Qloballaşna dünya təsərrüfatında informasiya texnologiyasının sürətli inkişafı öz növbəsində ölkələr arasında inteqrasiya prosesini daha da genişləndirmişdir. Belə ki, son illərdə dünya ölkələri arasında ticarət münasibətlərinin inkişafı artıq bu münasibətlərin həyata keçirilməsi üçün yeni bir sistemi ortaya çıxarmışdır. Bu gün dünyada mövcud olan elektron ticarətinin inkişafı ilə paralel bir sıra həlli tələb olunan məsələlər meydana gətirmiş və bu sahədə hüquqi bazanın formalaşdırılması məsələsini qarşıya qoymuşdur. Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə elektron ticarət geniş və dar mənada şərh olunur [55]. Dar mənada elektron ticarət internet üzərindən mal və xidmətlərin alqı-satqısını özündə birləşdirir. Lakin geniş mənada elektron ticarət dedikdə isə elektron ticarət mal və xidmətlərin alqı-satqısının beynəlxalq kompyüter şəbəkələri vasitəsi ilə həyata keçirilməsini ifadə edir. Elektron ticarətin meydana gəlməsi yuxarıda göstərdiyimiz kimi

elektron ticarətin hüquq bazasının yaradılmasını tələb edir. Burada ilk növbədə electron imzanın mövcudluğunu dəstəkləyən qanuni hüquqi bazanın olmasıdır. Elektron imza dedikdə elektron daşıyıcılarda əks olunan və məntiqi surətdə hər hansı bir istənilən əməliyyatı həyata keçirməyi təsdiq edən elektron formatlı təsdiqetmə hüququ başa düşülür.

Elektron ticarətin inkişafı öz növbəsində bu ticarət əməliyyatlarının vergiyə cəlb olunması mexanizminin qurulmasını tələb edir. Elektron ticarətin əsas xüsusiyyətlərini aşağıdakı kimi qeyd etmək olar:

- elektron ticarət dünyanın bütün dövlətlərini əhatə edə bildiyi üçün burada iş yerinin müəyyən olunması özünəməxsus xüsusiyyətlərə malikdir,

- elektron ticarətdə göstərilən xidmətlərə görə gəlirin əldə olunduğu yerin müəyyən olunması xüsusiyyətləri mövcuddur,

-elektron ticarətdə bütün əməliyyatların təsdiq olunması elektron imza ilə həyata keçirilir və bütün informasiya elektron daşıyıcılarda əks olunur,

-elektron ticarətdə istehlak vergilərinin, xüsusilə ƏDV-nin tətbiqinin özünəməxsus xüsusiyyətləri mövcuddur.

Beynəlxalq vergi münasibətlərində elektron ticarətin vergiyə cəlb olunması, hüquq normaları elektron ticarətdə yaranan birbaşa vergiləri elektron ticarətin ixracatçısı ölkəsinə, dolayı vergiləri isə həmin elektron ticarətin idxalatçısı ğlkəsinə aid olunması istiqamətində hüquqi münasibətlər yaratmışlar. Burada adətən əldə olunan gəlirlər, həmin ticarətdə mal və ya xidməti ixrac gəlirləri kimi həmin şəxsin iş yerinin yerləşdiyi ölkədə vergiyə cəlb olunması qəbul olunmuşdur. Eyni zamanda, elektron ticarətdə tətbiq olunan gilirləri, xüsusilə də ƏDV elektron ticarətdə mal və xidmətləri idxal yerləşdiyi ölkədə vergiyə cəlb olunur [69]. Lakin buna baxmayaraq, heç də elektron ticarətdə vergiyə cəlb olunma məsələlərini yuxarıda göstərilənlər tam həll etmir. Belə ki, elektron ticarətin vergiyə cəlb olunma mexanizminin qurulması daha vacib məsələ kimi beynəlxalq vergi münasibətlərində əsas tədqiqat

obyektidir. Azərbaycan Respublikasında da elektron ticarətin inkişafı özünü müxtəlif formalarda təzahür etdirməkdədir. Bu məsələyə geniş mənada nəzər saldıqda hal-hazırda respublikamız dünyanın ayrı-ayrı ölkələri ilə iri miqyaslı elektron ticarət əməliyyatları aparmasa da, ölkəmizin beynəlxalq inteqrasiyasının artdığı bir dövrdə bu sahənin, yəni elektron ticarət əməliyyatlarının vergiyə cəlb olunması mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. Bu zərurətin yaranması eyni zamanda beynəlxalq vergi münasibətlərində Azərbaycan Respublikasının kənarda qalmamasıdır. Bunları nəzərə alaraq bu sahədə vergitutma mexanizminin formalaşdırılması üçün aşağıdakı işlərin görülməsi mühüm əhəmiyyət kəsb edir.

- elektron imza haqqında qanunvericilik bazasının təkmilləşdirilməsi,

- elektron ticarətdə istifadə olunan mühasibat sənədlərinin elektron mühasibat uçotunda əks olunması aydalarının tərtib edilməsi,

-Elektron ticarəti həyata keçirən şəxslərdən xüsusi vergi bəyannamələrinin tələb olunması,

-Elektron ticarəti həyata keçirən şəxslərə vergi nəzarətinin həyata keçirilməsi qaydalarında beynəlxalq təcrübədən istifadə edilməsi.

Elektron ticarətdə əsas əhəmiyyət kəsb edən sahələrdən biri elektron bank istemidir.Bu öz əksini beynəlxalq valyuta birjalarında qiymətli kağızların alqı-satqısı, plastik kartların tətbiq edilməsi ilə əlaqədar həyata keçirilən əməliyyatlarda, elektron bank köçürmələrinin aparılmasında, elektron bank sistemi vasitəsi ilə müxtəlif ölkələrdə yerləşən banklarda faiz, depozit, repo və digər oxşar əməliyyatların həyata keçirilməsində tapmaqdadır. Bu sahədə vergitutma münasibətləri respublikamızda daha çox əhəmiyyət kəsb edir. Bankların elektron bank əməliyyatlarında əsas vergi agentləri xüsusi rol oynayır. Respublikamızda əsas məsələlərdən biri kimi elektron bank sistemində ödəmə mənbəyində vergilərin tutulması mexanizmi təkmilləşdirilməli və ödəmə mənbəyində

vergilərin tutulması elektron bank əməliyyatlarının həyata keçirilməsi anında avtomatlaşdırılmalıdır. Dünyada baş verən sürətli inteqrasiya prosesi və bu prosesdən Azərbaycanın kənarda qalmaması, həmçinin bu proses nəticəsində beynəlxalq vergi münasibətlərində yaranmış olan vergitutma məsələləri, bunların həyata keçirilməsi baxımından vergitutma mexanizmlərinin təşkil edilməsi mühüm əhəmiyyət kəsb edır. Qeyd etmək lazımdır ki, vergi nəzarətini əhatə etməklə, müxtəlif yollarla vergi öhdəliklərinin azaldılmasına isiqamətlənmiş vasitələrin aşkar edilməsi və onların qarşısının alınması mexanizmlərinin yaradılması və təkmilləşdirilməsi nəsələləri məhz müasir informasiya texnologiyalarının tətbiqi ilə həyata keçirilir. Qeyd emək lazımdır ki, bütün bu məsələlərin həllində Azərbaycan Respublikasının beynəlxalq maliyyə institutları və təşkilatlarla əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

17.3. Azərbaycan Respublikasının beynəlxalq maliyyə institutları və təşkilatlarla əməkdaşlığında gömrük-vergi siyasətinin prioritet istiqamətləri

Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq iqtisadi münasibətlərinin inkişafının əsas istiqaməti kimi dünyanın bir sıra beynəlxalq təşkilatları ilə sıx əlaqələr yaratmağı qarşıya məqsəd qoymuşdur. Beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycanın dünya birliyinə inteqrasiya ounması ilə yanaşı, həmçinin Azərbaycanın xarici iqtisadi fəaliyyətinin genişlənməsi ilə əlaqədar olmuşdur. Bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq iqtisadi əlaqələrin genişlənməsinə, hər hansı bir ortaq layihənin həyata keçirilməsinə istiqamətlənir. Bu zaman başlıca məsələlərdən biri kimi əməkdaşlıq çərçivəsində vergi siyasətinin əsas istiqamətlərinin müəyyən olunması da öz əksini tapır. Belə ki, əməkdaşlıq çərçivəsində vergitutma sahəsində qarşılıqlı yardımın təmin olunması, əlverişli vergi mühitinin yaradılması əsas götürülür.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına və beynəlxalq valyuta sisteminə inteqrasiya olunması prosesində beynəlxalq maliyyə institutları və təşkilatlarla yaxından münasibət qurulması öz təsirini vergi siyasətində də göstərməkdədir. Buraya Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, BMT, Avropa ittifaqı, Qara dəniz hövzəsi ölkələri təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər maliyyə institutlarını və təşkilatları aid etmək olar. Bununla yanaşı beynəlxalq əməkdaşlıq çərçivəsində respublikamız regionda bir sıra digər qrumlarda da iştrak edir ki, bunlar da başlıca olaraq MDB məkanı və regionun digər dövlətlərinin əməkdaşlığını əhatə edir. Qeyd olunan qurumlarla əməkdaşlıq maliyyə, bank sektoru, sığorta, gömrük, vergi sistemini, xarici-ticarət münasibətlərini və digər sahələri əhatə edir. Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyətdə daha geniş təsir gücə malik təşkilat Ümumdünya Ticarət Təşkilatıdır (ÜTT).

ÜTT ölkələr arasında mövcud olan qlobal ticarət qanunları ilə işləyən yeganə beynəlxalq təşkilatdır. ÜTT-yə üzv olmaq bir qədr mürəkkəb məsələlərin həlli ilə bağlıdır. Bu sadəcə ÜTT-yə üzv olmaq arzusunu ifadə etmək və sonra müraciəti mövcud ÜTT üzvləri tərəfindən səthi formallıq şəraitində müzakirəyə təqdim edilməsi və dəyişməz olaraq qəbul edilməsi məsələsi deyildir. Qeyd etmək lazımdır ki, ÜTT-də ciddi və mürəkkəb qəbul edilmə prosesi mövcuddur [58]. ÜTT-yə qəbul olunma zaman etibarı ilə uzun müddət çəkən proses olmaqla, olduqca mürəkkəb və geniş prosedur qaydalarını əhatə edir. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. 1995-ci ildə yaradılmış ən gənc beynəlxalq təşkilatlardan biri olan ÜTT-nin əsası 1947-ci ildə qoyulmuş və və bu təşkilat Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) davamçısıdır [52]. Hazırda dünyanın 153 ölkəsi ÜTT-nin üzvüdür. Bundan başqa 30 ölkə və bir neçə beynəlxalq təşkilat ÜTT-də müşahidəçi statusuna malikdir. Hazırda dünya ticarətinin 95%- ə qədəri ÜTT-nin payına düşür [58].

ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılmasıdır. ÜTT-nin əsas prinsipləri aşağıdakılardır:

-üzv ölkələr üçün eyni ticarət şəraitinin yaradılması,

-idxal olunmuş əmtəə və xidmətlərlə yerli məhsullar arasında ayrı-seçkiliyə yol verilməməsi,

-ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi,

-ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması,

-ticarət siyasətinin aydın və şəffaf olması,

-daxili bazarların ancaq ÜTT qaydaları əsasında qorunması,

-azad rəqabət üçün əlverişli şərait yaradılması,

-ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi və s.

Azərbaycan Respublikası ÜTT-yə üzv olmaq üçün 23 iyul 1997-ci ildə təşkilatın katibliyinə müraciət etmişdir. Azərbaycanın ÜTT-yə üzv olunması istiqamətində üç iclas keçirilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın ÜTT-yə üzv kimi qəbul olunmasının əsasən bir sıra müsbət və mənfi cəhətləri vardır. ÜTT-yə üzvolmanm müsbət tərəfləri kimi aşağıdakıları göstərmək olar:

1.Dünyanın 150 dövləti tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında Azərbaycan digər xarici ölkələrlə ticarət əməliyyatları aparacaq.

2. Ölkə qanunvericiliyi təkmilləşdiriləcək.

3.İdxal-ixrac əməliyyatlarının, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyinin tətbiqi şəffaf və aydın şəkildə həyata keçiriləcək. Eləcə də, hökümətin qəbul etdiyi qərarların sahibkarlar tərəfindən əvvəlcədən müzakirə edilməsi imkanı yaradılacaqdır.

4.Azərbaycanda istehsal olunan məhsullar ÜTT-yə üzv olan ölkələrin bazarlarına ixrac olunarkən ayrıseçkilik tədbirləri tətbiq olunmayacaq.

5.Ölkə iqtisadiyyatına, xüsusilə də qeyri-neft sektoruna xarici investisiyalar artacaq.

6.Azərbaycanda aparılan iqtisadi islahatların düzgün aparıldığı dolayı olaraq təsdiq ediləcək.

7. İqtisadi zəmində yaranan mübahisələrin həllinə dair ÜTT-nin qaydalarından və unikal müxanizmindən istifadə etmək imkanı yaranacaq.

8.ÜTT çərçivəsində çoxtərəfli ticarət sisteminin təkmilləşdirilməsi prosesində və aparılan müzakirələrdə iştirak etmək imkanı əldə olunacaq.

9.Ölkədə tətbiq olunan standartlar beynəlxalq tələblərə uyğunlaşdırılacaq.

10.Əmtəə nişanlarının, müəllif hüquqlarının qorunması bütün ölkələr tərəfindən qəbul olunmuş qaydalar əsasında həyata keçiriləcək və s. [28]

Azərbaycanın ÜTT-yə üzv olmasının mənfi tərəfləri olaraq aşağıdakılar göstərmək olar:

1) Ticarətin liberallaşdırılması qoruyucu tədbirlərin səmərəli olmadığı halda daxili bazarda daha ucuz olan xarici malların yer almasına şərait yaradacaq.

2) Qoruyucu tədbirlərin tədbiq olunub - olunmamasından asılı olmayaraq daxili bazarın bütün sahələrində azad rəqabət mühiti yaradılmazsa, daha güclü və təcrübəli xarici şirkətlər üstünlük qazanacaqlar.

3) Öyrənilməsi və həyata keçirilməsi həm çətin, həm də xeyli məsrəf tələb edən mübahisələrin həlli mexanizminin tətbiqi ilkin mərhələlərdə mümkün olmayacaq.

4) Təqdim ediləcək keçid dövrü ərzində rəqabətədavamlı və ixracyönümlü malların istehsalı təşkil edilməzsə, sonrakı mərhələlərdə bu çox çətin olacaq.

5) Xarici ticarətdə kəmiyyət məhdudiyyətləri aradan qaldırılacaq.

6) Xidmətlər sahəsində daha ucuz və aşağı keyfiyyətli xidmət təchizatçıları yer tutacaq.

7) Ölkədə dempinq sahəsində bilik və təcrübəyə malik olan yüksək səviyyəli mütəxəsislər olmazsa daxili bazarda dempinq hallarının sübut olunması qeyri- mümkün olacaq.

8) Bir sıra subsidiya növlərinin gələcəkdə tətbiq olunması qeyri-mümkün olacaq və s. [28]

ÜTT təşkilatına üzv olmanın müsbət və mənfi tərəflərini təhlil edərək, Azərbaycanın bu şəraitdən daha səmərəli istifadə etməsi üçün ÜTT-yə üzv olarkən qəbul edəcəyi tələblərin geniş şəkildə araşdırılması mühüm məsələlərdən biridir. Belə ki, ÜTT-nin irəliyə sürdüyü tələblərin qəbul olunaraq bu təşkilata üzv olduqdan sonra birmənalı şəkildə demək olar ki, bu tələblərin dəyişdirilməsi üçün geriyə yol olmayacaqdır. Bu baxımdan da, ÜTT-yə üzvlük məsələsinə münasibət bu qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın yaxın gələcəkdə bu təşkilata qəbul olunması məqsədəuyğun deyildir. Bunu həmin təşkilata üzv olan ölkələrin təcrübəsi də sübut edir. ÜTT-yə üzvlük o ölkələr üçün daha faydalıdır ki, onlar hazır məhsul ixrac və xammal idxal edirlər. Çünki həmin ölkələr öz məhsulları üçün yeni satış bazarlarına və bunun müqabilində həm də ucuz təbii resurslara daha yaxşı çıxış əldə edirlər. Əgər nəzərə alsaq ki, Azərbaycanın ixrac məhsullarının tərkibində neft və neft məhsullarının xüsusi çəkisi 90 %-dən, idxal mallarının strukturunda isə hazır məhsulun payı 70 %-dən çoxdur, onda bir həqiqət inkar olunmazdır ki, aparıcı sənaye dövlətləri üçün Azərbaycanın xammal bazarı əlverişli ticarət rejiminə çevriləcək.

Azərbaycanın ÜTT-yə qəbul olunmasının bir sıra çətinlikləri də mövcuddur. Ən əsas çətinliklər kimi mövcud qanunvericilik aktlarının ÜTT-nin tələblərinə cavab verməsi məqsədilə aparılan əlavə və dəyişikliklər, eyni zamanda bu dəyişikliklər istiqamətində yeni iqtisadi siyasət xəttinə uyğunlaşmasıdır [32]. Lakin buna baxmayaraq ÜTT-a üzvlük Azərbaycanda yeni ticarət rejiminin formalaşmasına gətirib çıxara bilər. Bu rejim xarici ticarətdə liberallaşma ilə yanaşı, daxili bazarın qorunmasını da öz üzərinə götürməlidir. Respublikamızın seçdiyi strategiya onu özündə əks etdirməlidir. Çünki ÜTT-nin üzvü olan bir sıra ölkələrin qəbul

etdiyi strategiyaya uyğun olaraq liberallaşmanın minimum həddə seçilməsi, lakin o həddə qədər seçilməsi ki, bu ÜTT-nin tələblərinə cavab verə bilən hədd olsun [54].

Azərbaycanın ÜTT-yə qəbul olunması məqsədilə işçi qruppu formalaşdırılmışdır. İşçi qrupu aşağıdakı sahələri əhatə edir [48]:

1.Qanunvericilikdə olan dəyişikliklərinin təhlili üzrə

2.Aqrar sahələrin subsidiyalaşdırılmasma dair öhdəliklərin hazırlanması

üzrə

3.Əqli mülkiyyət məsələləri üzrə

4.Sosial məsələlər üzrə

5.İnvestisiyaların tənzimlənməsi sahəsi üzrə

6.Xidmətlər sahəsinə dair öhdəliklərin hazırlanması üzrə

7.Ticarətdə texniki maneələr və sanitar-fitosanitar tədbirləri üzrə

8.Mübahisələrin həlli sahəsi üzrə

9.Gömrük rüsumlarının dərəcələrinə dair öhdəliklərin hazırlanması üzrə.

Göstəriən işçi qruplarını müxtəlif nazirliklərdən nümayəndələr təmsil edir. Bu işçi qrupuna hər biri aid olduqları sahələr üzrə ÜTT tərəfindən tələb olunan standartların təhlil olunmasını, Azərbaycanın maraqlarına uyğun çıxış edərək bu sahədə əvvəldən nəzərdə tutulmuş plan əsasında işlərin görülməsini həyata keçirir. Azərbaycanın ÜTT-yə üzvolmasmda mövqeyi 4 istiqamət üzrə müəyyən edilmidir. Bu istiqamətlər aşağıdakılardır:

-malların ticarəti üzrə,

-xidmətlərin ticarəti üzrə,

-əqli mülkiyyət üzrə,

-ÜTT-nin qaydalarından kənara çıxan məsələlər üzrə.

Bu mövqelərin prinsiplərinin açıqlanmasından əvvəl qeyd etmək lazımdır ki, danışıqların aparılması ilə eyni zamanda ölkəmizin iqtisadi maraqlarına uyğun olmayan öhdəliklərin qəbul olunmasının qarşısını almaq məqsədilə bir sıra tədbirlərin sırasında biznes dairələri ilə daimi məsləhətləşmələrin aparılması və bununla da üzv olma prosesində şəffaflığın təmin edilməsi durmalıdır.

Bu baxımdan respublikamızda sənayenin ən zəif və eyni zamanda ixrac potensiallı sahələri, eləcə də ayrı-ayrı mallar üzrə prioritet istiqamətləri müəyyənləşdirilməli və onların qorunması məqsədi ilə gömrük rüsumlarından, kreditlərdən, subsidiyalardan və vergi güzəştlərindən səmərəli istifadə olunmalıdır. Ortalama idxal gömrük rüsumunun səviyyəsi nisbətən eyni səviyyədə qalmaq şərti ilə, istehsalı səmərəli olmayan malara ən aşağı rüsum tətbiq etməklə digərlərinə yüksək idxal gömrük rüsumu tətbiq edilməlidir. Gömrük tariflərinin qorunması, tələb olunan sənaye sahələrinin təhlükəsizliyini təmin edən yuxarı hədd dərəcələri işlənib hazırlanaraq, danışıqlar zamanı nail olunmuş idxal gömrük rüsumlarının yuxarı hədd dərəcələrinin, üzvolmadan sonra azalma tempinin əsas ticarət partnyorları və eləcə də eyni mallar üzrə rəqib hesab olunan ölkələrin azalma templərindən yüksək olmamasına nəzarət edilməlidir.

Bununla yanaşı kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən məhsullara idxal gömrük rüsumlarının yüksək hədd dərəcələrinin qəbul edilməsinə nail olunmalıdır.

ÜTT katibliyinə veriləcək xidmətlərlə ticarət üzrə ACC 5 cədvəlində ölkədə bütün xidmət sahələrində xarici və yerli sahibkarlara tətbiq olunan siyasət, güzəştlər rejimi, üstünlüklər göstərilməlidir. Sənədlərin hazırlanması ilə eyni vaxtda xidmətlərin təhlili aparılmalıdır. Məsələn, Azərbaycanda yüksək səviyyəli mühasib ixtisasına malik olan mütəxəssislər olduğu halda bu bazarın xarici mütəxəssislər üçün tamamilə liberallaşdırılması neqativ sosial nəticələrə gətirib çıxara bilər. Təhlilin əsas məqsədi mövcud vəziyyəti aydınlaşdırmaq, liberallaşdırmanm miqyasını müəyyənləşdirmək və onun gələcək təsirinin ilkin qiymətləndirilməsini həyata keçirməkdir.

Azərbaycanın ÜTT-yə qəbul olunması ilə bağlı əsas istiqamət olaraq ÜTT tərəfindən tətbiq olunan standartlar əsasında respublikamız qarşısında qoyulan tələblər və bu tələblərin həyata keçirilməsinin müsbət və mənfi cəhətlərinin müəyyən olunması və bu tələblərin daha səmərəli şəkildə tətbiqinin araşdırılması mühüm

əhəmiyyətə malikdir. Bu baxımdan da Azərbaycan Respublikasının ÜTT-yə təqdim etdiyi Qanunvericiliyin Təkmilləşdirilməsi Planının təhlil edilmişdir [21]. Qanunvericiliyin Təkmilləşdirilməsi Planında Azərbaycan Respublikasında ÜTT standartları çərçivəsində mövcud olan qanunvericilik aktları və onların təkmilləşdirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər planı öz əksini tapır [80]. Bu planda aşağıdakı təbdiblər nəzərdə tutulur:

-20 iyun 1995-ci il tarixində təsdiq olunmuş «Gömrük tarifi haqqında» 1064 nömrəli qanunda gömrük qiymətləndirilməsinə dair maddələrdə dəqiqsizliklər aradan qaldırılmalıdır. ÜTT-nin bu tələbi əsasında müvafiq tədbirlər həyata keçirilməlidir. ÜTT-nin prinsiplərinə görə gömrük dəyərinin müəyyən olunması əsasən sövdələşmə qiymətilə müəyyən olunmalıdır. Bununla yanaşı gömrük dəyərinin advalor növündən istifadə olunması standart olaraq qəbul olunmalıdır. Lakin respublikamızda hal-hazırda gömrük dəyərinin müəyyən olunmasında yalnız sövdələşmə qiymətinin nəzərə alınması düzgün deyildir. Çünki milli iqtisadiyyatımızın inkişaf etdiyi şəraitdə daxili bazarın gömrük alətləri vasitəsi ilə, xüsusilə də gömrük dəyərinin müəyyən olunması ilə idxal rüsumu və vergilərin hesablanmasında gömrük dəyərinin müəyyən edilməsinin digər üsullarının tətbiqinin böyük əhəmiyyəti vardır. Bununla paralel bəzi mal növləri üzrə gömrük rüsumunun tətbiq edilməsində spesifik gömrük rüsumunun daxili istehsalın qorunması baxımından əhəmiyyəti dərk olunaraq, bu növün tətbiqi öz əhəmiyyətini saxlamalıdır.

-ÜTT-nin tələblərinə uyğun olaraq Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında» 22 aprel 1998-ci il tarixli 91 nömrəli qərarında 2001 -ci il 12 aprel tarixli qərarla advalor qeyri-tarif ödənişlərinin ləğv olunmasının müəyyən edilməsi nəzərdə tutulmalıdır. Bu qərarda malların Azərbaycan Respublikasından ixrac zamanı gömrük rüsumuna cəlb olunan malların siyahısı göstərilmiş və həmin mallar spesifik qaydada vahidinə müəyyən olunmuş məbləğlə gömrük rüsumuna cəlb olunur. Bu mallar daha

çox strateji əhəmiyyət daşıyır. Belə hesab edirik ki, bu siyahıda bəzi mallar üzrə ixrac rüsumunu advalor qaydada həyata keçirmək üçün həmin siyahıda olan malların bir qismi üzrə gələcəkdə advalor gömrük rüsumunun tətbiqini mümkün etmək olar. Misal üçün, aliminium tullantıları və qırıntıları, qara metal tullantı və qırıntılarını respublikamızda bu sahə üzrə istehsal prosesinin canlanması ilə əlaqədar onların ixracını məhdudlaşdıraraq, həmçinin xammalı daxili istehsala yönəltməklə bu sahədə olan boşluğu dodurmaq olar.

-ÜTT-nin digər tələbinə əsasən Nazirlər Kabinetinin yuxarıda göstərdiyimiz qərarı ilə yığımların advalor dərəcələri spesifik dərəcələrlə əvəz olunmalıdır. Ümumiyyətlə gömrük yığımları əsasən fiskal xarakter daşıyır. Respublikamızda gömrük yığımlarının advalor dərəcələrinin xeyli kiçik olmasına baxmayaraq, böyük dəyərli malların gömrük rəsmiləşdirilməsi zamanı onun məbləği yüksək olur. Bu da yığımların advalor dərəcələrinin spesifik dərəcələrlə əvəz olunması tənzimləyici təsir göstərməyərək, başlıca olaraq fiskal təsirini göstərəcəkdir. Buna görə də bütün yığımların spesifik dərəcələrlə əvəz olunması zamanı bu mənbəədən daxilolmaların məbləğinin dəyişilməsi təhlil olunmalıdır. Hesab etmək olar ki, bir sıra gömrük əməliyyatları üzrə spesifik dərəcələrin müəyyən edilməsi normal haldır və mənfi təsiri olmayacaqdır.

-Azərbaycan Resupblikasmdan fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin ölkədən nağd çıxarılması zamanı müəyyən məhdudiyyətlər mövcuddur və ÜTT tərəfindən bu məhdudiyyətlərin aradan qaldırılması tələb olunur. Belə ki, Nazirlər Kabinetinin «Fiziki şəxslər olan rezidentlər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Resupblikasmdan nağd çıxarılması zamanı ödənilməli olan rüsumların dərəcələri haqqında» 17 may 2002-ci il tarixli 79 nömrəli qərarında [40], eyni zamanda digər normativ-hüquqi aktlarda xarici valyutanın əldə edilməsi və istifadəsi üzrə advalor ödənişlərin ləğv olunması tələbi irəli sürülmüşdür. Hesab etmək olar ki, respublikamızdan valyuta

sərvətlərinin nağd şəkildə ölkədən çıxarılmasının məhdudlaşdırılmasına hal-hazırda ehtiyac vardır və bu da müvafiq qanunvericiliklə normal tənzimlənir.

-ÜTT-nin Azərbaycan qarşısında irəli sürdüyü tələblərin bir hissəsi idxal əməliyyatlarının lizensiyalaşdırılması prosedurlarının ÜTT Sazişinə uyğunlaşdırılınası, idxal lisenziyalarının verilməsi ilə bağlı rüsumların miqdarının ÜTT tələblərinə uyğunlaşdırılmasıdır. Belə hesab etmək olar ki, idxal lisenziyalarının verilməsi ilə bağlı rüsumların miqdarını ÜTT standartları səviyyəsinə salınmasının xarici iqtisadi fəaliyyətdə gömrük alətinin təsirinin nəticələrinə ciddi təsir göstərməyəkdir.

-İdxalda aksiz vergisinə dair mövcud fərqləri aradan qaldırmaq üçün ÜTT tərəfindən irəli sürülən tələb aksiz vergilərinin daxili istehsalda olduğu kimi idxalda da eyni dərəcə ilə vergiyə cəlb olunmasını nəzərdə tutur.

Azərbaycanın ÜTT-yə qəbul olunması ərəfəsində mövcud olan vəziyyətin və qarşıya qoyulan şərtlərin və tələblərin təhlil olunaraq aşağıda göstərilən fikirləri irəli sürmək olar:

-ÜTT-yə qəbulun əsas şərtlərindən biri kimi gömrük rüsumlarının təkmilləşdirilməsi zamanı strateji istehsal əhəmiyyətli mallara tətbiq olunan gömrük rüsumlarının daxili bazarın qorunması üçün səmərəli formalarından istifadə olunması, yəni ixracın stimullaşdırılması, prioritet mallar üzrə idxal əvəzedici siyasətin reallaşdırılması və rəqabət qabiliyyətli məhsulların istehsalına şərait yaradılması baxımından gömrük siyasətinin təşkil olunması zərurəti nəzərə alınmalıdır.

-Gömrük dəyərinin müəyyən olunması zamanı sövdələşmə qiymətinin nəzərə alınması əsas metodlardan biri olsa da, digər metodların tətbiqinə yer verilməklə, gömrük dəyərinin başlıca vəzifə kimi daxili bazarın qorunmasına xidmət etməsi ilə yanaşı, vergi öhdəliyinin azaldılması məqsədi ilə tətbiqinin qarşısının alınmasını da öz üzərinə götürməlidir.

-İxrac siyasəti olaraq daha çox hazır məhsul ixracına güzəştlər tətbiq olunmalı, xammal ixracı sahəsində gömrük rüsumları və

digər dolayı vergilərin tətbiqinin həyata keçirilməsinə diqqət yetirilməlidir.

Azərbaycanın Beynəlxalq vergi münasibətləri çərçivəsində bir sıra beynəlxalq təşkilatlarla üzvülük məsələlərindən biri kimi beynəlxalq təşkilatlar və ya digər birliklərə üzv olmaqla vergi siyasətinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, qarşılıqlı inzibati yardım, informasiya mübadiləsi və digər məqsədləri daşıyır. Azərbaycanın beynəlxalq təşkilatlara vergitutma məqsədi üçün inteqrasiyası əsasən Avropa ölkələri ilə daha sıx şəkildə həyata keçirilir. Azərbaycan Respublikası 13 may 2003-cü ildə «Avropadaxili Vergi İdarələri Təşkilatının Nizamnaməsinə qouşlmaq barədə» qanun qəbul etmişdir. Qanuna əsasən respublikamız 1996-cı il 30 oktyabrda bu təşkilat tərəfindən imzalanmış olan nizamnaməyə qoşulmuşdur [28]. Bu təşkilatın təsisçiləri Bolqarıstan, Çexiya Respublikası, Macarıstan, Latviya, Litva, Polşa və Slovakiya Respublikasıdır.

Beynəlxalq təşkilatlara üzvlüklə yanaşı beynəlxalq vergi münasibətlərinin təkmilləşdirilməsi istiqaməti kimi Avropa Birliyi Vergitutma hüququnun öyrənilməsi və beynəlxalq inteqrasiya prosesində bu sahədə olan təcrübənin mənimsənilməsi zərurəti mövcuddur. Bu məqsədlə Avropa Birliyi vergi hüququna getdikcə uyğunlaşmaq gələcək perspektiv üçün Azərbaycanın vergi siyasətinin zəruri istiqaməti olaraq çıxış edir. Buna görə də, Avropa Birliyi vergi hüququnun əsas tərkib hissəsi sayılan vergi direktivlərinin öyrənilməsi və bu direktivlərin beynəlxalq vergi münasibətlərinə nə kimi təsir edəcəyinin müəyyən olunması faktı qəbul olunur.

Bununla yanaşı Azərbaycanın beynəlxalq vergi münasibətlərində MDB ölkələri ilə əməkdaşlıq çərçivəsində qarşılıqlı yardımın həyata keçirilməsi məqsədilə MDB ölkələri vergi orqanları rəhbərlərinin koordinasiya şurası mövcuddur. Koordinasiya şurasının əsas məqsədi beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və informasiya mübadiləsinin aparılması

məqsədini daşıyır. Koordinasiya şurasına MDB-yə daxil olan 12 dövlətin vergi orqanlarının rəhbərləri daxildir.

Tədqiqat prosesində vergitutma sahəsində əsas təsir gücə malik ÜTT-nin prinsipləri və mahiyyəti müəyyən edilərək, bu təşkilata daxil olunması məqsədləri araşdırıldı. Həmçinin yaxın gələcəkdə Azərbaycanın Avropa Birliyi ölkələrinə inteqrasiyası ilə əlaqədar bu ölkələrin vergi sistemi və ya Avropa Birliyi vergi münasibətlərinin öyrənilməsi və ona uyğunlaşdırılması zərurəti öz əhəmiyyətini göstərməkdədir.

Beləliklə, elektron iqtisadiyyatın inkişaf mərhələləri, onun fəaliyyət prinsipləri və bu sahədə olan vergitutma münasibətləri araşdırılaraq, xarici iqtisadi fəaliyyətin tərkib hissəsi kimi elektron iqtisadiyyatda iş yerinin müəyyən olunması, birbaşa və dolayı vergilərin tutulması prinsipləri aşkar edilmişdir. Bu sahədə aparılan araşdırmalar hazırda inkişaf edən elektron ticarət sahəsində vergitutma münasibətlərinin tədqiqinin başlanğıcı hesab olunur.

Tədqiqat işində əldə edilmiş nəticə və təkliflər

Tədqiqat işi gömrük statistikası və müasir informasiya texnologiyaları üzrə nəzəri və metodoloji məsələlərin izah edilməsi ilə bərabər, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında xarici ticarətin gömrük statistikası ürə aparılmış təhlil və qiymətləndirmələrə əsasən, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrndə gömrük statistikasının səmərəliliyinin yüksəldilməsinin sistemli həllinə yönəldilərək aşağıdakı nəticə və təkliflərin əldə olunmasına istiqamətlənmişdir:

- Tədqiqat işində gömrük nəzarətinin təşkili və səmərəliliyi göstəricilərinin statistik uçotunun təhlilinin əsas istiqmətləri müəyyən edilmiş, indeks metodundan istifadə etməklə YGB-nin sayının işçilərin sayından funksional asılığını ifadə edən göstəricilərə uyğun olaraq gömrük nəzarəti ilə məşğul olan işçilərin iş yükünün təhlili metodikası verilmişdir.

-Malın mənşə ölkəsindən, ticarət şərtlərindən, daşınma marşrutundan, riskli hadisələrdən, göndərən və təyinat ölkələrinin tarif siyasətindən, təyinat ölkəsində mövcud olan rəqabətdən, rəsmiləşdirmə qaydalarından və başqa amillərdən asılı olaraq idxal mallarının qiyməti əsas statistik məcmuya təsiri nəzəri baxımdan təhlil edilərək, həmin amillər arasındakı qarşılıqlı əlaqənın sxemi qurlmuşdur.

-Xarici ticarətin digər istiqamətlərindəki dəyişiklikləri xarakterizə etmək üçün istifadə olunan indeks üsulundan təkcə xarici ticarətin dinamikasının təhlili məqsədilə deyil, həmçinin xarici ticarətin nəticələrinin təhlili üçün də istifadə olunmasında əhəmiyyəti göstərilməklə, şərti ticarət indeksinin artmasının ($İ_{TŞ} > 1$) ölkənin ixrac qiymətlərinin cəminin hər bir ixrac məhsuluna görə idxalın ümumi qiyməti ilə müqayisədə daha çox idxal məhsullarının əldə olunmasına imkan yaradaraq, ölkənin həyat səviyyəsinin yaxşılaşdırılmasının artımı ilə nəticələnəcəyi və əksinə icarət şərti indeksinin azalmasının ($İ_{TŞ} < 1$) ölkənin ixrac qiymətlərinin cəminin hər bir ixrac məhsuluna görə idxalın ümumi

qiyməti ilə müqayisədə daha az idxal məhsullarının əldə olunmasına imkan yaradaraq, ölkənin həyat səviyyəsinin yaxşılaşdırılmasının azalması ilə nəticələnəcəyi konkret məsələlər əsasında müəyyən edilmişdir.

- Xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili metodikası verilmiş və bu metodikaya əsasən, xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin statistik təhlili cəlb edilmiş gömrük rüsumlarının, gömrük dəyəri və gömrük tarifinin orta hesabi qiyməti amillərinə əsasən qiymətləndirilmiş və gömrük tarifinin multiplikativ modeli qurulmuşdur.

- Aksiz rüsumlarına təsir edən amillər əsasən malın fiziki həcmi, orta qiyməti, milli valyutanın məzənnəsi, həmçinin hesabi orta tarif qiyməti kimi təsnifləşdirilərək, onların aksiz rüsumuna təsir dərəcəsi qiymətləndirilmişdir.

- Tədqiqat işində ƏDV üzrə amillərin təsir dərəcəsi aksiz, malın gömrük dəyəri və gömrük rüsumuna əsasən qiymətləndirilmişdir.

- Gömrük dəyərinin xüsusi çəkisi kimi gömrük rüsumunun hesablanmasında heç bir güzəşt tətbiq edilməyən amillərin daxil edilməsi zamanı gömrük rüsumunun təhlilinin aparılmasında amillərin qarşılıqlı əlaqəsi modeli qurulmuş və müəyyən edilmişdir ki, bu halda gömrük rüsumunun orta hesabi tarifi faktiki ayrılmış gömrük rüsumuna əsasən malın gömrük dəyəri ilə təyin edilməlidir.

- 2009 və 2017-cü illərdə hər bir ödəmə növü üzrə xarici ticarətin gömrük statistikasında gömrük və vergi ödənişlərinin amillər üzrə statistik təhlili zamanı dövlət büdcəsinə gömrük ödənişlərinin strukturundakı dəyişikliklər müəyyən edilmiş və aparılmış hesablamalara əsasən 2009 və 2017-ci illərdə gömrük ödənişləri üzrə əldə edilən dəyər strukturda cüzi bir fərq olduğu müəyyənləşdirilmişdir.

- 2018-ci il üzrə idxal olunmuş malların ümumi gömrük dəyəri və idxal edilmiş mallar üzrə toplanmış gömrük rüsumlarının məbləğinə uyğun olaraq, idxal edilmiş mallara tətbiq edilmiş orta

rüsum dərəcəsi orta hesabi gömrük tarifinə əsasən 4,53%, sadə orta çəkili tarif dərəcəsi isə çəkili hesabi orta kəmiyyət düsturuna əsasən isə 8,8% təşkil etmişdir.

- ARDGK-nin statistik məlumatlarına əsasən 2018-ci ildən 7 pilləli tarif dərəcəsindən 3 pilləli tarif dərəcəsinə (0%, 5%,15%) keçilməsinin əhəmiyyəti müəyyən edilməklə, 0% tarif dərəcəsi ilə idxal statistikasına əsasən "0" dərəcə ilə idxalın xüsusi çəkisinin 2018-ci ildə 14,37% təşkil etməsi göstərilmişdir.

- Tədqiqat işində alınmış hesabat nəticində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə ƏDV-nin 1% artması büdcə üzrə ƏDV-nin 0,74 % artması ilə nəticələnir.

- Tədqiqat nəticəsində Azərbaycan iqtisadiyyatının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin inkişaf meyilləri təhlil edilərək müəyyən edilmişdir ki, büdcə daxilolmalarında xarici iqtisadi əlaqələr üzrə daxilolmalar Azərbaycanda 0,6% təşkil edirsə, Rusiyada bu göstərici federal büdcə üzrə 30-40% arasında dəyişərək 60%-i xammal ixracı üzrə gömrük rüsumlarının üzərinə düşür.

- Tədqiqat işində Azərbaycanla müqayisədə Rusiya Federasiyasında federal büdcə daxilolmalarının tərkibində qeyri-bərabərliyin olduqca yüksək olması aşkar edilmişdir. Bu isə milli iqtisadiyatın inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təhlükə altına düşməsinə şəraitin yaranması ilə nəticələnə biləcəyi deməkdir.

- Azərbaycanda gömrük rüsumları ilə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmaları arasındakı asılılıq EViews tətbiqi proqram paketinə əsasən qiymətləndirilərək müəyyən edilmişdir ki, Azərbaycanda gömrük rüsumlarının 1% artması büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarını 0,59% artırır. Həmçinin gömrük üzrə büdcə daxilolmaları ilə ÜDM arasındakı əlaqə tənlyi qurulmuş və Azərbaycanda gömrük üzrə büdcə daxilolmalarının 1% artmasının ÜDM-in 0,07% artması ilə nəticələnməsi əsaslandırılmışdır.

- Tədqiqat nəticəsində Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin təhlilinə əsasən, Azərbaycan Respublikasının ixrac və idxalında Avropa və Asiya ölkələrinin əsas yer tutaraq, iqtisadi əlaqələrin əsasən getdikcə daha çox (60%) Avropaya meylliliklə müşahidə edilməsi müəyyən edilmişdir.

- Tədqiqat işində aparılmış təhlilə əsasən ARDGK üzrə ƏDV daxilolmaları ƏDV üzrə büdcə daxilolmalarının 52,2%-ni, aksiz daxilolmaları aksiz vergisi üzrə daxilolmaların 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları isə xarici iqtisadi fəaliyyət üzrə büdcə daxilolmalarının 85,1%-ni təşkil etmişdir. Bu isə büdcə daxilolmalarının tərkibində MDB ölkələri ilə o cümlədən, Rusiya ilə müqayisədə qeyri-bərabərliyin yüksək olmaması hesabına, Azərbaycan milli iqtisadiyatının inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəyi deməkdir.

- EViews tətbiqi proqram paketinə əsasən gömrük üzrə büdcə daxilolmaları ilə ÜDM arasında yüksək korelyasiya əlaqəsinin olduğu müəyən edilərək, reqresiya tənlikləri qurulmuş və reqressiya tənliyinə əsasən xarici iqtisadi fəaliyətlə bağlı gömrük üzrə büdcə və ƏDV daxilolmalarının qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları qrafiki olaraq təsvir edillmişdir. Tədqiqat nəticəsində qurulmuş modellərin adekvatlığının yüksək olması müəyyən edilərək, Azərbaycan Respublikasında gömrük üzrə vergi daxilolmalarının və ÜDM-in 2025-ci ilədək proqnoz qiymətləri hesablanmışdır.

- Azərbaycan Respublikasının idxalında və ixracında əsas tərəfdaşlarının xüsusi çəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığı ARDGK-nin statistik məlumatlarına əsasən hesablanmış və Azərbaycanın idxalında onun əsas tərəfdaşlarının xüsusi çəkiləri 1996-2016-ci illər üzrə daima bərabərləşməyə meylli olması müəyyənləşdirilmişdir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının iqtisadiyyatında

idxal siyasəti üzrə dövlət müdaxiləsi xarici ölkələrin azərbaycanın xarici siyasətinə ciddi təsir etmə dərəcəsinin azalmasına imkan verən ən mühüm göstərici kimi nəzərdə tutulan idxalın balanslaşdırılmasına yönəldilmişdir.

- Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası əsas ölkələrdən asılılığını azaltmaqla son 15 il ərzində müstəqil iqtisadi idxal siyasəti üzrə 20-ə %-ə qədər potensial imkan genişliyi əldə etmişdir.

- Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlarının xüsusi çəkilərinə əsasən entropiya, informasiyanın miqdarı və onun faydalılığı ARDGK-nin statistik məlumatlarına uyğun olaraq müəyyən edilmişdir ki, tədqiq olunan dövr üzrə (1996-2016) respublikada idxalla müqayisədə ixrac siyasəti daha da gücləndirilmişdir. Lakin, 2014-cü ildən 2016-cı ilədək ixrac dinamikasının aşağı istqamətlənməsi ixrac neftindən asılılığın mənfi təsirləri hesabına olduğu müəyyənləşdirilmişdir.

- Təhlil nəticəsində belə qənaətə gəlinmişdir ki, xarici ticarətdə entropiyanın artması Azərbaycan üçün müsbət, ölkənin güclü tərəfdaşları üçün isə mənfi haldır. Bu onunla izah edilir ki, Azərbaycan üçün bütün tərəfdaş ölkələrlə bərabərsəviyyəli əməkdaşlıq yaratmaq faydalı olduğu halda, nisbətən güclü tərəfdaş ölkə üçün Azərbaycanla eynisəviyyəli əməkdaşlıq bir o qədər də müsbət hal deyildir. Belə ki, Azərbaycan Respublikasında siyasi və iqtisadi marağı olan güclü ölkə təbii ki, öz təsir dairəsini genişləndirməyə çalışacaqdır.

- "Güzgülü statistika"nın əsas məqsədi kimi dövlətlərarası qeydə alınmış idxal və ixrac əməliyyatları balansının hesablanması və təhlilində, xarici ticarət müqavilələrinin bağlanması zamanı müxtəlif göndərilmə ticarət şərtlərindən istifadə edilir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, malların ixrac və idxalı üzrə ümumi dəyəri müəyyən etmək üçün məlumatların sadəcə olaraq toplanması yolu ilə müqayisə və təhlil aparılması kifayət deyil və bu səhvdir. Ona görə də, bütün idxal və ixrac olunan malların dəyər qiymətləndirilməsi göstəricisinin alınması üçün onların qiymətlərini

vahid bazisə gətirmək lazımdır.

-Eyni mənşəli malların ölkəyə eyni marşrutla idxal olunmasının təhlili "güzgülü statistika" əsasında aparılarkən səmərəli nəticələr verir. Bu məsələlərdə əməliyyatların bazis şərtlərinə gətirilməsi həqiqi qiymətləndirmənin aparılmasına imkan verəcəkdir.

- «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikası qanununa əsasən eyni təyinatla idxal olunan əmlak idxal gömrük rüsumundan da azad edilir. Bu güzəştlər vergi öhdəliyinin azaldılması istiqamətində müəssisələr tərəfindən tətbiq edilə bilər. Belə ki, nizamnamə kapitalına qoyulan əmlakın demək olar ki, idxalda bütün ödənişlərdən azad olunması, həmin əmlakın dəyərinin şişirdilməsinə yol açmasını asanlaşdırır. Bu məqsədlə bu təyinat ilə, yəni ölkəyə idxal olunan avadanlığın idxal gömrük rüsumundan azad olunduğu və ya güzəştli idxal rüsumunun tətbiq olunduğu, həmçinin ƏDV-dən azad olunduğu hallarda, həmin vəsaitlərin qiymətinin faktiki dəyərinə uyğunluğunun müəyyən olunması üçün vergi və gömrük orqanları tərəfindən araşdırma aparılmasının zəruri olduğunu hesab etmək olar. Bu hal əmlakın dəyərinin şişirdilməsinin gələcəkdə mənfəət vergisi üzrə müəsisənin vergi öhdəliyinin azalması ilə nəticələnəcəyi ilə izah edilir.

- Tədqiqat işində xarici ticarət əməliyyatları üzrə müxtəlif sahibkarlıq subyektlərinə (ƏDV ödəyicisi və sadələşdirilmiş vergi ödəyicilərinə) idxal olunmuş malların faktiki dəyərlərinə əsasən əməliyyatlar üzrə müxabirləşmə aparılmış və əməliyyatın sonunda qiymətləndirməyə uyğun olaraq yaran müsbət fərq gəlirə əlavə edilməklə, idxal olunmuş malın bazar qiyməti ilə onun faktura dəyərinin demək olar ki, bir-birinə yaxın olduğu müəyyən edilmişdir. Bu isə onu deməyə əsas verir ki, sadələşdirilmiş vergi ödəyicisindən fərqi olaraq ƏDV ödəyicisində qiymətləndirməni aparmağa ehtiyac yoxdur.

- Azərbaycan Respublikasının tədiyyə balansı təhlil edilərək investisiyanın repatriasiyasının başlıca olaraq neft-qaz sektorunda

həyata keçirilməsinin neft ixracı zamanı mənfəət neftinin ölkədən çıxarılması ilə əlaqədar olduğu və bunun neft-qaz rektorunda 2005-ci ildə investisiyanın repatriasiyasının kəskin surətdə artdığını göstərməsi müəyyən edilmişdir ki, bu da mənfi hal kimi qiymətləndirilmişdir.

- Müəyyən edilmişdir ki, gəlirlərin və ya mənfəətin repatriasiyası baxımından Azərbaycanın vergi sisteminin əlverişli investisiya mühitini yaratmasına xidmət edir.

- Tədqiqat nəticəsində xarici investorun digər vergilər üzrə borcunun olması, onun əldə etdiyi mənfətin repatriasiyasını əlverişli şəkildə həyata keçirdiyindən xarici investisiya qoyuluşunun həyata keçirilməsində investorlar üçün əlverişli şərılərdən biri kimi hesab olunması müəyyən edilmişdir.

- Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Aərbaycanda ən son blockçeyn texnologiyasının tətbiqi prosesi mürəkkəb və uzun bir proses olmasına baxmayaraq, bu texnologiyanın təklif etdiyi üstünlüklər mühüm əhəmiyyətə malikdir. Buna görə də Azərbaycan Respublikasının gömrük sistemində informasiya texnologiyasının mövcud risklərin idarəetmə sisteminə əlavə olaraq bu sistemin köməkçi sistem kimi istifadə edilməsi mühüm əhəmiyyət daşıyır.

Blokçeyn texnologiyasının gömrük orqanalrında tətbiqi üçün sürətli internetə çıxış və gömrük işçilərinin yenidən hazırlanması kursları təşkil edilməlidir. Azərbaycan Respublikasının gömrük sistemində və xarici ticarət fəaliyyətinin tənzimlənməsində blockçeyn texnologiyasının istifadəsi zamanı geniş perspeketiv ikanlar əldə ediləcəkdir. Belə ki, malların hərəkəti nəticəsində, idxal edən ölkənin gömrük orqanlarının müvafiq və etibarlı məlumat almasını təmin edərək, məlumat saxtalaşdırıla və ya dəyişdirilə bilmədiyindən gömrük sərhədindən keçən malların növbəti mərhələsində saxta bəyannamələrə cəhdlərin qarşısı alınacaqdır.

- Blockçeyn sisteminə giriş yalnız xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları tərəfindən məhdudlaşdırıla

bilərsə, məlumatların məxfiliyi bu məhdud üzvlüyün daxilində qorunmalıdır.

-Xarici ticarət iştirakçılarının əksəriyyətinin blockçeyn sisteminə daxil edilməsi statistik göstəricilərin manipulyasiyası və boz idxal istisna olmaqla real vaxt rejimində ticarət axınının nəzərə alınmasına imkan verəcəkdir.

Hesab etmək olar ki, blokçeyndən istifadə etməklə məlumatların bölüşdürülməsi gömrük və sərhəd rəsmilərinə nəzərdə tutulan sona çatan "məlumat kəməri" ni həyata keçirməyə kömək edə bilər.

Əlavələr

Azərbaycan Respublikası Ədliyye Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 03.05.2016-cı il tarixdə 15201 605023001 qeydiyyat nömrəsi Ilə daxil edilmiş va 04.05.2016-cı il tarixdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Dövlət Gömriük Komitəsinin Kollegiyasının "100/03/001 " Nömrəli "2 may" 2016-cl il tarixli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Malların ve nəqliyyat vasitələrinin gömrük resmiləşdirilməsi üzrə elektron Gomrtük Bəyannaməsinin qəbulu üzrə inzibati reqlament.

Umumi müddəalar

1.1. Elektron xidmətin adı: Mallarrn ve nəqliyyat vasitələrinin (bundan sonramallann) gömrük rəsmiləşdirilməsi üzre elektron Gömrük Bəyannaməsinin (bundan sonar Bəyannamə) qəbulu.

1.2. Elektron xidmətin məzmunu: Bu xidmat vasitəsilə çəxslər Azərbaycan Respublikasınrn gömrük sərhədindeən keçirdikləri mallar üçün bəyannamələri elektron formada tərtib edərək gömrük orqanlarına təqdim edirlər. Bəyannamədə va ona əlavə edilmiş sənədlərdə olan məlumatlar interaktiv qaydada yoxlanılır ve nəticəsi barədə istifadəçiyə məlumat verilir.

1.3. Elektron xidmətin göistərilməsinin hüquqi əsası:

1.3.1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 40.5, 40.6, 146.2, 149.1,151, 153, 162-ci maddələri;

1.3.2. " Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqrnda" Azərbaycan Respublikası Prezidentinin 1997-ci tl 24 iyun tarixli 609 nomrəli Fərmanı;
1.3.3. "Dövlət orqanlarının elektron xidmetlər göstərməsinin teşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429
Nömrəli Fermanının 2.1-ci hissəsi;
1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qararı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmetlər gostərilməsi Qaydaları" ve "Elektron xidmət novlərinin siyahısı"nın 22.1-ci bəndi;
1.3.5."Gömrük sərhədindən keçirilən malların ve nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydalarının tesdiq edilməsi haqqrnda" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-ci il tarixli 263 nomreli Qərarı.
1.3.6. "Gömrük nəzarətinin heyata keçirilməsi Qaydalarının təsdiq edilmasi haqqrnda" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 yanvar 2013-cü il tarixli 7 nomreli Qərarı;
1.3.7. "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı;
1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra-Komitə)
1.5. Elektron xidmətin digər icrakçıları: Elektron xidmət Komitə tərəfindən həyata keçirilir ve bu zaman "Gömrük sərhədindən keçirilən malların ve nəqliyyat vasitələrinin bəyan edilmesi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 nomrəli Qərarının 2.6-cı bəndinə əsasən bəyan edilən malların kateqoriyasından, malları keçirən şəxsdən ve malların yerleşdirildiyi gömrük prosedurundan asılı olaraq onların ixracı, idxalı vo ya tranzit daşınması üçün tələb olunan lisenziya, icaze sənədləri, sertifikatlar və digər sənədlər həmin sənədlərin verilməsində məsul qurumlar

tərəfindən gömrük xidmətinin vahid avtomatlaşdrılmış idarəetmə sisteminə (bundan sonra sistem) daxil edilir.
1.6. Elektron xidmətin avtomatlaşdrılma səviyyəsi: Elektron xidmət qismən avtomatlaşdırılır.
'1.7.Elektron xidmətin icra müddəti: Elektron xidmət bəyannamənin təqdim olunduğu iş günü ərzində həyata keçirilir.
1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:
1.8.1. Elektron xidmətdən istifadə nəticəsində gəxslər ixrac ve idxal etdikləri, habelə tranzit daşınan malların gomrük rəsmiləşdirilməsini həyata keçirirlər va onlara rəsmiləşdirilmənin nəticəsi haqqında məlumat verilir,
1.8.2. istifadəçi gömrük orqanrının vəzifəli şexsinin elektron imzası ilə təsdiq edilmiş elektron bəyannaməni istənilən təşkilata, o cümlədən müvəkkil banklara təqdim edə bilər. Bu halda elektron sənəd kağız daşıyıcılarında olan sənədə bərabər tutulur ve onunla eyni hüquqi qüvvəyə malikdir.
2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi
2.1. Elektron xidmətin novü: interaktiv
2.2. Elektron xidmət üzrə ödəniş: ödənişli
2.2.1. Azerbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 2016-cı il tarixli 168 nömrəli Qeraru ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"nin 2.4-cü bəndinə əsasən malların ve nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altrnda tam yerleşdirilməsini nəzərdə tutan bütün nov gömrük bəyannamələrinin hər vəraqi üçün elektron gömrük xidmətinin göstərilməsinə göre 30 manat mebləğində gömrük yığımı alınır.
Qeyd: Malların ve nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında tam yerləşdirilməsini nəzərdə tutan bütün nov gömrük bəyannamələrinin her vereqi üçünn electron gömrük xidmətinin gösterilməsinə görə məbləğ gömrük bəyannaməsinin qəbulundan imtina edilmədikdə odenilir.
2.2.2. Gomrük yıgımlarının ödənilməsi üçün bank rekvizitləri:

1.**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük orqanlarında göstərilən elektron xidmet üçün:**

1. Benifisiar (alan) bank	
Adı: Kodu: VÖEN: M/h: S.W.I.F.T. Bik:	'AFB' Bank ASC 503217 1301703781 AZ81NABZ01350100000000091944 AZFİAZ22
2. Vəsaiti alan	
Adı: Hesab №: VÖEN	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyi AZ27 AZFİ 00000100000545760002 1802077241

2. Naxçıvan Muxtar Respublikası Dovlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük orqanlarında göstərilən elektron xidmət üçün:

1. Benifisiar (alan) bank	
Adı: Kodu: VÖEN: M/h: S.W.I.F.T. Bik:	Kapital Bank Culfa rayon filialı 200327 0200001911 AZ37 NABZ13501000000000001944 AIIBAZ2X
2. Vəsaiti alan	
Adı: Hesab №: VÖEN	Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin "Naxçıvanterminalkompleks" Birliyi AZ42AIB38 050019443260211132 0600012271

2.2.3. Ödəmə üsulu: Odənişlərin aparılması bank, poçt, plastik kart va ya internet vasitəsi ilə həyata keçirilir.
2.2.4. Komitə elektron xidmətin göstərilməsi üçün ödənişin real vaxt rejimində elektron formada həyata keçirilməsi imkanlarını təmin etməlidir.
2.3. Elektron xidmətin istifadəçiiləri: Şəxslər.
2.4. Elektron xidmətin təqdim olunma yeri:
1 . http://dgk.gov.az/az/e-xidnew.html
2. http://www.e-gov.az
2.5. Elektron xidmət barədə məlumatlandlrma:
1 . http://www.customs.gov.az
2. http://www.dgk.gov.az
3. e-poçt: office@customs,gov.az
4. tel: (99412) 404-22-00
5. '195(6)" Çağrı Mərkəzi
2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması: Elektron xidmətin göstərilməsi üçün aşagıdakı sənədlər elektron qaydada gömrük orqanlarına teqdim edilir.
1. Bu reqlamentin 2.4-cü bəndində göstərilən Unvanda müvafiq xidməti seçməklə tərtib olunmuş bəyannamə;
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cu il tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş "Gomrük sərhədindən keçirilən malların ve nəqliyyat vasitələrinin Bəyan edilməsi Qaydaları"nın 2.5-ci və 2.6-cı bəndlərinə əsasən tələb olunan sanədlər (elektron ve ya skan edilmiş surətləri).
3. Elektron xidmətin göstərilmsi üçün inzibati prosedurlar
3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:
3.2.1. Sorğunun formalaşdırılması: Şəxslər elektron xidmətin təqdim edildiyi internet ünvanına daxil olaraq (reqlamentin 2.4-cü bəndi) bəyannaməni doldurur, bu reqlamentin 2.6-cı bəndində tələb olunan sənədlər (elektron şəkildə və ya skan edilmiş suretlerini) gücləndirilmiş elektron imza ile təsdiq etməklə real vaxt rejimində gömrük orqanına təqdim edirlər.

3.2.2. Sorğunun qəbulu: Bəyannamə sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alrnmış olur ve sistem terefinden ona bu barədə bildiriş gondərilir.
3.3. Elektron xidmətin göstərilməsi va ya imtina edilməsi:
3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları: Gomrük orqanının vəzifəli gexsi tarəfindən elektron xidmətin göstərilməsi üçün teqdim olunan sənədlərin aşağıdakı
Şərtlərə uyğunluğu yoxlanılır:
1. Gömrük bəyannaməsində idxaltına, yaxud ixracatına qadağa va ya məhdudiyyətlər qoyulmuş mallar haqqında məlumatların olub-olmaması;
2. Gomrük bəyannaməsinin bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərə uygunluğunu;
3.3.2. Gomrük bəyannaməsi bu reqlamentin 3.3.1-ci yarımbəndi ilə müəyyən edilmiş şərtlərə cavab vermədikdə va bəyannaməçi tərəfindən ona düzəliş edilməklə həmin çatışmazlıqların aradan qaldırlıması mümkün olmadıqda, həmin bəyannamə gömrük orqanları tərəfindən təsdiq edilmir. Belə hallarda gömrük bəyannaməsində onun təsdiq edilməməsinin səbəbləri göstərilməklə, müvafiq qeyd aparılır ve bəyannaməçiyə əsaslandırılmış imtina təqdim edilir.
3.3.3. Sorğunun qəbulu: Gomrük bəyannaməsi bu reqlamentin 3.3.1-ci yarımbəndini müəyyən edilmiş şərtlərə cavab verdikdə, həmin bəyannamə təqdim olundugu üçün gomrük orqanları tərəfindən təsdiq edilir.
3.4. Sorğunun icrası:
3.4.1.ardlcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul gəxs haqqrnda məlumat: Gömrük orqanı tərəfindən aparılan yoxlama zamanı texniki xarakterli sahvlər (gomrük qaydalarının pozulması və qaçaqmalçılıq faktları kimi səciyyələndirilməyən səhvlər)
aşkar edildiyi halda bəyannamə səhvlərin aradan qaldırılması məqsədilə beyannaməçiyə qaytarılır.

3.4.2. her bir inzibati əməliyyatın məzmunu, yerine yetirilmə müddəti və ya maksimal yerina yetirilme miiddeti: inzibati əməliyyatlar bir iş günü müddətində həyata keçirilir.
3.4.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:
Sistemin iştirakçıları.
3.4.4. hər bir inzibati prosedurun nəticəsi ve onun verilməsi qaydası:
Çatışmazlıq aşkar edilmədikdə, həmçinin bəyannamənin 47-ci qrafasrnda gosterilən məbləg ödənildikdən sonra gexslərə elektron xidmətin gösterilməsi ile elaqədar malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altrnda tam yerləşdirilməsini nəzardə tutan bütün növ gömrük bəyannamələrinin her vereqi üçün elektron gömrük xidmətinin gosterilməsinə görə məbləğin elektron qaydada ödənilməsi zəruriliyi barədə bildiriş gönderilir. Şəxslər tərəfindən məbləğin ödənilməsini təsdiq edən sənəd elektron qaydada təqdim edildikden sonar müvafiq bəyannamə tesdiq edilir, malların buraxrlması və ya qanunvericiliklə müəyyən olunmuş digər əmaliyyatların (baxış, gömrük yoxlaması) hayata keçirilməsi haqqında qərar qəbul edilir ve bu barədə bəyannaməçiyə bildiriş göndərilir.
3.5. Elektron xidmətin yerinə yetirilmesinə nəzarət:
3.5.1. Nəzarət formast: Elektron xidmətin yerinə yetirilmesinə nəzarət informasiya sistemi vasitəsi ile real-vaxt rejiminde həyata keçirilir. Xidmətin göstərilməsi üçün edilən elektron müraciətlərin uçotu və gösterilən xidmətin nəticəsinin qeydiyyatı aparılır.
3.5.2. Nəzarət qaydası: Elektron xidmətin göstərilməsinə nəzarət Komitənin Fəaliyyətin Qiymətləndirilməsi va lnkişaf Proqramları Bag idarəsi tərəfindən həyata keçirilir.
3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:
3.6.1. istifadəçinin şikayət etmek hüququ haqqında məlumat: Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 51-ci maddəsinə uygun olaraq gömrük orqanlarının, onların vəzifəli şəxslərinin

qərarlarından, hərəkətlərindən ve ya hərəkətsizliyindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilir.

3.6.2. Şikayətin əsaslandırılması ve baxılması üçün lazlm olan informasiya:

Şikayət "lnzibati icraat haqqrnda" Qanunun 74-ci maddəsinin tələblərinə uygun olmalıdır.

3.6.3. Şikayətin baxllma müddəti: Şikayətə "inzibati icraat haqqrnda" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 09.02.2018-ci il tarixdə 15201801301005 qeydiyyat nömrəsi ilə daxil edilmiş və 10.02.2018-ci il tarixdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 30.01.2018-ci il tarixdə 100/01/005 nömrəli Qərarı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi
Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi üzrə inzibati reqlament

1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı:

Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi.

1.2. Elektron xidmətin məzmunu:

Bu xidmət vasitəsilə Azərbaycan Respublikasında qeydə alınmış xarici ticarət iştirakçıları sərhəd gömrük məntəqələrində onların adına (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) əsasında) qeydə alınan, lakin rəsmiləşdirilməsi başa çatmayan mallar haqqında məlumatları əldə edə bilərlər.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

1.3.1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 37-ci maddəsi;

1.3.2. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

1.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti

tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 22.14-cü bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə).

1.5. Elektron xidmətin digər icraçıları:

Xidmət yalnız Komitə tərəfindən həyata keçirilir.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:

Xidmət tam avtomatlaşdırılmışdır.

1.7. Elektron xidmətin icra müddəti:

Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemində emalı müddətindən asılıdır.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:

Xarici ticarət iştirakçıları sərhəd gömrük məntəqələrində onların adına qeydə alınan, lakin rəsmiləşdirilməsi başa çatmayan mallar haqqında məlumatları əldə edirlər.

2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişsiz

2.3. Elektron xidmətin istifadəçiləri:

Azərbaycan Respublikasında qeydə alınmış xarici ticarət iştirakçıları

2.4. Elektron xidmətin təqdim olunma yeri:

2.4.1. http://www.e-gov.az

2.4.2. http://dgk.gov.az/az/e-xidnew.html

2.5. Elektron xidmət barədə məlumatlandırma:

2.5.1. elektron ünvan: http://www.customs.gov.az, www.dxr.az

2.5.2. Elektron poçt: office@ customs.gov.az

2.5.3. Telefon: (+99412) 404-22-00

2.5.4. Çağrı Mərkəzi: "195(6)"

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:

2.6.1. elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər

dövlət qurumlarının informasiya ehtiyatında olduqda:
İnteraktiv xidmətin istifadəçilərinin gücləndirilmiş elektron imzası olmalıdır.

3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:

3.1.1. Sorğunun formalaşdırılması:
Sorğu istifadəçinin gücləndirilmiş elektron imzasında göstərilən VÖEN əsasında avtomatik olaraq formalaşdırılır.

3.1.2. Sorğunun qəbulu:
istifadəçinin gücləndirilmiş elektron imzası əsasında formalaşdırılmış sorğu sistem tərəfindən avtomatik olaraq qəbul edilir.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:
Sorğunun yerinə yetirilməsindən imtina halları nəzərdə tutulmamışdır.

3.3. Sorğunun icrası:
İstifadəçilər real vaxt rejimində elektron xidmət vasitəsilə sərhəd gömrük məntəqələrində onların adına qeydə alınan, lakin rəsmiləşdirilməsi başa çatmayan mallar haqqında məlumatları əldə edirlər.

3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:
Elektron xidmətin göstərilməsinə Komitənin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş idarəsi məsuliyyət daşıyır.

3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:
Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemində emalı müddətindən asılıdır.

3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət qurumu haqqında məlumat:
Yoxdur.

3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilmə

qaydası:
İstifadəçi onlayn müraciət edir və müraciət sistem tərəfindən cavablandırılır.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.4.1. Nəzarət forması

Xidmətin yerinə yetirilməsinə nəzarət informasiya sistemi vasitəsi ilə real-vaxt rejimində həyata keçirilir. Xidmətin göstərilməsi üçün edilən elektron müraciətlərin uçotu və göstərilən xidmətin nəticəsinin qeydiyyatı aparılır.

3.4.2. Nəzarət qaydası.

Elektron xidmətə nəzarət Komitənin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi tərəfindən həyata keçirilir.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət edə bilər.

3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 51-ci maddəsinə uyğun olaraq gömrük orqanlarının, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkətlərindən və ya hərəkətsizliyindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilir.

3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:

Şikayət "inzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

3.5.3. Şikayətin baxılma müddəti:

Şikayətə "inzibati icraat haqqında"Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

**Azərbaycan Respublikası
Dövlət Gömrük Komitəsinin
Kollegiyasının "4" noyabr 2013-cü il
tarixli, "100/03/001" nömrəli qərarı
ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin Bəyannaməsinin qəbulu üzrə inzibati reqlament

1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı:

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin bəyannaməsinin qəbulu.

1.2. Elektron xidmətin məzmunu:

Bu xidmət vasitəsilə fiziki şəxslər Azərbaycan Respublikasına keçirdikləri mallar və nəqliyyat vasitələri, həmçinin valyuta sərvətləri barədə məlumatları gömrük orqanlarına onlayn qaydada təqdim edirlər. Bu xidmət sərhədkeçmə zamanı ləngimə hallarının qarşısını almağa imkan verir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

- Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 300-cü maddəsi;
- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 saylı Fərmanının 2.1-ci hissəsi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "**Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları**" **və** "Elektron xidmət növlərinin Siyahısı"nın 22.3-cü bəndi;

- Milli Bankın İdarə Heyətinin 18 fevral 2008-ci il tarixli qərarı ilə (Protokol №06) təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"nın 2.2-ci bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

1.5. Elektron xidmətin digər icraçıları:

Xidmət bilavasitə Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilir və bu zaman digər qurumlar iştirak etmir. Buna baxmayaraq, xidmətin həyata keçirilməsi məqsədilə «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə sorğu göndərilir.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:

Xidmət tam avtomatlaşdırılmışdır.

1.7. Elektron xidmətin icra müddəti:

Xidmət real-vaxt rejimində həyata keçirilir və xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı vaxtına bərabərdir.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:

Xidmətdən istifadə nəticəsində fiziki şəxslər gömrük bəyannaməsini əldə edirlər.

2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişsizdir

2.3. Elektron xidmətin istifadəçiləri:

Azərbaycan Respublikası gömrük sərhədini keçən fiziki şəxslər

2.4. Elektron xidmətin təqdim olunma yeri:

http://c2b.customs.gov.az/PasDeclarAz.aspx

2.5. Elektron xidmət barədə məlumatlandırma:
http://www.customs.gov.az
http://www.dgk.gov.az/
tel: (99412) 404-22-00
e-poçt: office@customs.gov.az
DGK-nın "192" Çağrı Mərkəzi
2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:
Fiziki şəxslərin pasportunun seriya və nömrəsi
3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar
3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:
3.1.1.Azərbaycan Respublikasının gömrük sərhədlərini keçən fiziki şəxslər bəyan etmək istədikləri mallar və nəqliyyat vasitələri barədə məlumatları DGK-nin rəsmi internet saytı və ya gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılmış elektron köşklər vasitəsilə gömrük orqanlarına real vaxt rejimində təqdim edirlər.
3.1.2. Fiziki şəxslər tərəfindən bəyan edilən məlumatlar sistem vasitəsilə emal edilir, çap olunur və qəbul olunur. Bəyannamə gömrük orqanına təqdim edildiyi andan qəbul edilmiş sayılır.
3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:
3.2.1. Məlumatlar real-zaman rejimində təqdim olunduğu üçün imtina halı istisna olunur. Bəyan edilən məlumatlar fiziki şəxs tərəfindən sistemdə təsdiqləndikdən sonra, bəyannamə çap edilir və gömrük orqanına təqdim olunur.
3.2.2.Gömrük orqanı bəyannamənin qəbulundan imtina edə bilməz.
3.3. Sorğunun icrası:
3.3.1. Xidmətin göstərilməsi zamanı əlavə inzibati əməliyyat həyata keçirilmir. Məlumatlar sistem vasitəsilə təqdim edildikdən sonra bəyannamə bəyan edən şəxs tərəfindən imzası ilə təsdiq edilir, çap olunur və gömrük əməkdaşına təqdim edilir.
3.3.2. Bəyannamə qəbul edildikdən sonra gömrük əməkdaşı tərəfindən yoxlanılır və qəbul edilir.
3.3.3.Əməliyyat zamanı «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə sorğu göndərilir.

3.3.4. Bəyan edilmiş məlumatlar əsasında gömrük qanunvericiliyinə uyğun olaraq müvafiq tədbirlər görülür.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.4.1. Xidmətin yerinə yetirilməsinə nəzarət informasiya sistemi vasitəsi ilə realvaxt rejimində həyata keçirilir. Dövlət Gömrük Komitəsinin internet saytı vasitəsilə həyata keçirilən müraciətlərin uçotu və göstərilən xidmətin nəticəsinin qeydiyyatı aparılır.

3.4.2. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət Dövlət Gömrük Komitəsinin Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi tərəfindən həyata keçirilir.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

Elektron xidmətlərin göstərilməsinə görə Dövlət Gömrük Komitəsinin Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi məsuliyyət daşıyır.

3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 51-ci maddəsinə uyğun olaraq gömrük orqanlarının, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkətlərindən və ya hərəkətsizliyindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilir.

3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:

Şikayət kağız üzərində və ya elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Dövlət Gömrük Komitəsinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən elektron poçt ünvanına göndərilə bilər. Şikayətdə vətəndaşın adı, atasının adı, soyadı, ünvanı və ya poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.

3.5.3. Şikayətin baxılma müddəti:

Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 08.02.2018- ci il tarixdə, 15201801301004 qeydiyyat nömrəsi ilə daxil edilmiş və 09.02.2018- ci il tarixdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının "100/01/004" nömrəli 30.01.2018-ci il tarixli Qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi üzrə inzibati reqlament

1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı:
Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi.
1.2. Elektron xidmətin məzmunu:
Bu xidmət hüquqi və fiziki şəxslər tərəfindən gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin müasir ödəniş mexanizmlərindən istifadə etməklə elektron formada həyata keçirilməsini təmin edir.
1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:
1.3.1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 224-249-cu maddələri;
1.3.2. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası

Prezidentinin 25.02.2011-ci il tarixli 388 nömrəli Fərmanının 3.1 -ci bəndi;

1.3.3. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

1.3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 22.13-cü bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə).

1.5. Elektron xidmətin digər icraçıları:

Bu xidmət Azərbaycan Respublikası Mərkəzi Bankının "Hökumət ödəniş Portalı (HÖP)" ilə birgə həyata keçirilir.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:

Xidmət tam avtomatlaşdırılmışdır.

1.7. Elektron xidmətin icra müddəti:

Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemində emalı müddətindən asılıdır.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:

Şəxslər gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı gömrük ödənişlərini elektron qaydada internet vasitəsi ilə həyata keçirirlər. Xidmətin həyata keçirilməsi nəticəsində vəsait kart sahibinin bank hesabından silinərək müvafiq Xəzinədarlıq orqanında olan büdcə hesabına köçürülür. Aparılmış hər bir əməliyyat üzrə real vaxt rejimində elektron formada Komitəyə məlumat ötürülür.

2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişli:
29 dekabr 2014-cü il tarixli "Hökumət ödəniş portalı ilə əməliyyatların aparılmasına dair kollektiv Saziş"in 4 saylı əlavəsinə uyğun olaraq kart sahibindən aparılmış hər bir əməliyyata görə minimal 0.40 manat, maksimal 15 manat olmaqla ödənilən məbləğin 0.15%-i miqdarında avtomatik rejimdə müvafiq bank idarəsinin xeyrinə xidmət haqqı tutulur.

2.3. Elektron xidmətin istifadəçiləri:
Hüquqi və fiziki şəxslər.

2.4. Elektron xidmətin təqdim olunma yeri:
2.4.1. http://www.e-gov.az
2.4.2. http://dgk.gov.az/az/e-xidnew.html
2.4.3. https://gpp.az/az

2.5. Elektron xidmət barədə məlumatlandırma:
2.5.1. elektron ünvan: http://www.customs.gov.az,_www.dxr.az
2.5.2. Elektron poçt: office@ customs.gov.az
2.5.3. Telefon: (+99412) 404-22-00
2.5.4. Çağrı Mərkəzi: "195(6)"

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:

2.6.1. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət qurumlarının informasiya ehtiyatında olduqda:
2.6.1.1. Ödənişin xarakterinə uyğun olaraq şəxsin VÖEN-i (GÖÖEN-i), gömrük bəyannaməsinin sorğu nömrəsi, cərimə üzrə qərarın nömrəsi və ya nəqliyyatın qeydiyyat kodu.
2.6.1.2. Ödəniş kartının məlumatları (nömrəsi, qüvvədə olma tarixi, mühafizə kodu, növü).

3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:
3.1.1. Sorğunun formalaşdırılması: İstifadəçi bu reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanına daxil olaraq gömrük əməliyyatlarına və ya gömrük proseduruna görə ödənişlərin həyata keçirilməsi xidmətini seçir və açılan pəncərədə ödənişin xarakterinə uyğun olaraq şəxsin VÖEN-i (GÖÖEN-i), gömrük bəyannaməsinin

sorğu nömrəsi, cərimə üzrə qərarın nömrəsi, nəqliyyatın qeydiyyat kodu qrafalarından birini doldurur, təhlükəsizlik kodunu daxil edir və "Axtar" düyməsini sıxır. Açılan növbəti səhifədə ekrana şəxsin gömrük əməliyyatları üzrə həmin tarixə olan borcu barədə məlumat çıxır. Şəxs ödəniş kartının nömrəsinin ilk 6 rəqəmini yığaraq "Ödəniş" və ya "Tam ödəniş" düymələrindən birini sıxır, açılan yeni pəncərədə ödəniş kartının məlumatlarını (nömrəsi, qüvvədə olma tarixi, mühafizə kodu, növü) müvafiq xanalara daxil edir və əməliyyatı təsdiqləmək üçün "Təsdiq" düyməsi sıxır. Daxil edilmiş məlumatlarda kənarlaşma olmadıqda "Ödəniş müvəffəqiyyətlə başa çatdı" xəbərdarlıq məlumatı verilir. Son mərhələdə ekrana aparılmış ödəniş üzrə Mədaxil qəbzi çıxarılır. İstifadəçi qəbzi çap edə və yaxud elektron poçt ünvanına istiqamətləndirə bilər.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:

İstifadəçi, ödəniş üzrə məlumatları və ya ödəmə kartının rekvizitlərini daxil etmədikdə və ya səhv daxil etdikdə sorğu qəbul olunmur. Şəxsin hesabında ödəniş üçün kifayət qədər vəsait olmadıqda sistem tərəfindən bu barədə ödəyiciyə müvafiq xəbərdarlıq edilir və sorğu yerinə yetirilmir. Sorğunun yerinə yetirilməsindən imtina istifadəçinin yenidən sorğu verməsinə mane olmur.

3.2.2. Sorğunun qəbulu:

istifadəçi tərəfindən ödəniş üzrə məlumatlar və ödəmə kartının rekvizitləri düzgün daxil edildikdə sorğu qəbul olunur və şəxsin hesabında ödəniş üçün kifayət qədər vəsait olduqda ödəniş həyata keçirilir.

3.3. Sorğunun icrası:

Xidmət tam avtomatlaşdırıldığından heç bir inzibati əməliyyat mövcud deyil.

3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:

Elektron xidmətin göstərilməsinə Komitənin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi məsuliyyət daşıyır.

3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:

Daxil edilən məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq elektron xidmət yerinə yetirilir.

3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət qurumu haqqında məlumat:

Yoxdur.

3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilmə qaydası:

Xidmətin həyata keçirilməsi nəticəsində vəsait kart sahibinin bank hesabından silinərək müvafiq Xəzinədarlıq orqanında olan büdcə hesabına köçürülür. Aparılmış hər bir əməliyyat üzrə real vaxt rejimində elektron formada Komitəyə məlumat ötürülür

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.4.1. Nəzarət forması

Xidmətin yerinə yetirilməsinə nəzarət Komitənin informasiya sistemi vasitəsi ilə real-vaxt rejimində həyata keçirilir. Xidmətin göstərilməsi üçün edilən elektron müraciətlərin uçotu və göstərilən xidmətin nəticəsinin qeydiyyatı aparılır.

3.4.2. Nəzarət qaydası.

Elektron xidmətin göstərilməsinə nəzarət Komitənin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş idarəsi tərəfindən həyata keçirilir.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

istifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.

3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 51-ci maddəsinə uyğun olaraq gömrük orqanlarının, onların vəzifəli şəxslərinin

qərarlarından, hərəkətlərindən və ya hərəkətsizliyindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilir.

3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: Şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

3.5.3. Şikayətin baxılma müddəti:

Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının gömrük məcəlləsi.Bakı, 24 iyun 2011-ci il.
2.“Xarici ticarətin gömrük statistikasının nəşr olunması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 92№-li qərarı
3. “Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri”də dəyişikliklər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 avqust 2017-ci il tarixli **327** nömrəli Qərarı (“Xalq” qəzeti, 12 avqust 2017-ci il, № 174)
4. “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli, 80 saylı qərarı.
5. “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında” AR Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 saylı qərarına dəyişiklik edilməsi barədə AR NK-nın 22 dekabr 2003-cü il tarixli 161 saylı Qərarı.
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilməsi barədə AR NK-nın 20 aprel 2004-cü il tarixli 58 saylı Qərarı
7. Əliyev A.Ə. “Azərbaycanın xarici ticarət-iqtisadi əlaqəsi”.Bakı - “Ozan”, 2001.
8. Əliyev Ə.B.Ekonometrika, Dərslik, Bakı:Təhsil NPM, 380 s.
9. Əliyev A.H. Riyazi proqramlaşdırma. Bakı, 2007
10. Heydərov K.F. “Gömrük işinin əsasları, gömrük işinin təşkili və texnologiyası”, 1-ci cild Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1998.
11. Heydərov K.F. “Gömrük işinin əsasları, gömrük orqanlarının iqtisadi fəaliyyəti”, 2-ci cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 1999.

12. Heydərov K.F. "Gömrük işinin Əsasları, gömrük orqanlarının hüquq - mühafizə fəaliyyəti", 3-cü cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 2000.
13. Heydərov K.F. "Gömrük işinin əsasları" gömrük işinin idarə edilməsi və inkişafı, 4-cü cild Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 2000.
14. Heydərov K.F. İbrahimov T.T. "Gömrük işi-iqtisadi suverenlik və təhlükəsizlik", Bakı, 1999.
15. Nuriyev C., Əliyev Z., İsmayılov G. "Gömrük statistikası", Dərs vəsaiti. "Qanun" nəşriyyatı, Bakı, 2000.
16. Nuriyev C.Q. "Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi". Qanun, Bakı, 2000.
17. Nuriyev C.Q., Şəkərəliyev A.Ş., Əliyev A.Ə., Əhmədov S.T. "Gömrük ekspertizası". Bakı. "Qanun" – 2003.
18. Heydərov K..F. Gömrük işinin əsasları. Dərslik. Bakı-2004.
19. Hedərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. Gömrük rəsmiləşdirilməsi. Dərslik. Bakı-2006
20. Hacızalov Y. Kərimova Y. Hüseynova L.Ekonometrika: nəzəriyyə və praktikum. Ali məktəblər üçün dərslik, Bakı: 2012, 439 s.
21. Feyzullabəyli İ.Ə., İbişov E.İ.., İsrafilov H.A. "Beynəlxalq ticarət işi". Dərslik. Bakı 2001.
22. Yaqubov S.M.Əhali statistikası. Dərs vəsaiti, ADİU nəşriyyatı, Bakı 2002, 12.5 ç.v.
23. Yaqubov S.M.Maliyyə və bank statistikası. Dərs vəsaiti, ADİU nəşriyyatı, Bakı 2006, 10.5 ç.v.
24. Yaqubov S.M.Sosial-iqtisadi statistika. Dərslik, ADİU nəşriyyatı, Bakı 2011, 25 ç.v.
25.Yaqubov S.M. Statistika.Dərslik,ADİU nəşriyyatı,Bakı 2015,37ç.v.
26. Yadigarov T.A. Orucov A,S, "Nəqliyyatın ekonometrikası" fənnindən mühazirə. Dərs vəsaiti Bakı: ADDA-nın nəşriyyatı, 2014, 115 s.
27. Yadigarov T.A. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Monoqrafiya Bakı, «Avropa» nəşriyyatı, Bakı- 2018,-350 səh
28. Yadigarov T.A "Əməliyyatlar tədqiqi və ekomometrik məsələlərin MS Excel və EViews tətbiqi proqram paketlərində

həlli:nəzəriyyə və praktika" Monoqrafiya Bakı, «Avropa» nəşriyyatı, Bakı-2019,-352 səh
29. Yadigarov T.A., Orucov A,S, Ekonometrika. Dərs vəsaiti Bakı: AD-DA-nın nəşriyyatı, Bakı-2013, 168 s.
30. Yadigarov T.A., Orucov A.S. İqtisadi təhlil və audit Dərs vəsaiti Bakı:ADDA-nın nəşriyyatı, Bakı-2013, 193 s.
31.Yadigarov T.A. Orucov A.S., Nəqliyyatın ekonometriyası .Dərs vəsaiti ADDA nəşriyyatı, Bakı- 2014, 115 s
32. İmanov Q., Həsənli Y. Azərbaycanın sosial-iqtisadi inkişaf modelləri, makroiqtisadi təhli. Bakı: 2001, 248 səh.
33. Ismayılov E.Ə. İqtisadi informatika (ali məktəblər üçün dərs vəsaiti).176 s., Bakı, 2017, CBS
34. Musayev A.F., Osmanov Y.Q. Riyazi iqtisadiyyat. Bakı1997.
35. Musayev A.F.,QəhrəmanovA.T.İqtisadiyyatda riyazi modelləşdirmə və proqramlaşdırma, Bakı: Sabah, 1999, 452 s,
36. Musayev A.F. Osmanov Y.Q. Riyazi iqtisadiyyat, Bakı: 1997, 294 s.
37. Həsənli Y.H. Ekonometrikaya giriş. Dərslik Bakı, 2008, səh. 236.
38. Malixin V.İ,.İqtisadiyyatda riyaziyyat/ADİU-da tərcümə olunmuş dərsliklər, Bakı: 2008, 473 s.
39. Малик Г.С. Основы экономики и математические методы в планировании. М., 1988.
40. Орлова И.В. Экономико-математические методы и модели. Выполнение расчетов в среде EXCEL./ Практикум. Учебное пособие для вузов. Москва: ЗАО «Финстатинформ», 2000.
41. Кобелев Н.Б. Практика применения экономико-математических методов и моделей. /Учеб.,практ. пособие. - Москва: ЗАО «Финстатинформ», 2000.
42. Трояновский В.М. Математическое моделирование в менеджменте. /Учебное пособие. 2-е изд., исп. и доп.-М.: РДЛ, 2000.
43.Чавкин А.М. Методы и модели рационального управления, в рыночной экономике: разработка управленческих решений. М., 2001.
44. Общий курс высшей математики для экономистов. М., 2001.
45. Бережная Е.В., Бережной В.И. Математические методы моделирования экономических систем. М., 2001.

46. Бородич С.А. Эконометрика / С.А.Бородич. Минск : Новое знание, 2006. 416 с.
47. Кремер Н.Ш. Эконометрика. Учебник для студентов вузов / Н.Ш. Кремер, Б.А.Путко. М.,Юнити,2010.328 с.
48. Иванова С.С. Эконометрика /С.С.Иванова. М.:Маркет ДС, 2010. 104 с.
49. Катышев П.К. Эконометрика.Начальный курс / П.К. М. : 2007. 368 с.
50. Орлов А.И.Эконометрика/А.И.Орлов. М.: Феникс,2009. 572 с.
51. Ершов А.Д., Копанева П. С. Информационное обеспечение в таможенной системе: Монография. СПб.: Знание, 2002. 232 с.
52. Малышенко Ю.В. Информационные технологии в таможенном деле: Учеб. пособие: В 2 ч. Ч. 1. Владивосток: ВФ РТА, 2003. 265 с
53. Проектирование экономических информационных систем: Учеб. / Г.Н. Смирнова, А. А. Сорокин, Ю.Ф. Тельнов; Под ред. Ю.Ф. Тельнова. М.: Финансы и статистика, 2001. 512 с.
54. Gujarati D.N. Essentials of Econometrics D.N.Gujarati, D.Porter. 4th edition, McGraw-Hill/Irwin, 2009. 576 p.
55. Dougherty C. Introduction to Econometrics 4th edition, Oxford University Press, 2011, 512 p.
56. Studenmund A.H. Using Econometrics: A Practical Guide 6th edition, Addison-Wesley, 2010, 648 p.
57. Gujarati D.N. Econometrics by Example. Palgrave Macmillan, 2011, 320 p.
58. Ashenfelter O., Levine P.B., Zimmerman D.J. Statistics and Econometrics: Methods and Applications. Wiley, 2006, 320 p.
59. Stock J.H., Watson M. W. Introduction to Econometrics. 3rd edition, Addison-Wesley, 2010, 840 p.
60. Clements M.P., D.F.Hendry, ''Forecasting Economic Time Series"; Cambridge Un.Prs., Cambridge ,1998.
61. Dhrymes P., "Time Series, Unit Roots and Cointegration" Academic Press, New York, 1998.
62. Doomik J.A., D.F.Hendry, "Empirical Econometric Modelling Using Pc Give"; Timberlank Cons., London,1999.
63. Eviews9 Command and Programming Reference, USA-2016

64. EViews9, User's Guide, USA-2016
65. Greene, William H. Econometric Analysis, 6th Edition, Upper Saddle Rive, NJ: Prentice- Hall. (2008).
66. Muklierjee C.,H.White, M.Wuyts, ''Econometrics and Data Analysis For Developing Countries"; Routledge, London, 1998.
67. Pesaran M.H. and Shin, Y. "An Autoregressive Distributed Lag Modelling Approach to Cointegration Analysis." Econometrics and Economic Theory in the 20th Century: The Ragnar Frisch Centennial Symposium, Strom, S. (ed.) Cambridge University Press. (1999).
68. Pesaran, M.H., Shin, Y. and Smith, R. "Bounds Testing Approaches to the Analysis of Level Relationships." Journal of Applied Econometrics, 16, 289-326. (2001).

İnternet səhifələri.

69. WWW.stat.gov.az
70. WWW.economy.qov.az
71.WWW.respublika.news.az
72. http://stats. Unctad.org/fleetownership.
73. WWW. Worldbank. Orq.
74. WWW. seagoning. ru
75. WWW.portguide.com
76. WWW.seaging.ru
77. WWW.baki sea port
78. WWW.mglobal.com
79. WWW.ADDA.edu.az
80.WWW.eurogate.de
81. https://customs.gov.az/
82.WWW.president.az

Qeyd üçün

Qeyd üçün

Nəşriyyatın direktoru: Şöhrət SƏLİMBƏYLİ
Texniki redaktor: Mail XƏLİLOV

TƏBRİZ ABDULLA OĞLU YADİGAROV

GÖMRÜK STATİSTİKASI VƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARI

Bakı – 2020

Kitab **"AVROPA"** nəşriyyatında hazır diapozitivlərdən ofset üsülu ilə çap olunmuşdur

Yığılmağa verilmişdir: 26.02.2020
Çapa imzalanmışdır: 26.03.2020
Qarnitura: Palatino Linc
Şərti çap vərəqi: 35,0
Formatı: 64x88 1/16
Tiraj 300



Yadigarov Təbriz Abdulla oğlu

01 iyun 1965- ci ildə Gürcüstan Respublikası, Qaraçöp mahalının Ləmbəli kəndində anadan olmuşdur. 1982 - ci ildə Ləmbəli kənd orta məktəbini qızıl medalla, 1989 - cu ildə isə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya Institutunun mühəndis-iqtisadiyyat fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1989-2013-cü illərdə SOCAR-ın struktur idarələrində və digər müəssisələrdə iqtisadiyyat və maliyyə sahələri üzrə müxtəlif vəzifələrdə, 2013-2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında müəllim işləmişdir. 2016-cı ildən AMEA İqtisadiyyat Institutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin böyük elmi işçisi, iqtisad elmləri üzrə fəlsəfə doktorudur. ARDGKA-da "Gömrük statistikası və informasiya texnologiyaları" və "Ekonometrika" fənlərini tədris edir. Onun 2013-2019-ci illər üzrə 58 elmi-metodiki işləri, o cümlədən 4 dərsliyi, 8 fənn proqramı və 2 monoqrafiyası çap edilmişdir. Bu işlərin 16-i xarici dövlətlərin müxtəlif elmi jurnallarında çapdan çıxmışdır. Ailəlidir. İki övladı var.